
QƏZƏNFƏR PAŞAYEV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

YEDDİ CİLDDƏ

I CİLD

BAKI–2012



Elm əvvəli görünən, sonu görünməyən bir aləmdir. Bu aləmdə hərə bir yolla gedir. Hərə bir nəticəyə gəlir. Yenilik görülmüş işlərin sayəsində yaranır.

QƏZƏNFƏR PAŞAYEV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

YEDDİ CİLDDƏ

I CİLD

«TƏHSİL»
BAKI–2012

Redaktorlar: **Azad Nəbiyev,**
professor, AMEA-nın müxbir üzvü
***Dr.* Əbdüllətif Bəndəroğlu**

Ayaz Vəfalı,
şair-alim

Rəyçilər: **Paşa Əfəndiyev,**
professor

Vaqif Yusifli,
filologiya elmləri doktoru

***Dr.*Şəmsəddin Kuzəçi**

Paşayev Qəzənfər
P 26 Seçilmiş əsərləri. I cild
Bakı, «Təhsil», 2012, 568 səh.

Filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin «Seçilmiş əsərləri»nin I cildinə müəllifin «İraq–Türkman folkloru» (Bakı, «Yazıçı», 1992, Bağdad, 1995) və «Altı il Dəclə–Fərat sahillərində» (Bakı, 1985, təkrar nəşr 1987; Bağdad, 1996 – ərəbcə) əsərləri daxil edilmişdir.

P $\frac{4702060204}{053}$ 2012

© «Təhsil», 2012

MÜƏLLİFDƏN

Ömrün yarpaqtökən çağı o qədər də ürəkaçan deyilmiş. İllərlə dostluq etdiyin insanların, qohumların itkisi, nisgili, qocalığın təəssüfü adama rahatlıq vermir. Get-gedə ömrə ümidi azalan yaradıcı adam təsəllini qoyub gedəcəyi əsərlərdə tapır. Odur ki, 75 yaşımın tamam olduğu 2012-ci ildə «Seçilmiş əsərlər»imi 50 ildən artıq mənalı ünsiyyətdə olduğum oxuculara və tədqiqatçılara ərməğan etməyə tələsdim. «Seçilmiş əsərlər»imin yarısında «Bilmirəm haralıyam, torpağım, daşım qərib» deyən, ah-nalə çəkən:

Yad əlində;
Qalmışıq yad əlində.
Bir ölkə viran olsun,
Qalmasın yad əlində

deyərək fəryad qoparan, İraqda məskən salan, Türkman adlandırılan, azəri türkcəsində danışan qardaş-bacılarımızın folkloru, adət-ənənəsi, məişəti, ləhcəsi və ədəbiyyatından, onu yaradıb-yaşadanlardan bəhs edilir. Burada «Dilimiz-varlığımız» adlı monoqrafiyam da yer alır. «Seçilmiş əsərlər»imin iki cildi bütövlükdə ədəbiyyatşünaslıq elmimizə, «Sevərək yaşayanlar» başlığı altında görkəmli elm xadimlərinə, «Borcumuzdur bu ehtiram» əsərim dünyasını dəyişmiş, xalq qarşısında əlahiddə xidmətləri olan şəxsiyyətlərə, folklorumuza, aşıq yaradıcılığına, orijinaldan tərcümə problemlərinə və s. həsr olunub. «Seçilmiş əsərlər»in bir cildi bütövlükdə ingilis dilindən tərcümə etdiyim elmi və bədii kitabları əhatə edir. Onu da deyim ki, «Seçilmiş əsərlər»imin arasında mətbuatda çap olunmayan bir əsərə, bir məqaləyə belə təsadüf edilmir. Onlar mətbuatda necə çıxıbsa, eləcə də təqdim edilir.

«Seçilmiş əsərlər»in bir cildində ingilis dilindən tərcümə etdiyim elmi və elmi-publisistik məqalələr, rəsmi opponent rəyləri, məktublar, müsahibələr, «Deyilən söz yadigardır» başlığı altında radio, televiziya və müxtəlif tədbirlərdə etdiyim

çıxışlarım yer alır. Sonuncu cild xaricdə ingiliscə çıxan məqalələrimi, ingiliscə «Ölkəşünaslıq» fənnindən dərs vəsaitimi (70-ci illərdə Dillər İnstitutunda, ilk dəfə olaraq bu fənni tədris planına saldırmış, mühazirələr oxumuş, seminarlar aparmışdım), rusca məqalələrimi, rusca «İraq–Türkman folklorunun janrlar sistemi» monoqrafiyamı və s. əhatə edir.

Müxtəlif vaxtlarda və müxtəlif məqamlarda yazılmış yazılarımda müəyyən təkrarlar özünü göstərir. Onlar mətbuatda necə çıxıbsa, eləcə də təqdim edildiyindən güman edirəm oxucular buna görə məni ittiham etməzlər.

Qoy hörmətli oxucular və qələm sahibləri cildlərdə redaktorların və rəyçilərin çoxluğuna görə məni qınamasınlar. Bu, cildlərdə yer alan əsərlərin sayı ilə bağlıdır. Elə götürək I cildi. «İraq–Türkman folkloru» monoqrafiyamın redaktoru professor Azad Nəbiyev və Əbdüllətif Bəndəroğludur. «Altı il Dəclə–Fərat sahillərində» kitabımın redaktoru isə Ayaz Vəfalıdır.

«Seçilmiş əsərlər»imi vərəqlədikcə, görülən işlərin miqyasına vardıqca qədim Çin mütəfəkkiri Konfutsinin kəlamı qəlbimə hakim kəsildi: «Elm, bilik elə bir həzz mənbəyidir ki, o, insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir».

Bu, həqiqətən də, belədir. Eyni zamanda məlum bir həqiqət də vardır. Elm, bilik insanı yazıb-yaratmağa ruhlandırır. Yaradıcı adam dərk edir ki, dahi Səməd Vurğunun «Deyilən söz yadigardır» kəlamında böyük bir hikmət vardır. Elə bu səbəbdən də gələcək nəsillərə gərəkli ola biləcəyini düşünərək «Seçilmiş əsərlər»imi yadigar qoymağa qərar verdim.

Qəzənfər Paşayev
10 yanvar 2012-ci il

QƏZƏNFƏR PAŞAYEV

İRAQ–TÜRKMAN FOLKLORU

BAKI– «YAZIÇI» – 1992

Elmi redaktorları: **Azad Nəbiyev,**
professor
Dr. Əbdüllətif Bəndəroğlu

Rəyçi: **Paşa Əfəndiyev,**
professor

P 26 Paşayev Qəzənfər
İraq–Türkman folkloru. Bakı, «Yazıçı», 1992, 290 səh.

Xalqın ən böyük milli sərvəti onun folklorudur. Əsatir və bayatıda, nağıl və dastanda əbədiləşən, canlı yaddaşa çevrilən, heç kəsin soyunu, əslini, zatını unutmağa qoymayan, şüurda, düşüncədə, mənəviyyatda xalqın bütövlüyünü təmin edən folklordur.

Bu baxımdan, müəyyən ictimai-siyasi səbəblər üzündən soykökündən ayrı düşmüş, İraqın şimalında, əsasən, Kərkük vilayətində toplu halda yaşayan, Azərbaycanca danışan elatın folkloru xüsusi əhəmiyyət kəsb edir.

Canlı bir dildə, elmi-kütləvi şəkildə yazılmış bu əsərdə İraq – Türkman folkloru, ilk dəfə olaraq sistemli monoqrafik təhlildən keçirilir, onun epik, lirik, arxaik janr və növləri ətraflı tədqiq olunur, əhəmiyyətli, səciyyəvi xüsusiyyətlər üzə çıxarılır.

ŞAH ƏSƏR

Hər bir xalqın folkloru o xalqın güzgüsüdür. O güzgüdə xalqın tarixi, dili, inancı, inanışı, adət və ənənələri görünür. Bir xalqı eyicə anlamaq üçün o xalqın, hər şeydən əvvəl, folklorunu öyrənmək gərəkdir. Qardaşımız Qəzənfər Paşayev İraqda yaşadığı uzun illər boyunca həm İraq xalqını yaxından tanıdı, həm də İraqda yaşayan – qonuşduqları dilin Azərbaycan dilindən fərqli olmayan İraq türkmanlarının ədəbiyyat və folkloru üzrə tədqiqatını davam etdirdi. İraq türkmanlarının folklorunu azərbaycanlı qardaşlarımıza çatdırmaq üçün tədqiqatçı alim, folklorşünas Qəzənfər Paşayev böyük çətinliklərə qatlandı. Yorğunluq bilmədən yaradıcılığını sürdürdü. Gözəl və unudulmayan əsərlər ortaya atdı. Qəzənfər Paşayevin İraq türkmanları ilə əlaqəli çap etdirdiyi qiymətli folklor kitabları, Oğuz köküdən və soyundan olan azərbaycanlılarla İraq türkmanlarının nə qədər bir-birilərinə dil və folklor baxımından bağlı olduqlarını – yüzillər boyunca zamanın qopartdığı qanlı və dumanlı qasırğalara baxmayaraq, gənə də dədə mirasına, Dədə Qorquda, əzabkeş Nəsimiyə, Kərbəlanın müqəddəs torpağında uyuyan böyük Füzuliyə olan bağlılıqlarını göstərmək üçün ölümsüz bir tarixdir. Bu gerçək tarixi bizdən sonra gələn nəsillər oxuduqca öz xalqlarına, dillərinə, tarixlərinə, adət-ənənələrinə, milli miraslarına, doğma torpağın müqəddəsliyinə sayğılarını artıracaqlar.

Qəzənfər Paşayevin «İraq–Türkman folkloru» kitabına bənzər bir kitab indiyə qədər nə İraq türkmanları tərəfindən, nə də İraq türkmanlarının folkloru ilə məşğul olan xarici alim və tədqiqatçılar tərəfindən yazılmışdır.

Qəzənfərin yazdığı bu əsər bizim üçün, yəni İraq türkmanları üçün sevgi və sevinc doğuran, könüllərdə yaşayıb-unudulmayan, işıqlarla dolu bir hadisə kimi qalacaqdır. Bu əsər bizim folklor araşdırıcılarımızın yollarını işıqlandırmaq, aydınlandırmaq və yeni bir metodla, yeni tədqiqatlar aparmaq sahəsində doğru və düzgün bir yol olacaqdır. Ağlasığmayan yorğunluqların məhsulu olan bu misilsiz əsəri İraq türkmanları arasında folklor çərçivəsində bir şah əsər kimi qiymətləndirmək daha doğrudur. Bu günə qədər bizdə – İraq türkmanlarında, Türkiyədə və Azərbaycanda folklorumuzun bu biçimdə tədqiqi, incələnməsi və araşdırılması olmamışdır. Əlimizdə bulunan bütün kitablar – bir neçəsi istisna olunmaqla toplama yöntəmindən çıxmamışdır.

Redaktorluğunu yapdığım bu Şah əsərin işıqlarını gözümün işıqları ilə Azərbaycandan İraq və İraq türkmanlarına çatdırmaqla özümü xoşbəxt sayacağam.

Əbdüllətif Bəndəroğlu,
İraq–Türkman tədqiqatçısı
Bakı, 28. 10. 1991-ci il

GİRİŞ

Xalqın ən böyük milli sərvəti onun folklorudur. Bir az da dərinə getsək, çəkinmədən deyə bilərik ki, folklor sözün həqiqi mənasında xalqın ruhu, psixologiyası, tarixidir. Onun istək və arzularının, təsəvvür və təfəkkürünün, mənəvi aləminin güzgüsü, tükənməz incilər xəzinəsidir. Hələ bu, az imiş kimi, «folklor Şərq müdriklərinə öz sərrastlığı və dəqiqliyi ilə seçilən elə bir hikmət bəxş etmişdir ki, eşidənlər bir yandan mat qalır, digər tərəfdən də onlara pərəstiş edirlər» (174, 18).*

Folkloru bilmədən xalqın psixologiyasını, onun əsl tarixini dərk etmək, anlamaq çətin olur.

Professor Yaşar Qarayevin haqlı olaraq qeyd etdiyi kimi, əsatir və bayatıda, nağıl və dastanda əbədiləşən, canlı yaddaşa çevrilən, heç kəsin soyunu, əslini, zatını unutmağa qoymayan, onu parçalanmaqdan xilas edən, şüurda, düşüncədə, mənəviyyatda xalqın bütövlüyünü təmin edən də folklordur (51, 3–4).

Bu baxımdan, müəyyən ictimai-siyasi səbəblər üzündən soykökündən ayrı düşmüş, təcrid olunaraq başqa xalqlar əhatəsində, İraqda, əsasən, Kərkük vilayətində toplu halında yaşayan, 60-cı illərdə sayı 600 min (116, 60), indi isə bir milyona yaxın olan elatın – Azərbaycanca danışan xalqın folkloru xüsusi əhəmiyyət kəsb edir.

Başda Böyük Sovet Ensiklopediyası (178, 277), Sovet Ensiklopediya lüğəti olmaqla sovet və əcnəbi mənbələr İraqda azərbaycanlıların yaşadığını və hələ XX əsrin əvvəlində saylarının 100 mindən artıq olduğunu göstərirlər.

Görkəmli türkoloq Karl Menqes «Türk dilləri və türk xalqları» kitabında yazır: «Azərbaycanlılar, həmçinin İraqın şimalında da yaşayırlar. Sayları 100 mindən artıqdır» (218, 12–13).

---

* Çıxarışlar kitabın sonunda «Qaynaqlar»da verilmişdir. Göstərilən qaynaqlar bir-birindən nöqtəli vergüllə, səhifələrdən isə vergüllə ayrılmışdır.

Maraqlıdır ki, onlar keçmişdə olduğu kimi, özlərini də, bizi də «türkman» adlandırırlar (136, 6). Həqiqət naminə demək vacibdir ki, Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər dövründə və sonralar da geniş mənada işlənən, tərəkəmə sözünün cəmindən əmələ gələn «türkman» etnonimi indiki mənadan fərqlənir. Məhz buna görədir ki, professor, Ə.Dəmirçizadə «Azəri ədəbi dili tarixi» kitabında yazmışdır: «O dövrlərdə «türkman» etnonimi indiki mənadan bir qədər fərqli işlənmiş, hətta indiki Bağdad ətrafındakı azərilərin türkmən adlanmaları da bu sözün əvvəlki mənası ilə əlaqədardır» (55, 72).

Qeyd etmək lazımdır ki, onların Orta Asiya türkmənləri ilə elə bir əlaqəsi yoxdur. Türkmən dilini səciyyələndirən əsaslı fərqlər vardır. Məsələn, türkmən dilində ilkin uzanan saitlər (baş-baş; baaş-yara; qör-gör; qöör-gor və s.) geniş yayıldığı halda, bu xüsusiyyətə nə Azərbaycan dilində, nə də Kərkük dialektində rast gəlinmir. Ərəb və ingilis dillərində yer alan dişarası s, z səslərinə Türkmən dilində təsadüf edildiyi halda, bu səslər nə Azərbaycan dilində, nə də Kərkük dialektində müşahidə edilir. Türkmən dilində g samiti olmadığı halda, Azərbaycan dilində də, Kərkük dialektində də bu səs geniş yayılmışdır. İndiki, keçmiş və gələcək zaman şəkilçilərində və bir çox başqa xüsusiyyətlərdə də Türkmən dili tamamilə fərqlənir (111, 14–16, 32).

Azərbaycan dili və Kərkük dialektini türk dilindən fərqləndirən cəhətlər də vardır. Təkcə onu demək kifayətdir ki, Azərbaycan dili və Kərkük dialektində geniş yayılan ğ, x (xına, xanım və s.) səslərinə türk dilində təsadüf edilmir (113, 6; 129, 12–13).

İraq–Türkman dialektinə və folkloruna az-çox bələd olan türk, Azərbaycan və iraqlı alimlər bu elatın Azərbaycanca danışdığını və folklorunun fərqlənmədiyini qeyd edirlər (105; 84, 56–66; 113, 64–68). Məsələn: «İraq türkmanları, yəni oğuzcanın azəri ləhcəsini qonuşan türklər» – deyə türk alimi Fuad Köprülü qəti qənaətə gəlir.

Bu baxımdan, kərküklü tədqiqatçı Əta Tərzibaşının da fikri böyük əhəmiyyət kəsb edir: «Bizim Türkman ləhcəsi azəri ləhcəsinə türk ləhcəsindən daha yaxın, bəlkə, əkiz qardaşlar olmaqla bərabər, bütün bu ləhcələr uzun bir tarix boyunca çeşidli səbəblərin təsiri ilə biri-birindən xəbərsiz olaraq gəlişdikləri halda, aralarında görkəmli fərqlər bilinməmişdir» (52a, 26).

Azərbaycan dili tarixi üzrə görkəmli mütəxəssis, professor Hadı Mirzəzadə də eynilə bu fikirdədir (99, 86–96).

Elə təsəvvür yaranmasın ki, məqsədimiz dillərin yaxınlığı və ya uzaqlığını sübuta yetirməkdir. Kim bilmir ki, Türk dilləri ailəsində türk və Azərbaycan dilləri qədər bir-birinə yaxın olanı yoxdur?!

O ki qaldı Türkman folkloruna, demək vacibdir ki, həm türk, həm Türkman, həm də Azərbaycan alimləri onun Azərbaycan folklorundan fərqlənmədiyini, Azərbaycan folklorunun qüdrətli qolu olduğunu qeyd edirlər (114, 3–26; 43, 147–152). Kitabın ayrı-ayrı fəsillərində bu barədə ətraflı danışmışıq. Burada bir-iki misalla kifayətlənəcəyik:

«Kərkükdə qarşımıza çıxan çox rəngli folklor və xalq ədəbiyyatı məlzəmələrinin bir qismini bu kitabda topladıq… Verdiyimiz örnəklər incələnərsə, Kərkük ağzının, azəri türkcəsinin motivlərini daşıdığı qolaylıqla anlaşılır. İstər Quzey Azərbaycan, istər Güney Azərbaycan olsun, bu bölmələrdəki azərilərin kultur veriləri incələnərsə, Kərkükdəki sözlü ədəbiyyat örnəklərinin də eyni qaynaqdan bəslənmiş olduqları kəndilərindən anlaşılır. Laylalardan tutub ta tapmaca və matallara qədər bu birlik və bərabərliyi görmək mümkündür» (129,11,13–14).

Azərbaycan alimi, professor M.H.Təhmasib isə Türkman folkloru ilə tanışlıqdan sonra yazmışdır: «...Kərküklülərlə azərilər arasında heç bir fərq yoxdur, yaxud da çox cüzidir» (139, 203).

Bir çox türk alim və yazarları da eyni fikirdədirlər (84a, 56–66; 846, 140–147; 113, 64–68).

Belə olan halda Türkman folklorunu ayrıca tədqiq etməyə ehtiyac varmı? Tərəddüd etmədən buna böyük ehtiyac olduğunu qeyd etmək yerində olardı. Ona görə ki, XVI əsrə qədər Kərkük Azərbaycanın təbəəliyində olmuş və bu səbəbdən də «İraqda XVI yüzilə qədər ortaya çıxan türkcə ədəbi örənlərin azəri türkcəsində olduğu görülmüşdür» (129, 14). Lakin 1534-cü ildə Osmanlılar Bağdadı tutandan sonra Kərkük bir çox şəhərlər arasında Osmanlı idarəsinə keçmiş, amma 1623–1638-ci illər arası, Şah Abbasın vaxtında yenidən Səfəvi idarəsinə bağlanmış, 1638-ci ildə yenidən Osmanlılar idarəsində olmuş (168, 85; 111, 10–12; 113; 59), 1732-ci ildən 1743-cü ilə qədər yenidən gah osmanlıların, gah azərbaycanlıların təbəəliyində olmuş, 1743–1746-cı illərdə tamamilə Azərbaycanın əlində olsa da (209, 590), bundan sonra ingilis tarixçisi Stefan Lonqriqin təbirincə desək, Bağdad, Mosul, Kərkük və s. şəhərlər birdəfəlik xan itirib, paşa qazanmışdı (217, 20).

Bununla belə, yazı dili Türkiyə türkcəsi kimi qəbul olunsa da, danışıq dili və folkloru azəri türkcəsini təmsil etmişdir.

Göründüyü kimi, əsrlərlə öz soy-kökundən ayrı düşmüş bu elatın folklorunun hərtərəfli öyrənilməsinə zərurət böyükdür.

Azərbaycan dili tarixinin və folklorunun tam və əhatəli öyrənilməsində Türkman folklorunun qiyməti ölçüyəgəlməzdir.

Türkman folkloru və ya Kərkük folkloru mg dialekti dedikdə İraqda toplu halında yaşayan bütün türkmanların danışığı və şifahi xalq ədəbiyyatı nəzərdə tutulur. Necə ki, Bakı dialekti dedikdə Bakı şəhəri və ətraf qəsəbə və kəndlərdə yaşayan əhalinin danışığı, Dərbənd folkloru dedikdə isə Dərbənd şəhəri ilə bərabər, Dərbənd ətrafında yaşayan bütün azərbaycanlıların folkloru nəzərdə tutulur.

Türkman folklorunun toplanması, nəşri və qismən də tədqiqinə XX əsrin 50-ci illərindən başlanmışdır. Xalqın əsrlərlə yaradıb nəsildən-nəslə töhfə etdiyi bu mənəvi inciləri toplayaraq bəşəriyyətin ən böyük kəşfi olan kitablarda yaşa-

danlardan danışarkən göz önünə ilk olaraq Əta Tərzibaşı, Molla Sabir, Şakir Sabir Zabit, Əbdüllətif Bəndəroğlu, Məhəmməd Xurşid, İbrahim Daquqi, İhsan Vəsfi, Sübhi Saatçı, Mövlud Taha Qayaçı və başqaları gəlirlər. Onların min cür əzab-əziyyətə qatlaşaraq toplayıb öz hesablarına çap etdirdikləri kitabları vərəqlədikcə V.Q.Belinskinin sözləri yada düşür: «Böyük zəhmət və fədakarlıqla xalq ədəbiyyatının qiymətli gövhərlərini toplayan və onları unudulub tələf olmaqdan qoruyan təvazökar və qərəzsiz adamların zəhməti hər cür təqdir və təşəkkürə layiqdir» (40, 109).

Onu da demək zəruridir ki, görülən işlər folklor nümunələrini toplama və nəşr etmə çərçivəsində qalmamış, eyni zamanda folklorun ayrı-ayrı janrlarının elmi əsaslar üzrə tədqiqi yolunda da müəyyən addımlar atılmışdır. Bu sahədə fəaliyyət göstərən tədqiqatçıların arasında Əta Tərzibaşının xüsusi yeri vardır. Onun xidmətlərini həmyerlisi Əli Maaruf gözəl səciyyələndirmişdir: «XX əsrin birinci yarısında ölümə məhkum olan ədəbiyyatımız XX əsrin ikinci yarısında Əta Tərzibaşının sayəsində yenidən dirçəldi» (52q).

Demək lazımdır ki, Kərkük folklorunun ayrı-ayrı növ və janrları üzrə Azərbaycanda da tədqiqatlar aparılmış, «Kərkük bayatıları (1968, xalq şairi Rəsul Rza ilə), «Arzu–Qəmbər» dastanı (1971), «Kərkük mahnıları» (1973), «İraq–Kərkük atalar sözləri» (1978), «İraq–Kərkük bayatıları» (1984), «Kərkük tapmacaları» (1984), «Kərkük folkloru antologiyası» (1987), (təkrar nəşr 1990) kimi kitablar tərəfimizdən incələnərək çap olunmuşdur. Bununla belə, nə Kərkük dolaylarında, nə də Azərbaycanda Türkman folkloru hərtərəfli öyrənilməmişdir. Onun sistemli monoqrafik təhlilinə ilk dəfədir ki, təşəbbüs göstərilir. Kitabda Türkman folklorunun epik, lirik, arxaik növ və janrları hərtərəfli tədqiq edilmişdir.

Xalq dilini bütün incəlikləri ilə özündə yaşadan Türkman folkloru elə bir xəzinədir ki, burada xalqını sevən hər kəs

əvəzsiz incilər tapar. Bu xalq müdrikliyi xəzinəsinin hər qatında Azərbaycan folkloruna bir doğmalıq, əkizlik vardır. Nə yaxşı ki, şüurda, düşüncədə, mənəviyyatda xalq parçalanmayıb. «Axı daşlar ovula-ovula ölür, qayalar sökülə-sökülə, bulaqlar quruya-quruya, çaylar çəkilə-çəkilə ölür, millət isə unuda-unuda. Yaddaşdan təmizlənə-təmizlənə...» (51, 4)

Lakin insana təsəlli verən gün kimi aydın bir həqiqət də vardır. Kərküklü İrmağın doğru olaraq qeyd etdiyi kimi, «Vətən torpağı kiçilib-genişlənə bilər, sərhədləri tükənə bilər, tarixi təhrif edilə bilər, hətta şan və şərəfi tapdalana bilər, dini dəyişdirilə bilər» (526). Lakin dil və folklor adlandırılan iki varlıq vardır ki, həyat yaşadıqca yaşayır, xalqın keçmişi haqqında danışa bilən təkzibolunmaz tarixi sənədə çevrilir. İraq–Türkman folklorunun tarixi qiyməti, bizcə, hər şeydən əvvəl, bundadır.

I FƏSİL

İNAMIM MƏNİM, HƏYATIM MƏNİM

ARXAİK JANRLAR
İNANCLAR
YEMİNDLƏR
DUALAR VƏ BƏDDUALAR
FALLAR

ARXAİK JANRLAR

İnamsız insan olmaz. İnsanın təbiəti elədir ki, o, müəyyən varlıqlara inanır. İnam və etiqadlar insanı, adətən, pis əməllərdən çəkindirir və xeyirxah işlərə sövq edir. Məhz bu baxımdan xalqın ilkin yaradıcılıq məhsulu kimi, cəmiyyətin gərdişində öz yeri, öz sanbalı olan arxaik janrların tədqiqi böyük dəyər kəsb edir. Buraya, əsasən, inanclar, yemindlər (andlar), fallar, dualar, bəddualar, xalq mərasim və nəğmələri daxildir. Bu janrlar Türkman folklorunda da «xalqın düşüncə tərzini, həyata baxış və münasibətini, etik, etnoqrafik görüşlərini, adət-ənənəsini, mərasimlərini sistemli tərzdə izləmək baxımından çox əhəmiyyətlidir» (41, 4).

İnsanların real həyat hadisələrinə inam və etiqadlarının bir növ bədii əksi bu janrların əsas səciyyəvi xüsusiyyətlərini təşkil edir. Bunlar inam, müşahidə nəticəsində sınaq və təcrübədən keçirilərək qətiləşmiş, xalq yaradıcılığının ilkin janrlarına çevrilmişlər. Bununla belə, yemind, fal, dua və bəddualarын inanc və etiqadlarla bağlı olub, onlardan sonra yarandığını da söyləmək olar.

Qeyd etmək lazımdır ki, Türkman folklorunda arxaik janr örnəkləri toplanıb çap olunsalar da (52; 168; 86; 58), tədqiq olunmamışlar.

İNANCLAR

Azərbaycanda xalq arasında sınama, yozum, yozma, inanc, inam adları ilə tanınan bu janr Türkman folklorunda inanc və etiqadlar kimi tanınır (214, 121). Professor A.Nəbiyev inanclara Kərkük folkloru üçün də məqbul sayıla biləcək tərif vermişdir: «İnanclar sınamalar nəticəsində qətiləşən hökmlərin bədii ifadəsidir» (104, 49).

İnancları Türkman folklorunda aşağıdakı kimi qruplaşdırmaq olar: məişət və mərasimlərlə, təbiət hadisələri, bitki və

heyvanat aləmi ilə bağlı inanclar, astral təsəvvürlər və əsatiri görüşlərlə bağlı inanclar.

Astral təsəvvürlər və əsatiri görüşlərlə əlaqədar olan inanclar, əsasən, Ay, ulduz, digər səma cismlərinə inamın nəticəsində yaranmışdır. Məsələn, bir ulduz axanda yer üzündə kiminsə ömrünün sona yetdiyini düşünürlər. Çünki insan ruhlarının ulduzlarla bağlı olduğuna inanırlar. Türkman folklorunda geniş yayılan «Leyli və Məcnun» əfsanəsi də bu mətləbdən xəbər verir. Əfsanədə deyilir ki, Leyli və Məcnun öldükdən sonra onların ruhları uçur və səmada iki parlaq ulduza çevrilir. Bu ulduzlara xalq arasında «Leyli və Məcnun» deyirlər. Etiqada görə bu ulduzlar ildə bir dəfə bir-birinə yaxınlaşır və qovuşurlar. Kim onların qovuşmasının şahidi ola bilsə, mal, dövlət, mənsəb sahibi olar, həsrətində olduğu arzusuna qovuşar (70, 81–82).

Ayla bağlı inanclar da maraq doğurur. Məsələn, əgər bir şəxs əvvəl hilal, sonra gözəl sifət görərsə, bütün ay boyu xeyir-bərəkət tapacağına inanırlar. Ayın hilal vaxtı dua oxuyur və deyirlər: «Səni gördük, xeyir-bərəkət tapacağıq». Əgər hilal açıq-aydın olsa, o ayın bütün insanlar üçün xeyirli olacağına inanırlar.

İraq–Türkman folklorunda suyun müqəddəsliyinə inam da geniş yayılıbdır. Kərküklülər də suya and içirlər. Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da su kultu ilə əlaqədar yaranmış inam və etiqadlar çoxdur. Burada da səfərə çıxanın arxasınca su atırlar ki, səfəri uğurlu olsun. Burada da su aydınlıq rəmzi hesab olunur. Eləcə də birinin günahını yumaq üçün başına qırx çanaq su tökərlər. Onda günahından keçiləcəyinə inanılır (52e). Maraqlıdır ki, su ilə bağlı atalar sözü də yaranmışdır: «Su hər şeyi paklar, yalnız üz qarasını paklamaz». Qırxı çıxan körpə və ana da su ilə pak edilir. Bu adətə «qırx çıxarmaq» deyilir. Sudan qırx ovuc götürülür, ana və körpənin başından tökülür və bununla da onların pak olduğuna inanılır.

Məişət və mərasimlərlə bağlı inanclar daha çoxdur.

Səfərə çıxarkən və ya görülməsi düşünülən bir iş barədə danışarkən birisi bir kərə asqırarsa: «Səbir gəldi, gözlənilsin, səbir edilsin», iki kərə asqırarsa: «Cağat gəldi, xeyirlidir» – deyə yola çıxarlar. Səfərə çıxanın arxasınca su atar və bununla da səfərin uğurlu olacağına inanarlar. Sevmədikləri adam yola çıxanda arxasınca daş atarlar. Belə olan halda onun bir daha dönməyəcəyinə inanırlar. Yəqin ki, «Arxasınca sapand daşı» ifadəsi də elə bu inancla əlaqədar yaranmışdır.

Geri dönməsi arzu olunmayan bir şəxs səfərə çıxarkən arxasınca daş atmaq adəti lap qədim zamanlardan mövcud olmuşdur (162, 73).

Maraqlıdır ki, göz səyriyəndə bir fənalıq baş verəcəyinə inam da qədimdən qalmadır. Buna hələ «Kitabi-Dədə Qorqud»da təsadüf edilir. Burada Dirsə xanın arvadı oğlu Buğacın ovda başına bir hadisə gəldiyini, daha doğrusu, ölümcül yaralandığını duyaraq deyir:

İki vardın, bir gəlürsən, yavrum qanı?
Qara kərdunda bulduğum oğul qanı?

Çıxsın bənim kor gözüm, a Dirsə xan, yaman səgrir (89, 38). Kərkük dolaylarında məişət və mərasimlərlə bağlı yaranan inancların bir qismi nikah, ev-eşik, səfərdən dönmə və s. ilə əlaqədar meydana gəlmişdir.

Qadının saçı dalbadal üzünə düşərsə, «Saçımız yol ediri, yolçumuz gələcəkdir», – deyirlər (168, 13).

Ölüsü düşən evdə qırx gün kəllə-paça yeyilməzmiş, yeyilsə, o evdə bir nəfərin də öləcəyi düşünülərmiş.

Evdə qurban kəsilərsə, barmağın ucunda azca qan götürüb uşağın ağzına damızdırılar. Bununla uşağın üstündə olan ağırlığın götürüləcəyinə inanılır.

Ziyarətdən dönən bir nəfər yeni doğulmuş uşaq olan evə girərsə, «uşaq basıldı» – deyər və uşağa bir fənalıq toxunu-

lacağına inanarlar. Odur ki, uşağı əvvəlcədən dışarı çıxararlar. Uşaq basılmasın deyə, dışarıdan gətirilən hər şeyin üstündən uşağı keçirirlər.

Səfərdən dönən adam evinə və uşağına zərər verməmək, ayağı ilə gələn xəstəlik və fənalığı atmaq üçün evə girərkən oturar, hər iki ayağını uzadarmış. Uşağı üç dəfə onun ayaqları üstündən atlandırarmışlar. Türkman folklorunda insanların ilkin təsəvvürlərində uğur və uğursuzluq anlayışları ilə bağlı inamlar da geniş yayılmışdır: Salı (şənbə) günü taraş olmaq (Bu gün yəhudilərin günü hesab edilir), uşağın beşiyini boş yırğalamaq (uşağın başı və ya qarnı ağrıyar), qırxlı uşağın yanında ağlamaq (fəna iş baş verər), birinin libasının düymələrini əynində olarkən tikmək (böhtan atarlar), gecə güzgüyə baxmaq (qəribliyə düşər), gecə vaxtı ev süpürmək və s. uğursuzluq sayılır.

Eləcə də məğribdən (axşam vaxtı) sonra qonşudan qazan kətirmək uğursuz hesab olunarmış. Evdə kimsə öldükdə onu yumaq üçün su qızdırmağa qazanı qonşudan məğribdən sonra gətirərmişlər. O da maraqlıdır ki, axşamlar qonşuya ağ rəngli bir nəsnə verilməzdi. Bu, şər qüvvələri sevindirmək demək olardı.

Odur ki, ağ nəsnə göndərən evin fənalığa uğrayacağına inanırdılar. Bu səbəbdəndir ki, qonşuya verilən südün içinə bir parça kömür atılar, yumurta azacıq qaralanıb sonra verilərmiş (168, 14).

Doğulacaq uşağın oğlan və ya qız olacağını əvvəlcədən bilmək təşəbbüsü də xalqın ibtidai baxışlarının nəticəsi kimi diqqəti cəlb edir. Hamilə qadın kökəlməyə başlasa, qız, arıqlamağa başlasa, oğlan olacağına inanırlar.

Hamilə qadının bədəninin rəngi ağarmağa başlasa, oğlan, qaralmağa başlasa, qız doğar deyərlər.

Hamilə qadının göbəyi yuxarı qalxsa, oğlan, aşağı düşsə, qız, eləcə də döşlərinin kənarı qızarsa, oğlan, qaralsa, qız olacağına inanırlar.

Hamilə qadın kürəyində ağrı hiss etsə, oğlan, böyründə ağrı hiss etsə, qız olacağını güman edirlərmiş və s.

Doğuşla bağlı «Al aparmaq» inamı də Kərkük dolaylarında çox güclü olmuşdur.

Azərbaycanda Al, Hal, Al arvadı, Hal arvadı, Al anası, Al qarısı, başqa türkdilli xalqlarda Al, Albıs, Almıs, Albas, Albus, Alas, Almız, Albassı, Albarstı və s. adlarla tanınan (169, 107) bu mifik obraza Kərkük dolaylarında Al, Al nənəsi deyirlər (168, 55).

Maraqlıdır ki, Kərkük dolaylarında xalqın bu qədim inam və etiqadının izinə atalar sözündə də düşürük: «Talesiz uşağın nənəsini Al aparar».

Xalqın bu qədim inamı ilə bağlı folklorşünas İ.İbrahimovun gəldiyi nəticə maraq doğurur: «Tədqiqat göstərir ki, ibtidai azərbaycanlının təsəvvüründə kainat gözəgörünməz xeyir və şər qüvvələrlə dolu imiş. Guya ki, bu qüvvələr arasında daimi bir mübarizə gedirmiş. Belə şər qüvvələrdən biri də, guya ki, «Hal», yaxud «Hal arvad»ı imiş. Etiqada görə «Hal» insan nəslinin artmasına mane olur, yeni doğmuş zahı qadınların ürəyini, ciyərini çıxarıb suya atır, bununla da qadının və yeni doğulmuş uşağın ölümünə səbəb olurmuş... Xalq içərisində yaşanan adətlərdən anlaşılır ki, «Hal» ilə mübarizədə metaldan bir vasitə kimi istifadə edilir. Doğuş zamanı qadının ətrafında icra edilən mərasimə bənzər adətlər, «Hal»ları qovmaq və bununla da doğumu asanlaşdırmaq məqsədilə mis qabları bir-birinə döymək, suyu qılınclamaq, qadının yanına metal alətlər qoymaq və sairədən ibarət olur. Şübhəsiz, bunlar yeni kəşf edilmiş metalın qüdrətinə sığınmağın və ona ehtiramın nəticəsidir. Hətta rəvayətə görə, «Hal»ı ram etmək üçün onun paltarına bir iynə sancmaq kifayət edərmiş» (72, 134).

Tədqiqatçının sözlərinə qüvvət olsun deyə onu da qeyd etmək olar ki, bu etiqad Azərbaycanın qərb zonasında yerləşən Tovuz rayonunun Düzqırıxlı kəndində XX əsrin 40-cı

illərində çox güclü idi. Qonum-qonşuda hamilə qadının doğuşu başlayanda biz uşaqlar əlimizdə iynə-sancaq, dəmir parçaları o həndəvərdə olan çay, göl və hovuzun yanına toplaşar, hərdən suyu dəmirlə döyəcləyərək iynə-sancağı hazır tutardıq ki, «Hal» zahı qadının ürək və ya ciyərini çıxarıb suda yuya və yeyə bilməsin. Bununla inanırdıq ki, zahı qadının ölümdən qurtarmasında bizim də «əməyimiz» vardır. Bir çoxları kimi, biz də «əlbəttə, potoloji proseslə bağlı olan bu məsələnin tibbi mahiyyətini dərk edə bilmədiyimizdən, doğan qadının çoxlu qan itirməklə halsızlaşmasına, huşunu itirməsinə Alın səbəb olduğuna inanardıq» (41, 78).

Kərkük dolaylarında doğuş zamanı halsızlaşan, huşunu itirməkdə olan qadının ağzına dəmir qaşıq soxardılar ki, Al Nənəsi dəmir nəsnədən qorxub yaxın gəlməsin. Bundan əlavə, onun saçını dartışdırar, kürəklərinin arxasına bərk əşyalar qoyardılar. Bundan əlavə, Al Nənəsi qadının ciyərini yuyub yeməsin deyə evdə olan üç ocaq daşından birini su quyusuna və ya hovuza atar, qadının ərinin və övladlarının adını çəkərdilər. Filankəs gəldi – deyə qışqırardılar.

İnanırdılar ki, Al Nənəsi bunu eşidib suya yaxınlaşmaqdan qorxacaq və ananın ciyərini qaytaracaq (168, 56).

Maraqlıdır ki, şər qüvvələrin dəmir və ondan düzəldilmiş nəsnələrdən qorxması inamı o qədər güclü olmuşdur ki, indinin özündə belə bir çoxları uşaq yatanda balıncın altına bıçaq, xəncər qoyurlar ki, şər qüvvələr qorxub nə uşağa yaxın gələ bilsin, nə də ona xətər yetirsin.

Bundan başqa, uşağı bədnəzərdən qorumaq və gözdəyənin qarşısını almaq üçün boynuna gözmuncuğu asardılar. Bununla belə, uşaq narahat yatsa, tez-tez səksənib yuxudan ayılsa, ağlasa, xəstələnsə, uşağı göz nəfsinin vurduğuna inanar, üzərliklə bağlı mərasim keçirərdilər. Kərkük folklorunda da ovsun kimi tanınan bu mərasimi yerinə yetirmək üçün bir dəst üzərlik götürülür, uşağın başına dolandırılır, sonra yandırılırdı.

Üzərliyin tüstüsü uşağa dəydikcə üzərliklə bağlı mahnı oxuyar və uşağın sağalacağına inanardılar:

Üzərliksən, havasan,
Yeddi dərdə davasan.
Allahdan istəmişəm
Bu dərdi sən qovasan.

Üzərliksən, məzəsən,
Damar-damar gözə sən.
O günə qurban olum
Evimizdə gəzəsən.

Onu da demək lazımdır ki, yeni doğulmuş uşağa qırx gün ərzində şər qüvvələrin xətər toxundura biləcəyinə inanır və uşağı ciddi nəzarət altında saxlayırlar. İndinin özündə belə Azərbaycanda olduğu kimi, uşağın üstünə kənar adamın gəlməsinə və eləcə də onun üstünə ət, yumurta, soğan, sarımsaq, boyaq gətirilməsinə imkan vermirlər. Əvvəlcə uşağı dışarı çıxarırlar, sonra isə kənar şəxs və adı çəkilən nəsnələr otağa qəbul olunurlar. Bundan sonra uşaq onların üstünə gətirilir. İnanırlar ki, belə olduqda uşağı çillə tutmaz. Bu vaxt bütün ailənin qayğısı dünyaya yeni gələn körpənin salamatlığıdır. Bəzən elə də olur ki, müəyyən bir ailədə uşaqlar doğulduqdan sonra çox yaşamırlar. Bu dərdin əlacını xalq arasında geniş yayılmış inancda görürlər. Belə ailədə uşaq dünyaya gələndən sonra bir qara toyuq kəsərək kəfənə bükür və qəbiristanlıqda basdırırlar.

Buna bənzər inanca Azərbaycanın bəzi bölgələrində də təsadüf edilir. Belə ki, uşağı yaşamayan ailə bu dərdə çarə qılmaq üçün onun başına bir erkək quzu dolandırıb kəsir, soyduqdan sonra parçalamadan bütöv şəkildə qazanda o qədər qaynadırlar ki, ət öz-özünə sümükdən ayrılır. Əti yeyir, sümükləri isə ağa büküb qəbiristanlıqda basdırırlar (41, 82).

O da maraqlıdır ki, ay başında doğulan uşağı ay basmasın deyə gün batmazdan əvvəl dam başına bir çıraq, bir güzgü, bir sürmədan, bir daraq qoyur və gün batana qədər saxlayırdılar (168, 45).

Ta qədim zamandan nəsil artırmaq, övlad sahibi olmaq, soy-kökü davam etdirmək, ata-ananın ona çəkdiyi ölçüyəgəlməz zəhmətin müqabilində övladlarına zəhmət çəkərək həyatda borcunu qaytarmaq arzusu daimi və nəhayətsiz olmuşdur.

Əbədi və əzəli olan sonsuzluq-soysuzluq dərdi bəşəridir. «Kitabi-Dədə Qorqud»da övladsızlıqla bağlı acınacaqlı, qəlb parçalayan, görünməmiş bir hadisənin şahidi oluruq: «Xanlar xanı xan Bayandır yildə bir kərrə toy edib, Oğuz bəglərin qonaqlardı. Genə toy edib, atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq qurdırmışdı. «Kimün ki, oğlı-qızı yoq, qara otağa qondurın, qara keçə altına döşən, qara qoyun yəxnisindən ökinə götürün, Yersə yesün, yeməzsə tursun-getsün», – demişdi. «Oğlı olanı ağ otağa, qızı olanı qızıl otağa qondurın. Oğlı-qızı olmıyanı Allah-taala qarğayıbdır, biz dəxi qarğarız, bəllü, bilsün» – demiş idi» (89, 34).

Şübhəsiz, oğul-uşaq sahibi olmaq arzusu insanları qədim zamanlardan müəyyən çarələrə əl atmağa məcbur etmişdir ki, bunların bəziləri inanclarda zəmanəmizə qədər gəlib çıxmışdır. Hələ «Kitabi-Dədə Qorqud»dan görünür ki, oğlu olmayan Dirsə xan qurban kəsmiş, acları doyurmuş, yetim-yesiri geydirmiş, əl tutmuş, borcu olanları borcdan qurtarmış, hamıya yaxşılıq etmiş, bir ağzı dualının alqışı ilə Allah-taala ona bir övlad vermişdir (89, 35).

Demək olar ki, bu ənənə Kərkük dolaylarında övladı olmayan kişilər arasında indi də yaşayır. Övladı olmayan qadınlar isə indinin özündə belə müqəddəs hesab edilən qəbirləri ziyarət edir, dərviş və seyidlərə nəzirlər verirlər. Dilək tuturlar, əhd edirlər: «Bir oğlum və ya qızım olsun, yeddi qapı dilənərəm» və ya «Bir oğlum olsun, yeddi yaşına qədər əlbəsə almıyım» (86, 55).

Arzu-dilək yerinə yetiriləndə uşaq, doğrudan da, yeddi yaşına qədər onun-bunun köhnə paltarını geyərdi.

Təbiət hadisələri ilə bağlı inam və etiqadlar

Dolu yağanda onun bir dənəsini bıçaqla iki yerə bölsən, dolunun kəsəcəyinə inanırlar.

Maraqlıdır ki, bu eynilə Azərbaycan folklorunda da belədir: «Uşağın dolu dənələrini dişləməsi, yaralayanda isə «mən kəsdim, sən də kəs!» – deməsi dediklərimizə dayaq olur (41, 134).

Gün batan vaxt buludlar qızararsa, yağmur olacağına inanardılar və s.

Bitki və heyvanat aləmi ilə bağlı inam və etiqadlar

Evlərdə qapının astanasında divara ceyran kəlləsi vururlar. Bununla o evi göz nəfsinin vurmayacağına etiqad bəsləyirlər.

Quşlar qovğa qopararsa, qonaq gələcəyinə inanırlar.

Qarğa evin üzərindən uçanda qarıldasa, yeni xəbər eşidəcəklərinə inanırlar. Bu xəbərin xeyirli olması üçün üç dəfə «xeyirli xəbər» – deyə təkrar edirlər.

Həyətdə soğan və sarımsaq əkmək fəna hesab olunur. Evdən köçüləcəyinə və evin dağılacağına inanılır.

Obadan köçmək istəyəndə arpa əkər, arpa göyərəndə köçərlər.

İlanı öldürəni başqa ilanın izlədiyinə və onu çalmağa çalışdığına inanarlar. Göründüyü kimi, bu inanc ilan kultuna inamla yaranmışdır.

Gec dil açan uşağa sərçə əti və göyərçin yumurtası yedirdərlər. Eyni zamanda uşağa qəfəsdə olan bülbülün içdiyi qabdan su verərlər ki, tez dil açsın. «Gec danışan uşağa göyərçin əti yedirtsən tez dil açar» inancı Azərbaycanda da müşahidə olunub. İnama görə göyərçin də insandır, anadır, daha doğrusu, onların ruhudur (162, 32). Odur ki, göyərçin müqəddəs sayılır və Kərkük dolaylarında olduğu kimi əti yeyilmir.

Qeyd etmək lazımdır ki, Azərbaycan folklorunda olduğu kimi, qədim dövrlərdən bu yana insanın həyatı, əmək fəaliyyəti, real və mifik təsəvvürləri, astral görüşləri Türkman folklorunda da inam və etiqadların yaranmasında mühüm rol oynamışdır.

Çünki «insanlar ilkin təfəkkür çağlarında əhatə edildikləri mühitdə əksər mövcud məsələlərin mahiyyətinə dair cavab tapmaqda, nəticə çıxarmaqda çətinlik çəkmişlər. Onlar həyatda üzləşdikləri maneələrin səbəbini təbiətdə axtarmış, müxtəlif hadisə, nəsnələr arasında, hətta azacıq, cüzi bənzəyişə, müəyyən daxili əlaqənin, bağlılığın əlaməti kimi baxmışlar. Bunun üçün də mürəkkəb təbiət aləminə təsir etmək cəhdi, bununla da arzu, istəyə qovuşmaq meyili sınamaların yaranıb yayılmasına, bir janr kimi formalaşmasına səbəb olmuşdur» (41, 4).

İlkin mərhələdə real həyat gerçəkliyi və şəraiti ilə bağlı olan inanclar böyük mətləblərdən söz açır, yuxarıda göstərdiyimiz kimi, xalqın düşüncə tərzini, həyata baxış və münasibətini, etik, etnoqrafik görüşlərini, adət-ənənəsini, mərasimlərini sistemli tərzdə izləmək baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycan folklorunda da özünü göstərən bir çox inanclar dediklərimizə dayaq olur. Məsələn, Türkman folklorunda sağ əlin içi qaşınarsa, para gələcəyinə inanar, əli üç dəfə öpər və başlarına qoyarlar. Eləcə də hamilə qadının bətnində uşaq sağ tərəfə meyil etsə, oğlan, sol tərəfə meyil etsə, qız olacağına inanılarmış.

Maraqlıdır ki, Azərbaycan folklorşünaslığında «sağ» və «sol»la bağlı gəlinən qənaət də Türkman folklorundakı inancla səsləşir. Kərkük nağıllarından məlum olur ki, baş vəzir həmişə padşahın sağ tərəfində oturarmış (86, 312). Bundan başqa, məlumdur ki, İç oğuzlar Bozak, Dış oğuzlar isə Uçok adlanmışlar. Əsatiri inamlara görə Bozoklar Oğuz xanın Səmavi qadınından olan Gün xan, Ay xan, Ulduz xanın nəslindən, Uçoklar isə Oğuz xanın ağacın oyuğunda görüb

evləndiyi qadından olan Göy xan, Dağ xan, Dəniz xanın nəslindəndir. Səmavi qadından olan övladlar daha çox hörmətli, nüfuzlu sayılmışlar. Odur ki, Oğuz xan onları, bir qayda olaraq, sağ tərəfində, o birilərini isə sol tərəfində əyləşdirərmiş. Beləliklə, «sağ» və «sol»la bağlı məsələnin mahiyyəti aydın olur (192, 16; 41, 8).

İraq–Türkman və eləcə də Azərbaycan folkloru üçün səciyyəvi olan və xoruzla bağlı inanc da çox qədim dövrlərdən xəbər verir.

Firdovsinin «Şahnamə»sində göstərilir ki, hökmdar Kəyumərsin oğlu Səyaməki divlər öldürür (145, 26). Kəyumərs oğlunun intiqamını almağa gedərkən bir xoruzla ilanın vuruşduğunun və xoruzun tez-tez banladığının şahidi olur. Xoruzun banlamasını uğurlu hesab edir və ilanı öldürür. Xoruzu iqamətgahına gətirir. Xoruz sübh çağı banlayıb səhərin açılmasını xəbər verir. Səhərin açılması günəşin, işığın qaranlıq üzərində – xeyrin şər üzərində qələbəsi demək idi. Qələbəni xalqa çatdıran xoruz müqəddəs hesab olunurdu. Lakin bir gün Kəyumərs xəstələnir. Onun xəstə yatdığı axşamların birində xoruz banlayır.

Xoruzun vaxtsız banlaması hamını mat qoyur. Gəlib görürlər ki, Kəyumərs ölüb. O vaxtdan xoruzun axşam banlaması fəna hesab olunmuş və belə bir inancın meydana gəlməsinə səbəb olmuşdur (1, 38).

Maraqlıdır ki, Kərkük dolaylarında indinin özündə belə axşamçağı xoruz banlasa, «O, baş yeyər» və ya «Bu şumdar baş yeyər», – deyir və xoruzun başını kəsirlər.

Demək lazımdır ki, Türkman folklorunda atəşpərəstliklə bağlı bir çox başqa inanclar da yaşamaqdadır. Zərdüşt fəlsəfəsinə görə kainatın işıq və zülmətin mübarizəsindən ibarət olduğu məlumdur. Xalq işığın toran düşən vaxt qaranlıqla mübarizədə məğlub olmasını şər kimi qəbul etmişdir. Odur ki, şər qüvvələri sevindirməmək üçün gecə vaxtı güzgüyə baxmaq, gün sarıda (qürub çağı) – işləmək, məğribdə (şər vaxtı)

ev süpürmək, yerə qaynar su tökmək və s. uğursuz hesab olunarmış.

Eləcə də odla bağlı inam və etiqadlar, həmçinin oda sitayiş zərdüştiliklə əlaqədar yaranmışdır. Oda xoşbəxtlik, uğur bağışlayan hami kimi baxmış, ona and içmişlər. Qəribədir ki, xristian dininə etiqad edən ingilislərdə də od, ocağı xoşbəxtlik bəxş edən hami kimi tanıyır, evin, ailənin şər qüvvələrdən qorunması üçün hər evdə buxarı olmasını vacib hesab edirlər. Ailədə «buxarı–ocaq» ailə xoşbəxtliyinin rəmzi kimi qəbul edilir.

Kərkük dolaylarında «Mövsüm mərasim nəğmələri» bölməsindən göründüyü kimi, oda, ocağa inamla əlaqədar mərasimlər də yaranmışdır. Uşaqlar bayram vaxtı tonqal qalayırlar ki, ətraf işığa qərq olsun, şər qüvvələr qorxaraq evə yaxınlaşıb bir fənalıq törətməsinlər. Eyni zamanda mahnı oxuyurlar:

Oğlan, oğlan od gəti,
Oda salavat (etiqad) gəti.
Nənən plov edibdi,
Yoldaşların yığ gəti (86, 302).

Demək lazımdır ki, xalq arasında oda, ocağa inam Azərbaycanda da çox güclü olmuş və bu gün də qalır. Əsrimizin 40–50-ci illərində tonqal qalamaq, onun üstündən hoppanaraq «azarım-bezarım, ağırlığım-uğurluğum bununla getsin» – demək inamı çox geniş yayılmışdı. Lap qabaqlarda da elə bir ev olmazdı ki, tonqal qalayıb, lopa atmasınlar. Bəzən elə olurdu ki, kiçik uşaqlar nəzarətsiz qalanda tonqala düşür, paltarları yanır, bəzən bədənlərində yanıq da qalırdı. Elə bu sətirlərin müəllifinin çənəsində qalan yanıq yeri özü də dərdsiz-qəmsiz uşaqlıq illərinin, Novruz bayramının yadigarıdır.

Demək lazımdır ki, od bütün türk xalqlarında yamanı qovan, məhv edən sayılırmış (121, 13).

Od, işıq, güzgü, parıltı və s. ilə əlaqədar inancların atəşpərəstliklə bağlı yarandığı göz qabağındadır. Belə ki, atəşpərəst-

lik dininə görə dünya, guya, iki qüvvə tərəfindən idarə olunur. Onların biri xeyir, digəri şər qüvvələrdir. Guya, Hörmüzd işığın, günəşin, ayın, odun, həqiqətin, xeyirxahlığın, Əhriman isə şər qüvvələrin, yəni zülmətin, şərin, bədbəxt hadisələrin tanrısı imiş. Elə əslində, atəşpərəstlik bir din kimi öz başlanğıcını buradan alır. Deməli, dünya xeyir və şər qüvvələrin mübarizəsi üzərində bərqərar olmuşdur. Şübhəsiz, buna görədir ki, Kərkük dolaylarında da Azərbaycanda olduğu kimi, Ay və Gün tutulanda müəyyən mərasimlər keçirilir. Ay və Gün tutulanda fəlakət olacağına, müharibə baş verəcəyinə, bahalıq və aclıq olacağına inanırlar. Odur ki, «Div Ay nənəni tutub», «Div Gün nənəni tutub» – deyər, haray-həşir salar, evlərdə, həyətlərdə, məhəllələrdə tənəkə çalar, güllə atar, səsküy salarlar (168, 13). Bununla şər qüvvələri qorxudub qaçıracaqlarına inanarlar.

Saçla bağlı inam da böyük maraq doğurur. «Kəsilmiş saçı tapdayanın başı ağrıyar». Eləcə də «kəsilən saç və dırnaqlar gömülməsə günah hesab olunur və qiyamətdə cavab verməli olacaqları» inancı xalq arasında geniş yayılmışdır. Tədqiqatçıların göstərdiyinə görə, bir çox xalqlarda belə bir etiqad özünü göstərir ki, guya, bütün bədxah qüvvələrin sehr etmək bacarığı saçları ilə bağlıdır. Deməli, saçlara toxunmaq, onların saçlarını kəsmək, onlara ziyan vurmaq, sehr qüvvəsindən məhrum etmək deməkdir.

Başağrısı da, guya, saçları ayaq altına atıb tapdalamağa, yastığın üstünə ayaq basıldığına görə bədxah ruhların narahatlığı ilə əlaqədar yaranır. Odur ki, kəsilmiş saçların gömülməməsi böyük günah hesab olunur, başağrısı bir yana, hətta buna yol verən adamın qiyamətdə cavab verməli olacağı inamı meydana gəlmişdir. Hətta körpənin bir yaşı tamam olana qədər, bir az böyüyüb, ətə-qana gələnə qədər onun ilk saçının qırxılmaması da bununla əlaqədardır. O da maraqlıdır ki, ilk saç qırxılarkən onu tapdamağa, yerə tökülməyinə imkan vermir, körpənin ilk saçını qoruyub saxlayırlar da.

Güman edirlər ki, belə olmasa saç ruhları acıqlana və körpəni incidə bilərlər. Eləcə də dırnaqlar. İnanca görə uşağın dırnaqları da bir yaşı tamam olanda kəsilərmiş. Dırnaqları da atmaz, təmiz bir şeyə büküb evin divarlarındakı yarıqlara və s. qoyarlarmış. Azərbaycanda olduğu kimi, Türkman folklorunda da, guya, adamın sağlamlığı, gücü, zehni və s. saç və dırnaqları, xüsusən də ilk saç və dırnaqlarla əlaqədardır. Xalq arasında belə bir inam var ki, körpənin ilk saç və dırnaqları atılsa, o tez-tez xəstələnər, huşsuz, zəif və gücsüz olar.

Ümumiyyətlə, bütün bu deyilənlər bir daha sübut edir ki, xalqın keçmişini, adət-ənənələrini, həyat tərzini öyrənməkdə inam və etiqadların əhəmiyyəti böyükdür.

YEMİNDLƏR

Türkman folklorunda bu janr gah «and», gah da «yemind» kimi tanınır. Bunu «Arzu–Qəmbər» dastanından da görmək olur: «Yox vallah, nənə, bunca and, bunca yemind, tez gəlləm» (86, 164).

Tədqiqatlardan belə qənaətə gəlmək olur ki, «and» sözü «qan qardaşı» mənasında işlənən monqolca «anda» sözündəndir. Məsələ burasındadır ki, qədim türk və monqollarda adətə görə başqa-başqa qəbilədən olan kişi və gənclər dostlaşmaq və qardaşlaşmaq üçün damarlarını kəsib axan qanı bir qaba yığar, südə qatıb yarıbayarı içərlərmiş. Beləliklə, qardaş olarlarmış. And sözü, əslində, buradan yaranıbdır (1, 26).

Bununla belə, Türkman folklorunda mənşəcə ərəb kəlməsi «yəmin»dən olan «yemind»lər daha çox işlənir. Maraqlıdır ki, bu sözə Azərbaycan ədəbiyyatında da təsadüf edilir: «Oxları sındırmaq yəmin etmək deməkdir: hər kəs özünü xaqanın yolunda qurban edəcəyinə and içirdi» (162, 94).

Qeyd etmək lazımdır ki, andlar ilk dövrlərdən indiyə kimi müqəddəs sayılmış, andı pozan adama alçaq nəzərlə baxmış,

yalançı bir adam kimi tanımış, belə adamların xalq arasında hörməti olmamışdır. Buna görədir ki, andı namus, qeyrət, şərəflə bərabər tutmuş, andı pozmaqdansa ölümü üstün tutmuşlar. Aşağıdakı misallar dediklərimizi təsdiqləyir: «Ölümümü görəsən», «İki gözüm kor olsun», «Gözüm təpəmə çıxsın», «Gavur türbəsində yatım», «Toppuğum yerə dəymiş olsun» – yəni yalan desəm, ölüm, «Əsgər qaçağı olum» – yəni yalan desəm, çöllərə düşüm, ömrü boyu qorxu, əzab-əziyyət içində yaşayım.

Hətta əziz və müqəddəslərin də canına, məzarına and içirlər ki, andımı pozsam, qoy mənə qənim olsunlar:

«Şəhidlərin goruyçı», «Dizivizin günəhi boynumda qalsın», «Həpi dərdlər başıyçi» və s.

Professor A.Nəbiyev andlardan danışarkən haqlı olaraq göstərmişdir: «Şifahi nitqdə yaşamaqda olan hər bir andın özünəməxsus tarixi, etimoloji kökü, əsası vardır. Onların hər birinin arxasında xalqımızın müəyyən tarixi inkişaf mərhələsindəki həyatı, məişəti, əxlaq və təfəkkür tərzi dayanır. Böyük yüzilliklər arxasından süzülüb gələn bu şölələrin, şəfəqlərin hər birində bir əsrin, bir qərinənin sirləri gizlənməkdədir...» (106, 22–23).

Azərbaycan folklorunun çox zəngin və qüdrətli qolu olan Türkman folklorunda da bu, belədir. Demək lazımdır ki, Türkman folklorunda da andların ilkin olanları zərdüştilik və insanın hələ dərindən dərk edə bilmədiyi təsəvvürlərlə bağlı yarananlardır. İnsan Aya, Günəşə, oda, suya, göyə, yerə müqəddəs varlıqlar kimi baxmış və nəticədə andlar meydana gəlmişdir: «Bu Günəş haqqiyçi», «Bu Günəşə kor baxım», «Ocaq haqqiyçi», «Pirə yemind edirəm» və s.

İkinci qism yemindlər İslam dini ilə əlaqədar yaranmışlar: «Allah haqqiyçi», «Peyğəmbərin başıyçi», «Quran haqqıyçi», «İmam haqqıyçi» və s.

Sonrakı qism yemindlər Azərbaycan folklorunda olduğu kimi, bərəkət və qüdsiyyətlə bağlı yaranmışlar: «Duz-əkmək haqqıyçi», «Nemət haqqıyçi», «Bərəkət haqqıyçi».

Nisbətən sonralar isə insan təsəvvürləri dəyişdikcə köhnə andlarla bərabər, yeniləri də meydana gəlməyə başladı. Bunların arasında ata-ana, qardaş-bacı, övlad, əmi-dayı, xala-bibi və bu kimi əziz və yaxın adamlarla, namus, qeyrət, şərəf və s. ilə bağlı andlar daha çoxdur: «Mərd başıyçin», «Namusumda», «Şərəfimdə», «Canıva yemind olsun», «Adına qəsəm olsun», «Babamın canıyçin», «Qardaşımın canıyçin» və s.

Göründüyü kimi, Türkman folklorunda xalq ədəbiyyatının ilkin janrlarında olan yemindlər qədim zamanlardan müqəddəs, sonralar isə qismən də əziz saydıqları insan və varlıqlarla əlaqəli yaranmışlar.

DUALAR VƏ BƏDDUALAR

Dualar və bəddualar Türkman folklorunda ən geniş yayılan janrlardandır. Belə ki, indinin özündə belə onları hər an xalq arasında danışıq əsnasında eşitmək olur. Ta qədim zamanlardan dua (alqış) və bəddualar (qarğış) xalqın həyatında böyük rol oynamış, onların böyük mənası olmuşdur. Şübhəsiz, buna görədir ki, dua və bəddualar folklorun bayatı, nağıl, dastan, oxşama, ağı və s. kimi janrlarında geniş yer almışdır. İnsanlarda belə bir inam yaranmışdır ki, qarğış adamı tutur, onun başına pis hadisə gəlməsinə səbəb olur. Bu baxımdan hal-hazırda da qarğışlardan çəkinərək pis əməllərə yol verməməyə çalışırlar. Xeyirxah işlərə can atırlar ki, onlara dua etsinlər.

Maraqlıdır ki, bir çox türkdilli xalqlarda arxaik hesab edilən, lakin Kərkük dialektində bu gün də işlək sözləri mühafizə edib saxlayan «Kitabi-Dədə Qorqud»dan məlum olur ki, dua və bəddualar lap qədimdən mövcud olmuş və onlara inam da möhkəm olmuşdur. Məsələn, «Basatın Təpəgözü öldürdüyü boy»dan görünür ki, Təpəgözün Pəri anası Oğuz elinə bəd-

bəxtlik, bəla gətirmək üçün onun barmağına bir üzük keçirib «Oğul, sana ox batmasun, tənüni qılıc kəsməsün», – deyə xeyir-dua etdiyindən onun bədəninə nə ox batır, nə qılınc kəsir. Basat Təpəgözün bədənindəki «Axilles dabanı»nın yeganə gözü ilə əlaqədar olduğunu aydınlaşdırır və eli bəladan qurtarmaq üçün onun gözünə odda qızdırılmış süngü soxur.

Təpəgöz yeganə gözünü itirdikdə bunu elədiyi pis əməllərin nəticəsində ona edilən qarğışda görür və inanır ki, onu qarğış tutub. Öz-özünə deyir:

Ağsaqqalı qocaları çox ağlatmışam.
Ağ saqqalı qarğışı tutdu ola, gözüm, səni?
Ağ birçəkli qarıcuqları çoq ağlatmışam.
Gözi yaşı tutdı ola, gözüm, səni?
Bığcığı qararmış yigitcikləri çoq yemişəm.
Yigitlikləri tutdı ola, gözüm, səni?

Sonra isə Təpəgöz Basata qarğış edir:

Ala gözdən ayırdın yigit, məni!
Tatlu candan ayırsun qadir səni!

deyir və Basatı aldatmaq istəyir: «Mağarada iki qılınc var, biri qınlu, biri qınsuz. Ol qınsuz kəsər mənim başımı. Var, götür, mənim başımu kəs» (89, 105), – deyir.

Basat qılıncın sehrini öyrəndikdən sonra onu əldə edir. Təpəgöz inanır ki, qarğış Basatı ona görə tutmadı ki, öz günahları böyük olub.

Demək lazımdır ki, insanda yaxşı keyfiyyətlər aşılamaq, xeyirxah işlər sövq etmək, onu pis əməllərdən çəkindirməkdə alqış və qarğışların əhəmiyyəti böyükdür. İndinin özündə belə insan ağır bir işdən, bəladan, faciədən qurtaranda inanır ki, hər hansı bir xeyirxah əməlinə görəsə bu bəladan qurtardı. Odur ki, kiminsə duasının müstəcab olduğunu göz önünə gətirir. Bundan başqa, xeyir-dua insanlar arasında müəyyən

münasibətlərin yaranmasında və eləcə də onların əhvallarının yaxşı olmasında müsbət rol oynayır. Xeyir-dua, demək olar ki, Türkman folklorunu təmsil edən, İraqda yaşayan qardaş-bacılarımızın danışıqlarının bəzəyidir. Hər hansı iş üçün birinin yanına gedən qadının danışığında təqribən aşağıdakı sözləri eşitmək olar:

Qurbanın olum, başına dolanım.
Gözünə heyran, boyuna qurban.
Allah sağ olasan, dünya durduqca durasan.
Qadanı alım, önündə ölüm.
Sözünü şəkərdən kəsim.
Qan etdim, qapına gəldim.
Böyüyümsən, ağamsan.
Məni əliboş qaytarma,

İlk baxışda adi görünən «Qurbanın olum», «Başına dolanım», «Önündə ölüm», «Böyüyümsən, ağamsan» və eləcə də «Sənə fəda olum», «Ayağının altında ölüm, ağamsan» ifadələrinin hər birinin arxasında bir dünya məna durur.

Xalqın keçmişinin çox dərin qatları ilə sıx bağlı olan bu ifadələrin məna tutumu adamı heyrətə gətirir. «Qurbanın olum» ifadəsi xəstələnən adamın, xüsusən də uşağın başına qurbanlıq heyvan dolandırıb kəsməklə, bununla da şər qüvvəyə əvəz verdiklərinə, uşağın sağalacağına, qada-bəlanın, ağrı-acının qurban deyilən heyvana keçməsinə inamla əlaqədar yaranmışdır. İndinin özündə belə Azərbaycanda olduğu kimi, övlad-uşaqla bağlı müəyyən arzu-diləyin yerinə yetirilməsi ilə əlaqədar qurban deyilmiş, toğlu və ya qoçu kəsərkən mütləq onu uşağın başına dolandırıb kəsirlər. İraqlı tədqiqatçı İbrahim Daquqi bu münasibətlə yazmışdır: «Türkmanlar cocuq xəstələndiyi zaman və ya başına bir hadisə gəldiyi zaman ortaya əti yeyilən bir heyvan qoyurlar. Uşağın ətrafında dolandırıb kəsirlər. Sonra ətini fəqir-füqəraya, qonşulara paylayırlar. Beləliklə, xəstə şəfa tapır» (70, 81).

Maraqlıdır ki, bəzi Afrika qəbilələrində bu mərasim uşaqlar ərkənlik dövrünə çatanda da həyata keçirilir (70, 81).

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da bir adam xəstənin başına dolansa, xəstənin sağalacağına, onun isə öləcəyinə, kiməsə qurban və ya fəda olacağına inanırlarmış. Beləliklə, «Başına dolanım», «Qurbanın olum», «Sənə fəda olum» kimi dua mənalı ifadələrin ilkin mənasının müəyyən inanc və etiqadlarla əlaqədar yarandığı aydın olur.

Hətta kiçik uşaqlardan kimsə oturan bir şəxsin ətrafında oynayarkən, onun dövrəsinə fırlansa, uşağın başına bir hadisə gələcəyini zənn edərək, onun hərəkəti əks istiqamətdə yerinə yetirməsini məsləhət görərdilər. Beləliklə, uşağın xəta-bəladan sovuşduğuna inanardılar.

O ki qaldı «Ayağının altında ölüm, ağamsan», «Önündə ölüm, böyüyümsən, ağamsan» dualarına, qeyd etmək lazımdır ki, onlar daha qədim zamanlarda özünü göstərən mərasimlə əlaqədar yaranmışdır. Təəssüf ki, son əsrdə müəyyən tarixi, ictimai-siyasi səbəblər üzündən Azərbaycanda bu dualara xüsusi məna verən «ağamsan», «böyüyümsən» sözləri dualardan atılmış, nəticədə duaların ilkin yaranışının araşdırılmasında müəyyən çətinliklərə gətirib çıxarmışdır. Məsələ burasındadır ki, dua mənasında işlənən bu ifadələr «ağa», «böyük», «başçı» sözləri ilə sıx əlaqədə yaranmışdır.

Şifahi və yazılı ədəbiyyatdan görünür ki, qədimlərdə əşirət başçısı və ya çox mötəbər bir şəxs vəfat etdikdə qul və xidmətçilərindən öldürüb onun ayaq ucunda basdırarlarmış.

Azərbaycan yazıçısı Y.V.Çəmənzəminlinin «keçmişlə bağlı olan adət və ayinlərin təsvirini... keçmişimizə aid müəyyən fikirləri bədiiliklə və yəqinliklə verən (161, 7) «Qızlar bulağı» romanında belə bir mənzərənin şahidi oluruq:

«O biri gün şahzadənin dəfn mərasimini keçirdik. Qullar iyirmi addım uzunu və iyirmi addım enliyində iki adam boyu bir yer qazdılar. Dibinə söyüd yarpaqları döşəndi. Şahzadənin çadırı bütün müxəlləfatı ilə buraya yerləşdirildi. Meyiti geyin-

dirib, silahlarla bərabər yatağına uzatdılar, çadıra gətirdilər. İrəliki gün diz çökən on səkkiz qız Aliatay adlı çopur bir cəllad tərəfindən bir-bir boğulub öldürülmüşdü. Bunları da şahzadənin ətrafına düzdülər» (162, 90).

Əsərin başqa bir yerində oxuyuruq: «Vəliəhd xüsusi bir təntənə ilə dəfn olundu və doqquz bakirə qız boğulub qəbrinə qoyuldu» (162, 99).

Demək lazımdır ki, «bunlar ölən adamın yenidən dirilməsi etiqadına inamın nəticəsidir və bu səbəbdən öldürülüb basdırılanlar, guya, dirilib öz ağalarının qulluğunda duracaq, ona xidmət edəcəklər» (41, 59).

Bu inam qədim misirlilərdə də mövcud olmuşdur (162, 27).

Qeyd edək ki, dua və bəddualar xeyir və şər təsəvvürlərlə, inamlarla əlaqədar meydana gəlmişlər. İnsanlar inanmışlar ki, dua uğura, bəddua isə uğursuzluğa səbəb olur. Bu gün belə işlənən dualaların əksəriyyəti insanların arzu və istəklərini əks etdirmək baxımından maraq doğurur:

Bərxudar ol! – Ömrün uzun olsun, xoşbəxt ol!
Evin avand olsun! – Evinə bərəkət düşsün!
Evindən ev törəsin! – Oğul-qız toyu görəsən!
İşin asand olsun!
Yeddi oğlan babası olasan!
Cigərin yanmasın! – Övlad dağı görməyəsən!
Ömründən doyasan! – Ürəyincə, doyunca yaşayasan! və s.

Dualar bir çox hallarda bir neçə duanın birləşməsindən ibarət olur. Arzu-dilək ifadə edən, anaların qızı və oğlu ilə bağlı söylədiyi dualar bu baxımdan səciyyəvidir:

Ağ baxt
Altun taxt
Qara xəlayiq
Bayaz əkməkçi
Siyah kölə
Dilərəm qızıma
Şəri şeytannan
Quru böhtannan
Həyasız arvaddan
At şərinnən
Od şərinnən
Ərz və asiman şərinnən

Yıxılmış divardan
Qudurmuş köpəkdən
Bəkliyəsən, saxlıyasan
Oğlumu, ey Allah! (129, 16)

Dualar Kərkük dolaylarında dillər əzbəri olan «Arzu–Qəmbər» dastanında da öz əksini tapmışdır:

Bu sular uluğ-uluğ,
Qızlar doldurur tuluğ.
Bilərzigim tapana
Şirin canım muştuluq.

Türkman folklorunda xoyrat və manilərin böyük bir qismi dualarla bağlı yaranmışdır:

Qurbanam qaşına yar!
Qoy dönüm, başına yar!
Məni bu qəmdən qurtar,
Dolandır başına yar!

Ocağın;
Daim yansın, ocağın!
Övladın qeydinə qal,
Kor olmasın ocağın.

Təkcə elə bu fakt duaların xalq arasında nə qədər geniş yayıldığına dəlalət edir.

BƏDDUALAR

Bəddualar da inanc və dualar kimi Türkman folklorunda möhkəm yer alan janrlardandır. Xalqın keçmiş həyat tərzini, adət-ənənəsini, etik və estetik görüşlərini tədqiq etmək baxımından bəddualar xüsusi əhəmiyyət kəsb edir.

Professor A.Nəbiyev Azərbaycan folklorunda qarğışlardan danışarkən onları üç qrupa bölmüşdür: mərasimlərlə, məişətlə, mifoloji və dini təsəvvürlərlə bağlı yaranan qarğışlar (104, 58).

Demək olar ki, Kərkük dolaylarında təsadüf edilən bədduaları da təxminən üç qrupa bölmək olar:

1. Dini təsəvvürlərin təsiri ilə yarananlar.
2. Mərasimlərlə bağlı yarananlar.
3. Məişətlə bağlı yaranan bəddualar. İraq–Türkman folklorunda bunlar lap çoxdur (86, 63–65).

Bəddualaların bir çoxu keçmişdə mövcud olmuş, yavaş-yavaş yaddan çıxmaqda olan xəstəlikləri xalqın hafizəsində saxlamaq baxımından maraq doğurur. Belsarma olasan! – Belin sınsın; Qan qusasan, Qırran qırsın – Taun tutsun! – Kökünüz kəsilsin; Yaman sancı tutasan; Gözünə qara su ensin; Gözünə mil çəkilsin; Qudurasan; Ələt süpürsün! – Taun (çuma) aparsın; Pərkəm tutasan! – Partlamaya düşəsən! və s.

Qeyd etməyə dəyər ki, Türkman folklorunda rast gəlinən bəddualaların əksəriyyətinə bu və ya başqa deyim tərzində Azərbaycanda da təsadüf edilir. Lakin elə bəddualar da var ki, yalnız İraq–Türkman folkloruna aiddir. Məsələn:

«Səni Soğançı Əhməd tükanı önündə görrəm, inşallah!» – dedikdə «Səni dar ağacından asılmış görrəm» anlamı göz önünə gəlir. Məsələ burasındadır ki, Kərkük şəhərinin bazar meydanında Soğançı Əhmədi tükanı önündə günahı olanları dar ağacından asarlarmış. İfadə bununla əlaqədar yaranmışdır.

«Altunuvuz yez olsun, kətanuvuz bez olsun!» qarğışı isə Kərkükdə Qala və Qorya məhəllələri arasında yarı hənək, yarı gerçək narazılıqlardan ortaya çıxan söyüş, istehza və s. anlamını verən aşağıdakı misradan yaranmışdır:

Sığır əti yeyən, atlası bez, qalalılar,
Quyu suyu içən, altunu yez, qalalılar (86, 71).

Türkman folklorunda bəddualarla – qarğışlarla bağlı yaranmış çoxlu xoyrat və manilər də vardır (86, 66–69). Məsələn:

Bağçada sərdim kilim,
Gəl əyləş, mənim gülüm.
Nə dedim küsdün yenə,
Lal olsun mənim dilim.
Yaman yara;
Yaman dərd, yaman yara.
Yamanlar yaxşı oldu
Biz olduq yaman yara.
Məni yardan edəni
Çıxartsın yaman yara.

Demək lazımdır ki, təbiətdə baş verən hadisələrdən bir çox hallarda baş açа bilmədiklərindən onlarda sözün gücünə, sehrinə inam güclü olmuşdur. «Kitabi-Dədə Qorqud»dan gəlmə «Ol zəmanda bəklərin alqışı alqış, qarğışı qarğış idi. Duaları müstəcab olardı» (89 52) inam və etiqadı Türkman folklorunda da dərin izlər buraxmışdır. Bunu biz astral görüşlərlə dolu olan «Arzu–Qəmbər» dastanında aydınca görürük. Xalq həyata keçirmək istədiyi arzu və diləyini qarğışlar vasitəsilə vermiş, beləliklə, qəhrəmanın məqsədinə çatacağına inanmışdır:

«Gəldilər tatgili qızın diləkçiliginə. Al etdilər, ver etdilər. Qız verildi. Yolu gəldi, kəbini kəsildi. Qızın cehizi alındı, xınalandı, qız getmək üstə oldu».

Arzunun nənəsi dedi: «Getsin boynumnan olsun, Qəmbər qalsın hə belə yana-yana».

Toyun tədarükü bitənnən sonra gəldilər qızı bəzətməğə. Qız ağlayır, oğlan ağlayır. Sağ aşiq olduqlarınnan gözlərindən qan gəlir. Oğlan da qapıda durub boynun bururu. Bir dənə gəldi qızın əsbabın geydirsin, bəzətsin. Oğlan dedi:

Hey hökülsün, hökülsün,
Qatlı dağlar sökülsün.
Arzunu bəzədənin
On barmağı tökülsün.

Arvadın on barmağı yuvı-yuvından düşdü. Sağ aşiqin duası keçdi. O dedi: – Bu gəlini kim bəzətsin? Bu dedi: – Bu gəlini kim bəzətsin? Bir dənə qalxdı, yaalla, yaalla, mən bəzədərəm. Qəmbər nədi, sözü belə keçsin? Qalxdı gəlini bəzətsin. Döndü Qəmbər dedi:

Mən Qəmbərəm dağ kimin,
Titrərəm yarpaq kimin.
Arzunu bəzədəni
Tərə geysin zağ kimin.

Xəbər gəldi. Dedilər: qalx, damun düşüb, dörd oğlun və kişin altında qalıbdı. Əli belli, dəlli belli leş çıxardırı. Arvad gəlini yerində qoydu, hurbi basdı, qoydu qaçdı» (25, 19–20; 26, 23).

Təəccüblü olsa da, xalq arasında bəddualaların gücünə əvvəllər olduğu kimi, indi də inananlar çoxdur. Onu da demək vacibdir ki, bəddualara daha dərindən nəzər saldıqda onların bir çoxunun lap qədim dövrlərlə, açıq-aydın özünü büruzə verən adət-ənənələrlə bağlı olduğunun şahidi oluruq. Məsələn, «Saçı kəsilmiş», «Saçın kəsilsin» qarğışları qədim inam və adətlərlə əlaqədar yaranmışdır. Keçmişdə Kərkük dolaylarında böyük günah işlətmiş adamların saçını qırxmaqla onu xalq arasında bədnam edərdilər. Məsələn, Azərbaycanda olduğu kimi, bakirə çıxmayan gəlinin saçını kəsib atası evinə qaytarmaq adəti Kərkük dolaylarında da olmuşdur (168, 42).

Tədqiqatçı İbrahim Daquqi bu münasibətlə yazır: «Əskidən toplunun dilinə düşən, lənətinə uğrayan hər gənc qızın, aləmə ibrət olması için saçı kəsilirdi» (70, 147).

İndinin özündə belə, ana qızına qəzəblənəndə, acığını soyutmaq üçün «Saçın kəsilsin», «Saçı kəsilmiş» qarğışını edir ki, bu da qədimdən qalma həmin adətlə bağlıdır.

Bundan əlavə, burada günahı və suçu olan adamın başını qırxar, üzünə qatıq sürtər, eşşəyə tərsinə mindirib küçələrdə

gəzdirər, biabır edərlərmiş. Xalq arasında indi də işlənən «Görürəm eşşəyə tərsinə mindirilmək istəyirsən» deyimi həmin adətlə əlaqədar yaranmışdır.

«İnanclar» janrından göründüyü kimi, tədqiqatçılar belə bir etiqada tapınmışlar ki, saçın qırxılması, yaxud kəsilməsi, guya, ömrün azalması deməkdir. Məhz buna görədir ki, folklorşünas B.Abdullayev «Dilimizdəki qarğış mahiyyətli «Saçı kəsilmiş», «Saçın kəsilsin» ifadələri də bu baxımdan şərh olunmalıdır» (41, 7) qənaətinə gəlmişdir.

Yeri gəlmişkən, qeyd edək ki, Türkman folklorunda yer alan «Saçın ələk olsun» bədduası – qarğışı tədqiqatçı B.Abdullayevin fikrinə dayaq olur. Məlumdur ki, vaxtilə ələk düzəldərkən at quyruğundan, əsasən də, ölmüş atın quyruğundan ələk düzəldərmişlər. Çünki sağlam atın quyruğunu qırxmaq, onun sahibi üçün böyük təhqir hesab olunub. Bunu İ.Şıxlının tarixi faktlar əsasında yazılmış «Dəli Kür» romanında aydın şəkildə görmək olur. Cahandar ağadan qisas almaq üçün düşmənləri onun atının quyruğunu qırxırlar. Bu hadisə heç vaxt dəyanətini itirməyən bəyi sarsıdır.

Buna olmuş faktlar əsasında şair H.Hüseynzadənin yazdığı «Gülnaz nənənin bayatıları» əsərində də təsadüf edilir: «Bu vaxt qəflətən atın ayağına güllə dəyib yaralayır. Düşmənin mühasirəsindən çıxmaq məqsədilə atdan cəld enən Kərəm, atın alnından nişan alır, at kişnəyir. O heç nəylə hesablaşmadan öz əziz dostu, havadarı, atasının atına bənzəyən qara xallı boz atını öldürür.

Kürün o tayına keçərkən Balasöyün: – A namərd, ata necə qıydın? – deyir.

Dərin həyəcan keçirən Kərəm: – Namərdlər yaralı atın yalmanını, quyruğunu qırxa bilərdilər, namussuz yaşamaqdansa, namuslu ölmək məsləhətdir, – cavabını verir» (141, 48).

O da məlumdur ki, hələ qədim zamanlardan mötəbər bir şəxs, adlı-sanlı cəngavər, əziz övlad öləndə, zəmanəmizdə ol-

duğu kimi, saçını yolmaq adəti olmuşdur ki, əslində, bunun özü də «özünə ölüm istəmək» baxımından edilirmiş. Məsələn:

Homerin «İliada» əsərində göstərilir ki, əziz dostu Patrokl öləndə Axilles və başqa cəngavərlər saçlarını yolur, cənazənin üstünə atırdılar (159, 484, 487). Eyni hadisəyə «Şahnamə»də İrəcin ölümü səhnəsində də təsadüf edilir (145, 78).

Qarğış mahiyyətli «Başına daş yağsın» ifadəsi isə Azərbaycanda olduğu kimi, böyük günah işlətmiş bir şəxsin daşqalaq edilməsi adətindən yaranmışsa, «Başına daş» bədduası qəbrə başdaşı qoymaq adəti ilə bağlıdır. «Başına daş» dedikdə kiməsə qarğış olunur ki, ya özü, ya da əzizi ölsün. «Başıma haranın daşını töküm» ifadəsi də bu adətlə əlaqədar yaranmışdır. Hələ lap qədim zamanlardan əzizi ölən adam öz əli ilə başına daş yağdırarmış. Firdovsinin «Şahnamə»sində nəql edilir ki, qədim dünya padşahlarından Kəyumərsin oğlu Səyaməkin ölüm xəbəri atasına çatanda qəlbi parçalandı, ciyərinə dağ çəkildi, göz yaşı tökdü:

Oğul dərdi düşsə dağa, dağ çəkməz,
Edib tərk təxti, töküb göz yaşı
Vurub başına öz əliylə daşı (145, 26) və s.

Qarğış mənalı «Başına kül» ifadəsi isə Azərbaycan folklorunda olduğu kimi, qədim inam və adətlə əlaqədar yaranmışdır. İt dişləmiş adamda qırx gün ərzində müəyyən əlamətlər özünü göstərsə (məs.: su görəndə qorxsa), onun qudurduğunu, sağalmağa güman olmadığını, başqaları üçün təhlükəli olduğunu zənn edərək qaranlıq bir daxmaya salar, bacadan başına kül tökərlərmiş ki, ölsün (168,74).

Mötəbər və əziz adamların ölümü zamanı başına kül töküb, saç yolmaq adətinin qədimdən mövcud olduğunu Azərbaycan və Kərkük şifahi ədəbiyyat nümunələri bir daha təsdiq edir:

Belə bağlar;
Dost başın belə bağlar.
Bülbül ağlar, gül açmaz
Verandı belə bağlar.
Can çıxma dost gəlincə
Görək nə deyib ağlar.
Kül o adam başına
Bedasıla bel bağlar.
Çək ayrılıq dərdini,
Gör ürək necə dağlar (74, 88).

Azərbaycan folklorunda nağıllarda, ağılarda, aşıq yaradıcılığında bu qədim adətin izlərinə hər an təsadüf edilir:

Bağça-bağda gül ağlar, *Adam var dəstinə verəsən güllər,*
Bülbül ağlar, gül ağlar *Adam var gözünə çəkəsən millər.*
Oğlu ölən analar *Tufarqanlı Abbas, başına küllər*
Başa tökər kül ağlar. *Nə günə qalmısan, qarı bəyənmir.*

Qarğış xarakterli «Çamur başuva», «Çamura batasan» ifadələri də çox qədim adətlə əlaqədar yaranmışdır. Hörmətli və əziz bir şəxs öləndə hüzr sahibi, eləcə də hüzr yerinə gələnlər başlarına, paltarlarına palçıq sürtərlərmiş. Özlərinə ölüm dilərlərmiş. Bu adət Kərkük bayatılarında da yer almışdır:

Kabab göziylə ağlar,
Sürmə göziylə ağlar.
Çamur onun başına
Xırxız öziylə ağlar (74, 229).

Təəccüblü olsa da, Kərkük dolaylarında yas mərasimi ilə bağlı bu adət indi də qalmaqdadır. Kərküklü folklorşünas Şakir Sabir bu münasibətlə yazır: «Ölüyə sayğı və sevgi dolayısilə qadınlar acı fəryad qoparır, başlarına çamur sürtür, dırnaqları ilə üzlərini cırmaqlayır, qanlar axıdır, saçlarını yolurlar» (168, 53).

Bu adətə Azərbaycan ədəbiyyatında da təsadüf edilir. Y.V.Çəmənzəminlinin tarixi əsərində göstərilir ki, şərbaf (toxucu) Kazım Ərdəbildə yağışlı bir gündə bir nəfərlə sözləşir. Paltarı və yerə düşən papağı palçıq olur. Kazım kişi sonra başına gələni belə təsvir edir: «Papağımı başıma qoyub gedəndə gördüm bir həyətə adamlar girib-çıxır. Birindən soruşdum ki, burada nə var, dedi ki, adam ölüb. Fikirləşdim ki, elə yaxşı oldu. Gedib həm başsağlığı verərəm, həm də ehsan plovundan yeyib qarnımı doyuraram. İçəri girib oturdum. Bir də gördüm ki, məclisdən durub gedənlər yanıma gəlib mənə başsağlığı verirlər. Lap məəttəl qaldım. Dedim, ya bu şəhərin əhli dəli olub, ya mən... Demə, bu şəhərdə adamı ölənin papağına palçıq sürtərmişlər ki, təziyədar olduğu bilinsin. Papağım palçıqlı olduğundan məni təziyədar biliblər» (162, 237).

Təəccüblü də olsa İraqın cənubunda yaşayan Göl ərəbləri arasında hörmətli və əziz bir adam öləndə başlarına və papaqlarına palçıq yaxmaq adəti indi də qalır: «Çox hörmətli bir adam, deyək ki, Şeyx, ya onun oğlu, qardaşı vəfat edəndə bütün tayfalara xəbər göndərirlər. Hər tayfa dəstə-dəstə gəlir. Qabaqda əlində tayfanın bayrağını tutmuş bayraqdar durur. Başlarına və paltarlarına palçıq yaxırlar» (113, 200).

Misallardan göründüyü kimi, insanın həyatı və məişətində geniş yer alan dua və bəddualar insan təfəkkürünün hələ kifayət qədər formalaşmadığı qədim zamanlardan qalma ibtidai təsəvvürlərlə, inam və etiqadlarla bağlı adət-ənənələrdə, mərasimlərdə mühafizə olunmuş, dövrümüzə qədər gəlib çıxmışdır.

FALLAR

Kərkük folklorunda fallar da geniş yayılmışdır. Demək olar ki, xalq arasında mövcud olan inamlarla bağlı fala baxma, su ilə, ulduzlarla, kitabla və s. fala baxmaya Kərkük dolaylarında da rast gəlinir. Bununla belə, Türkman folklorunda ən çox özünü göstərən inamlarla bağlı fala baxmadır. Əlimiz-

də olan folklor materiallarından çıxış edərək, burada yalnız inamlarla bağlı fala baxmadan söz açacağıq. Bu cür fala baxmanın başlıca xüsusiyyəti ondan ibarətdir ki, burada inamlar əsas götürülür.

Folklorşünas B.Abdullayev haqlı olaraq qeyd edir: «Fal qabaqcadan tutulmuş niyyətin, müəyyən ayinin icrası ilə həyata keçib-keçməməsinə inam aktıdır» (41, 42).

Tədqiqatçı falların «göz falı» və «qulaq falı» şəkilləri olduğunu göstərir (41, 8). Türkman folklorunda fallarla bağlı materiallar da alimin bu fikrini təsdiqləyir. Burada da falların əksəriyyətini arzu və niyyət tutmaqla bağlı inam və etiqadlar təşkil edir. Məsələn, əski çağlarda bir ailə başçısı, başqa bir məmləkətə səfərə çıxsa və dönüşü geciksə, arxasınca qara tüklü toyuq uçurmaqla niyyət tutulardı. Toyuq evin damından uçurulurdu. Əgər toyuq evin həyətinə və ya lap yaxınına düşərsə, qürbətdə olan şəxsin yaxın zamanda evinə dönəcəyinə inanırdılar. Şayət uzağa uçsa, səfərin uzanacağına inanırdılar.

Maraqlıdır ki, göz falı nümunəsi olan bu inam xoyrat və manilərdə öz əksini tapmışdır:

Uçurtdum qara tavuq,
Qondu Ərbilə yavuq.
Hamı gedənlər döndü,
Dönmədi başı savuq (13–7, 88).

Göründüyü kimi, göz falının əsas məğzi gözlə görülənə inamla bağlıdır. Göz falları içərisində lap qədim dövrlərdə, atəşpərəstliklə bağlı yarananları da vardır. Məsələn, Kərkükdə «Baba Gur-Gur» adlı məşhur yer vardır. Buradan daimi olaraq alov çıxdığına görə müqəddəs hesab edilir və buraya niyyət tutmağa, murad diləməyə gəlirlər. Bir ağac və ya əlləri ilə yeri eşələyirlər. Bir azdan alov gəlib buraya çıxsa niyyətlərinin yerinə yetiriləcəyinə inanırlar.

Yeri gəlmişkən, deyək ki, burada «Neft dərəsi» adlanan yer vardır. Qaşıntısı, qoturu, keçəlliyi olan adamlar burada

neft vannası qəbul edəndə çox vaxt göstərilən fəsadlar yoxa çıxır. «Baba Gur-Gur»un müqəddəsliyinə böyük inamın bir sirri də «Neft dərə»si ilə bağlıdır.

Göz falından fərqli olaraq, qulaq falında tutulmuş niyyətin yerinə yetirilib-yetirilməyəcəyi eşidilən sözlə, onun təsir gücü ilə əlaqələndirilir! Məlumdur ki, Novruz bayramı axşamı gənc qızlar, oğlanlar, qadınlar müxtəlif niyyətlər tutub evdən çıxırlar. Yoldan ötənlərdən və qonşu evlərdən eşitdiyi ilk sözlərlə tutduğu niyyəti tutuşdurur və nəticə çıxarırlar. Yaxşı söz uğur, pis söz uğursuzluq əlaməti hesab edilir. Şübhəsiz, bu inama görədir ki, bayram axşamı kiminsə qeybətini etmək, acı, qəlbbulandırıcı söz demək və s. qəbahət sayılır. Bayram axşamı, adətən, hamı ürəkaçan sözlər deyir, şənlənir.

Göründüyü kimi, qulaq falında hər şey eşidilən sözdən asılı olur. Bu cəhətdən «Cümə daşı atmaq», qulaq falına ən yaxşı nümunə kimi səciyyəvidir.

Hər hansı bir qadın səfərə çıxmış bir yaxını barədə və ya bir xəstənin şəfa tapması barədə niyyət tutaraq cümə namazının azanı oxunarkən bir yol başında yolun hər iki tərəfinə daş atır və namaza gedənlərin danışdığı sözlərdən asılı olaraq tutduğu niyyətin yaxşı və ya pis olacağı barədə nəticə çıxarırdı.

Professor A.Nəbiyevin doğru olaraq göstərdiyi kimi, Türkman folklorunda da «xalq arasında inamlarla əlaqədar yaranan fallarda inam izi daha çox mühafizə edilmişdir. Onlarda fala çevrilmə prosesi elə bil tam başa çatmamışdır» (104, 71).

Məhz buna görə də inamlarla ikili xarakter daşıyan falları «inanclar» bölməsində verdik.

Nəhayət, demək lazımdır ki, fallar, eləcə də inanclar, dualar, bəddualar, yemindlər, xalq mərasim və nəğmələri qədim adət-ənənələrin yaranışı və keçdiyi qatlarda nə kimi keyfiyyət dəyişikliklərinə uğradığını aydınlaşdırmaqda misilsiz əhəmiyyətə malikdir.

II FƏSİL

XALQ MƏRASİM VƏ NƏĞMƏLƏRİ
DİNİ BAYRAM VƏ NƏĞMƏLƏRİ
MƏİŞƏT MƏRASİM VƏ NƏĞMƏLƏRİ
YAS MƏRASİM VƏ NƏĞMƏLƏRİ
TOY MƏRASİM VƏ NƏĞMƏLƏRİ

XALQ MƏRASİM VƏ NƏĞMƏLƏRİ

Türkman folklorunda çox geniş yayılan janrlardan biri də xalq mərasim və nəğmələridir. Mərasim və nəğmələr üç yerə bölünür: mövsüm mərasim və nəğmələri; dini mərasim və nəğmələri; məişət mərasim və nəğmələri. Demək lazımdır ki, xalq mərasim və nəğmələri insanı beşikdən qəbrədək müşayiət edir. Belə ki, insan doğulur, nəsil artırır, nəhayət, həyatdan köçür. Bu da folklorda doğum, toy, yas mərasimləri, onlarla oxunulan nəğmələrlə nəsillərin yaddaşında əbədiləşdirilir. Təbii ki, məqamına görə bir qism mərasim nəğmələri qəm, qüssə, kədər, hüznlə bağlı yaranır. Başqa bir qism nəğmələr arzudilək, şadlıq, sevinc, gözəl əhvali-ruhiyyəni əks etdirir.

Mövsüm mərasim və nəğmələrində isə ayrı-ayrı təbiət hadisələrinə inam və etiqadlar öz əksini tapır. Burada yağışın yağması, küləyin əsməsi, ümumiyyətlə, oda, suya, küləyə və s. inam və etiqadlarla əlaqədar yaranan mərasim və nəğmələr üstünlük təşkil edir. Bu nəğmələrdə, hər şeydən əvvəl, diqqəti cəlb edən onların qədimliyidir. Məsələn, küləklə bağlı nəğmədə antropomorfik təsəvvürün izinə düşürük:

Heydər, Heydər asa gəl,
Xırmanları basa gəl.
Əmin qızı ölübdür,
Durmagınan yasa gəl (52 v; 86, 338).

Göründüyü kimi, taxılı xırmanda sovurulmamış qalan insan küləyi köməyə çağırır, onu insaniləşdirir və həm də deyərdik ki, Azərbaycan folklorunda olduğu kimi ilahiləşdirir (104, 32).

Mövsüm mərasim və nəğmələri arasında daha çox yayılanı yağışın yağması ilə əlaqədar olanlardır. Demək olar ki, Kərkük dolaylarında yağış çox yağmır. Lakin bəzən elə yağışlar olardı ki, çaylar və arxlar daşar, küçələri, evləri su basar, körpülər yıxılar, əkinlər məhv olardı. Belə olanda camaat «Allah afətdən saxlasın!», «Ya Səttar, yardım et!» – deyərdilər.

Kərkük dolaylarında belə afətlər heç yaddan çıxarılmazdı. Bununla belə, burada, əsasən, quraqlıq keçərdi. Yayda və payızda quruyub bağrı çat-çat olmuş torpaq payızın sonu və qışın əvvəlində ilk yağışı səbirsizliklə gözləyər, kəndlilər gözlərini səmadan çəkməzdilər. Burada vaxtına görə bahar yağışı, çisə, sis, pələ, çiləmə, qoca börkü, qəri muncuğu, at quyruğu, nəm-nəm yağışları olur. Bunların arasında yavaş-yavaş yağaraq torpağın canına hopan pələ ən xeyirli yağış hesab olunur. Gözəl bir pələ düşsə, üzlər gülər. «Pələ bərəkətli bir ilin elçisidi, pələ yağdiysə, çörək bol olacaq» – deyərdilər. Yağmur gecikərsə, keçmiş qıtlıq illərini göz önünə gətirərdilər. Əkin-biçinlə əlaqəsi olmayanlar belə, yağmurdan, əkindən söz salardılar. Torpaqdan ağaclara, quşlara, insanlara qədər yağış üçün böyük bir intizar olardı. Səmada görünən hər topa bulud yalvaran baxışları özünə çəkərdi. Bəzən günlərlə topa buludlar Kərkükün üstündən çəkilməz, yenə də yağmazdı. Gözlərdə parlayan işıq, ürəklərdə doğan ümid sönərdi. «Yox, yox, bu il də bildirki kimin əkin-biçin olmaz», – deyərdilər. Fəqir-füqəra pərişan olar, məmləkətin üstünə bir ümidsizlik çökərdi. Su ağzında bağçası olanlar arasında qovğa düşər, qanlar tökülərdi. Qıtlıq və aclıq olardı.

Bir yağış arzusu ilə «Kosa gəldi» və eləcə də «Çəmçələ qız» mərasimlərinə hazırlıq görülər, yağmur duaları oxunardı (168, 113–114; 70, 153). Bu mərasimlərdə, demək olar ki, bütün məmləkət iştirak edərdi. Əhali üç gün oruc olardı və hətta üçüncü gün bazar belə bağlanardı. Məmləkət əhli bəlli yerdə yığışardı. Qurbanlar kəsilərdi. Böyük qazanlar qurub «Yağmur aşı» bişirərdilər. Dua mərasimi yenidən başlanardı. Molla və qazı əbasını tərsinə geyərdi. Namaza durduqdan sonra oruclarını «Yağmur aşı» ilə iftar edərdilər. Hər kəs əvvəlcədən topladığı yüz xırda daşı bir-bir arxa və ya çaya atar, hər daşı atdıqdan sonra ayə oxuyar və axşama yaxın salavat çevirib evə dönərdi (168, 113).

Axşam isə Ulu Tanrıya qarşı «Kosa gəldi», yaxud da «Çəmçələ qız» mərasimi keçirilərdi.

Kosa, demək olar ki, Azərbaycanda olduğu kimi, üzünü qaralar, cılğı (keçi dərisi) geyər, keçədən papaq, qulaq, buynuz, quyruq düzəldər, boynuna qanqavur (zınqırov) taxar, özünü tanınmaz və əcaib bir hala salardı. Kosa ev-ev gəzər, qapıları döyər, atlanıb-düşər, cürbəcür oyunlar çıxarar, arxasınca gedənlər onu Azərbaycanda «Kos-Kosa» və «Yağışı çağır» mərasimlərində olduğu kimi (78, 66), ənənəvi mərasim nəğmələri ilə müşayiət edərdilər.

Və ya:

Allah bir yağış elə,
Dam-divarı yaş elə.
Paşa qızı keçəndə,
Babucunu yaş elə.

Allah bir yağış elə,
Dam-divarı yaş elə.
Əmim oğlu keçəndə,
Əlbəsəsin yaş elə.

Açın anbar ağzını,
Verin yağış payını.
Verəni xatın olsun,
Verməyən qatır olsun (52v, 38; 168, 114).

Kosaya qapı açılar, ona yağ, düyü, pendir və digər nəsnələr verərdilər. Açılan qapılardan və ya damlardan Kosanın başına bol-bol su tökərdilər. Açılmayan qapını döyər: «Kosa gəldi, qapını qırdı», – deyər və oxuyardılar:

Ha dura-dura yorulduq,
Tütünüvüzdən boğulduq.
Verəni xatın olsun,
Verməyən qatır olsun.

Kosaya pul və hər cür ərzaq verərdilər. Bəzən toplanan ərzaq o qədər çox olardı ki, onu at və ya uzunqulaq üzərində daşıyardılar.

Demək lazımdır ki, yığılan pula bir toğlu və ya erkək alıb Allah rizası üçün qurban kəsər, bişirər və yoxsullara, kimsəsizlərə paylayardılar (70, 153). Yığılmış ərzağa gəlincə qeyd etmək vacibdir ki, sabahısı gün məhəllədə böyük qazan qurular, yığılmış nəsnələrdən «Yağış aşı» bişirilərdi. Yoldan keçənlər, fəqir-füqəra «Yağış aşı»ndan yeyib dua oxuyardılar. Dualar məscidlərdə də oxunardı.

«Kosa gəldi» ilə bərabər, «Çəmçələ qız» mərasimi də keçirilərdi. Bu mərasimdə xaçşəkilli bir ağaca libas geydirib qapı-qapı gəzdirər və mahnı oxuyardılar:

Çəmçələ qızım aş istər,
Allahdan yağış istər.
Açın anbar ağzını,
Verin yağış payını.
Hey Çəmçələ, Çəmçələ,
Çəmçələm yağış istər,
Hüseyni yağlamağa,
Beşigi bağlamağa
Verənə Allah versin,
Verməyənə də versin.
Oğlu kürəkən dursun
Qızı həlhələ versin.
Ver Allahım ver.
Yağmurunnan sel.
Köpəkli xırman
Qoç-qoyun qurban.
Hey Çəmçələ, Çəmçələ!
Çəmçələm yağış istər,
Dam-divarı yaş istər.

Qeyd etməyə dəyər ki, «Çəmçələ qız» bəzən müqəvva əvəzinə canlı insan olurdu. Onun başını bezlə sarıyar, boynunun

ardında ağız, burun, qaş, göz düzəldərdilər. Boynuna bir ip salıb «Çəmçələ qız»ı oynadar və nəğmə oxuyardılar:

Çəmçələ qızım yağışdır,
Hər gələnə bağışdır.
Açın xəznə (anbar) qapısın
Verin Allah borcunu.
Verənlər xatın olsun
Verməyən qatır olsun və s.

Sonra bir qab buğda, bir qab un, düyü, yumurta, çörək, xurma və s. Allah verən nəsnələr istərdilər.

Maraqlıdır ki, «Çəmçələ qız» və başqalarının da başına evlərdən su tökərdilər (168, 114).

Evlərdən dilənilən nəsnələrdən «Yağmur aşı» – lətkə (ərik qurusu ilə bişirilən plov) bişirilər, fəqirlərə, yoldan keçənlərə paylardılar ki, yeyib dua oxusunlar. Yeri gəlmişkən, qeyd edək ki, Kərkükdə son böyük «Yağmur duası» 1952-ci ildə olub (168, 113).

O da maraqlıdır ki, bir yağış təmənnası ilə bir-birini, eləcə də seyidləri qəflətən itələyib axar suya salmaq adəti də vardır.

Yağış yağanda isə uşaqlar birağızdan təkrar-təkrar oxuyardılar:

Yağış yağırı,
Qurd doğuru.
Oğlan (çaqqal) nənəsin boğuru,
Qıq, qıq, qıq (86, 321, 168, 21).

Yağış-yağmurla bağlı keçirilən mərasim və nəğmələr bir tərəfdən Kərkük dolaylarında qədimdən bəri insanların həyatı, məişəti, dünyagörüşü, etiqadları barədə əvəzsiz məlumat verirsə, digər tərəfdən də Türkman folklorunun Azərbaycan folkloru ilə qırılmaz tellərlə bağlı olduğunu bariz şəkildə əks etdirir. Təkcə onu demək kifayətdir ki, yağış-yağmurla bağlı

qapı-qapı gəzib ərzaq məhsulları toplamaq, onu bişirib camaata paylamaq, «Kosa gəldi» ilə bərabər, «Çəmçələ qız»ın müqabilində bir gəlinciyi bəzəyib qapı-qapı gəzdirmək, qurban kəsmək, dua mərasimlərindən sonra yağmur aşı yemək, çaya daş atmaq ənənəsi, biri-birini və ya seyidləri qəflətən itələyib axar suya salmaq və s. dediklərimizə dayaq olur (68, 80–81; 104, 30–33; 41, 123–130).

Qeyd etməyə dəyər ki, daşın köməyi ilə yağış yağdırılacağına inam təkcə Azərbaycanda və Türkman folklorunda deyil, bəzi başqa xalqlarda da vardır. Yakutlarda «sata», altaylılarda «yada», qıpçaq qrupuna daxil olan bəzi xalqlarda isə «çada» adlı yağış daşı vardır (41, 127; 121, 44).

Yağış daşı türk xalqlarında mifik keyfiyyətli olmuşdur. İnama görə ilkin keyfiyyəti yağış yağdırmaq olan bu daş at, öküz, keçi, inək, ayı, qoyun və qurdun qarnında olurmuş. «Bu deyilənlər içərisində ən qüdrətli yağış daşının qurdun qarnında olması faktı, şübhəsiz, bizi daha çox maraqlandırır. Məlum olduğu üzrə qurd tək bizdə yox, əksər dünya xalqlarında sayılan, seçilən müqəddəs heyvanlar cərgəsində olmuşdur» (41, 129; 121, 44). Qurdun müqəddəsləşdirilməsi, ona bu münasibət, təbii ki, keçmişdə insanların daş vasitəsilə yağış yağdırmaq inamını artırmışdır. İbtidai insanlar arasında belə bir inam hökm sürmüşdür ki, canavar balalayanda susuzluğunu yatırmaq üçün qarnındakı daşın köməyi ilə yağış yağdırır. Bu münasibətlə tədqiqatçı B.Abdullayevin gəldiyi nəticə maraq doğurur:

«Etiqada görə, canavar balalayanda çox təşnə olur və bu vaxt, guya, o, qarnındakı daşın köməyi ilə yağış yağdırıb susuzluğunu söndürür. Məlumdur ki, canavarın balalama çağı aprelin sonu və may ayıdır. Həmin vaxtlarda arabir, həm də olduqca qısa müddətli, hətta bir anlıq yağışlar olur. Azərbaycanın əksər yerlərində buna «qurd balalayır» deyir və bəzən bu yağışı doğrudan-doğruya «Qurd yağışı» adlandırırlar» (41, 130–131).

Heç şübhəsiz, Kərkük dolaylarında dua mərasimlərindən sonra oruclarını «Yağmur aşı» ilə iftar edən adamların hər birinin arxa yüz daş atması və yağış yağanda Altun Köprü və başqa yerlərdə uşaqların bir ağızdan təkrar-təkrar:

Yağış yağırı,
Qurd doğuru.
Oğlan (çaqqal) nənəsin boğuru,
Qıq, qıq, qıq.

oxumaları da bununla əlaqədar yaranmışdır (86, 53, 55, 301; 168, 21)

O da maraqlıdır ki, yağış yağdırmaq məqsədilə Kərkük dolaylarında keçirilən «Çəmçələ qız» mərasiminə bənzər mərasimə serblər və türklərdə də rast gəlinir (41, 124). Serblər yağış yağdırmaq məqsədilə balaca qız uşağını soyundurub bədənini ot, bitki və güllərlə bəzəyir, həyətbəhəyət gəzdirərdilər. Dadol adı verdikləri uşağı hər qapıda dayandırardılar. Qızlar onun ətrafında rəqs edərək, yağış mərasim nəğmələri oxuyarlarmış.

Türklərdə isə uzun çəkən quraqlıqdan cana gələn kəndlilər bir adama tərsinə çevrilmiş don geydirib, başının üstünə örtük tutarlarmış. «Yağmur gəlini» adlandırılan bu şəxsi həyətbəhəyət gəzdirər, evlərin üstündən onun başına su tökərlərmiş. Sonra hamılıqla bulaq üstünə gedib yağmur duası oxuyarlarmış.

Maraqlıdır ki, türklərdə özünü göstərən bu mərasimə bənzər səhnə bahar bayramı zamanı Kərkük dolaylarında da özünü göstərir. Keçi dərisi geyərək quyruq, qulaq düzəltmiş bir şəxs özünü camaatın arasına verir, atlanıb düşür, gülməli hərəkətlər edərək adamları güldürür. Onun quyruğundan, qulağından dartır, şənlənir, sonra isə üstunə su tökürlər (70–152).

Demək vacibdir ki, Kərkük dolaylarında da bahar mərasimləri Azərbaycanda olduğu kimi, silsiləvari xətt təşkil edən, bir-birini tamamlayan zəncirvari nəğmələr və oyunlardır

(155, 129). Bunların arasında «Atlı qarınca» və «Bakla» diqqəti cəlb edir. Bu mərasimlər əsrimizin 40–50-ci illərində Azərbaycanın Tovuz rayonunda bahar bayramı ilə bağlı çərşənbə axşamları icra edilən «Keçə papaq» mərasimində də icra olunurdu. Gənc oğlanlar qız paltarları geyərək bəzənir-düzənir, zurna və nağaranın sədaları altında oynayaraq adamları əyləndirirdilər (70 – 151 – 152).

Bununla belə, qeyd etmək vacibdir ki, «Kosa gəldi» və ya «Qodu» xüsusilə fərqlənir. Bu mərasim, hər şeydən əvvəl, qışla yazın qarşılaşmasının rəmzi olmaq baxımından diqqəti cəlb edir. İnam və etiqada görə qışın qoruyucusu olan şər qüvvələri qovmaq üçün türk xalqları və onların qamları keçinin dərisindən, buynuzundan yarınmışlar. Belə ki, «Bayram və mərasimlərdə qamlar – şamanlar üzərlərinə keçi dərisi atar, papağına keçi buynuzu bərkidərmiş. Onlar özlərini keçiyə oxşatmaqla günəşlə mifik ilişgi yaradır və guya, bununla da insanları yamandan, şər qüvvələrdən qoruyurlarmış» (121– 65).

Kosa da, Qodu da mifoloji görüşlər, baxışlar dünyasında boya-başa çatdıqlarından onların mifoloji təfəkkürlə səsləşməsi təəccüb doğurmur. Bolluq bəlgəsi olan keçi (194–663) bir çox xalqların mifik görüşləri ilə səsləşən obrazdır.

Onu da demək yerində olardı ki, Fransa, İtaliya, Hollandiya, Belçika və s. kimi ölkələrdə xalqlar yazın gəlməsini türkdilli xalqlarda olduğu kimi, bayram edir, şənlənirlər (182; 121, 28).

Azərbaycan folklorunda «Qodu-Qodu» töreni də, hər şeydən əvvəl, yazın gəlməsinə həsr edilir. Burada Qodu günəşin rəmzi, onun bəlgəsidir. Günəşin rənginə uyğun qırmızı parçadan düzəldilən gəlincik Qodu adlanır. O da maraqlıdır ki, Qodu ikili səciyyə daşıyır: günəşi çağırmaq, aramsız yağışı kəsmək, başqa bir tərəfdən də yağışı çağırmaq. Professor M.Seyidov bu münasibətlə yazır:

«Qodu əksliklərlə, istiliklə, nəmişliklə ilişgili olduğundan o, güləndə gün çıxır, ağlayanda yağış yağır, soyuq olur. Buradan apaydın görünür ki, Qodu iki əksliyin başlanğıcıdır.

Axı, bir də Günəş hər iki təbiət hadisəsinin, istinin də, soyuğun da, quraqlığın da, yağışın da yaradıcısıdır» (121–18).

Bu, Türkman folklorunda da elə belədir. Yazın gəlməsini arzulayanda da, yağışın yağmasını istəyəndə də «Kosa gəldi» və ya «Çəmçələ qız»a müraciət edilir. Lakin Kərkük dolaylarında vaxtilə əkin daha çox dəmyə yetişdiyinə görə, yəni su qıtlığından yağış-yağmura böyük ehtiyac olduğundan, yağmur mövsüm mərasimi daha qabarıq şəkildə özünü göstərir. Odur ki, yağmur mərasim nəğmələri həm keyfiyyət, həm də kəmiyyətcə fərqlənirlər.

Türkman folklorunda özünü göstərən mövsüm mərasimlərindən biri də hər il sentyabr ayının 14-cü gecəsi qeyd edilən «Saya» mərasimidir. Bu şənlik vaxtı köhnə cürdək, küpə və s. saxsı qablar damdan atılıb sındırılarmış, fişəng atılar, tonqal qalanarmış. Bununla da damda yatmaq vaxtının, bir sözlə, yayın qurtardığını göstərirlərmiş. Uşaqlar arasında indi də qalan «Sayadan, ilan çıxmaz qayadan» bununla əlaqədar yaranmışdır (168, 18; 86, 56).

Azərbaycan folklorunda geniş yayılan sayalar – sayaçı sözlər isə müxtəlif mərasimlərdə, məsələn, döl, qırxın, yaylağa köçmə, arana dönmə və s. vaxtlarda özünü göstərmişdir (68, 76). F.Köçərli qeyd edir ki, saya fars dilində kölgə deməkdir, məcazi mənası isə himayə, müdafiədir. Azərbaycanlılar isə bu sözü nemət, yaxşılıq, xeyirxahlıq mənasında işlədirlər. Buradan da sayaçı nemət gətirən, bolluq gətirən mənasına gəlib çıxır (90, 1 – 10).

Saya sözü və mərasimi barədə Azərbaycan folklorşünası Ə.Axundovun da fikri böyük maraq doğurur. Alimin fikrincə, saya «say» sözündəndir. Çox ehtimal ki, bu söz qoyunları cütləmək və saymaqla əlaqədar olduğu üçün saya adlanmışdır. Sonralar qoyuna da saya demişlər (60, 136).

Qeyd etməyə dəyər ki, Kərkük dolaylarında keçirilən «Saya» mərasimi bir çox cəhətdən Azərbaycan folklorunda

yer alan Saya mərasim və nəğmələri ilə səsləşir. Kərkük dolaylarında da payızın əvvəli nemətin bolluğu dövrüdür. Burada da sentyabrın ortaları qırxın dövrüdür. İraqda, ümumiyyətlə, havalar çox isti keçdiyindən yazda və yayda qoyunları qırxmaq olmaz, əksinə, yayda qoyunları tüklü saxlayırlar ki, qızmar günəş onları məhv etməsin.

Ehtimal etmək olar ki, Kərkük dolaylarında payızın gəldiyini göstərən «Saya» mərasimi keçmişdə Azərbaycan folklorunda özünü göstərən başqa cəhətləri də əhatə etmişdir.

Qeyd etmək lazımdır ki, Kərkük dolaylarında Novruz bayramı az keçirilir. Bəllidir ki, Azərbaycan, Tacikistan, Özbəkistan, İran, Əfqanıstan və s. ölkələrdə Yeni il bahar bayramı mart ayının 21-də keçirilir. Bu vaxt təbiət oyanmağa, ağaclar puçurlamağa, ot göyərməyə başlayır. Kərkük dolaylarında bu vaxt artıq yazın qızğın çağı olur. Hərarət bəzən 35–38 dərəcəyə qalxır. Folklorşünas Şakir Sabir Kərkük dolaylarında baharın gəlməsini fevralın ortalarından hesablayır və yazır: «1957-ci ildə gözəl bir bahar günü yüz metrə qədər az bir parça yerdə rəngləri ayrı, qoxulu-qoxusuz, 25 çeşid gül və çiçəyi mən saymışdım» (168–23).

Tədqiqatçı sözünə dayaq olsun deyə məşhur Kərküklü şair Abdulla Safinin bahara həsr etdiyi və fevral ayının 16-da Kərkük dolaylarında gül-gülü, çiçək-çiçəyi çağırdığını göstərən şeirindən bir parçanı nümunə vermişdir:

Gül xurdasilə bən daxi tarixi saydım, Safiya,
Göstərdi yüz güli sünbül, olunca on altı Şubat.
Sən də açıl güllər kimi, oxu bu tarixim bənim
Kərkükdə açdı güli maha, olunca on altı Şubat (168, 23).

Demək lazımdır ki, bahar vaxtı Kərkük əhli həftədə bir dəfə, şəhər ətrafına seyrana çıxır, çəmənliklərdə istirahət edirlər. Bu seyrangaha «Çərşənbə sur» deyirlər. Fars kəlməsi

olub, toy-düyün və dörd bağ mənasında işlənir və dörd seyrangah yerini göstərir. Seyrangah yerləri bunlar olub: Sona gölü, Gavur bağı, Molla Abdulla təpəsi, Tisin bağları. Bu seyrangahlar zamanı qız və oğlanlar bir-birini görər, sevərdilər. Nağara və zurna sədaları altında oğlanlar ayrılıqda, qızlar da ayrılıqda halaya başlar, mahnı və şərqilər oxuyardılar.

DİNİ BAYRAM VƏ NƏĞMƏLƏRİ

Dini mərasimlərdən danışarkən ilk növbədə göz önünə Qurban bayramı, Aşura, Peyğəmbərin ad günü və Ramazan bayramı gəlir. Bunların arasında ən çox yayılanı Ramazan bayramıdır. Ramazan bayramını uşaqlar böyük səbirsizliklə gözləyir və nəğmələr oxuyurlar:

Gənə gəldi Ramazan, mollalar oxur azan,
Barmaqların tökülsün yarı əsgərə yazan.

Eləcə də:

Ramazan, qarnı bir qazan
Əlində kəfkir, qapılar gəzən.

Və ya:

Gənə gəldi Ramazan, əlində kəfkir-qazan,
Hər gecə bir ev gəzər, hanı nemətim yazan.

Demək lazımdır ki, Kərkükdə dini bayramların yaddaşlarda qalması üçün bir sıra tədbirlərə əl atılır. Təkcə onu demək kifayətdir ki, Ramazan və Qurban bayramlarının hər biri dövlət tərəfindən üç gün istirahət günü elan edilib.

Azərbaycanda Novruz bayramında olduğu kimi, Kərkükdə də, xüsusən adları çəkilən bayramlara böyük hazırlıq işləri

aparılır. Evlərdə şərbətlər hazırlanır, xurmalı, şəkərli, cövüzlü, badamlı külçə bişirilir. Azərbaycanda Novruz bayramı zamanı bişirilən halvaya qara istiot, darçın, mixək, razyana, cövüz, zəncəfil, hil və s. qatıldığı kimi, Kərkük dolaylarında da bişirilən yeməklərə, xüsusən də külçəyə müxtəlif ədviyyələr qatılır. Bunu uşaqların oxuduqları nəğmələrdən də görmək olur:

Bayrama qaldı bir həftə
Hilli, bibərli küftə.

Bayramda növbənöv yeməklər hazırlanır. Süfrənin şahı hesab edilən, ərik qurusu ilə hazırlanan lətkə aşının (plov) süfrədə olması isə mütləqdir.

Maraqlıdır ki, bütün İraqda olduğu kimi, Kərkük dolaylarında da adamlar bayram ərəfəsində deyil, bayram sabahı bir-birilərini təbrik edirlər. Bayram vaxtı qadınlar bəzənir, düzənir, daha gözəl görünməyə çalışırlar. Bayram vaxtı böyüklər uşaqları öpür, onlara hədiyyələr verirlər; uşaqlar onlara alınan təzə paltarı geyir və böyüklərin əllərini öpürlər. Uşaq-böyük üç gün seyrana çıxır, bir-biriləri ilə bayramlaşırlar.

Kərkükdə keçmişdə Cıdır meydanına yığışıb yarışa baxar, zurna və nağaraların sədaları altında seyrangahlarda rəqs edərlərmiş. Hər yan buğda və qarğıdalı qovurğası, qovrulmuş qabaq, qovun və qarpız tumu ilə dolu olarmış.

Bayram axşamı indinin özündə belə, qadınlar qəbiristanlığı və müqəddəs yerləri ziyarət edirlər. Qurban bayramında ikinci və üçüncü gün qoç və cöngələri qurban kəsər, ətini qonşu və kasıblara paylarlarmış. Bayram xeyirli və şən olsun deyə mövludlar keçirərmişlər. Ən yaxşı müğənnilər gecədən xeyli keçənə qədər oxuyardılar. Axırda xoyrat və mahnılar da oxuyardılar. Bir sözlə, dini bayramların yaddaqalan səviyyədə keçirilməsi Kərkük dolaylarında ənənəvi xarakter almışdır.

MƏİŞƏT MƏRASİM VƏ NƏĞMƏLƏRİ

Türkman folklorunda məişətlə bağlı mərasim və nəğmələr xalqın mənəvi həyatının ayrılmaz hissəsi olmaq baxımından böyük əhəmiyyət kəsb edir. Burada da məişət mərasim və nəğmələri «xalqın məişət həyatında mühüm yer tutmuş, onlarda xalqın çoxəsrlik adət-ənənəsi, dünyabaxışı ifadə olunmuşdur» (104, 48).

Xalqın həyat təcrübəsi, adət-ənənəsi, inam və etiqadları əsasında yaranan, insan həyatının hər bir mərhələsini özünəməxsus bir tərzdə əks etdirən məişət mərasim və nəğmələri, hər şeydən əvvəl, qədimliyi ilə seçilir. Bu baxımdan Azərbaycan folklorunda olduğu kimi, Türkman folklorunda da məişət mərasim və nəğmələri xalqın keçdiyi tarixi yolu, onun poetik təfəkkür tərzini, irəliləyişinin səmtini aydınlaşdırmaqda böyük əhəmiyyət daşıyır (41, 66).

Məişət mərasim və nəğmələrindən danışarkən ilk olaraq göz önünə yas və toy mərasim və nəğmələri gəlir.

YAS MƏRASİM VƏ NƏĞMƏLƏRİ

Kərkük dolaylarında bir evdə kimsə vəfat edəndə qadınlar fizəh (şivən) qoparır, ağlamağa başlayırlar. Bu vaxt ölü yuyulur, kəfənlənir və pambıqla döşənmiş sandığa (tabut) qoyulur, tabutun qapağı mıxlanır. Qışda axşam vaxtı keçinmiş adamın cənazəsi evdə saxlanılır. Səhərə qədər mərhumun yanında Quran oxunur. Səhərisi evdən çıxarılıb məscidə aparılır. Namazına durulur, azan oxunur. Sonra qəbiristanlığa aparılıb təlqin (ayə) oxunur və dəfn edilir. Qəbir torpaqla dolduruldуqdan sonra savab olsun deyə hərə üç ovuc torpaq götürüb qəbrin üstünə atır. Üç gün təziyə qurulur. Bəzən qəbir üzərində çadır qurulur və mərhum Cüməyə vüsal edilir. Yəni öldüyü gündən Cümə günü azana qədər qəbrin üstündə hər gün yasin oxunur.

Onu da demək lazımdır ki, hələ sağlığında müqəddəs yerlərdən kəfənlik ağ və zəmzəm suyu gətirib saxlayanlar da olurdu. Ölünü yuyarkən suya zəmzəm suyu qatıldıqda və mərhum həmin ağa bükülüb dəfn edildikdə cənnətlik olacaqlarına inanırdılar.

Mərhumun yaxın qohumları üç gün günəş çıxmazdan əvvəl və gün batarkən onun qəbrini ziyarət edir, birinci cümə axşamı və mərhumun yeddisi günü axşam halva çalıb evdə və ya qəbiristanlıqda fəqirlərə paylayardılar. Mərhumun qırxına qədər hər cümə axşamı aş bişirilir və bu xörəyə mərhumun adı anılaraq bir damcı duz atılır. Bişirilən aşı, əsasən, yoxsullara paylayırlar. Qırxıncı gün qəbrin üstü götürülür (168, 51), mərhumun başdaşında adı, olum və ölüm tarixi, ömür yolu ilə bağlı şeir parçaları yazılır.

Qırxında olduğu kimi, mərhumun ili tamam olanda da xeyrat (ehsan) verilir, bəlli yoxsullara isqat (zəkat) deyilən bir miqdar pul yardım edilir.

Demək lazımdır ki, təziyə Kərkük dolaylarında ölünün üçünə qədər davam edir. Üç gün dost və tanışlar, qonşular mərhumun qohumlarına sayğı göstərmək və kədərlərini azaltmaq, ölənə rəhmət oxumaq üçün təziyə məclisinə gedirlər. Fasilələrlə Quran oxunur. Fasilə vaxtı çay içir, siqaret çəkirlər. Quran oxunan məqamda isə məclisdəkilərə acı qəhvə vermək də adət halı alıb. İşi olanlar məclisi yalnız fasilə vaxtı, fatihə surəsini oxuduqdan sonra tərk edə bilərlər. Quran oxunan vaxt məclisə gələnlər salam verib otururlar. Lakin onların salamı cavabsız qalır. Quran oxunmasına fatihə ilə ara veriləndə məclisdəkilər «mərhaba» deyə yeni gələnin salamını alırlar. Əgər kimsə Quran oxunmayan zaman məclisə daxil olsa, salam verib əyləşir və ucadan «Əl-fatihə» deyir və hamı ürəyində fatihə surəsini oxuyur, yeni gələnin salamının cavabını yalnız bundan sonra «Mərhaba» – deyə alırlar. O da yenidən «Mərhaba» deyir. Əgər məclisə bir neçə nəfər gələrsə, ən yaşlı

adam «Əl-fatihə» deyir. Məclisi tərk edərkən təziyə sahibinə «Başın sağ olsun», «Qalanlar sağ olsun», «Allah əfv etsin» kimi sözlərlə təsəlli verirlər.

Kişilər kimi, üç gün ərzində qadınlar da yas saxlayır. Azərbaycanda olduğu kimi, qadınlar avaz ilə mərhuma münasib sazlama deyir və acı-acı ağlayırlar. Azərbaycanda ağı, Türkiyədə ağıt adlanan bu mərasimə Kərkük dolaylarında sazlamaq deyilər ki, bu da sızlamaq sözündən yaranmışdır (137– 90).

Əzizi, çox yaxını ölmüş qadınlar sifətlərini cırmaqlayır, sinə yırtır, saçlarını yolur, başlarına çamur sürtürlər (168, 53). Saçını yolmaq, başına çamur yaxmaq adətlərinin çox qədim inam və etiqadlarla əlaqədar olduğu barədə yuxarıda ətraflı danışdığımızdan, burada onların üzərində xüsusi dayanmağa lüzum görmürük.

Lakin onu demək yerində olar ki, başa döymək, sinə yırtmaq, dizlərini döymək, sifəti cırmaq, saç yolmaq və s. adətlər Azərbaycanda da özünü göstərir (144, 23).

Onu da demək vacibdir ki, yas məclislərinə Azərbaycanda ağıçı (68, 82), Kərkük dolaylarında sazlayan (70, 139; 137, 90) adlanan peşəkar qadınlar dəvət olunurlar. Saysız-hesabsız ağı və sazlamaq bilən bu qadınlar yanıqlı səslə məclisdə əyləşənlərin qəlbinə od salır, fəryadla xalqın ağır itki, hüznlə bağlı təskinlik tapdığı nəğmələri oxuyurlar.

Yeri gəlmişkən, deyək ki, əziz bir şəxs öləndə yas məclisinə peşəkar «yuğçu» – «yığçı»ların dəvət olunması, onların dedikləri ağıların təsiri altında göz yaşı töküb ağlamaq qədimdənqalma adətdir (148, 322).

Bununla əlaqədar qeyd etmək maraqlı və əhəmiyyətlidir ki, Türkman folklorunda indinin özündə belə, «ağlamaq» sözünün yalnız qədim «yığlamaq» forması özünü göstərir ki, «yuğçu» və ya «yığçı» da həmin sözdən yaranmışdır.

Demək lazımdır ki, sızlamaq sözündən yaranan sazlamalar (137, 90) ailənin məruz qaldığı fəlakəti, az öncə sönən həyatı, ailənin çəkdiyi ələm və acıları canlandırır.

Qadınlar ailəyə baş vermiş kədərlə bağlı sinələrini yırtır, saçlarını yolur, üzlərini cırır, «Vay balam, vay» deyərək sazlamaya başlayırlar. Sazlamadan əvvəl rəhmətə gedənin yaşına, peşəsinə, həyatda tutduğu mövqeyinə, mənsəbinə, əxlaq və gözəlliyinə, boy-buxununa, qəhrəmanlığına, səxavətinə, şan-şöhrətinə və s. uyğun sözlər sadalanır, sonra sazlamaya keçilir. Yasda iştirak edən başqa qadınlar da öz ölülərini yada salıb ağlayırlar.

Demək lazımdır ki, rəhmətə gedənin məziyyətlərini sadalayıb ağı demək adəti Azərbaycanda da olmuş və indi də qalır. Məsələn, «Açılmayan tüfəngin, siyrilməyən xəncərin öz canına qurban. Ay kimi doğdun, gün kimi batdın, minəndə at bağrı yardın, düşəndə yer bağrı yardın, saydığına salam verdin, saymadığına yan verdin, düşməninə dirsək göstərdin, qəniminə qan uddurdun. Altının bədöv atına, çiyninin süzən tüfənginə, tərkinin dolu xurcununa, ağzının kəsərli sözünə anan qurban ay...» (24, 3; 10, 17) Kərkük dolaylarında da buna bənzər təsirli sözlərdən sonra zəmanədən, fələkdən, ayrılıqdan və s. bəhs edən, qəm üstə qəm gətirən, yasa yığılan qadınları haldan-hala salan, ürəklərinə od salıb dil-dil ağladan sazlamaları avazla söyləyirlər.

Burda ölüb bir cavan,
Gəlsin cavanı yuyan,
Necə kəfən tikərlər?
Necə qəbrə qoyarlar?
Barmaqları tökülsün,
Cavan gözünü yuman.

Bundan sonra mütləq bir neçə yanıqlı xoyrat deyilir:

Bala vay,
Bal yemədim, bala vay,
Çöp yığdım, yuva qurdum.
Uçurtmadım bala, vay.

Verən sən;
Alan sənsən, verən sən.
Gah evlər bəzədirsən,
Gah edirsən veran sən.

Sazlama davam edir. Dünyadan köçmüş övladın anasının dilindən belə söylənilir:

Qənşərdə pütxana var,
Ləli, yaqutxana var.
Gedirsən işıq apar
Orda zülmətxana var.
Musallanın (məzar) çim daşı
Yandı ürəgim başı.
Bir yoldaşın görəndə
Tökərəm gözüm yaşı.

Yenə xoyratlar deyilir və dünyasını dəyişmiş gəncin arvadının adından sazlamalar deyilir:

Vəfat etmiş gənc gəlinin anasının dilindən söylənilən sazlamalar, əsasən, belədir:

Dəvələr düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Balam baş aldı getdi.
Balası bizdə qaldı.
Düzülü yataqları
Cehiz dolu boxçası,
Qiymətli əlbəsəsi,
Tərk etdi, bizdə qaldı.

Gül üzüvə
Səpərəm gül üzüvə,
Yalvarram qarıncaya
O gözəl gözlərivə,
O uzun kirpigivə,
O qaytan dodağıva
Uzun çinar boyuva
Düşməsin gül üzüvə.

Bəzən də sazlamalar həm ananın, həm də mərhumun dilindən deyilir:

Bağçamız heyva verdi,
Nar verdi, heyva verdi,

Sən mənnən itap etmə
Balanı yetim edən,
Gənc ömrüvü kəm edən
Fələkdən itap elə
Bəlaları o verdi.

Baxçada barım qaldı,
Heyvayla narım qaldı.
Ey zalım, qəddar fələk
Mən sənə nə etmişdim?
Beşikdə körpə balam,
Yataqda yarım qaldı (70, 141).

Kimsəsiz bir nəfər dünyadan köçəndə isə:

Al vala, yaşıl vala,
Salacam düşdü yola.
Nə anam var, nə bacım
Ənsəmcə saçın yola (137, 90).

Qazan ağlar:
Od yanar, qazan ağlar.
Burda bir qərib ölüb
Qəbrini qazan ağlar və s.

məzmunlu sazlamalara üstünlük verilir. Hələ evlənməmiş gənc dünyadan köçəndə onun taleyinə uyğun sazlamalar seçilir:

Öz nənəm;
Qarnı dolu köz nənəm.
El ağlar, yalan ağlar,
Qoy ağlasın öz nənəm
(137, 226).

Mən getdim, anam qaldı.
Oduma yanan qaldı.
Nə dünyadan xeyir gördüm,
Nə bir nişanam qaldı.
(86, 8) və s.

Göründüyü kimi, sazlamalar yas mərasimlərində ağrı, qəm, qüssə, kədəri ifadə etmək üçün istifadə olunan ədəbi parçalardır.

Professor P.Əfəndiyev Azərbaycanda yas və dəfn mərasimlərindən danışarkən mərasim nəğmələrinin sayca çox,

məzmunca rəngarəng olduğunu qeyd edir və bunu keçmiş zamanlardan fərqli olaraq, yas mərasimlərinin bütün ölülər üçün keçirildiyi ilə əlaqələndirir (68, 82).

Qeyd etmək vacibdir ki, Türkman folklorunda da sazlamalar sayca çox, məzmunca rəngarəngdir.

Etiraf etmək lazım gəlir ki, öz poetik tutumuna görə «əbədi insan arzularını, yaradan, quran, həyatı gözəlləşdirməyə çalışan insanın böyük arzularını» (34, 10) əks etdirən xoyrat və manilərlə müqayisədə sazlamalar bir az sönük görünsələr də, qəm, qüssə, kədər, göz yaşı, dərin həsrət motivləri, bədbinlik əhvali-ruhiyyəsi bu janrda məqamına görə çox təsirli olur. Məhz buna görə də sazlamalar Kərkük dolaylarında da bayatılar, laylalar, oxşamalar qədər geniş yayılmışdır.

Onu da qeyd etmək lazımdır ki, bir çox sazlamalar formaca xoyrat və manilərə oxşasalar da, məzmununa, icra yerinə, oxunuş tərzinə görə onlardan fərqlənirlər. Kərkük musiqi folklorunda sazlamalar «Segah» muğamından yaranıb. Müxalif xoyrat havasına da oxşayır (134, 38; 137, 90, 226). Çünki müxalif xoyrat üsulu öz qəmgin və həzin havacatına görə sazlamaları andırır. Odur ki, qadınlar yas məclislərində sazlamaları «Segah» və «Müxalif» üstə oxuyurlar. Bu, elə Azərbaycanda da belədir. Azərbaycanda ağılar «Şikəstə» kimi, «Segah» muğamı pərdələrində improvizə olunduğu halda, bayatılar «Qatar» muğamı üstə, «Rast» ladında improvizə edilir, axırıncı kəlməsi uzadılır. Ağı isə reçitativ deklamasiya üslubunda oxunur (78, 58).

Yeri gəlmişkən, deyək ki, bəzən yas mərasimlərində layla və oxşamalardan da istifadə edilir. Bu vaxt onlar kədər bildirirlər. Bununla belə, layla və oxşamalar, eləcə də xoyrat və manilər formaca sazlamalara bənzəsələr də, bu bənzəyiş zahiridir. Məzmunca oxşama və laylalarda sevinc, şadlıq, arzu, dilək, ümid üstünlük təşkil etdiyi halda, sazlamalarda qəm, qüssə, kədər, həsrət motivləri güclü olur.

TOY MƏRASİM VƏ NƏĞMƏLƏRİ

Türkman folklorunda qədim ənənəvi mərasimlərin arasında böyük intizarla gözlənilən və xalqa ən çox nəşə verən toy mərasim və nəğmələridir. Toy mərasimi Azərbaycanda olduğu kimi, «nişan»la başlayır. Lakin nişana qədər «Yol» üçün görüşürlər. «Yol»un («Ana yolu») neçə manat olacağını qız anası deyərdi. Alınan pul qızın cehizinə xərclənərdi. Qız ailədə yeganə olanda qızın anası bəzən deyərdi: «Mən «Yol» istəməm – əhd etmişdim, qızım olsun böyüsün, toyunu edim, «Yol» istəməm». Bundan sonra «Şərbət içmə» günü dəqiqləşdirilərdi. «Şərbət içmə» mərasimində yalnız şirniyyat və şərbət verilərdi. «Şərbət içmə»dən düz bir həftə sonra «nişan» olardı. Nişandan bir gün əvvəl oğlan evi qız evinə lazımi qədər şəkər, yağ, un, düyü, ət, xına, sabun, duz və s. göndərərdi. Nişan günü oğlan tərəfin adamları hərəsi qız üçün bir hədiyyə aparardı. Oğlanın anası isə nişan üzüyündən əlavə qız üçün alınmış paltar və bəzək-düzəyi də aparardı. Bundan sonra, yəni toya bir neçə gün qalmış «nikah» mərasimi olurdu. Qabaqlar nikah qız evində olardı. Oğlanın qohumları və dostları qız evində toplaşardı. Kəbinkəsmə mərasimini məhəllənin muxtarı və molla yerinə yetirərdi. Molla qıza üç dəfə eyni sualla müraciət edərdi:

– Filankəsin oğlu filankəsi qəbul edirsənmi?

Qız: – Qəbul edirəm, – dedikdən sonra oğlandan soruşardı:

– Filankəsin qızı filankəsi özünə arvad qəbul edirsənmi?

– Edirəm.

Beləliklə, nikah kəsilir, şərbətlər paylanırdı.

Çox vaxt «nikah» mərasimi gizli keçirilərdi. Bu qədim inam və etiqadlarla bağlıdır. Məsələ burasındadır ki, nikah mərasimi vaxtı kimsə düşmənçiliklə bıçaq, qaşıq və ya qayçı sındırsa, toy gecəsi bəyin hərəkətdən düşəcəyinə, yəni bağlanacağına inanırlar. Eləcə də kəbin kəsilərkən kiminsə barmaqları çarpazlaşmış olsa, toy gecəsi bəyin bağlana biləcəyi düşünülərmiş. Odur ki, hamının barmaqlarının açıq, qolla-

rının yanında olması gözlənilərmiş. Bundan başqa, inanılarmış ki, bədxahları üstələmək üçün nikah vaxtı, hər ehtimala qarşı, bəyin yaxın qohumlarından biri sap və ya ipdən düyün salsa, toy gecəsi həmin düyün açılsa, bəy hərəkətdən düşməz və bununla da sehr batil olar.

Nikahdan sonra toya hazırlıq görülür. Gəlinin cehizi bəy evinə gətirilir. Toydan iki gün əvvəl «Xına günü»dür. «Xına günü»ndən başlamış toyun bütün mərhələləri münasib nəğmələrlə müşayiət olunardı.

Gəlinlə rəfiqələri hamama gedər, gəlinin sabunuyla yuyunar, meyvə, şirniyyat və s. yeyər, əylənər, mahnılar oxuyardılar. Qızlar hamamda olduğu vaxt qadınlar qapıdan onlara qulaq asar, bəziləri qızların məlahətli səsinə vurular, oğlanları üçün gözaltı seçərdilər. Burada qızlar mahnıları ya birgə oxuyar, ya da hərə bir mahnıdan istədiyi bəndi seçib oxuyardı:

Evlərində ipəkdən bir xalı var,
Şəkərlənmiş dodağında balı var,
Hər kəsin də münasib bir yarı var.
Qönçə gülün xərmanısan, xərmanı.
Bu könlümün dərmanısan, dərmanı.

Öldürdün məni,
Sevmişəm səni,
Bülbül dilinə qurban,
İncə belinə qurban.

Hər gözəldən yar olmaz,
Sevən bəxtiyar olmaz.
Yarı gözəl olanın
Könlü ixtiyar olmaz.

Su saldım bağa neynim,
Dəyməz yarpağa neynim.
Yarım ceyran olubdu
Gəlməz yatağa neynim və s.

O da maraqlıdır ki, üzündə xal olmayan qız gəlin gedəndə üzünə xal döydürər və ona münasib mahnılar oxuyardılar. Məsələn:

Yanağın xalı gözəl,
Dodağın alı gözəl
Sənnən ayrı düşənin
Nolacaq halı gözəl?!

Bu xal nə xaldı?
Xanım, nə xaldı?
Gözüm, nə xaldı?
Canım, nə xaldı?
Yanaqda döydürübsən,
Aləmi yandırıbsan.

Hamamdan sonra gəlin süslənərdi. Əskidə gəlin çatmaqaş edilib, üzünə kirşan sürtülərdi. Bu işi çox oğlan doğmuş, yaxşı günlər, xoşbəxtliklər görmüş bir qadın icra edərdi. Gəlini əynində «xınalıq əlbəsəsi» bir ağac üstündə oturdardılar, ayaqları altına bir teşt su qoyardılar, üzünə güzgü tutardılar. Bu da aydınlıq demək idi. Qızın bir ovcuna şəkər qoyulardı. Bu da şirinlik demək idi. Onun əlinin içi, əl və ayaq barmaqları xınalanardı. Gəlini xınalayandan sonra hamı barmağını xınaya basardı. Bu da murad üçün idi. Sonra gəlin ayağa qalxıb hamının əlini öpərdi. Gecə yarısına qədər qız evində musiqi çalınar, gəlin rəfiqələri ilə əylənər, nəşələnərdi. Evdə şamlar yandırılardı. Bu da gəlinin həyatı ər evində işıqlı olsun deyə edilərdi. Toyun əvvəlki günü axşam qız evində «Həsrət gecəsi» deyilən şənlik keçirilərdi. Qızın rəfiqələri «Həsrət gecəsi»ndə nəğmələr oxuyar, halay təpərdilər:

Həlhələ verin gəlinə,
Dəstə gül verin əlinə.
Altun kəmər bağlasın
Gəlin incə belinə.

Bir tabur gögərçinim,
Xırmandadı, xırmanda.
Hər kimin yarı yoxdu,
Dərd ondadı, qəm onda və s.

Bağçalarda saz olur,
Gül açılır, yaz olur.
Mən yarıma gül deməm,
Gülün ömrü az olur.
Həlhələ verin gəlinə
Dəstə gül verin əlinə və s.

«Həsrət gecəsi»ndə nəsihətvari nəğmələr də oxunardı:

Bu gəlin mayalıdı,
Yük-yükə dayalıdı
Böylə dur, böylə otur,
Desinlər həyalıdı.
Bu gəlin, mama gəlin,
Gedər hamama gəlin.
Qayınbaban önündə,
Dişin ağartma, gəlin.
Qonşudan ət gələndə
Ətin çıxartma, gəlin.
Al-yaşıl tapmayanda
Göy, qara yama, gəlin və s.

Maraqlıdır ki, Azərbaycanda qızın ata evində qaldığı son gecə ilə bağlı «Bu gecə» mahnısı vardır (78, 60). Həmin mahnıda qızın ata evində qonaq olmasından, səhərisi gün gəlin gedəcəyindən və ona verilən xeyir-duadan söhbət gedir.

Azərbaycanın əksər yerlərində olduğu kimi, Kərkük dolaylarında da bəy evində toy axşamlar olardı. İndi isə qonaqlar dəvətnamə ilə gündüz yeməyinə dəvət olunurlar. Qonaqlar Kərkük dolaylarında da, adətən, ev sahibinə pulla yardım

edirlər. Verilən pul borc hesab edildiyi üçün siyahıya alınır. Yaxın qohumlar və dostlar toyda bəzən pul salmır, bir erkək, bir kisə düyü, yağ, un, şəkər və s. hədiyyələr gətirirlər.

Toyda zurna, nağara sədaları altında halay təpir, bəzən at çapır, qurşaq tutur, tüfəng, tapança atır, nişan qurur, yarış keçirirlər. Bunlar bir tərəfdən toyu yaddançıxmaz və maraqlı edir, digər tərəfdən də qədim inam və etiqadlar gözlənilir. Məsələ burasındadır ki, Azərbaycanda olduğu kimi, Türkman folklorunda da atəşpərəstliklə bağlı inanclar gərəyincədir. Təkcə onu demək kifayətdir ki, Aya, Günə, ocağa, çırağa and içirlər. Toy vaxtı zurna, nağara çalınır, sevinclə «lulululu» deyə qışqırır, səs-küy salır, gəlinin ətrafında oynayır, yuxarıda qeyd etdiyimiz kimi tapança və tüfəngdən atəş açırlar ki, şər qüvvələr gəlinə yaxın düşüb bir fənalıq törətməsinlər. Şübhəsiz, toy vaxtı «sərrast nişan alma» yarışlarının keçirilməsi də öz ilkin başlanğıcını elə bu etiqaddan almışdır.

O da maraqlıdır ki, Kərkük dolaylarında da toy ərəfəsində və eləcə də toy vaxtı gəlinin yanında güzgü, yanar çıraq və ya şam olur. Gəlin bəy evində də güzgü və şamlarla qarşılanır (86, 42).

Bütün bunlar ona görə edilir ki, gənclərin həyatları həm nurlu, işıqlı olsun, həm də şər qüvvələr oddan, parıltıdan, işıqdan, işığı əks etdirən vasitələrdən, silah və onun səsindən qorxub gəlinə yaxın düşməsin, ona xətər yetirə bilməsin. Yeri gəlmişkən, deyək ki, indinin özündə belə «toy güzgüsü» göz bəbəyi kimi qorunur, sonralar da bu güzgü sınsa evdə bədbəxtlik olacağına, kiminsə başına bir hadisə gələcəyinə inanılır. Bu təxminən Azərbaycanda da belədir. «Güzgü sınsa, evdə ölən olar», – deyirlər.

Demək lazımdır ki, bəy evində toy olanda gəlin evində də boş durmazlar. Axşama doğru gəlin evi dəvət olunmuş qadınlarla dolar. Gəlinə «toy paltarı» geydirilər və bəzədilər, halaylar qurular, şərbətlər içilər. Gəlinin üzünə «duvaq» salınarkən, yəni «Duvaqçəkmə» mərasimi başlayarkən, «Kilav-

oğlu» gələr və gəlinə nəsihətlər verərmiş. Bu nəsihətvari nəğmələrin məğzini, aşağıdakı nümunədən göründüyü kimi, gəlinin ər evində özünü necə aparmalı olduğu təşkil edir:

Ey gözəl mama gəlin,
Gedək imama gəlin.
Əsbabın yırtılanda
Sən özün yama, gəlin.
Qonşudan aş gələndə
Öncə sən yemə, gəlin.
Qayınbaban önündə
Uzanıb yatma, gəlin.
Qayınnənənin sözünə
Sən heç söz qatma, gəlin.
Kişivin sözlərinə
İnadlıq etmə, gəlin.
Kişindən də xəbərsiz,
Evdən şey satma, gəlin.
Kişin səni vurduysa,
Nənənə getmə, gəlin.
Evinin sirlərini
Kimsəyə satma, gəlin.
İki qonşu döyüşsə,
Duvardan baxma, gəlin.
Heç kimsədən izinsiz,
Nənəvə getmə, gəlin.
Evinin işlərində
Tənbəllik etmə, gəlin.
Qərib qonaq önündə
Yüngüllük etmə, gəlin.
Soqaqda səs gəldiysə,
Qapıya getmə, gəlin.
Fitnə qonşu sözünə
Heç qulaq tutma, gəlin və s.

«Kilavoğlu»nun nəsihətlərindən sonra bəyin adamları gəlini aparmağa hazırlaşırlar. Bu vaxt ağ gün görmüş, oğulluqızlı, xətirli-hörmətli bir qadın gəlinə xeyir-dua verər, ona ağ baxt, altun taxt, qara xalayiq, bəyaz əkməkçi, siyah kölə diləyərdi. Bundan sonra gəlini yola salardılar. Bəyin yaxın qohum və dostları gəlini apararkən qız evi tərəfdən Azərbaycanda olduğu kimi, «yengə» də gedərdi.

Əskidən gəlini bəy evinə at üstündə apararmışlar. Gəlinin arxasınca bir oğlan uşağını ağ ata mindirib cilovunu tutaraq çəkə-çəkə gedirdilər. Gəlinin önüncə güzgü ilə bərabər, Quran da aparmaq adət imiş.

Buna bənzər hadisəyə Azərbaycanda da təsadüf edilir. Bu baxımdan tədqiqatçı B.Abdullayevin məlumatı böyük maraq doğurur: «Ekspedisiya zamanı Göyçənin Ağbulaq kəndində toy mərasimində iştirak etdik. Burada gəlinin oğlan evinə aparılması məqamı xüsusilə diqqəti cəlb etdi. Mərasim iştirakçılarından öndə kənd cavanlarından iki nəfər ağ və qırmızı rəngli at çapırdılar. Məlum oldu ki, burada at səadət, xoşbəxtlik rəmzidir. Qırmızı rəngli at Günəşə işarədir. Yəni gəlinin yolu aydın, işıqlı, parlaq olsun, ağ rəngli at isə uğur simvolu olub, gəlinə yeni həyatda ağ gün arzulamaq deməkdir» (41, 42).

O da maraqlıdır ki, gəlin bəy evinə gələndə bəy və arkadaşları onun başına Azərbaycanda olduğu kimi şirniyyat və dəmir pul səpərdilər. Bu da gəlinin ömrünün şirin və parlaq keçməsi üçün edilirdi.

Gəlini onun üçün ayrılmış otağa apardıqdan bir az sonra bəy dostlarının müşayiəti ilə otağa daxil olur.

Yengə gəlinin əlini bəyin əlinə verir. «Əl amanatı» deyir, hamı dışarı çıxır. Sonra hamı intizarla bəyin gəlinin otağından çıxmasını gözləyir. Bəy otaqdan çıxan kimi «qalibin» şərəfinə tüfənglərdən atəş açılır.

Maraqlıdır ki, bu adətə İraqın cənubunda yaşayan Göl ərəblərində də eynilə təsadüf edilir (113, 18).

Yuxarıda dediyimiz kimi, Kərkük dolaylarında gəlinin bakirə olmasına çox ciddi yanaşırlar. Bakirə çıxmayan gəlini ya səhərisi gün, ya da üç gündən sonra ata evinə qaytarardılar (168, 42).

Toy zurna və meytərlə (nağara) aparılardı. Məclis böyük həyətdə təşkil edilərdi. Zurnaçı və nağara çalan üçün yeri həyətin ortasında düzəldərdilər, həyət boyu taxt və kətillər düzülərdi. Onların üstünə döşəkçələr atılardı. Zurna və nağaranın sədaları altında halay təpərdilər.

Bunu da deməyi əhəmiyyətli sayırıq ki, toy məclislərində gecələr «Qılınc-qalxan», «Pambuğa girmə» və «Atlı qarınca» səhnəcikləri də oynanılır.

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da «toy adi evlənmə mərasimi çərçivəsindən çıxaraq, xüsusilə kənd yerlərində ictimai-mədəni bir əyləncəyə çevrilir» (95, 4).

Hamı fərəhlə halay təpir, mahnı oxuyur. Keçmişdə gəlin evə girərkən qayınana bir əlinə çömçə, bir əlinə kəfkir alıb:

Ev sənin, eşik sənin,
Dördəki beşik sənin.

deyərək gəlinin önündə oynayarmış. Səhərisi gün isə gəlin ehtiram və itaətini bildirmək üçün qayınatanın və qayınnənəsinin əlini öpərmiş. Bəy də öz növbəsində gedib qayınatasının və qayınnənəsinin əlini öpərmiş.

Əskidə toydan sonra üç gün qız evindən yeməklərlə dolu «sini» göndərilərdi. Birinci gün gələn yeməklər arasında duzlu yeməklər olmazdı. Toyun yeddinci günü qohum-əqrəba qadınları hədiyyələrlə gəlini görməyə gələrdilər. Ortaya cecim salınardı. Bir tərəfdə oğlan anası, üzbəüzdə qız anası oturardı. İlk olaraq öz hədiyyəsini oğlan anası cecim üzərinə qoyardı, sonra qız anası. Sonra isə qıza hədiyyə vermək istəyənlər qız anasının hədiyyəsinin üstünə öz hədiyyələrini, oğlana hədiyyə vermək

istəyənlər oğlan anasının hədiyyəsinin üstünə hədiyyə qoyardılar. Verilən hədiyyələr adbaad dəftərə yazılardı. Qız üçün toplanan qıza verilər, oğlan üçün toplanan borca sərf edilərdi.

Maraqlıdır ki, Kərkük dolaylarında da gəlin ata evinə Azərbaycandakı kimi bir ay sonra gedərmiş. Orada da buna «ayaqaçdı» və ya «ayağı açıldı» deyərdilər.

Əgər qismətində varsa, bir il sonra gəlin beşik sallamağa başlar. Laylalar oxunar:

Leyla dedim yatınca,
Gözlərəm ay batınca.
Gözümə şiş batırram
Sən hasilə yetincə.
Leyla balam, leyla,
Leyla quzum, leyla.
Leyla edim yatasan,
Qönçə gülə batasan.
Qönçə gül daldan olsun,
Kənarında yatasan.
Leyla gülüm, leyla,
Leyla ömrüm, leyla.

Laylalar bəzən kədərli olurlar:

Qız idim, sultan idim,
Adaxlandım, budaxlandım
Gəlin oldum, məlul oldum
Beşik qurdum, zəlil oldum.

Deməli, gəlin qara günə düşmüş, aradığını tapmamış, qayınanası ilə dolana bilməmişdir. Demək lazımdır ki, Türkman folklorunda qayınana-gəlin münasibətləri özünü qəribə bir tərzdə göstərir. Burada həm dərin yumor, həm də gözəl şeiriyyət vardır. Gəlin evə təzə gələndə:

Ev sənin, eşik sənin,
Dördəki beşik sənin.

deyən qayınana aradan bir müddət keçəndən sonra söz-söhbətə, dedi-qoduya başlar. Gəlin də tərbiyədən kasadsa, ondan geri qalmaz. Bununla belə, qayınana nəvəsini hamıdan çox istər. Uşağı əzizlər və öz-özünə oxuyar:

Sarımsağım, soğanım,
Yad qızınnan doğanım.
Babana canım qurban
Nənən olsun qurbanım.

Və ya:

Yarısı balam balası,
Yarısı ilan balası və s.

Gəlin də öz növbəsində:

Qayınnənə ilandı,
Hər nə desə yalandı.
Gəlin çöldə çiçəkdi,
Hər dediyi gerçəkdi.

deyə ağız qovğasına girişər. Qayınana həddini aşmış gəlini təhnizlər:

Afərin, nazlı gəlin,
Gərdəni sazlı gəlin.
Top-tüfəngin doludu
Barıdın azdı, gəlin.

Gəlin darılar, yanıb-yaxılar:

Damdan düşəsən, qayınnənə
Təpəyəcən şişəsən, qayınnənə.
Oğlun gələnə qədər
Dildən düşəsən, qayınnənə.

Lakin qayınana nə dildən düşər, nə də dili şişərdi. Qayınbaba gəlininin tərəfini saxlar, qarısını təhnizlər:

Kirli, pasax, pis pinti,
Arvadların qəhəti.

sözləri ilə «ömrümdən bir gün də qalıbsa, vallah gərək üstünə arvad alıb, səni yandırıb-yaxam», – deyər.

Qayınnənənin dili şah arşıdı tək uzanar, kişisinə deyər:

Boyun boylardan uzun,
Nə dadın var, nə duzun
Üzün döndər bir baxım,
Əzrail yumsun gözün və s.

Qız və oğlan tərəfin adamları məsələdən halı olarlar. Qızın zavallı, qayınnənənin günahkar və ya əksinə olduğunu göstərmək uçün «Nə gəlində dil var, nə də qayınnənədə iman», «Qayınnənə pambıq iplik olsa, rəfdən düşsə, gəlinin başını yarar», «Sarımsağı gəlin ediblər, qırx gün qoxusu çıxmayıb» və s. kimi deyimlər ortaya çıxır.

Maraqlıdır ki, Kərkük folklorunda qayınana-gəlin münasibətlərindən bəhs edən «Can, oğul» və «Bibi su» kimi əfsanələr də vardır ki, onlara eynilə Azərbaycan folklorunda da təsadüf edilir.

Təbii ki, əfsanə əfsanə olaraq qalır. Söhbət açdığımız qayınana-gəlin deyişmələri isə daha çox xalq yumoru xarakteri daşıyır. Kərkük dolaylarında nikahın pozulmasına, demək olar ki, rast gəlinmir. Burada kişi arvadını sevər, qadın ərinə bağlı olar, qayınana-gəlin arasında pərdə götürülməz. Qayınana gözəl rəftarı, gəlin isə oturuşu-duruşu ilə özünü saydırar.

Nəhayət, onu da qeyd etmək yerində olardı ki, toy mərasimlərinin müxtəlif anları ilə bağlı bir çox başqa mahnılar da

vardır. Toy mərasiminin müxtəlif anlarına, psixoloji və sə-ciyyəvi cəhətlərinə həsr olunan nəğmələr İraq–Türkman folk-lorunu yaradıb-yaşadan xalqın bədii təfəkkürünü və rəngа-rəng adət-ənənələrini əhatəli əks etdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Toy mərasimlərini rövnəqləndirən mah-nılar Türkman folklorunun və eləcə də onun folklor musi-qisinin tədqiqində əvəzsiz xəzinəyə çevrilir.

III FƏSİL

LİRİK NÖV

XOYRATLAR VƏ MANİLƏR
XALQ HAVALARI
XOYRAT HAVALARI
XALQ MAHNILARI
AŞIQ HAVALARI
BEŞİK NƏĞMƏLƏRİ
BAYATI-TAPMACALAR

XOYRATLAR VƏ MANİLƏR

Heyrətamiz poetik gücü və zənginliyi ilə seçilən xoyratlar və manilər Azərbaycan şifahi xalq ədəbiyyatının qüdrətli qolu olan Türkman folklorunun lirik növünün geniş yayılmış və bədii cəhətdən kamil janrıdır. Təsadüfi deyildir ki, kərküklü folklorşünas Əta Tərzibaşı yazmışdır: «Kərkük anıldığı zaman xatirə ilk olaraq xoyrat gəlir və xoyrat adını duyduğumuz vaxt xəyalımızda Kərkük eli canlanır» (137, 42).

O da maraqlıdır ki, XX əsrin əvvəllərində iraqlı tədqiqatçı Haşim Nahid xoyratların Türkman folklorunda geniş yayıldığının şahidi olmuşdur: «Dörd misradan ibarət olan bu şeirlər o qədər boldur ki, əgər toplatdırıb bir araya gətirsələr cildlər təşkil edər» (152, 85).

Demək lazımdır ki, əsrin əvvəlində olduğu kimi, xoyrat və manilər öz mövqeyini bu gün də möhkəm saxlamışdır. Bunun səbəbini, hər şeydən əvvəl, onların xəlqiliyində, xalq dilindən cövhərlənərək ürəklərə asanlıqla yol tapmasında, fikir zənginliyində, yığcamlığında, ülviliyində, təbiiliyində, mövzu rəngarəngliyində, bulaq kimi süzülərək xalqın qəlbindən gəlməsində, əbədi insan arzularına xidmət etməsində, xalqın tarixini, əzəmətini, milli xüsusiyyətlərini layiqincə əks etdirməsində, xalqın bədii təfəkkürünü, nəcib insani hislərini, ehtiras və qəlb çırpıntılarını təbii, aydın və səmimi dildə ifadə etməsində axtarmaq lazımdır.

Ölməz sənət əsərləri səviyyəsinə yüksələn xoyrat və manilər xalqın dünənini, bu gününü, adət-ənənəsini, həyat tərzini öyrənməkdə əvəzsiz xəzinədir.

Xoyrat və manilər cinaslı və adi qafiyəli olmaqla iki yerə bölünürlər. Cinaslılar xoyrat, cinassızlar isə mani və ya maani adlanır. Xalq arasında «sağ sikkə», «xalis altun» kimi tanınan, Əta Tərzibaşının «könüllərdən fışqıran içli duyğuları min bir sədaqətlə əks etdirən parlaq güzgü», folklorşünas E.Məm-

mədovun «Poetik kəşf» adlandırdığı xoyratlar da tam və naqis cinaslı olmaqla iki yerə bölünür. Tam cinaslı xoyratlarda cinaslar hərfi-hərfinə uyğun gəlir:

Necə dağlar;
Qarşıda necə dağlar.
Yetim yanağı bilir
Göz yaşı necə dağlar.

Naqis cinaslı xoyratlarda isə bəzən cinas əmələ gətirən sözə bir-iki hərf əlavə olunur, bəzən hərf düşür, bəzən hərf dəyişir, bəzən də hərf özündən əvvəlki sözün sonuna və ya özündən sonrakı sözün əvvəlinə əlavə edilir:

Durdu qəm;
Açdı yaram, durdu qəm,
Mən miskin olduğumçün
Üstümə qudurdu qəm.

Qanad ağlar;
Ox titrər, qanad ağlar,
Ovum yaralı getdi,
Boyandı qana dağlar.

Yüz yol var,
Yüz təpə var, yüz yol var,
Xudam bildigin eylər,
Sən fələgə yüz yalvar.

Doğrudur, Əta Tərzibaşı tam cinaslı xoyratları bəsit və mürəkkəb kimi çeşidlərə bölür və nümunələr verir:

Yaz belə;
Bahar belə, yaz belə;
Katibin nə suçu var, –
Xudam demiş yaz belə.

Yara məni;
Dərd məni, yara məni.
Ya al, yaradan, canım,
Ya yetir yara məni.

Tədqiqatçı 1-ci xoyratı bəsit tam cinaslı, 2-ci xoyratı isə, «yar» sözü yönlük halda verildiyinə görə mürəkkəb tam cinaslı xoyrat kimi göstərmişdir (133, 24; 137 (66–67).

Bizcə, hər iki nümunə tam cinaslı xoyratdır.

Xoyratlarda 1, 2, 4-cü misralar həmqafiyə, 3-cü misra isə sərbəst olur. Göründüyü kimi, qafiyə quruluşu cəhətdən xoyrat və bayatılar fərqlənmir. Heca ölçüsü cəhətdən isə əksər xoyratların 1-ci misrası 3, 4 və ya 5 hecalı olduğuna görə Kərkük xoyratları Bakıda ilk dəfə çap olunanda onların Azərbaycanda işlənmədiyi və bu cəhətdən bayatıların xoyratlardan fərqləndiyi göstərilmişdi (117, 18). Lakin sonrakı tədqiqatlar göstərdi ki, Azərbaycanın müxtəlif guşələrində istənilən qədər folklorşünaslarımızın xoyratvari bayatılar və ya kəsik bayatılar adlandırdıqları xoyratlar vardır (36; 44; 146; 153; 154; 19; 37; 38).

Heç şübhəsiz, buna görədir ki, folklorşünas İ.Abbasov «Azərbaycan bayatıları» kitabına yazdığı əhatəli giriş məqaləsində qeyd etmişdir: «Kəsik bayatıların – xoyratların ayrıca bölmədə verilməsi isə təsdiq edir ki, İraq türkmanları arasında geniş yayılan, bu forma Azərbaycanda da şöhrət qazanmışdır» (19, 12).

Belə olmasa idi professor B.Vahabzadə «Bayatı-xoyrat janrının eyniliyi yalnız bizimlə kərküklülərə xasdır» (43, 12) hökmünü verməzdi.

Xoyrat və bayatılara geniş məqalə həsr edən A.Vəfalı da bu məsələyə öz münasibətini bildirir. «Xoyrat və manilərin böyük bir qismi azacıq fərqlə bizdə də yaşayır. Bu son dərəcə səmimi, ahəngdar parçalar sadəliyi, zərifliyi və eyni zamanda güclü təsiri ilə oxucunu sarsıdır» (50, 161). Bu baxımdan professor V.Vəliyevin fikri də maraq doğurur: «İndiyə qədər Azərbaycanda çap olunan bayatılar kitabında xoyratvari bayatılardan nümunə verilməmişdir. Lakin xalq arasında bu şəkilli nümunələrə tez-tez təsadüf olunur. İyirmi il ərzində dəfələrlə folklor ekspedisiyasında olduğumuz zaman Azərbaycanın bir neçə rayonunda xoyratvari bayatı söyləyənlərin şahidi olmuşuq. Bu nümunələrin mövcud olduğunu təsdiq et-

dikdən sonra bu nəticəyə gəlmişik ki, bayatı toplayanlar 1-ci misrada yalnız qafiyənin verilməsini həmin bayatının «kəsiri» hesab etmiş və ona «əziziyəm», «eləmi», «mən aşiq» kimi sözləri əlavə etmişlər» (46, 127).

Həqiqət naminə demək lazımdır ki, tədqiqatçı gənclikdə özünün də yanlış yolla getdiyini göstərir: «Vaxtilə bu sətirlərin müəllifi də Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin tələbələrilə folklor ekspedisiyasında olarkən, həmin səhvə yol vermiş, birinci misralarda buraxılan sözləri «islah» etmişdir» (45, 19).

Həmin yanlışlıqdan imtina edən V.Vəliyev sonralar «Bayatılar» kitabında 187 ədəd bayatını «xoyratvari bayatılar» başlığı altında ayrıca bölmədə vermişdir» (37, 185–198).

Xoyratların bizdə olmasını folklorşünas M.H.Təhmasib də etiraf edir: «Kərkük xoyratları üçün səciyyəvi olan, bizdə də vaxtilə olub, sonra unudulmuş kəm sətirlərin kəm yerlərini təxəllüslə doldurmaq ənənəsi əmələ gəlmişdir. Bunu biz Xətaidə, Sarı Aşıqda, Əzizidə, Əmanidə və onlarca başqalarında görürük. Lakin bu, kəm misralardan istifadə təcrübəsində yeganə yol olmamışdır. Bayatını deyən əgər uşağını yatırmağa çalışan anadırsa – bu kəm yerə «balam» və ya «laylay», xodaqdırsa «qara kəl», ağı deyəndirsə «haray» sözləri ilə doldurmuşdur. Beləliklə də, kəm sətir ənənəsi getdikcə pozulmuş, yerini dolu misralı bayatılara tərk etmişdir» (139, 201).

Eyni fikrə başqa folklorşünaslarımızın tədqiqatlarında da rast gəlinir. P.Əfəndiyev göstərir ki, bütün «aşiq» sözü ilə başlanan bayatıları təkcə Sarı Aşığa aid etmək doğru deyil. Onlar xalq içərisindən çıxmış ayrı-ayrı sənətkarlar tərəfindən yaradılmışdır. Deməli, «mən aşiq», «aşiq» bayatının birinci misrasına sonradan əlavə olunub (68, 62).

Professor A.Nəbiyevə görə «əzizi», «mən aşiq», «eləmi» kəlmələri bayatıda poetik tələbə uyğun olaraq birinci misradakı hecaları sonrakı misradakı hecalarla bərabərləşdir-

mək, əzizləmə, səmimiyyət ifadə etmək, beləliklə, ozanla xalq arasında daha sıx qarşılıqlı anlaşma yaratmaq məqsədilə edilmişdir (103, 95) .

Xoyratların Azərbaycan folklorunda geniş yayıldığını göstərən təkzibolunmaz faktlar çoxdur. Onlardan biri də Azərbaycan folklorundan qidalanan, onu «zəngin xəzinə» adlandıran qonşu xalqların ədəbiyyatının klassiklərinin bu janra müraciət etməsidir. Onların içərisində bayatı da var, xoyrat da:

Oda düşən mənmişəm, *Keçdi ömrüm;*
Yanıb oda dönmüşəm. *Gör necə keçdi ömrüm,*
Od olub işıq verdim *Harayladım dönmədi,*
İşıq verib sönmüşəm. *Elə bil heçdi ömrüm* (50, 75).

Demək lazımdır ki, Azərbaycanda və Kərkük dolaylarında hərfi-hərfinə eyni olan kəsik bayatıların – xoyratların əvvəlinə Azərbaycanda lüzumsuz olaraq «əziziyəm», «mən aşiq», «eləmi» sözlərini artıraraq bir-iki nəfərin adına çıxmaqla bütöv bir xalqın ağıl və zəkasının məhsulu olan bu ümmana bənzər xalq yaradıcılığının dəyərini, istəsək də, istəməsək də azaltmağa səy göstərmiş oluruq. Ən acınacaqlısı isə odur ki, bunu başqa xalqlara da elə beləcə çatdırmağa çalışmışıq. Bütün bu deyilənlər, folklorşünaslarımızın son illərdə gəldiyi qənaət, bayatıya əvvəllər verilən tərifə başqa münasibətlə yanaşmağı tələb edir. Bizcə, bayatı və xoyratlara: «hər misrası yeddi hecadan ibarət olan, a a b a şəklində qafiyələnən dördlüklərə bayatı, birinci misrası üç-beş arası, qalan misraları yeddi hecalı olan cinaslı dördlüklərə xoyratlar – kəsik bayatılar deyilir» tərifini vermək olar.

Demək lazımdır ki, bayatıların tədqiqinə başlanan ilk vaxtlardan xoyrat və bayatılar arasında formaca fərq olduğu göstərildiyi halda, bu çox ciddi məsələyə sonralar lazımi diqqət yetirilməmişdir. S.Mümtaz hələ 1927-ci ildə yazırdı: «Bəzi

mühərrirlər bayatıları tanınmayan tək bir məchul şairin malı, əsəri hesab edirlər. Onlar oxuyanda, yazanda «əziziyəm» və ya dərk etmədən «mən aşiq» – deyə başlayırlar. Bu səhvdir» (120, 8).

Doğrudur, tədqiqatçı «bayatıları çağıran şəxsin təxəllüsü və yainki adı olmalıdır» (120, 8) hökmünü verməklə həqiqətdən uzaqlaşır. Məhz buna görədir ki, 1930-cu ildə folklorşünas Əmin Abid «Türk xalqları ədəbiyyatında «mani» növü və Azərbaycan bayatılarının xüsusiyyəti» adlı sanballı məqaləsində Salman Mümtazı və Kərkük xoyratlarına məqalə həsr edən tədqiqatçı Haşim Nahidi «birinci misranın qısa olması manini çağıran adamın adını söyləmək üçündür» fikrinə görə haqlı tənqid etmiş, «mən aşiq», «əzizim ey», «eləmi» kimi kəlmələrin oyandırma xarakterində olduğunu göstərmişdir (5, 10–11, 25).

Əta Tərzibaşı isə «mən aşiq», «aşiqəm» və sairəyə «doldurma sözlər» adı verir və xoyratlarla mahnı oxunarkən xoyratlarda müəyyən sözlərin işləndiyini qeyd edir: «...Boşluqlar isə xoyratın nəğməylə söylənişi əsasında «baba, baba, bu gün», ağam-ağam», «dədəm-dədəm», «gözüm» və başqa bir taqım basma qəlib sözlərlə doldurulmaqdadır» (137, 115).

Əmin Abid və Əta Tərzibaşı göstərirlər ki, Türkiyədə də birinci misrası kəmhecalı olan xoyratlarla – kəsik bayatılarla nəğmə oxunarkən «keç könül», «könül çağlar», «çağlar sular», «ötər bülbül», «gəl aman» və s. işlənir (66, 25; 137, 115).

Maraqlıdır ki, Əta Tərzibaşı altı, səkkiz, on və daha artıq misralı xoyratlardan da söz açır və onların Kərkük dolaylarında geniş yayıldığını qeyd edir (137, 61).

Demək lazımdır ki, 8, 10, 12, 14 misralı şeir parçaları sayca çox az olmaqla bərabər, eyni zamanda cinas da əmələ gətirmirlər. Deməli, onları xoyrat adlandırmaq da doğru olmazdı.

Əta Tərzibaşı cəmisi 6 ədəd – 8 misralı, 5 ədəd – 10 misralı, 2 ədəd – 12 misralı, 3 ədəd – 14 misralı şeir parçası üzə çıxara

bilmişdir. Bizcə, burada türk folklorunun təsirini axtarmaq lazımdır. Bu baxımdan Əmin Abidin fikri maraq doğurur. Tədqiqatçı türk manilərinin Azərbaycan və eləcə də Kərkük cinaslı xoyratlarından fərqləndiyini göstərərək qeyd edir: «Türk maniləri istər qafiyəcə, istərsə də misraların ədədicə, bizim cinaslı manilərdən çox fərqlidir. Bu parçalar dörd misradan səkkiz misraya qədər böyüklükdə mənzuməciklərdən ibarətdir» (66, 27).

Onu da demək vacibdir ki, səkkiz, on və s. misralı bayatılara Cənubi Azərbaycanda da təsadüf edilmir (35; 22).

Əta Tərzibaşının söhbət açdığı səkkiz, on, on iki, on dörd misralı şeir parçaları Türkman folkloru üçün səciyyəvi deyildir. Tədqiqatçı özü yazır ki, xoyratın başlıca xüsusiyyətlərindən biri də maninin əksinə olaraq hər zaman cinasın olmasıdır (137, 66). Belə olan halda tədqiqatçının «Kərkük xoyratları və maniləri» kitabının 320, 324, 336, 337, 338, 353, 369, 370, 385, 402, 406 və s. səhifələrində gedən 8, 10, 12, 14 misralı maniləri xoyrat adı altında verməsi doğru deyildir. Doğrudur, onların bəzilərində əvvəlki dörd misrada cinas özünü göstərir, lakin qalan misralar yalnız qafiyələndiklərinə görə, nümunələrdən göründüyü kimi, onları xoyrat hesab etmək olmaz:

Gözə dəyər;
Gümüş mil gözə dəyər.
Zülfün Əcəm ipəyi,
Telin Təbrizə dəyər.
Yanağın lalə dağı
Xalın nərgizə dəyər,
Dostum müxənnət olma
Labüd üz-üzə dəyər.

Belə bağlar:
Dost başın belə bağlar.
Bülbül ağlar gül açmaz,
Virandı belə bağlar.

Can, çıxma dost gəlincə
Görək nə deyər ağlar.
Toprağ onun başına
Bedasıla bel bağlar
Gəl çək bu ayrılığı
Gör ürək necə dağlar.

Naşı gül;
Naşı bülbül, naşı gül,
Bir güldün ağlım aldın
Bir də belə naşı gül.
Sən gülsən aləm gülər,
Ömrümün yoldaşı gül
Oturub gul qoxuyur,
Kirpiyi gül, qaşı gül.
Otuz iki çiçəyin
Hamısının başı gül.

Demək lazımdır ki, 8, 10 misralı manilər xoyrat üsulunda oxunur. On iki və on dörd misralı manilər isə həm xoyrat üsulunda, həm də mani kimi oxunur. On dörd misralı manidə 1, 2 və 14-cü misralar cinas təşkil edirlər. Nümunədən göründüyü kimi başqa misralar yalnız həmqafiyə olurlar:

Ya sinnən;
Mim əlifdən, ya sinnən.
Yaqut Yəmənnən gəlir,
Dür Nəcəf dəryasınnan
Bu gün bir şərbət içdim
Ərənlərin tasınnan
Yarım libada girib.
Cənnətin libasınnan
Məmələr seyran edər
Çıxıbdı yaxasınnan
Dünya mənəm deyənin
İndi gəldim yasınnan.

Gözə yar;
Surmə çəkib gözə yar.
Ceyran quzusu təkin
Yayılaydığ düzə yar.
Ərəb atlısı təkin
Qonaq olaq sizə yar.
Hələb kirşəni təkin
Üz sürtəydiğ üzə yar.
Küsmüşəm, incimişəm.
Daha gəlməm sizə yar,
Bir toy olsun, bir bayram.
Bəlkə, gələm sizə yar.
Oturağın dizbədiz
Göz tikəğin gözə yar.

Altı misralıq şeir parçaları isə xoyratlardan ibarət olmaqla sayca çoxdur. İraq türkmanları arasında yayılan 6 misralı xoyratlar son tədqiqatlar göstərir ki, Sovet Azərbaycanında da yox deyildir (23, 36).

Təkcə onu demək kifayətdir ki, uzun illər Azərbaycan SSR EA-nın Əlyazmaları İnstitutunda axtarış aparan tədqiqatçı A.Məmmədova ağızdan-ağıza, nəsildən-nəslə keçərək 92 cüng, əlyazma və şəxsi arxiv materiallarına yol tapan və zəmanəmizə qədər gəlib çıxan bayatılarımızın bir çox qədim nümunələrini aşkar etmişdir. Maraqlıdır ki, Kərkük dolaylarında – İraq türkmanları arasında indi də məşhur olan həmin bayatıların bir çoxuna çap olunmuş kitablarımızda rast gəlinmir. Bundan əlavə, tədqiqatçı cüng və əlyazmalarda 21 ədəd altı misralıq bayatı üzə çıxarmışdır. İstər xoyratlarda, istərsə də bayatılarda axırıncı iki misra başqa məna çaları yaradır və əvvəlki misralarda verilmiş fikri daha da qüvvətləndirir:

Əziziyəm xan gərək,
Can oda yaxan gərək.
Açıldı köksün bəndi
Göründü yaxan gərək,
Sənin bu sallanışın
Ya sultan, ya xan gərək.
(Azərbaycan)

Oda yandı;
Ürəgim oda yandı.
Ahım dəryaya düşdü,
Balıqlar suda yandı.
Su səpdim oda sönsün
Səpdigim su da yandı.
(Kərkük)

Altı misralı bayatılarla əlaqədar professor P.Əfəndiyevin maraqlı qeydi vardır: «Biz, XVII əsrin əvvəllərində yaşamış Məhəmməd Əmani, Əzizi kimi şairlərin yaradıcılığında da bayatılara rast gəlirik. Lakin bu nümunələr altı misradan ibarətdir» (68, 148).

Onu da demək vacibdir ki, tədqiqatçı V.Vəliyev altı misralı bayatılar barədə diqqətəlayiq fikir irəli sürür: «Hazırda ədəbiyyatşünaslığımız bayatıların dörd misradan ibarət olduğunu əsas əlamət kimi təsdiqləyir. Lakin bayatıların yazılı ədəbiyyata daxil edildiyi dövrlərdə onun misra miqdarı altı olmuşdur» (45, 15).

Maraqlıdır ki, indinin özündə belə İraq ərazisində yaşayan azərbaycanlılar altı misralı xoyratlar yazırlar ki, bu nümunələrdə axırıncı iki misra başqa məna çaları yaradır və əvvəlki misralarda verilmiş fikri rövnəqləndirir:

Daldadı,
Günəş vurmaz, daldadı.
Doğru adam dar gündə
Dostlarına daldadı.
Çalışan önə düşər,
– Çalışmayan daldadı.
(Şövkət Kamal)

Gülünü;
Yalan sözə gülünü.
Əsli bağban olmayan
Yada verər gülünü.
Bülbül fəqan eyləyir
Qoparıblar gülünü.
(Musa Bəkdaş)

Yaş qurudu;
Gün doğar, yaş qurudu,
Bu sinəm göz-göz oldu
İçində yaş qurudu.
Gerçəyi inkar edən
Ha deyər yaş qurudu.
(Ə.Bəndəroğlu)

Altı misralı xoyratlar a a b a b a şəklində qafiyələnir. Onların əksəriyyəti cinas qafiyəli olurlar.

Göründüyü kimi, dördlük xoyrat və mani janrı üçün son həddeyildir. Sənətkar sözün məna tutumundan, sinonimik mənasından kərəyincə istifadə etmək, fikrini tam vermək üçün altılıqlardan da istifadə edir.

Əta Tərzibaşı Kərkük xoyratları arasında bəzən beş misralı olanlarına da rast gəlindiyini göstərir:

Bağın ərənə qalsın,
Gülün dərənə qalsın
Mən çıxdım bağbanlıqdan
(İstər avadan olsun)
İstər virana qalsın (137, 61 – 62).

Demək lazımdır ki, beş misralı xoyratlara nə xalq arasında, nə də Kərkük xoyratlarına həsr olunmuş başqa kitablarda təsadüf etmədik.

Əta Tərzibaşının «Kərkük xoyratları və manidəri» kitabında verdiyi 2490 xoyrat və mani arasında isə yuxarıdakı nümunədən başqa yalnız aşağıdakı iki maniyə rast gəlinir:

Yüz istə məni;
Gəlməm, yüz istə məni.
Mən o yar köləsiyəm
(Öpər, qoxlar, qucaqlar)
Qoyar diz üstə məni.

Ay çıxdı bata qaldı.
Cütkarlar yata qaldı.
Bir evlikli sağımda
(Bir evlikli solumda)
Bir Kərkük mata qaldı.

Göründüyü kimi, beş misralı şeir parçaları İraq–Türkman xoyrat və maniləri üçün səciyyəvi deyildir. Çox güman ki, onları xoyrat çağıranlar oxuyan vaxt əlavə ediblər.

Azərbaycan bayatıları arasında da beş misralı nümunəyə rast gəlinir. Əmin Abid aşağıdakı bayatını misal göstərərək yazır: «Ümumiyyətlə, 4-cü misralar vəzncə «yeddi» hecalı olduğu halda, bəzən bunlarda bir vəzn daşqınlığına təsadüf edilir. Bunun da musiqi sayəsində meydana gəldiyinə qane olmaq olar» (66, 31).

Əzizinəm, yaxşı dur
Yaxşı danış, yaxşı dur.
Yaxşı igid yurdunda
Pis oğul qaldığından
Qalmadığı yaxşıdır.

Şair R.Rza «Qızılgül olmayaydı» poemasında dörd misralıq bayatıya bir misra artırmaqla öz daxili hislərini bəşəri hislər səviyyəsinə qaldırmış və az təsadüf edilən beş misralıq bayatı nümunəsi yaratmışdır:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm,
Bir də yaralı könlüm
Heç biri olmayaydı (118, 271).

Onu da qeyd etmək vacibdir ki, Kərkük dolaylarında xoyrat və manilərin ən çox təsadüf edilənləri dörd misradan ibarət olanlardır. Ümumiyyətlə, dörd sətirlik şeir formasına dünyanın bir çox xalqlarının, xüsusən də Şərq xalqlarının folklorunda rast gəlirik.

Tədqiqatçıların fikrincə, öz quruluşuna, simmetriyasına və böyük imkanlarına görə ən münasib şeir forması dörd sətirlik bədii parçalardır (207, 275; 204, 446).

Bayatıların bədii xüsusiyyətlərinə dair tədqiqat aparan Ə.Əliyev 3, 4, 5, 6, 7, 8, hətta 9 hecalı bayatıların olduğunu da göstərir və misal olaraq tapmacalar verir ki, onların bayatılara heç bir dəxli yoxdur:

Salam, ay qəssabbaşı.
Məni göndərib yüzbaşı
İki girvənkə ət istərəm
Nə yazı olsun, nə qışı (171, 176–177).

Doğrudur, xoyratlar arasında da, bayatılarımızda da Əmin Abid və Əta Tərzibaşıdan gətirdiyimiz misallardan göründüyü kimi, bəzən müəyyən misrada heca artıqlığına təsadüf edilir:

O yaram;
Göz-göz olub o yaram
Bir göz bir gözə xain baxsa,
Barmaq sallam oyaram (137, 66).

Əzizinəm, közü yandı,
Kababın közü yandı.
Oğul öldü, göz çıxdı
Qız öldü, elin bir üzü yandı (137, 66).

Əta Tərzibaşı bunu oxuyanın naşılığının nəticəsi kimi qiymətləndirir və əslində, üçüncü misra – «Bir göz yara xor baxsa» şəklində olmalıdır, – deyir.

Əmin Abid maraqlı bir məsələdən də söhbət açır və göstərir ki, dördüncü misranın əvvəlinə «ay bivəfa» artırılır:

Sən gedəli il oldu,
Yandı bağrım kül oldu,
Sən ilən uçan quşlar
Ay bivəfa, oxudu bülbül oldu (166, 31).

Görkəmli bəstəkar Ü.Hacıbəylinin fikri Əmin Abidin sözlərini təsdiqləyir: «Aşıqlar dəxi şikəstə və bayatının başında «əzizim, a balam» və axırında da «ay nənəm qurban», «ay ölürəm» və qeyri kimi sözlər artırırlar» (149, 188).

Maraqlıdır ki, bu xüsusiyyətə mətni xoyrat və mani olan Kərkük xalq mahnılarında da təsadüf edilir.

Kərkük xoyratlarından söz düşəndə ən çox mübahisəyə səbəb olan məsələlərdən biri, bəlkə də, birincisi, xoyrat sözünün etimologiyasıdır. Türkdilli xalqlardan azərbaycanlılarda – bayatı; qaqauzlarda – mani; özbəklərdə – aşulə, kuşik; türklərdə – xoyrat, ayaqlı mani, kəsik mani və s. adlarla tanınan xoyratlar (66, 12; 133, 22; 137, 38–39; 103, 92) İraq–Türkman folklorunda dörd cür tələffüz edilir: xoyrat-xoryat, qoyrat-qoryat. Əta Tərzibaşının yazdığına görə, bunlardan xalq arasında ən çox tutulanı «xoyratdır» (133, 20; 137, 47). Xoyrat sözünün etimologiyasından danışarkən qeyd edilməlidir ki, Osman Məzlum 1951-ci ildə Bağdadda çap etdirdiyi «Kərkük xoyratları» adlı kitabının girişində qocaman Kərkük şairi Hicri Dədədən eşitdiyi məlumatı çap etmişdir. Hicri Dədənin də keçmiş ağsaqqallardan eşitdiyinə görə, nə vaxtsa bəzi gənclər Kərkük küçələrində boş-boşuna gəzib mahnı oxuyarlarmış.

Onlara pis nəzərlə baxar, «xori» adlandırarmışlar. Bu gün belə İraq türkləri arasında boş-boşuna, avara, sərsəri gəzən adama «xori» deyirlər. Xoryat və xoyrat sözləri də bununla əlaqədar yaranmışdır (88, 3–4).

Tədqiqatçı İbrahim Daquqi də bu fikrə tərəfdar çıxır: «Xoyrat ləfzi isə qərib, fəqir, başıboş mənalarına gələn türkmanca «xori»–xor» kəlməsindən alınmışdır. Zira sərxoşlar və əyyaşlar gecə məhəllərində bu rübailəri oxuyar və gecənin gec saatlarında insanları rahatsız edirlərdi» (70, 97).

Bir qism yazarlar isə bu sözün Kərkükün Qorya (Koriya) məhəlləsinin adı ilə əlaqədar yarandığını isbata çalışırlar. Əta Tərzibaşı göstərir ki, İraqın tanınmış dilçi alimi Tofiq Vəhbi «Altun Köprü» məqaləsində «koryat» (qoryat) sözünə toxunur və bu sözün uyğurca «kor», başqa türk, ləhcələrində «xor» – aşağı, alçaq, dəyərsiz mənasına gəldiyini yazır ki, buradan da «xor baxmaq» – aşağı nəzərlə baxmaq və «xoryat» sözləri meydana gəlmişdir (137, 50) .

İraqlı yazarlardan Siddiq əl-Qadiri göstərir ki, uyğurlar karvan gedərkən xoyrata bənzər «xiravat» – mahnı oxuyurlar. Qazan-tatar və başqırdlarda da rübai biçimində «xor» adlı mahnının olduğunu qeyd edir (84b, 154–155).

Türkiyə Etnoqrafiya Muzeyinin direktoru Həmid Zubeyr Qoşa Ay, Molla Sabirin «Kərkük müntəxab xoyratları» kitabına yazdığı «Ön söz»də V.Radlovun xoyrad–xoyradın köylü və ya qaba mənasında işlənərək, əslində, yunanca xoyratus sözündən olduğu fikrinə qarşı çıxır və xoryad sözünün türk mənşəli olduğu fikrini irəli sürür (84a, 61).

Həmid Zubeyr Qoşa Ayın bu fikri ilə əlaqədar demək lazımdır ki, qədim kitabəmiz «Dədə Qorqud»un Drezden nüsxəsində xoyrad, Vatikan nüsxəsində – xoryad kimi işlənən (137, 53) və qaba, namərd, tərbiyəsiz mənasını verən bu söz bütün türk dillərində özünü göstərir. O da maraqlıdır ki, V.Radlov xoryad sözünü Osmanlı türklərinə, xoyrat sözünü isə ümumiyyətlə, türkdilli xalqlara aid etdiyi halda (200, 1705), Azərbaycan folklorunda bu sözün hər iki variantına təsadüf edilir:

Qızıl üzük qınanmaz,
Bu qədər yar sınanmaz.
Əhdimə vəfədaram,
Xoyrat ona inanmaz.
(Azərbaycan bayatısı)

Tərk eyləyib zimistanı,
Çıxıbsan bahara, bülbül.
Nə yanırsan, ay biçarə,
Nə ölkəyə səs salırsan.
Gül gəzir xoryad qolunda
Bu hicranda sən qalırsan (100, 158).

Folklorşünas Əta Tərzibaşı «Xoyrat» sözünün etimologiyasından danışarkən bu sözün bayatılara sonradan verilən ad kimi işləndiyini göstərir (137, 54).

Bizcə, Əta Tərzibaşının bu fikrinə və «xoyrat» sözünün Kərkük folklorunda etimologiyası barədə Hicri Dədə və Osman Məzlumun gəldiyi qənaətə haqq qazandırmaq doğru olardı. Məlumdur ki, feodal-patriarxal din xadimləri insanları şeir, nəğmə, rəqs kimi mənəvi qidadan məhrum etməyə çalışır, mahnını, rəqsi, şeri, o cümlədən də xoyrat və bayatıları günah sayır, bunların tərcümanı olan el sənətkarlarını təqib edirdilər. Şübhə yoxdur ki, neçə-neçə yüzilliklər boyu ən kiçik daşına, uzaq ulduzuna qədər dinlə bağlı olan İraqda və eləcə də Kərkük dolaylarında da bu, belə olmuşdur. Burada mahnı oxuyan, xoyrat çağıran adama keçmişdə bizdə olduğu kimi, aşağı nəzərlə baxmış, onları «xori»–avara, sərsəri adlandırmış, oxuduqları xoryad mahnılarına «xoryat» adı vermiş, özlərini günahlandırmışlar ki, o dünyada onları ağır cəza gözləyir. Məhz bu səbəbdən çoxları bu sənətə qədəm qoymağa cəsarət etməmiş, bəziləri isə bu sənət aləmindən ayrılmışlar. Əta Tərzibaşı «Muçala», «Yolçu» və «Müxalif» xoyrat üsullarını oxumaqda şöhrət qazanan, məşhur kərküklü müğənni Məhəmməd Kül-

boydan söz açır. O, 1964-cü ildə Həccə gedərək tövbə edir ki, bir daha xoyrat və mahnı oxumayacaq. Beləliklə, Kərkükün məşhur müğənnisi sənətdən ayrılır. 1965-ci ildə isə «Bəşiri», «Yetimi», «Nobatçı», «Dəllihəsəni» xoyrat üsullarının və azəri mənşəli «Qarabağı» havasının ən usta oxucusu Rəşid Kölə Rza Həccə gedərək bir daha xoyrat və mahnı oxumayacağı barədə tövbə edir ki, günahından keçilsin. Beləliklə, o da bu gözəl sənət aləmindən ayrılır (137, 61–62).

Üzeyir bəy Hacıbəylinin yazdığına görə, keçmişdə Azərbaycanda da «xanəndə və sazəndələr belə «haram» bir əməli özlərinə peşə etdiklərinə görə, kəffireyi-günah üçün məhərrəmlik zamanı məscidlərdə nöhə və mərsiyə oxuyarlar, yaxud ziyarətə gedib hacı və məşədi olarlardı ki, günahlarından keçilsin (149, 185).

Əta Tərzibaşının «Kərkük xoyratları və maniləri» kitabında tədqiqatçının özünün nədənsə dərinliyinə varmadığı, lakin nəzəri cəlb edən vacib bir cəhət də vardır ki, «xoyrat» sözünün etimologiyasının dəqiqləşdirilməsində müəyyən qənaətə gəlməkdə gərəkli ola bilər. Tədqiqatçı göstərir ki, əski şairlər xoyrat və mani yazarkən az-çox təxəllüslərini göstərmişlər. Lakin sonralar xoyrat və mani yazmaq ayıb hesab olunduğuna, istehza və təhqirə məruz qaldıqlarına görə təxəllüslərini göstərməkdən çəkinmişlər. Çünki onlara da, mani oxuyan, xoyrat çağıranlar kimi alçaq nəzərlə baxır, onları düşük bir zümrə sayır; xori – deyərək təhqir və istehzaya məruz qoyardılar (137, 13).

XX əsrin ikinci yarısında xoyrat oxuyanlar tövbə edirsə, nədənsə, kimdənsə çəkinirsə, qaranlıq əsrlərdə gözəl səsi və fitri istedadı olan adamlar ürəklərinin səsi ilə hərəkət edərək tutduqları yoldan dönməyəndə, din xadimlərinin onlara qarşı necə amansız mübarizə aparmalarını, onlara alçaq nəzərlə baxmalarını, onlara hər cür damğa vuraraq xalqın gözündən salmağa çalışmalarını təsəvvür etmək çətin deyil. Bütün bunlar Hicri Dədə kimi müdrik və mütəfəkkirin dediklərini təsdiq edən, təkzibolunmaz tutarlı dəlillərdir.

Xoyrat-xoryat sözünün «xori» sözündən yaranması və yeni məna çaları kəsb etməsi, yəni bayatı mənasında işlənməsi həm mümkün, həm də ağlabatandır.

Dilçilik elmindən məlumdur ki, hər hansı bir dildə məxsusi mənanı ifadə etmək üçün yaranan söz vaxt keçdikcə başqa mənalar da kəsb edir.

Kərkük dolaylarında xoyrat yerinə «qoşma» və ya «beyt-beyit» termini də işlənir. Əta Tərzibaşı bu münasibətlə yazır:

«Bəzi yazma məcmuələrdə (cüng) xoyrat və mani qarşılığında, «həqiqət» sözü keçdiyi kimi, bəzi şairlərimiz bunun yerinə «qoşma» terminini qullanmışdır. Ayrıca, xalq arasında əskidən bəzən «beyt» sözü keçirdi. Bunu, xalqın, ümumiyyətlə, şeir qarşılığında hələ də qullandığını bilməkdəyiz» (137, 40).

Bu, alimlərimizin fikrini doğruldur. Onlar iddia edirlər ki, qoşma, gəraylı, təcnis bayatıdan yaranmışdır. İlk vaxtlar bayatı kimi bir bənd olan bu şeir formaları təkamül yolu keçərək sonralar üç bənd olmuşlar (102, 40).

Elə bunu təcnislərin eynilə xoyratlar kimi, cinas qafiyəli olması da təsdiq edir.

Mani sözünün etimologiyasına gəlincə, hər şeydən əvvəl, demək lazımdır ki, bu söz həm mani, həm də maani kimi tələffüz edilir.

Bir çox tədqiqatçılar maninin ərəbcə «mana» sözünün cəmi «məani»dən alındığını söyləmişlər (137,55).

Əmin Abid türk və qaqauzlarda da bayatı əvəzinə «mani» işləndiyini və ərəb sözü «məani»dən alındığını qeyd edir (66, 12, 13).

Maraqlıdır ki, «mani» termini vaxtilə bizdə də işlənmişdir. 1925-ci ildə Bakıda çap olunan «Bayatılar» kitabındakı fikirlər dediklərimizi təsdiq edir: «Toplamış olduğumuz nümunələrin «bayatı və mani» qismindən sadə material olaraq bu kitabçayı nəşrə qərar verdik... Kitabçada bulunan bayatı və manilər mərhum Mirzə Məhəmməd, şair Abdulla Şaiq

və müəllimə Şəfiqə xanım Əfəndizadə yoldaşların toplamış olduğu materiallardan götürülmüşdür» (33, 3–4).

Tədqiqatçı Salman Mümtaz «mani» sözünün etimologiyasını müəyyən bir ulusla, ellə bağlayır: «Şeirlərin xüsusi adlarına gəldikdə, onlar da mani, varsağı, türkməni, gəraylı, ovşarı, bayatı və başqalarından ibarətdir. Türki-türk, mani-mahan, varsağı-varsaq, türkməni-türkmən, gəraylı-gəray, ovşarı-afşar, bayatı-bayat. Bu adlar ulusların, ellərin, hünərləri, bacarıqları sayəsində yaradılmış şeirlərə, mənzumələrə verilən adlardır ki, bunların vasitəsilə hansı şeirin hansı ulusa, elə nisbəti olduğu meydana çıxır... Gəray elinin yaratdığı mənzuməyə «Gəraylı» deyildiyi kimi, əfşarların qoşqularına əfşarı deyilir. Yalnız mani təhrif olunmuşdur ki, o da mahan elinin düzdüyü düzmədir (120, 7).

Manilər bir çox xüsusiyyətlərinə görə xoyratlardan fərqlənirlər. Əsas fərqləndirici cəhət odur ki, xoyrat və manilər həm forma, həm də məzmunca fərqlənirlər. Forma baxımından manilərin bütün misraları yeddi hecalı olduğu halda, xoyratların birinci misrası kəmhecalı, yəni üç, dörd və ya beş hecalı olur. Xoyrat və manilərin məzmuna görə fərqlənməsi məsələsində Əta Tərzibaşının fikri maraq doğurur: «Gəncliyin ehtiraslarını tərənnüm edən bəsit dördlüklərə mani, sənət qavramı olqun və üstün olanlara da xoyrat adı vermək, yerində olur» (137, 60).

Xoyratlardan fərqli olaraq, manilərə musiqi bəstələnir və onlar müəyyən döndərmələrlə – nəqarətlə birlikdə xorla oxuna bilirlər.

Xoyratla manini fərqləndirən başlıca amillərdən biri də xoyratların həmişə cinaslı, manilərin isə adi qafiyəli olmasıdır. Lakin bu, o demək deyildir ki, manilər arasında cinaslılara təsadüf edilmir. Az da olsa cinaslı manilərə də rast gəlinir:

Sona göldə bir üzdü,
Bir çalxandı, bir üzdü,
Üzün qoy üzüm üstə
Görən desin bir üzdü.

Manilər vəzn etibarilə də xoyratlardan fərqlənirlər. Əmin Abidin göstərdiyinə görə Tadeuş Kovalski «Mani» növünün vəznində dörd tip ayırd etmişdir. Misrası 4+3; 3+4; 2+5; 2+3+2 hecalı olanlar. Bu bölgüyə əsaslanan Əmin Abid vəzn etibarilə Azərbaycan bayatılarının on dörd şəklini üzə çıxartdığını qeyd edərək misallar versə də, misal gətirdiyi üç, dörd və on ikinci nümunələr tədqiqatçının irəli sürdüyü bölgüyə cavab vermir (66, 28–29).

Demək lazımdır ki, Kərkük manilərində misralar üzrə hecaları daxili bölgü, ritm və ölçü baxımından nəzərdən keçirərək on üç şəklini üzə çıxartdıq.

Misraları 3+2+2; 2+2+3; 2+3+2; 3+1+3; 3+4; 1+2+2+2; 2+2+1+2; 2+1+4; 1+2+4; 2+1+2+2; 4+2+1; 2+2+2+1; 1+2+3+1 olanlar. Əvvəlki yeddi bölgüyə aid manilər lap çoxdur. Misralarda hecaların bölgüsü 1+2+3+1 olan isə təkcə aşağıdakı manidir:

Sən mənim mürşüdüm, yar,
Aç qoynun, üşüdüm, yar.
Dərd söylə, can deyim mən
Bir səsin eşidim yar.

Burada hecaların bölgüsü, daha doğrusu, qruplaşması etibarilə fərqlənən hər bir maniyə aid bir misal verməklə kifayətlənəcəyik.

Misraları 3+2+2 və 2+2+3 şəklində olanlar:

Bağçayam, baram sənə;
Heyvayam, naram sənə.
Könlün fikir çəkməsin
Ölüncə yaram sənə.

Yağış yağar göllərə,
Bülbül qonar güllərə.
Mənim vəfasız yarım
Salıb məni çöllərə.

Misraları 3+1+3 və 3+4 şəklində olanlar:

Divara daş qoymuşam,
Uğrunda baş qoymuşam.
Gözlərimdən qan gəlir
Adını yaş qoymuşam.

Əkinim əkiliri,
Sünbülüm tökülürü,
Zülfündən bir tel göndər
Kəfənim tikiliri.

Misraları 1+2+2+2 və ya 2+2+1+2 şəklində olanlar:

Ay çıxdı bədir, Allah,
Can dosta nəzir, Allah.
Ya canım cana yetir
Ya cana səbir, Allah.

Qaşın-gözün zil kimin,
Titrər qızılgül kimin.
Qapında abdal oldum
Alıb-satma qul kimin.

Misraları 2+1+4 və 1+2+4 şəklində olanlar:

Bağça bar üstünədi,
Heyva nar üstünədi,
Bu zamanın xoyratı
Hamsı yar üstünədi.

Çöl yerin seyranıyam,
Yar, boyun heyranıyam.
Hansı yoldan gəlibsən,
O yolun qurbanıyam.

Misraları 2+3+2 və 4+2+1 şəklində olanlar:

Oğlan yaylığın hanı?
Durmaz barmağım qanı.
Mənim sevdigim sənsən
Sənin sevdigin hanı?

Bülbülümün bağı yox,
Kəkligimin dağı yox.
O günnən sən gedibsən
Ürəgimin yağı yox.

Misraları 2+2+2+1 və 2+1+2+2 şəklində olanlar:

Dağlar duman oldu, gəl,
Halım yaman oldu gəl.
Aylara vədə verdin
İllər tamam oldu, gəl.

Kabab köz evin yıxar,
Sürmə göz evin yıxar.
Bir can, bir canı sevsə,
Axır öz evin yıxar.

Demək vacibdir ki, bu bölgüdə saysız-hesabsız manilər öz əksini tapa bilmədiyindən onu şərti hesab edirik.

Bununla belə, bu bölgünü musiqiyə yatımlılıq, musiqi ahənginə uyğunluq baxımından nəzərdən keçirsək manilərdəki bu daxili bölgü, ritm və ölçünün mahnı yaradıcılığında böyük əhəmiyyəti olduğunu görmək o qədər də çətin olmaz. Tədqiqatçı Ə.Əliyev namizədlik dissertasiyasında bu məsələyə xüsusi diqqət yetirmiş və doğru nəticəyə gəlmişdir: «Bayatılardakı daxili bölgü, ritm, ölçü və s. fərqlənir: 3+4; 4+3; 5+2 və s. olur ki, onlara müxtəlif musiqi yazmaq çox asan olur» (171, 162).

Bundan əlavə, M.Adilovun Azərbaycan ədəbiyyatı ilə bağlı göstərdiyi kimi (2, 53), bayatı və manilərin birinci beytinin hər iki misrasında paralel tərkiblərin, bölüşdürücü bağlayıcıların və ya bağlayıcı funksiyasında işlənən say və əvəzliklərin də çox mühüm ritmik rolu və emosional təsirindən də söz açmaq olar:

Bağçayam, baram sənə
Heyvayam, naram sənə.

Nə qardaş ol, nə sirdaş,
Özün ögənə könül.

Bu günün adamınnan
Nə küs, nə inci, baba.

Həyatın sonu ölüm,
İstər ağla, istər gül.

Həm təbibdi, həm məlhəm
Şirin əhbab, şirin dil.

Bir sabah gəl, bir axşam,
Bir də günorta çağı.

Nə balda, nə şəkərdə
Bulunmaz bala dadı.

Bülbül gülün itirib,
Gah çağırar, gah ağlar.

Kim əkdi, kim becərdi,
Kim oldu bağ sahibi. və s.

Heç şübhəsiz, bu səbəbdəndir ki, Azərbaycanda da, Kərkük dolaylarında da bəstəkarlar böyük məmnuniyyətlə bayatılara musiqi bəstələyir, müğənnilər onları böyük həvəslə ifa edirlər. Beləliklə, bayatılar bir yandan milli musiqinin, poeziyanın inkişafına təkan verir, digər tərəfdən də musiqi bayatının sözləri ilə birləşərək onun təsir gücünü artırır. Musiqi qoşularaq oxunan bayatılar xalq poeziya xəzinəsinin ən qiymətli incilərinə çevrilirlər.

Hamı tərəfindən sevilən, xalq arasında geniş yayılan manilər Türkman folklorunda dastan yaradıcılığına da təkan vermişdir. Manilər üzərində qurulan «Arzu–Qəmbər» dastanı dediklərimizə sübutdur.

Bununla belə, qeyd etmək lazımdır ki, xoyratlar və manilər Kərkük dolaylarında yalnız XX əsrin ortalarından toplanıb sistematik çap olunmağa başlanmışdır (87; 88; 84; 84a, 84b; 133; 133a; 133b; 137).

Son vaxtlar Kərkük xoyratları və maniləri Azərbaycanda da dönə-dönə çap olunmuş, onların tədqiqinə meyil artmışdır (82; 74; 86; 117; 139; 50).

Xoyrat və manilər üzərində tədqiqat apararkən bir yandan bu kamil sənət abidəsinin, onu yaradanların adət-ənənəsini, dünənini, bu gününü, məişətini, etnoqrafiyasını, ictimai həyat tərzini, mənəviyyatını, psixologiyasını, dünyagörüşünü, bədii təfəkkürünü öyrənmək yolunda əvəzsiz xəzinə olduğu qənaətinə gəlirsən, digər tərəfdən də M.H.Təhmasibin «Xoriyatlar

bizim bayatılarla tamamilə eyniyyət təşkil edir, onlardan heç nə ilə fərqlənmir... Bunların hamısı eyni təxəyyülün, eyni təfəkkürün məhsuludur» fikrinə şərik çıxırsan (139, 201–202).

Folklorşünas Əmin Abidin bayatı və xoyratların müəyyən tarixi, siyasi-ictimai səbəblər üzündən ayrı düşmüş eyni xalqın yaradıcılıq məhsulu olduğu barədə fikrini göz önünə gətirirsən: «İraq türkü nümunələri Azərbaycan bayatılarının bütün xüsusiyyətləri ilə oralarda yaşadıqlarını göstərir» (66, 24).

Bu baxımdan folklorşünas İ.Abbasovun gəldiyi nəticə də maraq doğurur: «İraq–Türkman qadınının dilində səslənən layla Azərbaycan qadını üçün də doğma və əzizdir... Bu, həm də o deməkdir ki, bayatı-mani-xoyrat xəzinəsinə malik olan xalqlar doğma olmuş, eyni çeşmədən su içmiş, eyni qaynaqdan barınmışlar (19, 7).

Tədqiqatçıların təkzibolunmaz fikirlərini nəzərdən keçirdikcə istər-istəməz «Nə yaxşı ki, xalqın ellikcə yaratdığı mənəvi sərvət üçün bağlı qapılar, kiçilməz yollar yoxdur» (56) deyə fikirləşir və təskinlik tapırsan. Həqiqətən də, nə bağlı yollar, nə illər mənəvi ayrılığa gətirib çıxara bilməmiş, qismətimizə fiziki ayrılıq düşüb. İndinin özündə belə bu yaxınlıq, bu doğmalıq yaddaşlardan silinməyib. M.Həkimovun Azərbaycanın Qazax rayon sakinləri, ərəb dilini yaxşı bilən yüz on yaşlı Bəhmən baba və yüz beş yaşlı Ayişə nənədən topladığı bayatılar dediyimizə dayaq olur:

Ta İraqa;
Yol gedir ta İraqa.
Dost dostun qədrin bilməz,
Düşməsə ta İraqa.
(153, 23)

Rum mənəm, İraq mənəm.
Bu yanan çıraq mənəm.
Qul tək əllərə düşdüm
Vətəndən iraq mənəm.
(154, 167)

İraq türkmanlarının yaşadığı Məndəli qəsəbəsi ilə bağlı bayatı və xoyratların səsləşməsi də bu doğmalıqdan söz açır:

Əzizim Məndəlidən,
Mən Məcnun Məndəlidən
Ay ellər Leylimə bax,
Küsübdü mən dəlidən.
(153, 23)

Məndəlidən;
Gül gələr Məndəlidən.
Bu vəfasız yara bax,
Küsübdü mən dəlidən.
(137, 365)

Bir çox xoyrat və bayatılar eyni dastanlardan, eyni qəhrəmanlardan, eyni toponimlərdən söhbət açır:

Bağdad yolu Gəncədi;
Gülü pəncə-pəncədi.
Demə sizdən irağam.
Bu sevda ölüncədi.
(137, 453)

Gənc Əlidi;
Bir qolu qönçəlidi.
Harda bir qərib görsən
Elə bil gəncəlidi.
(137, 114)

Saysız-hesabsız bayatılarda Bağdad, Fərat, İraq, Məndəli, xoyratlarda isə Qarabağ, Gəncə, Şəki, Şirvan və s. kimi coğrafi adlara rast gəldikcə yazıçı Elçinin sözləri göz önünə gəlir. «Bu coğrafi adlar bu gün xalq ədəbiyyatında rəmzi məna daşımağa başlayıb. Nisgillə dolu olan bu sözlərdə əlçatmazlıq, ünyetməzlik var. Ayrılığın ağrısı, acısı var» (56).

Qeyd etmək lazımdır ki, kərküklü folklorşünas Əta Tərzibaşı da bu məsələyə öz münasibətini bildirmişdir: «Bizim xoyrat və manilərimizin ilgisi, ən yaxın olanı mühəqqəq ki, azəri olanlarıdır» (137, 40).

Bu baxımdan Mustafa Ziya ilə birgə xoyratlarla bayatıları müqayisəli şəkildə 382 səhifədən ibarət kitab halında çap edən, vaxtilə Azərbaycanda aspiranturanı qurtararaq kimya elmləri namizədi adına layiq görülən, iraqlı tədqiqatçı Əli Bəndəroğlunun gəldiyi nəticə də maraq doğurur: «Görünür ki, bayatı, xoyrat və mani elliklə yapı və mövzu baxımından ortaqdır, hətta eynidir» (39,7).

Xoyratlar və manilər, ümumiyyətlə, Türkman folkloru və eləcə də Kərkük dialekti barədə türk alimlərinin rəyi də maraq

doğurur. Kərküklü folklorşünas Molla Sabirin üç hissədən ibarət «Kərkük müntəxab xoyratları» kitabının əlyazması ilə tanış olan türk alimləri Kərkük ləhcəsinin Azərbaycan dialekti olduğunu, xoyratların isə bayatılardan heç cür fərqlənmədiyini göstərmişlər (82, 176–178).

Mir oğlu Cəmil yazır: «Molla Sabirin «Kərkük müntəxab xoyratları»ndan görünür ki, dilləri Türkiyə, yəni qərb türkcəsinə ən yaxın türk ləhcəsi olan azəri ləhcəsindən həmənhəmən fərqsizdir» (84b, 140).

Türkiyənin Əskişəhər İnstitutunda müəllim işləyən Vahabi Aqşun Molla Sabirin kitabının II və III qismini oxuyaraq, İstanbulda çıxan «Dünya» qəzetinin 5 mart 1954-cü il tarixli nömrəsində və kitaba yazdığı ön sözdə qeyd edir: «İlk kitabda olduğu kimi, bu kitabdakılar da azəri ləhcəsindədir» (84a, 67).

Vahabi:

Axşam arada qaldı,
Xəncər yarada qaldı,
Mənim bedasıl yarım
Bilməm harada qaldı.

bayatısını göstərir və: «Şu deyişlər azəri ləhcəsinin özlügünü taşımaqdadır» (84a, 67) hökmünü verir.

Türkiyə Dil Qurumunun direktoru Ömər Asimin doğru fikri də xoyratlar barədə gəldiyimiz qənaətə dayaq olur: «Böyük bir diqqət və uzun bir səbir və əmək məhsulu olan kitabını bən və arkadaşlarım zövq və istifadə ilə oxuduq. Azəri ləhcəsində gözəl örnəkləri olan bu xalq şeirlərində bizim dərləmələrə sıqsıqaya bağlı kəlimələr, təbirlər vardır» (84a, 57).

Göründüyü kimi, Kərkük xoyrat və manilərini Azərbaycan bayatılarından ayırmaq, onların kimə mənsubluğunu təyin etmək çətindir. İraqlı tədqiqatçılar Əta Tərzibaşı və Əli Bəndəroğlunun fikri ağlabatandır. Xoyrat, mani və bayatıları ortaqlı saymaq daha doğru olardı.

Məhz buna görə də Azərbaycan bayatılarına dair təsnifatı bütövlükdə xoyrat və manilərə də aid etməyi məqbul hesab etdik. Mövzuya görə xoyrat və maniləri: Təbiət və təbiət gözəlliklərini tərənnüm edən, əmək-zəhmət, sevgi-məhəbbət, ictimai məzmunlu və məişət xoyrat və maniləri – ümumi başlıqları altında qruplaşdırmaq olar.

Xalqın ictimai həyatının bütün sahələrinə sirayət edən, onun mənəviyyatını, dünyagörüşünü, bəşəri duyğularını göstərən, hiss və həyəcanını, sevinc və möhnətini, qəm, qüssə, kədərini, ələmini, gərdişə münasibətini, sevgi-məhəbbət və nifrətini, həyat və mühitə münasibətini, arzu və istəyini, həyat eşqi – yaşamaq həvəsini, intizar və həsrətini, daxili aləmini, mübarizə və dözümünü, xoşbəxtlik və ləyaqətini, inam və etiqadını, ar-namus və qeyrətini, hünər və şücaətini, saf əməl və vicdanını, təmiz adını, zülm-zorakılıq və haqsızlığa qarşı mübarizəsini, ah-nalə, üzüntü-nigarançılıq və iztirabını, vəfa-sədaqət və etibarını, əzab-əziyyətini, vətənə, xalqa bağlılığını, vətən torpağının toxunulmazlığı və müqəddəsliyini vətən həsrətini, ayrılıq-hicran və fərağını, yad el – qürbət hislərini, mərdlik və igidliyini, insanpərvərliyini, insana münasibətini, şikayət və narazılığını, qəzəb və hiddətini, ümid və arzularını, əməyə, zəhmətə münasibətini, sayıb-sayılmağını, gün-güzəranını, bəxt-tale, yoxsulluq və ehtiyacdan umu-küsü və giley-güzarını, iftixar, məğrurluq, dostluq, iradə, nikbinlik hislərini, təsəlli və nisgilini, ağrı-acılarını, sıxıntını, tənə-qaxınc, məzəmmət və möhnətini, öyüd-nəsihət və hikmətini, həyat təcrübəsini, ailə-məişət münasibətlərini və s. poeziyanın sehrkar dili ilə ifadə edən ölümsüz xoyrat və manilər Türkman folklorunun çələngidir.

Göründüyü kimi, xoyratlar həyatın elə bir sahəsi yoxdur ki, orada öz əksini tapmasın. Bu təbiidir. Təsadüfi deyildir ki, V.Q.Belinski yazırdı: «Poeziya həyatın təcəssümüdür, daha doğrusu, həyatın özüdür. Hələ bu harasıdır. Poeziyada həyat həqiqətdə olduğundan daha həyatidir» (177, 169).

Demək lazımdır ki, epik növdə xalqın dilək və arzuları müəyyən əfsanəvi ünsürlərlə qarışdığı halda, lirik növdə, xüsusən də bayatı, xoyrat və manilərdə bu dilək və arzular tamamilə real ünsürlərdən ibarət olur. Buradakı sevgi də, nifrət də, kədər və ələm də həyatiliyi ilə seçilir (34, 15).

Xoyratları fərqləndirən ən başlıca cəhət hər birində bir dünya fikir olan, hər misrasına bir dünya ürək döyüntüsü sığan, hər biri ayrı-ayrılıqda bitkin bədii əsər olan bu kiçik parçalarda məna ilə bərabər, fəlsəfi fikrin yığcamlığı, əxlaqi və ictimai anlamların dərinliyidir. Hələ bu az imiş kimi, xalq yeri gəldikcə öz ürək sözünü daha dəqiq, daha tutarlı, daha inandırıcı demək üçün xoyratlarda çoxlu atalar sözündən də istifadə edir. Bu da təbiidir. Məlumdur ki, xoyrat və manilər, eləcə də bayatılar şifahi xalq ədəbiyyatının başqa növ və janrları, xüsusən də qafiyələnmənin ilk baş verdiyi ilkin janrlardan olan atalar sözü və məsəllərlə sıx bağlıdır (208, 154).

Bəzi tədqiqatçıların fikrincə, bayatı ilə işlənən atalar sözləri və məsəlləri qədim bayatılarda axtarmaq lazımdır (171, 170). Kərkük dolaylarında isə təzə yazmağa başlayan gənc şairlər də, orta və yaşlı nəsil də xoyratlarda hər addımbaşı atalar sözü və məsəllərdən istifadə edirlər. Ümumiyyətlə, xoyratlarla işlənən atalar sözləri çoxdur: Əyri ağac düz olmaz, rəndə vursan yüz yerdən; Dəyirman işin görər, çaqçaq baş ağrıdar; Qılınc kəsməyən əri bir quru söz öldürər; Divarı nəm yıxar, insanı qəm; Dəryaca ağlın olsa, yoxsul olsan güləllər; Düşənin dostu olmaz; Bilənə bir söz yetər, bilməyənə yüz oxu; Tərəzin əyiləndə, hər gələn bir daş atar; Ayağını yorğanına görə uzat və s. kimi xoyratlarda işlənən onlarca atalar sözü göstərmək olar. Atalar sözləri xoyratlarda elə ustalıqla işlədilir ki, elə bil onların boyuna biçilib. Məsələn:

Bir daş atar;
Bir kirəc, bir daş-atar.
Tərəzin əyiləndə
Hər gələn bir daş atar.

Arzular gedər;
Qəmbər–Arzular gedər.
Bəsləmə yad ördəgin,
Vətən arzular gedər.

Göründüyü kimi, bir tərəfdən atalar sözləri və məsəllərdə müdrikliklə, yığcam şəkildə deyilmiş ifadələr xoyratların bədii dəyərini artırır, digər tərəfdən də xoyratlar atalar sözü və məsəllər kimi bədii söz xəzinəsini daha da zənginləşdirir, onların daha geniş yayılmasına kömək edir.

Türkman xoyratlarının səciyyəvi xüsusiyyətlərindən biri də əksər xoyratlarda misralar arasında məna bağlılığının olmasıdır. Əta Tərzibaşı bu münasibətlə yazır: «Xoyrat və manilərimizin başlıca vəzifələrindən biri də bunların ən çox qanadları arasında məna bağlılığının mövcudluğudur» (137, 41).

Tədqiqatçının müqayisə üçün verdiyi xoyratlarda misralar arasındakı bağlılıq göz qabağındadır:

Dolandı gün;
Döndü gün, dolandı gün.
Mən sənə daldalandım
Sənə də dolandı gün.

Qazan ağlar;
Od yanar, qazan ağlar.
Burda bir qərib ölüb
Türbəsin qazan ağlar.

Qeyd etməyə dəyər ki, manilərin də misraları arasında məna bağlılığı görünməkdədir:

Avçılar av tutmasın,
Çaxmağı qav tutmasın.
Səni vuran avçının
Qolları yay tutmasın.

Sona göldə bir üzdü
Bir çalxandı, bir üzdü.
Üzün qoy üzüm üstə,
Görən desin bir üzdü və s.

Əta Tərzibaşı xoyrat, mani və bayatıları misralararası məna bağlılığı baxımından müqayisə edərək yazmışdır: «Xoyrat qanadları arasında məna bağlılığının mövcudiyyəti haqqında, ilk dəfə olaraq tərəfimizdən irəli sürülən görüşü doğru bulan azərbaycanlı professor M.H.Təhmasib azəri bayatıları üçün də bunu eynən qəbul etməkdədir ki, bu baxımdan Kərkük xoyratları ilə Azərbaycan bayatılarının bir-birindən ayrılmadığını önə sürür» (137, 74).

Həqiqət naminə demək lazımdır ki, bayatılarda sətirlər arasında məna bağlılığının olduğunu biz hələ, 1943-cü ildə M.H.Təhmasibin çapına müvəffəq olduğu «Bayatılar» kitabına yazıçı M.Hüseynin yazdığı sanballı giriş məqaləsində təsadüf edirik: «Elə bayatılar var ki, yaradıcının məharətindən asılı olaraq sətirlər arasındakı əlaqə son dərəcə sənətkaranə gözlənilmişdir:

Əziziyəm, aydın olsun,
Ay doğsun, aydın olsun.
Gəl yardan xəbər verim,
Gözlərin aydın olsun.

deyərkən, ayın doğması ilə şad xəbər arasındakı əlaqə olduqca üzvi və təbiidir. Lakin hər vaxt belə olmur:

Mən aşiqəm, ya xannan,
Ya sultannan, ya xannan.
Bir dəstə gül olaydım,
Asılaydım yaxannan.

Burada birinci hissə ilə ikinci hissə arasındakı əlaqə çox uzaqdır. Lakin ən yaxşı bayatılar üçün birinci təsadüf daha xarakterikdir» (34, 16).

Doğrudur, Əta Tərzibaşı da bütün xoyrat və manilərin misraları arasında məna bağlılığı olduğunu təsdiq etmir. Əksinə, tədqiqatçı «bununla bərabər, qanadları arasında məna bağlılığı bulunmayan xoyrat və manilərimiz də yox deyildir» (137, 41) qənaətinə gəlir.

Təəssüflə qeyd etməli oluruq ki, son vaxtlara qədər əksər tədqiqatçılarımız bayatı – xoyrat və manilərin bir və ikinci misralarının, ümumiyyətlə, formal xarakter daşıdığını və sonrakı iki misradakı fikir üçün bir növ zəmin hazırladığını qeyd edirdilər.

Tədqiqatçı Ayaz Vəfalı bunun çox zərərli olmasını ürək ağrısı ilə qeyd edir: «Bu səyin az qala ümumi bir şəkil alması bu-

nunla nəticələnmişdir ki, bayatılarımız ciddi zəhmət bahasına Ümumittifaq miqyasına çıxarılarkən kitabın müqəddiməsində elə o cür də təqdim edilmişdir. Beləliklə, xalq şeirinin bu əvəzsiz nümunələri, folklorumuzu orijinaldan öyrənmək imkanı olmayan oxuculara istəsək də, istəməsək də, bədii cəhətdən qeyri-mükəmməl kimi nişan verilmişdir. İndi bu «ənənəvi» fikrin əleyhinə çıxanların səsi daha ucadan eşidilməkdədir» (50, 173).

Elə buradaca göstərmək lazımdır ki, bəzi bayatılarda misralar arasında məna bağlılığının olmamasına, onların qeyri-mükəmməl səviyyəyə endirilməsində bir çox hallarda tədqiqatçıların diqqətsizliyi, eləcə də bəzilərinin naşılığı az rol oynamamışdır.

Təcnislərlə cinaslı bayatıları qarışdırmışlar. Doğrudur, aşıqlar təcnis yazmağı bayatılardan öyrənmişlər (53, 27). Bayatılarda olduğu kimi, təcnislərdə də cinas qafiyələr işlənir. Məsələn:

Lazım olur yoxsul üçün bircə mal,
Leyli isən göstər mənə bir camal,
Laf eyləmə, var saqidən bir hal al,
Leysan çeşmim məni eylər sənə mal.

Lakin göründüyü kimi, bütün misralarda cinaslar mürəkkəb formadadır.

Təcnislərdən fərqli olaraq, xoyratlarda birinci misra ilə ikinci misradakı cinas sözlərdə daxili bölgü hərfi-hərfinə uyğun gəlməlidir.

Professor Musa Adilovun haqlı olaraq göstərdiyi kimi, birinci misradakı qafiyə əmələ gətirən söz ikinci misrada mütləq təkrar olunur. Bu, bir yandan qafiyə ilə əlaqədar olub, eyni zamanda ritmi saxlamağa, daha doğrusu, misralara müəyyən ritm verməyə kömək edir. Həmin tip təkrarların bir cəhəti də ondan ibarətdir ki, birinci misrada ümumi şəkildə işlənmiş və müxtəlif mənalarda anlaşıla bilən söz, ikinci misrada təkrarlanarkən dəqiqləşdirilir, konkret mənada üzə çıxır (2, 52–53).

Təəssüf ki, tədqiqatçılarımız bəzən bu həqiqətdən yan keçirlər:

Əzizi, gör dügünü,
Sinəmdə gör dügünü.
Könül sevdigin istər,
Göz istər gördügünü.
Namərddə söz əglənməz,
Mərd deməz gördügünü.

– altılığının ilk iki misrasını:

Əzizi gördü günu, Sinəmdə gör dügünü kimi vermişlər (36, 33; 39, 42) ki, bu da əslində, müəllifin: «Əzizi, düyünə bax, sinəmdəki düyünə bax» fikrinin təhrif edilməsinə, misralar arasında məna bağlılığının pozulmasına gətirib çıxarmışdır.

Demək lazımdır ki, bayatılarda misralar arasında məna bağlılığı məsələsində folklorşünas V.Vəliyevin fikri həm maraqlı, həm də inkaredilməzdir: «Bir qayda olaraq, bayatıların şəkli xüsusiyyətlərindən bəhs edərkən tədqiqatçılar göstərirlər ki, bayatıların bir, iki və dördüncü misraları həmqafiyə, üçüncü misrası isə sərbəst olur. Əsas fikir üç və dördüncü misrada deyilir. Lakin bu, o demək deyildir ki, bir və ikinci misralardakı fikir zəifdir. Məlumdur ki, ilk iki misra şeirin başlanğıcıdır. Nəzərdə tutulan əsas fikir, məna isə axırıncı misranın sonunda tamamlanır. Ona görə də sonuncu misraları bayatıdan ayrıca götürmək və əvvəlki misralara qarşı qoymaq düzgün deyildir. Əgər əvvəlki misra olmasa, sonuncu misraların özlüyündə mənası o qədər də təsirli olmaz. Bayatının üç və dördüncü misralarının məna kəsəri və siqləti birinci və ikinci misradan asılıdır» (46, 129).

Bu, xoyrat və manilərdə də belədir. Bu kamil sənət əsərlərinin bir çoxunda ilk iki misra, sonrakı iki misrada veriləcək poetik fikri fəlsəfi və məna cəhətdən qüvvətləndirmək üçün zəmin yaradır və misralar arasında bağlılıq aydınca hiss edilir:

Qanad ağlar;
Ox titrər, qanad ağlar.
Ovum yaralı getdi
Boyandı qana dağlar.

Fələyin işi düşsün,
Yaydan kirişi düşsün
Fələyin də bizim tək
Namərdə işi düşsün.

Başqa qism xoyrat və manilərdə isə bütün misralar ayrıca məzmuna malik olur. Üçüncü manidən göründüyü kimi, hətta bir və ikinci misralar sonrakı misralardan daha dərin fəlsəfi əhəmiyyət kəsb edir:

Əkmə - bitməyən yerə,
Can ver itməyən yerə.
Ayaqlar necə varsın
Könül getməyən yerə.

- Səhərin vaxtı keşdi,
Bir ulduz axdı, keşdi.
Dünya bir pəncərədi
Hər gələn baxdı, keşdi.

Çox geniş əhatə qüvvəsinə malik olan dördüncü nümunədə isə xalqın əsrlərlə topladığı həyat təcrübəsinin nəticəsi «Bir ulduz axdı, keşdi», yəni ulduzun axması ilə «dünyadan bir nəfər köçdü» inamı və dərin fəlsəfi məna «Dünya bir pəncərədi, hər gələn baxdı, keşdi» çulğalaşır. Burada misralar bir-biri ilə sıx vəhdət təşkil edir ki, onu yaradan sənətkarın ecazkar qüdrəti sayəsində kamil sənət nümunəsi səviyyəsinə qalxır.

Misralar arasında məna əlaqəsi məsələsində folklorşünas Q.Namazovun fikri də maraq doğurur. Onun fikrincə, xoyrat və bayatıda hər misranın öz vəzifəsi, öz adı vardır. Tədqiqatçı

Belə bax;
Kəmər düşdü, belə bax.
Qocaldım, günüm - keşdi
Pünhan oldum belə bax.

kəsik bayatını misal göstərir və qeyd edir ki, bayatının ilk başlanğıc misrası imla, ona həmqafiyə qurulan ikinci misra inşa, mətləbi, ideyanı ifadə edən üçüncü misra – məlum, şeiri tamamlayan dördüncü misra məxrəc adlanır (102, 40–41).

Maraqlıdır ki, professor Cəfər Xəndan misralar arasında qarşılıqlı əlaqə məsələsinə tamam başqa cəhətdən yanaşmışdır. Görkəmli ədəbiyyatşünasın fikrincə, «İki əvvəlinci misrada çox zaman həyat, təbiət və yaşayış haqqında təsəvvür verilir. Son misralarda isə lirika, hiss, həyəcan, bir şəxsiyyətin daxili vəziyyəti verilir» (167, 165).

Demək olar ki, eyni fikrə professor Musa Adilovda da təsadüf edilir. Tədqiqatçının fikrincə, hər bir bitkin, kamil bayatı iki paralel hissədən ibarətdir. Birinci hissə əvvəlki iki misranı əhatə edir və burada cansız aləmdən söhbət gedir, ikinci hissə isə iki son misranı əhatə edir və burada canlı aləmdən söhbət gedir (170, 617).

Tədqiqatçı sonralar bu fikrini daha da inkişaf etdirərək yazır: «Müstəqil və bütöv bir əsər olan hər hansı bayatı iki paralel hissədən təşkil edilir. Həmin paralel tərkiblərin biri cansızlardan, ikincisi isə canlılardan bəhs edir, cansızlara aid hissə ilə sonra gələn canlılara aid hissə bayatıda ardıcıl gəlir, yanaşı yaşayır, paralel şəkildə mövcud olur. Hər hansı bir bayatıda bu ümumi cəhəti görmək mümkündür deyir və doğru olaraq: «İkinci misralar əsas fikri məna və ritmik cəhətdən qiymətləndirməyə xidmət edir» qənaətinə gəlir (2, 51, 52).

Demək lazımdır ki, həcmcə kiçik, mənaca böyük olan xalqın yaradıcı dühasından xəbər verən, əsl sənət nümunələri olan xoyrat və manilər qonşu xalqlar arasında da geniş yayılmışdır.

Maraqlıdır ki, bu baxımdan da xoyratlar və bayatılar fərqlənmirlər. Doğrudan da, «hər birində bir mənzumədəki qədər fikir və duyğu ifadə edilən» Azərbaycan bayatılarının da sehri qonşu xalqları ram etmişdir (51, 6; 49, 65–84). Bayatıları istər yaşlı, istərsə də cavanlar olsun, hamı sevir. Adamlar qəm, qüssə, kədər, hüzn, sevgi-məhəbbət, istək, dilək, arzu, həsrət, narazılıq və s. hislərini bayatılar vasitəsilə bildirirlər. Matəm mərasimində onlardan istifadə edirlər. Nə-

hayət, fikir və duyğularını bayatılarla izhar edirlər. Təsadüfi deyildir ki, Azərbaycan dili Qafqazda ümumi folklor dili olub (51, 6).

Türkman folklorunda sözün həqiqi mənasında xalq poeziyasının zirvəsi, onun şah əsəri hesab olunan xoyrat və manilər, xalqın bədii estetik tərbiyəsində müstəsna rol oynayır, mənəvi qidaya çevrilir. Təkcə onu demək lazımdır ki, əsl ilham məhsulu olan bu incilərə münasibət əsrlər öncə olduğu kimi qalır. Şeir yazmağa başlayan gəncin ilk qələm təcrübəsi xoyrat və mani olduğu kimi, yaşlı şairlər də fəlsəfi fikirlərini izhar etmək üçün bu janra müraciət edirlər.

Osman Məzlumun yazdığı 359 xoyratın ayrıca kitab şəklində buraxılması dediklərimizi təsdiq edir (110).

Bu baxımdan tədqiqatçı Əta Tərzibaşının sözləri də yerinə düşür: «Bu tərzdə şeirlər yazan əski xalq şairləri bulunduğu kimi, bu gün daha xoyrat və mani dördlükləri biçimində şeir yazan çoxdur. Hətta yeni nəsil gənc Türkman şairlərinin şeirə mani yazmaqla başladıqlarını söyləmək yerində olur» (137, 14).

Bizcə, xoyratlar və manilər gənc şairlər üçün gözəl həyat məktəbinə çevrilir. Xalq yazıçısı Mehdi Hüseynin yarım əsr əvvəl bu münasibətlə dediyi sözlər bu gün də öz aktuallığını itirməmişdir: «Yalnız məzmun dərinliyi və fikir zənginliyi cəhətdən deyil, söz sənətkarlığı, obrazlar, müqayisələr və bədii ustalığın bütün başqa ifadə vasitələri cəhətindən də bayatılarda öyrəniləcək xüsusiyyətlər az deyildir. Təqlid və təkrar üçün yox, yeni şeirin bədii qüdrətini artırmaq üçün, zəngin fikirləri belə aydın və parlaq ifadə etmək üçün» (34, 14).

Demək lazımdır ki, gənc şairi əsl və geniş poeziya aləminə aparan yeganə yol «xoyrat və mani» yoludur. Bu yoldan yan keçib poeziya aləminə gələn, demək olar ki, yoxdur. İndinin özündə belə İraq türkmanlarının həftəlik «Yurd» qəzetində hər nömrənin iki səhifəsi şairlərin xoyrat və manilərinə ayrılır. Adlı-sanlı şairlər belə fəlsəfi və siyasi məzmunlu şeirlər yazır, bununla fəxr edirlər. Maraqlıdır ki,

Gülə naz;
Bülbül eylər gülə naz.
Girdim dost bağçasına
Ağlayan çox gülən az.

bayatısını Azərbaycan şairi dahi Füzuliyə aid edirlər (137, 112).

Əta Tərzibaşı, Nəsimi, Füzuli, Xətai, Yunis İmrə, Abdul Qadir Marağayi və başqa klassik şairlərin də bayatı yazdıqlarını və onların bu baxımdan da özlərindən sonra gələn bir çox şair və el sənətkarlarına qüvvətli təsirindən söz açır (137, 78 – 81; 108, 112).

Hələ Nəsimidən də əvvəl yazıb yaratmış Cəmaləddin Ruminin:

Keçginən oğlan, hey bizə gəlgil.
Dağdan en, dağdan hey, gəzə gəlgil.
Ay bəgi sənsən, Gün bəgi sənsən
Biməzə gəlmə, bamәzə gəlgil.

şeir parçasının Kərkük dolaylarında məşhur olan:

Səhər olsun bizə gə,
Qırmızı gey, gəzə gə.
Bir əlin dolu badə
Bir əlində məzə gə.

dördlüyü ilə yaxınlığından da danışmaq olar. Kim bilir, bəlkə də, şairin yuxarıda göstərdiyimiz unudulmaz şeir parçasının yaranmasına bu gözəl bayatı təsir etmişdir. Müasir İraq–Türkman şairlərinin yaradıcılığında da xoyratların təsiri açıq-aydın görünməkdədir. Lakin yaşlı şairlər ictimai-siyasi məzmunlu xoyratlara, gənclər isə eşq-məhəbbəti tərənnüm edən xoyratlara üstünlük verirlər. Demək lazımdır ki, ictimai-siyasi məzmunlu xoyratlar poetik baxımdan ədəbi nümunələr səviy-

yəsinə yüksələ bilmiş, siyasi lirika adını qazanmışlar. Siyasi lirikanın ilk yaradıcısı Ə.Bəndəroğlu hesab olunur (76, 136; 81).

Oyanan istər;
Millət oyanan istər.
Bu çağ atom çağıdır,
Gücə dayanan istər.

Xalqa da yan,
Çıraq ol, xalqa da yan,
Xalqdan ümid kəsilməz
Erkəksən, xalqa dayan.

Kərkük dolaylarında şairlərin ellikcə xoyrat və mani yazdığını nəzərə alaraq onları müəllifi məlum və naməlum olmağı baxımından da iki yerə bölmək zərurəti ortaya çıxır. Əta Tərzibaşı onları «Anonim cinaslı xoyratlar», yəni müəllifi naməlum cinaslı xoyratlar, «Çağdaş cinaslı xoyratlar», yəni müəllifi məlum müasir cinaslı xoyratlar və eləcə də «Anonim cinassız manilər» və «Çağdaş cinassız manilər» adı altında qruplaşdırmışdır. Xoyrat və manilər arasında ən geniş yayılanları eşq-məhəbbətlə bağlı olanlardır. Divan ədəbiyyatında olduğu kimi, xoyrat və manilərdə də gözəlin boyu, gərdanı, köksü, qaşı, gözü, kirpiyi, üzü, beli, biləyi, yanağı, zülfü, dodağı və s. təşbih və bənzətmələrlə vəsf olunur. Xoyrat və manilərdə gözəl aşağıdakı sözlərlə vəsf olunur: ağa, paşa, bəy, bəylərbəyi, pəri, sənəm, ceyran, gül, açılmış nar gülü, könül quşu, qönçə gül, ay, maral, qumru, göyərçin, cəllad, dini tərsa, gözəllər xəzinədarı, gözəllər sultanı, baba dövləti, ocaqda bir dənə.

Aşiq isə özünü «miskin, məcnun, abdal, dərviş, qul, yetim, xəstə, yoxsul, düşgün, əsəs (gecə qarovulçusu), boynu buruq qaz, bağbançı, bağgir, xidmətkar, bütpərəst və s. sözlərlə təqdim edir. Gözlərini «bahar buludu»na bənzədir, könlünü «fənar», şüşə, kabab, illər xəstəsi, yetimlər əyləncəsi, miskinlər yurdu və s. sözlərlə təsvir edir.

Gözəlin əzaları xoyrat və manilərdə belə təsvir edilir: Boy: çinar, səlb ağacı (sərv), dal (budaq), əlif (qamətli), rəqqas və s.

Üz (hüsn və camal da beləcə): Ay, Gün, gül, kağız, kitab, güzgü, mərcan.

Göz: qaz, şahin, ceyran, bağban, kişmiş, cadugər, zil, kömür, xan, xunu, xumar, maxmur, qan edən, qanlı, bəla və s.

Qaş: qələm, xəncər, bıçaq, qəssab, cəllad, yay, kaman, mil və s.

Kirpik: ox, neştər, qiyamət qoparan və s.

Yanaq: alma, gül şərabı, lalə, lalə dağı, qaymaq.

Dodaq: gül, heyva, qədəh, badam, xam şəkər, pəmbə, qaytan, şirazı və s.

Buxaq (gərdan): gül şərabı, pendir.

Sinə: cənnət bağı, bostan, qar, nişan (hədəf), taxt.

Zülf: kəmənd, əqrəb, incə ilan, koramal, şahmar, üz hasarı, xan, hindi, əcəm ipəyi, sürmə, çəm aslanı, sünbül, sayad (ovçu).

Məmə: turunc, narınc, limi (şirin limon), şamama, şaftalı, cənnət narı, soyulmuş nar, gül, nərgiz və s.

Ağız: bal, gül.

Dil: xurma, nabat şəkəri, badam içi.

Diş: inci.

Gözəlin qəmzə və baxışı: maxmur, can alan, eşq qırğısı, yerişi: bəstə-asta qaz, yaltana-yaltana, yayxana-yayxana (sallana-sallana) gedən kimi sözlərlə vəsf edilir (137, 83–84).

Çəkinmədən demək olar ki, xoyrat və manilər canlı poetik salnamə olmaq baxımından Türkman folklorunu yaradıb-yaşadanların dünəni, bu günü, sabahıdır. Xalqın əbədi arzusunu ifadə edən, lirik növün bu heyrətamiz inciləri bələkdən ömrünün sonuna qədər İraq türkmanlarının həmdəmi olur. Şübhəsiz, buna görədir ki, vaxtilə Azərbaycanda olduğu kimi (149, 188), Kərkük dolaylarında da hər münasibətdə, xüsusən də əyləncələrdə, toylarda, çöllərdə, xırmanlarda, yollarda, bazarda mal satarkən, dini bayramlarda, çayxanalarda, sini-zərf oyununda, yaslarda, uşağa layla çalarkən; sənət işlərini yerinə yetirərkən, radio və televiziyada da xoyrat və mani oxunur. Burada görkəmli xoyrat ustaları yetişir. Xoy-

rat çağıranlar tez-tez xoyrat mərəkələrində qarşılaşırlar. Belə qarşılaşma «qənşərbəqənşər çağırma» və ya «qənşərin vermək» adlanır (137, 197). Bu cür məclislərə çox vaxt çalğılı və içkili xoyrat məclisləri deyirlər. Məclislər saatlarla, bəzən də axşamdan səhərə kimi davam edir. «Qənşərbəqənşər çağırma» məclislərində çox vaxt bir neçə xoyrat çağıran müğənni iştirak edir. Müğənnilərin belə məclislərdə iştirak etməsi üçün bir neçə şərt vardır. Birinci şərt odur ki, müğənni deyişmə üçün şərt olan Müxalif, Kürdü, Bəşirin, Muçala, Yetimi, Yolçu, Nobatçı, Dəllihəsəni və s. xoyrat üsullarını bilsin. İkinci şərt odur ki, külli miqdarda xoyrat bilsin ki, rəqibin çağırdığı xoyrata müqabil xoyrat oxuya bilsin ki, tez məğlub olmasın. Elə xoyratlar seçə bilsin ki, həddən artıq təhqiranə olmasın. Hətta namərd, alçaq, düşgün və s. işlənən xoyratları oxumamağa çalışmalıdır ki, rəqib ondan da təhqiramiz xoyrat seçməsin ki, dava düşməsin. Doğrudur, hərdən dava düşür təhqiredici xoyratlar çağırılır və hətta qarşısındakını tam susdurmaq üçün bədahətən xoyratlar da deyirlər. Bununla belə, məclisin başlaması, gedişi və nəhayəti, adətən, eyni olur. Məclisə toplaşanlar ondan mənəvi zövq alırlar. Məclis təqribən belə başlayır. Müğənnilərdən kimsə bu xoyratla özünə rəqib axtarır:

Kabab yandı, köz istər.
Sürmə yandı, göz istər.
Köz közə, gözüm gözə,
Usta durub söz istər.

Müğənnilərdən biri onun cavabını verir:

Kabab yandı, közün seç
Sürmə yandı, gözün seç.
Göz gözə, gözüm gözə
Ustan gəldi, özün seç.

Ara get-gedə qızışır. Xoyrat çağıranlar arasında pərtləşmə – bir-birini bərkə-boşa salma dövrü yaxınlaşır. Bu vaxt məclisdə iştirak edən başqa xoyrat çağıranlar hamısı birdən nəşəli bir bəstə – mahnı oxumağa başlayırlar. Xeyli beləcə davam edir, ayrı-ayrı müğənnilər qəlbəyatan bəstələr oxuyurlar. Sonra müğənnilərdən biri əlini qulağının dibinə qoyub uca səslə:

Ağır-ağır;
Addım at ağır-ağır.
Bəstəydən gecə bitməz.
İgid ol xoyrat çağır.

oxuyur və yenidən məclisin ahəngi dəyişir. Xoyratlaşma zamanı əməl olunması zəruri olan bir şərt də vardır. Məna bir yana, gərək cinaslar da bir-birinə uyğun gəlsin. Məsələn:

Günahımı: *Günahımnan;*
Bağışla günahımı. *Xudam, keç günahımnan.*
Deyirlər gün tutulub *Ürəkdən bir ah çəksəm*
Eşidib gün ahımı. *Tutular gün ahımnan.*

Təəssüf ki, xoyrat və manilərin xalq arasında daha geniş yayılmasına kömək edən bu adət yavaş-yavaş unudulmağa və əvəzində səhnə və ya radiodan xoyrat söyləmək adətinə keçilməkdədir.

Kəsik bayatılarla – xoyratlarla belə deyişmə məclislərinin vaxtilə Azərbaycanda da geniş yayıldığından söz açmaq olar.

«Kəm misralı (kəm hecalı – Q.P.) bayatı ənənəsi, bizcə, təkcə bayatılarla deyişmə məclislərində uzun müddət yaşamışdır ki, bunda da məqsəd öz qafiyəsini – mövzusunu rəqibinə xəbər verməkdən, deyəcəyi bağlama bayatıları hansı qafiyə, hansı cinas üzərində quracağı barədə xəbərdarlıq etməkdən ibarət olmuşdur» (139, 201).

Xalq kütləsinin bədii zövqünü oxşayan, təşbih və məcazlarla zəngin olan, nəsildən-nəslə keçən, yaşayan, onu yaradan xalqı əbədi yaşadan, xalq istedadının bu yığcam və müdrik nümunələri elə sənət abidəsi, elə təfəkkür məhsuludur ki, zaman keçdikcə dəyər – qiyməti daha da artacaq, «həssas qulaq onlarda qəlbimizə munis olan çox şey duyacaq, həssas ürək bu nadir inciləri yaradan xalqın dühasına dərin minnətdarlıq hissi ilə çırpınacaqdır» (82, 24).

Məlumdur ki, xalq poeziyasının məzmunu xalq həyatının məzmunu ilə müəyyən olunur. Harada ki, xalq poeziyasının məzmunu yoxsuldur, deməli, orada xalq həyatının özü də yoxsuldur.

Göründüyü kimi, Türkman folklorunun çələngi hesab olunan mani və xoyratlar öz zənginliyi ilə seçilir. Bu, təsadüfi deyildir. Lirik növün ən geniş yayılan bu janrı üzərində xalq yaradıcıları can qoymuş, «bu əsərlərin üzərində əsrlər boyunca müştərək olaraq bir el çalışmışdır» (100, 7).

Xoyrat və manilərin sənətkarlıq və üslub xüsusiyyətlərini – dilinin səlistliyini, dərin mənasını dərk etdikcə onların əsl ilhamın, yüksək bədii təfəkkürün məhsulu olduğunu anlayırsan; Buradakı zəriflik, incəlik onu yaradanların nə qədər incə və zərif zövqə, bəşəri hislərə, duyğulara malik olduğunu əyani şəkildə göstərir.

XALQ HAVALARI

Əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə yadigar qalan, əmanət olan, musiqi ilə xalq poeziyasının vəhdətindən yaranan, lirik növün aparıcı janrlarından olan xalq havaları Türkman folklorunda xalqın mənəvi mədəniyyəti, həyat tərzi, məişəti, keçmişi, bu günü və eləcə də xalq dilinin qorunub saxlanması, zənginləşməsi, gözəlləşməsi yolunda əvəzsiz xəzinədir.

Təəssüf ki, Kərkük xalq havaları forma, şəkil, mövzu məzmun və ideya cəhətdən, konkret xüsusiyyətləri baxımından

tədqiq olunmamış, xalq musiqi ənənələrinin rolu və mövqeyi hələ aydınlaşdırılmamışdır. Xalq musiqi folklorunun – xalq havalarının ədəbi, etnoqrafik tarixi, psixoloji təhlili, elmi analizi bir yana, toplanıb-yazılması da arzuolunan səviyyəyə çatdırılmamışdır.

Hələ XX əsrin əvvəlində Ü.Hacıbəylinin dediyi «El mahnılarımız bizim musiqi sərvətimiz və musiqi mənbəyimizdir. Fəqət biz hələ bu sərvət və mənbədən layiqincə istifadə edə bilməmişik» sözlərini (149, 201) bu gün bütövlükdə İraq–Türkman musiqi folkloruna aid etmək olar.

Doğrudur, xalqın mənəvi sərvətinin toplanması yolunda müəyyən işlər görülür. Kərküklü tədqiqatçı Əta Tərzibaşının yazdığına görə əskidən qəhvəxanalarda ağızdan dinlənilən yerli havalar yalnız son on ildə səs alma cihazları sayəsində rəğbətə keçməyə, vallara yazılmağa başlamışlar (134, 15).

Folklorşünas P.Əfəndiyev son illərə qədər xalq mahnılarının Azərbaycanda da tədqiq olunmadığını qeyd edir: «Ancaq təəssüf ki, indiyə qədər xalq mahnılarına nəinki dissertasiya, monoqrafiya, hətta sanballı bir məqalə belə həsr edilməmiş, geniş tədqiq olunmamışdır» (68, 156).

Sənətşünas B.Hüseynlinin göstərdiyi kimi, qısa bir müddətdə (1917–1929) Azərbaycanda professional musiqişünaslığın, «elmi folklorşünaslığın əsasını qoyan, onun nəzəri məsələlərini təfsir edən, inkişaf yollarını göstərən, onlarca elmi məqalə yazıb çap etdirən» Ü.Hacıbəylinin fəaliyyətini göz önünə gətirərək (150, 3) tədqiqatçı Paşa Əfəndiyevlə mübahisə etmək mümkün olsa da, onun bu qənaətə gəldiyi son onilliklərdə bu sahədə bir boşluq yarandığını inkar etmək mümkün deyildir. Lakin son beş-on ildə bu sahədə Azərbaycanda qiymətli tədqiqatlar aparıldığını da göstərmək yerində olardı (17, 76, 78).

Kərkük dolaylarında bu sahədə az-çox tədqiqat aparan Əta Tərzibaşıdır. Folklorşünas alim Kərkük xalq havalarını

toplayaraq ayrıca kitab kimi nəşr etdirmiş və kitaba yazdığı giriş məqaləsində Kərkük xalq havalarını qırıq və ya qısa havalar və uzun havalar adı altında vermişdir. Tədqiqatçı qısa havalar sırasına bəstə (xalq türküsü); tənzilə (dini türkü və şərqi); şərqi (marş və bənzəri); halay və oyun havalarını daxil etmişdir. Uzun havalar sırasına isə muğamlar; xoyrat havaları; divan-urfa; qəzəl; aşıq havaları; Kərəm havası; sazlamaq; laylalar daxil edilmişdir (134).

Göründüyü kimi, yuxarıda göstərilənlərin hamısını xalq havası kimi qəbul etmək doğru olmazdı. Bundan əlavə, Əta Tərzibaşının toxunmadığı, ümumiyyətlə, Kərkük folklorunda tədqiq olunmamış əmək və mərasim nəğmələri də Kərkük dolaylarında çoxdur. Lakin bunları biz adət-ənənə və mərasimlərlə bağlı bölmədə tədqiq etdiyimizdən «Xalq havaları» bölməsində yalnız xoyrat havaları, xalq mahnıları və aşıq havalarını nəzərdən keçirəcəyik.

XOYRAT HAVALARI

Xoyratlarla – kəsik bayatılarla oxunduğuna görə xoyrat havaları və ya xoyrat üsulu adı ilə tanınan, yüngül, sadə və yığcam olan, musiqi ahənginə uyğun gələn, hamı tərəfindən sevilən xoyrat havaları xalq arasında geniş yayılan lirik janrdır. Son illərə qədər ən görkəmli müğənnilər xoyrat havalarını dəyərinə, sanbalına görə yalnız muğamlarla müqayisə edir, onları yüksək qiymətləndirirdilər. Təsadüfi deyildir ki, muğamları və xoyrat havalarını yeməklərin şahı – plov adlandıran, yerdə qalan havaları isə duru yeməklərə bənzədərək, onları sıyrıntı adlandıran və xalq mahnılarını oxumaqdan imtina edən sənətkarlar da olmuşdur (134, 14).

Maraqlıdır ki, ömrünü Kərkük folklorunun, xüsusən də xoyrat və mahnıların tədqiqinə həsr edən Əta Tərzibaşı da xoyrat havalarına üstünlük vermişdir: «Gerçəkdən bəstə (xalq

türküsü) bir qaç dəfə dinlənilincə insan ondan bezar olur. Halbuki xoyrat bir çox dəfə dinlənildikdən sonra əsl zövqünə dalınır» (134, 14).

Demək lazımdır ki, «Kətan köynək dizdən yar» və s. mahnılar, qadınlara məxsus, qadın malı hesab edilərək kişi müğənnilər tərəfindən, ümumiyyətlə, oxunmazdı.

Lakin son vaxtlar vəziyyət dəyişib. İndi xoyrat üsulunu nəğmə və bəstələrlə də oxuyurlar.

Kərkük dolaylarında iyirmidən artıq xoyrat havası vardır: Bəşiri, Nobatçı, Müxalif, Muçala, Yetimi, Ömərqələ, Malalla, Şərifə, Yolçu, Əhməd dayı, Kəsük, Ağam-ağam, Qarabağı və ya Qarabağlı, Əydənə, İskəndəri, Bayat, Kürdü, Qızıl, Miskini, Dəllihəsəni, Mazan, Matar, Kəsük Matar, Atıcı və s.

Azərbaycanda bir çox aşıq havalarının ayrı-ayrı aşıqların adı (məs.: Dilqəmi, Qaraçı, Urfanı və s.) və eləcə də yer adları (məs.: Cəlili, Naxçıvanı və s.) ilə bağlı olduğu kimi, xoyrat havaları da ayrı-ayrı xoyrat çağıranların (məs.: İskəndəri, Şərifə, Malalla, Muçala və s.) və yer adları (məs.: Bəşiri, Qarabağı və s.) ilə bağlı yaranmışdır.

Muğamların inkişafında müstəsna rol oynayan bu havaların mətnini xoyratlar – kəsik bayatılar təşkil etdiyinə görə onlara xoyrat havaları deyirlər.

Xalqın musiqi mədəniyyəti ilə sıx bağlı olan xoyrat havalarında bir və ya bir neçə xoyratdan və miyan adlanan əlavə söz, ifadə və misralardan istifadə edilir. Miyanlar xoyratın əvvəlində, ortasında və eləcə də axırında gələ bilər. Miyanlar xoyrat havasının nəğməsinə uyğun olaraq müəyyən tərzdə oxunurlar. Bundan əlavə, hər xoyrat üsulunun özünəməxsus başda, ortada və axırda gələn üç çeşid miyanı vardır. Çox zaman onlar vəznli olurlar.

Xoyrat havalarının ən mahir ustalarından biri Əbdül Vahid Kuzəçi oğlunun vala yazdırdığı, xoyrat havaları arasın-

da xüsusilə seçilən üsullardan verdiyimiz nümunələr yuxarıda deyilənləri daha da aydınlaşdırır. Dırnağa düşməyən misralar xoyrat havasının mətni, dırnaqda verilən söz, ifadə və misralar isə miyandır.

«Bəşiri» xoyrat üsulu:
«Baba, bu gün»
O yan yeri;
Səhərdən oyan yeri.
«Dönüm dilinə dönüm»
«hə bəs mən özüm»
«Ey, ey, ey, öz anam oğlu»
Yüz il sel gəlsə oymaz
«Vallah»
Bir gün qəm oyan yeri.
«Ey yar... ey yar əlindən»
«Aman, aman, aman, yar əlindən»
«hec bilməm hara gedim».

«Ağam, ağam» xoyrat üsulu:
«Ağam, ağam, ağam, ağam»
Oyağam;
Yatmamışam oyağam.
Aləm şirin yuxuda
Mən eşqindən sayığam
«Di gəl, ağam, di gəl paşam, di gəl».
«Mən özüm ziyləmirəm.
Dərd dərdə dəyər ziylər»
«Ağam ziylər, paşam ziylər,
Di gəl gözəlim».
- Çağırdım çağlar oldu,-
Didəm qan ağlar oldu.
Hamsı yarın eşqinnən

Məskənim dağlar oldu,
«Di gəl ağam, gəl,
Mən qəribəm, yol tanımam».
«Özün bəzən, özün düzən, özün gəl»
«Mənə zülm edən öz ağam oğlu»
Öz ağam;
Qəlbin saf et, gəz, ağam,
Məhəbbət ölüncədi
Demə gözdən uzağam.

Maraqlıdır ki, miyanlar bəzən hər misranın əvvəlində, bəzən isə eyni bayatıda, gah misranın ortasında və ya axırında gələ bilər. Aşağıdakı parçalar dediyimizə parlaq misaldır. «Əydənə» üsulu:

«Gözüm»
«Gənə» bağçayam, baram sənə,
«Mina boylum», heyvayam, naram sənə.
«Evi yanmış» könlün fikir etməsin
«Öz ağam oğlu», ölüncə yaram sənə.
«Hə neynim, gənə evi xarab» və s.

Göründüyü kimi, miyanlar xoyratın hər bir misrasından əvvəl işlənmişdir.

«Matar» üsulu:
Bağlamadı, «bağlamadı, qurban»,
Yaramı bağlamadı.
«Dədə kənə», yar məni yaraladı,
«Hey havar»», Bir dönüb bağlamadı.
«Oy... oy... oy... oy neynim».
«Billah gənə» hər kəsçin yaş tökən yar
Mənimçin ağlamadı.
«Yara yar», «ay yar», «ay, yar, ay»
«Yar əlindən hara gedim».

Bu parçada isə miyan misranın həm əvvəlində, həm ortasında, həm də axırında özünü göstərir.

Başda keçən miyanlar, ən çox «Kürdü», «Dəllihəsən» və «Malalla» üsullarında «A...x», «Kəsük» üsulunda «Da...d», «Müxalif» «Yetimi», «Bəşiri» və «Matarı» üsullarında «Baba bu gün», «Dədə», bu gün», «Şərifə» üsulunda «Dədəm, dədəm, dədəm», «Yolçu» üsulunda «Ağam, ağam, ağam», «Muçala»da «Zalım, Zalım», «Nobatçı»-da «Ulan, ulan, ulan», «Ömərqələ»də «A belə gənə» və «La billa neynim» işlənir.

Bəzi üsullarda isə xoyrat miyansız, yəni elə belə xoyratın sözləri ilə başlayır.

Ortada isə «Kürdü» üsulunda «Qadan mən alım», «Fədan mən olum»; «İskəndəri» üsulunda «Ay, ay dədəm oğlu», «Mina boylum», «Evi yanmış»; «Bəşiri»də «Musulmanlar», «Gözlərim», «Mənim ağam», «Özünnən bixəbər», «Yeri, dininə dönüm», «Dönüm, dininə dönüm», «Bəs mən özüm»; «Muçala»da «Mina boylum, sənəm gözlüm»; «Müxalif»də «Gözlərim ağam, gözlərim paşam», «Mina boylum»; «Dəllihəsəni»də «Da...d, ey, da...d, ey, kafir ey», «Yeri dədə, yeri, yıxılsın öz baban evi»; «Kəsik»də «Yuvan dağılsın» kimi söz, ifadə və cümlələr işlənir.

Bəzi görkəmli xoyrat çağıranlar yuxarıda göstərilən sözləri miyan saymamışlar. Onlara görə əsl miyan xoyratın sonunda gələn nəğməli sözlərdir ki, xoyrat üsulu onunla bitir (137, 162).

Onu da demək lazımdır ki, bəzi xoyrat üsulları elə xoyratın özü ilə bitir.

Bu baxımdan musiqişünas alim Ə.İsazadənin fikri maraq doğurur: «Xanəndələr mahnıların bir qismində bayatılardan olduğu kimi, digər qismində isə onların mətninə kiçik bir əlavə ilə istifadə etmişlər. Mətni bayatı olan xalq mahnılarının əvvəlinə və ya sonuna artırılan «bala neynim», «ay aman», «gülüm ey», «ay balam», «ay gözəl» və s. sözlər, nə-

qarətlər, şübhəsiz ki, mətnə ifaçıların motivə uyğun etdikləri əlavələrdir» (77, 6).

Burada maraqlı bir məsələ də üzə çıxır. Məlumdur ki, xoyratların birinci misrası üç-beş hecadan ibarət olur. Əta Tərzibaşı buna öz münasibətini belə bildirmişdir:

«...Boşluqlar isə xoyratın nəğməylə söylənmiş əsnasında «ba-ba, bu gün», «ağam-ağam», «dədəm-dədəm», «gözüm» və başqa bir taqım basma-qəlib sözlərlə doldurulmaqdadır» (137, 115).

Göründüyü kimi, bu məsələdə Əta Tərzibaşı ilə mübahisə etmək olar. Əvvəla, əgər müəyyən sözlər xoyratlarda yalnız boşluğun doldurulması xatirinə işlədilirsə, bəs kəm misrası olmayan bayatı və manilərdə bu sözlər niyə işlənir?

Digər bir tərəfdən də aşıq sənətindən az-çox məlumatı olanlar yaxşı bilirlər ki, aşıqlar qoşma, təcnis və s. havalar oxuyarkən ortada mütləq kəsik bayatılar– xoyratlar da oxuyurlar. Burada birinci misra kəm hecalı olduğu halda, boşluğu doldurmaq üçün heç bir əlavə sözdən istifadə edilmir. Deməli, bu məsələdə Azərbaycan alimlərinin fikri ilə razılaşmaq olar.

Musiqişünas alim professor M.İsmayılovun fikrincə, bu sözlərin mahnıların daxili inkişafında böyük əhəmiyyəti olmaqla yanaşı, onların mahnının orta hissəsində və yaxud sonunda tamamlayıcı xarakter daşıyan melodik ifadələr– kadanslar da həmin sözlər vasitəsilə əmələ gəlir (79, 31).

Demək lazımdır ki, Türkman folklor musiqisində miyan adlanan belə sözlərə Azərbaycanda lirik xalq mahnılarında təsadüf edildiyi halda, Kərkük dolaylarında xoyrat havalarında işlənir, lirik xalq havalarında isə əsasən, bütöv misralar təşkil edən döndərmələr (nəqarətlər) yer alır (86, 251–296).

Xoyrat havalarının sonunda gələn miyanlar lap çoxdur. Onlardan aşağıdakıları göstərmək olar:

Bəşiri:

Ey yar, ey yar, ey yar, ey yar,
Gözün şirindi neynim.

Muçala və Yetimi:

Ax mən, yox sən,
Ölürəm bu gündə mən.

Yetimi:

Yengi canbaz olubsan,
Dədənin evi xarab.
Yıxma dədəm evini,
Dədənin evi xarab.
Dədəm nedim, ömrüm nedim
Uçubdu könlüm quşu.
Nəynən könlüm şad edim
Cümlə canım xarabdı
Dərmana kimə gedim.

Mataru:

Gəhdə bir, həftədə bir
Gözündən öpsəm nə var.
İldə qurban bir olar
Hər gün qurbanın olsam nə var.

Atıcı:

Küvənmə bu dağa bülbül
Yel gələr yuvan yıxar.
Görərsən nə bərbad eylər
Eylər gözüm, eylər.

Nobatçı:

Hə dedin bağımnan gül dərmək olmaz,
Çamur başına bülbül
Mən bağından gül dərdim.

Malalla və Yolçu:

Di gəl, ağam, di gəl, paşam
Di gəl, öz bəyim, ağam oğlu.

Qızılı:

Mən özüm, özüm, özüm
Dağı əridər sözüm.
Od sənnən, odun mənnən
Yandırım özüm özüm.

Dəllihəsən:

Bağbanım olsun bülbül

Malalla:

Gəl getmə yad bağına

Müxalif:

Hə dolan, bizim bağa gəl.

Şərifə:

Aman əlindən, cavan əlindən

Müxalif:

Aman... aman... aman.

Ağam, Ağam:

Aman, aman əlindən
Heç bilməm hara gedim

Müxalif və başqaları:

Mən özüm ziyləmirəm
Dərd dərdə dəyər ziylər.
Qoy olsun əcələ borclu canım
Qurtulsun vah demədən.
Di gəl o bəlalı başına dönüm

Di gəl ağam ey yar, yar, yar...
Di gəl heyran olum,
O boya dönüm.
Hə dedin səninəm, sənin
Qoynunda bu yad nədi?

Hə dedin bəy mənəm, adil mənəm
Köyündə bu dad nədi?
Hə dedin «malım, mülküm, əmlakım»
Heç demədin ölüm var
Mən sənə-bəyim deyərəm
Bəyim daim bəy olar.
Aman, aman, aman, aman
Qoy dolaşım bir zaman.
Ağa neynim, paşa neynim
A belə neynim.

Kürdü:

Bax bu mürvətsiz yara,
Al geyib nə sallanır.
Nə bəzənir, nə düzənir.
Mənə deyir, gəl getmə.
Bu gündə qal
Bu dəmdə qal.
Di gəl ağam, di gəl paşam,
Mən qəribəm yol tanımam.
Özün bəzən, özün düzən, özün gəl,
Mənə zülm edən öz ağam oğlu.

Göründüyü kimi, hər hansı bir miyanın istənilən üsulda oxunması çox vaxt xoyrat çağıranın arzusundan asılı isə, bəzi miyanlar müəyyən xoyrat üsullarına mənsub olub, yalnız o üsulla oxunur.

Demək lazımdır ki, əski xoyrat çağıranlar Kürdü xoyrat üsulunu xoyrat havası deyil, təcnis sayırlar (134, 34).

Xoyrat havaları arasında «Müxalif», «Bəşiri», «Ağam, ağam», «Qarabağı» üsullarına xüsusi qiymət verirlər.

Müxalif ən məşhur havalardandır. Xoyrat çağırmağa başlayan gənclər ilk növbədə bu xoyrat havasını öyrənirlər. Nəğməsi həzin, bəzi xoyratların əksinə olaraq alçaq pərdədə də oxunur. Hardasa qəmginlik ağılarını andırır. Qarşılaşma – yarış məclislərində bu üsuldan geniş istifadə edilir.

Bəşiri Xoyrat üsulu xalq havaları, yəni bəstələrlə çox oxunur. «Oyan şirin yarım, oyan», «Qalx gedək çayxanaya» və s. havalar bu üsulla çox gözəl təsir bağışlayır.

«Qarabağı» və ya «Qarabağlı» xoyrat havasını bütün məşhur xoyrat çağıranlar – müğənnilər oxumuşlar. Bununla belə bu havanın ən gözəl oxuyanları Ömər Tufan, Atıcı, Salman Muxtar, Topal-Roza, Molla Qəni Dabbaq, Bazvan və Mövlud Tütünçü hesab olunurlar.

Yeri gəlmişkən, qeyd edək ki, Əta Tərzibaşı bu havanın həm Azərbaycanın, həm də İraq türkmanlarının malı olduğunu göstərir (134, 36; 137, 135).

Adnan Asəfoğlu isə Qarabağı muğamından danışarkən yazır: «İstər Çahargah, istərsə də Segah muğamlarından alınmış olsun, Qarabağı və Mataru üsulları Azərbaycan folkloruna aiddir» (3, 4).

Xoyrat üsullarından bəhs edən Əta Tərzibaşı haqlı olaraq qeyd edir ki, xoyrat havaları geniş ölçüdə xalq kütlələrinə nüfuz etmiş, yüz illərdən bəri xoyratların şəkli üzərində duran yerli sənətkarlar onları ölməz şah əsəri halına gətirmişlər (137, 42).

Kərkük dolaylarında məşhur xoyrat çağıranlar olmuş və bu gün də onların sənətini layiqincə davam etdirən onlarca gözəl müğənnilər vardır. Dövr baxımından xoyrat çağıran sənətkarları iki qrupa bölmək olar:

1. XX əsrin ortalarınadək xoyrat çağıranlar.
2. XX əsrin ikinci yarısından bu günədək xoyrat çağıran müğənnilər.

Birinci qrupa daxil olan keçmiş xoyrat çağıranlardan aşağıdakıları göstərmək olar: Muçala, Malalla, Şərifə, Yetim Məhəmməd, Məmmədəli Ömər, Ömərqələ, Ömər Tufan, Atıcı, Əhməd dayı, Məhəmməd-İsgəndər, Hacı Əhməd Qəssab, Molla Abdulla, Hüseyn Cəlləv, Rəşid Qalayi, Gözəloğlu, Saleh Havala, Yasin Bağban, Məhəmməd Çulboyun, Mahmud Dəyirmançı və başqaları.

XX əsrin 2-ci yarısından bu günə qədər bu sənəti yaşadanlar: Bazvan; Usman Təpləbaş, Mövlud Tütünçü, Molla Taha, Mustafa Qalayi, Rəşid Kölə Raza, Məhəmməd Gülboy, Əli Mərdan, İzzəddin Nemət, Siddiq Bəndə Qafur, Səmə Bərbər, Şükür Həyura, Faiq Nəccar, Fazil Qayaçı, Ənvər Cuma Tərzi, Ərbilli Heydər, Ərbilli Hacı Cəmil və s. sənətkarlar daha çox əski üsulla oxuyurlar. Əbdül Vahid Guzəçi oğlu, Kərkük qızı, Əbdül Rəhman Qızıl Ay, Əbdül Kərim, Əkrəm Tuzlu, Fəxrəddin Erköc, Kərim Usman Bəzirgan, Məhəmməd Əhməd Ərbilli, Məhəmməd Qalayı və başqa səs sənətkarları isə yeni, müasir tərzdə oxumağa daha çox üstünlük verirlər.

Kərkük dolaylarında xoyrat üsullarının hər birinin müəyyən bəstələri vardır ki, üsulun sonunda oxunur. Hər maninin kəsb etdiyi mənasına uyğun nəqarəti – döndərməsi olur. Bəstələrdə döndərmə (nəqarət) xoyrat tərzinin əksinə olaraq xor tərəfindən yerinə yetirilir. Mani – dördlük isə sola halında tək bir şəxs tərəfindən – bəstə deyən oxucu tərəfindən söylənir. Döndərmə yuxarıda göstərdiyimiz kimi bir qrup tərəfindən təkrarlanır:

«Bu xal nə xaldı» bəstəsində olduğu kimi, «Bu xal nə xaldı, gözəl, nə xaldı, yanaqda dögdürübsən, canım nə xaldı, gözüm nə xaldı, aləmi yandırıbsan».

Bu döndərmə hər dördlükdən sonra təkrarlanır:

Evlərində xalı var,
Dodağında balı var.

Mən öz yarım tanıram
Yanağında xalı var.

Sonra isə xorla yenidən döndərmə oxunur. Azərbaycanda da bir çox xalq mahnılarında bayatı mahnının əsasını təşkil edir. Hər bayatıdan sonra döndərmə təkrar olunur. Məs.:

Bu dağda maral gəzər,
Telini darar gəzər.

və s. oxunur və bayatı bitən kimi döndərməyə keçilir:

Dağlarda çiçək, ay Güləbatın,
Hamıdan göyçək, ay Güləbatın.
Doldur ver içək, ay Güləbatın.

gəlir və mahnının ritmi dəyişir. Rəngarənglik yaranır, dinləyicinin qəlbini oxşayır.

Xalq havaları və onların döndərmələrinin hansı məqamda, necə işləməsi və s. barədə «Xalq mahnıları» bölməsində ətraflı danışılır. Burada isə onu demək yerində olardı ki, xoyrat üsullarını və eləcə də xalq havalarını oxuyarkən müğənniləri: zurna, zurnaba, meytər (davul), dümbələk, qaşuq, çarpara, dəf, zilli dəf, zil, dumbulbas, ney, bəlul, saz, santur, ud, kaman və s. kimi xalq musiqi alətləri ilə müşayiət edirlər.

XALQ MAHNILARI

Kərkük xalq mahnıları da xoyrat havaları kimi şifahi xalq ədəbiyyatının həm musiqi, həm də ədəbi janr olmaq baxımından, bədii estetik gücünə və tez qavranılmasına görə çox geniş yayılmış lirik növüdür. Burada xalqın gündəlik həyatını əks etdirən, onun arzu-dilək, ümid, sevgi-məhəbbət, ayrılıq, şikayət, vüsal, intizar, qüssə-kədər, sevinc, şadlıq, pərişanlıq, gözəllik, saf duyğu, vətən həsrəti və s. kimi nəcib insani his-

ləri izhar etmək üçün böyük imkan, «dilsiz duyğuları» bəyan etmək üçün meydan vardır. Xalq mahnıları son dərəcə rəngarəng və ürək oxşayandır. Bəziləri oynaq, şux, digərləri melodik və axıcıdırlar.

Təsadüfi deyildir ki, görkəmli Azərbaycan bəstəkarı Qara Qarayev xalq mahnılarından söz salaraq yazırdı: «Sadə lirik mahnıların məlahəti, muğam strukturunun qəşəngliyi arxasında yalnız estetik yox, həm də məntiqi mahiyyətli həssas bir sistem və gözəllik vardır» (190, 11).

Xalqın ümid və arzularını, keçmişini, bu gününü, gözəlliyə məhəbbətini, yaşamaq eşqi və adət-ənənələrini orijinal surətdə əks etdirən, kütlələrin ideya-estetik tərbiyəsində əvəzsiz rol oynayan (17, 3) xalq mahnıları şəriət tərəfindən vaxtilə günah hesab edilsə də, xalq tərəfindən həmişə sevilmiş, Kərkük dolaylarında geniş yayılmışdır. Xalq arasında «bəstə», «mahnı», «xalq türküsü» kimi tanınan havaların həm sözü, həm də havası xalqa mənsubdur. Odur ki, xalq mahnılarının və bəstələrin əksəriyyətinin mətninin bayatılardan ibarət olması təəccüb doğurmur.

Demək olar ki, bayatıların mayası musiqidən yoğrulmuşdur. Xalq mahnıları ilə məşğul olan musiqişünaslar bunun Azərbaycanda da belə olduğunu qeyd edirlər: «Xalq mahnı mətnlərinin əksəriyyəti bayatılardan ibarətdir. Bu da təbiidir. Musiqi ahənginə uyğun gəldiyindən və onun yığcamlığı musiqiyə daha münasib olduğundan xalq öz mahnılarındakı mətnin, demək olar ki, əksəriyyətini bayatılardan almış və ya yaratdığı hər bir yeni mətndə bayatı formasına əsaslanmışdır (77, 6).

Bizcə, «mani» dedikdə göz önünə həm bayatı, həm də mahnının gəlməsi də bununla əlaqədardır. XVIII əsrin ortalarında yaşayan, Kərkük dolaylarında böyük Füzulinin davamçılarından olan Şeyx oğlunun:

«Lam» ləbində limim var,
Sən yox de, mən deyim var.
Mütrib qanun üzrə gəl
Həm mani, həm neyim var.

dördlüyündə də, Kərkük dolaylarında indinin özündə də ağızlarda gəzən:

Mahnı mahnını açar, *Mani maniyə tuşdu,*
Mahnı bilməyən qaçar. *Mani bilmiyən heşdi.*
Mahnı bir belə şeydi *Mani bir belə şeydi*
Qərib yerdə dərd açar. *Qəriblikdə yoldaşdı.*

manilərində (137, 57, 546) də, hər şeydən əvvəl, diqqəti cəlb edən bu cəhətdir.

Maraqlıdır ki, eyni motivə Azərbaycan bayatılarında da rast gəlirik:

Mahnı mahnının başı,
Mahnı bilməyən naşı.
Mahnı bilmək yaxşıdı
(Və ya: Gəl bura mahnı deyək)
Qərib yerin yoldaşı (66, 12; 36, 166).

Maraqlıdır ki, M.Qorkinin xalq mahnıları haqqında dediyi: «Nəğmə yaradıcılığı xalqa çox qədimlərdən bəri dayanmadan və özünəməxsus yoldaşlıq edir» (54, 703) kəlamı eynilə yuxarıdakı parçalarla səsləşir.

Çəkinmədən demək olar ki, həm Azərbaycanda, həm də Türkman folklorunda şifahi poeziya janrının bayatı forması xalq mahnı yaradıcılığında müstəsna rol oynamış və bu funksiyanı indi də yerinə yetirməkdədir.

Xalq mahnı mətnlərini musiqidən ayırmaq asan deyil. Elə bil onlar musiqi ilə əkiz yaranmışlar. «Kim bilir, bəlkə, mahnı mətnini yaradan qüdrətli bir bəstəkar, yaxud musiqi bəstələyən, eyni zamanda istedadlı bir şair imiş» (165, 196).

Xalqın milli xarakterini, sevinc və kədərini, ən gizli hislərini özündə əks etdirən Kərkük xalq mahnıları elə bir aləmdir ki, onun sonsuz rəngləri, çalarları vardır.

Bununla belə demək lazımdır ki, Kərkük xalq mahnısına yaxşı bələd olmayanlara ilk baxışda elə gələ bilər ki, bu havalarda nəsə bir yeknəsəqlik və monotonluq vardır. Lakin mətni bayatı olan mahnılardan başqa, 8, 11, 13, 14 və s. hecalı, poetik fikir, intonasiya və bölgü baxımından müəyyən simmetriya daxilində olan, bir-birindən fərqlənən, bir çox şeir şəkillərinə də təsadüf edilir ki, mahnılarda ürək oxşayan, məftunedici bir rəngarənglik yaradır. Bundan əlavə, musiqişünas M.İsmayılovun göstərdiyi kimi, xalq musiqisi əsas etibarilə birsəsli olduğuna, yəni bir nəfər tərəfindən ifa edildiyinə görə melodiyası çox ifadəli və təsirlidir (79, 26).

Lirik mahnıların ən çox özünü göstərəni məhəbbət mahnılarıdır. Onlar məzmunca yumorlu, şən və qəmli olurlar. Yumorlu mahnılar Azərbaycan xalq mahnılarında olduğu kimi gənc oğlan və qızın deyişməsindən ibarət olur. «Hacı Fərəcin qızı, boyun görməli», «Oğlan, yaylığın hanı», «Ay havar dəgirmançı» və s. belə mahnılardandır.

Şən əhvali-ruhiyyəli və ehtiraslı melodiyası olan mahnılarda oğlanla qızın zərif sevgi hislərinin həyata keçməsi, vüsala çatmaq üzrə olması göstərilir, bir-birinə olan saf duyğuları tərənnüm edilir. Bəzi sevgi lövhələri təbiət mənzərələri fonunda verilir. Belə hallarda sevgi təbiət surətləri vasitəsilə tərənnüm edilir. Sevgililər bir-birini ceyrana, gülə, bülbülə, ahuya və s. bənzədirlər, sevgili qızın zahiri gözəlliyi – qaşı, gözü, dişləri, dodaqları, yanaqları, qədd-qaməti, baxışı, saçları, yerişi, danışığı və s. tərif və tərənnüm edilir. Və əksinə, məhəbbəti daşa dəyən, ümidləri puça çıxan gəncin qəm, qüssə, kədərini göstərən mahnılar «ah», «vay» və s. nidalarla səciyyələnir (86, 251–294).

Onu da demək lazımdır ki, mahnı mətnlərində rast gəlinən «ah», «vay», «ay baba», «aman», «ölləm, ölləm», «öz

ağam», «ay nənəm», «mina boylum, evi yanmış» və s. kimi əlavə sözlərin işlədilməsi mahnıların daxili inkişafında böyük əhəmiyyəti olmaqla bərabər, musiqişünas M.İsmayılovun göstərdiyi kimi, mahnının ortasında və yaxud sonunda tamamlayıcı səciyyə daşıyır, melodik ifadələr onlarda improvizasiya yaradır, digər tərəfdən də kadanslar həmin sözlər vasitəsilə əmələ gəlir (79, 31).

Mahnıdan asılı olaraq misralardakı sözlərdən biri təkrar oluna bilər. Bu zaman həmin sözlərin əvvəlinə «ah yaman», «vah şirin», «vah gözəl» və s. sözlər artırmaqla yeni misra meydana çıxır. Bəzən yaranan misra ortada olur. Məsələn:

Evlərində şəkərdən bir xalı var,
Şəkərlənmiş dodağında balı var.
Ay yaman balı var, vah şirin balı var.
*Hər kəsin də münasib bir yarı var.**

Bəzən təkrar vasitəsilə yaranan misra axırda olur. Məsələn:

Evlərinin önü arpa,
Arpa biçir qırpa-qırpa
İki bacı, biri körpə
Nə şirin köyün gözəli
Ah nə yaman köyün gözəli.

Bəzi mətni bayatı olan mahnılarda hər misranın birinci sözü təkrar olunmaqla qoşma formasında mahnı yaranır. Məsələn:

* Burada və bundan sonra xalq mahnıları ilə bağlı verəcəyimiz misallara aşağıdakı kitablarda rast gəlinir. Əta Tərzibaşı, Kərkük havaları, Bağdad, 1961; Kərkük mahnıları (tərtib edən - Q.P.), Bakı, «Gənclik», 1973; Kərkük folkloru antologiyası (tərtibçi - Q.P.), Bakı, «Azərnəşr», 1987, 1990.

Gecələr... gecələr zar ağlaram mən.
Heç bilməz... heç bilməz yar, ağlaram mən.
Şahsənəm, Şahsənəm bağ-bağçasında
Çaldı bir, çaldı bir mar, ağlaram mən.

Elə mahnılar da vardır ki, döndərmələrində bir neçə söz işlədilir. Bu halda həmin sözlər müstəqil nəqarətə çevrilirlər. Məsələn:

Boyun boylardan kölə, ağam Süleyman
Bənizisən qönçə gülə, mən sənə qurban.
Yıxıbsan babam evin, ağam Süleyman
Üzümə gülə-gülə, doldur ver fincan.

Döndərmə:

Ağam Süleyman, Paşam Süleyman,
Evləri köprü başında, boyuva qurban.

Təsadüfi deyildir ki, R.İ.Qruber döndərmələrin – çoxdəfəli təkrarların şən mahnılarda şənliyin, xoş əhvali-ruhiyyənin, oynaqlığın daha da artmasına kömək etdiyini qeyd edir (184, 12–13).

Göründüyü kimi, Kərkük dolaylarında mahnılar döndərmə, yəni nəqarətlə oxunurlar. Bu mahnını daha da oynaq edir. O da maraqlıdır ki, mahnını tək bir şəxs oxuduğu halda döndərməni xorla oxuyurlar. Adətən, hər beytdən sonra oxunan döndərmə başqa məqamlarda da özünü göstərə bilər.

Mətni bayatı olan bəzi mahnıların hər misrasından sonra dörd misralıq döndərmənin bir misrası oxunur. Məsələn:

Səhərdən oyat məni – Sən söylə bağa gəlirəm.
Sinəvə dayat məni – Boyun görməğə gəlirəm.
Səhər yuxusu şirindi – Sən söylə bağa gəlirəm
Öpüşdən oyat məni – Səhər yatağa gəlirəm.

Bəzən də mahnı mətninin hər misrasından sonra döndərmənin 1-ci misrasının yarısı gəlir, beyt bitəndən sonra bütöv oxunur:

Ay çıxdı, batar indi – Ay dolanaydı,
Yar oxun atar indi – Gün dolanaydı.
Leyli xəstə düşübdü – Ay dolanaydı.
Məcnun can satar indi – Gün dolanaydı.
Ay dolanaydı, Gün dolanaydı,
Yarın tək-tək yerişi məndə olaydı.

Mətni bayatı olan mahnıların bəzisində hər misradan sonra iki misralıq döndərmənin bir misrası təkrar olunur, bayatı bitdikdən sonra döndərmənin yalnız ikinci misrası təkrar olunur. Məsələn:

Qara çadır xaraldan – Ölləm, ölləm, mən ölləm necə,
Boyun seçdi maraldan – Başuva dolannam mən bu gecə.
Nə dərdim var, nə bəlam – Ölləm, ölləm, mən ölləm necə.
Sənsən məni saraldan. Başuva dolannam mən bu gecə.
Başuva dolannam bu gecə, yar, bu gecə.

Mətni bayatı olan mahnılardan başqa, yerdə qalan mahnıların hər bəndi, əsasən, üç misradan ibarət olur. Döndərmə isə mütləq iki və ya dörd misralı olur. Belə mahnıların hər misrasında hecaların sayı, adətən, 8, 11, 13 və ya 14 olur. İki misralı döndərməsi olan mahnılara daha çox rast gəlinir.

Hər misrası səkkiz hecadan ibarət olan mahnıya nümunə:

Evlərinin önü yonca
Yonca qalxıb dam boyunca.
Boyu uzun, beli incə
Ninnə yavrum, ninnə
Əsmər yavrum, ninnə.

Hər misrası on bir hecalı olan mahnıya nümunə:

Qalanın dibində uç ağac incir
Əlimdə biləkcə, qolumda zincir.
Zinciri boş bağla hər yanım incir
Atma bu daşları mən yaralıyam
El-aləm al geyib mən qaralıyam.

Az da olsa hər misrası on üç hecadan ibarət mahnılara da təsadüf edilir. Belə mahnılarda döndərmə olmur. Məsələn:

Mənim əlvan güllərim var, görməğə gəlin,
Gözəllərə mən sataram, almağa gəlin və s.

Bəzi mahnılarda isə mahnının mətni bir şəkildə, döndərmə isə başqa şəkildə olur. Məsələn:

Rəhm eylə mənə, yarı əlimdən əcəl aldı,
Cananım ilə vəslətimiz məhşərə qaldı,
Yarın firqəti yaxdı məni dərdlərə saldı.

Döndərmə:

Yazıq-yazıq kölgədən düşdüm günə
Yazıq-yazıq qocaldım gündən-günə.

Göründüyü kimi, mətnin hər misrası 14 hecalı, döndərmə isə 11 hecalıdır.

Elə mahnılar da var ki, döndərmə hər beytin 2-ci və 4-cü misrasının təkrarı ilə yaranır:

Əndim yarın bağçasına, güldən keçilməz,
Suları savuqdı, baba, bir diş içilməz.
Sudan keçdim gəldim, baba, yardan keçilməz.
Acıdı eşqin şərabı, susuz içilməz
Suları savuqdı, baba, bir diş içilməz..

Onu da demək lazımdır ki, mahnılarla döndərmələr həm məzmunca bir-birini tamamlayır, həm də şəkilcə fərqlənmirlər. Bu ən çox da hər misrası 8 hecadan ibarət olan mahnı və döndərmələrə aiddir:

Fələk açdı dalda yara,
Kimsəm yoxdu yaram sara.
Xəbər verin nazlı yara
Dərdim çoxdu, dərmanım yox.

Döndərmə:

Mən ölürsəm qürbət eldə,
Ağlayacaq bir kimsəm yox.
Aman-aman, halım yaman
Heç gülərmi dərdli olan?

Kərkük dolaylarında xalq mahnıları ilə bağlı maraqlı bir cəhət də özünü göstərir. Bayatıya heç vaxt başqa şeir formasının döndərməsi kimi təsadüf edilmir. Ancaq bütün başqa şeir formaları bayatının döndərməsi kimi çıxış edə bilir. Bayatı isə yalnız mətni bayatı olan mahnının döndərməsi kimi özünü göstərir. Məsələn:

Evlərində süsəni;
Barışdırın küsəni,
Göz açdım səni gördüm
Mən istəməm kimsəni.

Döndərmə:

Pəncərədən daş gələr,
Xumar gözdən yaş gələr,
Səni mənə versələr,
Allaha da xoş gələr.

Göründüyü kimi, Türkman xalq havalarında diqqəti cəlb edən cəhətlər çoxdur. Biz hələ onu demirik ki, Kərkük xalq mahnılarının musiqişünaslarımız tərəfindən tədqiqi bir çox oxşar və fərqli cəhətləri üzə çıxarmaqla, bəzi mahnılarımızın da mətnlərinin dəqiqləşməsinə kömək edərdi. Kərkük dolay-

larında Azərbaycan xalq mahnısı kimi tanınan bir çox mahnılar var ki, xalqın yaddaşında olduğu kimi qalıb.

Azərbaycanda isə görkəmli bəstəkar Tofiq Quliyevin göstərdiyi kimi bəzi ifaçıların mətnə yersiz müdaxiləsi onların süjetində ya məntiqsizlik yaratmış, ya da musiqinin ifadə etdiyi bədii-estetik məzmuna xələl gətirmişdir (20, 5).

Azərbaycanda «Xumar oldum», İraq–Türkman folklorunda «Yar bizə qonaq gələcək» kimi tanınan mahnının mətninə diqqət yetirsək dediklərimiz aydınlaşar.

Getdim gördüm bağda yatıb
Ceyran, mənə bax, bax!
Maral mənə bax, bax!
Ay qız, mənə bax, bax!
Qara tellər gülə batıb
Gözəl, mənə bax, bax! (20, 88)

Kərkük dolaylarında bu mahnının döndərməsi aşağıdakı kimi olur:

Yar bizə qonaq gələcək,
Bilmirəm nə vaxt gələcək
Söz verib sabah gələcək.

Sonra isə mahnı mətni belə davam edir:

Getdim gördüm bağda yatır,
Ay qız, mənə bax, bax!
Siyah zülfü gülə batır,
Ceyran, mənə bax, bax!
Məni görüb qaş-göz atır,
Maral, mənə bax, bax!

Son misra:

Getdim gördüm bulaqdadı,
Əl-üzünü yumaqdadı və s.

Göründüyü kimi, mahnının mətnindən Azərbaycan variantında bir misra düşmüşdür. Üçlüyün o biri misralarında da beləcə.

Maraqlıdır ki, Ü.Hacıbəyli və M.Maqomayevin 1927-ci ildə buraxdıqları və sonralar təkrar nəşr olunan «Azərbaycan el nəğmələri» kitabında da bu mahnının hər bəndi Türkman musiqi folklorunda olduğu kimi üç misradan ibarətdir (150, 58).

O da maraqlıdır ki, bu mahnını Azərbaycan bəstəkarı S.Rüstəmov da Kərkük dolaylarında olduğu kimi «Yar bizə qonaq gələcək» adı ilə vermişdir (150, 67).

Onu da deyək ki, Kərkük dolaylarında da, Azərbaycanda da eyni olan bir çox mahnılar vardır. Bəzi mahnıların döndərməsi və ya bir-iki bəndi eyni olanları da çoxdur. Bu mahnılardan: «O yana döndər məni», «Yar bizə qonaq gələcək», «Pəri», «Ay qara xal yar», «Ay qız, heyranın ollam», «Niyə gəlməz oldu», «Dam üstədir damımız», «Qalanın dibində bir daş olaydım», «Nərgizi dəstə bağladım», «Kətan köynək dizdən yar», «Evlərinin önü yonca», «Bu gələn yar olaydı», «Yeri, yeri, yeri küsmüşəm sənnən», «Bu xal nə xaldı», «Gözəllərdən üç gözəl var sevməli», «Samovar almışam silənim yoxdur» və başqalarını göstərmək olar (150; 63, 134, 57; 83; 20). Bu təbiidir. Bu baxımdan Kərkük xoyrat mahnıları üzərində tədqiqat aparan Əta Tərzibaşının fikri maraq doğurur.

«Əskidən bəri azərilərlə dolu olan Təbriz, Marağa, Qarabağ və daha başqa şəhər və səmtlərdə musiqi həyatı yüksək bir səviyyəyə alınmışdır. O zaman İraq türkləri ilə bu ölkələrdə yaşayan türklər arasında dil, ədəbiyyat və musiqi baxımından bulunan yaxın bağlılıq qolaylıqla düşünülə bilər. Bu bağlılıq azərilərlə İraqda yaşayan türkmanlar arasında bir dərəcəyə dəgin qüvvətli bir qaynaşma hasilə gətirmişdir. Bununla bərabər türkmanlar kəndi şivə və musiqilərini az-çox olduğu kimi qoruya bilmişlərdir. Bununla bərabər, bir qisim havaların dəyişikliklə bir-birindən alındığını, böyləcə saysız türkülərin meydana gəldiyini düşünmək qabildir» (134, 8 – 9).

Yeri gəlmişkən, deyək ki, Türkman xalq mahnıları İran, Türkiyə və Azərbaycanda da sevilə-sevilə oxunur və mahnı yaradıcılığına öz müsbət təsirini göstərir.

Azərbaycanda Kərkük mahnılarına, eləcə də Türkman folklorunun başqa janrlarına açıq doğmalıq münasibəti özünü göstərir. Bu təbiidir. Öz doğmasını sevməmək mümkün deyil. Azərbaycanda bəstəkarlar Kərkük xoyratlarına musiqi bəstələyir, müğənnilər onları və Kərkük mahnılarını böyük məhəbbətlə oxuyurlar: «Bayatılar», «Evlərinin önü yonca», «Xalidə», «O yana döndər məni», «Kətan köynək dizdən yar», «Altun üzük, yaşıl qaş» və s. Azərbaycan radio və televiziyasında tez-tez səslənir.

Kərkük dolaylarında da Azərbaycan mahnıları oxunur. Şairlərimizin sözlərinə musiqi bəstələyib oxuyur və kitablara daxil edirlər. Məs.: Əbdülvahid Guzəçi oğlu Səməd Vurğunun «Gülə-gülə» və Rəsul Rzanın «Beşik nəğməsi» şeirinə musiqi bəstələyib kitabına daxil etmişdir (57, 47, 52).

Kərküklü müğənni Siddiq Bəndə Qafur isə azərbaycanlı şair Əhməd Cavadın «Çırpınırdı Qara dəniz» şeirinə bəstələnmiş mahnını ümumi bir münasibətdə oxuduğuna görə başı bəlalar çəkmişdir (137, 264).

Əhməd Cavadın şeirinin Kərkükdə oxunması və eləcə də şairin onlara şeir qoşması (213, 49) kərküklü tədqiqatçıların «Bu gələn yar olaydı», «Samovar almışam silənim yoxdur», «Layla balam, a layla», «Ay qız, mənə bax, bax», «Vəfasız», «Bu xal nə xaldı», «Qarabağı» və s. mahnıların Azərbaycan mahnıları olduğunu qeyd etməsi (134; 57), bütün bunlar və başqa janrlar üzrə yeri gəldikcə toxunduğumuz bu yaxınlıq, doğmalıq böyük həqiqətlərdən, mətləblərdən söz açır.

AŞIQ HAVALARI

Azərbaycan folklor xəzinəsində aşıq havaları mühüm yer tutduğu halda, Türkman folklorunda aşıq yaradıcılığına az rast gəlinir. Bu janr İraq–Türkman folklorunda o qədər də geniş yayılmamışdır. Bunun iki səbəbi ola bilər.

Bizcə, bunun 1-ci səbəbini Səfəvilər hakimiyyətindən sonra qismən, Şah Abbas dövründə, yəni 1638-ci ildə bütövlükdə Bağdad vilayətinin və eləcə də azərbaycanlılar yaşayan Kərkük dolaylarının Osmanlıların təsiri altına düşməsində axtarmaq lazımdır (216, 590). Bu, Azərbaycanda aşıq sənətinin, o cümlədən də dastan yaradıcılığının inkişaf etməyə başladığı vaxta təsadüf edir ki, o vaxt artıq Türkman folkloru onun təsir dairəsindən kənarda qalmışdı. Lakin bu, o demək deyildir ki, aşıq havaları və eləcə də dastanlar Türkman folklorunda, ümumiyyətlə, yox dərəcəsindədir. Folklorşünas Əta Tərzibaşı «Kərkük havaları» kitabında aşıqlardan, aşıq havalarından söz açır: «Aşıqlar əskidən şəhərdən şəhərə gəzərək saz çalar, söz və nəğməsi özünün olan havalar oxuyardı. İndi Kərkükdə aşıq yoxdur. Əvvəllər vardı... İndi Kərkükə bağlı bəzi köy və qəsəbələrdə nadir olaraq təsadüf edilməkdədir» (134, 36–37).

Qəribədir ki, dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəylinin XX əsrin əvvəlində Azərbaycan aşıq sənəti ilə bağlı dediyi sözlər İraq–Türkman folklorunda tam əksini tapmışdır:

«Aşığın ictimai əhəmiyyətini lazımınca qiymətləndirmək iqtidarında olmayan köhnə cəmiyyət onun rəqibi sazəndələri mudafiə etmişdir; sazəndələrin «fəaliyyət dairəsi» təkcə şəhərləri deyil, varlı kəndləri də əhatə edərək, getdikcə genişlənmiş, aşıqlar isə ucqar və yoxsul kəndlərə çəkilməli olmuşlar. Nəticədə aşıq sənəti, demək olar ki, ölümə məhkum idi» (149, 204–205).

Eyni fikrə folklorşünas Hənəfi Zeynallıda da təsadüf edilir: «Aşıqların bugünkü halına gəldikdə mərkəzdən uzaqlaşdığını, yavaş-yavaş şəhərlərdən çəkildiyini qeyd etmək lazımdır» (69, 25).

Bizcə, Türkman folklorunda aşıq havalarının geniş yayılmamasının ikinci səbəbini bunda axtarmaq lazımdır. Şübhəsiz, buna görədir ki, Kərkük dolaylarında qoşma, gəraylı, təcnis kimi aşıq şeir formalarına az rast gəlinir.

Doğrudur, folklorşünas Əta Tərzibaşı bu sahədə xidmətləri olan kərküklü qocaman Aşıq Abbasdan geniş söhbət açaraq Aşıq Abbasın son bəndini nümunə verdiyimiz üç bəndlik «Kərkükün» adlı qoşmasını da çap etdirmişdir:

*Kimi pəmbə girib (*geyib - *Q.P.), kimi raqiyə,*
Kimi al bursaya, kimi taqiyə
Yığılın gedəğin Sultan Saqiyə
Şölə verib, şənligidi Kərkükün (134, 36).

Tədqiqatçı, həm də Ərbilli Aşıq Məhəmməd və «Kərəm havası»ndan danışır (137, 281).

Türkman folklorunu təmsil edən, aşıq və dastanlardan bəhs edən İbrahim Daquqi isə yazır: «Kərkükdə Kor Abış (1911-ci ildə ölüb), Bəşirdə Xəlil Əhməd (1917-ci ildə ölüb), Daquqa bağlı İmam Zeynalabdin köyündə Qəmbər Əli (1906-cı ildə ölüb) kimi başqalarına aid dastanı, şeirləri nağıl və rəvayət edən bəzi ravilər bulunmuşdur. Hətta Qəmbər Əli bu şeirləri oxurkən səsinin gözəlliyi və ədası səbəbilə sazına bülbüllər qonarmış» (70, 158, 171).

XX əsrin əvvəllərində ərbilli tədqiqatçı Haşim Nahid də aşıqlardan, aşıq şeirindən, bayatılardan söz açır: «Saz şairlərinin tərənnüm etdiyi bu şeirlər dörd misradan ibarətdir. Bunlar o qədər boldur ki, toplatdırıb bir araya gətirilsələr cildlər təşkil edər» (152, 85).

Haşim Nahidin sözlərindən bir mühüm fikir də hasil olur. Deməli, Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da bayatı-maniləri, xoyratları sazla oxumuşlar.

Azərbaycanda aşıqlar indinin özündə belə təcnis və ya qoşma oxuyarkən bayatılardan istifadə edirlər. Aşıq yaradı-

cılığının zirvəsi hesab olunan «Cığalı təcnis» şeir növünün cığa hissəsini isə bayatı təşkil edir:

Ələsgərəm, dərdim budu, ay ağa!
Eynim yaşı leysan kimi a yağa.
Mən aşığam, ay ağa!
Piltə yanar a yağa,
Mərd sözün üzə söylər
Heç yapışmaz ayağa.
Gah baş olan, gah da düşər ayağa,
Kimsə varmaz fələkinən başa-baş (29, 101).

Təsadüfi deyildir ki, görkəmli ədəbiyyatşünas F.Qasımzadə yazmışdır: «Təcnisin daha gözəl nümunələrini bayatılarda görmək olar. Aşıqlar təcnis yazmağı bayatılardan öyrənmişlər. Bayatılarda işlənən cinas qafiyələr şeirə xüsusi gözəllik, oynaqlıq və musiqi ahəngi vermişdir» (53, 27).

Kərkük dolaylarında ən geniş yayılan aşıq havası «Kərəm havası»dır. Bu hava Ərbil şəhəri və başqa yerlərdə geniş şöhrət qazanmışdır. Ən çox:

Uca-uca dağlarda, karvan gedər yol eylər,
Sular durar yollarda, sellər gəlib göl eylər.

misraları ilə başlayan və:

Birin alım, hürimidir, mələkmidir kəndi,
Sinəsi zərdən yoğrulubdur köksünün bəndi.
Şəkərdən şirin ləblərinin qəndi
Dili qaymaq çalar bal üstünə.

misraları ilə bitən şeir üstündə oxunur (134, 37).

Türkman folklorunda çox sevilən havalardan biri də «Divan–Urfa»dır. Bizcə, bu hava Azərbaycanda aşıqlar arasında «Ayaq divani», «Osmanlı divanisi» və ya «Meydan divanisi» kimi tanınan havadan o qədər də fərqlənmir.

«Divan–Urfa» havası üstündə oxunan şeir nümunələrində də, şeirə əlavə olunan son yeddi hecalıq misradan başqa yerdə qalan bütün misralar on beş hecadan ibarət olur:

Dörd kitabı bilən olsa sidqiylə haqqın tapar,
Döşürər yüz min çiçəkdən, yoğurar məcun yapar.
Zərrəcə əqli olanlar aradan hissə qapar
Bu günə bayram deyəllər, «Eyd mübarək» günüdür.
Gə dostum dərdləşəğin.

Göründüyü kimi, «Divan–Urfa» məzmununa görə də «Divani»dən fərqlənmir. Burada da şeir nəsihətamiz, çağırış xarakterlidir.

Cənubi azərbaycanlı tədqiqatçı Cavad Heyət bəzi aşıqların əruz vəznində şeir yazdıqlarını qeyd edir (163, 100).

Maraqlıdır ki, bu xüsusiyyətə Kərkük folklorunda da təsadüf edilir:

Gözlərin şor eyləmə, gündə min can öldürər,
Qaşların cəllad misal, verməz aman, öldürər.
Dustursuz girmə bağa, səni bağban öldürər
Mövlan səni əryan yaradıb, əryan öldürər və s.

Əta Tərzibaşı «Kərkük havaları» kitabının «Əski xalq türküləri» bölməsində Azərbaycanda xalq nağılı ilə bağlı dastanlar qrupuna daxil olan, Kərkük folklorunda isə nağıl kimi tanınan «Yusif–Züleyxa»dan:

Ağlar Yaqub, ağlar ah Yusif deyə,
Getdi də gəlmədi, ah yavrum deyə.

hər misrası on bir hecadan ibarət böyük bir mahnı vermişdir:

Yusifin üzügnün ləl idi qaşı,
Onu quyuya atdı Kənan qardaşı və s. (134, 65)

Elə həmin bölmədə hər bəndi beş misradan ibarət olan şeir nümunələrinə də təsadüf edilir ki, onları da aşıq yaradıcılığına aid etmək olar:

Haraya baxıram daşdı-kəsəkdi,
Başımız üstündə çərxi-fələkdi,
Nənəsi hüridi, özü mələkdi.
Dolanım başına, olum pərvanə,
Dərdindən kül oldum, oldum divanə.

Maraqlıdır ki, xalq arasında son misranın yerinə bəzən «Bir busə ver mənə mərdi-mərdanə» də işlənir.

Göründüyü kimi, Azərbaycanda aşıq sənəti, aşıq havaları çox geniş yayıldığı halda, İraq–Türkman folklorunda bu janr unudulmaq dərəcəsinə gəlib çıxmışdır.

Demək lazımdır ki, bu, vaxtilə Azərbaycanda da belə olmuşdur. Təsadüfi deyil ki, XX əsrin əvvəlində tədqiqatçı Hənəfi Zeynallı ürək ağrısı ilə yazırdı: «Tarix boyu nə vaxtdan bizdə aşıqların əfsanələr söylədiyini bundan sonra gənclər material toplamaqla və tarixləri araşdırmaqla təyin edəcəklər» (69, 125).

Bununla belə, son illərdə aşıq sənətinə maraq artmışdır. Kərküklülərin Bağdadda çıxan «Yurd» qəzetində tez-tez aşıqların yaradıcılığına, saz sənətinə dair yazılar və aşıqların yaradıcılıqlarından nümunələr verirlər (81a).

Hətta Azərbaycan aşıqlarından Mikayıl Azaflı, Aşıq Ədalət, Narınc Xatın, Aşıq Ulduz, Aşıq Dilarə və başqalarının yaradıcılığından nümunələr və sazla portretləri, şairlərimizin (Zəlimxan Yaqub, Yusif Nəğməkar və başqaları) qoşmaları verilmişdir (816).

BEŞİK NƏĞMƏLƏRİ

Beşik nəğmələri Türkman folklorunda lirik növün geniş yayılan janrlarındandır. Buraya layla və oxşamalar daxildir. Onlar formaca xoyrat və manilərə, ağılara oxşasalar da, bu oxşayış zahiridir, məzmun və oxunuş tərzinə və eləcə də icra yerinə görə fərqlənirlər. Deyək ki, ağılar hüznlə əlaqədar yaranıb, dərdli, ələmli günlərdə oxunduğu, daim kədərli olduğu halda, beşik nəğmələri zərifliklə, istəklə, məhəbbətlə, incə, saf hislərlə əlaqədar yaranır, beşik başında oxunur.

Demək olar ki, ana ilə körpə arasında əbədi məhəbbətin təməli layla və oxşamalarla qoyulur. Bizə qalırsa, insana ən incə, ən saf, ən ülvi, müqəddəs duyğular ana laylası və oxşamalarla aşılanır. Ana laylası ilə böyüməyən uşağın qəlbinə pis əməllər, şər qüvvələr daha tez nüfuz edər, onun qəlbində mərhəmət, şəfqət, məhəbbət, xeyirxahlıq hisləri zəif olar. «Kim bilir, bəlkə də, uşağın tərbiyəsində hələ ki, sirri açılmamış bir çox uğursuzluqlar elə buradan başlayır» (147). Axı layla deyə bilən anaları indi barmaqla saymaq olar.

Türkiyədə «ninni» kimi tanınan laylalar, Türkman folklorunda «leyla» və layla kimi tələffüz edilir. Formaca xoyrat və manilərə oxşayan laylaların axırında «leyla balam, leyla», «leyla gözüm, leyla», «leyla ömrüm, leyla» və ya «üllə balam, üllə», «üllə ruhum, üllə», kimi döndərmələr (nəqarətlər) yer alır (129, 23). Məsələn:

Oyaq qallam yatınca,
Bəklərəm ay batınca,
Qolum yastıq edərəm,
Sən hasilə çatınca.
Leyla balam, leyla,
Leyla gülüm, leyla.

Leyla dilər;
Yatıpdı, leyla dilər.
Vurğun yuxu salıpdı,
Mənnən bir leyla dilər.
Üllə balam, üllə,
Üllə ruhum, üllə.

Maraqlıdır ki, bu xüsusiyyət Azərbaycan folklorunda da eynilə belədir. Bununla belə, tədqiqatçılarımız nədənsə buna əhəmiyyət verməmiş, onları ağılar, oxşamalar, hətta holavar

və sayaçı sözlər kimi, bayatı adı altında vermişlər. Halbuki professor P.Əfəndiyevin doğru olaraq qeyd etdiyi kimi, ağılar, oxşamalar, laylalar, holavarlar və s. bayatılardan fərqlənirlər (68, 146).

Maraqlıdır ki, İraqlı tədqiqatçı Sübhi Saatçı da layla və oxşamalardan danışarkən bu qənaətə gəlmişdir (129, 19–20).

Demək lazımdır ki, beşik nəğmələri musiqi baxımından da fərqlənirlər. Poetik vəzni, musiqi dili aydın və çox sadə olan beşik nəğmələri özünəməxsus bir üslubda ifa olunur: «Ana beşik başında oturaraq onu yırğalayır, onun ritminə uyğun halda bəmdən yarı oxuma, yarı deklamasiya halında, bir sözlə, reçitativ deklamasiya üslubunda oxuyur» (78, 67).

O da bir həqiqətdir ki, ana qəlbinin dərinliklərindən gələn içli duyğuları, arzu, istək və niyyəti bəyan etmək üçün söz kifayət etmir. Müqəddəs ana hisləri, arzuları musiqiyə çevrilir. Sözün həqiqi mənasında laylaları qoşanlar da, musiqisini bəstələyənlər də, oxuyanlar da analar özləri olmuşlar. Təsadüfi deyildir ki, Azərbaycanın xalq şairi Hüseyn Arif bunu dərindən duymuş və qabarıq şəkildə vermişdir:

Elə ki, balalar gəlir dünyaya
O gündən hey ölçüb, biçir analar.
Mahnı da oxuyur, şeir də deyir,
Bəstəkar analar, şair analar (160, 126).

O da bəllidir ki, xoyrat və maniləri hər adam yazıb-oxuya bildiyi halda, layla və oxşamaları yalnız qadınlar düzür və oxuyurlar. Laylaların əsas qayəsi körpəni uyutmaq, sakitləşdirmək və yatırtmaqdır:

Leyla edim mən dayim,
Yuxun olsun mülayim.
Xudama çox yalvarram
Olasan mənim payım.
Leyla balam, leyla,
Leyla ömrüm, leyla.

Yağış yağar, göl olar.
Karvan keçər, yol olar.
Sənin axır-şər (talesiz) nənən
Yatmaz, yatmaz, kor olar.
Leyla balam, leyla,
Leyla gözüm, leyla.

Kərkük folklorunda arzu-dilək, dua, xəstəlikdən xilasolma, nəzərdən saqınma və s. kimi mövzulardan bəhs edən laylalar daha çoxdur. Məsələn:

Leyla edərəm naçar,
Leyla dərd önün açar.
Xudama çox yalvarram,
Bəlkə, dərdindən keçər.
Leyla balam, leyla,
Leyla ömrüm, leyla.

Leyla, leyla edərəm,
Leylav haqdan dilərəm.
Səni verən xudadan
Can sağlığı dilərəm.
Üllə balam, üllə,
Üllə ruhum, üllə.

Ailədə müəyyən bir sıxıntı baş vermişsə, uşağın atası qürbətdədirsə, oxunan layla qəmli olur. Ana öz təsəllisini laylalarda tapır.

Gögərçin havadadı,
Əl yetməz yuvadadı.
Bir əlim başıv altda
Bir əlim duadadı.
Leyla gülüm, leyla,
Leyla ömrüm, leyla.

Leyla dedim ucadan,
Səsi gəldi bacadan.
Babav səfərə kedib,
...Ağlama can acıdan.
Leyla balam, leyla,
Leyla ömrüm, leyla.

Bəzən yas mərasimlərində də laylalar oxunur. Bu vaxt onlar qəm, qüssə, kədər bildirir, sazlamaqlardan (ağılar) fərqlənmirlər. Məsələn:

Bala vay;
Bal yemədim, bala vay.
Çox beşigin bələdim,
Bir demədim, bala, vay.
Leyla balam, leyla.
Leyla ömrüm, leyla.

Leylanın adı nədi?
Şəkərdən dadı nədi?
Çağırıram səs verməz,
Bilmirəm dərdi nədi?
Leyla gülüm, leyla,
Leyla ömrüm, leyla.

Uşaqla ilgili söylənilən oxşamalar da, Türkman folklorunda geniş yayılmışdır. Folklorşünas Sübhi Saatçı oxşamalardan danışarkən qeyd edir ki, Türkiyədə «sevmələr», Cənubi Azərbaycanda «nazlamalar» kimi tanınan bu şeir parçaları, Sovet Azərbaycanında da, Kərkük dolaylarında da «oxşamalar» adlanır (129, 19).

Oxşamalar yalnız analar tərəfindən deyil, nənələr, bibi və xalalar, başqa yaşlı qadınlar tərəfindən də deyilir. Körpəsiz ev təsəvvür edilmədiyi kimi, oxşamasız da ev yoxdur.

Oxşamaların geniş yayılmasının başlıca səbəbini, hər şeydən əvvəl, burada axtarmaq lazımdır. Oxşamaların çoxu laylalara bənzəsələr də, onlara çox yaxın olsalar da, bu bənzəyiş, bu yaxınlıq zahiridir.

Onlar müxtəlif məqamlarda işlənir və müxtəlif funksiyalar daşıyırlar. Sübhi Saatçı bu münasibətlə yazmışdır: «Bəzən leylalar arasına da qarışan oxşamaları, əslində, ayrı bir qrup halında düşünmək gərəkdir. Zira oxşamalar funksyon etibarı ilə ninnilərdən ayrılırlar» (129, 19).

Doğrudan da, oxşamalarda məqsəd əyləndirmə, əzizləmə, oxşama olduğu halda, beşik başında oxunan laylalarda başlıca məqsəd körpəni sakitləşdirmək, uyutmaq və yatırtmaqdır. Layla və oxşamalar məzmunca o qədər fərqlənməsələr də, oxşamaların poetik mətni vəzn cəhətdən, bəzən də heca cəhətdən özünəməxsusdur. Musiqi baxımından da bu fərq özünü göstərir. Laylalar melodiya və lad kökü etibarilə inkişaf etmişdir. Melodiya diapazon cəhətdən bir qədər qısa olsa da, daha ahəngdar, daha səmimi və emosional olur (78, 67).

Oxşamalar Türkman folklorunda da iki və dörd misralı olmaqla iki yerə bölünür və arzu-dilək, əzizləmə, əyləndirmə, oxşama məqamlarında işlənirlər. Məsələn:

Dama dirəkdi oğlum,
Xırmana kürəkdi oğlum.

Vay nişi-nişi,
Çıxıbdı iki dişi.

Və ya:

Ataram-tutaram səni, *Qızım qızlar içində,*
Şəkərə qataram səni, *Altun hicil qıçında.*
Baban evə gələndə *Qızıma diləkçi gələr*
Qucuna ataram səni. *Bu gün, yarın içində.*

Oxşamalar böyük həsrət və intizarı ifadə etmək baxımından da diqqəti cəlb edir:

Gündə mən: *Qurbanam özüm sənə,*
Kölgədə sən, gündə mən. *Həkətim, sözüm sənə,*
İldə qurban bir olar *İşıqlı ulduz kimin*
Qurbanınam gündə mən. *Tikmişəm gözüm sənə.*

Layla və oxşamalarda, bir yandan körpənin gələcək taleyi üçün ananın keçirdiyi hiss-həyəcanı, narahatlığı, qorxu və təşvişi, başqa bir tərəfdən də körpənin tez boya-başa çatması, sağlam böyüməsi, xəta-bəladan uzaq olması barədə ananın arzu-diləyi, istəyi, sevinci təkrarolunmaz boyalarla təsvir edilir.

Bayatı və ağılarda olduğu kimi, layla və oxşamaların dili aydın, sadə, yığcam və zəngindir. Burada da ən dərin fikirlər qısa və obrazlı şəkildə ifadə olunur.

İstər Azərbaycan, istərsə də Türkman folklorunda lirik növün «Beşik nəğmələri» janrı həyatımızın, tariximizin, şüur və təfəkkürümüzün ayrılmaz hissəsi kimi diqqəti cəlb edir.

BAYATI-TAPMACALAR

Türkman folklorunda lirik növün «bayatı-tapmaca» janrına da təsadüf edilir. Təbiət və cəmiyyət hadisələrinin, real varlıqların və s. şairanə təsvirini əks etdirən, formaca bayatı və qıfılbəndlərə oxşayan, lakin icra yeri və icra tərzinə, «üslubu, şeiriyyəti, ifadə etdiyi məcazi mənasına» görə onlardan fərqlənən «bayatı-tapmaca»lar nə Azərbaycan folklorunda, nə də onun qüdrətli qolu olan Türkman folklorunda lirik növün ayrıca janrı kimi tədqiq olunmamışdır. Onlar gah tapmaca (92, 69; 120, 71; 130, 61; 10, 199, 131, 104, 164, 541; 93, 62), gah bayatı (32; 155), gah da cinaslı tapmacalar (31, 240–241) adı altında verilmişlər.

Azərbaycan bayatılarının bədii xüsusiyyətləri barədə tədqiqat aparan A.Əliyev isə:

Çağırdım bərkdən,
Səs verdi kənddən,
Ağzı sümükdən
Saqqalı ətdən.

Salam, ay qəssabbaşı,
Məni göndərib yüzbaşı.
İki kirvənkə ət istərəm,
Nə yazı olsun, nə qışı.

kimi tapmacaları bayatı adı altında tədqiq edərək, Azərbaycan bayatıları arasında, guya, hər misrası 3, 4, 5, 7, 8, 9 hecadan ibarət bayatılar olduğu fikrini irəli sürmüşdür (171, 176).

Onu da qeyd etmək vacibdir ki, folklorşünaslarımızın «bağlama bayatı», «qıfılbənd bayatı», «tapmaca-bağlama» adlandırdıqları qıfılbənd və bağlamalar da «bayatı-tapmaca»lardan fərqlənirlər.

Yeri gəlmişkən, qeyd edək ki, folklorşünas N.Seyidov haqlı olaraq bir çox tapmacaların bayatı biçimində düzəldildiyini göstərsə də, doğru olaraq tapmacalara yaxın olan janrlardan biri də bağlamalardır (131, 35) qənaətinə gəlsə də, elə oradaca «bağlamalar da tapmacaların bir növüdür» hökmünü verməklə həqiqətdən uzaqlaşmışdır. Doğrudur, sonralar folk-

lorşünas V.Vəliyev «bağlama-bayatı» və tapmacalardan danışarkən:

Aşıq eldən yuxarı,
Şana teldən yuxarı.
Aşıq bir şey görübdü
Dizi beldən yuxarı.
(Çəyirtkə)

Buz bağlar;
Qışda çaylar buz bağlar.
Aşıq bir hikmət görüb
Od içində buz bağlar.
(Bişmiş südün qaymağı)

«bayatı-tapmaca»ları misal gətirərək yazmışdır: «Bizə belə gəlir ki, tapmacaları bağlama-bayatı adlandırmaq olmaz. Çünki onların cavabı şeirlə, bayatı şəklində yoxdur» (45, 144).

Bu, eynilə Türkman tapmacalarında da belədir. Şübhəsiz, qıfılbənd və bağlamaları «bayatı-tapmaca»lardan fərqləndirən başlıca fərq qıfılbəndlərin hər misrasının ayrıca cavabı olmasıdır. Eyni zamanda qıfılbəndin hər misrasının cavabının şeirlə, eyni qafiyədə olması tələb olunur.

Xəstə Qasımla Ləzgi Əhməd arasında yer alan qıfılbənddən verdiyimiz nümunə deyilənlərə əyani sübutdur:

Ləzgi Əhməd:

O nədir ki, dayanıbdır dayaqsız?
O nədir ki, boyanıbdır boyaqsız?
O nədir ki, doğar əlsiz-ayaqsız?
Üç ay keçər, ayağı var, əli var?

Xəstə Qasım:

Göy – bir çadır, dayanıbdır dayaqsız.
Ayla Gündür, boyanıbdır boyaqsız.
Qurbağadır, doğar əlsiz-ayaqsız.
Üç ay keçər, ayağı var, əli var.

«Bayatı-tapmaca»larda isə tamamilə başqa bir mənzərənin şahidi oluruq. Burada dördlüyün cavabı yalnız bir sözlə ifadə edilir. Məsələn:

Havar yandım, kar yetir,
Heyva yetir, nar yetir,
Əl dəyməmiş ağacdan
Gün vurmamış bar yetir.

dördlüyü «bayatı-tapmaca» olub, «dombalan» sözünü ifadə edir.

Folklorşünas V.Vəliyev doğru olaraq «indi tapmacalar sırasında öz varlığını saxlayan elə bayatılar vardır ki, onlar üslubu, şeiriyyəti, ifadə etdiyi məcazi mənası ilə tapmacalardan fərqlənirlər...» fikrinə gəlsə də, elə oradaca «... olsa-olsa onlar cavab hissəsini itirmiş «bağlama bayatılardır» (45, 145) deməklə həqiqətdən uzaqlaşır.

Tadqiqatçı İ.Abbasov isə bağlama və qıfılbəndləri «tapmaca-bağlama» adı altında nəzərdən keçirərək, onların bir qisminin «bayatı biçimində yarandığını nəzərə alaraq, onları bayatılar sırasında verməyi məqsədəuyğun saymışdır (19, 11, 206–212).

Maraqlıdır ki, onların iyirmiyə qədərinə İraq–Türkman «bayatı-tapmaca»ları arasında da rast gəlinir.

Yeri gəlmişkən, deyək ki, Kərkük xoyrat və manilərinin araşdırıcısı Əta Tərzibaşı «bayatı-tapmaca»ların xoyrat və manilərdən fərqləndiyini duyaraq onları kitabına daxil etməmişdir. Kitabında mani və xoyrat tərzində yazılan:

Ya qanı;
Ver muradım, ya qanı
Dəryadan bir quş uçdu
Nə əti var, nə qanı.
(Gəmi)

Bir qutum var alamat
İçi yanar qiyamat.
Yaş vurdum, quru çıxdı
Məhəmmədə salavat.
(Təndir)

«bayatı-tapmaca»ları misal gətirərək yazmışdır:

«Tapmacaya gəlincə bunu xalq ədəbiyyatında daha çox folklor araşdırmalarının ümumi sahəsində mütaliə etmək gərəkdir» (137, 91).

İraqlı tədqiqatçı Sübhi Saatçı isə doğru olaraq «Mənzum tapmacaların bir qismi mani və xoyrat şəklində olurlar» (129, 56–57) desə də, Əta Tərzibaşı kimi, bunların müəyyən bir janr – «bayatı-tapmaca» janrını əmələ gətirdiyini görməmiş, onları adi tapmacalar arasında vermişdir. Bununla belə, tədqiqatçının bu cür tapmacalarla əlaqədar dediyi «şeiriyyət güclü olan tapmacaların uzun illər hafizələrdə yaşaması da bundadır» (129, 57) fikri həqiqətlə səsləşir. Çünki «bayatı-tapmaca»ların musiqiyə yaxın olması onların təsir gücünü xeyli artırır.

Maraqlıdır ki, Azərbaycan folklorunda təsadüf edilən «bayatı-tapmaca»lar nə forma, nə də məzmunca Türkman «bayatı-tapmaca»larından fərqlənirlər.

Onların əksəriyyəti bir-birinin eynidir:

Dağdan enir dağ kimin,
Qolları budaq kimin.
Enir bulaq başına,
Bağırır oğlaq kimin.
(İldırım)

Azara gedər;
Azar bezara gedər.
Babası bir yaşında
Oğlu bazara gedər.
(Qovun, qarpız)

Bəzi «bayatı-tapmaca»ların isə ilk iki misrasında az-çox fərqə təsadüf edilsə də, son iki misra hərfi-hərfinə uyğun gəlir. Məsələn:

Bir əcayib quş gördüm
Dizi beldən yuxarı
(Çəyirtgə)

O qədər oynamışlar
Xurd-xəşil (xəmir) olmuşlar
(Yağış)

Aşağıdan su içər
Yuxarıdan balalar
(Buğda, xurma)

Dimdiyi sümükdən
Saqqalı ətdən
(Xoruz)

Gecə-gündüz yol gedər
Yenə durub yerində
(Dəyirman daşı)

Bir çox «bayatı-tapmaca»ları fərqləndirən yeganə cəhət Kərkük dolaylarında onların «Lələm deyər» ifadəsi ilə başlanmasıdır. Başqa misralar və «bayatı-tapmaca»nın açması eyni olur. Məsələn:

Lələm deyər, quş uşdu.
Uşdu dəryahı keşdi.
Bir ağacda beş alma
İkisinə gün düşdü.
(Beş vaxt namaz)

Lələm deyər, yağ gəti,
Gətirirsən sağ gəti.
Sağılmamış inəkdən
Ərinməmiş yağ gəti.
(Bal)

Təəssüfləndirici haldır ki, Azərbaycanda folklorşünaslığa dair son vaxtlar çap olunan kitablarda «bayatı-tapmaca»ların açmasını verməmək meyili özünü göstərir. Hətta Aşıq Şəmşir kimi müasirimizin belə «bayatı-tapmaca»larının açmasının verilməməsi təəccüb doğurur. Məsələn:

Ayağı-əli qandı,
Dodağı-dili qandı.
Möcüzə dərya gördüm
Suyu duz, külü qandı.

İki at var uzaqda,
Bərqərardı hər vaxtda.
Qarası adam yıxar
Ağı gəzər qucaqda.
(30, 240–41)

Halbuki «bayatı-tapmaca»ların açmasının verilməsi həm insanı düşünüb-daşınmağa sövq etmək baxımından, həm də ona təbiət və cəmiyyət hadisələri, xalqın həyat tərzi, məşğuliyyəti, fikri, düşüncəsi barədə məlumat vermək baxımından maraq doğurur, tədqiqatçılar üçün əvəzsiz xəzinəyə çevrilir.

Digər tərəfdən də vəzn və qafiyəsi yerli-yerində olan, bu qiymətli poetik parçaların açması məlum olduqda dillər əzbərinə çevrilir, daha geniş yayılırlar. Bəzən sadə, bəzən də yüksək poetik dillə yazılan, xalq təfəkkürünün məhsulu olan, təşbih və təsvirlərlə, obrazlı ifadələrlə dolu olan bu dördlüklər ağlı, zəkanı, düşüncə və mühakiməni inkişaf etdirmək baxımından xüsusi qiymət kəsb edir:

Lələm elin aşına,
El toplaşar başına.
Nə əli, nə ayağı
(Və ya: Əli yox, ayağı yox)
Gedər əkin başına.
(Su)

Gözəl mənnən nar istər
Bağım yoxdu, bar istər.
Əkilməmiş bostannan
Toxumsuz xiyar istər.
(Dombalan)

Demək lazımdır ki, ictimai həyatın bütün sahələrini əhatə edən «bayatı-tapmaca»larda xalq öz düşüncə və mühakiməsini, ictimai varlığa münasibətini bədii şəkildə əks etdirən, dil səlisliyi, məna kəsəri ilə seçilən forma axtarıb tapmağa çalışmış və beləliklə, şifahi xalq ədəbiyyatının lirik növünün «bayatı-tapmaca» janrı meydana gəlmişdir. Bu, daha təkmil sənətə meyilin təbii nəticəsi kimi qiymətləndirilməlidir.

Onu da qeyd etmək vacibdir ki, «Xalq havaları» bölməsində göstərdiyimiz kimi, Türkman folklorundan fərqli olaraq, son çağlarda Azərbaycan folklorunda aşıq yaradıcılığı daha da inkişaf etmiş, «bayatı-tapmaca» çərçivəsinə sığmayan, bağlama və qıfılbənd kimi ölməz şeir formasının meydana gəlməsinə təkan vermişdir.

IV FƏSİL

EPİK NÖV

DASTANLAR
NAĞILLAR
ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR
TAPMACALAR
LƏTİFƏLƏR
SON SÖZ ƏVƏZİ
QAYNAQLAR

DASTANLAR

Türkman folklorunda ən çox sevilən və yayılan «Arzu–Qəmbər» dastanıdır. Qalan Azərbaycan dastanları Kərkük dolaylarında geniş yayılmayıb. Bu da səbəbsiz deyildir. Məlumdur ki, dastan janrı Azərbaycan folklorunda ən çox XVII – XVIII əsrlərdə inkişaf edib çiçəklənmişdir. Bu vaxt isə Türkman folklorunu təmsil edənlər artıq osmanlıların təsiri altına düşmüşdülər. Dastan janrı isə hələ o vaxt osmanlılar arasında yox dərəcəsində idi. Türkiyəli tədqiqatçı professor P.N.Boratavın göstərdiyinə görə dastanları Türkiyəyə Cənubi və Şimali Azərbaycandan azərbaycanlılar gətirərək XIX əsrin ortalarından 1928-ci ilə qədər İstanbulda 15-dən artıq dastanın çapına nail olmuşlar (210, 211, 211, 66).

O da maraqlıdır ki, P.Boratav və Azərbaycan alimi İ.Abbasov görkəmli şərqşünas İ.Kunoşun fikrinə tərəfdar çıxaraq göstərirlər ki, ümumiyyətlə, dastanların vətəni Azərbaycandır (210, 3; 169, 4).

Şübhəsiz buna görədir ki, Azərbaycanda çox güclü olan aşıq ədəbiyyatı türk (15, 129) və eləcə də Türkman folkloruna təsir etmiş və bu təsir uzun müddət davam etmişdir.

Bununla belə, qəti qənaətə gəlmək olur ki, Türkman folkloru ümumi Azərbaycan folklorunun təsir dairəsindən kənarda qaldığına görə Kərkük dolaylarında dastanlar Azərbaycanda olduğu kimi geniş şöhrət qazanmamışdır.

Bununla belə, Türkman folklorunda kərküklü Aşıq Abbas, Kor Abış, Daquqa bağlı İmam Zeynalabdin kəndindən olan Qəmbər Əli, Ərbilli Aşıq Məhəmməd, Bəşir kəndindən Xəlil Əhməd və başqa məşhur dastançı aşıqlardan danışmaq olar. Hətta Aşıq Qəmbər Əli dastan söyləyərkən, çalıb-oxuyarkən sazına bülbüllərin qonduğunu da qeyd edənlər var (70, 158; 134, 36; 137, 281). Təbii ki, belə aşıqları yetişdirən mühit vardı. Türkman folklorunda «Leyli və Məcnun», «Yusif

və Züleyxa», «Əsli və Kərəm», «Fərhad və Şirin» və «Koroğlu» dastanı yer almaqdadır (70, 159).

Hətta tədqiqatçı Pir Davud Əbdülkərim «İbrahim» dastanı və «Qisseyi İbrahim və İsmayıl» adlı 19 səhifədən ibarət, üç qəsidəni əhatə edən kitab da buraxmışdır.

Deməli, Türkman folkloru Azərbaycan folklorunun hərtərəfli öyrənilməsi baxımından əvəzsiz xəzinəyə çevrilir. Burada Kərəm, Fərhad, Şirin, Şahsənəm və başqa dastan qəhrəmanları ilə bağlı neçə-neçə gözəl xoyratlara təsadüf edilir:

Mən dayanım;
Aç hüsnün, mən dayanım.
Kərəm eşqinnən yandı
Qorxuram mən də yanım.

Şirin düşər;
Zülf üzə şirin düşər,
Fərhad qaya çapanda,
Yadına Şirin düşər.

Bir də mən;
Bir sən çağır, bir də mən.
Şahsənəm çobanıyam
Qoyun verməm qurda mən.

Gecələr zar ağlaram,
Heç bilməz yar ağlaram.
Şahsənəm bağçasında
Qaldı bir mar ağlaram və s.

O da maraqlıdır ki, Türkman folkloru «Koroğlu» dastanı və hələ uşaqlıqdan adı hər bir azərbaycanlı üçün doğma olan Qırat, Dürat, Çənlibel barədə yeni fikir söyləməyə imkan verir.

Məlumdur ki, atlara, bir qayda olaraq, müəyyən bir nişanına və ya rənginə əsasən ad vermişlər. Bu, bədii ədəbiyyatda da öz əksini tapmışdır. Qaşqa, səkil, alapaça, boz at adları belələrindəndir.

Bəs «qır» və «dür» at adlarını hansı nişanına əsasən vermişlər?

Folklorşünaslarımız «Qırat» sözünün real mənasına flkir vermədən, onun astral – mifik mənasını açmağa səy göstərərək Qıratın «qor at», «od at», «qara at» olduğu fikrinə gəlmiş-

lər. Qırat, Dürat sözlərinin astral–mifik mənasına toxunmadan, onların Kərkük dialektində bu gün belə işlənən real əsasına arxalanaraq qıratın – zil qara və ağ rəngli at, dörü və ya doru atın – kəhər at, boz at olduğunu söyləyə bilərik. Xoşbəxtlikdən həmin sözlərin etimologiyasına dair son tədqiqatdan göründüyü kimi, elə bu sözlərin astral–mifik mənası (62, 102–103) və «Koroğlu» dastanında verilən bir süjet də dediklərimizi təsdiqləyir.

Koroğlu tacir Əhmədi aldatmaq üçün yapıncısını və arxasınca da bir sərnic qatığı atır ki, tacir Əhməd onun Qırata – zil qara və ağ rəngli atına minib getdiyini güman etsin. Belə də olur. Tacir Əhməd aldanır.

Dürat məsələsinə gəldikdə isə deməliyik ki, dür at – kəhər at, boz at mənasında, əksər türkdilli xalqlarda doru, toru at kimi, Azərbaycan dilində dor at kimi işlənmişdir (6, 207).

Açması gecə-gündüz olan Azərbaycan tapmacasında isə Qır atla bərabər, elə Boz at işlədildiyinin şahidi oluruq:

Qır at qovar, Boz at qaçar.
Boz at qovar, Qır at qaçar (131, 46).

Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycan dilinin Qazax, Tovuz, Salyan, Cəbrayıl və s. dialekt və şivələrində işlənən «dördəm» sözünün də «doru» sözündən götürüldüyünü söyləmək olar.

Çənlibel sözünün etimologiyasına gəldikdə isə deməliyik ki, folklorşünaslarımız bu sözü «çənlə örtülü dağ beli», «danın söküldüyü bel» kimi izah etmişlər.

Lakin tarixdən məlumdur ki, xalq qəhrəmanları, adətən, zülmkarlara, istismarçılara, hakimlərə qarşı mübarizə aparmaq üçün dəstəsini yığıb, ətrafı meşəli dağlarda məskən salmışlar. Koroğlu da belə etmişdir. Bunu XVIII əsrin əvvəllərində Təbriz və Azərbaycanın başqa yerlərindən toplanaraq «Nəğmələr» adı altında verilən folklor materiallarından da görürük. «Nəğ-

mələr» kitabında Koroğlu barədə maraqlı məlumat vardır: «O, bir çox atlıların başında duraraq yollarda ağalıq edərmiş. Bəzən keçən tacirləri soyar, bəzən də onlardan razılıqla pul alarmış... Orada böyük bir meşə var, indi Soğanlı adlanır. Orada o, bir qala da tikmişdir ki, Koroğlu qalası adlanır» (68, 30).

Deyilənlərə Kərkük dialektində işlənən «çəm» və «çəm ağacı» sözləri də sökək olur. Kərkük dolaylarında bu gün belə meşə sözü əvəzinə «çəm» işlənir. Bundan başqa, bu dialektdə böyük ağaclara «çəm ağacı» – meşə ağacı deyirlər. Beləliklə, Çənlibelin «Çəmlibel» – meşəli bel, ətrafı meşəli dağ olduğu fikrini də söyləmək olar.

Maraqlıdır ki, «Koroğlu» dastanından söz açan H.Zeynallı «Çamlıca», «Çamlı dağ» terminlərini işlədir və şeir də verir. «Aşağıdakı bu bir-iki parça... «Çamlı dağ»ın mühüm rolundan bəhs olunduğunu da göstərə biləcəkdir» (69, 233).

Tədqiqatçının misal gətirdiyi beş bəndlik şeirdən verdiyimiz nümunədən göründüyü kimi, Çəmlibel deyəndə ətrafı meşəli dağ nəzərdə tutulur. Məsələn:

Meşədən enərkən Çamlı dağından,
Çəkinməyin həramıdan, yağıdan.
Səflər pozan, düşmənləri dağıdan,
Öndəki düşməndən xəbərdar olsun.

O ki qaldı Koroğlu dastanına, dastan Türkman folklorunda belə başlayır:

Mən bir kor oğluyam daqlar gəzərəm,
Dağ sultanı yeldən qüvvət sezərəm.
Zalımların başlarını əzərəm,
Əcələ yap, usta, mənim sazımı.

deyərək intiqam almağa tələsən qəhrəman, tüfəng icad edildikdən sonra məyus olur, «mərdliyin pozulduğunu» bildirir:

Düşmən gəldi tabır-qabır düzüldü,
Allımıza qara yazı yazıldı.
Tifək icad oldu, – mərdlik pozuldu
Əgri qılınc qında parslanmalıdır.

deyir və tale ilə barışmalı olur:

Mən zalımlar düşməniyəm,
Zavallılar aslanıyam.
Təqdir beləysə razıyam,
Haqq belə yazmış yazımı – deyir (70, 160–162).

Göründüyü kimi, dastanın sonu da Azərbaycan variantından o qədər fərqlənmir.

Kərkük dolaylarında «mərdliyin pozulduğundan» şikayətlənən Koroğlu, Azərbaycanda «mərdlik əldən getdi» deyə nalə çəkir:

Axır əcəl gəldi yetdi, hay-haray!
Çəkdiyim qovğalar bitdi, hay-haray!
Tüfəng çıxdı, mərdlik getdi, hay-haray!
Mənmi qocalmışam, ya zəmanəmi? – deyir.

Təbii ki, burada elə böyük bir fərqə rast gəlmək mümkün də deyildir. Yuxarıda göstərildiyi kimi bir çox başqa dastanlar kimi, «Koroğlu» da Türkiyəyə Azərbaycandan aparılmış, oradan isə Türkman folkloruna keçmişdir.

Bunu iraqlı tədqiqatçılar Ə.Bəndəroğlu, İbrahim Daquqi və başqaları da qeyd edirlər.

ARZU–QƏMBƏR DASTANI

Türkman folklorunda çox şöhrət qazanmış dastanlardan biri də «Arzu–Qəmbər»dir.

Dastanı kərküklü folklorşünas Əta Tərzibaşı yaşlı bir qadının dilindən lentə köçürərək, çapa hazırlamışdır. Tədqiqatçı bu münasibətlə yazır: «Dil baxımından məktəb filan təsiri altında qalmayan sayın yaşlı xanımın qonuşma dilinə heç toxunmayan hekayəyi kəlmə-kəlmə, cümlə-cümlə təşbit etdim. Bu yerli ağız üçün günün ən gözəl örnəgidir» (25, 3).

Yəqin buna görədir ki, bu dastan tez bir zamanda İraq (1964), İran (1967) və Türkiyədə (1971) çap olundu (26, 5).

Dastan Bakıda da tərəfimizdən üç dəfə təkrar-təkrar çap olunmuşdur (26, 85).

Təəssüf ki, Azərbaycanda dastanın Bakı, Şamaxı, Gəncə, Naxçıvan və s. variantları olsa da, işıq üzü görməmişlər (115).

«Arzu–Qəmbər» xalq nağılları ilə bağlı olan dastanlardandır. Daha doğrusu, nağılla dastan arasında keçid təşkil edir.

«Arzu–Qəmbər»in nağılla dastan arasında keçid təşkil etdiyini onun müqəddiməsindən də görmək olur. Dastanın müqəddiməsi nağıl pişrovu ilə başlayır.

Hartdan-hurtdan, sıxması qarpız qabığı, dügməsi turpdan. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərliğ edir, əski hamam içində.

Var idi, yox idi, iki qardaş var idi və s.

O da maraqlıdır ki, Türkman folklorunda nağıl da, dastan da «matal» sözü ilə ifadə olunur.

Dastanın Azərbaycan variantları və eləcə də «Yaxşı və Aşıq» dastanında olduğu kimi, Kərkük variantı da bayatılar üzərində qurulmuşdur. Bu, o deməkdir ki, professor M.H.Təhmasibin təbirincə desək Azərbaycan folkloru bu janrda, bu formada da İraq–Türkman folkloru ilə şərikdir.

Bununla belə, qeyd etmək lazımdır ki, «Arzu – Qəmbər»in Kərkük variantı dastanın Azərbaycan variantlarından və

eləcə də «Yaxşı və Aşıq» dastanından fərqli olaraq, aşağıdakı nağıl pişrovu ilə başlayır: «Hartdan-hurtdan, sıxması qarpız qabığı, düyməsi turpdan. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərliğ edir əski hamam içində. Var idi, yox idi, iki qardaş var idi» (26; 85).

«Arzu–Qəmbər» dastanının Azərbaycan və eləcə də Kərkük variantında aşiq-məşuqun hiss və həyəcanının poetik ifadəsini bayatı şəklində tapması folklorşünas A.Nəbiyevin haqlı olaraq göstərdiyi kimi, belə bir ehtimal doğurur ki, dastan yaradıcılığında qoşma və gəraylı şəkillərindən hələ çox-çox əvvəl bayatıdan istifadə yolu ilə dastanlar yaranmışdır (18, 94).

Bu dastanın izinə «Əsli və Kərəm» dastanında düşməyimiz də dediklərimizi təsdiq edir. Kərəmin dilindən deyilən beş bəndlik «Olmadı» adlı qoşmanın 3-cü bəndi bir tərəfdən «Arzu–Qəmbər»in daha qədim olduğunu, digər tərəfdən də onun Azərbaycanda aşıqlar arasında məşhur olduğunu göstərir:

Xurşid öz Mahının dizinə yatdı,
Qəmbər Arzusunun tozuna batdı.
Dünyada Şahsənəm murada çatdı
Aşıq Qərib kimi gülən olmadı (16, 94).

«Arzu–Qəmbər» dastanına həm Kərkük, həm də Azərbaycan bayatılarında təsadüf etməyimiz isə onun xalq arasında sevildiyinə dəlalət edir:

Arzular gedər;
Qəmbər – Arzular gedər.
Bəsləmə yad ördəkin
Vətən arzular gedər.
(Kərkük bayatısı)

Bu gələn Qəmbər ola
Müşk ilə əmbər ola.
Səni mənə yetirən
Bəlkə, Peyğəmbər ola.
(Azərbaycan bayatısı)

Demək lazımdır ki, dastanın Kərkük variantında hadisələrin gedişi həyatiliyi ilə seçilir. Çox təbii və sadə dildə iki gəncin nakam məhəbbətindən danışılır. Dastanda yer alan 29 bayatının hamısı yerli-yerində işlənməklə, onun məzmununu dərinləşdirir və təsir gücünü daha da artırır. Doğrudur, dastan «Şəhri və Mehri», «Əzətinli Əmrah» və s. Azərbaycan dastanlarında olduğu kimi övladsızlıq barədəki ənənəvi süjetlə, doğma qardaşların uşaqları olacaq təqdirdə, oğlan və qız olsalar, onları bir-birinə verəcəkləri barədə əhd-peymanla başlayır. Lakin bəzi dastanlarımızdan fərqli olaraq, dastanın Kərkük variantında «qondarma» hadisələrə, deyək ki, «Şəhri və Mehri»nin valideynlərinin dördünün də bircə balıq tərəfindən, bircə dəfəyə udulması və 15–16 yaşlı gənclərin «yetim» qalmaları və s. rast gəlinmir. Əksinə, «Arzu–Qəmbər»in Kərkük variantında böyük həyat həqiqəti vardır. Belə ki, Qəmbərin ata-anası vəfat edəndən sonra əmisi onu öz evinə gətirir, Arzu ilə birgə onu mədrəsəyə qoyur. Qardaşı ilə kəsdiyi şərti, əhd-peymanı unutmur. Lakin Qəmbərin əmisi arvadı gözünün ağı-qarası olan yeganə qızını kimsəsiz, yetim bir oğlana vermək istəmir. Qızını varlı-hallı, arxalı bir gəncə vermək arzusu ilə yaşayır. Hər şey də buradan başlayır. Arzu ilə Qəmbəri məktəbdən çıxarırlar. Əmi arvadı hər vasitə ilə bir-birini dərin məhəbbətlə sevən gənclərin görüşməsinə mane olur. Gündüzlər Qəmbəri qoyun-quzunu otarmaq üçün örüşə göndərir, axşamlar isə qızına göz qoyur ki, Qəmbərlə görüşməsinlər. Ümumiyyətlə, Arzunun Qəmbərlə görüşməsini qəti qadağan edir. Bunu «Bilərzik» əhvalatından aydın görmək olur.

Arzunu bulağa suya göndərən ana dönə-dönə tapşırır ki, Qəmbərlə görüşməsin. Bulaqdan su götürüb tez evə gəlsin. Arzu bulaq üstündə bilərziyini çıxarıb əl-üzünü yuyanda Qəmbərin ona tərəf gəldiyini görür. Anasının qorxusundan tələsik su qabını götürüb evə qaçır. Anası təkidlə Qəmbərlə görüşüb-görüşmədiyini soruşur. Arzu and içir, aman edir ki, Qəmbərlə görüşməyib. Hətta tələsdiyindən bilərziyi unudub bulaq

başında qoyduğunu deyir. Anaya belə gəlir ki, Arzu bilərziyini bulaq başında bilərəkdən qoyub ki, Qəmbərlə görüşməyə bəhanəsi olsun. Odur ki, Arzunu əldən düşənə qədər döyür. Bir-birinin dərdindən dəli-divanə olan Arzu ilə Qəmbəri bu yoldan döndərmək üçün bütün vasitələrə əl atır. Hər şeydən əvvəl, məsələni sülh yolu ilə həll etmək üçün öz südünü dələməyə qatır ki, Qəmbər yesin, Arzu ilə bacı-qardaş olsunlar.

Arzu bayatı ilə məsələnin nə yerdə olduğunu ona anladır:

Hey hatıbdı, hatıbdı,
Qoyun-quzu yatıbdı.
Qəmbər dələmə yemə
Nənəm südün qatıbdı.

Burada xalq arasında dərin kök salan, yaşayan, hamı tərəfindən riayət olunan həyat həqiqətindən söhbət gedir.

Bu baxımdan folklorşünas S.Paşayevin fikri maraq doğurur: «İndinin özündə belə iki bacıdan ya biri öldükdə, yaxud döşündə süd olmadıqda, başqa bacı onun uşağını əmizdirərsə uşaqlar böyüdükdə onların evlənməsinə razı olmurlar. Çünki o uşaqlar artıq xalaoğlu, xalaqızı yox, bacı-qardaş sayılır. Hətta yad bir ana da, hər hansı bir uşağı əmizdirdikdə, döş verdikdə, həmin uşaq onun övladları ilə o gündən bacı-qardaş olur. Bir sözlə, süd bu işdə həlledici rol oynayır» (115, 16).

Görünür, keçmişdə də çox yaxın qohumların evlənməsi ciddi narahatlıqlara, məsələn, uşaqların qeyri-normal olmasına və s. gətirib çıxarırmış ki, hər vasitə ilə bunun qarşısını almağa çalışırlarmış.

Bu motivin «Arzu–Qəmbər» dastanında yer alması təbiidir. Çünki hər bir dastan öz dinləyicisinə müəyyən əxlaqi keyfiyyətlər aşılamağa, onu nədənsə çəkindirməyə sövq edir.

Maraqlı cəhət odur ki, «Arzu–Qəmbər» dastanının Azərbaycan variantlarında rast gəlinən bu və ya başqa süjetlərə, motivlərə bütövlükdə dastanın Kərkük variantında təsadüf

edilir. Bununla belə, S.Paşayevin dastanın Bakı variantının Kərkük variantına daha yaxın və kamil olduğunu qeyd etməsi inandırıcıdır (115, 15). Əgər Bakı variantı kamil olmasaydı, əsrin əvvəlində Bakıda boya-başa çatmış yazıçı Seyid Hüseyn «Arzu–Qəmbər»i məşhur dastanlarımızla yanaşı tutub yazmazdı: «Məlum olduğu üzrə, bizim olduqca zəngin el ədəbiyyatımız var. «Aşıq Kərəm», «Koroğlu», «Qərib», «Tahir və Zöhrə», «Arzu və Qəmbər» kimi hekayətlər el ədəbiyyatımızın məhsulu olduğundan tarixi-ədəbiyyatımızın ilk səhifələrini onlardan başlamalıyıq» (127).

Doğrudan da, «Arzu–Qəmbər»in Bakı və Kərkük variantları çox yaxındır. Hər iki variantda Arzunun anası yeməkdə Qəmbərə zəhər vermək istəyir. Arzu şeirlə, sözlə Qəmbəri məsələdən hali edir. Hər iki variantda bilərzik əhvalatı və bilərziklə bağlı dastanın bədii cəhətdən ən gözəl hissələrindən olan Arzu ilə Qəmbərin bayatılaşması səhnəsi vardır. Bakı variantında da Arzunu bəy evinə apararkən atın cilovunu Qəmbərin tutmasına və Arzunun onun dabanını əzdirməsi səhnəsinə təsadüf edilir. Kərkük variantında olduğu kimi, dastanın Bakı variantında da Qəmbər Şahın yanına şikayətə gedərək ondan imdad diləyir ki, sevgilisinə qovuşmaqda ona kömək etsin. Şah qoşun göndərir ki, Arzunu alıb Qəmbərə versinlər. Lakin hər iki variantda küpəgirən qarı hiylə işlədərək işləri korlayır.

Tədqiqatçı S.Paşayev göstərir ki, dastanın Bakı variantı yeganə variantdır ki, Arzunu vermək istədikləri oğlanın adı məlumdur – Küləboy (115, 15).

Bu sözə dastanın Kərkük variantında da rast gəlinir. Lakin orada Küləboy – bəstəboy, gödək mənasında işlənmişdir:

Tat oğlu küləcə boy
Etdin xan Arzuma toy
Kərəsin mən almışam
Ayranın başıva qoy! (26, 26)

Dastanın Kərkük, Gəncə və Naxçıvan variantlarında da oxşar cəhətlər vardır. Hər üç variantda əmi uşağı olan Arzu ilə Qəmbər «Tahir və Zöhrə», «Leyli və Məcnun», «Əzətinli Əmrah» və s. dastanlarımızda olduğu kimi, mədrəsədə sevişirlər və s.

Ümumiyyətlə, demək lazımdır ki, «Arzu–Qəmbər»in Kərkük variantında ayrı-ayrı məhəbbət dastanlarımızda yer alan süjetlər, motivlər, hadisələr öz əksini inandırıcı şəkildə tapmışdır. «Qurbani», «Abbas–Gülgəz», «Əsli və Kərəm» və s. kimi gözəl məhəbbət dastanlarımızda olduğu kimi, Arzu–Qəmbər» dastanında da qəhrəmanın sağ aşiq – haqq aşığı olub-olmadığı yoxlanılır. Qəmbər sağ aşiq olduğu üçün imtahandan çıxmaqla bərabər, onda qeyri-adi bir keyfiyyət də üzə çıxır. Nə desə yerinə yetir, bütün qarğışları həyata keçir. Qəmbərin sağ aşiq olduğunu bildiklərindən «Mahmud və Ağcaquş» dastanında olduğu kimi (1, 8, 163), Arzunu bəy evinə aparmazdan əvvəl heç kim Arzunu bəzətməyə, onu geyindirməyə cəsarət etmir.

Bu fakt bir daha «Arzu–Qəmbər»in çox qədim olduğuna dəlalət edir. Ta qədim zamanlardan nağıllar və «Kitabi-Dədə Qorqud» boylarından göründüyü kimi, insanlar qarğışlardan çəkinir, qarğış tutacağına inanırdılar.

O da maraqlıdır ki, dastanda yer alan bütün qarğışlar bayatı üstündədir.

İki gəncin nakam məhəbbətindən söz açan «Yaxşı və Aşıq» dastanında da Qəmbər kimi, Aşığın da sağ aşiq – haqq aşığı olduğunu göstərən süjet maraq doğurur.

Arzuya və eləcə də Yaxşıya evlənmək istəyən gənclər yıxılıb ölür. Hər ikisi bayatılar üstündə qurulan «Arzu–Qəmbər» və «Yaxşı və Aşıq» dastanlarını birləşdirən, başqa dastanlardan fərqləndirən bir cəhət də vardır. Hər iki dastanın məzmunundan görünür ki, Arzu da, Yaxşı da sevgililəri kimi, sağ aşiq olduqlarından hər şey onlara əvvəlcədən agah olur.

«Arzu–Qəmbər»i başqa dastanlarımızla birləşdirən, doğmalaşdıran oxşar cəhətlər çoxdur. Bu dastanda da aşiqlər dara düşəndə Xıdır İlyası köməyə çağırırlar. Qəmbər çayda boğularkən Arzunun Xıdır İlyasdan imdad diləməsi səhnəsi bu baxımdan səciyyəvidir:

Qərəz öləsən, qərəz,
Yar, əlmizdən düşdü saz.
Qəmbəri şat apardı
Yetiş ya Xıdır İlyas.

«Arzu–Qəmbər» və «Əsli və Kərəm» dastanlarında saf, ülvi məhəbbət daşa dəyir. Gənclər sevgililərinə qovuşa bilmir, vüsala yetmir, məhv olurlar. Kərkük dolaylarında «qara sevgi dastanı» adlandırılan (70, 52) hər iki dastanda gənclərin qəbirləri arasından qaratikan çıxır, axirətdə də onları qovuşmağa qoymur. Hər iki dastanda qaratikanı kəsirlər yenidən göyərir (67, 75; 8, 120; 25, 32, 26, 31).

Göründüyü kimi, «Arzu–Qəmbər» Azərbaycan dastanları ilə qırılmaz tellərlə bağlıdır.

Doğrudur, Əta Tərzibaşı Azərbaycan folkloru ilə tanış olmamışdan əvvəl «Arzu–Qəmbər»in oğuz qrupuna mənsub başqa türkdilli xalqlarda nağıl kimi, kərküklülər arasında isə bayatılarla işləndiyinə görə dastanlaşaraq qadın məclislərində söyləndiyini və başqa ölkələrdə olan variantlardan tamamilə fərqləndiyini göstərmişdir (25, 3).

Görkəmli folklorşünas M.H.Təhmasib Kərkük bayatılarına həsr etdiyi məqaləsində iraqlı tədqiqatçının fikrinə haqlı etiraz etmişdir: «Görünür, cənab Əta Tərzibaşı bu sətirləri yazdığı zaman azəri bayatıları və «Arzu–Qəmbər»in Azərbaycan variantı ilə lazımi qədər tanış deyilmiş. Bu dastan bizdə də var. O, bayatılar üzərində qurulmuşdur. Beləliklə, biz bu formada da Kərküklə şərikik» (139, 203).

Demək lazımdır ki, tədqiqatçı İbrahim Daquqi də «Arzu–Qəmbər»i Türkman folkloruna aid edərək yazır: «Adətlərdən, dastanda keçən olaylardan anladıldığına görə, «Arzu ilə Qəmbər» bir türkman dastanıdır. Meydana gəlişi XVI və XVIII yüzilliklərdə Ağqoyunlu, yaxud Qaraqoyunlu Türkman dövlətləri zamanında, İraqda tamamlanmışdır. Bu mənzumədə əda və nəğmə olaraq türkman xarakteri vardır. Ötə yandan qəhrəmanların isimləri, türklərin və azərbaycanlıların qullanmadığı isimlərdəndir. Bu isimlər qızlara və oğlanlara çox verilən sevimli Türkman isimlərindəndir» (70, 164).

Tədqiqatçının bu mülahizələrinə ciddi etiraz etmək olar. Hər şeydən əvvəl, demək lazımdır ki, Qaraqoyunlu (1420–1468) və Ağqoyunlu (1468–1502) dövlətlərinin hakimiyyəti dövründə Azərbaycan və eləcə də Türkman folklorunu təmsil edən İraq azərbaycanlıları bir bayraq altında birləşirdilər (14, 103–104; 15, 54–55).

Başqa bir tərəfdən də Arzu və Qəmbər Azərbaycanda geniş yayılmış adlardandır.

Yeri gəlmişkən, qeyd edək ki, İbrahim Daquqi «Arzu–Qəmbər»in Daquq qəsəbəsində mövcud olan başqa bir variantından da söhbət açır. Bu variantda dastanın Şamaxı variantında olduğu kimi, Arzu ilə Qəmbərin heç bir qohumluğu yoxdur. Bu variantda da Şamaxı və Gəncə variantlarında olduğu kimi dastan xoşbəxt sonluqla bitir.

Bu variantda göstərilir ki, Arzunu toy edib bəy evinə apararkən Qəmbər:

Hey gedənlər, gedənlər,
Əyləncə toy edənlər
Kərəsin mən almışam
Ayranıydan gedənlər.

bayatısını demiş və bəyin adamları Arzunu ləkəli hesab edərək atası evinə qaytarmışlar. Beləliklə, Qəmbər Arzu ilə evlən-

mişdir. İbrahim Daquqi bunun zəif bir rəvayət olduğunu göstərir (70, 166) və Əta Tərzibaşının çap etdirdiyi variantın kamil olduğunu qeyd edir.

Doğrudur, dastanın Əta Tərzibaşının çap etdirdiyi variantında da buna bənzər bayatıya təsadüf edilir. Lakin bayatını Qəmbər yandığından deyir. Arzunu Tatın oğluna gəlin aparanda Qəmbər qarğış edir, sağ aşiq olduğuna görə heç kim atın başını tutub gəlini apara bilmir. Hamı Qəmbərdən xahiş edir ki, atın başını o çəkib aparsın. Qəmbər razılıq versə də, hirsindən, hiddətindən gözü yolu görmür, at dabanını ayaqlayır. Qəmbərin dabanından qan fışqırır, ayaqqabıları qanla dolur. Üzünü Arzuya tutub deyir:

Hannan sevgilim, hannan,
Məhəbbətim çıxmaz cannan.
Dizgününu çəkərək tut
Dabanım doldu qannan.

Arzu deyir:

Hannan Qəmbərim, hannan
Məhəbbətin çıxmaz cannan.
Dabanından gələn qan
Gəlsin mənim gözümnən.

Sağ aşiq olduğuna görə Arzunun gözündən yaş yerinə qan gəlməyə başladı.

«Tat buna qızdı. Qayınbaba bir qəmçi aldı əlinə, verdi Qəmbəri qəmçi önünə. Belə vurdu, belə vurdu, etdi özünü leş. Döndü Qəmbər yandığından dedi:

Tat oğlu, küləcə boy,
Etdin xan Arzuma toy,
Kərəsin mən almışam,
Ayranın başıva qoy.

Arzu qəhərləndi. Bu əmim oğlu məni çox sevərdi. İndi bu məxluqun içində mənə böhtan atdı. Dedi:

Hə eylədin, eylədin,
Altunu pul eylədin.
Sən mənə dəyməmişdin
Nişin böhtan eylədin?

Aldı Qəmbər:

Hə eylədim, eylədim
Altunu pul eylədim.
Hamsı ağac zorunnan
Sənə böhtan eylədim (25, 23–25).

Onu da demək vacibdir ki, kitabın əlyazması çap prosesində olarkən iraqlı tədqiqatçı-alim Əbdüllətif Bəndəroğlu «Arzu–Qəmbər»in Tuz Xurmatu variantını Nizami adına Ədəbiyyat İnstitutuna təqdim etmək üçün Bağdaddan Bakıya gətirdi. Ədəbi əlaqələrimiz yolunda bu variantın böyük əhəmiyyəti vardır.

Hər şeydən əvvəl, maraq doğuran o cəhətdir ki, əsərin bu variantında hadisələr Araz çayı sahilində cərəyan edir. Həyatın əzab-əziyyətlərinə dözməyən Qəmbər özünü Araz çayına atır. Arzu üzünü göylərə tutub kömək diləyir:

Quruyasan, ey Araz,
Əlimizdən düşdü saz.
Qəmbəri çay apardı,
Yetiş, ey Xıdır İlyas.

Dastanın Tuz Xurmatu variantında dördlüklərin – bayatıların sayı 31-dir. Bundan əlavə, bu variantda iki misralıq şeir parçalarına da təsadüf edilir. Məsələn:

Qəmbər: *Kəsmə gözləriy mənnən,*
Ayrılmaz ruhum sənnən.

Arzu: *Gözlərim ha səndədi,*
Səniy əşqiy məndədi və s.

Onu da qeyd edim ki, bədii cəhətdən daha kamil olan bu variant məzmunca dastanın Kərkük variantından fərqlənmir.

Demək lazımdır ki, bu dastan başqa türkdilli xalqların folklorunda da özünü göstərir. Tədqiqatçı S.Paşayev «Arzu–Qəmbər»in 1974 və 1975-ci illərdə toplanmış və 1980-ci ildə Daşkənddə Cəfər Bəkirovun çap etdirdiyi iki variantından söz açır (115, 16). Bu variantlarda Arzu ilə Qəmbərin heç bir qohumluq əlaqəsi yoxdur. Birinci variantda təkcə bir bayatı, neçə-neçə gəraylı, qoşma, qıfılbənd deyişmələr vardır. İkinci variantda bayatıların sayı çox olsa da, qoşmalar, qıfılbənd deyişmələr, yeni süjet və motivlərin əlavə olunması göstərir ki, bu variantlar sonralar yaranmışlar. Beləliklə, onlar qadın yaradıcılığından çıxaraq, daha geniş miqyas almış və aşıq-baxşı yaradıcılığına daxil olmuşlar. O ki, qaldı «Arzu–Qəmbər» dastanının Azərbaycan və Kərkük variantlarına, çəkinmədən demək olar ki, bu dastan Türkman folkloru da daxil olmaqla bütöv Azərbaycanın malıdır. Bir çox bayatılar, motivlər həm Şimali, həm Cənubi Azərbaycandan, həm də Kərkük dolaylarından bəhs edir:

Arzum endi bulağa,
Səsi gəldi qulağa.
Arzuya peşkəş olsun
Şirvan, Təbriz, Marağa.

Bundan əlavə, Arzunu zorla Tat oğluna vermək istəyəndə Qəmbərin Əcəm Şahının yanına gedərək kömək istəməsi və s. epizodlar da dediklərimizə dayaq olur.

Bu, belə də olmalıdır. Tədqiqatçı Əta Tərzibaşının «Yazı dili, qonuşma dili» adlı məqaləsində gəldiyi nəticə də dediklərimizi təsdiq edir: «İraq–Türkman ləhcəsi azəri ləhcəsinə türk ləhcəsindən daha yaxın və bəlkə, əkiz qardaşlar olmaqla bərabər, bu ləhcələr uzun bir tarix boyunca çeşidli səbəblərin təsiri ilə bir-birindən xəbərsiz olaraq gəlişdikləri halda, aralarında görkəmli fərqlər bilinməmişdir» (52a).

Təbii ki, burada söhbət bir dilli, bir folklorlu, müəyyən ictimai-siyasi səbəblər üzündən ayrı düşmüş bir xalqdan gedir.

Türkman folklorunun janrlar sistemini izlədikcə bir daha bu tarixi həqiqətin şahidi oluruq.

NAĞILLAR

Nağıllar Türkman folklorunda epik növün ən geniş yayılmış janrlarındandır. Evdən-evə, eldən-elə, dildən-dilə gəzən, xalqın həyata münasibətini, istək və arzularını, bəxt, tale, xoşbəxt həyat barədə dünyagörüşünü əks etdirən, xeyrin şər, haqqın haqsızlıq üzərində qələbəsini, ədalətin təntənəsini göstərən bu əvəzsiz incilər, təəssüf ki, elm və texnikanın sürətlə inkişaf etdiyi, «uçan xalçalar»ı təyyarələrin, kosmik gəmilərin əvəz etdiyi zəmanəmizdə öz mövqeyini əldən verməyə, unudulmağa başlamışdır. Nağılçılıq, nağıl söyləmək bir çox xalqlarda söyləniş tərzini dəyişərək səhnəyə, radio və televiziyaya ayaq açdığı, maraqlı nağıl filmlərinə çevrildiyi halda, Türkman folklorunda bir sənət kimi aradan çıxmağa başlamışdır. Halbuki son illərə qədər Kərkük dolaylarında nağılları uzun qış gecələri bir evə toplaşar, xalı və palazlar üzərinə buraxılan sinilərdə samovardan çay içər, kömür gözü ilə dolu manqal ətrafında qızınar və dinləyərdilər. Azərbaycanda olduğu kimi (126, 141) onları, əsasən, peşəkar nağılçılar danışardılar.

Kərkük dolaylarında gündüz nağıl söylənməz. Uşaqlara belə bir inam təlqin edilib ki, kim gündüz nağıl danışsa, nağıl

bitəndə çoxu çıxar, yəni başında buynuz bitər. Böyüklər arasında isə belə bir inam var ki, kim gündüz nağıl danışsa, parası pul (qəpik-quruş) olar, yəni müflisləşər (168, 153; 70, 61).

Müəyyən qismi toplanaraq çap edilən Türkman nağılları (168, 154–164; 109; 129, 100–131; 86, 145–162, 303–315), bir qayda olaraq, nağılın məzmunu ilə əlaqəsi olmayan pişrovla başlayır. Pişrovdan sonra giriş – başlanğıc gəlir. Lakin realist nağılların əksəriyyəti pişrovsuz filansız «Var idi, yox idi, bir avçı vardı», «Biri var idi, biri yox idi, darın dünyasında bir padşah var idi» və s. kimi başlayır.

Türkman nağılları aşağıdakı pişrovlarla başlanır:

«Biri var idi, biri yox idi, yalan, gerçəkdən çox idi. Yalanı doldurdular çuvala, dayadılar duvara. Gerçəyi qoydular meydan başına. Matal gəldi qapıya. Hartdan-hurtdan, sıxması qarpız qabığı, dügməsi turpdan. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərliğ edir əski hamam içində. Hamamın tası yox, peştamalın ortası yox. Köyümüzə tazı gəlib, onun da xaltası yox...»

Yaxud:

«Var idi, yox idi, yalan kerçəkdən çox idi. Yalanı doldurdular çuvala, dayadılar duvara. Gerçəyi qoydular qaba, asdılar qazuğa. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərliğ edir əski hamam içində. Hamamçının tası yox, peştamalın ortası yox. Birəyə vurdular palanı. Otuz iki yerdən çəkdilər kolanı.

Dedi: Eşq olsun! və ya Afərin! necə uydurdun bu yalanı...»

Və ya:

«Matal, matal mat atar, bir kişi xurma satar. Xurmanı gəti mən yeyim, görək kim borca batar. Hartdan-hurtdan, sıxması qarpız qabığı, dügməsi turpdan...»

Və ya:

Matal, matal, matına, şeytan mindi atına. Əlində qamçısını və ya quyruğunu dolandırdı, dolandırdı, çaldı filankəsin

(nağıl danışan məclisdə əyləşən bir dostunun və ya uşağın adını çəkir) suratına. Qamçıya qüvvət, Məhəmmədə salavat. Beləcə nağıl gəldi buraya....»

Demək lazımdır ki, pişrovda sözlərin axıcılığı, ahəngdarlığı əsas şərtdir. Pişrovlara türkdilli və eləcə də başqa xalqların nağıllarında da təsadüf edilir. Məsələn, rus dilində «priskazka» adı ilə tanınan pişrovlar vardır. Lakin Azərbaycan və Türkman nağıllarında olduğu kimi, onların nağılın məzmunu ilə heç bir əlaqəsi yoxdur.

Priskazka da pişrov kimi, oxucunun diqqətini nağıllar aləminə yönəltmək üçün istifadə edilən maraqlı kəşfdir.

«На море – Океане, на острове Биуане, стоит дерево – золотые маковки; по этому дереву ходит кот-баюн, вверх идет – песню поет, вниз идет сказки рассказывает. Это еще не сказка, а только присказка, сказка впереди будет».

Pişrovdan sonra isə nağılın başlanğıcı gəlir. Məsələn:

Hartdan-hurtdan, sıxması qarpız qabığı, dügməsi turpdan. Aman-zaman içində, qərbil saman içində, dəvə bərbərliğ edir, əski hamam içində. Var idi, yox idi, iki qardaş var idi və s. Başlanğıcda qəhrəmanın mənşəyi, hadisənin cərəyan etdiyi yer və s. qısa şəkildə nəql edilir:

«Biri var idi, biri yox idi, darın dünyasında bir padşah var idi», «Var idi, yox idi, bir avçı vardı», «Var idi, yox idi, Həsən adında bir odunçu var idi», «Biri var idi, biri yox idi, bir yəhərçi var idi», «Bir gün-günnərdə su çox axdı. Su axınca dünyanı fəyazan etdi. Əldə qaldı bir dağ. O dağda bir tülkü, bir aslan, bir qatır qaldı», «Var idi, yox idi, bir keçəl var idi», «Var idi, yox idi, darın dünyasında bir keçiynən bir qoyun var idi», «Var idi, yox idi, darın dünyasında bir inad xoruz var idi», «Var idi, yox idi, darın dünyasında bir keçiynən bir qurd varıydı» və s.

Nağılın ortasında Azərbaycanda olduğu kimi, İraq–Türkman folklorunda da nağılçı uzun bir məsafənin qısa keçildiyini göstərmək üçün:

Dedi: «Ya Əli, sənə mədəd. Yel kimin dərə, təpə, düz bilmədi, keçdi», «Az getdi üz getdi, dərə, təpə düz getdi...» Və ya: «Az gedər, üz gedər, dərə, təpə düz gedər...»

Və ya: «Dərələrdən sel kimin, təpələrdən yel kimin keşdi» və s. kimi ifadələr işlədir.

Mətləbin üstünə gəlmək üçün uzun sözün qısası mənasına gələn «Nə başınızı ağrıdım» – deyərək nağılda söhbəti gedən qızın gözəlliyini uzun-uzadı tərifləmək əvəzinə «Gəl məni gör, dərdimnən öl» və ya «Aya deyir sən bat, mən çıxım» və ya «Elə gözəl, elə gözəl, Şam şamaması, Əcəm alması» kimi ifadələrdən istifadə edilir. Əlçatmaz, ünyetməz, çox qorxulu bir yeri təsvir edərkən nağılçının: «Quş getsə qanad tökər, qatır getsə dırnaq tökər», acıqlı bir məxluqu göstərmək üçün «Bir dodağı yer süpürür, bir dodağı göy» deməsi kifayət edir.

Dinləyicilər hərdənbir «şəkər ye, şəkər ye», yəni gözəl danışırsan, davam et, – deyə nağılçını ruhlandırırlar.

Nağılın maraqlı yerinə, kulminasiya nöqtəsinə çatanda, müsbət qəhrəman dardan qurtaranda, istəyinə çatanda dinləyicilər deyirlər: «Darı başımıza», yəni bizim də işimiz belə uğurlu olsun, biz də istəyimizə çataq, murada yetək.

Qeyd etmək lazımdır ki, Türkman folklorunda nağılların sonluğu çox rəngarəng və maraqlı olur. Məsələn: «Mən də getdim, əlimə bir şey düşmədi», «Mən də getdim, mənə bir şey vermədilər. Bəlkə, siz verəsiniz», – deyə nağılçı üzünü nağıla qulaq asanlara çevirir. Və ya: «Matal bitdi, ağzımı kimsə şirin etmədi. Bəlkə, siz edəsiniz». Və ya: «Fitnə-fəsaddan xilas oldular. Əvvəlki kimi şad-xürrəm yaşadılar. Siz də şad olasız. Mənim bir nəsnəm yoxdu, mən şad olmam. Bəlkə, siz bir nəsnə verib məni şad edəsiz». Və ya: «Qırx gün qırx gecə toy etdilər. Şadlıqla yaşadılar. Siz də şad olasız. Darı başınıza. Toya mən də getmişdim. Başları qarışmışdı. Ağzımı şirin edən olmadı. Bəlkə, siz edəsiniz» Və ya: «Qırx gün qırx gecə toy etdilər. Şəkərlər paylandı, sevinclər oldu. Mən də getmişdim mənə bir şey düşmədi».

Və ya: «Havadan üç alma düşdü. Biri matala, biri matal deyənə, biri də Qədriyyəyə».

Və ya: «Göydən üç alma düşdü. Biri mənim, biri Əlinin, biri də nağıl söyləyənin».

Maraqlıdır ki, Qədriyyə də, Əli də elə nağıl söyləyən özüdür (129, 99). Nağılçı öz adını nağılın bu məqamında, bu formada çəkməklə, bir yandan nağılın gedişində yaranmış gərginliyi azaldır, dinləyiciləri güldürür, digər tərəfdən də gözlədiyi təmənnaya işarə edir.

Əgər nəzərə alsaq ki, bir çox xalqlarda indinin özündə belə müəyyən bir peşəni özünə sənət etmiş adamlar, istər müğənni, istər rəqqasə, istər musiqiçi, istər masabəyi, istər pəhləvan, istər kəndirbaz, istər gözbağlayıcı və ya başqa sənət sahibləri olsun, mütləq, zəhmətləri müqabilində əmək haqqı təmənnasında olurlar. Belə olan halda, keçmişdə xüsusi nağılçıların zəhmət haqqı diləməsi təəccüb doğurmamalıdır.

Bizcə, nağılları bəzəyən, onların bədii və emosional təsirini artıran, onları rövnəqləndirən belə ifadə vasitələrinin çoxu, nağıl bitəndə nağılçılara müəyyən hədiyyələrin verilməsi ilə bağlıdır.

Demək lazımdır ki, Türkman nağılları nə pişrov, nə başlanğıc, nə nağılın ortasında, nə sonunda işlənən obrazlı ifadə və oynaq cümlələrə görə Azərbaycan nağıllarından fərqlənirlər (123, 37–49; 68, 127–128). Hətta gündüz vaxtı «nağıl söylə» deyə anasını təngə gətirən uşağa anası Azərbaycanda olduğu kimi cavab verir və başından edir:

– Əli, Vəli, Pirvəli, dördü də ondan irəli. Damda yatan, pambuq atan, bez satan, bir də sənin rəhmətlik atan. Oğlum, əlim xamırdadı, ha buncası yadımdadı.

Kərküklü tədqiqatçı Sübhi Saatçı royat adlanan (52d) bu deyimin bəzən uşaqların bir-birini acıqlandırmaq, cırnatmaq üçün «Yeri hey, on bir kişiyə varan nənəli!» sözləri ilə əlaqədar yarandığını göstərir. Tədqiqatçı qeyd edir ki, bəzən uşaq-

lar deyilənlərə inanır və analarının yanına qaçırlar, anaları isə zarafatla yuxarıda sadaladığımızı söyləyir (129, 45–46).

Mövzu, ideya, məzmun, təsvir vasitə və üsullarına görə müxtəlif və rəngarəng olan Türkman nağıllarını aşağıdakı kimi qruplaşdırmaq olar: heyvanlar haqqında nağıllar, sehrli nağıllar, tarixi nağıllar, ailə-məişət nağılları.

Qeyd etmək lazımdır ki, təxəyyül və fantaziya Türkman folklorunda da Azərbaycan folklorunda olduğu kimi, bu və ya digər dərəcədə bu qruplara daxil olan nağılların, demək olar ki, hamısını əhatə edir.

HEYVANLAR HAQQINDA NAĞILLAR

Heyvanlar haqqında olan nağıllar Türkman folklorunda çox geniş yayılmışdır. Bunların arasında uşaqların yaş xüsusiyyətinə, psixologiyasına uyğun yaradılmış nağıllar daha çoxdur. Süjeti çox sadə, yığcam, dili anlaşıqlı olan bu nağıllarda insana məxsus cəhətlər heyvanların üzərinə köçürülür. Bu nağılların əksəriyyətində heyvanlar insan kimi danışırlar.

Başqa növ nağıllarda olduğu kimi, alleqorik nağıllarda da əsas məqsəd uşaqlarda və gənclərdə qorxaqlıq, paxıllıq, xəyanət, kələk, hiylə, tənbəllik, acgözlük və s. kimi mənfi keyfiyyətlərə qarşı ikrah hissi oyatmaq, onlarda dostluq, mərdlik, qorxmazlıq, dəyanət, səxavət, əməyə məhəbbət, böyüklərə hörmət, onların məsləhətlərinə qulaq asmaq, danışanı dinləmək qabiliyyəti, danışanın sözünü kəsməmək, rəvan və şirin danışmağı bacarmaq və s. kimi müsbət keyfiyyətlər aşılamaqdır.

Bu nağıllarda aslan, qurd, qoyun, keçi, xoruz, tülkü, dovşan, tısbağa, at, çaqqal, toyuq və s. heyvan surətlərinə tez-tez rast gəlinir. Onların süjet xəttində əsas yeri yemək uğrunda mübarizə tutur. Bu mübarizə müxtəlif gülməli üsullarla verilmişdir.

Alleqorik nağılların bir çoxu Azərbaycan nağıllarından seçilmir. Məsələn, «Şəngülüm, Şüngülüm, Məngülüm» nağılı

Kərkük dolaylarında «Titlə–Bitlə», «Xoruzla padşah» – «İnad Xoruz», «Dovşan» – «Keçəl oğlan», «Davzanqurdu və siçan Solub bəy» – «Davzanqurdtağı», «Yının nağılı» – «Qurdla qoyun» nağıllarından, demək olar ki, fərqlənmir. Az-çox seçilən «Qurdla qoyun» nağılındakı şeirlərdir. Nağılın qısa məzmunu belədir. Qurd acmışdı. Birdən çöldə qoyunla keçiyə rast gəlir. Deyir: – Qoyun qardaş, səni yeyəcəm. Qoyun deyir ki, hazır durmuşam önündə, ye məni. Ancaq bir ricam var, qoy önündə bir az oynayım, sonra ye məni.

Qurd razı olur.

Qoyun o yana atlandı, bu yana atlandı, o yana qaçdı, bu yana qaçdı. Sağdan sola, soldan sağa qaçdı. Elə etdi, belə etdi. Qaçdı getdi. Qurd gördü qoyun qaçıb aradan çıxıb.

Dedi: – Keçi qardaş, səni yeyəcəyəm.

Keçi dedi: – Ye məni. Ancaq qoy orada iki balam var, onları da gətirim, hamımızı ye, doy.

Qurd razı oldu. Keçi də qaçıb getdi.

Qurd baxdı bir at var: – At qardaş, səni yeyəcəm.

At dedi: – Sən mən boyda bir atı necə yeyərsən? Mən də istəyirəm məni yeyəsən. Məni necə yemək barədə baratım nalımın içində yazılıb, oxu, sonra məni ye.

– Qaldır baxım, – deyərək qurd əyildi ki, oxusun.

At ayağını qaldırmağı ilə qurdun başına təpik vurmağı bir oldu. Qurd yıxılıb can verməyə başladı və zarıltı ilə oxudu:

Getdin gördün bir qoyun,
Ye qalsın quru boyun.
Neynirdin oyun-moyun
Pəhlivannığ edəcəydin?

Getdin gördün bir at,
Ye, yanaşasında yat.
Neynirdin barat-marat
İstanbula gedəcəkdin?

Göründüyü kimi, misra və beytlər dərin mənası və nağılın məzmunu ilə uzlaşmasına görə fərqlənirlər. Belə parçalar nağılların daha təsirli, daha maraqlı olmasına kömək edir.

Heyvanlar haqqında nağıllarda ən çox rast gəlinən hiyləbazlıq rəmzi olan tülküdür. Tülkü Türkman folklorunda da müxtəlif fəndlərə, hiylələrə əl ataraq ən çətin vəziyyətdən belə çıxır. Bu baxımdan «Tülkünün hiyləbazlığı» və «Mənim ömrüm nalımın içində yazılıb» nağılları maraq doğurur. Azərbaycan nağılları arasında təsadüf edilməyən hər iki nağılda tülkü dondan-dona girir, yeri gəldikcə məkr işlədir, nəinki vəziyyətdən çıxır, eləcə də başqalarını çıxılmaz və ya gülməli vəziyyətdə qoyur.

«Tülkünün hiyləbazlığı» nağılında nəql edilir ki, bir ormanlıqda aslan, qaplan, qurd, tülkü, çaqqal, dovşan, tısbağa yaşayırdılar. Bir gün ormanlıqda su quruyur. Hamısı axtarar, axtarar bir yerdə bir bulaq gözü görərlər. Ətrafını qazar göl edərlər. Lakin tülkü kömək etməz. Belə qərara gələrlər ki, hər gün biri gözətçilik etsin, tülkünü su içməyə qoymasınlar. Əvvəlcə dovşan gözətçi olur. Tülkü gəlir ki, ay dovşan, odur, orda kələm və kök tökülüb qalıb. Nə durmusan? Dovşan o yana gedən kimi tülkü su içib qaçar. Səhərisi gün tülkü tısbağanı aldadır ki, odur təpənin o tərəfində arpa göyərib. Yenə su içib qaçır.

Heyvanlar qərara gəlirlər ki, tülkünü tutub cəzalandırsınlar. O biri gün gözətçi olan heyvan tülkünün başını qatır ki, qoymaram su içəsən və s. Bu vaxt tülkünü arxadan tuturlar. Qərara gəlirlər ki, tülkünü öldürsünlər. Özü də yırğalaya-yırğalaya, əzab verə-verə öldürsünlər. Tülküdən ölüm qabağı arzusunu sorurlar.

Tülkü deyir ki, günahı çoxdur. Əzabla ölümə layiqdir. Lakin arzu edir ki, quyruğuna və bədəninə bir az yağ sürtsünlər ki, yırğalamaq çox zəhmət verməsin. Razı olurlar. Tülkünün quyruğuna və bədəninə yağ sürtürlər. Qurd tülkünün quyruğundan yapışıb dolandırmağa başlayan kimi tülkü qurdun əlindən çıxır və qaçıb gedir. Hiyləbaz tülkü bu dəfə də heyvanları aldadır.

Təbii ki, bu nağılın əsas qayəsi yalnız tülkünün hiyləbazlığını göstərmək deyil, eyni zamanda heyvanlar haqqında, onların yaşayışı, xasiyyəti barədə məlumat vermək, hansı heyvanın hansı bitkini daha çox sevdiyi, hansı yeməklərə meyil etdiyini, hansı heyvanın daha güclü olduğu barədə uşaqlara məlumat vermək, onların dünyagörüşünü inkişaf etdirməkdir.

«Mənim ömrüm nalımın içində yazılıb» nağılı da öz səciyyəvi xüsusiyyətləri ilə seçilir.

Nağılda nəql edilir ki, günlərin birində dünyanı su basır. Bir dağda bir aslan, bir tülkü, bir də bir at qalır.

Aslanla tülkü aclıqdan günü-gündən arıqlayırlar. At isə otdan yeyir, get-gedə kökəlir. Aslanla tülkü atı necə yemək barədə fikirləşir. Çox götür-qoy edirlər. Belə qərara gəlirlər ki, atı aldatsınlar. Deyirlər ki, kimin yaşı azdır, onu yeyəcəklər. At razı olur.

Tülkü aslandan soruşur ki, yaşı nə qədərdir. Aslan cavab verir ki, Nuhun düzəltdiyi gəmiyə minib. Tülkü başlayır ağlamağa. Baba, niyə ağlayırsan? Ağlamayım neyləyim? Yadıma cavanlığım düşdü. Nuh gəmi düzəldəndə, mən o gəmidə dülgər işləmişəm. Deməli, tülkü aslandan da böyük oldu.

Atdan yaşını soruşanda, at cavab verir ki, yaşı dal ayağının nalının içində yazılıb. Tülkü atın nalına baxmaq istəyəndə atın fikrini duyur və geri durur.

Aslana deyir ki, farsca yazılıb, oxuya bilmir. Aslan acıqlanaraq atın arxasına keçir ki, oxusun.

At ayağını qaldırmağı ilə aslana elə bir təpik vurur ki, aslanın beyni dağılır. Tülkü özünü rahatlayıb aslanın ətindən yeyəndə:

– Sənin atan farsca oxumuşdu, yoxsa anan, özün öz qanına girdin, ey ağılsız? – deyir.

Göründüyü kimi, nağılda bir yandan keçmiş haqqında təsəvvür yaranır, heyvanlar haqqında uşaqların təəssüratı dəqiqləşir, başqa bir tərəfdən də onlara ibrət dərsi verilir.

Burada heyvanlar haqqında Türkman nağıllarını Azərbaycan nağılları ilə doğmalaşdıran bir mühüm cəhətdən danışmamaq mümkün deyil. Kərkük dolaylarında da, Azərbaycanda da heyvanlar haqqında olan bütün nağıllarda heyvanlar bir-biri ilə danışır, vuruşur, küsüşür, dostluq və düşmənçilik edirlər. Bunlar müəyyən boyalarla, heyvanlara məxsus bir əda ilə yerinə yetirilir ki, bu da nağılın maraqlı olmasına, bədiiliyinin artmasına xidmət edir (123, 31).

Bu nağılların bir çoxu dialoq şəklində qurulmuşdur. «Qurdla qoyun», «Titlə–Bitlə», «Keçəl oğlan», «Keçəl oğlan matalı», «Davzanqurtağı», «İki keçəl», «Tülkünün hiyləbazlığı» belələrindəndir. Nağılların dialoq şəklində qurulması nağılın daha maraqlı olmasına kömək edir.

Bu nağıllar kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulduğundan onların dilinə, məzmununa, fikir aydınlığına xüsusi fikir verilmişdir. Onlar çox sadə və anlaqlı dildə yaradılmışlar.

SEHRLİ NAĞILLAR

Məlumdur ki, müəyyən ictimai mərhələdə təbiət hadisələrinə və eləcə də əhatəsində olan mühitə münasibətində xeyirlə şərin daimi mübarizəsi insanın diqqət mərkəzində olmuşdur. Demək lazımdır ki, ümumbəşəri olan bu mübarizə Türkman sehrli nağıllarında bariz şəkildə özünü göstərir. Xalqın bədii-fəlsəfi təfəkkürünün məhsulu olan bu nağıllarda fitnə-fəsad, xəyanətkarlıq, paxıllıq, yalan, kələk, pislik və s-dən ilham alan qara qüvvələr, əsas qayəsi xeyirxahlıq, yaxşılıq, doğruçuluq olan xeyirxah qüvvələrə qarşı durur. Əsasını xariqüladə qüvvələr təşkil edən bu nağıllarda çox uzaq keçmişlərlə bağlı olan adət və ənənələrin izlərinə belə rast gəlmək olur. Qədim təsəvvürlərə görə sehrli nağıllarda heyvanlar istədikləri vaxt dönüb insan ola bilirmişlər. Türkman nağıllarında, eyni zamanda heyvanlar da başqa heyvan və quş şəklinə

düşə bilirlər. Kərkük sehrli nağıllarında insanların da quş və ya heyvan cildinə girdiyini müşahidə etmək olur. Bu təsəvvürün qalıqlarına «Xayin vəzir», «Sas tovuğun təlnəgi», «Odunçu qızı», «Əhməd və sehrkar sahibi» kimi sehrli nağıllarda təsadüf edilir. «Əhməd və sehrkar sahibi» nağılı, «Oxxayın nağılı» Azərbaycan sehrli nağılından fərqlənmir. Nağılın həm Kərkük, həm də Azərbaycan variantlarında sehrbaz Əhmədə tilsim və sehrləri öyrədir. Sehrbazın qızı Əhmədi sevir, Əhməd də onu sevir. Qız Əhmədi başa salır ki, əgər sehr və tilsimləri yaxşı bildiyini sehrbaza nümayiş etdirsə, sehrbaz onu məhv edəcək. Odur ki, Əhməd özünü avamlığa vurur, heç nə yadında qalmadığını deyir. Sehrbaz ona inanır və sağ-salamat buraxır. Lakin tezliklə aldandığını başa düşür. At donuna girmiş Əhmədi atası bazarda satarkən alır. Əhmədin atası yadından çıxararaq atı yüyənlə satdığına görə Əhmədin tilsimi gücdən düşür. Çünki sehrbaz yüyəni əlindən bir an belə buraxmır. Atı sarayına gətirir ki, öldürsün. Sehrbazın qızı məsələnin nə yerdə olduğunu anlayır. Sehrkar balta dalınca evə gedəndə qızı atın yüyənini boşaldır və beləliklə, Əhmədin gücü özünə qayıdır. Usta-şagird arasında mübarizə başlayır. Hər cür heyvan, quş və s. şəkillərinə düşürlər. Axırda Əhməd qalib gəlir və sevgilisi ilə qovuşur.

«Xayin vəzir» nağılı isə Azərbaycan folklorunda önəmli yer tutan «Sehrkar padşahla, sehrkar vəzir» nağılına çox yaxındır (12, 277–279; 86, 145–147). Lakin, bizcə, Kərkük nağılı dilinin şirinliyinə və məzmununa görə daha maraqlı və inandırıcıdır. Nağılda deyilir ki, günlərin birində sehr və tilsimi gözəl bilən Mahmud padşahla vəziri ova çıxırlar. Bir ceyran ovlayaraq saraya dönürlər. Padşah öz qüdrətini vəzirinə göstərmək üçün tilsim oxuyur və ceyran donuna girir. Sonra yenidən tilsim oxuyur və əvvəlki şəklinə düşür.

Heyrətə gələn vəzir padşaha çox yalvarır ki, həmin sehri ona da öyrətsin. Padşah ehtiyatı əldən verərək tilsimi ona öyrədir. Aradan həftələr, aylar keçir. Bir gün yenə də adətləri

üzrə ova gedirlər. Padşah bir yaşılbaş sona vurur. Vəzir al dil ilə padşahı tilsim oxuyub sona şəklinə girməyə sövq edir. Padşah sona şəklinə girən kimi, vəzir tilsim oxuyaraq padşahın şəklinə girir və sonanı öldürmək istəyir. Sona şəklinə girmiş padşah meşənin qalınlığına qaçıb canını zorla qurtarır. Bu vaxt yuvasında ölmüş bir göyərçin görür. Tilsim oxuyaraq göyərçin şəklinə girir. Vəzir isə padşah sifətində saraya dönür və padşahlıq edir. Padşahın arvadı ərinin hərəkətlərindən şübhələnir. Fikir onu götürür. Qüssədən üzü gülmür. Padşah şəklinə girmiş vəzir nə qədər çalışırsa, ona yaxınlıq edə bilmir.

Padşahın arvadı fikirli-fikirli pəncərədən bayıra baxırdı. Birdən pəncərəyə bir göyərçin qondu və danışmağa başladı. Fatma ərinin səsini tanıdı. Mahmud başına gələni arvadına danışdı və ona məsləhət verdi. Padşahın arvadı padşah şəklinə girmiş xayin vəzirin arxasınca adam göndərir ki, axşam süfrə açacaq. Əhvali-ruhiyyəsi yaxşıdır. İntizarla onun yolunu gözləyəcək.

Vəzir axşamın düşməsini səbirsizliklə gözləyirdi.

Fatma bəzənib-düzənmiş, şirin dilini işə salmışdı. Fatma dedi ki, padşah əvvəllər tilsim oxuyar, xoruz şəklinə düşərdi. Deyər-gülər, Fatma vaxtaşırı onu bürüyən üzüntülərdən xilas olar, məhəbbəti aşıb daşardı. Əks təqdirdə ərinə nəvaziş göstərə bilməzdi.

Vəzir heç nədən şübhələnmir, qapıçılardan göndərir toyuq hinindən bir xoruz gətirib kəsirlər. Vəzir tilsim oxuyub xoruz şəklinə düşən kimi Fatma gülə-gülə onu qucaqlayır. Göyərçin şəklində olan Mahmud da tilsim oxuyub, əvvəlki şəklinə düşür. Fatmanın qolları arasında xoruz sifətində qalan xayin vəziri öldürürlər.

Bu nağılda ən çox diqqəti cəlb edən rəmz məsələsidir. Azərbaycan nağıllarında göyərçin məhəbbət, xeyirxahlıq, xoş xəbər rəmzidir (123, 32). Nağıldan göründüyü kimi, bədii obraz olan göyərçin Türkman folklorunda da məhəbbət və xoş xəbər rəmzidir. «Xayin vəzir» nağılının başlıca qayəsi ondan

ibarətdir ki, nağılda gənclərə dostluqda sədaqətli, vəfalı olmaq kimi nəcib hislər aşılanır, şöhrətpərəstlik, xəyanət və s. pislənir.

Sehrli nağıllardan «Odunçu qızı» və «Sas tavuğun təlnəgi» nağıllarına çap olunmuş Azərbaycan nağılları arasında təsadüf edilmir.

«Odunçu qızı» nağılında odunçu Həsənin gözəl qızı Gülşən tilsimə düşmüş gənc əri Baznadanı öz vəfası ilə xilas edir. Hər cür cəfaya dözür, mətanət göstərir. Nağıldan belə məlum olur ki, on il müddətində bir gün belə Gülşən ərini yada salmasa, göz yaşı tökməsə əri məhv olacaqmış.

Tilsimdən xilas olan Baznadan həmin əvvəlki məlahətli səslə Gülşənə deyir: «Sənin məhəbbətin məni tilsimdən xilas etdi. Əgər on ildə bircə gün də mənim haqqımda düşünməsəydin, mən məhv olmalı idim» (86, 154).

Bəzi Azərbaycan nağıllarında olduğu kimi, «Odunçu qızı» nağılında da cadu, tilsim vasitəsilə bir anda xariqüladə hadisələr baş verə bilir. Bir anda odunçu Həsənin kasıb daxmasının yerində padşahların həsəd aparacağı bir imarət qurulur, xidmətçilər əmr gözləyirlər. .

Lakin bu nağıldakı və eləcə də başqa sehrli nağıllardakı tilsim və sehr heç də dini, mistik xarakter daşımır. Bu tilsim və cadular xalqın arzu və istəklərini ifadə edir.

Sehrli nağıllar, əsasən, real həyatı əks etdirir. Elə «Odunçu qızı» nağılında da, hər şeydən əvvəl, diqqəti cəlb edən cəhət budur.

Gülşən nə qədər qənirsiz gözəlliyə malik olsa da, «Altun saçlı, qara qaşlı, xumar gözlü Gülşən, «Aya deyir sən bat, mən çıxım, gözəl olsa da, elə bil onu görən yox idi» (86, 151). Çünki yoxsul bir kişinin qızı idi.

Nağılda diqqəti cəlb edən ənənəvi bir xüsusiyyət də vardır. Gülşən oğlanı nə qədər çox sevsə də, oğlanın təklifinə: «Mən qarışmam. Babam kimə versə, ona varram», – deyə cavab verir (86, 151).

Göründüyü kimi, «Odunçu qızı» nağılında da başqa sehrli nağıllarda olduğu kimi, fantaziya arxasında həqiqi real həyat durur. Bu nağıl bir daha göstərir ki, nağıllar nə qədər qədim olsalar da, bu gün belə öz əhəmiyyətini itirmir, həyatla səsləşirlər.

«Sas tavuğun təlnəgi» bir çox xüsusiyyətlərinə görə məşhur Azərbaycan nağıllarını andırsa da, bu nağıl tamamilə fərqlənir (86, 147–150).

«Sas tavuğun təlnəgi Türkman folklorunda sehrli nağılların ən yaxşı nümunəsi hesab edilə bilər.

Nağılda göstərilir ki, bir gün meşədə ov edən ovçunun qabağına külək bir quş lələyi salır. Ovçu ömründə belə gözəl bir şey görməmişdi. Onu xəstə yatan padşaha aparır. Lələk padşahın çox xoşuna gəlir. O saat ağrıları azalır. Ovçuya çoxlu ənam verirlər. Loğmanlar deyirlər ki, padşahın xəstəliyinin dərmanı həmin quşun ətidir. Padşah onun ətindən yeyən kimi sağalacaq. Vəzir ovçuya üç gün vaxt verir ki, lələyin hansı quşa mənsub olduğunu və harada yaşadığını öyrənsin. Yoxsa boynu vurulacaq.

Ovçu kor-peşman evə dönür. Anası məsələdən hali olduqda onu məsləhət üçün babasının yanına göndərir. Bir neçə aylıq uşaq kimi pambığa bükülüb zənbildə saxlanılan iki yüz yaşlı baba dedi: «Oğlum, qəm yemə, bu xəfif bir işdir. O gözəl lələk Sas tavuğundur. Tavuğ Günçıxan padşahına məxsusdur».

Ovçu sevinə-sevinə padşahın sarayına gəlir. Padşah məclis qurur və quşu necə əldə etmək barədə məsləhətləşir. Padşahın hər üç oğlu ayağa qalxır ki, quşu biz gətirərik.

Yola hazırlıq görülür. Şahzadələr yola düşürlər: «Yel kimin dərə-təpə, düz bilmir, keçirlər. Az gedir, üz gedir, dərə-təpə düz gedir, gəlir iki yol ayrılığına olaşırlar.

Bir yolda «gedər-dönər», o biri yolda «gedər-dönməz» yazılmışdı. Böyük qardaşlar «gedər-dönər» yolunu seçərlər, ki-

çik qardaş «gedər-dönməz» yolunu tutar. Kiçik qardaş yolda aclıqdan-susuzluqdan çox əziyyət çəkər. Amma quşları ovlamaz, vəhşi heyvanlara toxunmaz, bir tülkünü tozaxdan xilas edər. Bulaq başında heybəsində qalmış əl boyda quru çörəyi çıxarıb su ilə yemək istəyəndə həmin tülkü qarşısında dayandı və şahzadə ilə insan kimi danışdı. Ac olduğunu bildirdi. Şahzadə çörəyi tülkü ilə böldü. Məlum oldu ki, şahzadənin qarşısında duran tülkü donuna girən bir pəridir.

Pəri şahzadəni evinə aparır. Sonra Günçıxan padşahın məmləkətinin yolunu göstərir və ona bir neçə tük verir ki, dara düşsə, tükün birini yandırarsa, kömək üçün özünü yetirəcək.

Şahzadə gecə-gündüz yol gedir, nəhayət, Günçıxan padşahın sarayına çatır.

Padşah deyir ki, Kor Kosranın atını gətirsə, Sas tavuğu ona verər. Şahzadə tülkünün yanına dönür. Tülkü Şahzadəyə bələdçilik edir. Başa salır ki, filan mağaranın qabağında ayaqları bağlı at görəcəksən, onda mağaraya gir, Kor Kosra divi yatmış görəcəksən. Onun ayaq və dizlərini övkələrsən, oyanacaq.

Şahzadə tülkünün dediyi kimi etdi. Div oyandı, mırıldandı: «Bəxtin onda gətirib ki, diz və ayaqlarımı övkələyibsən. Yoxsa səni yeyərdim. Neçin gəlibsən, söylə».

Şahzadə başına gələni danışdı.

– Sevgilim Gülzarı düşmən divlər qaçırıblar, onu gətirsən atımı verrəm sənə. Şahzadə qəmli halda mağaranı tərk edir. Tülkünün tükünü yandırır. Tülkü şahzadəni anladır. Şahzadə beş təpə arasındakı quyunun başına gələr.

Gülzar deyə qızı çağırar. Qız tilsimli olduğundan «Qıçlarına qədər daş olasan» deməsi ilə şahzadənin qıçları daşa dönər. Sonra qurşağa qədər, sonra isə tam daş olar.

Pəri tülkünün bacısı bir könüldən min könülə şahzadəyə vurulduğundan onu izləyirdi. Tez bir ovuc torpaq götürür, til-

sim oxuyur və daş olmuş şahzadənin üstünə atır. Şahzadə dönür olur əvvəlki kimi. Pəri Şahzadəni başa salır ki, quyuya yaxınlaşanda, «Gülzar çıx, köynəyini gətirmişəm» – desin. Lakin Gülzar boynundakı tilsimli gərdənliyi dışarı atmamış köynəyi ona verməsin. Şahzadə belə də edir. Şahzadə Gülzarı görəndə bayılmaq dərəcəsinə gəlir. Gülzar çox gözəl idi.

Şahzadə Gülzarı da götürüb Pəri tülkünün evinə gəlir. Pəri görür ki, şahzadə Gülzarı sevir. Kor Kosradan atı almaq üçün Gülzarı aparıb ona vermək ağır olacaq. Odur ki, Pəri şahzadənin yaxşılığını, onu ölümdən qurtardığını gözünün önünə gətirərək şahzadə ilə Kor Kosranın yanına özü gedir. Divin qəsrinə yaxınlaşanda özünü Gülzara bənzədir. Şahzadəni başa salır ki, atın cilovunu almamış onu Kor Kosraya təhvil verməsin. Şahzadə elə də edir. Ata minib Pərinin evinə dönür. Pəri bir azdan tülkü donuna girir. Kor Kosra aldandığını görüb qeyzlənir. Tülkünün dalınca qaçır ki, onu tutub parçalasın. Acığından gözü görmür. Qəsrdən düşüb ölür.

Pəri evinə dönür. Görür ki, şahzadə Kor Kosranın atından da ayrılmaq istəmir. Odur ki, Günçıxan Padşahın sarayına da şahzadə ilə özü gedir. Saraya yaxınlaşanda at donuna girir. Qəsr, önündə Pəri əsl at kimi kişnər, qabağına çıxanları parçalar. Padşah inanır ki, illərlə istədiyi arzuya çatıb. Sas tavuğu şahzadəyə verib yola salar.

O biri gün bir nəfər pəhləvanı ata mindirir, çapmağına tamaşa edir. At pəhləvanı bir ağaca vurur, özü də qaçır evə gəlir.

Şahzadə Pəriyə necə təşəkkür etməyə söz tapmır. Pəri kiçik bacısını da şahzadəyə verir. Şahzadə Pəri ilə halallaşıb yola düşür. Günlərlə yol gedir və həmin yol ayrıcına gəlir. Bir karvanla rastlaşır. Şahzadə padşahdan hal-əhval tutur. Tacir ağlayır. Deyir ki, padşahın üç oğlunun gedib geri dönməməsi onun halını daha da pisləşdirmişdir.

Şahzadə «gedər-dönər» yolu ilə gedib qardaşlarından bir xəbər tutmaq qərarına gəlir. Bir şəhərdə qardaşlarının ka-

babçı şagirdi işlədiyini görər. Qardaşları onu tanımazlar. Kiçik qardaş onları yanında xidmətçi götürər və məmləkətinə dönər. Yolda onlar kiçik qardaşlarını tanıyarlar. Paxıllıqdan onu bir quyuya atıb, var-dövlətini alıb saraya gələrlər. Kor Kosranın atı yolda onların əlindən çıxıb qaçır və quyunun başına gəlir. Elə kişnəyir ki, yer-göy titrəyir. Şahzadə ayılır. Tülkünün tükünü yandırır. Pəri tülkü hazır olur və onu xilas edir.

Şahzadə ata minib padşahın sarayına gəlir. Görür ki, şəhərdə böyük şadlıqdır. Hər yanda padşahın iki qəhrəman oğlunun Sas tavuğu gətirdiyini, padşahın sağaldığını, Gülzar və Kiçik Pəri üçün toy etdiklərini danışırdılar.

Şahzadə çox əsəbiləşir. Meydanda yarış keçirirdilər. Şahzadə Kor Kosranın atını meydana sürür. At bir anda bir neçə at başı qoparır. Padşah şahzadənin kim olduğunu və məqsədini soruşur.

Şahzadə deyir ki, iki qulu bu şəhərə gəlib, onların dalınca gəlib. Padşah onların nişanlarının olub-olmadığını soruşur. Şahzadə deyir ki, damğaları vardır.

Hamını yoxlayırlar. Lakin damğalı adam tapa bilmirlər. Şahzadə deyir ki, iki nəfər də qalıb. Padşahın oğlanları kiçik qardaşlarını görən kimi ayağına düşüb, üzr istəyirlər. Məsələdən halı olan padşah böyük oğlanlarını ölkədən qovur. Kiçik şahzadəyə qırx gün toy edir.

Xeyir şər üzərində qələbə çalır.

Xalq fantaziyasının gözəl bədii nümunəsi olan «Sas tavuğun təlnəgi» sehrli nağılında haqqın, ədalətin təntənəsi parlaq şəkildə öz ifadəsini tapmışdır.

Bu nağıl bir çox motivlərinə, xüsusiyyətlərinə görə Azərbaycan nağılları ilə səsləşir.

«Dünya gözəllik kraliçası» Türkman nağılında kor olmuş atasının gözlərinin əlacı olan torpaq və ceyran südü dalınca ölüm vadisinə kiçik qardaşın gedərək istəyinə nail olduğu kimi (70, 74) bu nağılda və eləcə də Azərbaycan nağıllarında, adətən, kiçik qardaş müvəffəqiyyət qazanır, tale onun üzünə gülür.

Bir çox Azərbaycan sehrli nağıllarında olduğu kimi, Türkman folklorunda məşhur olan «Sas tavuğun təlnəgi» nağılında da əsas surətlərdən biri divdir. Nağılda baş qəhrəman əfsanəvi köməkçiləri ilə birgə çox güclü olan divlə mübarizə aparır, qırılmaz tilsimi açır, sadəlövh divi aldadır.

Azərbaycan sehrli nağılları üçün səciyyəvi olan bir xüsusiyyətə də bu nağılda təsadüf edilir. Gözəl qız Gülnaz divlər tərəfindən oğurlanıb tilsimə salınır.

Bu nağılda da baş qəhrəman xeyirxahlığı ilə seçilir. Tələyə düşmüş tülkünü xilas edir, heyvan və quşları ovlamır, onları incitmir.

Nağılda uşaqlar və gənclərə xeyirxahlıq, iradə, sədaqət, mərdlik, dəyanət, səxavət, böyüklərə hörmət, onların məsləhətlərinə qulaq asmaq və s. kimi müsbət keyfiyyətlər aşılanır.

Paxıllıq, haqsızlıq, yalançılıq, namərdlik və s. kimi mənfi xüsusiyyətlər pislənir.

Azərbaycan sehrli nağılları üçün ənənəvi priyom olan hadisələrin üç dəfə təkrar olunmasına da bu nağılda təsadüf edilir.

Məlumdur ki, Azərbaycan fantastik nağıllarında hadisələri daha təsirli, daha qüvvətli etmək üçün işlədilən üçləmələr aşağıdakı şəkildə olur: üç qardaş, üç sual, üç şərt və s. (123, 47)

Qəhrəman üç dəfə gedər-gəlməzə, yaxud sehrli əşyalar gətirməyə göndərilir. Bu üçləmələr həm Azərbaycan, həm də Türkman folklorunda elə qurulmuşdur ki, üçüncü rəqəm əvvəlki iki rəqəmdən fərqlənir. «Sas tavuğun təlnəgi»ndən göründüyü kimi, üçüncü qardaş – kiçik qardaş daha ağıllı, qorxmaz, şücaətli və qəhrəman olur. Onda insana məxsus bütün müsbət xüsusiyyətlərə təsadüf edilir. Şahzadənin Sas tavuğu əldə etmək üçün üçüncü cəhdində məsələ həll olunur.

Azərbaycan sehrli nağıllarında rast gəlinən hadisələrin şaxələndirilməsinə, haşiyə çıxmaq, hadisələrin bir-birinə bağlanması kimi bədii vasitələrə də «Sas tavuğun təlnəgi» na-

ğılında təsadüf edilir. Şahzadə Sas tavuğu əldə etmək üçün Günçıxan padşahın yanına gedir. Padşah onun qarşısında şərt qoyur ki, onun üçün Kor Kosranın atını gətirsə, istəyinə nail olacaq. Şahzadə Kor Kosranın dalınca gedir. Kor Kosra onun qarşısında şərt qoyur ki, əgər düşmən divlərin əsirliyində tilsimdə olan gözəl Gülnazı azad edib gətirə bilsə, istəyinə nail olacaq.

Göründüyü kimi, hadisələr qəribə bir tərzdə inkişaf edərək, biri digərindən asılı olmaq şərtilə üç dəfə təkrar edilir.

Dinləyici intizarla nağılın necə qurtaracağını gözləyir. Bu bədii priyom dinləyicini ram edir, nağılın zənginləşməsinə kömək edir.

Türkman folklorunda yeddi və qırx rəqəmləri də özünü göstərir. Məsələn:

«Simurq – Anqa onu yeddi qat göyə çıxartdı».

Və ya: «Qara qoç üstünə minən kimsəni yeddi qat yerin dibinə endirir. Bəyaz qoç isə üstünə minən kimsəni yerin dibindən yeddi qat göyə çıxarır» (70, 66).

Və ya: «Qırx gün, qırx gecə toy etdilər. Şəkərlər paylandı, sevinclər oldu. Şadlıqla yaşadılar» və s. Nağılda diqqəti cəlb edən məsələlərdən biri də tülkü obrazıdır. Kərkük nağıllarında da tülkü adi bir heyvan olmaqdan başqa, həm də «hiyləgərlik» rəmzidir. Doğrudur, «Sas tavuğun tələngi» nağılında da tülkü müxtəlif hiylələrə, kələklərə, fəndlərə əl atır, dondan-dona girir, bununla belə, onun hiylələri xeyirxahlıq məqsədilə edildiyinə görə tülkü bu nağılda xeyirxahlıq rəmzinə çevrilir.

Bu nağılı Azərbaycan nağılları ilə birləşdirən bir vacib məsələ də vardır. Pəri tülkü Gülzarın donuna girərək şahzadə ilə Kor Kosranın yanına gedəndə dönə-dönə şahzadəyə tapşırır ki, onu Kor Kosranın atına dəyişəndə atın qantarğa və cilovunu almamış sövdəyə razı olmasın (86, 149). Əks təqdirdə at qaçıb Kor Kosranın yanına qayıdacaq. Deməli, yüyəni, noxtanı və s. əldən verdikdə sehr öz gücünü itirir. Eyni məsə-

ləyə Kərkük folklorunda «Əhmədlə Sehrbaz sahibi», Azərbaycanda «Oxxayla Əhməd» adlanan nağılda da təsadüf edilir. Əhməd atasına deyir ki, bir tilsim oxuyub at olacağam. Aparıb onu bazarda satsın. Ancaq yüyəni əlindən verməsin (21, 69).

«Keçəllə qazı» Azərbaycan nağılında isə şeytan keçələ deyir ki, bir dua oxuyum, olum qatır, apar məni qazıya sat. Amma noxtamı əlindən vermə (7, 304).

Göründüyü kimi, bu məsələdə də Türkman nağılları ilə Azərbaycan nağılları arasında bir doğmalıq vardır.

Maraqlıdır ki, İraq–Türkman folklorunda da at murad rəmzidir. Şahzadə Kor Kosranın atını əldə etdikdən sonra murada çatır.

Həm Türkman, həm də Azərbaycan folklorunda at, eyni zamanda vəfalı heyvan rəmzidir. Böyük qardaşları şahzadəni quyuya atandan sonra Kor Kosranın atının qaçaraq gəlib quyunun başında kişnəməsi, onu oyatması bu baxımdan maraq doğurur. Onu da qeyd etmək lazımdır ki, bir çox Azərbaycan nağıllarında olduğu kimi, Kərkük sehrli nağıllarında da məişət motivləri özünü qabarıq şəkildə büruzə verir.

Bəzən o qədər qaynayıb qarışırlar ki, onları ayırmaq çətin olur. Tədqiqatçıların göstərdiyi kimi, adi məişət motivləri ətrafında cərəyan edən bu nağıllarda ceyran, yaşılbaş sona, simurq, göyərçin, xoruz, pəri, div və s. qeyri-adi obrazlar olsalar da, mətnin tərkib hissəsinə çevrilirlər.

TARİXİ NAĞILLAR

Türkman folklorunda tarixi nağıllar o qədər də geniş yayılmamışdır. Onlar həm məişət, həm də tarixi nağıllara aid edilə bilərlər. «Şah Abbas və Pinəduz» və «Yəhərçi qızı» belələrindəndir. Bu nağıllarda şah zalım, zülmkar kimi göstərilmir, əksinə, onun hərəkətləri dinləyicini ona hüsn-rəğbət

bəsləməyə vadar edir. Bununla belə, Türkman nağıllarında müsbət qəhrəmanlar, əsasən, kütlə içindən çıxan, zəhmətlə dolanan adamlar olurlar.

«Şah Abbas və Pinəduz» nağılı «Pinəçi Murad və Şah» və «Pinəçi» Azərbaycan nağıllarına çox yaxındır. Süjetdə yeganə fərq nağılın Azərbaycan variantında pinəçi Muradın evli olması, hər axşam qonaq qəbul etməsi, musiqiçilər dəvət etməsidir (101, 107; 13, 167). Nağılın Kərkük variantında isə Pinəçinin kimsəsi yoxdur. Gündüzlər qazandığı qəpik-quruşa bir az yemək, bir az da içki alır, axşamlar içir və tənhalığın ağrı-acılarını unutmağa çalışır.

Nağılın həm Kərkük, həm də Azərbaycan variantlarında Şah Abbasla pinəçinin rastlaşması da elə buradan başlayır. Şah Abbas rəiyyətinin onun əmrlərinə necə əməl etdiyini yoxlamaq üçün əmr vermişdi ki, həmin axşam heç kim çıraq yandırmasın. Özü də axşam dərviş paltarı geyib şəhəri gəzməyə başlamışdı. Bir evdə işıq yandığını görərək gəlib pinəçinin evinə çıxmışdı. Məlum olur ki, pinəçi hər axşam içki içməklə, tənhalıqla mübarizə aparır. Şah Abbas pinəçini imtahana çəkir. Pinəçiyə deyir ki, Şah əmr edib ki, sabahdan heç kim pinəçilik etməyəcək. Pinəçi deyir ki, padşah qələt edir. Bəyəm camaat cırıq ayaqqabıda gəzəcək?! Bununla belə, səhərisi gün pinəçi görür ki, doğrudan da, bazarda car çəkirlər ki, padşahın əmri var, heç kim pinəçilik etməsin.

Süpürgə götürür, bazar-dükanı süpürür, səhərisi gün bu da qadağan olunanda, gedib adamları dalına alıb çaydan keçirir. Padşah bunu da qadağan edəndə, məmur paltarı geyib, körpüdən keçən hər nəfərdən bir qəpik alır. Guya, Şahın əmrini yerinə yetirir.

Axşam yemək-içməyi daha da artıq olur.

Padşah görür ki, pinəçi ilə bacarmır. Səhərisi gün adamlarını göndərir ki, filan yerdə belə bir adam var, gedin onu hüzuruma gətirin. Padşah deyir ki, onu sarayında işə qəbul edir.

Əmr edir, pinəçiyə bir qılınc və paltar verirlər. Vəzirə də tapşırır ki, onu gözdən qoymasınlar. Heç kim də ona pul verməsin. Axşam olan kimi pinəçi sarayı tərk edir.

Padşah gecənin düşməsini böyük intizarla gözləyir. Gecə dərviş paltarını geyinib pinəçinin daxmasına gəlir. Görür ki, pinəçinin kefi kök, damağı çağ, yemək-içməyindədir. Məlum olur ki, pinəçi qılıncını satıb, qınına isə bir ağac parçası keçirib.

Səhərisi gün Padşah vəzir-vəkili yığır, dustaq adı ilə iki adam gətizdirir ki, pinəçi onların başını vursun.

Pinəçi deyir: – Padşah sağ olsun! Bu adamların günahı yoxdur! Əgər bunların günahı varsa, onların ikisinin də başını bir zərbə ilə kəsəcəyəm. Əgər günahları yoxsa, qoy bu qılınc bir parça ağaca dönsün! – deməyi ilə qılıncı çəkməyi bir olur. Padşah, vəzir-vəkil gülürlər.

Padşah deyir ki, sənlə bacarmaq olmaz, get pinəçiliyini et.

Göründüyü kimi, zəhmətkeş xalqın nümayəndəsi öz ağlı, dərrakəsi, fəndgirliyi ilə şahı məğlub edir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bəzi nağıllardan çıxış edərək Şah Abbasın ciddi dövlət işlərini başlı-başına buraxıb, mənasız əyləncələrlə gün keçirən, maraqlı, məzəli hadisələrlə vaxtını xoş keçirməyə can atan bir hökmdar kimi göstərmək həqiqətdən uzaqdır (156, 59). Bu təbii ki, öz mütərəqqi ideyaları ilə dövrünün bir çox padşahlarından qat-qat üstün olan Şah Abbasın dövrünü yaxşı bilməmək və eləcə də Şah Abbas barədə özündən sonra yaranmış bir çox nağılların təsiri altında əmələ gəlmiş qənaətin nəticəsidir. Doğrudur, bütün Azərbaycan nağıllarında şahlar mənfi təsvir edilirlər (112, 89). Rus nağıllarında isə çarlar axmaq, səfeh təsvir edilirlər. Bundan çıxış edərək bütün rus çarları barədə hökm vermək nə qədər doğru olardı?

Eləcə də Şah Abbasın zalım, ağılsız, ədalətsiz şah kimi təsvir edildiyi nağıllara böyük diqqət yetirərək, onun ədalətli, ağıllı, qayğıkeş bir hökmdar kimi tərifləndiyi nağılları hakim

sinfin yaratdığı barədə hökm də doğru deyildir. Şah Abbasın quruculuq işləri sayəsində karvansaralar, körpülər tikilir, yollar, kanallar çəkilir, məscidlər, mədrəsələr təsis edilirdi. Bu xeyirxah quruculuq işləri onun müsbət, ağıllı, uzaqgörən şah olduğunu düşünməyə əsas verir. Bütün bunlardan əlavə, onu da unutmaq olmaz ki, Şah Abbas sadə xalq içərisindən çıxmış Allahverdinin ağlını, dərrakəsini yüksək qiymətləndirərək, onu özünə vəzir götürmüş, onun ağıllı məsləhətləri ilə oturub-durmuşdur. Tarixdən məlumdur ki, Şah Abbas abadlıq işləri aparır, xalqa güzəştlər edir, camaata qayğı ilə yanaşır, ləyaqətli və layiqli adamlara yüksək qiymət verirdi. İ.P.Petruşevski bu münasibətlə yazmışdır: «Şah yaxşı xidmət göstərən ən aşağı təbəqəyə mənsub kölələrdən əmirlər təyin etməyə başladı. Belə kölələrdən biri də Şah Abbasın ən yaxşı sərkərdələrindən olan Allahverdi xan idi» (197, 118).

Deyilənlərə onu da əlavə etmək yerində olar ki, İraq–Türkman nağıllarında olduğu kimi, bir çox Azərbaycan nağıllarında da Şah Abbas müsbət qəhrəman kimi göstərilmişdir (122, 87, 68, 122).

Tarixi nağıllarla bağlı bir cəhət də diqqəti cəlb edir. Görkəmli Azərbaycan folklorşünası M.H.Təhmasib tarixi nağıllardan danışarkən göstərir ki, Azərbaycan nağılları öz qəhrəmanlarını bəzən Yəmən, Hindistan, Misir, Çin və başqa yerlərdən gətirir. Lakin buna baxmayaraq, bunların hamısı Azərbaycanın öz ictimai-siyasi, təbii varlığı içərisində yaranmışdır (138, 135).

Buna biz «Yəhərçi qızı» adlı Türkman nağılında da rast gəlirik. Nağılda belə nəql edilir ki, bir kişinin aman-zaman içində bir dükanı vardı. Yəhər düzəldər, satıb ailəsini dolandırardı. Hətta yüz qızıl lirə düzəldib yəhərlərin birinin içində gizləmişdi. Günlərin birində bir nəfər ondan bir yəhər alır. Müştəri gedəndən sonra yəhərçi görür ki, lirələri gizlədiyi yəhəri satıb, ondan sonra dərd-qəmə batan yəhərçi elə hey:

Getdi də demək olmaz,
İtdi də demək olmaz

deyərək heyifsilənərdi. Sözlərin mənasını soruşanda, – deyiləsi deyil, – deyərdi. Bir gün bu xəbər padşaha da çatır. Yəhərçi padşaha da eyni cavabı verir. Padşah acıqlanır, onun boynunu vurdurmaq istəyir. Biləndə ki, yəhərçinin üç qızı var, ona yazığı gəlir. Onu bir şərtlə sağ buraxır ki, səhərisi gün yəhərçinin hər üç qızı sarayın qapısı ağzından hamilə keçsinlər.

Yəhərçi qanıqara evə gəlir. Kiçik qız çox ağıllı idi. Atasına təskinlik verir. Bacılarına nə etmək, padşah sual verəndə nə cavab vermək lazım olduğunu başa salır.

Səhərisi gün qızlar paltarın altından hərəsi bir cürdək bağlayıb sarayın qabağından keçirlər. Padşah çox təəccüblənir. Böyük və ortancıl qızdan soruşur:

– Yəhərçi qızları, nə vaxtdan hamiləsiniz?

Biri deyir üç aydır, o biri deyir altı aydır. «Yediyiniz nədir?» sualına «xiyar turşusu, badımcan turşusu» cavabını verirlər.

Kiçik qız cavab verir ki, doqquz aydır hamilədi, yediyi də yeddi dənizin ortasında qızardılmış balıqdır.

Sultan heyrətlənir: – Yeddi dənizin ortasında necə qızardılmış balıq olar?

– Bəs bakirə qız necə hamilə olar?

Qızın ağlı və gözəlliyi padşahı valeh edir. Səhərisi gün yüz lirə qızıl pul verib bir qadını yəhərçinin evinə göndərir. Qadın puldan iki lirə götürür və yəhərçinin evinə gəlir. Evdə təkcə kiçik qız olur. Qadın, ananı görmək istəyirəm, deyir, qız cavab verir:

– Anam gedib biri iki eləsin.

Qadın böyük və ortancıl bacıları soranda qız deyir ki, böyük bacısı gedib qaranı ağ etsin, ortancıl bacısı isə gül yığmağa gedib.

Qadın pul kisəsini ona verir. Qız lirələri sayıb deyir: – Başqası üçün qoyun göndərən başını kəsər, yoxsa diri göndərər?

Qızın danışığından heç nə anlamayan qadın onun dediklərini yerli-yerində padşaha danışır. Padşah öz-özünə düşünür: Biri iki eləmək, o deməkdir ki, gedib işləyib qazanmağa. Qaranı ağ etməyin mənası odur ki, gedib qadınların qaş-gözünü qaydaya salsın, sifətlərindəki tükləri təmizləsin. Gül toplamaqla demək istəyir ki, gedib naxış vurmağa. Qoyunu kəsmək o deməkdir ki, lirənin sayında naqislik var. Yəhərçi qızının şaha layiq olduğunu bir daha qət edir. Axşam diləkçiliyə adam göndərir. O gün yəhərçinin kefi göyün yeddinci qatında idi. Bir il əvvəl yəhər almış adam yamamaq üçün yəhəri gətirmişdi. Yəhərçi halal zəhmətlə qazandığı yüz lirəni yəhərin içindən tapmışdı.

Padşah qızı alan kimi Çinə səfər edir.

Bir neçə gündən sonra qız da başına bir az ordu toplayır və bir neçə qadın da götürüb Çinə yola düşür. Padşahla üzbəüz çayın o biri tərəfində çadır qurur. Kişi paltarı geyinir.

Padşah onu şahmat oynamağa dəvət edir. Şərtlə oynayır. Padşahın xəncərini udur. İkinci oyunu qəsdən uduzur. Lakin xəncəri qaytarmaq istəmir. Deyir ki, çox gözəl bir gürcü qızı var, hələ evlənməyib. Əgər padşah razı olsa, axşam onu padşahın yanına göndərər. Padşah razı olur.

Qız düşərgəyə qayıdıb paltarını dəyişir, özünə bəzək-düzək verir, axşam padşahın düşərgəsinə gedir. Səhərisi öz düşərgəsinə qayıdır və ölkəsinə yollanır. Vaxt tamam olanda bir oğlu olur. Adını Çin qoyur. Özünü də bir nəfər qadına tapşırır ki, baxsın. Xeyli keçəndən sonra padşah vətənə dönsə də, tələsik Maçinə yollanmalı olur. Qız bu dəfə də padşahın dalınca gedir. Yenə də şahmat oynayır, təsbehini udur. Bu dəfə padşahdan yenə bir oğlu olur. Adını Maçin qoyur. İki ildən sonra padşah gəlsə də, dayanmadan Gül ölkəsinə səfər etməli olur. Yəhərçi qızı yenə də onun arxasınca gedir. Şahmat oy-

nayır. Padşahın cib dəsmalını udur. Bu dəfə bir qızı olur. Adını Gül qoyur. Üç il keçəndən sonra padşah səfərdən dönür. Lakin indi öz əmisi qızını almaq fikrinə düşür. Toya hazırlıq görülür. Yəhərçi qızı uşaqlarının üçünü də götürür, böyük oğluna xəncəri, kiçik oğluna təsbehi verir, padşahdan udduğu dəsmalı isə qızının başına bağlayır. Onlara deyir ki, atanızın önündən keçəndə bu sözləri təkrar edin:

– Çin, Maçin, tutağın Gül bacımızın əlindən, gedəyin bəy babamızın toyuna.

Elə də edirlər. Padşah öz xəncərini, çötgəsini, dəsmalını görəndə mat qalır. Uşaqlarla analarının yanına gedəndə yəhərçi qızını tanıyır. Çox sevinir. Vəcdə gələrək oxuyur:

Yeyib içəndən sonra
Qonub keçəndən sonra,
Qəlyanı qoy gözünə
Vaxtı keçəndən sonra və s.

Bu nağılda diqqəti cəlb edən bir neçə cəhət vardır. Hər şeydən əvvəl, bir çox Azərbaycan nağıllarında təsadüf edilən ağıllı, bacarıqlı qadın surəti bütün müsbət keyfiyyətləri ilə bu nağılda da özünü göstərir. Yəhərçi qızı öz ağlı, zəkası, dərrakəsi, cəsarəti, təmkini, dözümü ilə padşahı məğlub edir.

«Yəhərçi qızı» nağılında diqqəti cəlb edən ikinci cəhət «İlyasın nağılı», «Üç şahzadə», «Dərzi şagirdi Əhməd» və s. Azərbaycan nağıllarında olduğu kimi, tapmacalardan istifadə edilməsidir. Bu cəhətə ailə-məişət nağıllarının ən gözəl nümunəsi olan «Yola nərdivan ataq» və s. kimi Türkman nağıllarında da təsadüf edilir.

«Yəhərçi qızı» nağılında diqqəti cəlb edən cəhətlərdən biri də sehrli nağıllarda olduğu kimi, ənənəvi priyoma sadiq qalınaraq hadisələrin üç dəfə təkrar olunmasıdır. Nağılda üç bacıdan, padşahın üç səfərindən, yəhərçi qızının üç dəfə onun

arxasınca səfərə çıxmasından, onunla üç dəfə şahmat oynamasından, üç gecə padşaha mehman olmasından, padşahdan üç əşya – xəncər, təsbeh, yaylıq almağından, padşaha üç uşaq bəxş etməsindən və s. söhbət gedir.

Göründüyü kimi, bu nağılda da məsələ üçüncü səfərdən sonra müsbət həll olunur, mətləbə çatılır.

Sehrli nağıllarda olduğu kimi, bu nağılda da sonbeşik – kiçik bacı ən ağıllı, ən dərrakəli olur. Öz ağlı, dərrakəsi ilə padşahı məğlub edir.

Son övladın daha ağıllı, daha dərrakəli təsvir olunması bir daha göstərir ki, nağıllar real həyatla bağlıdır. Məlumdur ki, bütün xalqların folklorunda son övlad böyük qardaş və bacılarına nisbətən daha ağıllı olur. Bizcə, bunun real həyatdan götürülmüş əsası vardır. Buna yalnız təxəyyül məhsulu kimi baxmaq doğru olmazdı. Məsələ burasındadır ki, altı ilə qədər Qafqaz xalqlarının həyat tərzini, adət-ənənəsini, yaşayışını öyrənən, uzunömürlülər üzərində müşahidə və tədqiqat aparan amerikalı professor Sula Benet bu qənaətə gəlmişdir ki, insan yaşa dolduqdan sonra ondan dünyaya gələn övladlar daha ağıllı, daha bacarıqlı olurlar (128).

Deməli, hələ qədim zamanlardan da insanlar öz həyat təcrübəsində bu həqiqətdən xəbərdar olmuş və insan təxəyyülünün məhsulu olan nağıllarda bu real həyat həqiqəti öz əksini tapmışdır.

AİLƏ-MƏİŞƏT NAĞILLARI

Türkman folklorunda məişət nağılları başqa qrup nağıllara nisbətən daha çoxdur. Həcm etibarilə nisbətən kiçik olsalar da, bu nağıllar xalqın həyat tərzini, yaşayışını, güzəranını, adət-ənənəsini, mübarizəsini, arzu, istək və ümidlərini yığcam bədii boyalarla əks etdirir. «Yola nərdivan ataq», «Olar əkdi, biz yedik», «Keçəl oğlan», «Keçəl oğlan matalı», «İki keçəl» belə nağıllardandır.

Onu da qeyd etmək vacibdir ki, əksər Türkman məişət nağılları Azərbaycan nağıllarından fərqlənmirlər. «İnad xoruz» – «Xoruzla padşah» nağılına, «Keçəl oğlan matalı» – «Cik-cik xanım» nağılına, «Keçəl oğlan» – «Dovşan» nağılına bənzəyir (9, 43, 48, 56; 86, 305, 307, 308).

Xalqın həyatı, güzəranı, məişəti, adət-ənənəsinə dair maraqlı səhifələr olan bu nağıllarda hökmdar, vəzir, molla, tacir və başqaları ilə zəhmətkeş xalq nümayəndələrinin qarşılaşmasından, ictimai haqsızlıq, ədalətsizlik, özbaşınalıq, dərəbəylik, yoxsulluq, ehtiyacdan və s. danışılır.

Bu nağılların baş qəhrəmanları ağıl, zəka, tədbir, ədalət, insaf, vicdan, doğruçuluq hesabına istəklərinə nail olur, mənəvi keyfiyyətləri ilə qələbə qazanırlar.

Bu qəhrəmanların şəxsində xalq öz istək və arzularını təcəssüm etdirir. Ailə-məişət nağıllarında real həyat həqiqətləri, ictimai-siyasi fikirlər daha qabarıq şəkildə özünü göstərir. Həyat realist boyalarla verilir. Məhz buna görədir ki, V.Y.Propp yazır: «Məhz nağıllar, xüsusən də məişət nağılları yazılı realist nəsr ədəbiyyatının soykökü, təkanverici mənbəyi olmuşdur» (198, 88).

Maksim Qorki isə məişət nağıllarının qəhrəmanlarından danışarkən göstərirdi ki, bu qəhrəmanlar çox qüdrətli olmasalar da, öz inadları sayəsində hər şeyə qalib gəlirlər (54, 18).

«Yola nərdivan ataq» nağılı az-çox «Padşah və pinəçi» nağılı ilə səsləşsə də, müasir olmaqla, tamamilə tapmacalar üzərində qurulub (86, 160; 13, 158).

Nağılda nəql edilir ki, bir qoca ilə, bir gənc yol-yoldaşı olurlar. Qoca dünyadan xəbərsiz bir kimsə olduğundan oğlanın söhbətlərini anlamır. Hətta oğlana acığı tutur. Evə gələndə qızına oğlandan gileylənir: – Bir oğlana rast gəldim. Yol getdim özüydən, başımı ağrıtdı.

– Niyə başını ağrıtdı, ata?

– Bir bulağa çatdıq. Deyir: – Əmi, gəl bulağa enək, dörd çıxaq.

– Ağac kəsdiniz?

– Bəli, kəsdik.

– Ata, niyə darılıbsan? İki ağac kəsibsiniz, dörd olubsunuz.

– Qız çox ağıllı, dərrakəli, gözüaçıq idi. Oğlanla maraqlandı.

– Sonra nə dedi, ata?

– Dedi, gəl bu yola nərdivan ataq.

– Ata, istəyib ki, söhbət edəsiniz, yolu hiss etməyəsiniz.

Sonra nə dedi?

– Bir əkinə gəldik. Əkin hələ biçilməyib. Deyir, görəsən, sahibi yeyib bu məhsulu?

– Ata, burda nə var, əgər sahibi borc edibsə, demək məhsulu yeyib, almayıbsa, yeməyib. Daha nə dedi, ata?

– Bir ölü aparırlar basdırmağa. Deyir, görəsən, bu ölüb, yoxsa yox?

– Ata, bunun mənası var. Əgər övladı varsa, demək ölməyib.

Qız oğlanı görmədən onun ağlına valeh olaraq onu sevməyə başlayır. Oğlanı özü imtahana çəkmək istəyir. Oğlanın harada olduğunu öyrənib on iki çörək, otuz yumurta bişirib atası ilə oğlana göndərdi. Atası yolda çörəyin birini, yumurtanın üçünü yedi. Oğlanı tapıb sovqatı ona verdi və qayıdıb evə gəldi. Qız intizarla atasının yolunu gözləyirdi. Atasından soruşdu:

– Ata, oğlan nə dedi?

– Dedi əmi, iliniz on bir ay; ayınız iyirmi yeddi gündür.

Qız dedi: – Ata, bir çörək, üç yumurta yeyibsən?

Dedi: – Hə.

Qız gördü, oğlan, doğrudan da, çox ağıllıdır.

Atasını göndərdi, oğlanı evə dəvət etdi. Döşəməyə xalı saldı, oğlanı qarşıladı.

Mahnı ilə oğlandan fikrini xəbər aldı. Özünü körpüyə bənzətdi. Gözündə çəplik vardı oğlanın fikrini bilmək istədi.

Oğlan dedi ki, körpü gözəl körpüdür, ancaq cüzi nöqsanı var.

Qız cavab verdi ki, dünyada nöqsansız nə var. Əsas şərt körpünün özüdür. Bir-birini sevdilər, evləndilər. Oğlan işləməyə başladı. Tezliklə işdə böyük hörmət qazandı. Hamıdan gözəl işləyirdi. Bildilər ki, çox ağıllı, ərini çox istəyən, hörmətini saxlayan, gözəl və vəfalı bir arvadı var. Bir gün oğlanın müdiri onu uzağa işə göndərərək özü oğlanın evinə gəldi. Deyilənləri yoxlamaq istəyirdi. Qadınla söhbətə girişdi. Qadın onun fikrini başa düşdü. İki arvadı olan bu adama ağıllı dərs vermək üçün dörd yumurta bişirib müxtəlif cür rənglədi. Qonağın qabağına qoydu. Qonaq onları bir-bir sındırdı. Hamısı yumurta çıxdı. Rəis qadının nəyə işarə etdiyini və çox ağıllı olduğunu anladı.

Məlumdur ki, nağılda şöhrətpərəstliyin, şorgözlüyün qabarıq şəkildə göstərilməsi hər hansı bir surətin əxlaqi simasını üzə çıxarmaq, gərginliyi artırmaq, nağılı maraqlı etmək üçün bir gedişdir (205, 71).

Maraqlıdır ki, «Yola nərdivan ataq» nağılında xalq ağıllı, dərrakəli, evdar, səliqə-sahmanlı olan qəhrəmanının vəfasını da xüsusi cizgilərlə nəzərə çarpdırır. Bu süjet də nağılda təbiiliyi ilə seçilir.

Müasir həyatdan bəhs edən bu real, inandırıcı nağılda Azərbaycan məişət nağıllarına xas olan bir çox xüsusiyyətlərə təsadüf edilir. Burada da qız sevdiyi oğlanın ağlını, düşüncəsini tapmacalar vasitəsilə yoxlayır. Oğlan kasıb olsa da, qız onun ağlını hər şeydən üstün tutur. «Ağlı varsa, var-dövlət qazanacaq, ağlı yoxsa, olanı da dağıdacaq, – deyərək onu imtahana çəkir. Burada da oğlan qızın suallarına doğru cavab verərək onun məhəbbətini qazanır.

Bu nağılda xalq, qadını sədaqəti, təmkini, tədbiri ilə seçilən vəfalı yoldaş, insanları valeh edən gözəl bir varlıq kimi tərənnüm edir.

Ümumiyyətlə, «Odunçu qızı», «Xayin vəzir», «Yəhərçi qızı» və s. Kərkük nağıllarından da göründüyü kimi, patriarxal dünyagörüşündən fərqli olaraq, xalqın qadına münasibəti həmişə müsbət olmuşdur (86, 145, 150, 155). Burada qadınlar ağıllı, cəsarətli, iradəli, mətin, vəfalı, sədaqətli, namus və şərəfini hər şeydən üstün tutan varlıq kimi göstərilirlər ki, bu xüsusiyyətlər onları Azərbaycan nağılları ilə doğmalaşdırır.

Demək lazımdır ki, qadına müsbət münasibət Türkman folklorunda təkcə nağıllarda deyil, atalar sözü və bayatılarda və eləcə də «Arzu–Qəmbər» və başqa dastanlarda da özünü bariz şəkildə göstərir.

M.Qorkinin göstərdiyi kimi çox qədim zamanlardan bəri yorulmadan öz xüsusi yolu ilə tarixə yoldaşlıq edən folklorun epik növünün nağıl janrında müxtəlif təbəqələrin mübarizəsi qəribə bir tərzdə öz əksini tapmışdır. Bu baxımdan keçəllə bağlı Kərkük nağılları xüsusilə fərqlənirlər. M.H.Təhmasib baş qəhrəmanı Keçəl olan nağıllardan danışarkən göstərmişdir: «Nağıllar öz təması, öz qəhrəmanı və bu qəhrəmanın təqib etdiyi məqsəd, daşıdığı ideologiya etibarilə müəyyən bir təbəqə ilə bağlıdır. Bu qəhrəmanlardan birisi muzdur-nökərdir. Qəhrəmanı muzdur-nökər olan nağıllar Azərbaycan nağılları içərisində ən xarakterik nağıllardır. Bu qəhrəmanlar keçəl adlanırlar. Keçəl Azərbaycan nağılının mübariz qəhrəmanıdır» (138, 137).

Bu, Kərkük folklorunda da eynilə belədir. Kərkük məişət nağılları arasında geniş yayılan və xalq tərəfindən çox sevilən nağıllar Keçəllə bağlı olanlardır. Keçəl Kərkük nağıllarında da, Azərbaycan nağıllarında olduğu kimi, əzmindən dönməyən, haqsızlığa dözməyən, ağlı, zəkası ilə nahaqqı damğalayan çətinliklərdən çəkinməyən mübarizdir.

Bununla belə, Türkman folklorunda «İki Keçəl matalı»nda eyni nağılda iki keçələ təsadüf edilir. Onlardan biri o birinin paxıllığını çəkdiyinə, acgözlük etdiyinə görə məğlub olur,

çıxılmaz vəziyyətə düşür. Bu nağıl istisna olmaqla Keçəllə bağlı Kərkük nağıllarında da, Azərbaycan nağıllarında olduğu kimi (122, 105), Keçəl həmişə müsbət planda verilir.

Keçəlin mübarizəsi ictimai həyatın hər bir sahəsində özünü göstərir. Bu mübarizə bəzən sadəcə olaraq mübarizə xatirinə edilirsə, çox vaxt ictimai-iqtisadi ziddiyyətlərin zəruri nəticəsi kimi meydana çıxır. «Cik-cik xanım» Azərbaycan nağılından fərqlənməyən (9, 45) «Keçəl oğlan matalı»nda (86, 311) nəql edilir ki, Keçəlin ayağına tikan batmışdı. Çörək bişirən bir arvaddan xahiş edir ki, ayağından tikanı çıxarsın. Arvad tikanı çıxarıb ocağa atır. Keçəl təkidlə tikanını tələb edir. Əvəzində bir çörək alır. Çörəyi çobana verir. Çoban çörəyi yeyən kimi, Keçəl çörəyini tələb edir. Çörəyin yerinə bir qoyun alır. Qoyunu toy edənlərə verir ki, kəssinlər. Qoyun kəsilən kimi qoyununu tələb edir. Qoyunun əvəzinə tambura alır. Nağılın Azərbaycan variantında saz alır. Hər iki variantda tambura və ya sazı çalıb aşağıdakı mahnını oxuyur:

Tikan verdim, əkmək aldım –
Tamburam çınqı, çınqı.
Əkmək verdim, qoyun aldım
Tamburam çınqı, çınqı.
Qoyun verdim, səni aldım
Tamburam çınqı, çınqı,
Tamburam çınqı, çınqı,
Çınqı, çınqı, çınqı, çınqı.

Göründüyü kimi, bu nağılda Keçəl öz iradəsini başqalarına qəbul etdirmək üçün mübarizə aparır.

Ümumiyyətlə, Keçəllə bağlı nağıllarda öyüd-nəsihət, həyat təcrübəsi və s. qabarıq şəkildə özünü göstərir.

Türkman folklorunda Keçəllə bağlı nağıllar arasında uşaqların yaş xüsusiyyəti, psixologiyası nəzərdə tutularaq ya-

radılan nağıllar da yox deyildir. Bunların ən yaxşı nümunəsi «Keçəl oğlan» nağılıdır. Nağılda nəql edilir ki, Keçəlin bir manqırı vardı. Bilmirdi ona nə alsın. Çaşıb qalmışdı. «Manqırı qoza verim, qabığı var. Badama verim, qabığı var. Üzümə verim, tumu var. Bu manqırı nəyə verim bir şeyi xəsər olmasın». Axırda noxud almaq qərarına gəlir. Bir manqırlıq noxud alıb, gedir dülgərxanada oturub noxudu yeyir. Biri qalanda bilməz, salar dülgər havcarının arasına. Deyər:

– Noxudum düşdü havcarın arasına.

– Havcarını qırginan, noxudum verginən.

– İndi bir noxudçün havcarı qırım? Qırmam.

Keçəl gedər ağanın arvadının yanına.

Deyər: – Xatun, ağaya söylə naccarı (dülgər) vursun, naccar havcarı qırsın, havcar noxudum versin.

– Yəni bir noxudçün havcarı qırsın. Bu, necə olur?

Gedər deyər, siçan, xatunun boxçasın dəlginən. Xatun ağaya demiri, ağa naccarı vurmuru, naccar havcarı qırmırı, havcar da noxudum vermiri.

Siçan da dedigin etməz. Pişiyin yanına gedər. Əvvəlki sözləri təkrar edər və pişiyə deyər ki, siçanı yesin. Pişik də dediyin etməz. Əvvəlki sözləri təkrar edərək pişikdən itə şikayət edər. İtdən qapıya şikayət edər, qapıdan oda şikayət edər. Od qapını yandırmaz. Oddan yağışa və yelə şikayət edər. Bir yağış, bir yel olar, bir tufan olar, gəl görəsən. Yağış odu söndürər, qapını qırar. Siçan, pişik, köpək islanıb üşüyərlər. Xatun ağaya deyər, ağa naccarı vurar, naccar havcarı qırar, havcar noxudu verər.

Göründüyü kimi, bu kiçik həcmli nağılda uşaqlara insanlar, sənət və sənətkar, heyvanlar, təbiət və təbiət hadisələri, bitkilər, meyvələr və s. haqqında məlumat verilir. Nağıl onların dünyagörüşünün inkişafına, nitqlərinin rəvanlaşmasına, təkrarlar hesabına uşaqların yaddaşlarının möhkəmlənməsinə kömək edir.

Demək olmaz ki, bütün Kərkük və eləcə də Azərbaycan nağıllarında irəli sürülən ideya xeyrə rəğbət, şərə nifrət aşılamaqdır. «Keçəl oğlan» nağılından göründüyü kimi, keçəllə bağlı bəzi Türkman nağıllarında, ümumiyyətlə, xeyirlə şərin mübarizəsi özünü büruzə vermir. «İki keçəl» nağılı da bu qəbildəndir. Azərbaycan nağılları arasında təsadüf edilməyən bu nağılın qısa məzmunu belədir:

– Ağıllı keçəl fikrə dalmışdı. Evdə yeməyə bir şey yox, cibi boş idi. Çox fikirləşəndən sonra yeganə xoruzlarını kəsib, nənəsinə bişirtdirdi. Bir siniyə qoyub padşahın sarayına yollandı. Buraxmadılar. Padşaha xəbər verdilər ki, bir Keçəl gəlib, elə hey deyir: – Padşahla işim var.

Padşah deyir: – Keçəllər kefcil olurlar, buraxın gəlsin.

Keçəl içəri girəndə padşahın sağ-solunda iki vəzir oturduğunu görər. Ədəb-ərkanla salam verib, sinini padşahın qabağına qoyar.

– Keçəl, bu nədi?

– Padşahım, Allah ömürlər versin sənə. Göydə imanım, yerdə gümanım bu xoruzdu. Bir şey tapmadım, sənə layiq hədiyyə. Bunu qovurub sənə hədiyyə gətirdim.

– Lap yaxşı, keçəl. Üç bizik, bir də sən. Bunu dörd yerə böl yeyək.

Keçəl xoruzun başını padşaha, sağ qanadını sağ əldə oturan vəzirə, sol qanadını sol əldə oturan vəzirə verər. Gövdəni də çəkər öz qabağına, yeməyə başlayar.

– Keçəl, bu, necə bölgüdü?

– Padşahım, Allah ömürlər versin. Qılıncın kəsərli olsun. Sən başsan, baş ye. O da sağ vəzirdi, sağ qanadı yesin, sol vəzir sol qanadı yesin. Mən də yetimçəyəm, gövdəni yeyərəm. Hamısı başlar ürəkdən gülməyə. Keçələ yüz altun verib yola salarlar.

O biri keçəl bu xəbəri eşidəndə canına od düşər. Bir cöngələri vardı. Tez kəsər, bir xeyli bişirtdirib saraya yola düşər.

Fikirləşər ki, padşah bir xoruza yüz altun verəndə, cöngəyə görə ona iki yüz altun verəcək.

Padşah bu keçəli də qəbul edər. Eyni təklifi ona da edər. Keçəl yeməyi üç pay edib padşah və yanında əyləşənlərin qabağına qoyar. Deyərlər: «Bəs sən?» Deyər: «Mən istəmirəm». Padşah acıqlanar. Əmr edər ki, keçələ yüz şallaq vursunlar. Keçəl ağlaya-ağlaya evə gələr. Anası padşahın arvadının yanına şikayətə gedər.

Axşam padşahın arvadı deyər:

– Allah bunu qəbul edər? Sən padşahsan. Ədalətli iş tutmamısan. Allah səni taxtından-tacından edər.

Padşah deyər: – Hiddətlənmə, xanım. Yollarıx o iki keçəl gəlsin, önündə onları sınarıx. Mərc gəlirəm ki, sən də mən yüz altun verdiyimə yüz altun, yüz şallaq vurduğuma yüz şallaq vurduracaqsan.

Adam yolladılar, hər iki keçəl gəldi. Padşah əvvəlcə xoruz keçəlini çağırdı. Padşah dedi:

– Keçəl, mənəm, sənsən, arvadımdı. Bu beş yumurtanı üçümüzün arasında elə böl ki, artıq-əskik olmasın.

Keçəl bir yumurta qoyar padşahın önünə, birini qoyar öz önünə, üçünü də qoyar xanımın önünə.

Keçələ yüz altun verib, yola salarlar. Sonra cöngə keçəlini çağırarlar. Keçəl yumurtanın üçünü qoyar padşahın önünə, ikisini də qoyar xanımın önünə. Özü qalar açıqda.

– Bəs sən?

Deyər: – Mən istəmirəm.

Xanım bərk acıqlanar. Bir şey istəmirdin, bəs padşahın yanında nə ölümün vardı. O da əmr edər, keçələ yüz şallaq vurarlar.

Göründüyü kimi, bu nağılda ağıl, zəka, düşüncə, yumor, hazırcavablıq və s. tərənnüm edilir. Paxıllıq, acgözlük, tamahkarlıq və s. kimi sifətlər isə pislənir.

Kərkük dolaylarında da, Azərbaycan nağıllarında olduğu kimi, keçəllər yazıq, çirkin olur, həmişə gülməli vəziyyətə

düşürlər. Onlar uçuq-sökük daxması, bircə anası və ya nənəsi, var-dövlətdən vur-tut bircə danası, cöngəsi və ya xoruzu olan kimsəsiz yoxsullar kimi təsvir edilirlər.

Lakin hadisələrin gedişində onun əsl siması üzə çıxır. Xalqın arzu və istəyini ifadə edən keçəllər, ağlı, zəkası, hazırcavablığına görə xalqın sevimlisinə çevrilmişlər.

Demək lazımdır ki, Azərbaycan nağıllarına xas olan baş qəhrəmanların, ümumiyyətlə, ideallaşdırılması – ilahi gözəlliklərə malik olmaq, ağıl, kamal, rəftarda tayı-bərabəri olmamaq və s. xüsusiyyətlər eynilə İraq–Türkman nağılları üçün də səciyyəvidir.

Xalq təfəkküründün əvəzsiz xəzinəsi, «xalqın psixologiyasını öyrənmək üçün vacib və lazım olan əsl xalq yaradıcılığı nümunələri» (193, 610) olan nağıllar, o cümlədən də Kərkük nağılları xalqın milli xüsusiyyətlərini, adət-ənənəsini, məişət tərzini, ümumiyyətlə, mədəniyyətini öyrənmək baxımından nə qədər uzaq keçmişlərlə bağlı olsalar da, bu gün də öz əhəmiyyətini itirmir.

ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

Atalar sözləri və məsəllər onu yaradan xalqın tarixini, inkişaf mərhələlərini, həyat tərzini, dünyabaxışını, inam və etiqadını, adət və ənənəsini və s. əks etdirən, onun bəşər tarixində məxsusi yerini göstərən müstəsna dəyərə malik bir xəzinədir. Bu xəzinədə uzaq keçmişlərlə bağlı hadisələrə, adət-ənənələrə, hətta unudulub getmiş, hafizələrdən silinmiş tarixi həqiqətlərin güclə sezilə bilən izlərinə belə təsadüf edilir. Buna görədir ki, tədqiqatçılar bu mənəvi incilərə istinad edir, onların vasitəsilə müəyyən hadisələrin izlərini və köklərini axtarırlar. Tarixçi atalar sözü və məsəlləri qədim tarixə, tarixi hadisələrə dair məlumat baxımından, hüquqşünas onları xalq həyatının yazılmamış qanunları baxımından, etnoqraf atalar sözü və məsəlləri

unudulub getmiş adət-ənənələrin hifz olunub saxlandığı mənəvi incilər mənbəyi baxımından qiymətləndirir. Filosof atalar sözü və məsəllər vasitəsilə xalqın düşüncə tərzini öyrənməyə, məntiq aləmində yerini dürüstləşdirməyə can atır. Dilçi isə atalar sözü və məsəllərə insan nitqinin inkişaf pillələrini, dilin leksik-qrammatik qayda-qanunlarını tədqiq etmək işində əvəzsiz mənbə nöqteyi-nəzərindən yanaşır (174, 7). Deməli, atalar sözləri və məsəllər «yalnız xalqın dünyagörüşünü, təfəkkürünü ifadə edən nümunələr olmayıb, həm də bir növ tarixi sənədlərdir» (68, 98).

Bu baxımdan əsrlərlə müəyyən tarixi, ictimai-siyasi səbəblər üzündən təcrid olunaraq başqa xalqlar əhatəsində qalan, İraq ərazisində yaşayan azərbaycanlıların atalar sözləri və məsəlləri xüsusi əhəmiyyət kəsb edir.

Müxtəlif xalqlarda «ibrətamiz söz», «qanadlı söz», «qızıl söz», «dilin gülzarı», «xalq məktəbi», «ruhun təbibi», «təcrübənin barı», «ipə-sapa düzülməmiş incilər», «hakim fikirlər», «ağlın gözü» və s. adlarla tanınan, bədii söz sənətinin bu təkrarsız inciləri Azərbaycanda olduğu kimi, Türkman folklorunda da «atalar sözü» və ya «əskilər sözü» adlanır (73; 135). Onlar xalq arasında «böyüklər sözü», «ata sözü», «dədələrdən qalma söz», «ululardan qalma söz» kimi də tanınırlar.

Kərküklü folklorşünas Əta Tərzibaşı bu terminlər arasında «atalar sözü» və «əskilər sözü»nü daha məqbul sayaraq yazır: «Kitabın adına «Əskilər sözü» deməmizin səbəbi bizdə «atalar sözü» qarşılığı olaraq bu deyişin də qullanılmasından irəli gəlmişdir. Nə təkim qonuşma sırasında bir ata sözü irad etmək istəyən kimsə «Əskilər sözüdü» və ya «Əskilər deyər», «Əskilər yalan deməyib» təbirini təkrarlar» (135, 8).

Sağlam düşüncə, iti ağıl və müdriklik məhsulu olan, hədəf nöqtəsinə sərrast tuşlanmış atalar sözləri və məsəllər Kərkük dolaylarında çox geniş yayılmışdır. Mənaca zəngin, məzmunca rəngarəng olan atalar sözü və məsəllər hər addımbaşı ada-

mın köməyinə çatır. Uşaq, böyük, qadın, kişi, fəhlə, kəndli, ziyalı, bütün xalq kütləsi onlardan istifadə edir. Xalq ağla, kamala, müdrikliyə həmişə yüksək qiymət vermişdir. Yerində deyilmiş atalar sözü fikrin dəyərini, gücünü birə-on artırır, xalq ağıl və mərifət sahibini layiqincə qiymətləndirir. Bu, başqa xalqlarda da belədir. Təsadüfi deyildir ki, amxarlara görə atalar sözü və məsəllərdən məhrum nitq duzsuz yeməyə bənzəyir. Qaraqalpaqların hikmətli kəlamında isə deyilir ki, ağıllı adamın nitqini atalar sözü bəzəyir (199, 49, 259).

Xalq kütləsinin təfəkkürünü ibrətamiz bir tamlıqla ifadə edən, hamı tərəfindən danışıq əsnasında hər an, hər münasibətlə işlədilən, Şərq milli koloritini əks etdirən Türkman atalar sözləri və məsəllərində, hər şeydən əvvəl, nəzərə çarpan cəhət dərin məna ilə bərabər axıcılıqdır. Bunların əksəriyyəti sanki gözəl şeir parçasıdır:

Yoldaş tanı yola var, yolda yüz min bəla var.
Acıq gələr üz saralar, acıq gedər üz qaralar.
Xarab qardaş, qara daş.
Nənəli qız bəlli qız, nənəsiz qız dəlli qız.
Səbrnən çiylər bişər, səbrsiz mələk çaşar.
Tamah etdilər mala, qızı verdilər lala.
Köyü köpəksiz gördü, əli ağacsız girdi.
Nə duzlu ol – atıl, nə duzsuz ol – satıl.
Nə belə et – öyül, nə elə et – söyül.
Alışdın yağlı dolmaya, əcəb bir gün olmaya.
Qalıbdı öz başına, örtübdü bez başına.
Bir çulum var ataram, harda gəlmiş yataram.
Astarına bax – bezini al, nənəsinə bax – qızını al.
Uzun yaşlı, ağır (ağıllı) başlı.
Gah babası adına, gah ləbi dadına.
Nə vaxt yağış, o vaxt qış.
Aləmə dəf-dümbələk, bizə xəlbir-ələk və s.

Hər biri bir inci olan bu hikmətli sözlərin əksəriyyəti Azərbaycan atalar sözü və məsəllərindən fərqlənmirlər. Görkəmli Azərbaycan alimi, folklorşünas M.H.Təhmasib bu münasibətlə yazmışdır: «Kərkük əskilər sözü» kitabından 700 atalar sözünün çox kiçik bir hissəsi bugünkü azərbaycanlı üçün «yeni»dir, yəni naməlumdur. Bu da ancaq və ancaq sırf yerli Kərkük mühiti ilə bağlı olanlara və bizdə işlənməyən sözlərdən ibarət olan nümunələrə aiddir. Əksəriyyət isə bizdə də bu gün işlənən atalar sözü və məsəllərdir» (140). İlk baxışda burada qeyri-adi bir şey yoxdur. Məlumdur ki, bir-birindən çox-çox uzaqlarda yaşayan dünya xalqlarının az-çox fərqlərlə eyni tarixi mərhələ keçirməsi nəticəsində atalar sözləri və məsəllərinin bir-birinə yaxın nümunələrinə təsadüf edilir. Məsələn:

Gözdən uzaq, könüldən uzaq.
Yaxşı dost yaman gündə məlum olar.
Gül tikansız olmaz.
Cücəni payızda sayarlar və s.

Lakin biz eyni həyat tərzini, eyni dünyagörüşü, eyni inam və etiqadları, adət-ənənələri əks etdirən, hərfi-hərfinə eyni olan, eyni qatdan qidalanan atalar sözlərindən söhbət açırıq. Təkcə onu demək kifayətdir ki, Ə.Hüseynzadənin 1956-cı ildə çap etdirdiyi, həcmcə çox da böyük olmayan «Atalar sözü» kitabında hərfi-hərfinə eyni olan üç yüzdən artıq atalar sözünə təsadüf etdik (112, 204–207).

Təbii ki, sırf Kərkük mühiti ilə bağlı olan, yalnız İraq–Türkman folkloruna xas olan atalar sözləri və məsəllər də yox deyildir. Məsələn:

Qəmbərsiz dügün olmaz.
Əvvəl Fərəç bəzirganıydı, indi ignə-saqqız satır.
Molla Nəsrəddin hekayəti oldu.
Nə Leyli xəstə düşsün, nə Məcnun can versin.

Təvəkkülün gəmisi batmaz.
Ustadımın adı Xıdır, əlimdən gələn budur.
Xəndandan xəta çıxmaz.
Şirağanın Marağada bağı var, üzümü yox, yarpağı çox.
Bağdad kimin şəhər, qardaş kimin yar olmaz.
Balı olanın çibini Şamdan gələr.
Bir köyün ağası Salman olsun, o köydə nə xırman olsun

və s. bu qəbildəndir.

Lakin bir çox atalar sözləri və məsəllərdə özünü göstərən cəhətsə bu və ya digər sözün variantının işlənməsidir: Məsələn:

Saxla samanı, gələr zamanı (Azərbaycan).
Qaldır samanı, gələr zamanı (Kərkük).
Yanlış hesab Bağdaddan qayıdar (Azərbaycan).
Yanlış hesab Bağdaddan dönər (Kərkük).
Sən ağa, mən ağa, inəkləri kim sağa (Azərbaycan).
Sən ağa, mən ağa, sığırları kim sağa (Kərkük) və s.

Bir çox atalar sözü və məsəllərdə isə ya cüzi fərqə rast gəlinir, ya da bir-birinin variantı olur. Məsələn:

Zaman sənə saz olmasa, sən zamana saz ol (Azərbaycan).
Zaman sənə uymazsa, sən zamana uy (Kərkük).
Tutdu – qatıq, tutmadı – ayran (Azərbaycan).
Düz oldu – ox, əgri oldu – yay (Kərkük).
İmam evindən aş, ölü gözündən yaş (Azərbaycan).
Molla evindən aş, kor gözündən yaş (Kərkük).
Oğrudan qalanı falçı apardı (Azərbaycan).
Xerxızdan (oğru) qalanı falçıya verdi (Kərkük).
Çaqqal var gödən çıxarır, qurdun adı bədnamdı (Azərbaycan).
Çaqqal var baş qoparır, qurdun adı yamandı (Kərkük).

Bununla belə, epik növün bir janrı kimi, İraq–Türkman atalar sözləri və məsəllərinin özünə xas olan səciyyəvi xüsusiyyətləri də vardır. Onlar barədə yeri gəldikcə danışacağıq. Burada isə bir xüsusiyyəti göstərməklə kifayətlənəcəyik. Türkman atalar sözü və məsəllərinin bir çoxu iki hissədən ibarət olur. İkinci hissə birinci hissədə verilmiş fikri daha da qüvvətləndirir, mənalandırır, tamamlayır. Azərbaycan folklorunda çox işlənən «Utananın oğlu olmaz», «Bu günün işini sabaha qoyma», «Ağıl yaşda deyil, başdadı», «Əski pambıq bez olmaz» və s. atalar sözləri Türkman folklorunda «Utananın oğlu olmaz, olsa da xeyrin görməz», «Bu günün işini yarına (sabaha) qoyma, bəlkə, yarın sənə yar olmadı», «Ağıl yaşda deyil, başdadı. Amma ağlı başa gətirən yaşdı», «Əski pambıq bez olmaz, əski düşmən düz olmaz» kimi işlənir və istər-istəməz fikir bütövlüyü, fikir bitkinliyi ilə adamı heyrətə salır.

Türkman atalar sözləri və məsəlləri toplanaraq əlifba sırasında, eləcə də giriş məqalələri ilə nəşr edilmişlər (135; 73; 75; 80; 59). Lakin nəzəri cəhətdən tədqiq olunmamışlar. Hər halda, bu məqalələr atalar sözü və məsəllərin tədqiqi yolunda atılan ilk addım olmaq baxımından maraq doğurur. Təkcə onu demək kifayətdir ki, Əta Tərzibaşı atalar sözünə tərif vermişdir: «Atalar sözü xalqa gözəl yol göstərən, çeşidli görüş və düşüncələrin təmsili olaraq anladan, basma qəlib biçimində qısa, fəqət geniş, həm də toplu anlamlı hikmət ifadə edən kinayəli, çəkici və yararlı söz ki, xalqın lisan halı olmuşdur» (135, 8).

Elə buradaca Əta Tərzibaşı göstərir ki, bu tərifdən kənarda qalan təbirlər, deyişlər, vəsflər, bəddualar (qarğışlar), söyüşlər, təşbihlər və s. atalar sözləri sırasına keçmir. Bununla belə, «Doğruluq dost qapısıdır», «Qılı yağdan ayırır», «Yorğan getdi, qovğa bitdi», «Allah dəvəyə qanad versəydi, bütün damları yıxardı», «Bir dərdlinin dərmanın o dərdə düşəndən al», «Əyri ağac düz olmaz, rəndə vursan yüz yerdən»,

«Yatan aslan olursa, fürsət hə ayağında» və eləcə də ayrı-ayrı tanınmış şəxslərin məşhur kəlamlarını da Əta Tərzibaşı təəssüf ki, atalar sözləri sırasına daxil etməkdən çəkinmişdir (135, 6, 7).

Əta Tərzibaşı, eyni zamanda atalar sözləri ilə məsəlləri ayırmağın çətinliyindən söz açaraq xüsusi qeyd edir ki, kitabda verdiyi kəlamlar arasında atalar sözləri olmayanlara da təsadüf edilə bilər. Lakin onların sayı çox olmamalıdır (135, 8).

Doğrudan da, kitabda atalar sözü olmayan məsəl və ifadələr də yer almışdır. Məhz buna görə də tədqiqatçı bu ifadələrin yaranması və mənasından söz açmalı olmuşdur. Məsələn: «Ağa bağından gül bağışlayır», «Sığır başı küpdə ası qalıb», «Əhməd ağaya anlat», «Türkman oğlu köç eylədi, seyran bunun sonundadı», «Həmavinin kor bəgiri kimin axır gətirib», «Saqqalını təraş etdi, əlinə güzgü verdi», «Qaçanı tut, qalan malımızdı», «Qalxdın öz evini yıxdın, düşdün xalqın evini yıxdın», «Nənəniz dərd yesin, hər biriniz yarım verin, dörd yesin», «Kifr Əhməd kifr oxur, yerin görər oxur», «Həm satar, həm su qatar, həm də bərabər atar», «Yem borusu çalır» və s. belələrindəndir.

Göründüyü kimi, quruluş və məzmun etibarilə bir-birinə çox bənzəyən, hətta ilk baxışda aralarında heç bir fərq olmadığı zənn edilən atalar sözləri və məsəlləri ayırmaqda tədqiqatçı çətinlik çəkmişdir. Həqiqət naminə demək lazımdır ki, «Atalar sözü və məsəllər arasında kəskin həd çəkmək qətiyyən mümkün deyildir» (196, 22). Təsadüfi deyildir ki, Azərbaycan atalar sözlərinin yaranması, təkamülü və dil xüsusiyyətlərinə dair sanballı əsərində dilçi alim Z.Əlizadə haqlı olaraq qeyd edir ki, nəinki Azərbaycan və ya sovet alimləri, eləcə də əcnəbi alimlər atalar sözü və məsəllərin fərqini göstərə bilməmişlər (64, 50, 51).

Bunun əsas səbəbi atalar sözü və məsəllərin bir-birinə bənzəməsi, aralarında elə bir həddin görünməməsidir. Yeganə

fərq tədqiqatçıların göstərdiyi kimi, atalar sözlərinin tamamilə aydın və bitkin bir fikir, hökm ifadə etməsində, məsəllərin isə el arasında kiminsə başına gəlmiş bir hadisə, söhbət və s. ilə əlaqədar yaranan qısa və oynaq bir ifadə olmasındadır (119, 5; 167, 162, 166; 202, 17).

Böyük rus alimi V.İ.Dal hələ vaxtilə göstərmişdir ki, «Məsəl xalq arasında gəzən, ancaq hələ tamam atalar sözü təşkil etməyən, səlis, qısa danışıqdır» (185, 395).

Tədqiqatçı B.Tahirbəyov isə bu incə məsələdən danışarkən qeyd edir ki, atalar sözləri və məsəlləri səciyyələndirmək üçün vahid, özü də çox sadə meyar vardır: bunları, bir qayda olaraq, «Məsəl var, deyərlər...» söyləmi ilə başlamaq olar (132, 7).

Maraqlıdır ki, Ə.Hüseynzadənin kitabı «Atalar sözü» adlansa da, B.Tahirbəyovun göstərdiyi kimi, əsasən, məsəllərdən ibarətdir (132, 11).

Deməli, atalar sözü və məsəlləri ayrı-ayrılıqda toplayıb tədqiq etmək həm çətin, həm də məqsədəuyğun deyildir. Çünki tək bircə sözü artırıb-əskiltməklə biri digərinə keçə bilir (186, 20). Maraqlıdır ki, İ.İbrahimov «Adam ağzından söz, qazan altından köz» məsəlini misal göstərir və qeyd edir ki, bu məsəldən atalar sözü düzəltmək üçün ona «çıxar» sözünü artırmaq kifayətdir (72, 123).

Demək lazımdır ki, bu xüsusiyyət Kərkük atalar sözü və məsəllərində də belədir. Məsələn, «Nə söyüd ağacınnan bar, nə arsızdan ar», «Nə beşdə alacağım, nə onda verəcəyim», «Əkmək eldən, su göldən» məsəllərinə «gözlə», «var», «gələr» sözlərini artırmaqla atalar sözü alınır:

Nə söyüd ağacınnan bar gözlə, nə də arsızdan ar.
Nə beşdə alacağım var, nə onda verəcəyim.
Əkmək eldən gələr, su göldən.

Göründüyü kimi, bircə sözün artırılması və ya çıxarılması ilə məsəllər atalar sözünə və əksinə çevrilir. Belə olan halda,

onları ayrı-ayrı janrlar kimi tədqiq etmək, bizə qalırsa, məqsədəuyğun deyildir. Bəlkə də, dilçilik baxımından atalar sözü və məsəlləri ayrılıqda tədqiq etməyə lüzum vardır. Bizcə, folklorşünaslıq baxımından «müəyyən münasibətlərlə, yalnız nitqi qüvvətləndirmək, fikri əlavə məna yükü ilə şərh etmək üçün cümləni müşayiət edən» (64, 56) atalar sözü və məsəlləri ayrılıqda tədqiq etməyə elə bir ehtiyac yoxdur.

Bununla belə, bəzi tədqiqatçılar «Atalar sözünü məsəllərdən ayırmaq və folklorun müstəqil janrı kimi tədqiq etmək lazımdır» (195, 24) qənaətinə gəlmişlər.

Maraqlıdır ki, iraqlı tədqiqatçı İhsan Vəsfi bu yolla gedərək məsəlləri atalar sözlərindən ayırmış və onları ayrı-ayrı bölmələrdə vermişdir. Lakin kitabın 260 səhifəsini əhatə edən «Deyimlər» bölməsində məsəllərdən əlavə frazeoloji birləşmələr, vəsflər, qarğışlar, təşbihlər, qoşa sözlər, hətta adicə ifadələr belə yer almaqdadır (80). Məsələn: Zəhmət olmazsa, zərər qədər, yuxu görmək, yuxudan olmaq, yol üstü, yol kəsmək, yox canım, yerli-yersiz, bir sürü, birnəfəsə, acığı gəlmək, adı batsın, arvad-kişi, aşağı-yuxarı, alın təri, ara-sıra, birdən-birə və s.

Tədqiqatçı bir çox atalar sözünü məsəllər bölməsində verməklə də dolaşıqlığa yol vermişdir. Məsələn:

Bu xamır çox su götürər.
Bu ölü, bu şivənə dəyməz.
Əkmədik bostan, yemədik qarpız.
Evdəki hesab bazarda çıxmaz.
İldən-aydan bir namaz, o da haqqa yaramaz.
Qarnı quruldar, üstü parıldar.
Qazan yuvarlanar, öz qapağını tapar.
Qızım sənə deyirəm, gəlinim, sən eşit.

və onlarca başqaları.

Ə.Bəndəroğlunun kitabında isə atalar sözləri ərəb, kürd, alman, əfqan, İndoneziya, ispan, rus, portuqal, yapon, fransız, bolqar, benqal, hind, gürcü, Vyetnam, ingilis, Koreya və fin atalar sözləri ilə müqayisəli şəkildə verilir. Məsələn: At almazdan axur yapır; kürdcə: Atı yoxdur, axur yapır.

Tədqiqatçı, eyni zamanda hər bir atalar sözünün mənasını öz sözləri ilə açır. Təəssüf ki, Ə.Bəndəroğlunun kitabında da atalar sözü və məsəllərin mənşəyi və yaranma yolları baxımından təhlilinə heç bir təşəbbüs göstərilmir. Demək lazımdır ki, atalar sözü və məsəllərin mənşəyini xronoloji şəkildə tədqiq etmək asan olmasa da, şifahi xalq ədəbiyyatının başqa janrları kimi «öz xüsusi yolu ilə tarixə yoldaşlıq edən», «xalqın bir növ açıq kitabı olan», hər nəslin oraya öz istək və arzularını, ictimai-tarixi həyat mübarizəsindən doğan nəticələr qeyd edib getdiyi, bu zəngin xəzinə içərisində tədqiqat üçün böyük əhəmiyyətə malik olan, öz keçmişimizi öyrənməkdə bizə bir növ bələdçilik edən (72, 128) atalar sözləri və məsəllərin bir çoxunun uzaq keçmişlərlə bağlı olduğunu görmək o qədər də çətin deyil.

Məsələn:

Əkən öküz, biçən öküz, xırmana gələndə ho... ho...
Ev buzovu cütdə olmaz.
Adı biçindədi, orağı qırıxdı.
Quş var əti yeyilir, quş var ət yedirdilir.
Talesiz uşağın anasını al aparar və s.

kimi atalar sözləri xalqın uzaq keçmişi, adət-ənənələri ilə bağlı maraqlı məsələlərdən söz açır. Burada əvvəlinci üç atalar sözü cütçülük dövründən bəhs edirsə, dördüncü atalar sözü ovçuluqla əlaqədar meydana gəlmişdir. «Talesiz uşağın nənəsini al aparar» atalar sözündə isə Azərbaycan folklorunda olduğu kimi, Kərkük dolaylarında da, arxaik janrlardan göründüyü kimi, xalqın qədim inam və etiqadının izinə düşü-

rük. Demək lazımdır ki, rəvayət və əfsanələr atalar sözlərinin yaranmasında müəyyən rol oynamışdır. Bunu biz Şərqdə məşhur olan «Leyli və Məcnun» əfsanəsi ilə bağlı yaranmış atalar sözündə də görürük: «Nə Leyli xəstə düşsün, nə Məcnun can versin».

Atalar sözləri və məsəllər müxtəlif yollarla: ayrı-ayrı mərasimlərdə, iş başında zəhmətlə əlaqədar, şifahi və yazılı ədəbiyyat və s. ilə bağlı yaranırlar. Folklorun həm epik, həm də lirik janrlarından nağıl, tapmaca, dastan, lətifə, bayatı və laylalarla əlaqədar yaranmış xeyli atalar sözü və məsəllər vardır. Bu janrlar atalar sözü və məsəllərin yaranma mənbəyi kimi diqqəti cəlb edirlər. «Yuxu ölümün qardaşıdı» – nağıllarla əlaqədar yaranmışdır. «Gələn gedər, gedən dönməz», «Yeyər öz budu ətin, çəkməz qəssabın minnətin» atalar sözləri tapmacalarla bağlı yaranmışdır. Kərkük dolaylarında qəribə, gülməli, adamı mat qoyan bir hadisə baş verəndə «Molla Nəsrəddin hekayəti oldu» – deyərlər. Burada Molla Nəsrəddin lətifələri ilə bağlı olan atalar sözləri və məsəllər də geniş yayılmışdır:

«Hər gözəlin bir eybi olar», «Paranı verən düdüyü çalar», «Yorğan getdi, qovğa batdı», «Əlinin xəmri ilə kişi işinə qarışma», «Kişinin sözü bir olar», «Allah dəvəyə qanad versəydi, bütün damları yıxardı», «Molla diri olaydı, eşşəyini qurd yeyəydi» və s. belələrindəndir.

Türkman folklorunda məşhur olan «Arzu–Qəmbər» dastanı ilə bağlı atalar sözləri də yaranmışdır:

«Qəmbərsiz düğün olmaz», «Bəsləmə yad ördəgin, vətən arzular gedər». İkinci atalar sözü bayatının tərkib hissəsi kimi daha yaxşı təsir bağışlayır:

Arzular gedər;
Qəmbər – Arzular gedər.
Bəsləmə yad ördəgin,
Vətən arzular gedər.

Maraqlıdır ki, «Qəmbərsiz dügün olmaz» Azərbaycan folklorunda da öz əksini tapmışdır:

«Bayraməlisiz toy olmaz, Qəmbərsiz düyün».

Demək lazımdır ki, Türkman folklorunda bayatı və laylalarla işlənən onlarca atalar sözü və məsəllər vardır. Burada bayatı və laylaların atalar sözünü təşkil etdiyi misralardan bəzi nümunələr verməklə kifayətlənəcəyik: «Keçmə namərd körpüsündən, qoy aparsın su səni», «Tərəzin əyiləndə hər gələn bir daş atar», «Qanana bir söz yetər, qanmayana yüz oxu», «Əgri ağac düz olmaz, rəndə vursan yüz yerdən», «Gedən gün geri dönməz, günü-günə calasan», «Can hər şeydən şirindi, ondan da bala şirin», «Bir dərdlinin dərmanın, o dərdə düşəndən al», «Övladın qeydinə qal, kor olmasın ocağın» və s.

Maraqlıdır ki, Türkman folklorunda bütün misraları ayrılıqda atalar sözündən ibarət bayatılara da təsadüf edilir. Məsələn:

Əkmə bitməyən yerə
Can ver itməyən yerə.
Ayaqlar necə varsın,
Könül getməyən yerə.

Klassik və müasir şair və yazıçılar da yaradıcılıqlarında çoxlu atalar sözü və məsəllərdən istifadə etmişlər. Bu baxımdan Nəsimi xüsusilə fərqlənir. Şair, demək olar ki, bütün şeirlərində atalar sözü və məsəllərdən məharətlə istifadə edib, ölməz əsərlər yaratmışdır:

Çün hər nə kim əkərsən, axır biçərsən anı.
Söz bilənə yetər bir söz, özgə sualə düşməsin.

Ey Nəsimi aqibət verər yelə,
Bivəfa ilə yeyən nanu nəmək və s.

atalar sözləri bu qəbildəndir (107, 7).

Türkman atalar sözləri və məsəllərinin folklorun başqa janrlarında və eləcə də bədii ədəbiyyatda gen-bol işlədilməsi, onların başqa janrlar arasında tutduğu yeri dərk etmək üçün müəyyən təsəvvür yaradır.

Demək lazımdır ki, Kərkük dolaylarında Molla Nəsrəddindən əlavə, başqa tarixi şəxsiyyətlər və hadisələrlə bağlı yaranmış çoxlu atalar sözü və məsəllər də vardır. Məsələn: «Altunu yez (mis), atlası bez qoryalılar», «Cümə daşı atmaq», «Həmavinin kor bəkiri kimi axır gətirmək», «Həsən-Hüseyn üçün deyil, həlim üçün şivən edir», «Qaçanı tut, qalan malımızdı», «Qalxdın öz evini yıxdın, düşdün xalqın evini yıxdın».

Lolo, lolo, mənə də lolo!
Nənən yesin dərd yesin, yarımşərdən dörd yesin.

«Rəhmət kəfən çalana», «Sığır başı küpdə ası qalıb», «Ağa bağından gül bağışlayır», «Əhməd ağaya anlat», «Türkman oğlu köç eylədi, seyran bunun sonundadı», «Saqqalını təraş etdi, əlinə güzgü verdi», «Həm satar, həm su qatar, həm də bərabər atar» və s. bu qəbildəndir.

Bu atalar sözü və məsəllərin yaranma yeri və münasibəti Əta Tərzibaşı və İhsan Vəsfinin kitablarında öz əksini tapmışdır (135; 80).

Burada atalar sözü və məsəllərin yaranma yeri və şəraitini göstərən iki nümunə verməklə kifayətlənəcəyik.

«Altunu yez, atlası bez» – Ələ salmaq, başa qaxmaq anlamında işlənən bir məsəldir. Xasa çayı Kərkükü iki yerə bölür. Şəhərin Qala hissəsində yaşayanlara qalalılar, qarşıyaxada yaşayanlara qoryalılar deyirlər. Belə nəql edirlər ki, keçmişdə bu iki yaxada yaşayan sakinlər arasında tez-tez mübahisə, söz-söhbət olarmış. Qoryalıların yarı hənək, yarı gerçək, bir az da istehza ilə qalalıların ünvanına dedikləri yuxarıdakı ifadə xalq arasında bir məsəl kimi qalmışdır.

«Qalxdın öz evini yıxdın, düşdün xalqın evini yıxdın».

Bu atalar sözü, bir şəxs həm özünə, həm də başqalarına ziyan gətirən bir hərəkətə yol verəndə işlənir. Belə nəql edirlər ki, Osmanlılar dövründə türk polisləri Kərkükə yaxın Bayat köylərindən olan Bəşir kəndinə bitişik bir tarlada gəzərkən birdən qarşılarından bir dovşan qalxır. Dovşanı ovlayır və kəndin Muxtarı Nurulla Qayanın evinə gətirərək qovurmalarını arzu edirlər. Səfəvi türklərindən olan göy xalqı şiə olduğundan və dovşan şiələrə görə haram buyrulduğundan Nurulla kişi odla-su arasında qalır. Türk polislərinin sözünü yerə salmaq xatalı iş idi. Odur ki, çar-naçar qalan ev sahibi dovşanın qulağından yapışıb mətbəxə tərəf sürükləyərkən «Qalxdın öz evini yıxdın, düşdün xalqın evini yıxdın» – demiş ki, bu kəlam indi də xalq arasında məşhurdur.

Qeyd etmək lazımdır ki, sırf yerli mühitlə bağlı yaranmış ölkəşünaslıq elmi baxımından böyük əhəmiyyət kəsb edən atalar sözləri və məsəllərə də Türkman folklorunda bol-bol təsadüf edilir:

Hələb ordasa, arşını burdadı.
Kərkükü yalan, Ərbili siçan, Bağdadı seylan apardı.
Kərkükün qalası var, yerlisinə bəlası var.
Yuxarı Zivədə dilənər, Aşağı Zivədə paylar
(Kərkükdə məhəllə adları).

Yanlış hesab Bağdaddan dönər.
Balı olanın çibini Şamdan gələr.
Bağdad kimin şəhər, qardaş kimin yar olmaz.
Bağdada girən peşman, çıxan peşman və s.

atalar sözləri və məsəllər nəinki coğrafiyanı, tarixi yerləri və s. öyrənmək baxımından, eləcə də tarixi həqiqətləri bilmək, dərk etmək yolunda əvəzsiz xəzinəyə çevrilir.

Bəzi atalar sözləri və məsəllər insanın qüdrəti, iradəsi xaricində olan məntiqi davamiyyət, labüd həqiqətlərin nəticəsi kimi yaranmışdır:

Əgər xoruz banlamasa da, sabah olur.
Yaş yetmiş, iş bitmiş.
Səksən, doxsan, aqibət bir gün yoxsan.
Gənclik bir quşdu, uçdu tuta bilməzsən.
Dünya bir pəncərədi, hər gələn baxar gedər və s.

Bir çox atalar sözləri və məsəllər müəyyən adət-ənənələrlə əlaqədar yaranmış, zaman keçdikcə öz əvvəlki mənasını dəyişmiş, yeni məzmun kəsb etmişdir. Məsələn:

Mən bismillah deyincə, o əlhəmdullah dedi.
Naxırçılıq edir, əkmək, yığmaq eybinə gəlir və s.

Kərkük atalar sözlərinin məzmun xüsusiyyətlərindən danışarkən, hər şeydən əvvəl, qeyd edilməlidir ki, Azərbaycan folklorunda olduğu kimi, burada da «atalar sözləri bir yaradıcılıq məhsulu olmaq etibarilə heç bir bağlı həqiqəti açmır, əksinə, kəşf edilmiş həqiqətləri ifadə edir. Bilavasitə mövcud olan həqiqətlərin hər hansı şəkildə ifadə edilməsi isə həyatın müşahidə və sınaqlarından doğur. Başqa cür desək, atalar sözü müşahidə və sınaq yolu ilə dərk edilmiş bu və ya digər gerçəkliyin ifadə vasitələrindən biridir» (72, 152).

Məsələn:

Saqqalını dəyirmanda ağardıb.
Gül tikansız olmaz.
Dolmada bir şey yoxsa nişin sarınır.
Dəvə quşu kimi gizlənmək istəsə başını quma soxar.
Lalın dilin nənəsi bilər.
Sel önündən kötük tutulmaz.
Sözü ya uşaqdan, ya dəlidən al.

Doğrudan da, atalar sözü və məsəllərin məna və məzmununa fikir verdikdə onların müşahidə və ya sınaq yolu ilə yaranmış olduğunu açıqca görmək olur. Məsələn:

«Ağacdan maşa olmaz, cingənədən paşa», «Qudurmuş köpəyin ömrü qırx gündü» və s.

Birinci atalar sözü öz mənşəyini sınaqdan, ikincisi isə müşahidədən almışdır. İkinci misalda maraq doğuran cəhətlərdən biri də «qırx» sayı ilə bağlıdır. Türkman folklorunda bu ədədin işləndiyi başqa atalar sözlərinə də təsadüf edilir. Məsələn:

Qırxınnan sora saz alışır.
Ver qırxı, çəkmə qorxu.

Gözəllikdən qırx gündə doyulur, gözəl xoydan qırx ildə doyulmaz və s.

«Qırx» ədədi ilə atalar sözlərinin məcazi mənasını bir yana qoyaraq, onların həqiqi mənasından çıxış etsək qəribə bir mənzərənin şahidi oluruq.

Qudurmuş köpəyin qırx gündə ölməsi, it dişləyən adama hər gün bir iynə hesabı ilə qırx gün ərzində iynə vurulması, xəstələnmə təhlükəsi qırx gün davam etməsi, ölünün qırxının ənənəvi mərasim kimi qeyd edilməsi, zahı qadının və uşağın qırxı çıxana qədər kənar şəxslərlə təmasda olmasının təhlükəsi və s. kimi məsələlərin bizə belə gəlir ki, təkcə təbiət hadisələri ilə əlaqələndirilməsi doğru deyildir. Burada təbabətlə bağlı məsəllər göz qabağındadır.

Qeyd etmək lazımdır ki, atalar sözləri və məsəllər ictimai həyatı əks etdirmək baxımından da maraq doğurur. Həm də onu sadəcə olaraq əks etdirmir, özünəməxsus bir tərzdə təhlil edir, özü də bəhs etdiyi hadisələrin baş verməsi səbəbini göstərir.

Məsələn:

Bir dağ yıxılmazsa, bir dərə dolmaz.
Çayır öz kökü uzərində bitər.
Divar yıxılanda tozu çıxar və s.

Türkman atalar sözləri məzmun və mənasına görə rəngarəngdir. Onları Azərbaycan folklorunda olduğu kimi, mövzular üzrə qruplaşdırmaq olardı. Onları həm H.Zeynallının (27), həm H.Qasımovun (158), həm də Ə.Hüseynzadənin aşağıda verilmiş bölgüsünə əsasən təsnif etmək olardı. Məsələn: Vətən-qürbət; Yazı-kəlam; Kamil-cahil; Doğru-yalan; Gözəl-çirkin; Arzu-tale; Ailə, Böyük-kiçik; Dost-düşmən; Mərd-namərd; Yaxşı-yaman; Dərd-dərman; Kədər-sevinc; Səbəb-nəticə; Əməl-qanun; Səyli-avara; İksan; Yemək-içmək; Ev-eşik; Kəndli-təsərrüfat; Xərc-qazanc; Varlı-yoxsul; Dirilik-axirət; Məqam-dövran; Kainat; Mədən-hasilat; Şəhərkənd; Bitkilər; Heyvanlar; Quşlar; Gəmiricilər; Balıqlar; İlan-qurbağa; Qurd-quş-həşərat (28) və s.

Bizə qalırsa, atalar sözləri və məsəlləri mövzular üzrə deyil, məcazi mənası və məzmununa görə təsnif edərək tədqiq etmək daha məqsədəuyğundur. Onları mövzular üzrə təsnif etdikdə ortaya bir çox çətinliklər çıxır. Məsələn: «Atnan eşşək nallandı, qurbağa qıçın qaldırdı» (135, 11; 73, 7) atalar sözünü «heyvanlar» və ya «İlan-Qurbağa» bölməsində vermək məsələsində ortaya çətinliklər çıxır. Başqa bir tərəfdən də məcazi mənada işlənərək «kimsəsiz», «köməksiz» mənasını verən «Biz çobansız qoyuna bənzəyirik» və s. kimi atalar sözü və məsəlləri, ümumiyyətlə, hansı bölmədə vermək müşkül məsələyə çevrilir. Məhz buna görə də atalar sözləri və məsəllərin təsnifində mövzu ilə bərabər, ideya, məzmun, çoxmənalılıq və məcazi mənaya xüsusi fikir verilməsi həm elmi, həm də təcrübi cəhətdən məqbul sayıla bilər. Bəzi tədqiqatçıların çoxmənalı və çoxvariantlı atalar sözlərinin ən qabarıq mənalarına üstünlük verərək, qalanlarını hesaba almamaq fikri ilə razılaşmaq olmaz (72,167).

Aqil babaların ikicə sözlə bir dastan yaratdığı, hər birində «tam kitablar dolusu ağıl və hislər olan» (182, 114), formaca kiçik, mənaca dərin, xalq hikməti, xalq zəkası, xalqın əsrlərdən bəri əldə etdiyi sınaq, müşahidə, bilik və təcrübələri ümumiləşdirən atalar sözü və məsəllərin Türkman folklorunda da bütöv xalq yaradıcılığı olduğundan əhatə dairəsi çox genişdir. Onların belə geniş yayılmasına gətirib çıxaran amillərdən biri onların çoxmənalılığıdır. Bu kimi atalar sözlərində istər dil, istər etnoqrafiya, tarixilik və s. baxımından əvəzsiz material vardır. Belə olan halda onları nəzərə almamaq doğru olmazdı. Başqa bir tərəfdən də, əsrlərdən bəri qranit daşlardan süzülüb gələn saf suya bənzəyən, nəsldən-nəslə keçən, sabitləşən, xalq təfəkküründün güzgüsü olan atalar sözləri və məsəlləri saf-çürük etmək nə qədər məqsədəuyğun olardı? Misal üçün «Ot kökü üstə bitər» və «Çayır öz kökü üzərində bitər» atalar sözlərinin bir-birinə yaxın olması zənn edilsə də, ayrı-ayrı mənalarda işlənirlər. Daha doğrusu, «Ot kökü üstə bitər» müsbət, «Çayır öz kökü üzərində bitər» mənfi mənada işlənir.

Türkman atalar sözü və məsəllərini tədqiq və təsnif edərkən diqqət yetirilməli məsələlərdən biri də iki hissədən ibarət atalar sözünün hansı tərəfinə üstünlük vermək məsələsidir. Məna, məzmun və asılılığına görə bəzi atalar sözü və məsəllərdə üstünlüyü birinci tərəfə, bəzilərində isə üstünlüyü ikinci tərəfə vermək lazım gəlir. Məsələn:

Fəqirin parası kimin, dostu da az olar.
Can paranı gətirər, para canı gətirməz.
Dəgirman işin görər, çaq-çaq baş ağrıdar.

kimi atalar sözlərində üstünlük birinci tərəfə verilmişdir. Çünki mənaya görə ikinci tərəfdəki iş, hal-hərəkət və s. birinci tərəfdən asılı olur.

Şıq-şıq edən nalçadı, iş bitirən axçadı.

Həsən-Hüseyn üçün deyil, həlim üçün şivən edir və s. kimi atalar sözü və məsəllərdə isə üstünlük ikinci tərəfə verilməlidir.

Maraqlıdır ki, Türkman folklorunda hər iki tərəfi eyni dərəcədə bərabər mənaya malik olan atalar sözləri və məsəllərə də təsadüf edilir. Məsələn:

Çox söz yalansız olmaz, çox mal haramsız. Hərənin bir dərdi var, dəgirmançının da su dərdi. Nə söyüd ağacınnan bar, nə arsızdan ar. Divarı nəm yıxar, insanı qəm və s.

Məlumdur ki, atalar sözü və məsəllər hər hansı bir fikri və ya müddəanı əsaslandırmaq üçün ən yaxşı vasitədir. Bu vasitəçilik atalar sözünə xas olan yolla aparılır. «Bu yol oxşar hadisələrdən ikincisini, birincidən alınmış əqli nəticələr vasitəsilə təsbit etmək yoludur. Çox zaman atalar sözlərini müstəqim mənada, yəni özünün ilk mənasında götürdükdə, onu heç bir başqa hadisəyə bağlamadıqda mənasız görünür. Məsələn, «Yanan yerdən tüstü çıxar». İlk baxışda bu ifadə çox yüngül və adi görünür. Lakin bu ifadə məcazi mənada işləndikdə «səbəb olmasa, nəticə olmaz» kimi dərin bir məzmun kəsb edir» (72, 154).

Bu xüsusiyyət Türkman atalar sözləri və məsəlləri üçün səciyyəvidir. Məsələn, «Qazana nə qoysan, çömçəyə o çıxar», «Su cərrəsi su yolunda qırılar», «Hamama gedən tərlər», «Loxmanı çeynəməsən udulmaz», «Arı çiçəkdən bal edər», «Durğun su qoxuyar», «Ayaqyalın gəzənə tikan batar», «Köpəkdən olan, köpək olar» və s. Türkman atalar sözü və məsəllərində zehni tərbiyə, əmək tərbiyəsi, estetik tərbiyə, nəcib sifətlərin, mənəvi-əxlaqi təmizliyin tərənnümü, eləcə də bəşər övladına xas olan mənfi sifətlərin tənqidi və islah olunması üçün çıxış yolları qırmızı xətt kimi keçir.

Burada da xalq ağlı, kamalı, hikməti, müdrikliyi yüksək qiymətləndirir. Xalq təcrübəsi olduğundan hikmətli söz hədəfə sərrast dəyir:

«Əql insanın yarıdır», «Əql cəvahir daşıdır, o da başda», «Əql harda, dövlət orda», «Əqlsiz başın zəhmətini ayaq çə-

kər» və s. Məhz buna görə də «Oxumaq iynəynən gor qazmaq qədər zor» olsa da, xalq biliklərə yiyələnməyə, zəhmət çəkməyə səsləyir. Kərkük atalar sözləri və məsəllərində insanın ləyaqəti, qabiliyyəti zəhmətlə ölçülür. Əmək, zəhmət insanı ucaldan, ona səadət və rifah gətirən, onu nəcibləşdirən bir nemət kimi yüksək qiymətləndirilir. Əmək sağlamlıq, gümrahlıq mənbəyi kimi göstərilir, canın cövhəri hesab olunur. Hətta istedad özü də əməyin nəticəsində parıldayır, səadət gətirir: «Dünya yaz ikən, qış tədbirinə bax», «Bağ dayə yox, belçə istər», «İşləyən dəmir pas tutmaz», «Halva deməklə ağız şirin olmaz», «Hərəkət olmazsa, bərəkət olmaz», «Cəfa çəkməyən səfanın qədrini bilməz» və s.

Zəhmətə, əməyə yüksək qiymət verən xalq atalar sözü və məsəllərdə tənbəlliyi bir bəla kimi pisləyir, zəhmətdən qaçanları kəskin tənqid edir:

«Ver yeyim, ört yatım, bəlkə, ölməyim», «Dil ustası, iş xəstəsi», «Çox yatan ixtiyarlıq xəstəsidir» və s.

Atalar sözləri və məsəllərdə peşə və sənətə yiyələnmək təlqin edilir. Müdriklər insanları öz əməklərinə arxalanmağa çağırır:

«Sənət əldə altun bilərzikdir», «Hər şeyi ustasından al», «Sənəti ustasından öyrənməyən, öyrənməz», «Əkməgi əkməkçidən, altunu altunçudan sor», «Əkməgi əkməkçiyə ver, əgər yarısın yeyərsə də» qənaətinə gəlir.

Atalar «Əldə altun bilərzik olan sənəti» öyrədənə qarşı münasibətdə laqeyd və etinasız olmamağı, ustadın əməyini itirməməyi, onun qədir və qiymətini bilməyi, adını hörmət və ehtiramla yad etməyi təlqin və tövsiyə edir.

Atalar sözləri və məsəllərdə insanlara qeyri-adi dəqiqliklə qiymətli məsləhətlər, öyüd-nəsihətlər verilir. Dərk edənə onların bəhrəsinin əvəzsiz olduğundan söz açılır. Məsələn:

«Qarıncadan ibrət al, yazkən qışı düşün», «Körpüdən keçməyincə ayıya dayı deyərlər», «Həyasızнan üz-göz olma»,

«Ağac qabalığından qırılar», «Özünü başqasına nərdivan etmə», «Zərərin yarısından dönmək kardı», «Balıq sudaykən bazarlıq olmaz», «Fitnəlik fənalıq köynəyidir» və s.

Xalq insanları işgüzar olmağa, işi vaxtında görməyə səsləyir: «Qalana qar yağar», «İlk atılan daş uzağa düşər», «Ağac yaş ikən əyilməzsə, əyilməz», «Bu günün işini yarına (sabaha) qoyma, bəlkə, yarın sənə yar olmadı» kimi hikmətli sözlərlə hökmünü qətiləşdirir. Vaxtsız, yersiz, mənasız işdən kənara durmağı məsləhət görür:

«Qaranlıq yerə tüfəng sıxır», «Əlin boşsa şahid ol, paran çoxsa kəfil (zamin) ol», «Bığdan kəsir, saqqala qoyur», «Balığı bulanlıq suda ovlayır» və s.

Ataların rəyincə xoşbəxt o adamdır ki, müdrik sözləri, xoş rəftarı, şirin danışığı, mədəni davranışı ilə başqalarına nümunə olur, dilini saxlamağı bacarır:

«Gözəl ona deyərlər gözəl qonuşsun», «Xoş sözlə ilan yuvasından çıxar», «Bişmiş boğazdan çıxan söz kimsəni incitməz», «Can nə çəkərsə dil üzündən çəkər», «Söz var xülq içində, söz var xalq içində», «Söz var şahid istər, söz var şahidi özündədi», «Heyvan ayağından, insan dilindən» və s.

Kərkük dolaylarında başqalarına qarşı münasibətdə özünə qarşı tələbkar olmağı, başqalarına xor baxmamağı tövsiyə edən hikmətli kəlamlar da çoxdur: «Gülmə qonşuna, gələr başına», «Nə şaşqın ol basıl, nə daşqın ol asıl», «Nə qorxulu röya gör, nə minbərə möhtac ol», «Nə gələnnən üz çevir, nə gedəni qovan ol», «Nə şeytan gör, nə qulvallahı oxu» və s.

Atalar onu da təkidlə tövsiyə edib ki, «Bişmiş aşa su tökən», «Əsgi yara üstünə yengi fitil qoyan», «Əsgi xarmanı sovuran» araqatan, paxıl adamlardan kənar gəzmək lazımdır. «Doğru ol, aslan yolunnan get» – deyən atalar, onu da agah edir ki, «Eşşəyi öldürənə sürüklədərlər», «Nə əkərsən, onu biçərsən», «Günahından saqınmayan öz suçuna giriftar olar», «Zalımın xanəsi viran olar».

Atalar, eyni zamanda tədbirli, ehtiyatlı, siyasətcil olmağı, bir iş tutanda sonunu düşünməyi məsləhət görür. Çünki «Qarıncanın da düşməni var», «Divarın da qulağı var», «Düşmən kiçik də olsa, böyük iş görər», «Dünya tükənər, düşmən tükənməz», «Qurdun dəvətinə gedən köpəgini bərabər almalıdır».

Bununla belə, atalar həddən artıq ehtiyatlı, qısqanc olmağı da məsləhət görmür. Çünki «Qısqanan gözə çöp düşər», «Qorxu başa bəladı», «Donuzdan qorxan darı əkməz», «Qılınc qurşananın, at minənin, körpü keçənindir».

Atalar böyük uzaqgörənliklə tövsiyə edir: Ətrafda baş verən haqsızlıqlara göz yumma, laqeyd olma, heç vaxt demə:

«Nə beşdə alacağım, nə onda verəcəyim», «Qurd bizdən uzaq olsun, yediyi quyruq olsun», «Nə dağda bağım var, nə çaqqalnan davam var». Belə olsa xalqın gözündən düşərsən.

Atalar sözləri və məsəllərdə şeylərin və hadisələrin səbəbiyyətlə dəyişdirildiyi, hərəkətdə və inkişafda olduğu göstərilməklə, onların daxili ziddiyyətdə olduqları da öz əksini tapmışdır.

Adam hər düşəndə bir əql qazanır.
Atdan düşməyən (yıxılmayan) atlı olmaz.
Düşənin dostu olmaz, inanmırsan düş də gör.

Kərkük atalar sözü və məsəllərinin böyük bir qismi mal-dövlətlə bağlı yaranmışdır. Ataların qənaətincə çox mal-dövlət toplamaq mənasızdır: «Mal ya qərəz, ya mərəz gətirər», «Para əl kiridir», «Zənginlik könüldədi, malda deyil», «Hey dedi: malım-mülküm var, bir demədi ölüm var», «Mal sahibi, mülk sahibi, hanı bunun ilk sahibi», «Parası əziz olanın, özü zəlil olar» və s. kimi hər birində bir dünya hikmət olan bu atalar sözləri böyük mətləblərdən söz açsa da, xalq arasında «Çibin dərisi soyanlar», «Malını it, canını bit yeyənlər» hələ də çoxdur. Uşaq aşıq toplayan kimi mal-dövlət toplayan,

«Toppuzu dəyirman dolandıran», «Yetim əlində arpa çörəyini görüb ona tamah salan», «Malı ya babası ölmüşdən, ya kefi gəlmişdən alan» belə kimsələr «Paralıya «əfəndim», deyərlər», «Para paranı qazanar», «Para mollanı camədən çıxarar», «Əgər dərviş, əgər hənfiş, ağça ilə bitər hər iş» fikri ilə yaşayırlar.

Atalar var-dövlətlə bağlı, xalq arasında geniş yayılan bir çox başqa hikmətli kəlamlar da yaratmışdır:

«Malı gedənin imanı da gedər».
«Malın mal olmasın, bazarın bazar olsun».
«Mal da şirin, can da şirin» və s.

Atalar sözləri və məsəllərdə göz toxluğundan, eyni zamanda tamahkarlıq və acgözlüyün bəlasından da söhbət açılır. İnsanlara nəfslərini qorumaq təlqin edilir. Çünki göz toxluğu xoşbəxtlik, acgözlük, tamahkarlıq isə bədbəxtlik gətirir.

«Çox aş ya qarın ağrıdar, ya baş», «Az tamah, az ziyan gətirər», «Azacıq aşım, ağrımaz başım», «Alışmış qudurmuşdan betərdi», «Tamahkarın canı sağ olsun, müflis acınnan ölməz», «Ən böyük varlıq – sağlıqdır», «Saman sizin deyilsə, samanlıq sizindi» və s. bu qəbildəndi.

Atalar sözü və məsəllərdə insanlar qənaətcil olmağa dəvət olunurlar. Burada qənaətcilliyin nəfindən, qənaətcil olmamağın ziyanından bəhs edən neçə-neçə qızıl qiymətli atalar sözü və məsəllər vardır:

«Qənaət ən böyük səadətdir», «Varlıqdan yoxluğa var, gənclikdən ixtiyarlığa can saxla», «Var gününün yarmasının dar gününə nəfi var», «Saman deyər qaldır məni, yaramazsam yandır məni», «Yığdı qırpa-qırpa, verdi acı turpa», «Kömürün irisini, yağın durusunu karuva saxla», «Hər varlığın bir darlığı var» və s.

Xalq atalar sözü və məsəllərdə ehtiyac, yoxsulluq, borc və s. kimi, həyatda özünü göstərən məsələlərə də öz münasibətini bildirir:

«Allah bu əli o ələ möhtac eləməsin», «Yay fəqirin yorğan-döşəyidi», «Yoxsulluq atəşdən köynəkdi», «Borc isidər, öldürməz», «Fəqirin altununa yez (mis), zənginin yezinə altun deyərlər», «Yol yeriməklə, borc verməklə bitər», «Bir igid yoxsul olsa, ona əl-ayaq gülər» və s.

Xalq təkidlə hörmətin hörmətə bağlı olduğunu qeyd edir: «Göz yaşı da borcnandı», «Əl əli yuyar, əl də dönər üzü yuyar», «Əyiliyə qarşı əyilik bəslənir» və s.

Eyni zamanda yalnız öz xeyri üçün çalışanları, öz xeyrini güdənləri xalq kəskin tənqid edir:

«Kərki kimi öz önüvə çəkirsən», «Kərki öz sapını kəsməz», «Qoca gedər asılmağa, qarı xına istər», «Keçi canı vayında, qəssab piy hayında» və s.

Türkman atalar sözləri və məsəllərində səxavətlilik, xeyirxahlıq, əliaçıqlıq kimi müsbət xüsusiyyətlər də layiqli yer tutmuşdur:

«Verən əl dərd görməz», «Verən əli hər kəs sevər», «Vursan öldür, yedirtsən doydur», «Qıy ağçaya, gir bağçaya», «Loxma qarın doydurmaz, məhəbbət artırar», «Öz düşmənini şəkərlə boğur», «Xeyirsevərlik zənginlikdən daha fəzlə dost yığar», «Xeyir istə qonşuva, xeyir gəlsin başuva» və s.

Xalq, eləcə də haqsızlıq, ədalətsizlik, ictimai bərabərsizlik olan yerdə mütləq narazılıqlar baş qaldıracağını bəyan edir: «Biri yeyər, biri baxar, qiyamət onda qopar», «Qoyun da keçi ayağına gedərmiş», «Kimi su tapmaz içməyə, kimi yol tapmaz keçməyə», «Davaçı qazı olsa, imanıvu Allaha ismarla» və s.

Odur ki, atalar xalqı insaflı olmağa, yaxşı münasibətdə olmağa, dost olmağa çağırır. Xalq «Qərib dostu olmayandır» – deyir. Dostluğun, yoldaşlığın yolu, əhatə dairəsi, qiyməti və s. atalar sözləri və məsəllərdə öz əksini layiqincə tapmışdır:

«Alış-veriş misqalnandı, dostluq qan-tərlə», «Doğruluq dost qapısıdı», «Dost şəkər də olsa, hamısını birdən yemə», «Dost məni bir qozla ansın, o da pük (çürük) olsun», «Əsl dost yəhərli ata bənzər», «Yoldaş yolda sınanar», «Sirrinə yetik olmadığın dost, dost deyil», «Sirkənin, hamamın və dostun əskisi əyidi» və s.

Xalq bəzən müəyyən münasibətlə dostluq edənləri tənqid edir.

Belələri haqqında deyilir: «Daşın böyüyü dostdan gələr», Etibarsız adamlar haqqında da hədəfə sərrast dəyən: «Bağında gül var ikən gül gözüvə, bağından gül tükəndi, kül gözüvə» kimi dərin mənalı atalar sözü bu qəbildəndir.

Xalq etibarsız, vəfasız adamları namərd adlandırır və qəti hökmünü verir: «Namərdə bel bağlama, qırar belivü», «Namərd arxadan söz deyər», «Namərd əlinnən su içmə, ab-həyat da olsa», «Dənizə qərq ol, namərdə boyun əymə», «Köpəyə yaltanma, qoy aslan yesin səni», «İnsan olan bir dəfə ölər», «Ya mərd ol meydana gir, ya bir mərdə xidmət et» və s.

Hər yerə özünü soxan, «harda aş, orda baş» olan kimsələr haqqında İraq–Türkman atalar sözü və məsəllərində deyilir:

Nə bahardı, nə də küz, hardan gəldi bu nərgiz?
Məsciddə minbər yapılmadan kor əsasın dayadı və s.

Xalqın məsxərəsinə layiq kimsələr barədə atalar deyiblər:

Eşşəklə getdilər,
qatırla döndülər;
Attan endi,
eşşəyə mindi və s.

Başqasına görə əzab-əziyyətə düşən adamlar barədə xalq gözəl hikmətli sözlər yaradıb:

Qonşunun dili şişib,
qovğası bizə düşüb.
Naxırda inəgim yox,
naxırçıynan hesabım çox və s.

Xalq bədxahlara, paxıl və xudbinlərə qarşı çıxır, heç vaxt özünə arzu etmədiyini başqasına rəva görmür:

«Allah heç kimin evinə nə molla, nə də sazlayan (ağıçı qadın) göndərməsin», «Allah nə həkimə, nə də hakimə işini salmasın», «Gor gor içində olsun, ev ev içində olmasın» – deyə hamıya yaxşılıq diləyir. İnsanları haqq-ədalətə, qayda-qanuna dəvət edir: «Yolunu bil, ondan ayrılma», «Sağ baş yastıq istəməz», «Qanun dağları hifz edər», «Hökumət yatsa, adam adamı yeyər», «Hakim və həkimsiz köydən köç» – deyir. Birliyin bəhrəsindən, təkliyin ziyanından söz açır: «Baş-başa verməyincə daş yerindən çıxmaz», «Bir əlin nəsi var, iki əlin səsi var», «Bir əllə çapqun çalınmaz», «Fənalar birləşsə, əyilər də əl-ələ verməlidir» və s.

Müdriklər insanları şər işlərdən çəkinməyə, pislikdən əl çəkməyə, xeyirxah olmağa çağırır. Hətta pisliyə qarşı yaxşılıq etməyi tövsiyə edir. «Qərəzdən mərəz hasil olar» – deyən müdriklər düşmənçilik, xəbislik, pisliyin heç vaxt xeyir vermədiyini göstərirlər:

«Əyilikdən fənalıq çıxmaz», «Əyilik etdin, başa vur», «Qonşusu üçün quyu qazan öz boyuna görə qazmalıdır», «Əyilik edərkən qarşılığını düşünmə», «Əyiliyə əyilik hər igidin karıdı, kötülüyə əyilik mərd igidin karıdı» və s.

Bununla belə, atalar yaxşılıq bilməyənə əmək çəkməyin hədər olduğunu da göstərməkdən çəkinməmişlər: «Bədəsil minnət bilməz, barmağını mum etsən ona», «Bəslədim, axırda əməgim heç, maya heç oldu», «Bivəfaya əmək çəkənin əməgi heç olar axırda», «Qarğa bəslədim gözüm çıxartdı», «Köpəyi səmiz etmə ki, səni yesin», «Əməgimiz sağdıç əməyinə döndü», «Əqrəb balası nənəsini yeyər» və s.

Atalar sözlərində, eyni zamanda bic, hiyləgər adamlardan kənar olmaq məsləhət görülür: «Quş uçurdan kimi gözü hey dam-divardadı», «Darı quşu kimin yeri məlum deyil», «Sudan keçər topuğu islanmaz» və s. Atalar özü haqqında ona layiq olmadan böyük fikirdə olan, lovğa, şöhrətpərəst, yekəxana, boşboğaz, anlamaz adamları kəskin satira atəşinə tutur: «Birə dəyməz, mini bəyənməz», «Biz razı olduq qaza, qaz özün qoydu naza», «Boşboğazlıq qarın doyurmaz», «Yumurtadan çıxıb, qabığını bəyənməz», «Qarğa qazı təqlid etdi, qarıltısın unutdu», «Evdə soğan-əkmək yeyər, yazıda (çöldə) dişin pəklər», «Gözü böyüklükdədi, aclıq belini qırıb» və s.

Yüngüllük, arsızlıq, qeyrətsizlik və s. kimi mənfi sifətlər də atalar sözləri və məsəllərdə öz əksini gözəl tapmışdır: «Bir şalı var qırmızı, həm qızı geyir, həm özü», «Arsız nədən arlanır, çul da geysə sallanır», «Buldu aşina, qaldı başına», «Qeyrət paylananda hazır deyildi», «Əqli topuğundadı», «Özləri çalıb, özləri oynayırlar», «Gəlin yüz il yaşadı, yenki belin qurşadı» və s.

Kərkük dolaylarında atalar əsli-nəsli olmayan, pis əməl sahiblərindən kənar olmağı, onlarla oturub-durmamağı, onlarla təmasda olarkən ehtiyatlı olmağı tövsiyə edir:

«Qətrannan olmaz şəkər, olsa da cinsinə çəkər», «Yumurta çalan, toyuq da çalar», «Gavur əkməgi yeyən, gavur qılıncı çalar», «Siçandan olan dağarcıq dibi dələr» və s.

Atalar sözləri və məsəllərdə nadanlıq, cahillik, paxıllıq, bədxahlıq, ikiüzlülük, satqınlıq, xainlik, yalançılıq və s. pislənir:

«Qurdla yeyər, qoyunla şivən edər», «Rəzilin imanı olmaz», «Xain qorxaq olar», «Xaindən bir şey sorma», «Həm nala vurur, həm mıxa», «Çalıda gül bitməz, cahilə söz yetməz», «Yalançının evi yandı, kimsə ona inanmadı», «Yalandan yapılan ev tez yıxılar», «Yalançıyla yola varma», «Yalançının şamı yasıya qədər yanar», «Araqda şəfa, hizdə vəfa olmaz».

Xalq ədəb-ərkan, namus-qeyrət, abır-həya kimi nəcib əxlaqi sifətləri yüksək qiymətləndirir və atalar sözləri, məsəllər vasitəsilə bu gözəl keyfiyyətləri insanlara təlqin edir:

«Eybini bilən xalqı eybləməz», «Ədəb əqlin yazıdan görünüşüdür», «Namusunu sevən aləmin namusuna qarışmaz», «Həya üzdə bir qətrə sudu», «Su hər şeyi paklar, yalnız üz qarasını paklamaz», «Şərəf şüşədi, qırıldısa düzəlməz» və s. Eləcə də ziyan gətirən bir hadisə baş verdikdə «Son peşmançılıq əl verməz» – deyə atalar, xalqı ruhdan düşməməyə, mənasız yerə özünü oda-közə atmamağa, təmkinli olmağa, tale ilə barışmağa səsləyir. Doğrudan da, «Bir daş qopanda daha yerini tutmaz», «Araba qırılandan sonra yol göstərən çox olar», «Qırılan qol əyri bitər», «Qırılan qab yerini tutmaz».

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da Yaradanla, inamla bağlı motivlər də yox deyildir. Doğrudur, bu motivlərdə Yaradanın mövcudluğu inkar edilmir, lakin şikayət, narazılıq və inamsızlıq öz əksini tapır:

«Allah dağına görə qar yağdırar», «Bəndəyə xor baxan bəlaya düçar olar», «Bu günü ye, yarınçin Allah kərimdi», «Miskinin ahı, taxtından endirər şahı», «Qapı çalanın qapısı çalınar», «Verirsə el gətirir, sel gətirir, yel gətirir», «Alırsa el aparır, sel aparır, yel aparır», «Allah kərimdi, quyusu dərindi», «Allah qozu verib dişsizə, plovu iştahsıza» və s.

Atalar sözü və məsəllərin çoxu bəşəri fikir və ideyaların tərənnümünə həsr olunduğundan insana səbir, təmkin, həqiqətin gözünə düz baxmaq, ürək sakitliyi və s. kimi hislər təlqin edir: «Amanat ata minən tez düşər», «Bağ baqqalsız, çəm (meşə) çaqqalsız olmaz», «Haqq söz danışanın börkü yırtıq olar», «Yeri olmayana hər yer vətəndi», «Yağnan yarma qovuşur, arada soğan bürüşür», «Dövlətlinin düşgünü yaylıq (yay paltarı) geyər qış günü», «Əqrabaynan ye-iç, alış-veriş etmə», «Quru dirsəknən sarımsaq dögülməz» və s.

Türkman atalar sözləri və məsəllərində təlim-tərbiyə motivləri də geniş yer almaqdadır:

«Əxlaq paradan əvvəldir», «Qız öz başına qalsa, ya davulçuya varar, ya zurnaçıya», «Əyi ilə qalxıb-oturan əyi şey ögrənər, xarabnan xarab», «Əkməgin arpa olsun, xoyun buğda» və s.

Demək lazımdır ki, Kərkük dolaylarında məşhur olan «Kiçikdən xəta, böyükdən əta» kimi atalar sözündən çıxış edərək demək olmaz ki, tərbiyə işində qorxu və cəza üsullarına əl atılmır. Yuxarıdakı atalar sözlərindən göründüyü kimi, Kərkük dolaylarında tərbiyə işində böyük tələbkarlıq vardır.

Yeri gəlmişkən, deyək ki, bu, əksər dünya xalqlarına xas olan xüsusiyyətdir. Məsələn: İngilislərdə «Çubuğa qənaət etsən, uşağı korlayarsan» atalar sözü bu mənada işlənir.

Ev-eşik, ailə, qadın-kişi münasibətləri də öz əksini Türkman atalar sözü və məsəllərində hərtərəfli tapmışdır. Maraqlıdır ki, ən uzaq ulduzuna, adi daşına qədər dinlə bağlı olan İraqda, bu hikmətli sözlər arasında, demək olar ki, qadınlara qarşı ədalətsizlik nəticəsində yarananlar yoxdur. Əksinə, ailənin ağırlığını çiynində daşıyan qadınların ailədə, uşaqların tərbiyəsində, ailə səadəti, ailə xoşbəxtliyi yolunda böyük rolundan, onların kişiyə dayaq olmağından söhbət gedir. Məsələn:

«Tərbiyə dirəgi nənə tərbiyəsidi», «Ev dərdi, dev dərdi», «Əyi övlada göz yağı yedirtsən azdı», «Əsil ilə evlən, həsirdə yat», «İxtiyara varan quyruq yeyər, cahilə varan yumruq», «Yuva yapan dişi quşdu», «Xerxız övlad babasının ocağında pencər əkər», «Hər kəs öz evinin xidmətçisidir», «Ya yanağının alına, ya babasının malına bax, qız al».

Xalqın estetik tərbiyəsində də başqa janrlar kimi, atalar sözləri və məsəllər müsbət rol oynamışlar. Atalar sözləri tələqin edir ki, insan həm mənəvi, həm də zahiri cəhətdən gözəl olsun. Zahiri forma ilə daxili məzmunun vəhdəti arzu olunur. Bununla belə, xalq mənəvi gözəlliyə üstünlük verir:

«Camala baxma, kamala bax», «Özü gözəl olmasın, əqli gözəl olsun», «Hər parlayan altun olmaz», «Naxışa baxma, nəqqaşa bax» və s.

Türkman atalar sözü və məsəllərinin bədii xüsusiyyətlərindən danışarkən qeyd etmək lazımdır ki, xalq bədii dil vasitələrindən – cinas, kinayə, mübaliğə, müqayisə, alleqoriya, ritorik suallar və s. kimi məcaz növlərindən və xalq dilinin zənginliklərindən bol-bol və böyük məharətlə istifadə etmişdir.

Atalar sözlərinin məcazi bədii vasitələrlə ifadə edilməsi onların təsir qüvvəsini qat-qat artırmışdır. Cinaslar ən çox xoyratlarla işlənən atalar sözlərində özünü göstərir. Məsələn:

Bir daş atar;
Bir kirəc, bir daş atar.
Tərəzin əyiləndə
Hər gələn bir daş atar.

Oyan yeri;
Qalx, silkin, oyan yeri.
Yüz il sel gəlsə dolmaz.
Bir gün qəm oyan yeri və s.

Alleqorik şəkildə olan atalar sözlərinə də istənilən qədər təsadüf edilir. Məsələn: «Çaqqal var baş qopardır, qurdun adı yamandı». «Sürüdən ayrılan qoyunu qurd yeyər», «Ac ayı oynamaz» və s.

Mübaliğə yolu ilə düzələn atalar sözləri və məsəllər xalq müdrikliyinin inciləri kimi xüsusilə seçilirlər. Məsələn:

«Haqqa qarşı boynum qıldan incədi», «İnsanın gözü, yerin qulağı var», «Su yatar, düşmən yatmaz», «Bir toyuğun ayağını açа bilməz», «Dünya tükənər, düşmən tükənməz», «Oxumaq iynəynən gor qazmaq qədər zordu», «Saqqalının hər teli altında min şeytan yatır» və s.

Müqayisə yolu ilə yaranan atalar sözləri də dərin mənası, hədəfə sərrast dəyməsi baxımından diqqəti cəlb edirlər:

Badamça badam olmaz, yetimçə adam olmaz.
Ağacdan maşa olmaz, cingənədən paşa olmaz.
Adam var bir əkməklə min it aldadır,
Adam var min əkməklə bir it aldadanmaz və s.

Bənzətmələr də bədii dil vasitələrindən biri kimi, İraq–Türkman atalar sözləri və məsəllərinin təsir gücünü artırır:

Bic paxla kimi atılıb düşür.
Qarğa qazı təqlid etdi, qarıltısın unutdu.
Sac əkməgi kimi, üz-astarı yoxdu.
İnsan insandı, olmasa da pulu,
Eşşək eşşəkdi, olsa da çulu.
Mən billəm hansı inəyin buzovusan və s.

Bədii dil vasitələrindən kinayə də atalar sözü və məsəllərdə bol-bol işlənir və onların təsir gücünü daha da artırır. Məsələn:

«Üzünü örtər, dizini açar», «Topalla gəzən axsaq öyrənər», «Evdə öz başını bağlaya bilməz, toyda gəlin başı bağlar» və s.

Ritorik suallar da İraq–Türkman atalar sözü və məsəllərini bəzəyir. Məsələn:

Lolo, lolo, mənə də lolo?
Dünya kiminlə başa gedib?
Dolmada bir şey yoxsa nişin sarılır?
Əyriyə zaval, doğruya nə var?
Qarpız yeyənsən, yoxsa bostan yolan?
Layla bilirsən, nişin yatmırsan? və s.

Ritorik suallarla işlənən atalar sözlərindən başqa, mükalimə şəklində düzələn atalar sözləri də çoxdur. Burada dramatik və təhkiyə ünsürlərinin mövcud olması nəzəri daha çox cəlb edir. Məsələn:

Arnavuda (arsız) dedilər: «Cənnətə gedərsən?» Dedi: «Aylıq nə ğartadı?» Qurda dedilər: «Çoban ol». Dedi: «Ayağım yalındı».

Qatıra: «Baban kimdi?» – dedilər. «Dayım atdı», – dedi.

Dedilər: «Abdal, qış gəldi» Dedi: «Durmuşam titrəməyə».

Dedilər: «Əzrayıl uşaq paylayır» Dedi: «Özününkü özüyçün, bizimkinə dəyməsin».

Tülküyə dedilər: «Şahidin kimdi?» Quyruğunu göstərdi.

Dəvədən sordular: «Boynun niçin əyridi?» Dedi: «Haram düzdü?» və s.

Demək vacibdir ki, Türkman atalar sözü və məsəlləri mənzum və mənsur olmaqla iki yerə bölünür. Mənzum atalar sözləri çox olsa da, biz, ümumiyyətlə, atalar sözü və məsəlləri folklorun epik növünün bir janrı hesab edirik. Doğrudur, folklorşünas İ.İbrahimov mənzum atalar sözlərindən danışarkən onların hər misrasının iki hecalıdan başlamış on üç hecalılara qədər nümunələrinin olduğunu göstərir. Məsələn: Tədqiqatçı beş hecalılara nümunə olaraq «Dövlətdə dəvə, övladda nəvə» atalar sözünü və altı hecalılara misal olaraq «At görəndə axsar, su görəndə susar» atalar sözünü:

Dövlətdə dəvə,
Övladda nəvə.
At görəndə axsar,
Su görəndə susar.

şəklində verərək tədqiq etmişdir (72, 174).

Qeyd etmək vacibdir ki, belə atalar sözlərinə Türkman folklorunda da çox təsadüf edilir. Lakin biz onları ayrı-ayrı misralar şəklində tədqiq etməkdən çəkinərək Türkman folklorunda olduğu kimi saxlamağı məqsədəuyğun saydıq.

Məsələn:

Qaldır samanı gələr zamanı.
Davul görər oynar, mehrab görər ağlar.

Tədqiqatçı İ.İbrahimov eləcə də:

«Sən ağa, mən ağa, inəkləri kim sağa» və «Var evi, kərəm evi, yox evi verəm evi» kimi eynilə Türkman folklorunda da rast gəlinən atalar sözlərini misralara bölərək:

Sən ağa, mən ağa
İnəkləri kim sağa.

kimi vermiş və bu qəbildən olan atalar sözlərində rədif, qafiyə və s. şeir şəkilləri axtarmışdır (72, 175–176).

Bizcə, yuxarıdakı nümunələrdən də göründüyü kimi, atalar sözlərini süni şəkildə misralara bölüb, onlarda qafiyə, rədif və s. axtarmaq da ağlabatan deyildir.

Atalar sözü və məsəllərin tərtibi və çapı zamanı folklorşünaslarımızın İ.İbrahimovun göstərdiyi bölgüyə riayət etməmələri də dediklərimizə dayaq olur.

Atalar sözlərindən danışarkən yuxarıda qeyd etdiyimiz kimi, xalq dilinin zəngin leksikasını, keçmiş işlək forma və şəkillərini qoruyub saxlayan bu incilərin dilçilik baxımından da böyük əhəmiyyəti olduğunu unutmaq olmaz. Təkcə onu demək kifayətdir ki, Türkman atalar sözü və məsəllərində «Kitabi-Dədə Qorqud» da daxil olmaqla Azərbaycan dilinin dərin qatlarında işlənmiş bir çox sözlər mühafizə olunub saxlanmışdır. Şübhəsiz, onlar Azərbaycan dili tarixinin bəzi qaranlıq qalmış məsələlərinin dürüstləşdirilməsində tədqiqatçıların köməyinə gələ bilər. Məsələn:

Qısrağı (at) gənc gözüynən, qızı ahıl gözüynən al.
Özü yayan (piyada), əkməki atlı.
Qallavuzu (bələdçi) qarğa olan leş iylər.
Köpək səmiz (kök) olsa da, əti yeyilməz.
Sığır (inək) qəssabxanaya ulaşdıqdan sonra bıçaq hazırdı.
Gecə müştərisi ya xerxız (oğru) olar, ya xeyirsiz və s.

O da maraqlıdır ki, «Əski pambıq bez olmaz, əski düşmən düz olmaz», «Arvad var, ev dayağıdı, arvad var, incana boyağıdı» və s. kimi atalar sözlərinə «Kitabi-Dədə Qorqud»da olduğu kimi (89, 31, 33), Türkman folklorunda da təsadüf edilir.

Ot kökü üstündə bitdiyi kimi, insan da öz kökündən ayrılmamalı, xalqın adət-ənənəsini, dilini, dinini, inam və etiqadını, milli qürurunu saxlamalıdır. Bütün bunlar Türkman

atalar sözləri və məsəllərində öz əksini bariz şəkildə tapmışdır. Xalqın dünyagörüşünün, ağıl, zəka və əməli həyat təcrübəsinin qısa, dolğun, yığcam ifadəsi, «az sözlə ən geniş məna ifadə edən şah əsərlər» (163, 149) – atalar sözləri və məsəllər insanı düşünməyə, axtarmağa, müqayisə etməyə, nəticə çıxarmağa sövq və vadar edir. Çünki «o elə bir hikmət xəzinəsidir ki, hər dəfə ora baş vurub qayıdanlar neçə-neçə inci, sədəf tapıb gətirirlər» (65, 142).

Atalar sözləri və məsəllər, eləcə də insanlarda yığcam, müdrik danışmaq vərdişləri aşılayır. Təsadüfi deyildir ki, bir neçə dil bilən V.İ.Lenin 2645 yerdə atalar sözü, məsəl və hakimanə söz işlətmiş və xüsusi qeyd etmişdir: «Elə atmaca söz olur ki, bunlar çox mürəkkəb hadisələrin mahiyyətini heyrət ediləcək qədər sərrast ifadə edir» (163, 5). Təsadüfi deyildir ki, professor M.İ.Şaxnoviçin «kökləri xalq yaradıcılığından qida alan əzəmətli ağac» adlandırdığı (206, 104) bir çox elmlərin açarı fəlsəfə də öz ilkin və sadə başlanğıcını atalar sözlərindən almışdır.

Məhz buna görədir ki, qədim dövrlərdən başlamış zəmanəmizə qədər filosoflar həmişə canlı məxəz kimi xalq müdrikliyinə – atalar sözü və məsəllərə müraciət etmişlər. Bu zəka və söz sənətinin daim təzə-tər olması, belə dərin təsir gücünə malik olması, başlıca olaraq onların böyük həyat həqiqətlərini, əxlaqi-mənəvi tərbiyə motivlərini yığcam, hikmətli şəkildə istifadə etməsindədir. Qərinələr öncə yaranan, müdriklik süzgəcindən keçərək həyata əbədi vəsiqə alan, zəmanəmizə qədər gəlib çıxan, Türkman folklorunun aparıcı janrlarından olan atalar sözləri və məsəllər indi də öz əhəmiyyətini itirmir, böyük hikmət və tərbiyəedici təsir qüdrətini saxlayır, xalqın tarixini, mənəvi-psixoloji təkamül yolunu öz ziyası ilə işıqlandırır.

TAPMACALAR

Tapmacalar Kərkük dolaylarında xoyratlar, xalq havaları, atalar sözləri, lətifələr və nağıllar kimi geniş yayılmışdır.

İraqlı folklorşünaslar xalq ədəbiyyatının bu janrına dair xüsusi tədqiqat aparmasalar da, bəzi əsərlərində ötəri də olsa, onlara toxunmuş, xeyli nümunələr vermişlər (168, 167–175; 70, 136–138; 129, 55–95).

Tədqiqatçı Aydın Kərkük üç yüzdən artıq tapmacanı toplayaraq ayrıca kitabça halında çap etmişdir (42).

Türkdilli xalqlar arasında bilməcə (türk), tapışmek (özbək), matal (Türkman) və s. adlarla tanınan tapmacalar Kərkük dolaylarında da Azərbaycanda olduğu kimi, tapmaca adı ilə tanınır. Aydın Kərkük bu münasibətlə yazır: «İraq türkmanlarında isə bu sözcük tapmaca şəklində söylənməkdədir» (42, 7). Sübhi Saatçı isə hətta tapmaca sözünün etimologiyasına toxunaraq qeyd edir: «Kərkükdə bilməcəyə tapmaq sözünün fel kökündən törəmiş tapmaca deyirlər» (129, 55).

Həyatın kitabsız, radiosuz, kino və teatrsız keçən bir dövründə «upuzun gecələrin əzici və üzücü yalqızlığını çəkməkdənsə, hər gecə bir qonşunun evində toplaşaraq çox yorucu bir günün səfasını sürmək qədər gözəl heç bir şey təsvir olunmaz» (42, 10).

Doğrudan da, xalq boş vaxtını mənalı keçirmək üçün müxtəlif vasitələr düşünüb-daşınmışdır ki, tapmacalar da, şübhəsiz, bu qüvvətli arzunun nəticəsi kimi meydana gəlmişdir. Xalq onlara əyləncə vasitəsi kimi baxsa da, zaman keçdikcə tapmacalar ağlı, zəkanı inkişaf etdirmək, düşüncə və mühakiməni gücləndirmək kimi böyük bir amala xidmət göstərmişdir.

Tapmacalar iki və daha artıq şəxs arasında mükalimə şəklində meydana gəlir. Ona görə də H.Zeynallı göstərir ki, tapmaca atalar sözü, bayatı və maniyə nisbətən daha çox kollektivlik xüsusiyyətinə malikdir, yəni tapmacalar məclis-

lərdə, şənliklərdə, tapmaca gecələrində kollektiv tərəfindən yaradılmışdır (69, 10).

Nəyisə bilmək, hər hansı bir məchulu üzə çıxarmaq, yeniliyə can atmaq insan təbiətinə xas olan xüsusiyyətdir. Odur ki, tapmacalar şifahi xalq ədəbiyyatının bir janrı kimi hamının qəlbinə yatır.

Tapmaca məclislərində hərə öz biliyini, ağlını, zəkasını göstərməyə can atır. Tapmacanın açmasını daha tez tapana xüsusi ehtiram göstərilir, daha fəal iştirakçılara mükafat verilir.

Maraqlıdır ki, Kərkük dolaylarında xüsusi nağılçılar olduğu kimi, tapmaca ustaları da olmuşdur. Bu baxımdan Sübhi Saatçının fikri diqqəti cəlb edir: «Kərkük yörəsində tapmaca qonusunda usta olan kimsələr vardır. Tapmacaları bunlar kimi ustalardan dinləmək cocuqlardan başqa, böyüklər üçün də ayrı bir zövq və həyəcan qaynağı sayılır» (129, 56).

Tapmacalar duzlu-məzəli dillə, qəribə bir əda ilə danışılır. Yaxın keçmişə qədər kənd yerlərində tapmacasız gecə keçməzdi. Kərkük dolaylarında ana və nənələr də uşaqlara çoxlu tapmaca öyrədirlər (70, 136). Hətta saylar da uşaqlara tapmacalar vasitəsilə öyrədilir. Tapmaca deməyə «Tap nədi, tanış nədi» – deyə başlayırlar. Tapmacanın açmasını tapa bilməyəndə dinləyənlər düşünərək onun açmasına, yozulmasına kömək edə biləcək suallar verir, fikirlərindən keçəni dəqiqləşdirirlər:

Gözlə görülər, yoxsa görülməz?
Yeyilər, yoxsa yeyilməz?

Diridi, yoxsa ölüdü? Suda yaşar, yoxsa havada? Əllə tutular, yoxsa tutulmaz? Havada uçar, yoxsa sürünər? və s.

Tapmacanı yoza bilməyəndə onu söyləyənə bir kənd və ya şəhər «bağışlayacaqlarını» vəd edər, açmasını intizarla gözlərlər. Tapmaca deyən onu açmasa, söz-söhbət başlar, tapmaca deyəni «sıxma-boğmaya» salarlar. Bu, uşaqlar arasında xüsusən böyük səs-küylə keçir. Beləliklə, tapmacalar uşaqla-

rın ağıl, zəka, düşüncə yarışına çevrilir, uşaq folklorunun mühüm hissəsini təşkil edirlər. Uşaqların zehninin, dərrakəsinin inkişafına təkan verir, onlarda bir tərəfdən tez qavrama, axtarıb tapma, iti hesablama, hazırcavablıq qabiliyyətini sürətləndirir, digər tərəfdən onlarda elmi təsəvvür yaradır.

Ümumiyyətlə, tapmacalar insana bilik verir, onu həyat və təbiətlə tanış edir. Bu xüsusiyyətinə görə tapmacalar şifahi xalq ədəbiyyatının başqa janrlarından fərqlənir. Ona görə ki, «materialı daha real və daha təbii olan» (130, 5) tapmacalar təbiət və həyatda nə görünürsə onun üzərində qurulur, insanların cəmiyyət haqqındakı fikirləri, həyat təcrübəsi, təbiət üzərindəki müşahidələri bədii formada öz əksini tapır. Bu cəhətinə görə tapmacalar istər uşaq, istərsə də yaşlı olsun, hamının böyük marağına səbəb olur.

Folklorşünas V.Xuluflunun haqlı olaraq «xalq fikrinin matematikası» adlandırdığı tapmacalar insanı əhatə edən real varlıqda, təbiətdə baş verən, onun həyat tərzi ilə bağlı olan hadisələrin mahiyyətini dərk etməkdə böyük əhəmiyyətə malik olmaqla, xalq təfəkküründün inkişafında mühüm mərhələ təşkil etmişdir.

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da tapmacalar nağıllarla qaynayıb-qarışmış, şifahi xalq ədəbiyyatının bu geniş yayılmış janrının dəyər-qiymətini daha da artırmışdır. «Yəhərçi qızı», «Yola nərdivan ataq» və s. kimi nağılların konflikti öz həllini tapmacalar vasitəsilə tapmışdır. «Yola nərdivan ataq» nağılı, ümumiyyətlə, başdan-ayağa tapmacalar üzərində qurulmuşdur. Türkman nağıllarında da gənclərin ağıl, zəka və dərrakəsini yoxlamaq üçün tapmacalardan məharətlə istifadə edilmişdir.

Dövlət və ailə-məişət məsələlərinin həllində də tapmacaların rolu az olmamışdır. «Yəhərçi qızı», «Yola nərdivan ataq» nağıllarından göründüyü kimi, gənclərin evlənməsində tapmaca sınaqları başlıca şərt olmuşdur. «Yəhərçi qızı» na-

ğılında padşah yəhərçinin qızını tapmacalarla dərin imtahana çəkir, onun ağıl, dərrakə və düşüncəsinə heyran qalır. Onun padşaha layiq olduğunu düşünərək, onunla evlənmək qərarına gəlir. Yəhərçinin qızı da öz növbəsində padşahı tapmacalarla sınaqdan keçirdikdən sonra ona ərə getməyə razılıq verir. Buna bənzər hadisəyə «Yola nərdivan ataq» nağılında da təsadüf edilir.

Gənclərin ailə qurmasında bir çox oğlan və qızların özünə ömür-gün yoldaşı seçərkən vara-pula, camala yox, ağıla, dərrakəyə üstünlük verməsi, tapmacalarla bir-birini imtahana çəkməsi, izdivacın başlıca şərtinin tapmaca sınağından uğurla çıxmaq olması, tapmacaların xalq arasında mühüm yer tutmasına dəlalət edir.

Maraqlıdır ki, H.Zeynallı öz əhəmiyyətinə və yayılmasına görə atalar sözləri və bayatılardan sonra tapmacaların şifahi xalq ədəbiyyatının janrları arasında üçüncu yeri tutduğunu göstərmişdir (69, 3).

Kərkük dolaylarında isə tapmacalar «yaşayan el ədəbiyyatının ən olğun örnəklərindən biri» (70, 136) hesab edilir.

Demək lazımdır ki, real həyatı əks etdirən Türkman tapmacaları mövzu etibarilə müxtəlif olurlar. Burada həyatın bütün sahələrinə aid tapmacalara təsadüf edilir:

Həm ilikdi, həm sümükdü, həm dəri,
Aləm ona müştəridi, müştəri.
(Kəlləpaça)

Mövzuya görə onları musiqi alətləri ilə bağlı tapmacalar, bəzək-düzəklə, oxumaq-yazmaqla, insan və onun bədən əzaları, geyim-kecimlə, silah və alətlərlə, toxuculuq və maldarlıqla, tikili və tikinti ilə, yemək-içməklə, heyvanlar və bitkilər aləmi ilə, kainat, mücərrəd və təbii hadisələrlə, ev-eşik və yaşayışla, meyvələr, əkin-biçin, bağ və bostanla bağlı tapmaca-

lar başlıqları altında qruplaşdırmaq olar (85). Mövzuların adından da göründüyü kimi, tapmacalar xalqın təbiət və cəmiyyət hadisələrinə münasibətini, məşğuliyyətini, həyata baxışını real, özünəməxsus bir şəkildə əks etdirir. Şəkli xüsusiyyətlərinə görə Türkman tapmacaları Azərbaycan tapmacalarından fərqlənmir. Onlar da poetik quruluşuna görə nəsr və nəzm şəklində olurlar. Nəsr şəklində olan tapmacalar nisbətən azdır. Bunlar bir, iki, üç, dörd sətirli tapmacalardan ibarət olurlar.

Bircə misradan ibarət olanlar:

Mən gedərəm, o qalar. (İz)
Haqq bilər, xalq bilməz. (Əcəl)
Ağ odada sarı gəlin. (Lampa)
Yaşıl boylu, gümüş gərdənli. (Göy soğan)
Əlsiz-ayaqsız qapı açar. (Yel)
O nədir ki, qəlbdən çıxmaz. (Övlad)
Hər fikir altından çıxar (Qələm) və s.

Burada daxili qafiyəli tapmacalara da çox təsadüf edilir:

Altun qantar, ət dartar. (Sırğa)
İçi dəmir, üstü xəmir (Lüləkabab) və s.

Demək lazımdır ki, Türkman folklorunda nəsr şəklində iki, üç, dörd sətirli tapmacalar da vardır:

Dağdan, təpədən qar yağar,
Nənəm onu bişirər. (Ələk, un)
Üç dənə gəldilər körpü başına
Biri baxdı, basdı keçdi, biri baxdı keçdi.
Biri də nə baxdı, nə basdı, amma keçdi.
(Qucağında uşaq olan hamilə qadın)

Bir hovuz içində bir ilan.
Başında bir qırmızı quş.
Su bitər, ilan durar,
Quş ölər. (Neft lampası)

Bununla belə, demək lazımdır ki, Türkman tapmacaları arasında nəzm şəklində olanlar əksəriyyət təşkil edirlər. Onlar iki, üç, dörd, beş, altı, səkkiz misralı poetik parçalardan ibarət olurlar:

Qapqaradır hər yanı
Hər gün dağlanır canı. (Qazan)

Çox dişi var dişləməz,
Heç kimsəni incitməz.
Əllərdən yerə düşməz. (Daraq)

Bu gün çərşənbədi,
Könlünə düşən nədi?
Odu yox, ocağı yox,
Kölgədə bişən nədi? (Dələmə)

Ruhu yoxdu, almaz nəfəs,
Şəkli, cismi eyni qəfəs.
Əgri beli, uzun boyu
Çox nəşəli verir bir səs
Boş qarnına dolur hava!
Məhzun səsi dərdə dava. (Ud)

Uzun-uzun yollardan
Bir əcaib quş gəlir.
Qırma badam dili var
Hər nə desən xoş gəlir
Gözlərindən yaş gəlir. (Məktub)

Qarnı şişib, şəhərə düşüb,
Sanki dürlü yemək bişib.
Aləm ona qoşa gəlir,
Hamı birdən coşa gəlir.
Barmağı var yüz arşın
Al-yaşıllı, sarışın.
Ağzına adam girər
Həm oturar, həm durar.
(Minarəli məscid)

Türkman folklorunda nəzm şəklində olan tapmacalar içərisində ən çox təsadüf edilən iki və dörd misralı olanlardır.

Misallardan göründüyü kimi, tapmacalarda vəzn və qafiyə hər vaxt gözlənilmir. Tədqiqatçı İ.Kolesnitskaya bu münasibətlə yazmışdır: «Tapmaca hecaların ardıcıllığına əsaslanan düzgün vəznli və qafiyəli şeirin nə olduğunu bilmir. Tapmacadakı şeir tonikdir» (191, 534).

Bu fikrə başqa tədqiqatçılarda da təsadüf edirik: «Xalq tapmacalarının əksəriyyəti, onların ritmikliyindən asılı olmayaraq, şeir misralarına mütləq bölünməsini tələb etmir. Tapmacalar, hər şeydən əvvəl, cümlənin və qafiyənin şəkil intonasiyası ilə möhkəmlənmiş bölgüsünü tələb edir» (188, 14).

Çəkinmədən demək olar ki, bu xüsusiyyət bütün dünya xalqlarının tapmacalarına aiddir. Bununla belə, Azərbaycan və eləcə də Türkman tapmacalarını başqa xalqların tapmacalarından fərqləndirən bir xüsusiyyət vardır. Burada bayatılarla yaranmış çoxlu tapmacalar vardır. Bu dördlüklərdə poeziya qüvvətli vəzn, qafiyə yerli yerindədir. Onları formaca bayatılardan fərqləndirmək olmur. Odur ki, onları lirik növün bir janrı kimi «bayatı-tapmacalar» adı altında nəzərdən keçirdik.

Qeyd etməyə dəyər ki, Türkman tapmacalarının əksəriyyəti metafora şəklində qurulur. Məsələn:

Toxumsuz bitər, aləmə yetər (Toz).

Daşdandı, dəmirdəndi
Mayası xəmirdəndi (Dəyirman).

Ayaqları su içər
Üstünnən gələn keçər (Körpü).

Yoxladım belindəkin
Anladım könlündəkin (Kitab) və s.

Türkman tapmacalarının əksəriyyəti bənzətmə, müqayisə, təşbih, təkrar və başqa bədii təsvir vasitələri ilə düzəlirlər. Burada fikrin mənası üstüörtülü olur. Hadisə, məfhum və ya şeyin bir əlaməti və ya xüsusiyyəti dolayı yollarla söylənir, başqa cəhətləri gizli saxlanılır. Məsələn:

Yuxarıda qara-qara,
Yerə düşdü, para-para.
Əlimə aldım, qan kimin
Ağzıma qoydum, bal kimin.
(Xar tut)

Səpdim noxud,
Çıxdı söyüd.
Yarpağı tut,
Barı armud.
(Pambıq)

Göründüyü kimi, tapmacada təsvir edilən əşyanın, müqayisə edilən bir cəhəti, xasiyyəti, forması, məzmunu, keyfiyyəti fantastik müqayisələrlə oxşadılır. V.A.Vasilenko bu münasibətlə yazmışdır:

«Tapmacada əşyaların məcazi təsviri çox geniş fantaziya üçün qeyri-məhdud imkan yaradır. Bu və ya digər anlayışı ən müxtəlif əşyalara keçirmək olar. Belə ki insan gözləri tapmacada qardaş, quş, yumurta, kukla, alma, noxud, pul, ulduz və s. adlandırılır» (201, 141).

Kərkük dolaylarında da Azərbaycanda olduğu kimi, sual şəklində qurulan tapmacalar çoxdur. Bu tapmacalar, adətən,

çox sadə olub, insanın biliyini, ətraf aləm, təbiət, cəmiyyət, heyvanlar, bitkilər, kainat və s. haqqında məlumatını yoxlamaq üçün düzəldilir. Məsələn:

Tap nədi?
Quşlardan yumurta doğmaz, bala doğar (Yarasa).

Tap nədi?
Heyvanda dilsiz, ağacda kalsız (Balıq, əncir).

Daşdı, daş deyil?
Yumurta doğar – tavuq deyil
Arpa yeyər – at deyil (Tısbağa) və s.

Bir çox tapmacalar saylarla işlənirlər. Təbii ki, belə tapmacalar, hər şeydən əvvəl, uşaqlara sayları öyrətmək baxımından maraq doğurur. Lakin onların içində dərin fəlsəfi fikirləri əks etdirənlər də az deyildir. Məsələn:

Beşdə quzu,
Onda toğlu
İyirmidə aslan
Otuzda qaplan.
(İnsan)

Gələr bir-bir
Gedər bir-bir
Gələn gedər
Gedən gəlməz
Gəl bunu bil. (Doğum, ölüm)

Hav, hav, hav atar
Çaxmaq daşı qav atar.
Səksən səkkiz dəyirman
Doxsan doqquz nav atar. (İldırım)

Azərbaycanda olduğu kimi (124), Kərkük dolaylarında da bəzən dörd misralı tapmacaların 1 və 2-ci misralarının tapmacaya dəxli olmur, bəzən birinci, bəzən də ikinci misranın mənası olmur. Məna üç və dördüncü misralarda olur.

Məsələn:

Bizim evdə xalı var,
Xalının əhvalı var.
Göydə uçan bir quşun
Ayağında nalı var. (Arı)

Sənə deyim bir beyit
İstər otu, istər get.
Yemişdən nə yemişdi
Dili sümük, başı ət. (Xurma)

Hə mirməndi, mirməndi,
Qız divara dırmandı.
Hətta oğlan gəlincə
Qız divardan enmədi.
(Qıfıl və açar)

Nədəndi;
İncili sədəf nədəndi?
Bir şüşədə iki löyün süd
Qarışmayır nədəndi?
(Yumurta)

Maraqlıdır ki, bəzi Türkman tapmacalarında isə tapmacanın mənası 1-ci, 2-ci misrada olur. Məsələn:

Evimizdə bir fatı var,
Qara, yumru altı var.
Əqillilər əqil tökər, bulallar
Əqilsizlər düşünəllər, durallar.
(Neft lampası)

Kərkük dolaylarında açması özündə olan tapmacalara da təsadüf edilir:

Qan qırmızı, süd bəyaz
Dəvə balasından böyük və s.

Elə tapmacalar da var ki, Azərbaycanda olduğu kimi hər misrası ayrıca tapmaca təşkil edir.

Tap nədi?
Dağda Düleyman, (İlan)
Suda Süleyman, (Balıq)
Obada Aslan, (Xoruz)
Yatar Kövşər, (Qoyun)
Duzsuz bişər. (Süd)

Türkman tapmacalarına xas olan bir xüsusiyyət də vardır. Bəzən tək bircə sözün dəyişməsi ilə yeni tapmaca yaranır. Məsələn:

Uzun-uzun uzanır
Gəlin kimi bəzənir. (Xurma ağacı)

Uzun-uzun uzanır
Həftədə bir bəzənir. (Cəmaşir ipi)

Uzun-uzun uzanır
Hər ildə bir bəzənir. (İlan)

Yeri gəlmişkən, onu da demək lazımdır ki, Türkman folklorunda ən çox variantı olan janr tapmacalardır. Azərbaycan və Türkman tapmacaları bu cəhətdən də fərqlənmirlər. Burada da hər bir tapmacanın bir neçə variantına rast gəlinir.

Xoruzla bağlı verdiyimiz nümunədə olduğu kimi, hər tapmacanın neçə-neçə variantı vardır:

Dəlik-dəlik börkü var
İstər olsun hamıya yar.
Qaranlıqdan qovğa çıxdı.
Uzun boylu koxa çıxdı.

Zamparalığı (şorgözlüyü) var
İstər olsun hamıya yar.

Azan oxur, namaz qılmaz
Arvad alır, nikah qıymaz.

Çağırdım həyətdən
Səs verdi kənddən
Dimdiyi sümükdən
Saqqalı ətdən.

Türkman tapmacaları arasında açması xurma, dombalan, qoz, saat, göz, sırğa, diş, ayaqqabı, yumurta, ildırım, ay, günəş, soğan və s. olan tapmacaların daha çox variantlarına təsadüf edilir.

Tədqiqatçılar göstərir ki, bu xüsusiyyət başqa xalqların folkloru üçün də səciyyəvidir (212, 8; 219, 19; 180, 191–193). O da maraqlıdır ki, Azərbaycan tapmacalarında olduğu kimi, eyni tapmaca Türkman folklorunda müxtəlif yerlərdə fərqli şəkildə deyilir. Məsələn, cövüzlə əlaqədar tapmaca Kərkükdə:

Dağdan endi dingir-dingir
Boynunda var halqa zincir.

Daquqda:
Dağdan endi dambır-dambır
Çal başına, otu, gəmir.

Tuz Xurmatuda:
Dağdan endi gumur-gumur
Qoy dişinə, qır, gəmir və s.

Həm Kərkük dolaylarında, həm Quzey Azərbaycanda, həm də Cənubi Azərbaycanda, demək olar ki, hərfi-hərfinə eyni olan onlarca tapmaca vardır:

Azan oxur, namaz qılmaz,
Arvad alar, nikah qıymaz. (Xoruz)

Yeddi dəlikli toxmaq
Bunu bilməyən axmaq. (Baş)

Dəvə dolanı
Gəzər obanı
Altı qıçı var
İki dabanı. (Tərəzi)

O yanı daş,
Bu yanı daş,
İçində var
Yüz əlli baş. (Hamam)

Üstü zəmi biçərlər
Altı bulaq içərlər. (Qoyun)

Gecə səpdim noxudu
Səhər gördüm yox idi. (Ulduzlar)

O yanı pərçim, bu yanı pərçim.
İçində var şah göyərçin. (Göz)

Burda vurdum qılıncı
Hələbdə (Bağdadda) çıxdı ucu. (İldırım)

Əl əkər, dil biçər. (Yazı)

Şəkərə bənzər, dadı yox,
Havada uçar, qanadı yox. (Qar) və s.

(85, 11, 187–215, 131, 164; 535–543; 48, 243)

Elə tapmacalar da var ki, çox cüzi fərqə rast gəlinir. Məsələn, dəyə, çadır mənasında işlənən tapmacaya Azərbaycanda:

Qara dəvə çökdü yerə
Bağırsağın tökdü yerə.

şəklində (131, 19, 145), Kərkük dolaylarında:

Qara sığır (cöngə) çökər yatar.
Bağırsağın tökər yatar.

şəklində işlənmişdir (85, 243).

Burada–meyvələr əkin-biçin, bəzək-düzəklə, din və dini ayinlərlə, müxtəlif əşyalar və təsərrüfat alətləri, kainat, mücərrəd və təbii hadisələrlə bağlı eyni olan çoxlu tapmacalar vardır. Bu tapmacalar real varlığı əks etdirir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılara görə, tapmacalar xalqın mifik inam və etiqadlarının inikasıdır. A.N.Afanasyevə görə, tapmacada xalq özünün qədim dünyagörüşünü ifadə edir (175, 25). F.İ.Buslayev isə təsdiq edir ki, tapmaca əsl xalq poeziyası kimi, özünün ibtidai mifik xarakterini saxlamışdır (179, 33).

Rus alimlərinin bu fikrinə əsaslanan bəzi folklorşünaslarımızın əksər tapmacalarda mifik inam və etiqadların yaşadığı, ayın, günəşin, ulduzların, küləyin, yağışın və s. canlı və şüurlu olması barədə ibtidai insanların inamı və onların bu dünyagörüşünün tapmacalarda öz əksini tapması barədə fikirlərinə qarşı çıxmaq və onlarla mübahisə etmək olar (124, 10).

Xoşbəxtlikdən tədqiqatçı N.Seyidov sonralar özü də bu fikrinə qarşı çıxaraq yazmışdır: «Bir sözlə, tapmacada dini-mifik qalıqlardan yox, onun real həyat və məişətlə əlaqədar olduğundan danışmaq, bizcə, daha doğru olardı» (125, 146).

Demək lazımdır ki, bir çox dünya xalqlarının folklorunda, o cümlədən də Azərbaycan və eləcə də Türkman folklorunda cansız əşyaların tapmacada canlı varlıq kimi, insan kimi göstərilməsi hallarına tez-tez təsadüf edilir. Məsələn:

Dayım oğlu İsmayıl
Şapalağa daim mayıl.
Qulağı dəmirdəndi,
Köynəyi dəridəndi. (Dəf)

Biz biz idik
Otuz iki qız idik.
İpək kimin süzüldük,
İnci kimin düzüldük. (Dişlər)

Dağdan gəlir, daşdan gəlir
Saqqallı əmim gəlir. (Keçi) və s.

Bunu biz elə N.Seyidovun «Tapmacalar» kitabının son illərdə yaradılmış «Mətbuat və texnikaya aid tapmacalar» bölməsində də görürük (131, 195–202). Açması yazı, səhifə, gəmi, parovoz, təyyarə, peyk, kitab və s. olan tapmacalar canlı insana, quşa, heyvana, bitkiyə və s. oxşadıldığına görə burada mifik təfəkkürün izlərini axtarmaq təbii ki, yanlış olardı. V.A.Vasilenkonun yazdığı kimi, «əksər hallarda cansız əşyalar, tapmacada canlı varlıqlar kimi, insan kimi göstərilirlər» (201, 147).

Deməli, insanın təbiət və cəmiyyət hadisələri barədə düşüncəsi, həyat təcrübəsi, müşahidələri və s. nəticəsi kimi düzəldilən tapmacalar bu və ya digər hadisənin şairanə təsviridir.

Tapmacalar xalqın məişətinin müxtəlif sahələrini öyrənmək, bir çox məsələləri dürüstləşdirmək baxımından əvəzsiz xəzinədir. Bizcə, tapmacalar vasitəsilə xalqın keçdiyi həyat yolunu addım-addım izləmək, doğru nəticələrə gəlmək olar. Maldarlıqla, əkin-biçin, bağ-bostan, müxtəlif sənətlər, işlətdiyi əşyalar və təsərrüfat alətləri, onların yaranma tarixi və s. ilə bağlı tapmacalar xalqın keçdiyi tarixi mərhələlərdən xəbər verməklə bərabər, onun həyat tərzi, məişəti, dünyagörüşü, zövqü, insanlara, təbiətə münasibəti, məşğuliyyəti, təfəkkürü və s. barədə həyat vəsiqəsi, başqa xalqlar içində öz səsidir.

LƏTİFƏLƏR

Türkman folklorunda xalqın məişətindən doğan duzlu, məzəli lətifələr çoxdur. Onların arasında dərin mənası və hikməti ilə insanları ovsunlayan, heç vaxt köhnəlməyən, əbədi təzə-tər olan Molla Nəsrəddin lətifələri həm kəmiyyət, həm də keyfiyyətcə fərqlənirlər.

Demək lazımdır ki, Molla Nəsrəddin lətifələri bir çox Şərq xalqlarının, xüsusən də türkdilli xalqların arasında geniş ya-

yılmışdır. Hamı onları sevir və özününkü hesab edir. O cümlədən də İraq ərazisində yaşayan və Azərbaycanca danışan türkmanlar.

Maraqlıdır ki, sadəlövhlükdən müdrikliyə qədər uzun bir yol keçmiş bu müdriki başqa Şərq və türkdilli xalqlardan fərqli olaraq, Kərkük dolaylarında, Xoca Nasır (qazax), Nasriddii Afandi (özbək), Efendi (tacik), Hoca Nasredin (türk), Ependi (türkman), Nəsrəddin Oca (tatar), Nəsrəddin Əpəndi (uyğur), Nəsrəddin (fars) adı ilə deyil, Azərbaycanda olduğu kimi, Molla Nəsrəddin və ya sadəcə olaraq Molla adı ilə tanıyırlar.

O da maraqlıdır ki, Molla Nəsrəddin lətifələri ilə bağlı ənənə Türkman folklorunda da Azərbaycandakı ənənənin eynidir. Məsələn, H.Zeynallı göstərir ki, kim Molla Nəsrəddin məzhəkələrindən birini desə, ya üç, ya beş, ya yeddisini deməlidir. Yəni bir olmaz və cüt də olmaz (69, 146).

Qeyd etməyə dəyər ki, Kərkük dolaylarında bu misilsiz məzhəkəçi ilə bağlı hər şeyi məzhəkə halına salır, yeddi lətifə danışırlar. Bu baxımdan Şakir Sabir Zabit və İbrahim Daquqinin fikirləri böyük maraq doğurur. Şakir Sabir yazır: «Bir də bu kimi ev oturuşlarında Molla Nəsrəddinin qısa hekayələri qonuşulurdu. Bir tək hekayə söyləyənə «üzərivə yeddi hekayə düşdu. «Söyləyəcəksən. Söyləməyənin nənəsi (anası) boşanır» deyir və yeddi hekayə danışmasını istəyirlər» (168, 153).

Tədqiqatçı İbrahim Daquqinin də fikri folklorşünas Şakir Sabirin fikri ilə səsləşir: «Molla Nəsrəddindən kim bir lətifə danışsa, gərək yeddisini danışsın. Kim yeddisini danışmasa, anasının ərsiz qalacağını uydurmuşlar» (70, 61).

Həqiqətdə isə İbrahim Daquqi və P.Əfəndiyevin göstərdikləri kimi, Molla Nəsrəddin lətifələrindən yeddi dənəsinin anladılması gecə söhbətlərini uzatmaq, ruhlara nəşə vermək və bu dadlı, duzlu söhbətləri daha da məzəli etmək üçün düşünülmüşdür (70, 61; 68, 138).

O da maraqlıdır ki, Azərbaycanda olduğu kimi, Kərkük (99, 8) dolaylarında da Molla Nəsrəddin lətifələrinə qulaq

asanların hər birinin yeddi lətifə danışması arzu olunur. Bu adət lətifələrin bayatı, mahnı, atalar sözü, tapmaca və nağıllar kimi geniş yayılmasına gətirib çıxarmışdır.

Şərqdə Harun Ər-Rəşidin vaxtında müstəqil janr kimi tanınan, sonralar yeni məzmun kəsb edərək daha da inkişaf edən lətifə janrının Türkman folklorunda nə vaxt təşəkkül tapdığını dəqiq demək çətindir. Məlum olan odur ki, lətifələr şifahi xalq ədəbiyyatının müstəqil janrı kimi Kərkük dolaylarında geniş yayılmışdır. Doğrudur, burada Kifr Əhməd və başqalarının adı ilə bağlı və eləcə də müəllifi bəlli olmayan lətifələrə də istənilən qədər təsadüf edilir. Bununla belə, dərin mənası, hikməti ilə adamı valeh edən, məclislər yaraşığı, dillər əzbəri, xalqın bədii dühasının məhsulu olan Molla Nəsrəddin lətifələri daha çoxdur. Bunun əsas səbəbi başqa türkdilli xalqlarda olduğu kimi, xalqın müxtəlif vaxtlarda, müxtəlif münasibətlərlə yaratmış olduğu bir çox lətifələri bu xalq filosofunun əhvali-ruhiyyəsinə uyğunlaşdıraraq onun adına çıxması olmuşdur. Beləliklə, Molla Nəsrəddin lətifələri durmadan çoxalmış, Molla isə get-gedə məşhurlaşmışdır.

Akademik V.A.Qordlevski bu münasibətlə yazmışdır: «Nəsrəddin adına lətifələr gündən-günə çoxalır, zaman onların qarşısında acizdir» (173, 243).

V.A.Qordlevski, eyni zamanda qeyd edir ki, XIX əsrin ortalarında mətbəə maşınlarında bir çox lətifələri Molla Nəsrəddin adına çap edərək, ona aid etmişlər. Molla Nəsrəddinin taleyi belə olmuşdur (187, 131).

Bütün Şərq aləmində indi də rövnəqini itirməyən, Qərb ölkələrində də dönə-dönə çap olunan hikmətli lətifələrin yaradıcısı, bu qeyri-adi, heyrətamiz müdrik kimdir?

Bəzi tədqiqatçılar Molla Nəsrəddinin tarixi şəxsiyyət olduğunu və hətta Teymurləngin təlxəyi olduğu ideyasını irəli sürürlər. Bunu Molla Nəsrəddin lətifələri arasında Teymurlənglə bağlı lətifələrin olması ilə əsaslandırmağa çalışırlar. Molla

Nəsrəddin lətifələrindən yeddi dənəsinin anladılması gecə söhbətlərini uzadır, ruhlara nəşə verir və «Teymurləngin tarixi» adlı kitabı yada salır. Doğrudan da, həmin kitabda göstərilir ki, Teymurləngin sarayında bir nəfər ağıllı, alim adam yaşamışdır. O, istirahət saatlarında hazırcavab zarafatları ilə öz zəhmli hökmdarını əyləndirərmiş (68, 141).

Bu fikir müəyyən qənaətə gəlməyə imkan verir. Məlumdur ki, insanlar özündən qat-qat güclü olan qüvvələrə sehr, əfsun, tilsim, sonralar isə sözün vasitəsilə təsir etməyə çalışmışlar. Xalq ideal, ədalətli hökmdarların surətini uydurub əsl hökmdarlara nümunə göstərirdi. Bununla bərabər, xalq həm də yumor və gülüşlə hökmdarlara təsir etmək istəmişdir: «Xalq özünə təsəlli verərək Nəsrəddinin mənəvi qüvvəsini, ağlının qüdrətini və hazırcavablığını Teymurun ağır dağıntılarına, fiziki qüvvəsinə qarşı qoymuşdur» (181, 248) .

Bizcə, xalq tərəfindən yaradılan Molla Nəsrəddin surəti əsrlər boyu istirahət saatlarında gözlənilməz cavabları, zarafatları ilə öz zəhmli hökmdarlarını əyləndirən ağıllı, dərrakəli, müdrik adamların, təlxəklərin ümumiləşdirilmiş surətidir. Molla Nəsrəddinin fikirləri ətrafdakıları yarıhənək, yarıgerçək təlqin etdiyindən (97, 2), onun sözlərindən hökmdarlar da daxil olmaqla heç kim inciməzdi. Öz tədbiri, ağlı, zəkası, hazırcavablığı, həyat təcrübəsi, dünyagörüşü ilə saray əyanlarından, şəhər hakimlərindən, hətta Teymurləng kimi zalım hökmdarlardan yüksəkdə duran Molla Nəsrəddin çəkinmədən onların nöqsanlarını özünəməxsus xüsusi bir əda ilə üzlərinə deyirdi, onları şiddətli tənqid atəşinə tuturdu.

Qeyd edək ki, Azərbaycanda lətifə janrının tanınmış tədqiqatçısı T.Fərzəliyev Molla Nəsrəddinin tarixi şəxsiyyət olduğunu göstərən tədqiqatçılara qarşı çıxaraq yazmışdır: «Molla Nəsrəddini hər hansı bir tarixi şəxsiyyətlə bağlamaq, eyniləşdirmək olmaz. Ona görə ki, belə bir mülahizə, ümumiyyətlə, folklorşünaslıq elminin nəzəri prinsiplərinə uyğun gəlmir» (143, 49).

Doğrudan da, şifahi xalq ədəbiyyatının əksər janrlarında olduğu kimi, lətifələrdə də müəllif və ya prototip axtarmaq doğru deyildir. Çünki folklor ümumxalq yaradıcılığıdır.

Deməli, Molla Nəsrəddin xalqın əsrlərdən bəri yaratdığı ümumiləşdirilmiş bədii surətdir.

Çəkinmədən demək olar ki, xalqın fikir süzgəcindən keçdikcə naməlum şəxsiyyətlərin yaratdığı lətifələri xalq sevdiyi qəhrəmanların, ağıllı təlxəklərin ayağına yazmış, onları müsbət xüsusiyyətlərlə zənginləşdirmişdir. Akademik V.A.Qordlevskinin göstərdiyi kimi, «Xalq tərəfindən yaradılan, başqalarının hesabına tərcümeyi-halı zənginləşən Nəsrəddinin taleyi» məhz belə olmuşdur (182, 131).

S.Koçyubinski bu misilsiz qəribə adamın və filosofun dünya ədəbiyyatı obrazları cərgəsinə keçdiyini, onu uşaqdan tutmuş qocaya qədər, kəndlidən tutmuş filosofa qədər hamının tanıdığını və sevdiyini qeyd edir (172, 6).

Bu eynilə Azərbaycan və Türkman folklorunda da belədir. Bu baxımdan Firidun bəy Köçərlinin «Molla Nəsrəddin» adlı məqaləsi maraq doğurur: «Məlumdur ki, Şərq xalqları, xüsusilə azərbaycanlılar öz danışıqlarını məsəllər, atalar sözləri və Şərqin müdrik məzhəkəçisi olan Molla Nəsrəddinin lətifələri ilə bəzəməyi sevirlər. Bu əfsanəvi Molla xalq müdrikliyinin və hazırcavablığının ifadəsidir. Onun lətifələri o qədər həyati və məzəlidir, bu lətifələrdə o qədər səmimi bir yumor vardır ki, hamı onlarla maraqlanır və azərbaycanlılar arasında həmin lətifələri bilməyən və yeri gələndə bu və ya digər lətifəni danışmayan adam çox nadir tapılar» (91, 117). Dərrakəli, qorxmaz, hazırcavab, zirək, tədbirli, zarafatcıl Molla Nəsrəddin Türkman folklorunda da ağıl və fərasət nümunəsidir. Haqq, ədalət carçısı, kasıbların tərəfdarı olan Molla, burada da xalqın sevimlisinə çevrilmişdir. Kərkük dolaylarında məşhur olan Molla Nəsrəddin lətifələrinin əksəriyyəti Azərbaycanda təsadüf edilən lətifələrin eynidir. Lakin bəzi fərqli olanlara da

rast gəlinir. Bu, hər şeydən əvvəl, lətifələrin müxtəlif sənətkarlar tərəfindən, həm də müxtəlif şəraitdə yaradılaraq yayılması, zaman keçdikcə Molla Nəsrəddinin əhvali-ruhiyyəsinə uyğunlaşdırılması və onun adına çıxılması ilə izah olunmalıdır.

Görkəmli folklorşünas alim M.H.Təhmasibin Molla Nəsrəddinlə bağlı fikri dediklərimizi bir daha təsdiqləyir: «Xalq içərisində gəzən ən gözəl lətifələr, ən məzəli, duzlu məzhəkələr, ən kəskin, tutarlı cavablar həmişə onun adı ilə bağlıdır» (98, 15).

Şərq aləmində geniş yayılan, sevilə-sevilə oxunan Molla Nəsrəddin lətifələri müxtəlif ölkələrdə dəfələrlə çap edilmişdir.

Bir çoxları xalq müdrikliyinin timsalı sayılan Nəsrəddinə öz məhəbbətini müxtəlif film və kitablarda ifadə etmişlər. Təkcə Türkiyədə Molla Nəsrəddinlə bağlı 60-dan artıq kitab çap olunmuşdur (142, 85).

Molla Nəsrəddin lətifələrinin ən çox çap və tədqiq olunduğu ölkələrdən biri də Quzey Azərbaycandır. Ə.A.Müznib, M.H.Təhmasib, P.Əfəndiyev və xüsusən də T.Fərzəliyevin lətifələrin çapı və tədqiqi sahəsində gördüyü işlər təqdirəlayiqdir.

Təəssüf ki, bu təkrarolunmaz incilər Kərkük dolaylarında hələlik, demək olar ki, istər təcrübi, istərsə də nəzəri cəhətdən kifayət qədər öyrənilməmişdir. Doğrudur, ilk təşəbbüslər edilmişdir.

Cabbar Qayacanın 1972-ci ildə Kərkükdə nəşr etdirdiyi «Bir az güləlim» kitabçasında Molla Nəsrəddinlə bağlı altı lətifə vardır. Bundan başqa, Nicat Kövsəroğlu 1969-cu ildə Kərkükdə «Nəsrəddin Xoca» adlı 29 səhifəlik kitab çap etdirmişdir (108). Lakin əsərin girişindən və kitabiyyatından göründüyü kimi, bu kitab Molla Nəsrəddin lətifələrinin İstanbul, Ankara, Qahirə nəşrlərinə əsasən hazırlanmışdır.

Məhz buna görə də İraqda işlədiyim altı il ərzində Türkman folklorunun başqa janrlarına dair nümunələrlə bərabər, lətifələri də böyük məhəbbət və ehtiramla topladım. Onların

çoxunu yerli əhalinin dediyi şəkildə lentə köçürdüm. Məlum oldu ki, burada Molla Nəsrəddinlə bağlı olmayan, lakin xalq arasında geniş yayılan lətifələr də çoxdur. Bunların əksəriyyəti ən çox müasir, daha doğrusu, son dövrlərdə yaranmış lətifələrdir. Məhz buna görə də onları «Molla Nəsrəddindən töhfələr» və «Mollanın nəvə-nəticələrindən töhfələr başlıqları altında qruplaşdırdıq (86, 211–250).

Türkman folklorunda müşahidə edilən Molla Nəsrəddin lətifələrinin mövzu dairəsi əhatəli, rəngarəngdir. Bu lətifələr məzmununa görə azacıq fərqlə M.H.Təhmasibin təsnifatına uyğun gəlir (98). Onları da «Molla evdə», «Molla və dövlət adamları», «Molla dostları arasında», «Molla və qazılar», «Molla və din xadimləri», «Molla elm və mədəniyyət aləmində», «Molla əllaməlik edir», «Molla məsləhət verir», «Molla məsciddə», «Molla bazarda», «Molla və qonşuları» və s. bölmələr altında qruplaşdırmaq olar.

Türkman folklorunda da Molla Nəsrəddin inadkar eşşəyinin üstündə oturub sakit-sakit yol gedən, hər şeyə göz qoyan, ağıl süzgəcindən keçirən, doğru nəticəyə gələn, bədbinlikdən uzaq olan bir müdrikdir. O, həmişə xalqın içində olur, hamı onun xatirini istəyir. Bazarlarda, çayçı dükanlarında, məclislərdə onun ətrafında fırlanır. Molladan müdrik bir kəlam eşitmək təmənnasında olurlar. Molla da yaxşı bilir ki, onun sözünün qiyməti də, mənası da insanların içində olmasındadır. Odur ki, bəzən çağırılmadığı məclisə də qəsdən gedir, məclis sahiblərinə dərs verir: «Sizin qanacağınız çatmayıb, məni çağırmayıbsınız. Mənim qanacağıma nə gəlib ki, sizi saymayım» – deyir.

Molla Nəsrəddin lətifələri məzəli, duzlu, ibrətamiz, yığcam, tez mənimsənilən, ürəyəyatan olduğundan geniş yayılmış, xalqın məişətinə daxil olmuşdur. Bu baxımdan onlar folklorun bayatı, mahnı, atalar sözü, tapmaca janrlarından heç də geri qalmırlar, hətta bir çox lətifələrdən çıxan nəticə-

lər xalq arasında zərb-məsəl, atalar sözü kimi işlənir. Deməli, atalar sözü və zərb-məsəllərin inkişafında və yayılmasında lətifə janrının rolu az deyildir.

Eldən-elə, dildən-dilə gəzən, işləndikcə yığcamlaşan, büllurlaşan lətifələrdə Molla Nəsrəddinin bir çox kəlamları aforizmə çevrilmişdir. İndi Türkman folklorunda bir çox atalar sözü və zərb-məsəllər bu müdrikin adı ilə bağlıdır. Məsələn: Paranı verən düdüyü çalar; Eyibsiz gözəl olmaz; Bahara bir söz deyən yox; Qürbət belimi qırdı; Məsələ haçalandı; Yorğan getdi, iş bitdi; Kişinin sözü bir olar; Eşələmə, qoxusu çıxar; Bu pişikdirsə, bəs ət hanı? Əlinin xəmiri ilə kişi işinə qarışma və s. belələrindəndir.

Lətifələrdə çox vaxt fikir tək bircə cümlə ilə ifadə edilir. Əslində, lətifə elə bu müdrik ifadəyə görə yadda qalır, çünki lətifənin canını elə bu ifadə təşkil edir.

Mövzu və ideya cəhətdən zəngin və rəngarəng olan lətifələrdə xalqın həyat tərzi, dünyagörüşü, ailə, əxlaq və s. haqqında fikirləri qabarıq şəkildə özünü göstərir. Lətifələrin ifşa və tənqid hədəfi haqsızlıq, ədalətsizlik, istismar, zülm, ətalət, əsarət, zorakılıq, rüşvətxorluq, yaltaqlıq, ikiüzlülük, xəsislik, hiyləgərlik, tamahkarlıq, qəddarlıq, paxıllıq, fırıldaqçılıq, şöhrətpərəstlik, hərislik, acgözlük, cahillik, avamlıq, axmaqlıq, tənbəllik, qorxaqlıq, boşboğazlıq, nadanlıq, itaətkarlıq, yalançılıq, mənsəbpərəstlik, tüfeylilik, lovğalıq və s. kimi mənfi əxlaqi keyfiyyətlərdir.

Folklorşünas T.Fərzəliyev lətifələri mövzu və ideya cəhətdən üç yerə bölmüşdür. Birincisi, mütləqiyyət üsul-idarəsinin və hakim sinif nümayəndələrinin əxlaq və mənəviyyatını tənqid və ifşa edən lətifələr; ikinci, din, mövhumat, xürafat əleyhinə olan lətifələr; üçüncü, ictimai həyatda baş verən nöqsanların tənqidi və yaxud ailə-məişət, tərbiyə və s. məsələlərə toxunan lətifələr (143, 52).

Bu bölgünü heç bir qeyd-şərtsiz Türkman lətifələrinə də aid etmək olar. Kərkük dolaylarında da Molla Nəsrəddin

lətifələri gündəlik həyatla sıx əlaqədə olur və hər bir münasibətdə onlardan istifadə etmək yerinə düşür. «Öz-özlüyündə çox canlı, narın və çox nahəgani nəticələrlə bitən şeylər olmasındadır ki, bunları eşidənlər gülməkdən «çatlayacaq» dərəcəyə gələ bilirlər» (69, 143).

Adətən, çox ibrətamiz olan lətifələr arasında elə bir lətifə tapmaq olmaz ki, orada müəyyən əxlaqi, əqli, ictimai fikir verilməmiş olsun. Molla Nəsrəddin bəzən zahirdə çətin nəzərə çarpan insan axmaqlığını məharətlə üzə çıxarır.

Mütləqiyyət üsul-idarəsinin və hakim sinif nümayəndələrinin əxlaq və mənəviyyatını tənqid və ifşa edən lətifələrdən danışarkən ilk olaraq göz önünə Teymurləngə bağlı olan «Nöyzən-billah», «Teymurləngin qiyməti», «Millətin ricası», «Mollanın mükafatı», «Allahın işi nədi» və s. gəlir.

Bu lətifələrdə xalq kütlələrinin hüquq və mənliyini tapdalayan, xalqı daim itaətdə durmağa, boyun əyməyə məcbur edən, onu təhqir etməkdən çəkinməyən, həddini aşan, ləyaqətsiz, şöhrətpərəst, ədalətsiz olan Teymurləngin simasında zalım və zülmkar hökmdarlar tənqid atəşinə tutulur. Məsələn, «Teymurləngin qiyməti» adlı lətifədə ölkələr çalıb-çapan, çoxlu mal-dövlətə malik olan Teymurləngin özünün dəyərsiz bir şəxs olduğunu Molla incə bir yumorla özünə bəyan edir:

Teymurləng bir gün hamamda çimərkən Molladan sorar:

– Mən qul olsaydım, neçə ağça edərdim?

– Əlli ağça.

– İnsafsız, yalnız belimdəki peştəmal əlli ağça edər.

Molla:

– Hökmdarım, mən də o fikirdəyəm, – deyir.

Lətifələrdə tez-tez rast gəldiyimiz obrazlardan biri də qazıdır. Türkman lətifələrində qazılar nadan, rüşvətxor, yalan danışan, tərəfkeş, dostbaz, ədalətsiz və haqsız işlər görən bir surət kimi səciyyələnir. Məsələn:

«Məsələ haçalandı», «Eşşəyin qazı oldu», «Mollanın sınağı», «Get haqqımı al», «Könlümü incəldib də üzməyin» və s.

Təkcə «Məsələ haçalandı» lətifəsində qazının ədalətsiz, haqsız, yalan danışan, tərəfkeş, nadan olduğu aydın görünür.

Molla qazı olarkən bir nəfər içəri girərək davasını anlatmağa başlamış:

– Qazı əfəndi, bir əlac qıl. İnək, hər halda sizin olacaq, inəyimizin qarnını buynuzlayaraq öldürmüşdür. Buna cəza lazım gəlirmi?

– Nə cəza? Heyvana qarşı qan davası açacaq deyilik ki?

– Qazı əfəndi, yanlış anlatdım. Bizim inək sizinkini öldürmüşdür.

Necə? Qazının inəyini sizin inək nə cürətlə öldürə bilər? Molla katibinə: – Məsələ haçalandı. O rəfdəki qara qapaqlı kitabı ver, bir baxım, nə cəza verməliyik.

Azərbaycan folklorunda olduğu kimi, Türkman folklorunda da Molla Nəsrəddin rəhmdil, sadəlövh, ağıllı, bilikli, tədbirli, gözüaçıqdır. Kasıb və yoxsulların havadarı olan bu müdrik yeri gələndə nöqsan, yalan, qorxaqlıq və nadanlıqlarına görə onları cəzalandırmaqdan da çəkinmir.

Bunu «Millətin ricası», «Allahı başımıza çıxarıblar», «Allah var ki?», «Azacıq aşağıya gəliz», «Ha zamana qədər sizə yol göstərim» və s. lətifələrdə tam çılpaqlığı ilə görmək olur. Məsələn, «Millətin ricası» lətifəsindən aydın olur ki, Teymurləngin bir fili varmış. Qapalı yerdə saxlanmayan bu fil bir bəla olub, keçibmiş xalqın boynuna. Dükanları dağıdır, zəmiləri xarabazara çevirirdi. Uşaq-böyük qabağına kim çıxsa ayaqlayardı. Teymurləngə şikayət edən olsa, boynunu vurdurardı. Camaat qorxudan bir yana çıxa bilmirdi. Bir gün çayxanada yenə də fildən danışırdılar. Belə qərara gəldilər ki, elliklə Teymurləngin yanına şikayətə getsinlər. Deyirlər ki, hamı getsə, heç nə etməz. Hamının boynunu vurdursa, rəiyyəti kim olar. Xahiş etdilər ki, Molla bir ağsaqqal kimi qabağa düşüb onlarla getsin. Molla düşür qabağa. Yolda bir-bir, iki-bir hamı aradan çıxır. Saraya çatanda Molla görür ki, tək

qalıb. Çox acığı tutur. Lakin geri dönə bilmir. Teymurləng onu görmüşdü. Teymurləngə deyir ki, millətin bir ricası var, deyirlər ki, fil tək darıxır, onu iki etsin.

Bu lətifədə bir tərəfdən Teymurləngin xalqa etdiyi zülm göstərilirsə, digər tərəfdən də Mollanın çətin vəziyyətdən böyük məharətlə çıxdığının, qorxaqları layiqincə cəzalandırdığının şahidi oluruq.

Molla Nəsrəddin lətifələri arasında didaktik-əxlaqi nəticə ilə bitən lətifələr də çoxdur. «Baş süfrədə əvvəlcə yer alardım», «Başqalarının evini niyə yıxırsan», «Mollanın kədəri», «Eyibsiz gözəl olmaz», «On bir toyuğun bir xoruzu», «Eşşəklə məsləhətləşim», «Parayı verən düdüyü çalar» və s. bu qəbildəndir. «Baş süfrədə əvvəlcə yer alardım» lətifəsi daha səciyyəvidir. Lətifədə göstərilir ki, Molla bir gün bir məclisə köhnə paltarda gedir. Nə ona ehtiram göstərən, nə yer göstərən olur. Hələ bu, az imiş kimi, hər gələn ondan başa keçir. Mollanın acığından dişləri bağırsağını kəsər, gizlincə məclisi tərk edər, gedib təzə paltar və kürk geyib yenidən məclisə dönər. Hamı ona ehtiram edər, baş süfrədə yer göstərər, Mollanın qabağına cürbəcür yeməklər qoyarlar:

– Buyur, Molla, süfrəyə əl uzat. O ətdən ye və s. deyərlər. Molla yeməz, kürkünün ətəyini yeməyə uzadıb:

– Buyur ye, hörmət sənədi. Mənə olsa idi, baş süfrədə əvvəlcə yer alardım, – deyir və yer üzünün əşrəfi olan insana paltara görə qiymət qoyan adamları lağa qoyur.

Bir çox lətifələr dindarlıq, mövhumat, dini bayramlar, namaz, oruc və s. qarşı kor-koranə etiqada qarşı yönəldilmişdir. «Sol ayağımın əbdəsti yoxdu», «Bu il altmış oldu», «Başqalarının evini niyə yıxırsan», «Keşkə hər gün bayram olaydı», «Günah işim yox», «Mutlu günün unudulmaz xatirəsi», «Yeni evlənmişlərsə pozulur» və başqa lətifələrdə mənasız yerə özünə əzab-əziyyət verən avam və dindarlara istehza edilir, çox incə yumorla tənqid hədəfinə çevrilirlər.

Bu baxımdan çox yığcam olan «Yeni evlənmişlərsə pozulur», «Sol ayağımın əbdəsti yoxdur» və «Tanrı müsafiri» daha səciyyəvidir.

Bir gün Molladan sorarlar:

– Orucluqda bir adam arvadını öpərsə, oruc pozulurmu?

Molla:

– Yeni evlənmişlərsə, pozulur. İkinci illəridirsə, bilmərəm, – demişdir.

«Sol ayağımın əbdəsti yoxdu» isə namazla bağlı səciyyəvi lətifədir. Lətifədə deyilir: «Bir gün Molla namaz qılmaq üçün əbdəst alır. Bir ayağına su çatmır. Odur ki, qaz kimi bir ayağı üstündə durur. «Molla, nə edirsən?» – deyə soranlara:

– Nə edim? Sol ayağımın əbdəsti yoxdur, – deyə cavab vermişdir.

«Tanrı müsafiri» adlı lətifədə isə deyilir: «Bir gün yoldan keçənin biri Mollanın qapısını döymüş və tanrı müsafiriyəm demiş.

Molla:

– Yanlış gəlibsən, oğlum. Onun evi bu deyil, odur, – deyərək məscidi göstərmiş.

Göründüyü kimi, xalq İraq kimi qatı din mərkəzində belə yeri gəldikcə müəyyən vasitələrlə avam, dindar adamları tənqid edir və onları islah etməyə çalışır.

Burada tərki-dünyalıq fəlsəfəsi pərdəsi altında xalqı soyan hakim siniflər, tüfeylilər və s. də Molla Nəsrəddinin nəzərindən yayınmır. Bu baxımdan «Axır zamandı, paltarı neynirsiz» maraq doğurur. Məlum olur ki, Mollanın bir quzusu varmış. Bir gün arkadaşları fikirləşirlər ki, necə etsinlər, quzunu Mollaya kəsdirsinlər. Çox götür-qoy edirlər və nəhayət, Mollanın yanına gəlirlər ki, sabah axır zamandı, quzunu kəs yeyək.

Harda kəsək quzunu? Çəmənlikdə, çayın kənarında. Nə isə quzunu kəsirlər. Molla quzunu bişirməkdə olsun, onlar da çayda çimməkdə. Deyib-gülür, Mollanı aldatdıqlarına sevinir, sabah bazarda aləm olacaq, – deyə düşünürlər.

Molla da onda Molla olmaz ki, onlara bir dərs verməsin. Odur ki, arkadaşlarının paltarlarını yığıb qazanın altına tökür. Arkadaşları çimib çıxanda görürlər ki, paltarları yoxdur: – Molla, hanı bizim paltarlar?

Molla:

– Vallah qoydum qazanın altına quzu bişsin. Sabah axır zamandı, paltarı neynirsiz? – deyir.

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da ailə-məişət, tərbiyə mövzularında olan lətifələr üstünlük təşkil edir. Bu lətifələrdə ərlə-arvad arasındakı münasibətlər, hüquq bərabərsizliyi, məişət nöqsanları, yaramaz tərbiyə üsulları, insanların avamlığı, pintiliyi, səliqəsizliyi tənqid edilir. «Evdəki partıltı», «Ağlı başında olan evlənər?», «Şey-meylərin yerini nənəndən sor», «Qürbət belimi qırdı», «Sənin kimin uğursuz sağ qalıb», «Əcəba, başından gedən nə imiş», «Sən bir az üzə bilirsən?», «Molla ölüm ayağında», «Kimə mavi muncuq vermişəmsə onu çox sevirəm», «Qızım hamilədi», «Mütləq erkək», «Eşşəyin yemini sən verəcəksən», «Demədin qapıya məqəyət ol?», «Ölmüş adamı necə bilərsən», «Ət nə oldu», «Keçinməyə könlüm yox» və başqa lətifələrdə Molla bəzən qayğıkeş ata, gözəl ailə başçısı, bəzən də arvad və uşaqlarının düşməni, onları mənən şikəst edən daşürəkli nadana çevrilir. Şübhəsiz, hər iki tip lətifələr insanlara təsir etmək, onları tərbiyələndirmək məqsədi daşıyır. Əslində, Molla Nəsrəddin lətifələrinin təsir qüvvəsi də elə bundadır.

Lətifələrin adlarından göründüyü kimi, ailə-məişət məsələlərinə həsr olunan lətifələrin mövzu dairəsi çox rəngarəngdir. Burada avam, miskin qadınlara həsr olunmuş lətifələrdən başlamış, islam aləmində vaxtilə geniş yayılmış çoxarvadlılıq, həyasızlıq, hiyləgərlik, var-dövlət naminə izdivac və s. ilə bağlı lətifələrə hər addımbaşı təsadüf edilir.

Dar düşüncəli, avam, miskin qadınların islahına həsr olunmuş lətifələr arasında «Ölmüş adamı necə bilərsən» və

«Əcəba, başından gedən nə imiş?» xüsusilə seçilirlər. Birinci lətifədə nəql edilir ki, Molla bir gün arvad alır. Arvadının ağlını yoxlamaq üçün soruşur:

– Ölmüş adamı necə bilərsən?

– Özünnən sorram, – deyə arvad cavab verir.

İkinci lətifədə isə Molla Nəsrəddinə xəbər verirlər ki, arvadı bazar yolunda yıxılıb, ağlı başından gedib. Evə aparıblar. Bir həkim tapıb tez evə getməsi məsləhətdir. Molla isə fikrə dalır.

– Molla, nə düşünürsünüz? – sualına Molla təmkinlə cavab verir: «Arvadımın, əslində, əvvəldən ağlı yoxdu, düşünürəm, əcəba, onun başından gedən nə imiş?

Başqa qrup lətifələrdə isə çoxarvadlılıq məsxərəyə qoyulur. «Sən bir az üzə bilirsən» lətifəsində deyilir ki, bir gün Mollanın hər iki arvadı onun yanına gəlib hansını daha çox istədiyini sorurlar. Müşkül vəziyyətdə qalan Molla:

– İkinizi də sevirəm, – deyərək sözlərini kəsmək istəmişsə də, bir şey çıxmamış.

Kiçik arvadı:

– Molla, əgər dənizdə üzsək, Allah eləməmiş, qayıq çevrilsə, suya düşsək hansımızı əvvəl xilas edərsən? – deməklə Mollanı çıxılmaz vəziyyətdə qoydu. Molla çox fikirləşəndən sonra üzünü əski arvadına çevirdi və dedi:

– Zənn edirəm, sən bir az üzə bilirsən, deyilmi?

«Kimə mavi muncuq vermişəmsə onu çox sevirəm» lətifəsində də çoxarvadlılıq məsələsindən və bununla əlaqədar evdə yaranan söz-söhbət və narahatçılıqlardan söhbət gedir: «Mollanın iki arvadı vardı. Evdə qulaq dincliyi tapmayan Molla düşünür ki, nə etsin? Bazara gedir! İki mavi muncuq alır. Evə gəlib arvadlarının hər birinə:

– Al, bunu saxla. Ortağına bir şey söyləmə, – demiş. Bir müddət sonra qadınlar yenə qovğa salırlar.

– Hansımızı daha çox sevirsən, Molla? – deyə təkidlə soruşurlar.

– Bir şərtlə deyərəm. Siz daha qovğa etməyəsiniz. Kimə mavi muncuq vermişəmsə, onu çox sevirəm, – deyir».

Molla mənfi xasiyyətli, deyingən heç nəyin üstündə davadalaş salan, amansız qadınlara da qarşı çıxır və onları biabır etməkdən çəkinmir. Bu baxımdan «Evdəki partıltı» incə yumoru ilə seçilir: «Bir gün Molla evdən çıxarkən qonşusu:

– Molla, dünən axşam sizin evdən söz-söhbət, gurultu sədası gəlirdi.

– Bizim «Koroğlu» ilə bir az ağız qovğası etdik. Arvad darıldı. Kürkümə bir təpik vurdu. O da pilləkəndən düşüb bir az səs saldı.

– Amma dedin ha! Kürk də bu qədər səs salar?

Molla:

– Sus, canım. Niyə adamı bu qədər zora salırsan. Ola bilsin kürkün içində mən də olmuşam, – deyir».

Lətifələrdə var-dövlətə görə evlənən, müəyyən məqsədlə ailə quran, öz mənfəətindən başqa bir şey düşünməyən adamlar ələ salınır, gülüş hədəfinə çevrilir. Belə lətifələr insanı düşünməyə, nəticə çıxarmağa məcbur edir. «Eyibsiz gözəl olmaz» bu qəbildən olan lətifələrdəndir: «Günlərin birində Mollanın arvadı çox varlı ailədən bir qız tapır ki, oğlunu evləndirsinlər. Qız dedikcə kifir olur. Molla bilir ki, oğlu qızı bəyənməyəcək. Arvadını başa salır ki, oğlu bir şey sorsa nə desin. Oğlan qızı görüncə beyni qızar. Gələr nənəsini məzəmmət edər.

– Oğlum, qızın eybi nədir?

– Dili laldır.

– Əyidi. Evdə baş-beynimizi ağrıtmaz.

– Bəs gözlərinə nə deyirsən? Biri kor, biri də çaşdır.

– Eybimizi görməz, oğlum!

– Topallığına nə deyirsən?

– Qapı-qapı gəzməz.

Oğlan çox darılar. – Bəs keçəlliyi? Buna nə bəhanə tapacaqsan?

Arvad bilməz nə desin. Molla bunu deməmişdi. O biri hücrədən söhbətə qulaq asan Molla:

– Arvad, niyə lal olubsan. Desən, gözəl eyibsiz olmaz. Hər gözəldə bir eyib olar, – deyir».

Azərbaycanda olduğu kimi, Kərkük dolaylarında da qızı ərə verərkən onu tərifləmək adəti Molla Nəsrəddin lətifələrində pislənir və lağa qoyulur. Bu, «Qızım hamilədi» lətifəsində öz əksini daha yaxşı tapmışdır: «Bir gün Mollanın qızına diləkçiliyə gəlirlər. Qızının diləkçiliyinə gələnlərə Molla deyir:

– Qızımın qarnında balası var.
Onlar da çıxıb evlərinə gedirlər.
Sonra arvadı Molla ilə dava edir.

Molla deyir:

– Mən nə bilim. Bazarda inəyi satanda dedim, boğazdı, qarnında balası var. Tez aldılar. Dedim, bəlkə, bunu da tez aldılar, – deyir».

Türkman folklorunda lətifələrin böyük bir əksəriyyətini «Molla və qonşuları» təşkil edir. Burada «Ha zamana qədər sizə yol göstərim», «Mollanın sınağı», «Eşşəklə məsləhətləşim», «Məktubunuz gəldi», «Doğmağa razısız, ölməyə razı deyilsiz?», «Xülyadan qoxu alırlar», «Sözümü tutmaz», «Eşşəyin anqırmasına inanırsan», «Qırx illik sirkə», «Əcəmi bülbül», «Yaş məsələsi deyil ki» və s. kimi dərin mənalı lətifələr vardır. «Eşşəklə məsləhətləşim» lətifəsini fərqləndirən də bu cəhətdir: «Bir gün qonşusu bazara getmək üçün Mollanın eşşəyin istəmiş.

– Bir az dur, eşşəklə məsləhətləşim. Könlü olsa verrəm.

Molla içəri girmiş, az sonra çıxıb demiş:

– «Eşşəyi razı sala bilmədim. Məlum oldu ki, onu əllərə verdiyim zaman həm eşşəyimin qulağına vurur, həm də arvadıma söyürlər».

Demək lazımdır ki, Kərkük dolaylarında həyatın elə bir sahəsi yoxdur ki, ona münasib ifşa və islahedici lətifə olmasın.

Avamlıq – «Ha zamana qədər sizə yol göstərim», «Şeymeylərin yerini nənən bilir», «Göz ağrısına əlac», «Dəyənək ata-ata halva yedirdirlər», «Kürkün içində olsaydım», «Ayı da quyudan çıxardıq», «Mollanın ovu» və s. Xəsislik – «Kimi yandırar, Allah bilir», «Səni kimilərə möhtac olmamaq üçün», «Bir şey yemədim» və s.; Biclik – «Altı barmaqla yeyərdim», «On bir toyuğun bir xoruzu», «Qürbət belimi qırdı», «Sənin kimi uğursuz sağ qalıb», «Hər kəsin malı başının altında gərək» və s.; Hiyləgərlik – «Doğmağına razısız, ölməyinə yox?», «Hanı arvadım», «Molla ölüm ayağında olarkən», «Mollanın sınağı» və s.; Yekəxanalıq – «Dəyirman heyvanları», «Səni dörd ayaqlı edə billəm», «Mutlu günün unudulmaz xatirəsi», «Onu heybə yapacaqdım», «Keç igidim, keç» və s; Lovğalıq – «Öz ağlı ilə bildi», «Gəl, ya mübarək», «İstədiyim oldu» və s.; Höcətlik – «Kişinin sözü bir olar», «Bu bilər mən ha zaman ölləm», «İnanmırsan get say», «Yaxayanda ölmədi, sıxanda öldü» və s.; Yalançılıq – «Keçinməy könlüm yox», «Fincançı qatırlarını hürkütməsən bir şey yox» və s.; Nadanlıq – «Mollanın kədəri», «Sən bəyəndin, mən doldurdum» və s.; Tamahkarlıq – «Yuxuda qaçırılan fürsət», «Mollanın mükafatı» və s.; Əliəyrilik – «Yorğan getdi, iş bitdi», «Ənsəmcə gə», «Sən gecə nə tapacaqsan», «Utandığımdan gizləndim» və s. kimi mənfi keyfiyyətləri özünə rəva görən əcaib-qəraib insanlara qarşı Molla Nəsrəddin çəkinmədən, mərd-mərdanə mübarizə aparır, onların daxili aləmlərini məharətlə üzə çıxarır, ağlı, dərrakəsi, hikmətli kəlamları ilə insanları tutduqları pis yoldan, pis əməllərdən çəkindirməyə, tərbiyə etməyə çalışır.

Misal göstərilən lətifələrdən göründüyü kimi, ağlı, düşüncəsi, fikri, zəkası, hazırcavablığı, hikməti ilə seçilən Molla Nəsrəddin bəzən Türkman folklorunda da avam, sadəlövh,

yüngültəbiətli, tez aldanan, gülünc vəziyyətə düşən, tərsinə iş tutan bir adam kimi təsvir edilir. Bununla da xalq bir tərəfdən müdrikliyə, elmə, savada çağırırsa, digər tərəfdən də məharətlə avamlığı, mövhumat və geriliyi özünəməxsus rişxəndlə tənqid edir. Ən kiçik daşına, uzaq ulduzuna qədər dinlə bağlı olan İraqda xalq xürafat və din xadimlərini hamının dostu və havadarı Molla Nəsrəddin vasitəsilə kəskin satira atəşinə tutur, əməllərinə gülür, hərəkətlərinə istehza edir.

Demək lazımdır ki, müəyyən əxlaqi və tərbiyəvi fikirləri təbliğ etdiyindən qeyri-adi təsir gücünə malik olan lətifələrin məziyyəti böyük siyasi-ictimai və tərbiyəvi əhəmiyyəti ilə yanaşı, kəsərliliyində, yığcamlığında, hikmətamiz və ibrətamiz olmasındadır. Burada az sözlə böyük məna ifadə etmək əsas şərtdir. «Bahara bir söz deyən yox», «Müjdə», «Səsi yarın çıxacaq», «Sözümü tutmaz», «İçində getməyin», «Dəli-dolu axdığın üçün», «Sabah olduğunu bilirsən», «Bol vədə», «Mütləq erkək», «Ay alıb satmıram ki?», «Hansı qiyamət», «Cigər tərifnaməsi», «İnsanlıq», «Çöl quşları», «Sığırın suçu», «Onun üstü bizdən kirlidi», «Siz məni nişin keçirə bilmirsiniz», «Qırx illik sirkə», «Namus məsələsi», «Tutsa Mollanın kefinə bax» və başqa lətifələrdə, hər şeydən əvvəl, diqqəti cəlb edən bu cəhətdir. Misallardan göründüyü kimi, bu lətifələrin hər birində bir dünya məna vardır: «Dəli-dolu axdığın üçün» adlı lətifədə siyasi məsələyə toxunulur:

Molla bir yay günü yoldan keçirmiş. Hava bürkü olduğundan susayır. Ağzına ağac çalınmış su borusu görür. Ağacı çıxarınca üstü tamam islanır.

– Ay səni, iştə belə dəli-dolu axdığın üçün ağzına paz çalmışlar, – deyir.

«Bahara bir söz deyən yox» adlı lətifədə isə ədalət, insaf, vicdan ön plana çəkilir, yaxşını pisdən ayırmaq ideyası irəli sürülür:

Bir gün Mollanın dostlarından biri:

İnsanları anlamıram. Soyuq olunca qışdan, isti olunca yaydan şikayət edirlər.

Molla:

– Qardaşım, amma bahara bir söz deyən yox.

«Səsi yarın çıxacaq» adlı lətifədə isə görülən bəd əməllərin üstünün açılacağına, pis əməllərlə məşğul olanların əvvəl-axır xar olacaqlarına işarə edilir. Lakin xalq müdriki Molla Nəsrəddin bunu özünəməxsus, təkrarolunmaz bir tərzdə göstərir:

Bir gecə Molla oğlu ilə evinə gedərkən oğruların bir mağazanın qıfılını xırxıladıqlarını görürlər.

Oğlu:

– Baba, bular nə yapırlar?

Molla:

– Rübab çalıllar.

Oğlu:

– Heç səsi çıxmayır, – deyincə:

Molla:

– Oğlum, onun səsi yarın çıxacaq, – deyir.

«İçində getməyin» adlı lətifədə isə dəfn və s. ilə əlaqədar uydurulmuş adət-ənənələr lağa qoyulur.

Avam kimsənin biri:

– Molla, cənazənin önündə, yoxsa arxasında getmək daha savabdır? – soruşur.

Molla:

– Tabutun içində getməyin, harda gedirsiniz gedin, fərq etməz, – deyir.

Göründüyü kimi, bu lətifələrin hər birində mənalı gülüş vardır. Gülüş isə nikbinlik, mənəvi sağlamlıq deməkdir.

Məhz buna görə də şifahi xalq ədəbiyyatında tam bir fikri və ya əhvalatı çox təbii və mənalı gülüş üsulu ilə ifadə edən, yığcam süjet xətti olan əsərlər lətifə adlanır (151, 197). Lətifələrdə «xalq bədii istedadı, iti ağlı, döyüşkən ruhu, mənfiliklərə qarşı barışmaz münasibəti, sadə, canlı bir ifadə üsulu ilə öz əksini tapmışdır» (61, 36).

Lətifə janrının meyarı təzaddır. Təzadsız lətifə tapmaq çətindir. Folklorşünas T.Fərzəliyevin qeyd etdiyi kimi, lətifədə əvvəlcə bir şey, hadisə və yanlış haqqında qısa məlumat verilir, daha doğrusu, Molla Nəsrəddinin növbəti sərgüzəşti barədə məntiqi terminlə desək, tezis irəli sürülür, ikinci hissədə qarşılaşdırma müqayisə yolu ilə yaranan ziddiyyət və ya münaqişə barədə antitezis irəli qoyulur, nəhayət, üçüncü hissədə isə nəticə əldə edilir (143, 102).

Belə bir quruluş prinsipinə, demək olar ki, əksər İraq–Türkman lətifələrində də təsadüf edilir.

Türkman lətifələrinə xas olan xüsusiyyətlərdən biri də, nağılların başlanğıcında olduğu kimi, icra edilən hal və hərəkətin qabarıq şəkildə özünü göstərməsidir. Bu özünü, əsasən, zaman, məkan kateqoriyalarında və eləcə də subyekt məchulluğunda göstərir. Məsələn: «Bir gün Molla arkadaşları ilə hamama gedirdi», «Son vaxtlar arvadı Mollaya heç baxmırdı», «Günlərin birində Mollanın arvadı oğlu üçün varlı ailədən bir qız tapır», «Bir axşam Molla əllərini qaldırıb ucadan deyir», «Biri qaça-qaça gəlib», «Bir gün bir adam Mollanın qapısını döyür», «Bir nəfər eşşəyə minib gedirdi», «Gəvəzənin biri Mollaya sataşmaq üçün deyər», «Bir gecə Mollanın yuxusu qaçmışdı», «Aylı bir axşam su çəkmək üçün Molla quyuya gedər», «Günlərin birində Molla qərib bir köyə gedirdi», «Bir gün Mollagilin məhəlləsində toydu», «Bir gün Molla oturmuşdu çayxanada», «Molla gəncliyində bir şəhərə getmişdi», «Səyahət vaxtı bir köyün imamına müsafir olan Mollaya ev sahibi», «Bir gün Molla qəssabdan cigər alır», «Bir qonşusu qaça-qaça Mollanın yanına gəlmiş» və s.

Mayasını həyat təcrübəsi, real həyat hadisələri, onun qanunauyğun ziddiyyətləri, insan xarakterləri, təzadlar, xarakterlər toqquşması təşkil edən lətifələr elə yığcam, elə lakonik olur ki, T.Fərzəliyevin qeyd etdiyi kimi, bu xüsusiyyət lətifədən nəinki bir cümlə, hətta bir kəlmə belə götürülməsinə

imkan vermir. Onlardan bir detal, bir söz, bir moment belə götürüldükdə onun əsas qayəsi pozulur. Əgər lətifədə bir əşyanın keyfiyyəti, məsələn: onun həcmi, rəngi, miqdarı, çəkisi, iyi, yaxud da subyektin – obrazın boyu, sir-sifəti, xasiyyəti, hərəkəti, davranışı, geyimi və s. göstərilirsə, bu, o deməkdir ki, həmin əşya və ya detal sonluqda yumor, hikmətli kəlam və ya istehza, kinayə üçün zəruridir (143, 107, 108).

«Bə ət hanı», «Eşələmə, qoxusu çıxar» və s. lətifələr yuxarıda deyilənlərə əyani misal ola bilər. Məsələn, «Bə ət hanı» lətifəsində deyilir:

Molla işə getməzdən əvvəl üç hoqqa ət alıb axşama yemək bişirmək üçün arvadına verir. Qonşular Molla gəlincə əti bişirib yeyirlər.

Axşamüstü arvadı Mollanın qabağına bişmiş lobya qoyur.

– Əti bişirməyə vaxt olmadı?

– Molla, əti pişik yedi.

Mollanın kafası qızır: – Kirli-pasaxlı, pis-pinti arvad, üç hoqqa əti pişik necə yedi? – deyib Molla pişiyi tutur və tərəzidə çəkir. Pişik üç hoqqa gəlir.

Molla:

– İnsafsız qadın! Əgər bu ətdirsə, bə pişik hanı? Yox, əgər pişikdirsə, bə ət hanı, – deyir.

Demək lazımdır ki, rişxənd, istehza, kinayə, duzlu, məzəli incə xalq yumoru Molla Nəsrəddin lətifələrinin ətini-qanını təşkil edir. Sanki lətifələr bu bədii təsvir vasitələri ilə qoşa yaranmışlar. Elə bir lətifə tapmaq çətindir ki, orada bu və ya digər bədii təsvir vasitəsinə təsadüf edilməsin. İstehza, kinayə, rişxənd, incə yumor lətifələrdə quru-quru tərifləmək, lağa qoyma, ələ salma, rüsvay etmə, yaxşıya pis, pisə yaxşı demə, özünü qanmazlığa, görməzliyə, eşitməzliyə, saymazlığa, bilməzliyə vurma və s. yolu ilə düzəlir.

Dinlədikcə adamı mat qoyan, valeh edən bu məzəli, dadlı-duzlu lətifələrin predmeti insandır. Ümumiyyətlə, hər bir lə-

tifədə ən azı iki-üç insan obrazına təsadüf edilir. Xalq tərəfindən ümumiləşdirilən bu obrazlar cəmiyyətin müxtəlif təbəqələrini təmsil edirlər. Lətifələrdə surətlərin dili onların dünyagörüşlərinə, şüurlarına, ağıl və dərrakələrinə uyğun gəlməklə bərabər, onların hansı silkə, hansı təbəqəyə aid olduqlarını, sənətlərini, daxili aləmlərini, psixologiyalarını da parlaq şəkildə əks etdirir.

Canlı xalq dilinin bütün incəliklərini əhatə edən lətifələrə sözçülük, uzunçuluq yaddır. Təbiilik, yığcamlıq, oynaqlıq, şirinlik və s. lətifə janrının dilinin səciyyəvi xüsusiyyətidir. Şübhə yoxdur ki, lətifələrin belə geniş yayılmasında və sevilməsində bu cəhət az rol oynamamışdır.

Qeyd etməyə dəyər ki, Türkman folklorunda lətifələrdə təsadüf edilən surətlərin hər birinin özünəməxsus danışıq tərzi və eləcə də fərdi xüsusiyyətləri vardır. Lakin onların içində Molla Nəsrəddin tamamilə fərqlənir. Xalq həyat təcrübəsini, müdrikliyini bu surətdə təcəssüm etdirmişdir. Öz müdrikliyi ilə əzəmətli olan, xalqın sevimlisinə çevrilən Molla Nəsrəddin insana xas olan ən gözəl xüsusiyyətləri özündə toplayan ağıllı, dərrakəli, həyatın keşməkeşlərini, istisini-soyuğunu görmüş, bərkdən-boşdan çıxmış, təmkinli, uzaqgörən, yaxşını pisdən, xeyiri şərdən ayırmağı bacaran, dünyanı düzgün dərk edən bir xalq müdrikidir.

Vicdanı təmiz olan bu xalq müdriki üçün həyatda xeyirxahlıqdan ümdə heç nə yoxdur. Odur ki, qəddar, insafsız, vicdansız, ədalətsiz, rüşvətxor, ikiüzlü, yaltaq, nadan, cahil və s. adamlara qarşı mübarizə aparmaqdan çəkinmir. Həqiqət naminə qeyd etmək yerində olardı ki, «Molla, dünyada ən axmaq kimdir?» soran birisinə «Sözün doğrusunu xalqın gözünə deyən» (97, 2) cavabını verməklə Molla atdığı addımın məsuliyyətini dərk etdiyini, bu yolda onu nələr gözlədiyini xüsusi qeyd etsə də, tutduğu yoldan dönmür. Köhnə dünya, onun törətdiyi ətalət, səfalət, cəhalət, istibdad, mövhumat, xürafat və s. onun əsas tənqid hədəfinə çevrilir.

Doğrudur, Molla avam və sadəlövh adamlara acıyır, onların gözünü açmağa çalışır. Xalqı elm, bilik, savad və tərəqqiyə, maarif və mədəniyyətə səsləyir. İnsanları ədalətli olmağa, bəd əməllərdən çəkinməyə çağırır. Gənclərin tərbiyəsinə xüsusi fikir verir. Onların əxlaqlı, əməksevər, namuslu, qeyrətli olmalarına böyük diqqət yetirir.

Qeyd etməyə dəyər ki, Türkman lətifələrində dünyanın əşrəfi hesab edilən insana xas olan bir çox xüsusiyyətlər öz əksini tapmışdır. Məlumdur ki, insanda hər şeyi duymaq, anlamaq, bilmək, güclü və sərbəst olmaq arzusu güclü olur. Dünyanı düzgün dərk etmək, həyata realist münasibət bəsləmək insan təbiətinin ayrılmaz hissəsinə çevrilir. Bu baxımdan Molla Nəsrəddin lətifələri hər an onun köməyinə çatır, havadarı olur. Öz mayasını xalqdan alan bu yaradıcılıq aləmi hamının malı olduğundan, əsrdən-əsrə, nəsildən-nəslə, eldən-elə keçərək könüllərdə məskən salmış, ölməz ədəbi irsə çevrilmişdir. Bizcə, lətifələri xalqın iti ağlı, görən gözü, vuran nəbzi, döyünən ürəyi hesab etmək ədalətdən kənar olmazdı.

SON SÖZ ƏVƏZİ

Qismətimdən razıyam ki, 1962-ci ilin ilıq bir payız günü İraqa ilk səfərim ərəfəsində, mərhum akademik Məmmədağa Şirəliyev Kərkük dialekti və folkloru barədə mənə dəyərli məsləhətlər verdi və o vaxtdan məndə Türkman folkloru və dialektinə maraq oyandı. İllər keçdikcə bu maraq məcrasını dəyişərək əsl məhəbbətə çevrildi. Nəticədə Kərkük dialektinə həsr olunmuş namizədlik dissertasiyası, neçə-neçə məqalə və kitablar, o cümlədən də oxuculara təqdim etdiyimiz «İraq–Türkman folkloru» kitabı meydana gəldi.

Kitabın hər səhifəsi arxasında İraqda keçirdiyim altı ilin acılı-şirinli anları, artıq əbədiyyətə qovuşan tədqiqatçılar – Şakir Sabir Zabit, Rza Dəmirçi, Sinan Səid və indi də yaşayıb-yaradan Əta Tərzibaşı, Əbdüllətif Bəndəroğlu, İbrahim Daquqi, İhsan Vəsfi, Sübhi Saatçı, Mövlud Taha Qayaçı, Məhəmməd Xurşid və başqaları dururlar.* Onların hamısını ehtiramla anır və bəzən öz-özümə fikirləşirəm: «Məni Türkman folkloruna, onu yaradıb-yaşadanlara belə dərindən bağlayan nədir?» Göz önünə ilk olaraq Azərbaycanda Türkman folkloruna xalqın dərin məhəbbəti və doğmalıq hissi gəlir. Özüm üçün bir daha «kəşf» edirəm ki, doğmasını sevməmək mümkün olmadığı kimi onu unutmaq, ona yad münasibət bəsləmək də mümkün deyil. Başqa bir tərəfdən də düşünürəm ki, parçalanmağa məruz qalmış xalqın elliklə yaratdığı mənəvi sərvət üçün bağlı qapılar, keçilməz yollar yoxdur. Həqiqətən də, nə kəsilən yollar, nə illər mənəvi ayrılığa gətirib çıxara bilməmiş, qismətimizə düşən cismani ayrılıq olmuşdur.

İstər İraq, istər Güney, istər Quzey Azərbaycanı, istərsə də Türkiyə olsun, oxucu və tədqiqatçılar, üzərində çoxdan işlədiyim və öz hesabıma çap etdirdiyim bu kitabı mənəvi birliyimiz yolunda atılan bir addım hesab etsələr xoşbəxt ollam.

*** Qeyd:** Təəssüf ki, artıq İ.Daquqi, İ.Vəsfi, Ə.Bəndəroğlu və M.T.Qayaçı haqqa qovuşmuşlar **(Q.P.)**.

QAYNAQLAR

AZƏRBAYCANCA

1. Adilov Musa. Niyə belə deyirik. Bakı, Gənclik, 1973

2. Adilov Musa. Xalq şeirinin ritmi haqqında. Azərbaycan folklorşünaslığı məsələləri məcmuəsi. Bakı, 1983

3. Adnan Asəfoğlu. Qarabağı üsulundan bilgilər. Bağdad, «Yurd» qəzeti, 17 mart 1989

4. Azərbaycan tapmacaları (Toplayanı və tərtib edəni Hənəfi Zeynallı), Bakı, 1928

5. «Azərbaycanı öyrənmə yolu» jurnalı, Bakı, 1930

6. Azərbaycan türk xalq şivələri. I cild, 1-ci hissə, Bakı, 1930

7. Azərbaycan nağılları, I cild, Bakı, 1960

8. Azərbaycan xalq dastanları, I cild, Bakı, Azərnəşr, 1961

9. Azərbaycan nağılları, V cild, Bakı, Azərnəşr, 1964

10. Azərbaycan folkloru antologiyası (Toplayanı və tərtib edəni Əhliman Axundov), I kitab, Bakı, Elm, 1968

11. Azərbaycan folkloru antologiyası (Toplayanı və tərtib edəni Əhliman Axundov), II kitab, Bakı, Elm, 1968

12. Azərbaycan nağılları (Tərtib edəni Əhliman Axundov), II cild, Bakı, 1970

13. Azərbaycan nağılları, Bakı, Azərnəşr, 1976

14. Azərbaycan Sovet Ensiklopediyası, I cild, Bakı, 1976

15. Azərbaycan Sovet Ensiklopediyası, II cild, Bakı, 1979

16. Azərbaycan məhəbbət dastanları, Bakı, 1979

17. Azərbaycan xalq musiqisi, Bakı, Elm, 1981

18. Azərbaycan xalq dastanları, Bakı, 1983

19. Azərbaycan bayatıları (Tərtib edənlər Bəhlul Abdullayev, Elxan Məmmədov, Qızılgül Babazadə), Bakı, Elm, 1984

20. Azərbaycan xalq mahnı və təsnifləri (Tərtib edəni Qafar Namazəliyev), Bakı, İşıq, 1985

21. Azərbaycan ədəbiyyatı inciləri. Nağıllar, Bakı, Yazıçı, 1985

22. Arazam Kürə bəndəm (Tərtib edəni Bəhlul Abdullayev), Bakı, 1988

23. Araslı Həmid. XVII – XVIII əsr Azərbaycan Ədəbiyyatı tarixi, Bakı, ADU nəşri, 1956

24. Arvad ağısı, mahnı, haxışta, sevgi, laylay, qayınana-gəlin sözləri (Toplayanı Mirzə Abbaszadə), Bakı, 1918

25. «Arzu–Qəmbər» dastanı (Toplayanı və tərtib edəni Əta Tərzibaşı), Bağdad, 1964

26. «Arzu–Qəmbər» dastanı (Tərtib edəni Qəzənfər Paşayev), Bakı, Gənclik, 1971

27. Atalar sözü (Toplayanı və tərtib edəni Hənəfi Zeynallı), Bakı, 1926

28. Atalar sözü (Toplayanı Əbülqasım Hüseynzadə), Bakı, Yazıçı, 1981

29. Aşıq Ələsgər. Bakı, Yazıçı, 1988

30. Aşıq Şəmşir. Şeirlər. Bakı, Yazıçı, 1980

31. Aşıq Şəmşir. Şeirlər, Bakı, Yazıçı, 1984

32. Aşıq şeirindən seçmələr (Tərtib edənlər Hüseyn Arif, Mürsəl Həkimov), Bakı, Gənclik, 1984

33. Bayatılar (Çapa hazırlayan: Azərbaycan Ədəbiyyatı Cəmiyyəti), Bakı, 1925

34. Bayatılar (Tərtib edəni M.H.Təhmasib), Bakı, 1943

35. Bayatılar (Tərtib edəni M.Fərzanə), Tehran, 1965 (Hicri, 1344)

36. Bayatılar (Tərtib edəni Asya Məmmədova), Bakı, Elm, 1977

37. Bayatılar (Tərtib edəni Vaqif Vəliyev), Bakı, Yazıçı, 1985

38. Bayatı, qoşma, təcnis. Bakı, 1988

39. Bayatılar, xoyratlar (Tərtib edənlər: Əli Bəndəroğlu, Mustafa Ziya), Bağdad, 1989

40. Belinski V.Q. Seçilmiş məqalələri, Bakı, Uşaqgəncnəşr, 1948

41. Bəhlul Abdullayev. Haqqın səsi. Bakı, Azərnəşr, 1989

42. Bilməcələr (Toplayanı və tərtib edəni Aydın Kərkük), İraq, Kərkük, 1972

43. Vahabzadə Bəxtiyar. Gəlin açıq danışaq, Bakı, Azərnəşr, 1988

44. Vəliyev Vaqif. Folklor nümunələri ADU-nun elmi əsərləri. Dil və Ədəbiyyat seriyası, №1, 1977

45. Vəliyev Vaqif. Qaynar söz çeşməsi, Bakı, Yazıçı, 1981

46. Vəliyev Vaqif. Azərbaycan folkloru, Bakı, Maarif, 1985

47. Vəliyev Vaqif. Poetik incilər. Bax: «Ədəbiyyat və İncəsənət» qəzeti, 25 yanvar 1985

48. Vəliyev Kamil. Elin yaddaşı, dilin yaddaşı, Bakı, Gənclik, 1987

49. Vəliyev Həmid. Azərbaycan folkloru gürcü mənbələrində, Bakı, Yazıçı, 1984

50. Vəfalı Ayaz. Sənətkar və xalq. Bakı, Gənclik, 1983

51. Qarayev Yaşar. Folklorumuzun tarixi. Bax: Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, Yazıçı, 1990

52. «Qardaşlıq» jurnalı, İraq, Bağdad, 1961–1976

52a. Qardaşlıq» № 4, 1962

52b. «Qardaşlıq», № 5, 1962

52v. «Qardaşlıq», № 5, 1963

52q. «Qardaşlıq» jurnalı, № 5, 1967

52d. «Qardaşlıq» jurnalı, № 11, 1962

52e. «Qardaşlıq» jurnalı, № 2, 1961

53. Qasımzadə Feyzulla. XIX əsr Azərbaycan Ədəbiyyatı tarixi, Bakı, Maarif, 1966

54. Qorki M. Ədəbiyyat haqqında, Bakı, 1950

55. Dəmirzadə Ə.M. Azəri ədəbi dili tarixi, Bakı, 1967

56. Elçin. Mən səndən ayrılmazdım. Bax: «Ədəbiyyat və incəsənət» qəzeti, Bakı, 30 yanvar, 1987

57. Əbdülvahid Gözəçioğlunun Xoyrat və bəstələri, İraq, Kərkük, 1966

58. Əbdüllətif Bəndəroğlu. Türkman ədəbiyyatı yolunda bir addım, İraq, Bağdad, 1962

59. Əbdüllətif Bəndəroğlu. Ata sözlərimiz. Araşdırma, incələmə və qarşılaşdırma, İraq, Bağdad, 1988

60. Ədəbiyyat məcmuəsi, XI cild, 1957

61. Ədəbiyyatşünaslıq terminləri lüğəti (Tərtib edəni Əziz Mirəhmədov), Bakı, Azərnəşr, 1957

62. Əzizov E.İ. «Qırat» və «Dürat» sözlərinin etimologiyası. Türk dillərinin leksik morfoloji quruluşu. ADU-nun Elmi Əsərlərinin tematik məcmuəsi, Bakı, 1981

63. Əlizadə Hümmət. Aşıqlar, Bakı, Azərnəşr, 1938

64. Əlizadə Zinyət. Azərbaycan atalar sözlərinin həyatı, Bakı, Yazıçı, 1985

65. Əli Saləddin. Azərbaycan şeiri və folklor, Bakı, Elm, 1982

66. Əmin Abid. Türk xalqları ədəbiyyatında «Mani» növü və Azərbaycan bayatılarının xüsusiyyəti. «Azərbaycanı öyrənmə yolu» jurnalı, sayı 4–5, Bakı, 1930

67. Əsli və Kərəm. Bakı, Uşaqgəncnəşr, 1960

68. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, Maarif, 1981

69. Zeynallı Hənəfi. Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1983

70. İbrahim Daquqi. İraq türkmanları. Dilləri, tarixləri və ədəbiyyatları, Ankara, 1970

71. İbrahim dastanı və Qisseyi İbrahim və İsmayıl (Tərtib edəni Mir Davud Əbdülkərim), Bağdad, 1951

72. İbrahimov İdris: Atalar sözü və məsəllər. Bax: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, Bakı, 1961

73. İraq türkmanları ağzında atalar sözləri (Toplayanı və tərtib edəni Şakir Sabir Zabit), İraq, Bağdad, 1962

74. İraq–Kərkük bayatıları (Tərtib edəni Qəzənfər Paşayev), Bakı, Yazıçı, 1984

75. İraq–Kərkük atalar sözləri (Toplayanı və tərtib edəni Qəzənfər Paşayev), Bakı, Azərnəşr, 1978

76. İraq–Türkman ədəbiyyatı tarixinə bir baxış, II cild, Bağdad, 1989

77. İsazadə Ə., Məmmədov N. Azərbaycan xalq mahnıları və oyun havaları, Bakı, Elm, 1984

78. İsmayılzadə R. Azərbaycan xalq mahnıları. Bax: Azərbaycan xalq musiqisi: Oçerklər, Bakı, Elm, 1981

79. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin janrları, Bakı, İşıq, 1984

80. İhsan Vəsfi: İraq türklərində deyimlər və ata sözləri, İstanbul, 1985

81. «Yurd» qəzeti, İraq, Bağdad, 23 mart 1989

81a. «Yurd» qəzeti, 27 iyun 1989

81b. «Yurd» qəzeti, 5 oktyabr 1989

82. Kərkük bayatıları (Tərtib edənlər: Rəsul Rza; Qəzənfər Paşayev) Bakı, Azərnəşr, 1968

83. Kərkük mahnıları (Tərtib edəni Qəzənfər Paşayev), Bakı, Gənclik, 1973

84. Kərkük müntəxab xoyratları (Toplayanı və tərtib edəni Molla Sabir) İraq, Bağdad, I qism, 1951; II qism 1953; III qism 1954

85. Kərkük tapmacaları. (Toplayanı və tərtib edəni Qəzənfər Paşayev) Bakı, Gənclik, 1984

86. Kərkük folkloru antologiyası (Toplayanı və tərtib edəni Qəzənfər Paşayev), Bakı, Azərnəşr, 1987, təkrar nəşr 1990

87. Kərkük xoyratları və maniləri (Toplayanı və tərtib edəni Mehmet Həbib Sevimli), İstanbul, 1950

88. Kərkük xoyratları (Toplayanı və tərtib edəni Osman Məzlum), Bağdad, 1951

89. Kitabi-Dədə Qorqud (Tərtib edənlər: Fərhad Zeynalov, Səmət Əlizadə), Bakı, Yazıçı, 1988

90. Köçərli Firidun bəy. Sayaçı sözləri. SMOMPK, 41-ci buraxılış, 1910

91. Köçərli Firidun bəy. Seçilmiş əsərləri. Azərbaycan SSR EA-nın nəşriyyatı, Bakı, 1963

92. Köçərli Firidun bəy. Balalara hədiyyə, Bakı, Gənclik, 1972

93. Laçınlı Ağa: Bayatılar və musiqi, «Ulduz» jurnalı:, № 2, 1975

94. Məmməd Arif. Bədii dil və üslub. Ədəbiyyat məcmuəsi, Bakı, 1946

95. Məmməd Arif. Azərbaycan xalq teatrı Ədəbiyyat məcmuəsi, Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, I cild, Bakı, 1946

96. Mirzəzadə Hadi. İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi qeydlər: ADU-nun Elmi Əsərləri İctimai elmlər seriyası, № 4, Bakı, 1961

97. Molla Nəsrəddin lətifələri (Toplayanı və tərtib edəni Əli Abbas Müznib), Bakı, Azərnəşr, 1927

98. Molla Nəsrəddin lətifələri (Tərtib edəni Məmmədhüseyn Təhmasib), Azərbaycan SSR EA-nın nəşriyyatı, Bakı, 1965

99. Molla Nəsrəddin lətifələri (Tərtib edəni Məmmədhüseyn Təhmasib) Bakı, Yazıçı, 1978

100. Molla Cümə: Şeirlər, Bakı, Azərnəşr, 1966

101. Nağıllar, Bakı, Azərnəşr, 1965

102. Namazov Qara. Azərbaycan aşıq sənəti, Bakı, Yazıçı, 1984

103. Nəbiyev Azad. Azərbaycan–Özbək folklor əlaqələri, Bakı, Yazıçı, 1978

104. Nəbiyev Azad. Azərbaycan folklorunun janrları, I hissə, Bakı, ADU-nun nəşriyyatı, 1983

105. Nəbiyev Azad. Kərkük dünyası, «Kommunist» qəzeti, 20 may 1987

106. Nəğmələr, İnanclar. Alqışlar (Toplayanı və tərtib edəni Azad Nəbiyev), Bakı, Yazıçı, 1986

107. Nəsimi İmadəddin. İraq Divanı (Tərtib edəni Qəzənfər Paşayev), Bakı, Yazıçı, 1987

108. Nicat Kövsəroğlu. Nəsrəddin Xoca, İraq, Kərkük, 1969

109. Odunçunun qızı (Toplayanı və tərtib edənləri Əhməd Quşçu oğlu və Behcət Qəmgin), Kərkük, 1971

110. Osman Məzlum: Xoyratlar, Bağdad, 1975

111. Paşayev Qəzənfər. Kərkük dialektinin fonetikası, namizədlik dissertasiyası, Bakı,1969

112. Paşayev Qəzənfər. Kərkük azəriləri. Atalar sözləri. Bax: «Azərbaycan» jurnalı, № 2, Bakı, 1969

113. Paşayev Qəzənfər. Altı il Dəclə–Fərat sahillərində, Bakı, Yazıçı, 1985, təkrar nəşr, 1987-ci il

114. Paşayev Qəzənfər. Folklorumuzun qüdrətli qolu. Bax: Kərkük folkloru antologiyası. Bakı, Azərnəşr, 1987

115. Paşayev Sədnik. Çoxvariantlı «Arzu–Qəmbər» dastanı və xalq əfsanələri, «Elm və həyat» jurnalı, № 12, Bakı, 1987

116. Rza Dəmirçi. Gələcək nüfuz sayımı və İraq türkmanları. Bax: «Qardaşlıq» jurnalı, № 6, Bağdad, 1970

117. Rəsul Rza. Uzaq ellərin yaxın töhfələri. Bax: «Azərbaycan» jurnalı, № 9, Bakı, 1961

118. Rəsul Rza: Seçilmiş əsərləri, V cild, Bakı, Yazıçı, 1983

119. Rzaquluzadə Mikayıl. Atalar sözü və məsəllər. Bax: Atalar sözü (Toplayanı Əbdülkərim Hüseynzadə), Bakı, Azərnəşr, 1949

120. Salman Mümtaz. Aşıq Abdulla, Bakı, Azərnəşr, 1927

121. Seyidov Mirəli. Yaz bayramı, Bakı, Gənclik, 1990

122. Seyidov Nurəddin. Azərbaycan nağılları haqqında. Bax: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, Bakı, Azərbaycan SSR EA-nın nəşriyyatı, Bakı, 1961

123. Seyidov Nurəddin. Azərbaycan nağıllarının bədii xüsusiyyətlərinə dair bəzi qeydlər. Bax: «Tədqiqlər», II kitab, Bakı, 1966

124. Seyidov Nurəddin. Azərbaycan tapmacalarına dair. Bax: «Tədqiqlər», Bakı, 1968

125. Seyidov Nurəddin. Tapmacaların bəzi xüsusiyyətlərinə dair. Bax: «Tədqiqlər», IV kitab, Bakı, 1973

126. Sehrli Sünbüllər (Toplayanı Azad Nəbiyev), Bakı, Gənclik, 1990

127. «Son xəbərlər» qəzeti, № 15, Bakı, 1915

128. Sula Benet. Necə yaşayasan, yüzü haqlayasan (İngilis dilindən tərcümə edən Qəzənfər Paşayev), Bakı, Yazıçı, 1989

129. Sübhi Saatçı Kərkük Cocuq folkloru, İstanbul, 1984

130. Tapmacalar (Toplayanı və tərtib edəni Vəli Xuluflu), Bakı, 1928

131. Tapmacalar (Toplayanı və tərtib edəni Nurəddin Seyidov), Bakı, Elm, 1971

132. Tahirbəyov Bayram. Atalar sözünün təsnif və təqdim edilməsi haqqında. Bax: Atalar sözü (Toplayanı Ə.Hüseynzadə), Bakı, Yazıçı, 1981

133. Tərzibaşı Əta. Kərkük xoyratları və maniləri, I cild, Bağdad, 1955

133a. Tərzibaşı Əta. Kərkük xoyratları və maniləri, II cild, Kərkük, 1956

133b. Tərzibaşı Əta. Kərkük xoyratları və maniləri, III cild, Kərkük, 1957

134. Tərzibaşı Əta. Kərkük havaları, Bağdad, 1961

135. Tərzibaşı Əta. Kərkük əskilər sözü, Bağdad, 1962

136. Tərzibaşı Əta. Kərkük şairləri, I cild, Bağdad, 1963

137. Tərzibaşı Əta. Kərkük xoyratları və maniləri, İstanbul, 1975

138. Təhmasib Məmmədhüseyn. Azərbaycan nağıllarında Keçəl. Bax: «Revolyusiya və kultura» jurnalı, № 1–2, Bakı, 1939

139. Təhmasib M.H. Uzaq ellərin yaxın töhfələri haqqında, «Azərbaycan» jurnalı, № 2, 1969

140. Təhmasib M.H. Ara uzaq, ürək yaxın. Bax: «Ədəbiyyat və incəsənət» qəzeti, 18 mart 1972

141. «Ulduz» jurnalı, № 12, 1975

142. Fərzəliyev Təhmasib. Nəsrəddin adı ilə bağlı lətifələrin nəşri və tədqiqi. Bax: «Tədqiqlər», II kitab, Bakı, Elm, 1966

143. Fərzəliyev Təhmasib. Azərbaycan xalq lətifələri, Bakı, Elm, 1971

144. Fərzəliyev Təhmasib. Azərbaycan folklorunda xalq dram və oyun tamaşaları. Bax: «Tədqiqlər», VII kitab, Bakı, Elm, 1987

145. Firdovsi. Şahnamə (Tərcümə edəni Mübariz Əlizadə), Bakı, Yazıçı 1986

146. Xalq ədəbiyyatı, I cild, Bakı, Elm, 1981

147. Xobotyev G. Layla valı. Bax: «Kommunist» qəzeti, Bakı, 9 fevral, 1989

148. Haqverdiyev Ə. Seçilmiş əsərləri, II cild, Bakı, 1957

149. Hacıbəyov Üzeyir. Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1985

150. Hacıbəyov Üzeyir, Maqomayev Müslüm. Azərbaycan el nəğmələri, 2-ci nəşri, Bakı, 1985

151. Hacıyev Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi, Bakı, Azərnəşr, 1958

152. Haşim Nahid. İraq türkləri. «Türk yurdu» məcmuəsi, Ankara, 1919 (Hicri 1339)

153. Həkimov Mürsəl. Folklordan çöl materialları toplusu üzrə (bayatılar) metodik iş, Bakı, 1982

154. Həkimov Mürsəl. Azərbaycan aşıq ədəbiyyatı, Bakı, Yazıçı, 1983

155. Həkimov M. Xalq mövsümləri və aşıq sənəti. «Tədqiqlər», IV kitab» Bakı, Elm, 1973

156. Həsənova Lalə. Azərbaycan satirik məişət nağılları, Bakı, Yazıçı, 1989

157. Həşimov Ə.H. Azərbaycan şifahi xalq ədəbiyyatında tərbiyəvi fikirlər, Bakı, Uşaqgəncnəşr, 1958

158. Hikmətli sözlər (Tərtib edəni Həsən Qasımov), Bakı, Uşaqgəncnəşr, 1961

159. Homer. İliada (Tərcümə edəni Mikayıl Rzaquluzadə), Bakı, Azərnəşr, 1978

160. Hüseyn Arif Hüseynzadə. Ömür gözləsə, Bakı, Gənclik, 1978

161. Hüseynov Tofiq. Ön söz. Bax: Çəmənzəminli Y.V. Qızlar bulağı, Qan içində, Bakı, Yazıçı, 1987

162. Çəmənzəminli Y.V. Qızlar bulağı. Qan içində, Bakı, Yazıçı, 1987

163. Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, Yazıçı, 1990

164. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası, II cild, Bakı, Elm, 1983

165. Cəfərov Məmmədcəfər. Füzuli düşünür, Bakı, 1959

166. Cəfərov Səlim. Müasir Azərbaycan dilinin leksikası, Bakı, 1958

167. Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi, Bakı, 1950

168. Şakir Sabir Zabit Kərkükdə ictimai həyat, İraq, Bağdad, 1962

RUSCA

169. Аббасов И. И. Азербайджанские дастаны в армянских источниках и проблемы их исследования. Автореф. док. дисс. Баку, 1986

170. Адилов Муса. Система повторов в азербайджанском языке. Док. дисс. Баку, 1967

171. Алиев А.А. Художественные особенности азербайджанских баяты. Канд. дисс. Баку, 1980

172. Анекдоты о Ходже Насреддине и Ахмет Ахае. Крым. АССР, Государственное изд-во, 1937

173. Анекдоты о Ходже Насреддине. Изд-во Восточной литры, М., 1957

174. Аникин В.П. Народная мудрость. См.: Пословицы и поговорки народов Востока. Изд-во Восточной лит-ры, М., 1961

175. Афанасьев А.Н. Политические воззрения славян на природу. Опыт сравнительного изучения славянских преданий и верований в связи с мифическими сказаниями других родственных народов. Том. I, М., 1865

176. Бахлул Абдулла (Бахлул Абдуллаев). Азербайджанский обрядовый фольклор и его поэтика. Баку, Элм, 1990

177. Белинский В.Г. Стихотворения М.Лермонтова. Избранное. Изд-во Московский рабочий, М. 1954

178. Большая Советская Энциклопедия. Том I, М., 1970

179. Буслаев Ф. И. Исторические очерки. Том I, СПб., 1981

180 Гербстман А. И. Русский фольклор. Том XI, Изд-во АН СССР, М., - Л., 1968

181. Гордлевский В.А. Ходжа Насреддин. Анекдоты о Ходже Насреддине. М., 1957

182. Горький М. Материалы и исследования. Т. I. Изд-во АН СССР, 1934

183. Горький М. О литературе. М., 1953

184. Грубер Р.И. Всеобщая история музыки. Т.I, М., 1960

185. Даль В.И. Толковый словарь. Том III, 1912

186. Даль В.И. Пословицы русского народа. Москва, 1957

187. Живая старина, год 1911. СПб., 1912, № 1-4

188. Загадки. Изд-во Наука, Л., 1968

189. Календарные обычаи и обряды в странах зарубежной Европы. М., 1977

190. Караев К. А. Статьи. Письма. Воспоминания. М., 1978

191. Колесницкая И.М. Загадки. Русское народное поэтическое творчество. Том II, Изд-во АН СССР, М. - Л., 1955

192. Короглы Х.Г. Огузский эпос. М., Наука, 1976

193. Ленин В.И. О литературе и искусстве. М., 1967

194. Мифы народов мира. Том I, М., 1980

195. Музафаров Р. Татарские народные пословицы. Канд. дисс. Казань, 1959

196. Онисанская И.М. Структура пословиц и образованных от них фразеологических оборотов. Канд. дисс. Ленинград, 1961

197. Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XIX вв. Ленинград, 1949

198. Пропп В.Я. Фольклор и действительность. М., 1976.

199. Пословицы и поговорки народов Востока. Москва, 1961

200. Радлов В.В. Опыт словаря тюркских наречий. Том II, часть 2-ая, 1963

201. Русское народное поэтическое творчество. Изд-во «Высшая школа», М., 1969

202. Рыбникова М.А. Русские пословицы и поговорки. Москва, 1961

203. Советский энциклопедический словарь. М., 1980; 1983

204. Томашевский В.В. Стилистика и стихосложение. М., Уч-педгиз, 1959

205. Торосенкова Е.Ф. Жанровое своеобразие русских сказок. Русский фольклор. Материалы и исследования. Изд-во АН СССР, М. - Л., 1957

206. Шахнович М.И. Первобытная мифология и философия. Л., 1971

207. Шенгели Г. Техника стиха. Изд-во «Художественная лит-ра», М., 1960

208. Штокмар М. Стихотворная форма русских пословиц, поговорок, загадок, прибауток. Журнал «Звезда Востока», № 11, 1965

BAŞQA DİLLƏRDƏ

208. Bəndəroğlu Əbdüllətif: Türkmanlar İnqilabi İraqda (Ərəbcə), Bağdad, 1973

209. Boratav P.N. Xalq hekayətləri və xalq hekayəçiliyi (Türkcə), Ankara, 1946


210. Boratav P.N. Türk xalq ədəbiyyatı 100 soruda (Türkcə), İstanbul, 1969

211. Qarıyev B.A. Türkmən matalları (türkməncə). Aşqabad

QƏZƏNFƏR PAŞAYEV

ALTI İL DƏCLƏ–FƏRAT SAHİLLƏRİNDƏ

BAKI – «YAZIÇI» – 1987



Redaktorlar: **Ayaz Vəfalı**
Ərşad Hürmüzlü

Rəyçi: **Vaqif Yusifli**

P 26 Paşayev Q.M.
Altı il Dəclə–Fərat sahillərində.
Bakı, «Yazıçı», 1987, 232 səh.

Filologiya elmləri namizədi Qəzənfər Paşayevin altıillik müşahidə və tədqiqatının nəticəsi olan bu kitab qədim mədəniyyətin beşiyi İraq və iraqlıların dünəni, bu günü, adət-ənənəsi, ictimai həyatı, inkişafı haqqında geniş məlumat verir.

© 1985
© 1987

İRAQ NECƏ YAXIN OLUR

Bir Şərq məsəlində məsləhət görülür: «Bir gün duz-çörək kəsdiyin yerə qırx il salam ver». Elə isə neçə illər duz-çörək kəsdiyin yeri bütün ömrü boyu unuda bilməyəcəyini deyənləri asanlıqla başa düşmək mümkündür. Bu fikri mən oxucular təqdim olunan «Altı il Dəclə-Fərat sahillərində» kitabının əlyazmasını vərəqlərkən qeyri-ixtiyari xatırladım. Mətbuatımızı ardıcıl izləyənlər həmin əsərin müəllifini – istedalı alim Qəzənfər Paşayevi, yəqin ki, tanımamış deyillər. Onun dövri mətbuatda ədəbiyyatımızın, dilçiliyimizin ümumən mədəniyyətimizin bir sıra məsələləri ilə əlaqədar maraqlı məqalələri, tərcümələri vaxtaşırı dərc olunur; ingilis dilini öyrənənlər üçün yazdığı kitab rəğbətlə qarşılanıb. Bütün bunlarla bərabər, Qəzənfər Paşayevlə uzun illər davam edən qələm dostluğumuz nəticəsində məndə belə bir fikir hasil olub: onun adı çəkiləndə istər-istəməz İraqı xatırlayıram.

Bu, səbəbsiz deyil. Qəzənfər Paşayev «İraq-Kərkük bayatıları», «Arzu-Qənbər dastanı», «Kərkük mahnıları», «Kərkük tapmacaları», «Kərkük atalar sözləri» kimi kitabların toplayanı, tərtibçi və çapa hazırlayanıdır. (Birinci kitab ilk nəşrdə, nisbətən kiçik həcmdə, mərhum xalq şairimiz, əsərə dərin məzmunlu ön söz yazmış Rəsul Rzanın iştirakı ilə hazırlanmışdı. Bu günlərdə oxucular Q.Paşayevin toplayıb tərtib etdiyi «İraq-Kərkük bayatılarını iri həcmdə, yeni və gözəl tərtibatda əldə edə bilmişlər.)

Müəllif müxtəlif illərdə tərcüməçilik fəaliyyəti ilə əlaqədar İraqda olarkən xidməti işindən əlavə dincəlib istirahət etməli olduğu vaxtı dost ölkənin xalqlarının ictimai həyatını, ədəbiyyatını, mədəniyyətini, İraqda yaşayan azərbaycanlıların maddi-mənəvi varidatını böyük həvəslə öyrənməyə sərf etmişdir. Q.Paşayevin şəxsi arxivində İraqda görüşüb dostlaşdığı çox ağsaqqalın, şairin, gənc ziyalının, ümumən neçə-neçə sadə xalq nümayəndəsinin qiymətli ədəbi-bədii materiallarla zəngin

söhbətləri yazılmış lentlər, həmçinin qalın-qalın dəftərlər, nəhayət, məktublar vardır. Ancaq görünür, bunların hamısından daha çox ürəyinə, qəlbinə yazıb gətirmişdir. İraqdakı azərbaycanlıların ləhcəsini diqqətli təhlil nəticəsində «Kərkük dialektinin fonetikası» mövzusunda namizədlik dissertasiyası yazıb müdafiə edib. Müəllif bu sahədəki işinə görə kərküklü bir qocadan aldığı ilk mükafatı da oxucusundan gizlətmir: «Get oğlum, yaradan sənə yar olsun! Mənim dilim uğrunda çalışırsan. Ölsəm də dil uğrunda öləydim». Şübhə etmirsən ki, bu sözləri həqiqətən

«Mən dilimnən vaz keçməm,
Olursam dilim-dilim»

- deyən bir xalqın övladı, böyük Füzulinin nəvə-nəticəsi söyləyə bilər.

«Altı il Dəclə-Fərat sahillərində» kitabı müxtəlif fəsillərdən ibarət olsa da, onları bir ümumi xətt birləşdirir ki, o da dost İraq ölkəsinin xalqlarına, həyatına göstərilən səmimi maraq, bu dostluğun daha da möhkəmlənməsi məqsədi daşıyan təmiz niyyətdir. Əsərin ümumi ahəngində aşkar duyulan bir keyfiyyət – canlı, publisistik, hətta bir sıra hallarda, deyərdim, poetik dil, heç şübhəsiz, müəllifin neçə illər gördüyü, gəzdiyi və nəhayət, sevdiyi yerləri adamların soyuqqanlı xatırlaya bilməməsi ilə bağlıdır. Görüb bildikləri ilə bərabər, oxuyub, eşidib, bildikləri üzvi şəkildə qaynayıb-qarışır; adama elə gəlir ki, birnəfəsə danışılan maraqlı bir söhbəti dinləyirsən. Bu söhbət bizə, hər şeydən əvvəl, dost İraq ölkəsi ilə böyük Vətənimiz arasındakı mehriban əməkdaşlıq münasibətlərinin, iqtisadi-mədəni əlaqələrin getdikcə artdığını, daha da möhkəmləndiyini çoxlu faktlar, təsirli həyati misallar vasitəsilə, səmimiyyətlə göstərə bilir, İraq xalqlarının tarixini, mənəvi-psixoloji aləmini bütün rəngarəngliyi ilə başa düşməyə kömək edən zəngin adət-ənənələrinə aid yeri gəldikcə məlumat verir. Belə

səhifələrdə biz ərəb xalqının həyat və mübarizə barədə fikirləri ilə yanaşı, taleyi, qəzavü-qədərə dair inamlarını əks etdirən məqamlarla da qarşılaşırıq ki, bunun özünü də təbiətin, insan xarakterinin sirlərinə bələd olmaq, onları bir-birilə vəhdətdə öyrənmək səyi kimi qiymətləndirmək lazımdır.

İraqda ezamiyyət müddətində ərəb dilini öyrənməsi (həmin illər irihəcmli «Rusca-ərəbcə danışıq kitabı»nı hazırlayıb çap etdirmişdir) sakinlərlə səmimi ünsiyyətdə olmaqda, onların adət-ənənəsini daha dərindən başa düşməkdə müəllifə çox kömək etmişdir. «Göl ərəbləri», «Adətim mənim – həyatım mənim» fəsillərinin bu qədər maraqlı alınmasını da, əsasən, bununla izah etmək olar.

Oxuduğumuz bu kitab, nəhayət, qədim tarixə malik İraq-Azərbaycan ədəbi əlaqələrinin daha ətraflı və dərindən öyrənilməsinə şübhə etmirəm ki, əhəmiyyətli kömək göstərə biləcəkdir. Bu mənada «Füzulinin nəvə-nəticələri arasında» fəslini ayrıca qeyd etmək istərdim. Doğma ədəbiyyatımıza, mədəniyyətimizə təbii olaraq daxili bir zərurətlə vurğunluq göstərən iraqlı-kərküklü dostların, doğru deyildiyi kimi, «əkiz qardaşlar»ın müəlliflə məktublaşmaları, onlardan verilən parçalar şəxsi ünsiyyət çərçivəsindən çıxaraq ictimai mahiyyət kəsb edir ki, bu, elə bilirəm, ədəbi-mədəni əlaqələrimizin daha geniş vüsət almasını arzulayan diqqətli oxucunun nəzərindən yayınmayacaqdır.

Müəllif kitabın bir fəslini belə adlandırmışdır: «İraq bizə iraq deyil». Burada onu demək istərdim ki, ümumən uzaqların yaxın olmasını, o cümlədən İraqın bizə iraq yox, daha da yaxın olmasını arzulayan hər kəs dost xalqlarımız arasındakı ədəbi-mədəni əlaqələrin inkişafına qüvvəsi çatdığı qədər kömək göstərməlidir. «Altı il Dəclə-Fərat sahillərində» əsəri də məhz belə nəcib bir niyyətlə oxuculara təqdim olunur.

AYAZ VƏFALI

EŞQİMİ TƏRİFLƏYİB HEÇ KƏSİ ALDATMIRAM

Uşaqlıqdan məndə sirli-soraqlı İraq ellərinə qəribə maraq vardı. Bəlkə, bu, məşhur «Min bir gecə» nağılları, Xaqaninin «Töhfətül-İraqeyn»i, Koroğlunun «Bağdad səfəri», Vaqifin, Vidadinin «Durnalar»ı ilə bağlı hislər idi; bəlkə də, Füzuli həsrəti, onun nəvə-nəticələrinin, İraqda yaşayan azərbaycanlıların möhnəti idi – bilmirəm. Sonralar İraqda olduğum uzunmüddətli ezamiyyətlər zamanı bu maraq get-gedə artdı, dərinləşdi, məcrasını dəyişdi, əsl məhəbbətə çevrildi.

...Yolumuz Napoleonun «dünyanın mühüm ölkəsi» adlandırdığı Misirdən idi. Misirin adını çəkməkdə məqsədim nə dünyanın «yeddi möcüzə»sindən ikisini – dörd minillikdən artıq tarixə malik ehramları və yeni eradan əvvəl tikilmiş 120 metr hündürlüyündə Faros mayakını qoynunda saxlamış bu qədim torpaqdan; nə on milyondan artıq əhalisi və minillik tarixi olan, müsəlman Şərqinin elm və mədəniyyət mərkəzlərindən biri sayılan Qahirədən; nə Misiri «aləmə bəxş edən», onun paytaxtı Qahirəni iki yerə bölən Nil çayının yaratdığı əfsanəvi gözəllikdən, nə hələ eramızın əvvəlində bir milyona qədər kitabı olan İsgəndəriyyə kitabxanasından; nə də yerin yuvarlaq şəkildə olmasını göstərən, onu ölçərkən yalnız 50 kilometr səhvə yol verən Eratosfen, yerin günəş və öz oxu ətrafında fırlanması mülahizəsini irəli sürən Aristrax Samoskiy kimi dahi oğullarından danışmaqdır.

Misir dünyada mədəniyyətin yarandığı ilk iki ölkədən biridir. Təbii ki, qədim tarixə, zəngin mədəniyyətə malik olan, bəşəriyyət tarixinə neçə-neçə unudulmaz səhifələr bəxş edən bu ölkə haqqında çox deyilib, çox kitablar yazılıb. Odur ki, burada məqsədim yalnız Füzuli ilə bağlı nakam məhəbbətdən söz açmaqdır.

...Biz Qahirənin mərkəzində Nil çayı sahilində «Skarabi» mehmanxanasında qalmalı idik. Sovet mütəxəssislərinin pas-

portlarını yığıb mehmanxana işçisinə yaxınlaşdım. O mənim Azərbaycandan olduğumu görüb fikrə daldı... Haçandan-haçana özünə gələn Məhəmməd kişi (onun adını sonra öyrəndik; 50–55 yaşlarında mehriban bir adam idi) dedi ki, üç il bundan əvvəl üç nəfər azərbaycanlı İraqa Füzulinin qəbrini ziyarətə gedirdilər. Qahirədə olanda oğlum Abbasla dostlaşdılar. Füzulinin yubiley medalını oğluma bağışladılar.

Mən mətbuatdan Rəsul Rza, Bəxtiyar Vahabzadə və Qasım Qasımzadənin İraqa getdiyini bilirdim. Mərhum şairimiz Rəsul Rzanın «Uzaq ellərin yaxın töhfələri» məqaləsini «Azərbaycan» jurnalında oxumuş, Füzuli kədərinə, onun Kərkük mahalında məskən salan nəvə-nəticələrinin həsrətinə ürəkdən acımışdım da.

Mən ondan Abbası çağırmasını xahiş etdim. Dərindən köks ötürdü. İki ay bundan əvvəl oğluma toy etməyə hazırlaşırdım. Bizim adətə görə, evlənən gənc toydan sonra 3–7 gün evdən çıxmır, dostları, yoldaşları ilə görüşmür. Toya bir gün qalmış isə vaxtını bütünlüklə onlarla keçirir. Oğlum da dostları ilə şəhər ətrafına getmişdi. Kor olsun taleyin gözü, qəzaya düşüb həlak oldu...

O gecə yata bilmədim. Məhəmməd kişinin dərdi mənə bir dərd olmuşdu. Övlad-uşaqla bağlı fikirlər mənə rahatlıq vermirdi: «Uşaq kiçik olanda adamı yatmağa, böyüyəndə isə yaşamağa qoymur. Həyat insana verilmiş borcdur. İnsan borcunu o vaxt qaytara bilir ki, onu böyüdüb boya-başa çatdırdıqları kimi, o da övladlarını böyüdüb boya-başa çatdırsın...»

Elə bil yerimə qor dolmuşdu. Gözümü yuman kimi qarışıq yuxular görürdüm. Hansı müdrikinsə dediyi: «Dünyada ən ağır, ən fəlakətli şey odur ki, bir evdə məsləhət verəcək bir ahıl və o məsləhəti yerinə yetirəcək bir gənc olmasın» kəlamı ürəyimə dinclik vermir, məni yazıq Məhəmmədin evinə aparıb çıxarırdı. Bu gözəl xanimanda bir səs-küy yox idi. Dərin

sükut hökm sürürdü. Elə bil kimsə divar arxasından aramla, sakit-sakit təkrarən deyirdi: «Uşaqlı ev bazardı, uşaqsız ev məzardı».

Səhərisi gün bu ağır dərdi də Füzuli dərdinə, Füzuli kədərinə, Leyli ilə Məcnunun nakam məhəbbətinə qataraq şairin əbədi uyuduğu müqəddəs torpağa, onun dillər əzbəri olan paytaxtı Bağdad şəhərinə yola düşdüm. Təyyarədə xəyal məni qanadları üstünə alıb uzaq keçmişlərə aparmışdı. Bəşəriyyətin ən böyük kəşfi kitab haqqında kimsə deyib: «Kitabı əvvəllər oxuyardılar ki, düşünsünlər, ağı qaradan, yaxşını pisdən seçsinlər. Dövranın gərdişini anlasınlar. İndi isə kitabı düşünməmək, vaxtı öldürmək naminə oxuyurlar». Bu fikirlə razılaşmayaraq İraqa hazırlaşdığım son bir ildə həmin ölkə haqqında oxuduğum qalaq-qalaq kitabları bir daha xəyalən nəzərdən keçirdim.

...Qədim dünya mədəniyyəti yeni eradan dörd min il əvvəl Misir və İraq ərazisində meydana gəlmişdir. Şumerlər bu ərazidə yazıdan istifadə edərək ədəbiyyat və incəsənət nümunələri yaratmışlar. İlk yazı, ilk kotan, ilk təkər, suvarma şəbəkələri, ilk memarlıq abidələri, ilk təqvim, səmanın ilk xəritəsi, ikiməchullu tənliyin həlli və s. babillilər, assurilər, xaldeylərin vaxtında meydana gəlmişdi.

Babillilər göy cisimləri üzərində müşahidə aparıb Günəş və Ayın nə zaman tutulacağını əvvəlcədən deyə bilirdilər. İli aylara, ayları həftələrə, həftələri günlərə, gecə-gündüzü saatlara, saatları dəqiqələrə bölmək də onlara qismət olmuşdur.

Sənətkarlar mis, qızıl, sonra isə tunc emal etməyi hələ bizim eradan əvvəl IV minillikdə öyrənmişdilər. Bu ölkənin yun parçası onun hüdudlarından çox-çox uzaqlarda da şöhrət qazanmışdı. Yeni eradan 1800 il əvvəl böyük istilahçı hökmdar Hammurapinin zamanında 120 maddədən ibarət ilk «qanunlar məcəlləsi» burada yaradılmış və daş üzərində həkk olunmuşdu. Babil həkimləri insanın anatomiyasını və bir çox

otların müalicə xüsusiyyətlərini gözəl bilirdilər. Onlar mürəkkəb cərrahiyyə əməliyyatlarının öhdəsindən gəlirdilər. Dünyanın yeddi möcüzəsindən biri burada idi.

Birdən fikirdən ayrıldım. Diksinən kimi oldum. Həyat nə qəribə imiş... Əsrlər boyu bu qədim diyarın mədəni irsindən bütün aləm bəhrələndiyi halda, indi İraq inkişaf etməkdə olan ölkələr sırasındadır.

S.Vurğunun sözləri yadıma düşür: «Cahanda hər hökmü bir zaman verir».

Nədənsə gözlərim önünə Makedoniyalı İsgəndərin zəfərli yürüşləri, dünya mədəniyyətinə Homerləri, Ərəstunları, Sokratları, Arximedləri, Hippokratları bəxş edən Yunanıstan gəlir. Onun bu günü haqqında düşünürəm. Bir daha özüm üçün «kəşf» edirəm ki, mədəniyyəti məhv edən, xalqın mənliyini heçə endirən daxili çəkişmələr, dağıdıcı müharibələr, ölkənin yadellilər tərəfindən viran edilməsi, xarabazarlığa çevrilməsi imiş. Tarixin tələtümlərinə düşərək əldən-ələ keçmiş, talan olunmuş, soyulmuş, geri qalmış Mesopotamiyanın halına acıyıram.

Xəyal məni yenə ağuşuna alıb ünyetməz vaxtlara, yeni eranın əvvəllərinə – ərəblərin Mesopotamiyanı tutduğu çağlara aparır.

Bu, 637-ci ildə xəlifə Ömərin vaxtında olmuşdu. Sasanilərin zəifləməsindən istifadə edən Ömər Mesopotamiyanı tutur. Daxili çəkişmələr ölkənin daha da geriləməsinə səbəb olur. 644-cü ildə Ömər öldürülür və hakimiyyət başına Osman gəlir. Lakin onun da xəlifəliyi uzun sürmür. 656-cı ildə Osman da öldürülür və Əli icma tərəfindən xəlifə seçilir. Onun vaxtında bütün Mesopotamiya ərəblərə tabe edilir, Əli hətta İraqın cənubunda 636-cı ildə əsası qoyulan və indi də mövcud olan Kufə şəhərini paytaxt elan edir.

Lakin 661-ci ildə Kufə şəhərində Əli də öldürülür. Suriyada hakimiyyət başında duran Əməvilər nəslindən olan

Muaviyə Kufədə özünü xəlifə elan edir. Bundan sonra xəlifə icma tərəfindən seçilmir, taxta varis kimi gəlirdi.

Əməvilər sülaləsi 661–750-ci illərdə hakimiyyətdə oldu. Paytaxt Şam şəhəri idi. Mesopotamiyada yerli hakim gah Kufədə, gah da Bəsrədə otururdu.

Lakin 749-cu ildə Mesopotamiyada Abdulla Əbdül Abbas xəlifə elan edildi. O, Əməvilərə tabe olmaqdan boyun qaçırdı. Gələcəkdə çox güclənəcək Abbasilər sülaləsinin əsasını qoyan xəlifə 754-cü ildə vəfat etdi və onun yerini qardaşı Abu Cəfər tutdu. Çox keçmədi ki, Abu Cəfər özünü gözəl siyasətçi və dövlət rəhbəri kimi göstərdi. Xalq arasında ona Əl-Mənsur – «Qalib» ləqəbi verdilər.

BAĞ YERİ BAĞDAD

Ərəblər Mesopotamiyanı tutanda onların mədəni səviyyəsi yerli əhalinin səviyyəsindən aşağı idi. Buna baxmayaraq, Mənsurun vaxtında ərəblər nəinki biliklərini artırdılar, hətta özlərinin zəngin mədəniyyətlərini yaratdılar.

Mənsurun gördüyü diqqətəlayiq işlərdən biri də Bağdad şəhərinin əsasını qoyması oldu. Mənsurun fikrincə, ölkənin paytaxtı dörd əsas şərtə cavab verməli idi: ölkənin mərkəzi hissəsində yerləşməli; iqlim şəraiti qızdırmaya səbəb olmamalı; onunla rəqabət aparan şəhərdən kənar olmalı; ən başlıcası isə gəmiçilik üçün yararlı böyük çay üzərində salınmalı idi.

Mənsur bu tələblərə cavab verə biləcək yer tapmaq arzusu ilə bir neçə dəfə ölkəni başdan-başa gəzir və nəhayət, Bağdad üzərində dayanır. Bu yer ərəblərin işğalından əvvəl də məlum idi. Burada at yarmarkaları təşkil edər, at alıb-satardılar.

«Bağdad» sözünün mənşəyi barədə müxtəlif fikirlər vardır. Bəzi tədqiqatçılar deyirlər ki, «Bağdad» İran dillərinin birində «tanrı payı», başqaları isə təsdiq edirlər ki, «bağ yeri» mənasında işlənir...

Ərəb tarixçisi Ət-Təbəri (838/839–923) yazır ki, Mənsur paytaxt üçün niyə məhz buranı seçdiyini belə izah edirdi: «Bura hərbi baxımdan misilsizdir. Bundan əlavə, buradan Dəclə çayı axıb keçir. O, bizə bir çox uzaq ölkələr, hətta Çinlə əlaqə saxlamağa imkan verəcəkdir. Dənizdə nə varsa bu çay vasitəsilə əldə edəcəyik. Bu çay vasitəsilə Mesopotamiyadan və qonşu ölkələrdən ərzaq alacağıq. Bir yandan da bu, Fərat çayı vasitəsilə Suriya və başqa ölkələrdən lazım olan şeyləri gətirməyə imkan verir».

Yeni eranın 762-ci ilində Mənsur Bağdad şəhərinin təməl daşını öz əli ilə qoyur. Onu dörd ilə tikirlər. Şəhərin salınmasında yüz mindən çox adam iştirak etmişdir. Divarları ikiqat düzəltmiş, sonra dərin xəndək qazmış, ondan sonra bir divar da hörmüşlər ki, düşmənin hücumunu dəf edə bilsinlər. Divarların hündürlüyü 17 metri keçirdi. Şəhərin dörd giriş qapısı olub. Xəlifənin sarayı şəhərin mərkəzində inşa edilib. Giriş «Qızıl darvazalar»dan imiş. Tikinti doqquz milyon dinara* başa gəlir. Mənsur şəhəri həm inşaat materiallarına qənaət, həm də müdafiə məqsədilə dairəvi tikdirmişdi. Buna görə də onu «Əl-Mədinə əl-Müdəvvara» – «Dəyirmi şəhər» adlandırırdılar. Xəlifə Məmunun vaxtında isə Bağdad «Mədinət əs-Səlam» – «Sülh şəhəri» adlanırdı. Lakin şəhər ilk adını bu gün belə saxlamaqdadır.

Tezliklə Bağdad ticarət və elm mərkəzi kimi şöhrətlənir. Hər yandan bura alim, şair, loğman, musiqiçi və müğənnilər axışıb gəlirlər. Müsəlman aləmində ilk əczaxana və şəfaxanalar bu vaxt Bağdadda açılır. Müalicə ilə məşğul olmaq istəyən həkimlər xüsusi imtahan verdikdən sonra işə başlaya bilərdilər. Səkkizinci əsrin sonunda Bağdadda kağız emal edirdilər (müqayisə üçün deyək ki, Avropada ilk kağız emalı fabriki eramızın 1160-cı ilində işə düşmüşdür).

* Dinar–latın sözü «dinari»dən əmələ gəlib. Qızıl pul deməkdir. İraqda indi də ən böyük pul vahidi kimi dinar işlənir.

Harun ər-Rəşidin vaxtında Bağdad daha da çiçəklənmişdi. Uzun illər hakimiyyət başında olan Harun ər-Rəşid (787-809) onun şöhrətini göylərə qaldırdı. Bağdad elm və mədəniyyət mərkəzi oldu. Bunu «Min bir gecə » nağılları da təsdiq edir. Ensiklopedik biliklər məcmusu olan bu nağıllardan çox şey əxz etmək olur. «Təvəddüdün əhvalatı» nağılından götürdüyümüz kiçik bir parça dediklərimizə misal ola bilər: Zahiri nişanələr batindəki xəstəliyə dəlalət eləyir. Gözün sarı olması sarılıq xəstəliyini, kürəyin donqarlanması ciyər xəstəliyini göstərir. Xəstəliklərin daxili əlamətlərlə müəyyən edilməsi altı əsasa görə olur: xəstənin hərəkətlərinə, ifraza, ağrıya, ağrının yerinə, şişə və köməkçi əlamətlərə görə.

Məsələn, başağrısına səbəb nədir? – Bir yemək həzm olunmamış üstündən ikincisini yemək, dalbadal toxluq eləmək. Kim ki istəyir dünyada çox yaşasın, gərək erkən nahar eləsin, şam yeməyini gec yeməsin. Gərək o, qarnını üç hissəyə bölsün: bir hissəsini yemək üçün, bir hissəsini su üçün, bir hissəsini də nəfəs üçün ayırsın. Çünki hər bir xəstəliyin kökü yeməyin həzm olunmamasındadır. Yeməyi xırda tikələrlə yemək lazımdır. Hamama gərək tox qarına getməyəsən. Şərabın zərəri də var, xeyri də. Ancaq zərəri xeyrindən çoxdur. Çünki insanın ağlını alır. O ki qaldı şərabın xeyrinə, o da budur ki, böyrəkdə daşı əridir, bağırsağı bərkidir, insanı dərddən-qəmdən ayırır, mərdlik gətirir, gümrahlıq verir, yeməyi həzm eləyir, canı sağlamlaşdırır, əzalardan azarı çıxarır, bədəni zəhərli mayelərdən təmizləyir, sevinc və şadlıq gətirir, sidikliyi möhkəmlədir, qaraciyəri bərkidir, sifəti allaşdırır, başı, beyni təmizləyir, saçı ağarmağa qoymur və s.

Xəlifə Məmunun vaxtında Bağdadda «Beyt-ül-hikmə» - «Hikmət ocağı» yaradılmışdı. Akademiyadan heç də fərqlənməyən «Hikmət ocağı»nda kütləvi kitabxana, rəsədxana fəaliyyət göstərirdi. Burada adlı-sanlı alimlər, mütəfəkkirlər, şairlər, riyaziyyatçılar, münəccimlər, loğmanlar, musiqiçilər,

müğənnilər cəmləşmişdilər. Tarixçi Yaqut əl-Həməvi (1179 - 1229) göstərir ki, 891-ci ildə Bağdadda yüzdən artıq kitab mağazası vardı. Bağdad sənətkarları və memarlarının şöhrəti hər yana yayılmışdı. Odur ki, onları başqa ölkələrə də dəvət edirdilər. Yazılı mənbələr göstərir ki, 922-ci ildə Bağdaddan Volqa sahillərinə beş min nəfərdən ibarət böyük nümayəndə heyəti gəlmişdi. Onların çoxunu memar, bənna və başqa sənətkarlar təşkil edirdi («Sovetskaya Rossiya», 13 sentyabr 1974-cü il).

Bağdadda şeirə, sənətə böyük qayğı və hörmət bəsləyirdilər. Bunu vaxtilə Mesopotamiyanı ziyarət etmiş Ə.Xaqani dərindən duymuşdu:

İraqa, İrana eyləsəm səfər,
Başıma yağıştək yağar simü zər.
Orada şairə qiymət verən var,
Xəzinəm ləl ilə, gövhərlə dolar.

Tarixçilər göstərirlər ki, XI–XII əsrlərdə Bağdadın əhalisi bir milyondan çox idi. Şəhərin gözəlliyi dillərdə dastan olmuşdu. Bağdadı görüb onun gözəlliyinə məftun olmayan, onu tərənnüm etməyən şair tapılmazdı. Böyük Ə.Xaqani də bu gözəllikdən ilham almışdı:

Onun hər tərəfi bir gülüstandır,
Nəzəri cəlb edən bağdır, bostandır.
Torpağı çəməndir onun bahar, qış,
Çayların üstündən körpü salınmış.

...Bərk taqqıltı məni xəyaldan ayırdı. Təyyarəmiz Bağdad aeroportuna enmişdi.

BAĞDAD BU GÜN

Bəxtə bax ki, ölkəyə Bağdad şəhərinin min iki yüz illiyinin bayram edildiyi gün gəlmişdik. Dövlətin qərarına əsasən üç gün rəsmi bayram elan olunmuşdu. Şəhər al-əlvan bəzədilmişdi. Elə bil çilçıraqban içərisində alışıb yanırdı. Mən o axşam və sonrakı iki gün Bağdadda gördüyüm şənlikləri, çıraqbanları, çal-çağırı sonralar heç bir ölkədə görmədim. Küçələrdə böyük-kiçik, qoca-cavan, qadın-uşaq əlindən tərpənmək olmurdu. İynə atsan yerə düşməzdi. Özümü sözün həqiqi mənasında nağıllar aləmində hiss edirdim.

Misirdə bizə demişdilər ki, Qahirə ilə müqayisədə Bağdad kiçik kəndə bənzəyir. Lakin Bağdad gəlin kimi elə bəzənmiş, elə sığallanmışdı ki, ona məftun olmamaq mümkün deyildi. Bu ilk təəssüratım elə qüvvətli idi ki, sonralar zaman da onu unutdura bilmədi. İraqlıların iftixarla dediyi: «Kim Bağdadı görməyibsə, dünyanın ən yaxşı guşəsini görməyib» – sözlərini həmişə təkrar etməyə hazıram.

Mən hələ füsunkar Bağdad gecələrini demirəm. Ümumiyyətlə, bu ölkədə gündüzlə gecə arasındakı anı tutmaq çətindir. Birdən-birə qaranlıq düşür. Bu, Bağdadda da belə olur – səma zil qara, şəhər isə çıraqban. Şəhərin ortasından nazlana-nazlana axıb gedən Dəclə çayında hər iki sahildən düşən işıq bərq vurur, suda əks olunur. Qəribə bir mənzərə, təkrarolunmaz ilahi gözəllik yaranır. Bu gözəllik önündə ovsunlanır, saatlarla gözünü ondan çəkə bilmirsən. Bağdad gecələrinin füsunkarlığını sözlə ifadə etmək çətindir. Bağdad gecələri təbiətin yaratdığı sehrkar bir lövhədir.

Məni Bağdadda, hər şeydən əvvəl, təəccübləndirən və sevindirən bu idi ki, iraqlılar öz xarici görkəmlərinə görə azərbaycanlılardan o qədər də fərqlənmirlər. Qarabuğdayı, qaragöz, qaraqaş, qarasaçlı iraqlıların azərbaycanlılara oxşadıqlarını başqa müəlliflər də qeyd edirlər.*

* R.Q.Landa. U arabov Azii, M., 1969, s. 81

Misir, Suriya, Livan və s. ərəb ölkələrində adamın xarici görünüşünə görə yerli olduğunu müəyyənləşdirmək çətindirsə, iraqlıları ayırd etmək asandır.

Ətrafı ilə üç milyondan çox əhalisi olan Bağdad Şərqin böyük şəhərlərindən biridir. Burada hər addımbaşı Şərq və Qərb memarlıq abidələrinin çulğalandığını görmək olur. Qəribə tərzdə bir-birini tamamlayan bu abidələr şəhərə xüsusi gözəllik verir.

Bağdadın mərkəzi hissəsi «Təhrir» – «Azadlıq» meydanıdır. Buradan gecə-gündüz maşınlar axın-axın Cümhuriyyə körpüsü ilə Dəclə çayının sağ sahilinə yollanır. Ümumiyyətlə, çayın hər iki sahilini altı körpü birləşdirir. Rəşid, Sədun və Əbu Nəvas küçələri bu meydanda birləşir. Həmin küçələr Bağdadın şan-şöhrətli küçələridir. Rəşid küçəsi əfsanəvi xəlifə Harun ər-Rəşidin adı ilə bağlıdır. 1914-cü ildə salınmışdır. Dəclə çayı boyu uzanıb gedən bu küçə şəhərin mərkəzi küçəsi sayılır. Hər iki tərəfində boy-boy mağazalar yerləşir. Küçənin şimal qurtaracağında isə məşhur Bağdad bazarlarını görmək olar.

Əbu Nəvas küçəsi 1934-cü ildə salınıb. Harun ər-Rəşidin zamanında şöhrət qazanmış məşhur şair Əbu Nəvasın adını daşıyır. Burada Əbu Nəvasın gözəl heykəli ucalır. Həmin küçədə çoxlu şirkət, dövlət müəssisəsi, diplomatik idarə və müasir tipli mehmanxanalar vardır. Dəclə çayı boyunca uzanıb gedən bu küçəni məşhur edən yalnız restoran, kazino, əyləncə yerləri deyil; o həm də burada bişirilən «məzquf»a görə məşhurdur. «Məzquf» ocaq üzərində qızardılan balıq yeməyidir. Bəzən bizim Lənkəran–Astara zonasında məşhur olan «ləvəngi» kimi bişirilir.

Dəclə sahili, Əbu Nəvas küçəsi axşamlar çox gözəl olur. Cavan qızlar, oğlanlar buraya seyrəngaha çıxırlar. Elə bil Xaqani XII əsrdə deyil, dünən Dəclə sahilində olmuş, Bağdad gözəlini vəsf etmişdir:

Dəclə kənarında dünən bir afəti-can görmüşəm,
Həsrət gözlərimdən Dəclə tək axmış qızıl qan, görmüşəm.

Əbu Nəvas küçəsindən Dəclə çayı ilə səyahətə çıxırlar. Gəmilər gecəyarıya qədər adamları Dəclə boyu gəzdirir. Cəmisi yarımca saata şəhərin səs-küyündən uzaq Umm əl-Xənazir turist adasına getmək mümkündür. Orada da «məzquf» sifariş vermək olur.

Sədun küçəsi 1922–29-cu illər arasında İraqın baş naziri olmuş Möhsün əs-Sədunun adını daşıyır. 1929-cu ildə ingilislər onu İraqı İngiltərənin müstəmləkəsinə çevirmək haqqında müqavilə bağlamağa məcbur edəndə camaatın gözü qabağında özünü öldürən Möhsün əs-Sədun indi milli qəhrəman kimi tanınmaqdadır. Yeri gəlmişkən deyim ki, 1963–64-cü illərdə sovet mütəxəssisləri ilə İraqın cənubunda – Səmavada işləyərkən oranın valisi Saleh Sədunla tez-tez görüşürdük. Möhsün əs-Sədunun oğlu bizə çox yaxşı münasibət bəsləyirdi.

Möhsün əs-Sədunun heykəli ucaldılan Sədun küçəsinə müasir imarətlər xüsusi görkəm verir. Bütün təyyarə şirkətlərinin nümayəndəlikləri, əsas kinoteatrlar, ən yaxşı mehmanxanalar, bahalı restoranlar, gözəl mağazalar və s. bu küçədə yerləşir.

Sədun küçəsində «Kabab Ərbil» adlı kababxana var. Orada İraq azərbaycanlıları gözəl kabab bişirirlər. Ona görə də bu ikimərtəbəli kababxana həmişə adamla dolu olur. Burada yeməyi sifariş edib evə də aparırlar. Yolu İraqa düşən hər bir adam orada Aslan adlı cavan oğlanın məharətinə bələd ola bilər. Adamlar yeməkxanadan çıxdıqca Aslan qapının ağzında kabab haqqını alan kassirə qışqırır: «O qardaş filan qədər verməlidir». Adam mat qalır. Bu qədər müştərinin yeməyini və haqqını o, necə yadında saxlayır? Kababxana sahibi onu üç nəfərin yerində işlədir və gündə üç dəfə qiymətdə səhv edib-etmədiyini yoxlayır. Deyirlər, hələ səhvini tuta bilməyiblər.

Bu, mənim yadıma tələbəlik vaxtı Bakıda, «Təzə bazar»da olmuş bir hadisəni saldı. Ortayaşlı, gülərüz bir adam qarpız tığının yanında durub avazla müştəri çağırırdı: «Qarpızlar padşahı, dərdlərin dərmanı çil qarpız məndə; bala, şəgərə qəmzə satan Saday məndə; xırda tumlu, qara tumlu, qırmızı tumlu – hər nə desən var məndə».

Səliqəli geyinmiş bir nəfər ona yaxınlaşıb qıpqırmızı qarpız istədi. Qarpız sahibi «gözüm üstə» deyib, tığa göz gəzdirdi. 12–15 kiloqramlıq bir qarpız götürdü: «Bu, siz istəyən qarpızdır. Amma o qədər də şirin deyil». Alıcı gülümsündü. Hiss olunurdu ki, satıcının sözlərinə inanmır. Xahiş etdi ki, qarpızı nişanlasın. Doğrudan da, qarpız qıpqırmızı idi. Lakin dadsızdı. Alıcı xahiş etdi ki, ona tumu qırmızı, dadlı bir qarpız da seçsin. Satıcı 5 – 6 kiloqramlıq qarpızı nişanladı. Hamı onun «biliciliyinə» mat qalmışdı. Başqa bir nəfər qara tumlu, içi lalə rəngdə qarpız istədi. Onun da xahişi yerinə yetirildi. Hamı satıcının qabiliyyətinə heyran qalmışdı. Ziyalı isə bikef olmuşdu. Müharibə törədənləri lənətləyərək bildirdi ki, qarpız sahibi vaxtında oxuya bilsəydi, bu ağılla nələr etməzdi?!

O vaxtdan illər keçsə də, «Kabab Ərbil»də işləyən qan qardaşım Aslanın hərəkətinə göz qoyduqca, bacarığına mat qalır, Bakıda «Təzə bazar»da şahidi olduğum yuxarıdakı əhvalatı xatırlayırdım.

Sədun küçəsinin cənub qurtaracağında 1962-ci ildə tikilmiş əzəmətli «Naməlum əsgər» abidəsi ucalır. Əsgərlərin fəxri keşikdə durduğu bu abidəni ziyarət edəndə və ya yanından ötüb keçəndə qəribə bir təzadın şahidi olurdum. Bu abidə ilə üzbəüzdə məscid var. Məscidin həyəti hər vaxt boş, abidənin ətrafı isə izdihamlı olurdu. Bu abidədən bir az o yana «Min bir gecə» nağıllarını əbədiləşdirən «Əlibaba və qırx quldur» memarlıq kompleksi yerləşir.

Bağdad şəhəri son illərin planına əsasən abadlaşdırılmağa başlanmışdır. Şəhərin çox hissəsinin yenidən qurulması, pi-

yadalar üçün yeraltı keçidlər salınması, park və idman kompleksləri tikilməsi, uşaqlar üçün əyləncə meydançaları, şəhərdə gediş-gəlişi asanlaşdırmaq üçün Dəclə çayı üzərində daha dörd körpü salınması, hər il 135 min mənzil tikilib istifadəyə verilməsi, Bağdad ətrafında eni 1–3 kilometr olan «göy qurşaq» – meşə zolağı salınması nəzərdə tutulmuşdur. Təəssüf ki, İran–İraq müharibəsi bu planın hərtərəfli həyata keçirilməsinə mane olmuş və indi də olmaqdadır.

Bağdada xüsusi gözəllik verən, müasir memarlığın tələblərinə uyğun, görəni valeh edən binalar şəhərdə çoxdur. Bağdad universiteti, Rafideyn və mərkəzi bankların, Xalq məclisi, Respublika sarayı, Planlaşdırma nazirliyinin binaları, «Bağdad» mehmanxanası və s. belələrindəndir. Bağdadda «Semiramis», «Nasr», «Xəyyam», «Babil», «Atlas, «Qranada» kimi yaraşıqlı kinoteatrlar vardır. Ən gözəl mehmanxanaları «Bağdad», «Xəyyam», «İraq», «Ambasador», «Qilqamış», «Karlton», «Ur» və sairədir. Burada Sədun adına, «Əl-Zəvra», «Opera», «14 iyul» və s. istirahət parkları vardır. «Əl-Xuld», «Əl-Ribat», «Bağdad» və s. teatr və konsert zalları məşhurdur.

Bağdadda 1923-cü ildə əsası qoyulan çox zəngin «İraq muzeyi» fəaliyyət göstərir. Burada ən qədim dövrlərə aid eksponat və şöbələr vardır. Abbasilər sarayı, XIII əsrin əvvəllərində tikilən Müstənsiriyyə məktəb binası, muzeylər və s. kimi Bağdadın tarixini əks etdirən abidələr iraqlıların və əcnəbilərin ən çox ziyarət etdikləri yerlərdəndir.

Bağdadın ən görməli yerlərindən biri də onun üstüörtülü bazarlarıdır. Bu bazarlar Harun ər-Rəşidin dövründən qalmadır. Ərəblər fəxrlə deyirlər: «Kim Bağdad bazarlarını görməyibsə, demək Bağdadı görməyib». Bağdadın üstüörtülü bazarları bütöv bir şəhərdir. Orada müxtəlif şeylər satılan o qədər dar küçələr var ki, nabələd adam o saat azır. Burada iynə-sapdan tutmuş ən bahalı qızıl və gümüş bəzək və zinət əşyalarına qədər hər şey almaq olur. Bir yanda bəzirgan ba-

zarı, bir yanda papaqçı, başmaqçı bazarı, baqqal, əttar, xalı-xalça bazarı və s.

Bunların içində «Suq əs-Səfafiir» - «Misgər bazarı» xüsusilə fərqlənir. «Misgər bazarı» Harun ər-Rəşidin zamanında çox məşhur olub. Yazılı mənbələr göstərir ki, o vaxt burada üç yüzdən çox misgər emalatxanası olub. Misgərlər hər cür silah, əsgərlərin şücaətini göstərən nişanlar, saray, məscid və yaşayış evlərinin tikintisində istifadə üçün əşya və bəzək şeyləri, qazan, çaynik, səhəng, sini və s. hazırlayırmışlar. Müasir dövrdə hər şey fabrik-zavodlarda istehsal olunduğuna görə misgər bazarı dəbdən düşmüşdür. Onun uzunluğu indi 150 metrdən artıq deyildir.

Misgərlər cərgə-cərgə düzülüb, əsrlərlə bundan əvvəl olduğu kimi, qab-qacaq düzəldirlər. Misgər bazarında çəkic səsindən qulağın tutulsa da, tezliklə buna alışırsan. Lakin sənətkarların üz-gözündən və baxışlarından da hiss olunduğu kimi, misgər bazarında qıtlıqdır. İndi onlarla alveri, əsasən, turistlər edirlər. Buna baxmayaraq, onlar sənətlərindən əl çəkmir; axşama kimi çəkicləri əllərindən düşmür.

Misgər bazarı xeyli əvvəllər olduğu kimi, yalnız ustalardan hansısa vəfat etdikdə bağlı olur, Bağdadın örtülü bazarının ahəngi pozulur. Örtülü bazar səhər gün çıxandan axşam gün batana qədər açıqdır. Ömrünü-gününü toz-torpaq içində keçirən dükan sahibləri, demək olar ki, təmiz hava görmürlər. Baxışları həsrətli, boz və sarı görkəmli bu adamların xeyir-şərdən, dünyanın gedişindən xəbəri olmur. Onları maraqlandıran yalnız alıb-satdıqları matahın qiymətinin enib-qalxmasıdır.

Hər gün səhər tezdən şər qarışana qədər vaxtını örtülü bazarda keçirən bu adamlar çox yemirlər; havasızlıq və qışda dükanı qızdırmaq üçün işlədilən neft lampası «Ələddin»in iyi iştahlarını pozur. Bir yandan da hiss olunur ki, qənaət edilmiş tikə onlara yeyilən tikədən daha şirin gəlir. Dükanları sə-

liqə-sahmansızlıq və toz-torpaq basır; hər şey, hətta dükan sahibləri özləri də toz-torpaq içində itib-batır. Həyat beləcə keçir... Bir gün qonşu dükançılara xəbər çatır ki, filankəs də dünyadan köçdü.

Adətən, bu dükanlar atadan oğula, oğuldan nəvəyə, nəvədən nəticəyə, nəsildən-nəslə keçir.

Üstüörtülü bazardan başqa, Bağdadda bütün mağazaların vitrinləri var. Onlar elə düzəldilir ki, mağazada olan malların hərəsindən bir nümunə nümayiş etdirməyə imkan versin. Sənə lazım olan əşya və ya paltardan nümunə yoxdursa, mağazaya girib basabas salmağa ehtiyac qalmır. Göründüyü kimi, vitrin yalnız gözəlliyə, estetik zövqə xidmət etmir, eyni zamanda müştərilərin işini asanlaşdırır, vaxt itkisini aradan qaldırır.

Bağdadda, demək olar ki, meyvə mağazaları yoxdur. Onları ilin bütün fəsillərində küçələr boyu uzanıb gedən köşklər əvəz edir. Müxtəlif növ alma, armud, üzüm, şaftalı, əncir, nar, limon, naringi, turunc, püstə, badam, qoz, hind qozu, portağal, banan, ərik, gavalı, alça və s. köşkləri bəzəyir. Bu köşklərdə həmişə qarpız və yemiş də satılır. Öz görkəmi ilə adama «gəl-gəl» deyən meyvə köşkləri şəhərə xüsusi gözəllik verir.

Bağdadda nadilər – klublar vardır. Müəllimlər, neftçilər, mühəndislər, həkimlər və s. nadiləri. Bunlar bizim mədəniyyət evlərini xatırladır. Nadilərdə kitabxana, oxu zalı, arxiv, televiziya və radio otaqları, şahmat, domino, nərd, stolüstü tennis oynamaq üçün zallar, restoran və s. vardır. Restoran, kazino və barlarda yalnız kişilər işləyirlər.

Ölkədə qiraət salonları, kitabxanalar olduqca azdır. Şagird və tələbələr dərsə açıq havada, çox vaxt yollarda gəzinə-gəzinə hazırlaşırlar. Bağdadda tələbələrə yardım məqsədilə xüsusi məhəllələr açılmışdır. Bunlar da bir növ çayxanadır. Fərq ondadır ki, başqa yerlərdə çay, kofe içə-içə söhbət edir, musiqiyə qulaq asır, domino, nərd və ya şahmat oynayır, vaxt keçirir, bu məhəllələrdə isə yalnız dərsə hazırlaşırlar. Burada

çay və qəhvə üçqat baha satılır. İstəyib-istəməməyindən asılı olmayaraq, gərək bir şey sifariş verəsən.

Bağdadı gəzdikcə dərindən duyurdum ki, heç bir məlumat şəxsi müşahidəni əvəz edə bilməz. Burada xoşuma gələn məsələlər çox oldu. Onlardan biri də məişət avadanlığı, mebellə əlaqədardır. Mebel, əsasən, xüsusi yerlərdə adlı-sanlı ustalar tərəfindən düzəldilir. Bizdə dərzilərdə moda jurnalları olduğu kimi, İraqda ustalarda mebel üzrə moda jurnalları olur. Orada bu və ya başqa modanın hansı ölkəyə məxsus olması, həmin modalı mebelin birinci dəfə kimə düzəldilməsi, ölçüsü və s. göstərilir. Müştərinin hər hansı bir mebeldən xoşu gəlirsə, müqavilə bağlanır. Beş-altı aya mebel hazır olur. Müqavilənin şərtinə görə əgər sifariş vaxtında yerinə yetirilməsə usta, sifarişçiyə gecikdirilən hər gün üçün cərimə verir. Düzəldilən mebel, həqiqətən də, çox gözəl və yaraşıqlı olur.

Bununla belə, Bağdadda məni mat qoyan məsələlər də oldu. Burada qışda evləri və idarələri «Ələddin» adlı neft lampaları ilə qızdırırlar. Sobalardan gələn iydən adamın başı ağrıyır, kütləşir. İraq neft hasilatına görə dünyada ön yerlərdən birini tutur. Bu qədər nefti və qazı olan ölkənin paytaxtının belə qazlaşdırılmadığını görəndə istər-istəməz doğma yerlər göz qabağına gəlirdi.

...Qürur hissi ilə doğma kəndim Düzqırıxlını xatırlayırdım. 1970-ci ildən Tovuz rayonunda bütün kəndlər qazlaşdırılıb. O cümlədən də mənim kəndim. O kənd ki, hələ 50-ci illərdən bütün evlərində İliç lampaları yanır; telefon və radio şəbəkəsi vardır, kənd artezian və kanal suyu ilə tam təmin edilib. Bunun sayəsində sovxoz ildə on min tondan çox üzüm verir. Adamların güzəranı daha da yaxşılaşır. Xeyli vaxtdır ki, kəndə bulaq suyu da çəkilib. Bu kənddə asfalt küçələr, ağ kubik daşdan tikilmiş bir-iki mərtəbəli xüsusi evlər, mədəniyyət evi, qonaq evi, şadlıq evi, neçə-neçə mağaza, ikimərtəbəli univermaq, yüz çarpayılıq ikimərtəbəli şəfaxana, texniki-peşə, səkkizillik və onillik məktəblər, idman kompleksi, iki park,

hamam, yeməkxana və restoranlar, ikimərtəbəli sovxoz idarəsi, çörək zavodu, elektrik dəyirmanı, iki şərab zavodu, maşın-traktor parkı və s. vardır.

Qərib ölkədə bütün bunlar haqqında düşündükcə adamın ürəyi dağa dönür. Əllinci illərdən doğma kəndimdə kolxoz sədri işləyən Firidun Bağırovun işgüzarlığını da minnətdarlıqla yad edirəm.

O Firidun kişinin ki, kənddə neçə ildir gül-çiçəyinə, səliqə-sahmanına görə «ən gözəl bağ-bağçalı həyət» müsabiqəsi keçirir. Müsabiqənin qalibi pul mükafatı alır. Yəqin buna görədir ki, ilin bütün fəsillərində həyətlər laləzara bənzəyir. Kəndimizin ilk müəllimi Əhməd Axundovun, müsabiqə qalibləri Mahmud Musayev, Əsəd Cəfərov, Ələsgər Nağıyev və başqalarının həyətləri nağıllarda danışılan cənnət guşəsinə bənzəyir...

Məni Bağdadda ən çox təəccübləndirən maşınların çoxluğu və taksi sürücülərinin hərəkətləri idi. Təbii ki, ətrafı ilə birlikdə üç milyondan çox əhalisi olan Bağdadda metro, tramvay və trolleybusun olmaması xüsusi taksi maşınlarının daha da artmasına şərait yaradırdı. Gediş-gəliş çətinləşirdi. Bununla belə, 70-ci illərdə Bağdadda, demək olar ki, nizamlayıcı yox idi. Tez-tez qəza hadisələri baş verirdi. Lakin qəzaların baş verməsinin əsas səbəbi nizamlayıcıların olmaması deyil, sürücülərin çoxunun naşılığı idi. İndinin özündə belə həvəskar sürücü vəsiqəsi almaq çox asandır: hər iki tərəfinə boş neft daqqaları düzülmüş dairədə maşını dal-dalı sürərkən onları yıxmasan imtahandan çıxmış hesab olunursan.

Bağdadın taksi sürücüləri, bəlkə də, dünyanın ən intizamsız və ən bəxtli sürücüləridir. Maşını necə istəyirlər elə də sürürlər. Harada istəyir əyləyir, adam götürüb düşürürlər. Hətta maşını iki-yol ayrıcında, körpünün üstündə, yolun ortasında da saxlayırlar. Lakin bu laqeydliklə yanaşı, hərbi maşınlara hər yerdə yol verirlər. Çünki onların sürücüləri daha naşı olurlar.

Taksi sürücüləri ilə bağlı bir məsələni də qeyd etmək istəyirəm. Yaxınlaşıb xəbər alanda ki, «Məni filan yerə apararsanmı?», mütləq «ələ-ayni» – «gözüm üstə» deyəcəklər. Elə ki maşına mindin soruşacaqlar:

«O dediyin məhəllə, o küçə Bağdadın hansı rayonundadır?» Onu da qınamalı deyil, çünki burada bizim mikrorayonlarda olduğu kimi, ya əksər küçələrin adı yoxdur, ya da onu heç tanıyan. Gərək özün kömək edəsən, yoxsa uzun müddət axtarmalı olacaq. Elə sürücülər də var ki, nabələd olduğunu bilsə «işin bitdi». Səni gəzdirəcək, gəzdirəcək, sonra iki-üç qat artıq pul alacaq.

Şəhərdə diqqəti cəlb edən məsələlərdən biri də səs-küyün həddən artıq olması idi. Burada maşınların siqnal verməsi qadağan edilməyib. Bağdadda bütün ölkələrdən gətirilmiş hər cür siqnallar vardır. Maşınların səsi gecə-gündüz şəhəri başına götürür. Elə bil sürücülər siqnalın xəbərdarlıq üçün icad olunduğunu yaddan çıxarıblar. Ondan özünü göstərmək, başqalarının diqqətini cəlb etmək, polis nəfərini, avtomobil müfəttişini salamlamaq, və ya da elə-belə, kef üçün istifadə edirlər. Ən çox da toy vaxtı maşınların küçələrdən keçərkən verdikləri uzun-uzadı siqnallar qulaqbatırıcı olur.

Gecə namazı vaxtı azan səsi də böyük narahatlıq yaradır. Çünki məsciddə maqnitofon qurur, səsini axıra qədər qaldırırlar. Ondan sonra, elə yuxuya gedər-getməz arabayla neft satanlar çəkiclə tənəkəyə döyərək küçə-küçə gəzir, yatmağa imkan vermirlər. Bundan sonra isə «həlib, həlib» (süd), «tamata, tamata» (pomidor), «fəvaki, partaxal» (meyvə, portağal), «abu ətiq» (cır-cındır), «kamis ətiq» (köhnə köynək) deyə-deyə kiçik arabalarla küçələri gəzənlər gəlirdilər.

Gündüzlər isə küçələrdə əlində radio və ya maqnitofonla özü istirahət edib başqalarının rahatlığını pozan gənclərə tez-tez rast gəlirsən. Elə bir mağaza, yeməkxana tapmazsan ki, orada ya radio, ya maqnitofon, ya da televizorla musiqi bizim bəzi toylarımızda olduğu kimi, var gücü ilə səslənməsin.

Musiqiyə o qədər adət ediblər ki, onu eşitməyəndə elə bil nəsə çatmır, nəsə itiriblər. Sanki musiqi ilə yaşayırlar. Ədalət naminə demək lazımdır ki, ərab melodiyaları, ərəb nəğmələri qəmi, ələmi unutdurur, axıcılığı, şuxluğu və oynaq ritmləri ilə adamı sehrləyir.

Odur ki, böyük-kiçik – hamının kiçik tranzistoru olur. Restoranlarda televizor qoyulub; yeyib-içənlərin kefini daha da durultmağa, onları daha da şənləndirməyə çalışırlar. Az qalıb ki, gözlərini ekrandan çəkmədən nahar etməyə imkan verən, önündə yemək qoymaq üçün sini olan qollu stullar düzəltsinlər. Onsuz da az hərəkət edən, idmanla az məşğul olan iraqlılar XX əsrin bu möcüzəsinin əsiri olmuşlar. Ünsiyyətin, qonaqpərvərliyin, şirin söhbətin, köhnə adət-ənənələrin «düşməni» olan televizoru bir çox Avropa və Amerika evlərində qonaq otağından kənar etdikləri halda, İraqda ona qonaqlıq zamanı da baxırlar.

Burada uşaqların başqa əyləncə vasitələri çox az olduğundan, onlar da vaxtlarının çoxunu ekran qarşısında keçirirlər. Çox vaxt bu, uşaqların görmə qabiliyyətlərinin zəifləməsinə, əllərini çənəsinə dirəyib uzun müddət televizora baxdıqlarından bəzisinin çənəsinin əyilməsinə, həmçinin dünyagörüşlərinin, tərbiyələrinin korlanmasına gətirib çıxarır. Odur ki, televizoru «üçüncü valideyn» adlandıranlara haqq qazandırmamaq olmur. Televizorun səs-küyü bir yana, insan özü də hiss etmədən onun əsiri olur və bütün işdənkənar vaxtını ona qurban edir.

Son vaxtlar adamların rahatlığına, səhhətinə mənfi təsir göstərən səs-küyə qarşı mübarizəyə başlamışlar. Radio və televiziya ilə verilişlər təşkil olunur, qəzetlərdə məqalələrlə çıxış edirlər. Jurnalist Cəmil əl-Cəburi «Sadəcə fikir» adlı məqaləsində Fransada baş vermiş bir hadisədən danışaraq göstərir ki, Parisdə ortayaşlı bir qadın avtobusda gedərkən əlində tranzistor olan gənc onun yanında əyləşib rahatlandıqdan sonra radionu ucadan səsləndirir və sərnişinlərin dincli-

yini pozur. Qadın radionu alıb yerə vurur. Bu, camaatın ürəyindən olur. Hamı onun tərəfini saxlayır. Cavan oğlan qadını məhkəməyə verir. Məhkəmə qadına bəraət qazandırır.

Müəllifin fikrincə, İraqda da səs-küyə qarşı mübarizə aparmaq vaxtı çatmışdır. Səs-küyə səbəb olanlara qarşı ictimaiyyət mübarizə aparmalıdır. Sürücülər, mağaza, yeməkxana, çayxana və toy sahibləri camaatın rahatlığı qeydinə qalmalıdırlar.

«Eyibsiz gözəl olmaz» – demişlər. Bütün bunlarla birgə, Bağdad, həqiqətən, gözəl şəhərdir. Burada adamı valeh edən, şəhərə əfsanəvi gözəllik verən xurma ağaclarının sayı-hesabı yoxdur. Ölkədə olan xurma ağaclarının xeyli hissəsi Bağdaddadır.

Bağdadın xurma bağlarını gördükdən sonra Azərbaycan xalqının milli qəhrəmanı Koroğlunun «Bağdad səfəri»ndəki müqayisə və mübaliğəni daha yaxşı duydum: «Koroğlu baxanda gördü Bağdad bağlarında xurmaların sayı var, amma dəlilərin sayı yoxdu».

İraqda yaşayan azərbaycanlıların bayatısı da Bağdad xurmalıqlarından söz açır:

Bağdadda xurmalıxlar.
Suda oynar balıxlar.
Nə böylə sevda olsun,
Nə böylə ayrılıxlar.

Bağdadın şəninə gözəl sözlər deməkdə məqsədim heç də onu sevdirmək üçün tərifləmək deyil. Buna ehtiyac yoxdur. Həm də Şekspir demişkən:

Eşqimi tərifləyib heç kəsi aldatmıram,
Çünki məhəbbətimi kimsəyə mən satmıram.

İRAQIN BU GÜNÜNDƏN ETÜDLƏR

Qədim yunanlar İraqı Mesopotamiya - «iki çay arası» adlandırmışlar. Müasir İraqın ərazisi Dəclə və Fərat çayları hüdudlarından kənara çıxsa da, ölkə indi də Mesopotamiya kimi tanınır... Dəclə (1718 km) və Fərat (2300 km) çayları indi də Türkiyə dağlarından baş alaraq gəlir, gah iti, gah da lal axaraq, əkiz bacılar kimi «sallanaraq» bütün ölkədən keçir və Mesopotamiyaya həyat verir.

Ərəb dilində «sahil», «çay sahili» mənasında işlənən «İraq» sözünün də bu çaylarla bağlı yarandığını göstərirlər. İraqın əhalisi 13 milyon nəfərdir. Əhalinin 75 faizi ərəblərdir. Sonra kürdlər, daha sonra isə türkmən adlandırılan azərbaycanlılar gəlir. Ölkədə 250 min xristian və şimalda kürdcə danışan, lakin öz dinləri olan 60 minə qədər yezidi kürd yaşayır.

İraq strateji cəhətdən mühüm ərazidə yerləşir. Şimalda Türkiyə, şərq və şimal-şərqdə İran, qərb və cənub-qərbdə Səudiyyə Ərəbistanı, Suriya, İordaniya, cənubda Küveytlə həmsərhəd olan bu ölkəyə, hava, dəniz, şose və dəmir yolu ilə gəlmək olar. Ölkə daxilində uzunluğu üç min kilometrə qədər üç əsas dəmir yolu vardır: Bağdad – Bəsrə (569 km), Bağdad – Kərkük – Ərbil (427 km), Bağdad – Mosul – Tel – Köçək (531 km).

Bağdad – Mosul – Tel – Köçək dəmir yolu İraqı müxtəlif ölkələrlə birləşdirir. Bu yolla Hələb, Beyrut, Ankara, İstanbula, oradan da Roma, Paris, Belqrad, Zaqreb, Milan, Triyestə və s. getmək olar.

Hava yolu ilə də istənilən ölkəyə uçmaq olar. İraqda mövcud olan altı təyyarə limanının ikisi – Bağdad və Bəsrə beynəlxalq təyyarə limanlarıdır.

Ölkədə on bir min kilometr uzunluğunda çox yaxşı vəziyyətdə olan şose yolları vardır. Asfaltın tərkibi elədir ki, nə qədər isti olsa da ərimir.

Səhra, düzənlik və dağlıq olmaqla üç coğrafi zonaya bölünən İraqın qışı mülayim keçsə də, iyul-avqust aylarında hə-

rarət kölgədə 48–50 dərəcəyə qədər qalxır. Bir çoxları İraqda yalnız yay və qış fəsillərinin olduğunu qeyd edirlər. Lakin burada bütün fəsillər özünü göstərir. Ən uzun mövsüm yay fəslidir. Yay fəsli İraqda may ayından oktyabra kimi davam edir. Noyabr payız fəslinin payına düşür. Dekabr, yanvar, fevral qış aylarıdır. Mart - aprel yaz ayları hesab olunur. Baxmayaraq ki, aprelin axırında hərarət çox vaxt qırx dərəcəni haqlayır, su martın ortalarından qızmağa başlayır; bu vaxt uşaqlar, hətta çaylarda çimirlər.

Qışda isə çox da soyuq olmur. İraqda olduğum altı il ərzində bir dəfə də qar yağdığını görmədim. Söhbət etdiyim bir çox cənublu tanışlarımın qar haqqında təsəvvürləri belə yox idi. Yəqin buna görədir ki, İraqda qar da, buz da bir məfhumla – «səlic» sözü ilə ifadə edilir.

Yayda isə çox isti olur. İyun, iyul, avqust, sentyabr ayları «yanar aylar» adlanır. Bu vaxt Dəclə və Fərat kimi nəhəng çaylarda belə, suyun səviyyəsi çox aşağı olur. Gün od kimi yandırır. Elə bil torpaq təndirə dönür. Gün eynəyi olmadan küçəyə çıxmaq olmur. Dəmir sağanaqlı eynək də taxmaq olmaz. Gün o saat sağanağı qızdırır, eynəyi gözündən çıxarmalı olursan.

Yayda günorta vaxtı qısaqol köynəkdə, başıaçıq gəzən adama rast gəlməzsən. Köynək və onun üstündən də pencək geyirlər. İsti yay küləyi – «Səmum» əsəndə nəfəs almaq çətinləşir, hava adamın nəfəs yollarını yandırır. Gərək açıq havada olanda əl dəsmalı ilə ağız-burnunu tutasan. Təsadüfi deyil ki, kənd yerlərində ərəb kişiləri də başlarına şal bağlayırlar. İsti havada və «Səmum» əsəndə üz-gözlərini şalın ucu ilə örtürlər. Bu vaxt nəfəs almaq asanlaşır. Çünki nəfəs alanda şalın ağıza toxunan hissəsində nəmişlik əmələ gəlir və istiliyin təsiri azalır.

İyul – avqust aylarında gündüz saat 11-dən sonra, demək olar ki, açıq havada işləmək olmur. Yayın cırhacır istisində iş «donur», yollardan, küçələrdən adamlar çəkilirlər. Axşam

düşən kimi isə elə bil həyat yenidən canlanır. Axşam saat səkkiz-doqquz radələrindən başlamış gecədən xeyli keçənə qədər hər yanda yeyib-içir, deyib-gülürlər.

Yayda gündüzlər 42–48 dərəcə isti olduğu halda, gecələr hərarət 25–27 dərəcəyə enir. Rütubət olmayan bir yerdə bu yaxşıdır. Evlərdə kuller – sərinlədici və ya kondisioner olmasına baxmayaraq, ərəblər yayda gecələr evin üstündə yatmağı üstün tuturlar. Çünki kuller və kondisionerdən zökəm olurlar. Evin üstündə isə rahat yatırlar. Gündüzün üzücü istisinin yorğunluğundan bədən dincəlir. Yeri gəlmişkən deyim ki, evlərin üstü tametdən olur. Evin damı isə divar boyu hər yandan ən azı bir metrəyə qədər hörülür ki, qonşular bir-birini görməsinlər.

İraqda çiy kərpicdən tikilmiş kənd evlərində yayın isti vaxtı hava daha sərin olur. Çünki açıq pəncərələrdən asılmış qamış və otdan düzəldilən həsirə bənzər örtüyün üstünə su tökürlər ki, bu da evi çox sərin saxlayır.

Evlərin üstü elə düzəldilir ki, gün içəri düşə bilməsin. Yayda gün düşdüyü yeri yandırır, soldurur, hər şeyin rəngini dəyişir. Bu, əsasən, mağazalara aiddir. Ona görə də bütün evlərin üstündən küçəyə tərəf iki-üç metrlik «günlük» düzəldirlər.

Yayda adam çox tərləyir və buna görə də tez-tez su içmək istəyir. Əhalini istidən xilas etməkdə çox sadə konstruksiyalı buz zavodları böyük rol oynayır. Hər yanda ucuz qiymətə buz satılır. Sərinlədici içkiləri həmin buzla içirlər.

İraqda hər dəfə başlayanda iki-üç gün davam edən küləklər olur. İldə əlli gün davam etdiyinə görə adına «Xəmsin» deyirlər. Misirdə də bu külək «Xəmsin» adlanır. «Xəmsin» vaxtı ağaclar, onların budaqları, hər şey bozarır. Hava palıdı, sarı rəngə çalır. Göz açmaq mümkün olmur. Adamın üz-gözü, qulaqları, burnu, dişlərinin dibi qumla dolur. Küləklə gələn qum, toz-torpaq evə də dolur. Toz-torpaq gətirən bu küləyə İraqda «əcac» da deyirlər. Xəmsin başlayanda görüş dairəsi, demək olar ki, sıfra bərabər olur. Xəmsini şimal ölkələrində qar yağan zaman baş verən tufanla müqayisə etmək olar.

İraqda iqlim şəraiti insanların həyat tərzi kimi, şübhəsiz, sağlamlıqlarına da təsir edir. Bir dəfə Tərtər – Fərat kanalı tikintisində təsərrüfat işləri üzrə müəssisənin rəis müavini Səbah Cənabi dedi ki, dünən sizin həkim arvadımı müayinədən keçirəndə təzə anadan olan oğlumu təcili olaraq xəstəxanaya aparmağı məsləhət görüb. Bir öyrən gör bu nə işdir.

Məlum oldu ki, uşaq yeddiaylıq olduğuna görə həkim bu qənaətə gəlib. Səbah Cənabi dedi ki, əvvəlki uşaqlarının dördü də yeddinci ayda anadan olublar. Hamısı da sağlam böyüyüblər. Belə olan halda həkimimiz uşaqların anasının müalicə edilməsini məsləhət gördü. Çox keçmədən iki sovet mütəxəssisinin uşağı oldu, ikisi də yeddinci ayda. Sən demə uşaqların vaxtından əvvəl doğulmasına səbəb iqlim şəraiti imiş.

İraqda kənd təsərrüfatı ilə məşğul olan hər bir adam bütün fəsillərin, ayların xüsusiyyətlərini bilir və gündəlik işində bunu nəzərə alır. İqlim şəraitindən yaxşı baş çıxaran əkinçinin də, maldarın da işi uğurlu olur. Burada hər ayın xüsusiyyətlərini özündə əks etdirən qanadlı sözlər, ağlabatan fikirlər vardır. Dekabr və yanvar ayları haqqında deyirlər ki, bu vaxt soyuq gah qılınc kimi kəsir, gah da hava mülayim olur. Heyvanlar kökəlir, südü çoxalır, yağı artır.

Fevral haqqında deyirlər: «Lö şubbat, lö lübbat» – «fevral oldu, qarışıq oldu». Görürsən gah yağış yağır, gah da gün çıxır. Ya da hava buludlu, tutqun olur. Deyirlər, «fevrala inanmaq olmaz; qış keçsə də demək olmaz soyuqlar keçdi».

Mart haqqında: «Mart oldu, hər yan yağış oldu», «Mart yağışı bərəkətdir», «Martda daşdan da sünbül çıxar», - deyirlər.

Aprel haqqında: «Nisan gəldi, biçinə hazırlıq gəldi», «Nisan gəldi, milçəyin dövranı gəldi», - deyirlər.

May haqqında: «Mais ayı ətir və gül-çiçək ayıdır», «Xiyar mövsümüdür. Biçin mövsümüdür. Ya bolluq, ya kasadlıq ayıdır», - deyirlər.

İyun haqqında: «İsti küləklər ayıdır», - deyirlər.

İyul haqqında atalar sözü var: «İyulda kuzədə su quruyur».

Avqust haqqında: «İstidən qorxmadan, cürət edib üzüm salxımlarını yığırlar, - deyirlər. – Avqustun gündüzü cəhənnəm kimi isti, gecəsi isə ürəkoxşayan sərin olur. Birinci ongünlükdə isti qapıda mismarı əridir. İkinci ongünlükdə üzüm azalır, xurma çoxalır. Üçüncü ongünlükdə qış qapını döyür, yəni yay qurtarır, payız başlayır».

Sentyabr haqqında. «Sentyabr qapının ağzını səs-küysüz kəsir», - söyləyirlər. Ancaq sentyabrda elə istilər olur ki, hətta deyirlər: «Sentyabr məni istisi ilə yandırdı, şükür avqusta». Bu vaxt soyuq duş qəbul edib «havasərinlədən»in – kondisionerin qarşısında yatırlar. Bəzən zökəmə tutulurlar; soyuqdəymə halları da olur. Odur ki, deyirlər: «Qışın soyuğu yayın soyuğunun yanında toya getməlidir».

Oktyabr – noyabr haqqında: «Bu iki ay arasında bir yay da var», - deyirlər. Oktyabr ayı haqqında yenə deyirlər ki, bu ay üzüm və əncirin qurtardığı aydır.

Noyabr haqqında: «Noyabr soyuqları da yaz soyuqlarından geri qalmır. Adamı güllə kimi kəsir. Bu vaxt peçin yanını kəs, tərləyəndə özünü yelpiklə sərinlət», - deyirlər. Noyabrda nə çox isti, nə də soyuq olur.

Payızda gün batan vaxt üfüq tərəfdə böyük bir sahə qırmızıya boyanır. Adam baxmaqdan doymur. Bu mənzərə qüdrətli rəssam əli ilə yaradılmış füsunkar lövhəyə bənzəyir.

Yayın axırına yaxın isə təbiətin başqa bir möcüzəsi özünü göstərir. Bu vaxt gündüzün axşamla, gecə ilə əvəz olunduğu anı tutmaq çox çətin olur. Bir də görürsən gün batdı və zülmət qaranlıq düşdü.

Bağdadın cənub qurtaracağında, Dəclə çayının sahilində yerdən çıxan qazla əbədi məşəl yanır. Taleyi həmişə su ilə bağlı olan bu kənd təsərrüfatı ölkəsi indi öz neftinə görə də şöh-

rət qazanmışdır. Buna görə də od və suyu İraqın mühüm həyat rəmzi kimi qəbul edirlər. Keçmişdə bu torpağı «bolluq guşəsi», «çörək zənbili» adlandırırdılar. Çünki torpağı münbit və bərəkətlidir.

İraqda sənaye inkişaf etsə də, hələlik kənd təsərrüfatı iqtisadiyyatın əsasını təşkil edir. Bol sulu Dəclə-Fərat çayları, yağıntının bolluğu və ölkənin şimal hissəsinin təbii şəraiti kənd təsərrüfatının inkişafına böyük imkan yaradır. Bütün il boyu İraqda məhsul yetişdirmək olur. 1958-ci il 14 iyul inqilabından sonra torpaq mülkədarların əlindən alınıb xalqa verilmişdir.

Xalq mənəvi sıxıntılar keçirəndə, onun mənliyi tapdalananda, istismar ediləndə istər-istəməz ruhdan düşür, qol-qanadı sınır, qurub-yaratmaq eşqi sönür, məhrumiyyətlərə düçar olur. İngilislərin tapdağı altında olarkən İraq xalqı neçə-neçə illər belə məhrumiyyətlərə məruz qalmışdı. Lakin indi vəziyyət dəyişmişdir. Xalq öz torpağından, var-dövlətindən istədiyi kimi istifadə edir, qurub-yaradır. 1975-ci il dövlət planına əsasən bir milyon altı yüz min adam yaşayan 4.200 kəndi işıqlandırmaq nəzərdə tutulurdu. Su sarıdan korluq çəkən kəndləri də su ilə təchiz etmək planlaşdırılmışdır.

İraqda Ali Kənd Təsərrüfatı Şurası fəaliyyət göstərir. Buraya müxtəlif bölmələr daxildir. Bu bölmələr kənd təsərrüfatını inkişaf etdirmək üçün xeyli iş görmüş, çoxlu kooperativlər yaradılmışdır. Onların sayı dörd mini keçir. Dövlətin köməyilə hər biri 200 evlik yeni kəndlər salınır. Bu kəndlər su, elektrik işığı, məktəb, ambulatoriya və s. ilə təmin olunur. Kooperativlərin bir çox üstünlükləri vardır. Dövlət onların üzvlərinə maliyyə cəhətdən köməklik göstərir, onları texnika, gübrə və s. ilə təchiz edir. Bununla belə, hələlik kənd təsərrüfatı məhsulları xalqın artan tələbinə cavab vermir. Buna görə də hər il xaricdən şəkər, meyvə, ət-süd məhsulları alınır. Əkin üçün yararlı 12 milyon hektarlıq torpaq sahəsinin hələlik

7 milyon hektarı əkilir. Lakin onun da xeyli hissəsi hər il dincə qoyulur. Qum münbit torpaqları basdığına görə ölkədə meşə zolaqları da salınmağa başlanmışdır ki, qumun hərəkətinin qarşısı alınsın. Əkilən sahələrin dörddə üçündə dənli bitkilər, əsasən də, arpa-buğda becərilir. Ölkənin şimalında arpa-buğdanı dəmyə əkirlər. Orada, həmçinin dövlət büdcəsinə böyük gəlir verən tütün də becərilir. Cənubda isə çəltik əkirlər. Bağ və bostan bitkilərindən pomidor, xiyar, bibər, kələm, badımcan, balqabaq, noxud, lobya, çuğundur, göy-göyərti, gül kələm, qarpız, qovun geniş yayılmışdır. İraqda xurma, püstə, portağal, naringi, limon, nar, qoz, gavalı, əncir, armud, üzüm, şaftalı, alma və s. bitir. Ölkə nəinki özünü meyvə ilə təmin edir, hətta portağal və xurma xaricə də ixrac olunur. Dünya xurma ixracının 75 faizini təşkil edən İraq xurması ölkənin milli sərvətidir. O, 50-dən çox ölkəyə göndərilir. Çin, Sovet İttifaqı və Hindistan, İraqla xurma ticarətində ön yerlərdə dururlar. Ölkə başdan-başa xurma ağacı ilə doludur.

XURMA BAĞLARI

İraqda təqribən otuz üç milyon ədəd xurma ağacı vardır. Xurma ağacı 5–7 ildən sonra məhsul verir. Meyvəsini birinci və ikinci ildə qırıb tökürlər ki, ağac zəif düşüb məhv olmasın. Hər ağacda 4–12 salxım və hər salxımda 10–20 kiloqram xurma olur. Xurma bağlarını yalnız şitillər vasitəsilə çoxaldırlar.

Tumdan əmələ gələn xurma ağacı cır olur, məhsul vermir. Ərəbcə «paxl» adlandırılan xurma ağaclarının hündürlüyü 10–20 metrə çatır.

İraqda bir milyon yarım adam xurma ağaclarına, bağlara qulluq edir, tərəvəzin yetişdirilməsilə məşğul olur. Bağlar xurma ağaclarının altında salınır ki, qaynar günəş ağacları qurudub məhv etməsin. Bağdad, Bəsrə, Kərbəla, Hillə, Divaniyyə ətrafında bağlar geniş yayılmışdır. İraqda olan say-

sız-hesabsız xurmalıqları yalnız Amerikanın Arizona ştatında gördüyüm kaktus meşələri ilə müqayisə edə bilərəm.

İraqda xurmanın yüzdən çox növü vardır. Zəhdi, xəstəvi, diqal, barban, seylan, həmra əl-əyd, ibrahimi, bedaraya, məştumi, safra əl-əyd və s. ən yaxşıları hesab olunur. Bütün xurmaların gözü zəhdidir. Xurmadan yağ və araq çəkir, köpə qarşı dərman hazırlayırlar. Xurma tam yetişməmiş ondan sirkə düzəldirlər. Yetişmiş xurmadan isə mürəbbə bişirirlər ki, bu da «dibs» adlanır. Bir kiloqram xurmada 2700 kalori vardır. Bu, bir kiloqram ətdə və ya iki kiloqram balıqda olan kaloridən çoxdur. Xurmada askorbin, nikotin turşuları, «A», «D», «B1», «B2» vitaminləri vardır. Xurmanı İraqda qatıq və ya südlə yeyirlər. Qatıqla hər vaxt istənilən qədər xurma yemək olur. Ölkədə «Dəclə», «Fərat», «Şətt əl-Ərəb» («Ərəb çayı») kimi böyük xurma emalı zavodları vardır. Zavodlar ona görə çayların adları ilə adlandırılır ki, xurma bağları onların hövzələrində yerləşir.

İraqın başlıca kənd təsərrüfat məhsulu ixracı olan xurma bu ölkədə hələ qədim zamanlardan məşhurdur. Xurmadan un və bal hazırlayır, çəyirdəyindən yanacaq kimi istifadə edirdilər. Xurma ağacı qabığının lifindən kəndir və səbət hörür, özündən isə kiçik qayıqlar düzəldirlər.

Ərəblər xurma ağacını insan bədəni ilə müqayisə edirlər. «Əgər xurma ağacının başını kəssən, o məhv olur. Əgər hər hansı bir budağını kəssən, yerindən yenisi çıxmır. Xurma ağacları orta hesabla yüz ilə qədər yaşayırlar».

Müharibə vaxtı düşmən tərəfin xurma ağaclarını kəsmək, ona ən ağır dağ çəkmək hesab olunurmuş. Elə-belə, odun üçün bu ağacı kəsmək görünməmiş bir şeydir. Onun qayğısını adamlar doğma balasının qayğısını çəkən kimi çəkirlər.

Xurma yetişən vaxt onun sarı və qırmızı salxımları ağaca və ətrafa elə gözəllik verir ki, adam ona tamaşa etməkdən doymur. Xurma ağacı bolluq və bərəkət nişanəsi sayılır.

BAYRAMLAR, YEMƏKLƏR

İnqilaba qədər mayın 2-də kralın ad gününü, aprelin 4-də onun tacqoyma gününü bayram etməyə məcbur olan iraqlılar indi yanvarın 1-ni, mayın 1-ni, iyulun 14-nü (inqilabın qalib gəldiyi günü) və s. bayram edirlər. Göründüyü kimi, inqilab yalnız həyatda deyil, İraq xalqının şüurunda da baş vermişdir. İraqda rəsmi bayramlar aşağıdakılardır: Yanvarın 1-i - Yeni il; yanvarın 6-sı – Ordu günü: fevralın 8-i – 1963-cü il inqilabı günü; martın 21-i – Novruz bayramı; mayın 1-i – Zəhmətkeşlərin həmrəylik günü; iyulun 14-ü – 1958-ci il inqilabı günü; iyulun 17-si – 1968-ci il inqilabı günü.

Bundan başqa on dörd gün də dini bayramların payına düşür. İstirahət günü bütün Şərqdə olduğu kimi, cümə günüdür.

Bəzi sənətkarlar cümə günü işlədiklərindən mərkəzi həmkarlar təşkilatları ilə razılığa gələrək həftənin müəyyən gününü işləmirlər. Məsələn, şəkilçəkənlər bazar günü, dəllək və qəssablar bazar ertəsi istirahət edirlər və s.

Mayın 1-də və inqilabi bayramlarda nümayiş və parad təşkil edilir. Hava çox isti olduğundan nümayiş və paradları axşam saat altıdan sonra keçirirlər. Demək lazımdır ki, bayramların bir çoxu isti vaxta düşür. Çünki əksər ərəb ölkələrində olduğu kimi, İraqda da inqilab, çevriliş, sui-qəsdlər və s. ya dini bayramlar, ya da qızmar yay vaxtı həyata keçirilir.

İraqlılar bayramları böyük intizarla gözləyirlər. Bayramlarda bütün ailə ilə seyrəngaha çıxırlar. Naharı isə şəhərdə kababxana və restoranlarda edirlər. Odur ki, bayram vaxtı yeməkxana və kababxanalarda adam əlindən tərpənmək olmur. Yeməklər ədviyyə və göy-göyərtinin hesabına çox ətirli, dadlı, ləzzətli olur. Məhz buna görə də Şərq yeməkləri bütün dünyada məşhurdur. Ən başlıca yeməkləri dolma, plov, kabab, tikkə (tikə kabab), quzi, məzquf, qas, əl-şiş (hinduşka) dicacə (toyuq), kubbadır. Bu yeməklərdən plov, dolma quzi, kabab və tikkə bizim də aşinası olduğumuz yeməklər-

dəndir. Onlar da dolmanı tənək, kələm, salat yarpağı və eyni zamanda soğan, badımcan, pomidor, xiyarla düzəldirlər. Kabab və tikə bizdəki kimidir. Lakin tikələr çox xırda və sümüksüz olur.

«Quzi» bizim quzu sözündəndir. Quzu və ya toğlu ətini əvvəlcə suda qaynadır, sonra isə bir az qızardırlar. Qızardılmış əti böyük parçalarla plovun üstünə qoyurlar. Buna görə ona «quzi əla timmen» də deyirlər, yəni düyü üstündə quzu, toğlu əti. Qoyun ətini heç vaxt yumazlar. Çünki qoyunu kəsərkən adətən, birdəfəyə yeyirlər. Ancaq mal və dəvə əti bir az qaldıqda köhnəldiyinə görə keçmişdə olduğu kimi, indi də bişirməmişdən əvvəl yuyurlar.

Qas, əsasən, dəvə ətindən düzəldilir. Son vaxtlar inək və camış ətindən də hazırlayırlar. Lakin bu, dəvə ətindən bişirilən qasın ləzzətini vermir. Qası düzəltmək üçün ətdən bir neçə parça doğrayır və lay-lay uzun bir şişə keçirirlər. Hər üç-dörd laydan sonra bir lay quyruq və ya yağlı qoyun əti qoyurlar. Cəhrə iyinə bənzər bu yoğun şişi çox asta-asta fırlanan alətə keçirirlər. Şiş fırlandıqca közərən spirallar əti qızardır; qızardıqca da iti bıçaqla nazikcə yonurlar. Qası bizim dağlı çörəyindən fərqlənməyən «samun», ya da «xobz» – lavaş və turşu ilə yeyirlər. Bu yeməyi dadına, ləzzətinə görə bizim cızbızla müqayisə etmək olar.

Dicac və əl-şiş – bütöv qızardılmış toyuq və hinduşkadır. Bu yemək tabakadan fərqlənmir. Lakin onlar toyuq və hinduşkanı ya şişdə, ya da külfədə qızardırlar.

Kubba – kürdlərin milli yeməyidir, ancaq bütün İraqda hamı onu xoşlayır. Xüsusi növ buğdadan düzəldilir. Buğda bişirilir, qurudulur və sonra kirkirədə çəkilir. Buna «burqul» deyirlər. Burqul yumşaq döyülmüş və ya maşından keçirilmiş ətlə qarışdırılır və yenidən döyülür. Sonra onun içinə qoz, fındıq, badam, püstə, soğan qarışdırılır və bişirilir. Kubbanın qızarılmışına da rast gəlinir.

Məzquf ikiyə bölünərək ocaqda qızardılmış balıqdır. Çox dadlı yeməkdir.

Doğrudur, islam dini vaxtilə üstü pulsuz balıq, donuz əti, və s. yeməyi müsəlmanlara qadağan edir, onu günah sayırdı. Bunu o vaxt üçün məqbul saymaq olardı, çünki avam camaat balıq və donuz ətini, necə gəldi yeyir, çox vaxt ya zəhərlənir, ya da qorxulu xəstəliyə tutulurdular. Onlar nərə balığının özündən zəhər verdiyini, donuz ətində isə isti hava şəraitində kritin xəstəliyi törədən qurdların olduğunu bilmirdilər. (Bax: «Aziya i Afrika seqodnya» jurnalı, M., 1984, № 2). Elə buna görədir ki, Yezid ibn-Əbdül Məlikin hakimiyyəti zamanı (720–724), xəlifəliyin ərazisində təsadüf edilən bütün donuzların məhv edilməsi barədə fərman verilmişdi.

İndi İraqda uzunburun və nərə balıqlarından düzəldilən «məzquf» ən məşhur və ləzzətli yeməkdir. Məzquf və ya balıqdan hazırlanmış başqa yeməkləri yeyəndə ayran və qatıq içmək, yemiş və ya bal yemək məsləhət görülmür. Çünki bədəndə geyişmə baş verir.

Ərəblərin ən çox xoşladıqları kabab və tikə kababdır. Kababı turşu, göy-göyərti, salat, odda bişirilmiş pomidor və soğanla yeyirlər. İraq yeməkləri amerikalı Sula Benetin 1976-cı ildə Amerikada buraxdığı «Necə yaşayasan, yüzü haqlayasan» kitabında dediklərini həmişə yadıma salır. Qafqaza, əsasən də Azərbaycana həsr olunmuş kitabında müəllif yazır ki, qafqazlılar Avropa mədəniyyətini qəbul etmişlər. Lakin Avropa yeməklərini qəbul etməmişlər və heç vaxt bunu etməyəcəklər. Çünki öz yeməkləri sözlə deyilməyəcək dərəcədə dadlı və ləzzətlidir.* Sübut üçün müəllif bizim dolma, bozbaş, kabab, qayğanaq və plovlarımızın reseptlərini də vermişdir.

Sula Benetin yeməklərimiz haqqında dediyi ürəkaçan sözləri eynilə İraq yeməklərinə də aid etmək olar.

---

* Professor Sula Benetin adı çəkilən əsərini sonralar ingilis dilindən tərcümə edərək çap etdirdim. («Yazıçı» nəşr, 1989, 212 səh, 2500 nüsxə)

ÜRƏYİ YANAN GƏL BƏRİ

İraqda süfrə (mineral) suları yoxdur. Burada koka-kola, pepsi-kola, sevin ap, kraş, kanada drai, şaabi, traubi kimi şərinlədici içkilər vardır. Bu içkilər birnəfərlik kiçik butulkalarda düzəldilir. Onu elə birbaşa butulkadan içirlər. Şərinlədici içkiləri, əsasən, içi dəmir təbəqə ilə örtülmüş böyük sandığa bənzər qablarda buzla bir yerdə saxlayırlar. Adı şərinlədici olan bu içkilərin tərkibi elədir ki, birini içən kimi gərək hər 15-20 dəqiqədən sonra yenə də içəsən. Yoxsa adam lap təntiyir. Elə buna görə də indi bir çox ölkələrdə bu içkilərdən üz döndərirlər. Koka-kola, pepsi-kola və s. Amerika içkilərini, demək olar ki, amerikalılar içmirlər. Onlar soyuq buzla qarışdırılıb içilən «ays-tii» (buzlu çay) deyilən içkiyə üstünlük verirlər.

İraqda şərinlədici içkilərə «baarid» deyirlər. Geniş yayılmış içkilərdən biri də təzə portağal şirəsidir. Portağalı iki yerə bölür, xüsusi cihazlarla sıxır, şirəsini çıxarırlar. Baha olsa da mövsüm vaxtı hamı portağal şirəsinə üstünlük verir.

İraqda spirtli içkilər də vardır. Belə içkilər «məşrubat» adlanır. Onlardan araq, pivə və şərabı göstərmək olar. Şərabları keyfiyyətsizdir. Ən çox araq və pivə içilir. Arağı xurmadan çəkirlər. Cirə və zəhləviyyə adlanan bu araqlar çox tünd olur. Arağı yalnız soyuq su və buzla qarışdırıb içirlər. Pivələri çox yaxşıdır. «Fəridə» və «Qızıl ulduz» adlı pivələr dünyanın ən yaxşı pivələrindəndir. Şərabdan baha olan bu pivələri özləri əkdikləri arpadan çəkirlər. Pivə həvəskarları yəqin bilmirlər ki, dünyada ilk dəfə pivə də qədim Mesopotamiyada istehsal olunmuşdur. Onu beş min beş yüz il bundan əvvəl Dəclə və Fərat çayları arasındakı ərazidə yaşayan şumerlər istehsal etməyə başlamışlar. Tarixi sənədlərdən məlum olduğuna görə, onlar bu içkini məhsul ilahəsinə töhfə edirlərmiş. Sonralar pivə istehsalı Babildə davam etdirilib. Qədim Şərqin ən böyük hüquq abidəsi olan hökmdar Hammurapinin 120 maddədən ibarət qanunnaməsində pivənin istehsalı və satışı qaydalarından danışılır.

«Hammurapi qanunnaməsi» xüsusən pivə çəkərkən ona su qatanlara şiddətli cəza verilməsini nəzərdə tuturdu. Müqəssirlər ya su qatılmış pivənin olduğu çəlləkdə batırılmalı, ya da yıxılıb ölənədək həmin pivədən içməli imişlər.

İraqda ən çox yayılan içkilər çay, hamuz və qəhvədir.

Ərəblərin çayı da qəhvələri kimi çox tünd olur. Çayı belə dəmləyirlər: dəm çaynikinə çoxlu qara çay, sonra isə üstünə qaynanmış su tökürlər. Dəm çayniki odun üstünə qoyulur və qaynadılır. Çayı armudu stəkanlarda içirlər. Stəkanın düz yarısına kimi şəkər tökür, sonra qaynadılmış «dəm»dən üstünə əlavə edirlər. Çay sözün həqiqi mənasında bəhməzə oxşayır. Çox qüvvətli olur. Adətən, çaydan əvvəl və sonra adi su içirlər.

Ərəblər dişləmə çay içmirlər. İraqda yaşayan azərbaycanlılar isə dişləmə çayı xoşlayırlar. Çox vaxt çayxana və qəhvəxanalar evlərin üstündə açıq havada yerləşir.

Hamuz isə Hindistandan Bəsrə limanı vasitəsilə ölkəyə gətirilən qoz boyda qurudulmuş limondan düzəldilir. Sadə camaat haradan gətirildiyini bilmədiyindən vaxtilə onu «numi Bəsrə» (Bəsrə limonu) adlandırmışdır. Baxmayaraq ki, Bəsrədə bu növ limon ağacına rast gəlinmir, xalq onu yenə də «numi Bəsrə» adlandırmaqdadır. Hamuzun düzəldilməsi asandır. Limon suda qaynadılır, onu stəkana tökürlər. Üstünə şəkər əlavə edəndə isə çox içməli, turşməzə olur. Bu içkinin adı ərəb sözü «hamuz»dan («turş», «turşməzə») yaranmışdır. Həkimlərin gəldiyi qənaətə görə «hamuz» böyrəklərə və qidanın həll olunmasına yaxşı təsir edir, kökəlmənin və yanğının qarşısını alır. Hamuz İraqın milli içkisidir.

Qəhvə nəinki Ərəbistanda, hətta bütün dünyada geniş yayılıb. Ərəb qəhvəsi «qəhvə murr» – «acı qəhvə» adlanır. Çünki ərəblər onu şəkərsiz içirlər. Çox tünd və acı olan ərəb qəhvəsini üsküdən bir az böyük olan qablarda içirlər. Bir qabda 2–3 qurtum olur. Birdəfəyə 2–3 qab içirlər. Həkimlər təbii ərəb qəhvəsinin dizenteriya və başqa mədə-bağırsaq xəs-

təliklərilə mübarizədə böyük rolu olduğunu göstərirlər. Ərəb qəhvəsi selikli qişanın iltihabının da qarşısını alır.

Qəhvə haqqında maraqlı əfsanə də vardır: deyilənlərə görə, çobanlar sürünü otararkən keçilərin dağın dibindəki bir çəmənlikdən ayrılmadığının, qara-qəhvəyi bitkinin meyvələrini axtarıb taparaq onu yediklərinin şahidi olurlar. Çobanlar görürlər ki, keçilər gecələr dincəlmir, ora-bura qaçaraq bir-birini buynuzlayırlar. Onlar dünyagörmüş aqil adamlarla məsləhətləşirlər. Məlum olur ki, keçilərin şıltaqlığına səbəb vaxtilə Efiopiyanın Kaffa vilayətindən gətirilib əkilən, sonralar yaddan çıxan həmin bitkinin meyvəsidir.

Bir qrup tədqiqatçı «qəhvə» sözünün Kaffa ilə əlaqədar olduğunu qeyd edir. Başqaları isə bu sözün mənşəyini «kavva» – «qüvvə, güc» sözü ilə bağlayırlar. Qəhvə tezliklə başqa xalqlara da məlum olur. XVI əsrin ortalarından qəhvə Türkiyədə geniş yayılır. 1554-cü ildə İstanbulda ilk «qəhvəxana» açılır. XVII əsrin əvvəllərində Avropada qəhvə haqqında yaxşı təsəvvürə malik idilər. 1615-ci ildə italiyalı Pyetro Valle yazırdı: «Türkiyədə yayda yanğını azaldan, qışda isə insanın bədənini qızışdıran bir içki var. Onlar həmin içkini Ərəbistanda bitən bir bitkinin toxumundan hazırlayırlar. Həmin içki insanın sağlamlığına yaxşı təsir göstərir. Yeməklərin həzminə kömək edir. Mədəni möhkəmləndirir, dizenteriyanın qarşısını alır. Yeməkdən sonra insanı yatmağa qoymur. Buna görə də gecələr oxumaq, zehni əməklə məşğul olmaq istəyənlər həmin içkidən içirlər».

Qəhvə tezliklə Avropaya yayılır. 1652-ci ildə Londonda, 1671-ci ildə Marseldə, 1672-ci ildə Parisdə ilk qəhvəxanalar açılır.

Əkiləndən 4–5 il sonra hər ağacı 10–17 kiloqram məhsul verən qəhvə indi geniş yayılsa da, onun zərərindən də yazırlar. Belə deyirlər ki, XVIII əsrdə bir fransız təbibi çayla qəhvədən hansının adama çox ziyanı olduğunu öyrənmək istəyirmiş. Edama məhkum edilmiş iki dustağı həkimin xa-

hişi ilə təcrübə aparmaq üçün ona verirlər. Dustaqlardan birinə gündə üç stəkan çay, o birinə üç stəkan qəhvə içirməyə başlayırlar. Belə olur ki, çay içən dustaq 70, qəhvə içən isə 80 il yaşayır. Çay və qəhvədən imtina edən alim isə 62 yaşında vəfat edir.

Bu əhvalatın əfsanə olmadığına inanmaq mümkündür. Axı hələ vaxtilə Karl Linner deyirdi ki, bu «içkilər» bədəni möhkəmləndirir, qida həzminə kömək edir, daxili çirki təmizləyir, mədəni qızdırır.

Ancaq qəhvənin ürəyi xəstə olanlara, yuxusuzluqdan əziyyət çəkənlərə zərəri də məlumdur.

Gündüz bir-iki fincan südlə qarışdırılmış, çox tünd olmayan qəhvə içməyi məsləhət görürlər. Çayı da həddindən artıq içməyi lazım bilmirlər. Bu, ürəyin işini ağırlaşdırır. Deməli, hər iki «içkini» ifrata varmadan içmək, müəyyən həddi gözləmək lazımdır.

BİR AZ DA TƏHSİLDƏN

İraqda orta təhsil üç pillədən ibarətdir. İbtidai, natamam orta və orta məktəb. İbtidai məktəbə altı yaşından gedir və altı il oxuyurlar. Bundan sonra ümumi imtahan verirlər. Əgər şagird üç imtahandan kəsilsə, sinifdə saxlanılır, iki imtahandan kəsilən isə payızda sentyabrın 15–20-si arası imtahan verir. Şagird bir sinifdə üç il qala bilər. Sinifdə çox qalan şagird on altı yaşına çatanda axşam məktəbinə keçirilir. Belə şagirdləri 18 yaşına çatanda əsgərliyə çağırırlar.

Məktəblərdə imtahanlar yüz bal sistemi üzrə aparılır. Altmış bal toplamaq məqbul hesab olunur. Bu miqdar balı toplaya bilməyən şagird istədiyi bir fəndən imtahan verib vəziyyətini yaxşılaşdıra bilər. Bu, «imtahan mədrəsi» – məktəb imtahanı adlanır. Bundan əlavə, 6-cı sinfi bitirəndə «imtahan vüzəra» – nazirliyin imtahanı olur. Maarif nazirliyinin nümayəndəsi şagirdlər arasında beş fəndən yazılı imtahan apa-

rır. Əlli bal yığa bilən şagird natamam orta məktəbdə oxumaq hüququ qazanır. Natamam orta məktəbdə üç il oxuyurlar. Burada hər il imtahan verirlər. Doqquzuncu sinfi bitirəndə yenə də «nazirlik imtahanı» olur. İmtahanları müvəffəqiyyətlə verən orta məktəbə də, texnikuma da gedə bilər. 1–2 fəndən kəsilən payızda təkrar imtahan verə bilər. Üç kəsri olan isə sinifdə qalır. Texnikuma da qəbul imtahansızdır. Hər hansı texnikum olur-olsun, normadan artıq sənəd verənlərin ən yaxşılarını seçirlər.

Orta məktəbdə də təhsil üç ildir. İmtahanları verib əlli baldan çox toplayan şagirdlər institutlara daxil ola bilərlər. Burada bir məsələni də qeyd edək. Deyək ki, tibb institutuna beş yüz nəfər qəbul olunmalıdır, lakin yeddi yüz nəfər sənəd verib. Dövlət onların ən yaxşılarını seçib xarici ölkələrə oxumağa göndərir, aşağı ballılardan isə bəzilərinə başqa institutlara getmək məsləhət görülür. Bir sözlə, hələlik ölkədə oxumaq istəyən şəxs təhsildən kənarda qalmır.

Bir cəhəti də qeyd edək. Əgər orta məktəbi qurtaran şagirdlər aşağı bal yığıblarsa (50–55 bal), onlar Bağdadda yalnız Müstənsiriyyə universitetinin axşam şöbəsinə, ya da əyalət – Bəsrə, Mosul, Süleymaniyyə universitetlərinə sənəd verə bilərlər.

Məktəblərdə dərslər sentyabrın 20-dən mayın 20-ə kimi davam edir. Yalnız bir dəfə – fevralın əvvəlində şagirdlərə ikihəftəlik istirahət verilir. 1980-ci ildən ibtidai təhsil məcburidir. Ölkədə qızlar məktəbi ayrı, oğlanlar məktəbi ayrıdır. Qızlar məktəbində yalnız qadın müəllimlər işləyirlər. Məktəb direktorları ancaq idarə işləri ilə məşğul olur, dərs deməkdən azad edilirlər.

İndi ölkədə bir dənə də xüsusi məktəb yoxdur. Bütün ali və orta məktəblər dövlətin əlindədir. Ölkədə beş universitet vardır.

İraqda ilk ali məktəb 1927-ci ildə açılan Pedaqoji institut olmuşdur. 1939-cu ildə Əczaçılıq institutu, 1942-ci ildə Mü-

həndislik institutu, 1947-ci ildə Qızlar institutu və s. açılmışdır. 1958-ci il inqilabından sonra Bağdad universiteti yaradıldı və bütün institutları birləşdirdi. Bundan sonra az müddət ərzində Bəsrə (1964), Mosul (1967), Süleymaniyyə (1971) və Bağdadda pullu Əl-Müstənsiriyyə (1963) adlı xüsusi universitetlər açıldı. Buraya Amerika tərəfindən bəzi Şərq ölkələrində yaradılan Əl-Hikmə universitetini də əlavə etmək olar.

Əl-Müstənsiriyyə 1974-cü ildən dövlətin ixtiyarındadır. Demək, təhsil bu universitetdə də pulsuzdur.

İraqa kömək pərdəsi altında yaradılan Əl-hikmə universitetinin ömrü uzun çəkmədi. Məlum oldu ki, bu universitetin divarları arasında İraq dövlətinin mənafeyinə zidd işlər aparılırmış. Buna görə də 1968-ci ildə bu «elm ocağı» Bağdad universiteti ilə birləşdirildi.

Ölkədə fəaliyyət göstərən beş universitet 54 ali məktəbi birləşdirir. Altmış minə qədər tələbəsi olan Bağdad universitetində tibb, əczaçılıq, maldarlıq, diş həkimliyi, mühəndislik, kənd təsərrüfatı, ticarət, hüquq, dil-ədəbiyyat, tarix kollecləri və s. vardır.

Ali təhsil dörd ildən altı ilə qədərdir. Universitetin dil-ədəbiyyat və başqa humanitar elmlər üzrə kollecinə daxil olan tələbələr ərəb dili ilə yanaşı, ingilis, rus, alman, fransız və kürd dillərindən birini keçirlər.


İraqda qiyabi təhsilə də böyük qayğı göstərilir. Ən çox da kənd yerlərindən olanları qiyabi təhsilə cəlb etmək yaxşı nəticə verir. Onlar təsərrüfat haqqında biliklərini artırır və nəzəri biliklərini təcrübədə həyata keçirirlər. Kənd yerlərindən qiyabi oxuyan qızların sayı da artıb. Onlar böyük məmnuniyyətlə doğma kəndlərində uşaqlara savad öyrədir, savadsızlığın aradan qaldırılmasında iştirak edirlər. Bu, çox vacib bir məsələdir, çünki ingilis müstəmləkəçiləri, yerli feodallar və din xadimlərinin xalqı cəhalətdə saxlamaqla ona asan rəhbərlik etmək siyasətinin nəticələri hazırda da özünü göstərir.

MƏDƏNİYYƏT MƏRKƏZİ ŞƏHƏRLƏRİ


İraqda hər şəhərin öz gözəlliyi, öz səciyyəvi xüsusiyyətləri vardır. Çiçəklənən liman şəhəri Bəsrəni gözəlliyinə görə Venetsiya ilə müqayisə edirlər. Şərqlə Qərb arasında ticarət qapısı adlandırılan Bəsrə, əhalinin sayına görə ölkənin paytaxtı Bağdaddan sonra ikinci yeri tutur. Əhalisi 445 mini keçən Bəsrə şəhərinin əsası yeni eranın 637-ci ilində qoyulub. («Yaxşı görmək» mənasını verir.) Bəsrə Abbasilər dövründə Hindistan və Çinlə ticarət mərkəzi kimi çiçəklənməyə başlamışdı. O, əsrlərlə bol məhsullu xurma bağlarına görə də məşhur olmuşdur. Təsadüfi deyil ki, bizdə lüzumsuz bir işi bildirən «Naxçıvana duz aparır», ruslarda «Tulaya öz samovarı ilə gedir» mənasında ərəblərdə «Bəsrəyə xurma aparır» atalar sözü işlənir.

Burada xurma emalı zavodu var. Nəhəng ticarət limanı Bəsrəyə böyük okean gəmiləri də yan ala bilir. Burada gəmi təmiri tərsanələri vardır. Bəsrədə böyük ağac emalı emalatxanası, pivə və sərinlədici içkilər zavodu tikilmişdir. Yaxın Şərqdə ən böyük elevator Bəsrədədir. Kağız emalı zavodu da onun şan-şöhrətini artırır. Bəsrə-Bağdad neft kəməri və Bağdad – Bəsrə dəmir yolu, ildə dörd milyon ton şəkər istehsal edən şəkər zavodu Bəsrənin mühüm şəhər olduğunu bir daha təsdiq edir. Bəsrədə universitet şəhərciyi öz gözəlliyi ilə seçilir. Burada idman kompleksi, üzgüçülük hovuzu, tələbə klubu, kitabxana binası diqqəti cəlb edir. İlin bütün fəsillərində Bəsrəyə Küveyt və başqa ərəb ölkələrindən böyük axın olur. Buraya həm təyyarə, həm qatar, həm maşın, həm də gəmi ilə gəlirlər. Bəsrədə hamının böyük məmnuniyyətlə müşahidə etdiyi «qaçaq mal» bazarı vardır. Küveyt və Səudiyyə Ərəbistanından qaçaq yolla gətirilən mallar bu bazarda ucuz qiymətə xırıd edilir.

İraq kimi isti bir ölkədə şəhərin, yaşayış məntəqəsinin dənizə yaxın olması böyük xoşbəxtlikdir. Bu baxımdan Bəsrənin





Bağdad şəhidlər məscidi




Harun ər Rəşidin azərbaycanlı həyat yoldaşı Zibeydə xanımın məqbərəsi

Nəcəf şəhərində
İmam Əli məscidi







Bağdadda Kazimiyyə məscidi



Kərbəlada İmam Hüseyn məscidi



Kərbəlada Həzrət Abbas məscidi



Samarada İmam Hadi məscidi



Bağdadda İmam Maaruf məscidi

bəxti gətirmişdir. Lakin yay vaxtı rütubət çox yüksək olur. Gecələr barxana və paltar rütubət və nəmişlikdən yaş olur.

Bəsrədə əfsanəvi Sindbad adası vardır. Deyirlər, Sindbad buradan səyahətə çıxarmış. Bağ-bağça, yaşıllıqlar içində itib-batan Bəsrənin ən mənzərəli yeri Sindbad adasıdır. Bura əyləncə və istirahət guşəsidir. Həftənin bütün günləri buraya Küveyt və başqa yerlərdən ailələr istirahətə gəlir.

Bəsrə bizim üçün də doğmadır. Bakı – Bəsrə qardaşlaşmış şəhərlərdir. 1973-cü ildə Bakı Soveti İcraiyyə Komitəsi sədrinin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti Bəsrəyə gələndə gül-çiçəklə qarşılandı. Azərbaycan Dövlət Universiteti ilə Bəsrə universiteti son illərdə sıx əlaqə saxlayır.

Mosul. İraqda böyük şəhərlərin bəzən iki-üç adı olur. Bağdad, Samarra və Mosul belələrindəndir. Xalq arasında Mosula «Umm ər-rəbieyn» («İki bahar diyarı») deyirlər. Qədim aramey dilində bu şəhər «Maşbalu» («Çökək yer», «Vadi») adlanırmış ki, bu da şəhərin coğrafi xüsusiyyətini düzgün əks etdirir. Ərəb dilində Mosul – körpü, keçid mənasını verir.

Mosul Bağdadın 400 kilometrliyindədir. Gözəl dağ havası ilə fərqlənir. Dəniz səviyyəsindən 223 metr hündürdədir. Burada yağıntının miqdarı ildə 400 millimetrdir. Üç milyonluq İraq kürdlərinin paytaxtıdır. Əhalisi 400 min nəfərə yaxın olan Mosul şəhəri bir vaxtlar elm və mədəniyyəti ilə aləmi heyran edən, gücü ilə ətraf ölkələri lərzəyə salan qüdrətli Assuriya imperiyasının son paytaxtı Neynəvanın xarabaları yanında tikilmişdir.

Neynəva yeni eradan əvvəl 612-ci ildə Midiya və Babil dövlətlərinin birləşmiş orduları tərəfindən darmadağın edildi. Vaxtilə assurilər Babili və başqa şəhərləri tutduqdan sonra etdikləri kimi, babillilər və midiyalılar da qocalı-cavanlı hamını qılıncdan keçirdilər. 25 metr hündürlüyündə olan qala divarlarını, sarayları dağıtdılar. Assurilər bu dünyanın borc dünyası olduğunu anladılar. Lakin gec idi. Paytaxt yerlə-yek-

san edildi, sonra isə yandırıldı. Assurilərin qisməti aclıq, yoxsulluq, səfalət oldu.

Neynəva xarabalarında qalan tarixi abidələr orada mədəniyyətin vaxtilə çox yüksək olduğuna dəlalət edir. Belə bir mədəniyyət mərkəzinin yaxınlığında yeni eranın 636-cı ilində Mosul şəhərinin əsası qoyulmuşdur. Bizim eranın 640-cı ilində ərəblər Mosulu tutur və sonralar oradan Azərbaycana yürüşlər təşkil edirlər. Orta əsr tədqiqatçısı Yaqut əl-Həməvi Mosulu karvan yollarının başlanğıcı hesab etmiş və yazmışdı: «Mosul İraqın qapısı, Xorasanın açarıdır. Buradan Azərbaycana getmək olur».*

Mosul Atabəylər hakimiyyəti zamanı birinci çiçəklənmə dövrünü keçirmişdir. Bağdad – Ankara dəmiryolunun üstündə olan Mosul indi ikinci çiçəklənmə dövrü keçirir. Burada sement zavodları, toxuculuq və dəri məmulatı fabrikləri, böyük taxıl, mal və meyvə bazarları vardır. Mosul qarpızları bütün İraqda məşhurdur. Burada çəkisi 20 – 30 kiloqram olan çox uzun və böyük qarpızlar yetişir. Bal kimi şirin qarpızların qabığı çox nazik olsa da, sərin zirzəmilərdə 4 – 5 ay saxlanıla bilir.

Mosul «Əl-qəzəl» bazarına görə də məşhurdur. Burada ancaq müxtəlif iplər, yun və pambıq satırlar. Yun və pambığı elə buradaca – dəzgahlarda təmizləyir, darayır və əyirirlər. Bu bazar o qədər məşhurdur ki, aydın, məlum bir məsələdən danışanda «Əl-qəzəl» bazarı ilə əlaqədar yaranmış atalar sözünü işlədirlər: «Bu ki «Əl-qəzəl» bazarının yolu kimi məlumdur», - deyirlər. Bazarda dəzgahların və alver edən qadınların səsi

* Yaqut əl-Həməvi 1213 və 1220-ci illərdə iki dəfə Azərbaycana səfər etmiş, Təbriz, Marağa, Mərənd, Ərdəbil, Naxçıvan, Gəncə, Bərdə, Qəbələ, Şəmkir, Şamaxı, Dərbənd və s. haqqında diqqətəlayiq məlumatlar vermişdir. Onun akademik Z.M.Bünyadov və professor P.K.Juze tərəfindən ərəbcədən rus dilinə tərcümə olunmuş və 1983-cü ildə «Elm» nəşriyyatının buraxdığı «Mudjam al-buldaan» əsəri bu baxımdan maraq doğurur.

bir-birinə qarışır. Ağız deyəni qulaq eşitmir. Çox qarışıqlıq olur. Ona görə də mosullular deyirlər: «Burada uşaq anasını tanımır». Mosul kürdlərin mədəniyyət mərkəzidir. Mosul universiteti elm ocağı kimi, böyük vəzifələr yerinə yetirir.

Mosul haqqında çox yazılıb. O.Q.Gerasimov da ərəb ölkələrindən bəhs edən və 1974-cü ildə Moskvada çap olunmuş «Sincar dağlarından Rub əl-Xali səhrasınadək» adlı kitabında bu gözəl şəhərə layiq gözəl sözlər yazıb. Lakin müəllif bəzi təhriflərə də, yol verib. O yazır ki, Mosul ətrafında göz işlədikcə uzanan taxıl zəmiləri vardır. Mosullular taxılı və qarğıdalını anbarlara yığmazdan əvvəl evlərin üstünə sərirlər. Bunu camaata göstərmək üçün edirlər: «Baxın, görün nə qədər məhsulumuz olub?» Şübhəsiz, müəllifin bu qənaətə gəlməsi onun kəndli həyatını yaxşı bilməməsi ilə əlaqədardır. Məhsulu anbara yığmazdan əvvəl qurudurlar ki, xarab olmasın.

Eləcə də 1967-ci ildən Mosul universiteti fəaliyyət göstərdiyi və bir neçə institutu birləşdirdiyi halda, o, Mosulda bir institutun olduğunu qeyd edir. Müəllif Bağdadla Kərkük arasındakı məsafənin 200 kilometrdən bir az artıq olduğunu deyir. Halbuki həmin məsafə 350 kilometrdir. «Mən İraqda olanda İmam Əlinin qəbri üçün Nəcəf şəhərinə üç tondan artıq qızıl işlədilmiş qapı gətirmişdilər», - deyən müəllif yenə də qeyri-dəqiqliyə yol verib. Qapı Həzrət Abbasın qəbrinin günbəzi üçün düzəldilmişdir. 400 kiloqram qızıl işlədilmiş qapı Kərbəlada Həzrət Abbas məscidindədir. Əgər müəllif bunları öz gözləri ilə görsəydi, yazmazdı: «Kərbəlada İmam Hüseyn məscidindən aralı, şəhərin o biri başında Həzrət Abbas məscidi də var. Biz ona baxmağa getmədik. Deyirlər, o da İmam Hüseyn məscidinə oxşayır».

Göründüyü kimi, müəllif müşahidə etdiyini yox, eşitdiklərini yazıb. Təbii ki, hər eşidilən də düz çıxmır. Müəllif özü baxmış olsaydı, bu iki məscid arasındakı məsafənin yalnız 350 metr olduğunu yəqin edərdi.

Kərkük. Bağdad, Bəsrə və Mosuldan sonra İraqın dördüncü şəhəri – ölkənin şimalında neft sənayesi mərkəzidir. Yetmişinci illərin hesablamalarına görə əhalisi 250 mindən artıqdır. Bağdadın 350 kilometrliyində olan Kərkük İraqda yaşayan azərbaycanlıların əsas şəhəridir. Azərbaycanca danışan xalq, əsasən, Kərkük vilayətində yaşayır. Əhalisi ətrafı ilə birgə 660 min nəfərdir (1976). «Kərkük» sözünün haradan əmələ gəlməsini izah etməkdə çətinlik çəkirlər. Bu sözün izini Mahmud Kaşğarinin «Divani-lüğət it-türk» adlı qədim və əvəzsiz kitabında görmək mümkündür. Türk dillərində «kərkük» – «çökəklik», «dərə», «vadi» mənasında işlənmişdir. Kərkükün müasir coğrafi şəraiti bunun doğruluğunu təsdiq edir – şəhər vadidə yerləşir.

Kərkük qədim şəhərdir. Orta əsr tarixçisi Yaqut əl-Həməvi Ərbil və Daquq arasında alınmaz Kərkük qalasının olduğunu göstərir. Yaqut əl-Həməvinin söz açdığı Kərkük qalası indi də qalır.

Ölkə rəhbərliyinin Kərkükün abadlaşdırılmasına dair xahişi ilə yunan şirkəti şəhərin «Baş planı»nı hazırlamışdır. Həmin plana əsasən Kərkük qalasının abadlaşdırılaraq turist mərkəzinə çevrilməsi nəzərdə tutulmuşdur. Şəhərin ortasından axıb keçən Xaca çayı onu Qələ (söhbət Kərkük qalasından gedir - Q.P.) və Qorya olmaqla iki yerə bölür. Qələ tərəfdə bir çox məhəllələr vardır: Qəssabxana, Çuxur, Piryadı, Əkməkçilər (Çörəkçilər), Ovçular, Musala, Halvaçılar, Şorca, indi bəzən Bulaq məhəlləsi adlandırılan Qarabağlı məhəlləsi.

Kərkük qalasının – Qələnin əhatə etdiyi ərazidə isə Zindan, Ağalıq, Dəmir qapı, Top qapı, Hamam, Peyğəmbər və Meydan kimi məhəllələr vardır. Qorya tərəfdə isə Tisin, Məhətta (Vağzal), Əhməd ağa, Bəklər, Almas, Arafa, Yeni Kərkükdür.

İraqa birinci səfərim zamanı, 20 il bundan əvvəl Qoryada – bazarın ətrafı göz işlədikcə uzanan zeytun meşəliyi idi. İndi

burada müasir evlər tikilmişdir. Lakin şəhərdə köhnə evlər də çoxdur. Əl-Cümhuriyyə (Respublika) şəhərin ən izdihamlı küçəsidir. Əksər mağazalar, çayxanalar, kitab mağazaları, hakimlərin şəxsi qəbul məntəqələri bu küçədədir. Şair Mustafa Kök Qayanın kitab mağazasında yalnız öz dillərində – azərbaycanca olan kitablar satılır.

Şəhərdə neft təmizləmə və neft emalı, buz və kərpic zavodları vardır. Pambıq-parça, yun, ipək emalı, gön-dəri və dulusçuluq sənayesi inkişaf etdirilmişdir. Kərkükdə üç böyük xəstəxana və tibbi mərkəz yaradılmışdır. Yeni dövlət kitabxanaları istifadəyə verilmişdir. Şəhərin girəcəyində böyük park salınmışdır. Son vaxtlara kimi Kərkükdə su və mənzil çatışmazlığı özünü göstərirdi. İndi şəhər su ilə pis təchiz olunmur. Yetmişinci illərdə şəhərdə çoxlu evlər tikilmiş və əhaliyə verilmişdi. Kərkük neft kəməri Aralıq dənizi limanları – Bəniyas, Tripoli və Hayfa ilə birləşdirilmişdir.

Maraqlıdır ki, vaxtilə Kərkük nefti yalnız bir nəslin – Neftçizadələrin əlində olmuşdur.

Dəmir və şose yolları Kərkük şəhərini ölkənin paytaxtı Bağdadla birləşdirir.

Samarra-Surra Man Raa («Onu görən sevinir») Dəclə çayının sahilində, Bağdadın 120 kilometrliyində yerləşir. İndi 45–50 min əhalisi olan bu kiçik şəhər yeni eranın 836–892-ci illərində xilafətin mərkəzi olmuşdur. Bu, Harun ər-Rəşidin türkdilli kənizindən olan oğlu Mütəsimin xəlifəliyi zamanı baş verir. Mütəsim 4 min nəfərdən ibarət şəxsi gözətçilər dəstəsini türkdilli xalqdan təşkil etdiyinə görə ərəblər özlərini təhqir olunmuş hesab edərək açıq və gizli saray mübarizəsinə başladılar. Bağdadda çaxnaşmalar baş verdi.

Saray çevrilişindən qorxan Mütəsim ölkənin paytaxtını Bağdadın şimalında tikməyə qərara aldı. Xilafətdən asılı başqa dövlətlərdən alınan külli miqdarda vergi hesabına tez bir zamanda xəlifənin özünün ad verdiyi şəhər – «Onu görən se-

vinir» – tikildi və hamını heyran etdi. Mütəsimdən sonra daha yeddi xəlifə burada hakim olmuş, lakin 892-ci ildə xəlifə Mütəmid paytaxtı Bağdada qaytarmağı qərara almışdır.

Samarra indi turist mərkəzi kimi məşhurdur. Burada çox gözəl Əl-Əsgəriyyə məscidi və Məlviyyə («Spiralvari qüllə») diqqəti cəlb edir.

İslam aləmində ən böyük qüllə olan Məlviyyə arxitektura cəhətdən çox sadə, eyni zamanda təkrarolunmazdır. Hündürlüyü 52 metrə çatan bu qüllə 32 kvadrat-metr sahəni əhatə edən dördmetrlik özül üzərində ucaldılmışdır. Yol dolana-dolana qüllənin başına qalxır; eni iki metrdir, qüllə ətrafında beş dövrə edir. O, spiralvari olduğuna görə «Məlviyyə» adlanır. İndi bu qüllənin başından turistlər Dəclə çayını, şəhəri və bu qülləyə çox yaxın olan, həmyerlimiz Həsən Rəhimovun rəhbərliyi ilə tikilən «Antibiotiklər zavodu»nu seyr edirlər. Keçmişdə həmin qüllədən gözətçi məntəqəsi kimi istifadə olunmuşdur.

Məlviyyə qülləsi xəlifə Mütəvəkkilin vaxtında tikilib. Tarixçilər nəql edirlər ki, xəlifə hər gün Misirdən gətirilmiş uzunqulaqla qüllənin başına çıxıb ətrafı seyr etməyi xoşlayırmış.

Mütəvəkkil şəhər ətrafında böyük heyvanxana da saldırıbmış.

Dəclə çayı boyunda xəlifə Mütəsimin tikdirdiyi sarayın xarabaları indi də qalır. Çayın o tayında isə xəlifə Mütəmidin tikdirdiyi «Aşiq-Məşuq» sarayının xarabaları diqqəti cəlb edir. Vaxtilə Dəclə çayının altından salınmış yolla keçərək xəlifənin öz məşuqəsi ilə görüşdüyü «Aşıq-Məşuq» sarayının qalıqlarını turistlər məftunluqla müşahidə edirlər.

Turistlərin diqqətini cəlb edən tarixi abidələrdən biri də Əl-Əsgəriyyə məscididir. Məscidin diametri 22 metr olan günbəzi 1667-ci ildə qızıl təbəqəylə örtülmüşdür. Bu «bəzək işi»ndə 72 min ədəd kərpicvari qızıl vərəqdən istifadə edilmişdir. Günbəzin yanında ucalan, hündürlüyü 36 metr olan qoşa minarə ona xüsusi gözəllik verir. Məscidin qapıları da qızıl-

dandır. Gözəlliyi ilə adamı məftun edən bu tarixi abidə ətrafındakı köhnə, bir-iki mərtəbəli evlər, dar və çirkli küçələrlə qəribə təzad təşkil edir.

Kərbəla. Bağdadın 105 kilometrliyində olan bu böyük şəhər yaşıllıqlar içindədir. Vilayət mərkəzidir. Əhalisi 250 min nəfərdən çoxdur. Kərbəla vilayəti iki böyük rayona bölünür. Nəcəf və Kufə rayon mərkəzləridir. «Kərbəla» sözünün mənşəyi barədə iki fikir vardır. Bəziləri «Kərbəla»nın «Kur Babil» – «Babil rayonu»ndan əmələ gəldiyini, başqaları isə onun «Kurb vəl bəla» - «Hüzn və müsibət» sözlərindən yarandığını göstərirlər. Bu, İmam Hüseyn və Həzrət Abbasın həmin yerdə faciəli surətdə öldürülməsi ilə əlaqələndirilir ki, əksər tədqiqatçılar bu müddəanın həqiqətə daha yaxın olduğunu bildirirlər. Şəhər müsəlman aləmində din mərkəzi kimi məşhurdur. Burada İmam Hüseyn və Həzrət Abbas məscidləri və şiələrin son dərəcə böyük qəbiristanlığı vardır. İmam Hüseyn məscidi xüsusilə fərqlənir. Böyük sahəni tutan bu tarixi abidənin on darvazası vardır. 27 metr hündürlüyündə olan günbəz qızılla örtülmüşdür. Qoşa imarət abidəyə xüsusi gözəllik verir. İmam Hüseynin qəbri məscidin içindədir. Qəbrin üstü mərmərdəndir. Lakin fil sümüyü və başqa zinətlərlə də işlənmişdir. Ətrafına qızıl və gümüşdən düzəldilmiş şəbəkə çəkilmişdir.

Həzrət Abbas məscidi İmam Hüseyn məscidinin 350 metr şimal tərəfində yerləşir. Hər iki abidə bir-birinə bənzəyir. Burada da çoxlu otaq və darvazalar vardır. Lakin nisbətən sadə olan Həzrət Abbas məscidində alimlər və din xadimləri basdırılmışlar. Həzrət Abbasın qəbri də məscidin içindədir. Qiblə qapısının üstündə qədim saat vardır.

1385-ci il hicridə (1965) Həzrət Abbasın qəbrinin üstünü götürmək üçün İranda düzəldilmiş günbəz Kərbəlaya gətirildi. Günbəzə iki tondan çox gümüş, dörd yüz kiloqram qızıl və daş-qaş işlədilmişdir. Bu, islam aləmində ən dəyərli günbəz hesab olunur.



Kərbəla, Füzuli məqbərəsi 1972-ci il

Kərbəla şəhəri həm də ticarət mərkəzi kimi məşhurdur. Son vaxtlar burada sənayenin inkişafına da fikir verilir. İndi Kərbəlada ayaqqabı fabriki və Sovet İttifaqının yardımı ilə tikilmiş meyvə-tərəvəz emalı zavodu vardır.

Bağlı-bağatlı, bol sulu, bol meyvəli Kərbəla bizim üçün də əzizdir. Bu şəhər əsrlərlə Məhəmməd Füzulini öz oğlu kimi qoynunda uyutmuşdur. 1963-cü ildə Kərbəlanın 43 kilometrliyində yerləşən və çoxlarının Füzulinin orada doğulduğunu göstərdiyi Hillə şəhərində işləyərkən hər cümə günü Kərbəlaya gedər, İmam Hüseyn məscidinin iki addımlığında olan Füzuli qəbrini ziyarət edərdim. Şairin qəbri son dörd-beş ilə

qədər məscidin qərb qapısı ağzında, Azərbaycan istiqamətində, yönü Azərbaycana baxırdı. Hər dəfə Füzulini ziyarət etdikcə həm təəccüblənir, həm də sevinirdim. Ona görə təəccüblənirdim ki, minlərlə müsəlman fanatikinin bir dəfə ziyarət etməklə həyatından keçməyə hazır olduğu müsəlman Şərqinin bu müqəddəs guşəsində şairə əbədi sığınacaq vermişlər. Sevincimə səbəb isə o idi ki, hələ şairin sağlığında onun şəxsiyyətinə böyük hörmət, yaradıcılığına böyük məhəbbət bəsləmişlər.

Kərbəlanın abadlaşdırılması ilə əlaqədar olaraq şairin əbədi yuxuya getdiyi bu yerlər sökülmüşdür. Şairin nəşi Kərbəla Bələdiyyə idarəsinin göstərişilə İmam Hüseyn məscidində saxlanılır. Təəssüf ki, hər iki ölkəyə fəlakət, bədbəxtlik gətirən, lüzumsuz İran – İraq müharibəsi nə Kərbəlanın abadlaşdırılmasına, nə də şairə abidə qoymağa imkan verir.

İnsan arzuyla yaşayır. İraqla bağlı bir arzum da qalıb. Altı il İmam Hüseyn məscidinin yanında şairin qəbri önündə səcdə qıldığım kimi, bir gün də Kərbəla və ya Hillədə Füzulinin abidəsi önündə baş əymək, səcdə qılmaq qismətim olaydı.

Nəcəf. Əhalisi 75 mindən artıq olan bu şəhər də din mərkəzidir. Mənası «təpəlik», «yüksəklik»» deməkdir. Səhrada yerləşir. Yeni eranın 661-ci ilində İmam Əli Fərat çayı sahilində Kufə şəhərində öldürüləndən sonra onu orada basdırmaqdan çəkinmiş, çayın məcrasını dəyişərək, Əlinin qəbrini yox edəcəyindən qorxmuş, onu səhrada, yüksəklikdə basdırmışlar. Odur ki, şəhərin adının mənşəyi barədə ikinci bir fikir yoxdur.

Nəcəf Kərbəla şəhərinin 72 kilometrliyindədir. Şəhərdə şiələrin böyük qəbiristanlığı vardır. Ölkənin hər yerindən ölünü gətirib orada basdırmaq böyük şan-şöhrət hesab olunur. Yəqin bu, İmam Əlinin həmin şəhərdə dəfn edilməsi ilə bağlıdır. Əli məscidi kvadratşəkillidir. Hər divarı on üç metr olan bu məscidin döşəməsi və iki metr hündürlükdə divarı ağ,

sarı, palıdı rəngə çalan çox qiymətli İtaliya mərməri ilə örtülmüşdür. Əlinin qəbrinin günbəzi qiymətli ağac, fil sümüyü və daş-qaşla bəzədilmişdir. Məscidin qızıl günbəzinin hündürlüyü 36 metrdir. Onun çöldən diametri isə 16 metrdir. Bu məscid dini ocaqlar arasında ən varlısıdır. Məscidin seyflərində və anbarlarında külli miqdarda daş-qaş, inci, almaz, brilyant, qədim silahlar vardır. Burada saxlanılan 24 budaqdan ibarət buketə qiymət qoymaqda çətinlik çəkirlər. Bu buketin hər budağında doqquz ləl-cəvahirat, böyük yaqut və zümrüd vardır. Məscidin anbarında saxlanılan qılınc, xəncər, qalxan, cida, vaxtilə Əlinin məqbərəsində asılan çilçıraq, dünyada ən bahalı xalı – qədim İran xalısı vardır. Uzunluğu doxsan iki, eni iki metrə yaxın olan bu xalını iki milyon yarım dollara qiymətləndirirlər. Nəcəf şəhərində böyük örtülü bazar vardır. Bu bazarı məşhur edən onun müxtəlif gül yağları satılan cərgəsidir. Bazarın üstü və yanları örtülü olduğu və başqa cərgələrdə toz-torpaqdan adam darıxdığı halda, burada ətir iyi onu bihuş edir.

Nəcəfi başqa din mərkəzlərindən fərqləndirən cəhətlərdən biri də burada dini universitet və bir çox dini məktəblərin olmasıdır. Bu məktəbləri müxtəlif ölkələrdən gəlmiş adamlar tikdiriblər. Məktəblərin önündə onu hansı xalqın nümayəndələrinin tikdirdiyi yazılır. Burada «Bakı məktəbi» də vardır. İnqilabdan əvvəl İraqa köçmüş azərbaycanlıların tikdirdiyi gözəl qırmızı kərpicli binanın önündə böyük hərflərlə «Bakı məktəbi» yazılmışdır. Başqa binalar arasında öz səliqə-sahmanı ilə fərqlənən bu binanın naxçıvanlılar tərəfindən tikdirildiyini qeyd edənlər də vardır.*

İraqda adı çəkilən şəhərlərdən başqa, diqqəti cəlb edən şəhərlər də çoxdur. Hillə, Divaniyyə, Amara, Ramadi, Ərbil, Kut, Nasiriyyə, Səmava, Kufə, Süleymaniyyə xüsusilə gözəldir.

---

* O.Gerasimov. Sincar dağlarından Rub əl-Xali səhrasınadək (rus dilində), Moskva, 1974, s. 155

FÜZULİNİN NƏVƏ-NƏTİCƏLƏRİ ARASINDA

Üç aydan çox idi ki, Bağdadda işləyirdik. Bir gün güzarımız Divaniyyə şəhərinə düşdü. Səhər tezdən Bağdadın cənub istiqamətilə gedəndə günəş sol tərəfdə idi. Bağdadın 50 km-də olan Mahmudiyyə şəhərinə çatanda isə bir cüt qoşa günəşin də sağdan doğduğunu gördük. Çox təəccübləndik. Gənc sürücü bizi başa saldı ki, 50 km-dən artıq məsafədən gözümüzü qamaşdıran qoşa günəş Kərbəlada İmam Hüseynlə Həzrət Abbas məscidlərinin günbəzləridir. Parıltıya səbəb isə günbəzlərin üzərinə çəkilmiş 4–5 millimetr qalınlığında qızıl təbəqədir.

Qərib ölkədə adam hər addımbaşı gözləmədiyi hadisələrlə qarşılaşır, gah heyrətlənir, gah nəyəsə təəccüb edir.

O gün Divaniyyədə keçirdiyim hisləri sözlə ifadə etməkdə çətinlik çəkirəm. Bir onu deyə bilərəm ki, gənclikdə keçirilən sevinc də, qəm, qüssə, kədər də hədsiz güclü olurmuş...

Vilayət torpaq şöbəsinin müdiri Əli Səid Azərbaycandan olduğumu biləndə sevindi, üzü gülməyə başladı. Fərraşı (buyruqçunu) göndərib on yaşlı oğlu Əhsəni çağırtdırdı. Onun oğlu həm azərbaycanca, həm ərəbcə, həm də bir az ingiliscə danışırdı.

Əli dedi:

– Biz azəriyix, yəni əslimiz azəridi. – Sonra isə üzünü oğluna tutub:

– Oğlum, Əhsən, sələş özüydən. – (Onunla danış.) – Qəzənfər əmi də azəridi, - dedi.

O gün Əli Səiddən İraqda yaşayan azərbaycanlılar haqqında çox şey eşitdim. Öyrəndim ki, inqilabdan sonra Bağdad radiosunda kərküklülər öz dillərində hər gün üç saatlıq verilişlər verirlər. Əli kərküklülərin radio dalğasının yerini və vaxtını dedi.

Ondan sonra hər gün axşamüstü kərküklülərin verilişlərinə qulaq asır, maqnitofona yazırdım. Ümumiyyətlə, İraqda eşidib-gördüklərimi ya dəftərə, ya da lentə köçürərdim.

Radiodan eşitdiyim ilk Kərkük mahnısı indi də qulaqlarımda səslənir.

Baba, bu gün yüz incidir,
Yüz sədəf, yüz incidir.
Əsli sərraf olmayan
Zənn edər hər daş incidir.
Öz qədrini bilməyən
Yolda yoldaşın incidir,
Dağı-daşı incidir,
Mən yarı bir incitməm.
Yar məni yüz incidir.

Baba, bu gün gözə yar,
Sürmə çəkmiş gözə yar.
Ceyran quzusu təkin
Yayılaydığ düzə yar.
Oturaydıq bir məclisdə diz-dizə,
Göz tikəydik gözə yar.
Küsmüşəm, incimişəm,
Daha gəlməm sizə yar.
Bir toy olsun, bir seyran,
Onda gəlim sizə yar.

Həmin veriliş qəlbimi ehtizaza gətirən bir bayatı ilə bitdi:

Yad əlində;
Qalmışıq yad əlində,
Bir ölkə viran olsun,
Qalmasın yad əlində.

Bu, 1963-cü ilin əvvəlində olmuşdu.

Tezliklə kərküklülərin Bağdadın ən gözəl guşələrindən biri Eyvaziyyədə «Qardaşlıq» nadisinə, oradan da ölkənin şima-

lına – azərbaycanlıların yaşadığı Kərkük vilayətinə ayaq açdım və 1966-cı ilə qədər, sonralar isə 1972 – 75-ci illər arası İraqda olarkən Kərkük dialekti və folkloruna dair material topladım.

Füzuli yaradıcılığına qol-qanad verən, onu azərbaycanca ölməz əsərlər yazmağa sövq edən, ona söz sənətinin şəffaf çeşməsindən su içirən, Füzulini dahi edən bu elatın folklorunun zənginliyi məni heyrətə gətirdi. Taleyimi

«Bilmirəm haralıyam,
Torpağım, daşım qərib»

- deyən bu elatın taleyi ilə ömürlük bağladım. Tədqiqatlar apardım. Bəzi kitabların təsiri ilə az qalmışdım ki, həqiqətdən yan keçim. Xoşbəxtlikdən başqalarının səhvi bəzən həqiqəti daha tez üzə çıxarmağa kömək edir. O.Gerasimovun «Sincar dağlarından Rub əl-Xali səhrasınadək» kitabında (səh. 256) yanlışlıqla dediyi: «Kərkük bir də ona görə məşhurdur ki, burada böyük bir türkmən koloniyası yaşayır. Onlar türkdilli xalqların yaşadığı yerlərdən min kilometrlərlə uzaq olan bu yerlərdə necə məskən salmışlar?» - sözləri elə bil məni yuxudan oyatdı. Xəritəyə nəzər saldım. Böyük ingilis yazıçısı C.Oldricin «ikiyə bölünmüş bir ürək» adlandırdığı Sovet Azərbaycanı ilə Cənubi Azərbaycanı «görkəmini yaram sulana-sulana seyr etdiyim», sərhəd adlandırılan Araz çayı böldüyü kimi, Cənubi Azərbaycanla İraqda azərbaycanlıların qədimdən yaşamış olduqları və indi də yaşadıqları ərazini beləcə bir sərhəd bölür.

Başda Böyük Sovet Ensiklopediyası, Sovet Ensiklopediya Lüğəti olmaqla, bütün mötəbər sovet və xarici mənbələrin İraqda azərbaycanlıların yaşadığını göstərdiyi halda, bəzi kitablarda gedən yanlışlıqlar təəccüb və təəssüf doğurur. Odur ki, mətbuatda gedən yazılarımıza yeri gəldikcə müraciət edəcəyik.

İraqda azərbaycanlılar ölkənin şimalında, əsasən, Kərkük vilayətində: Kərkük şəhərində, Tuz Xurmatu (qəza), Altun Körpü (nahiyə), Təzə Xurmatu (nahiyə), Daquq (nahiyə), Badava, Bəşir, Böyük hasar, Biləvə, Qarabulaq, Qızılyar, İftixar, Yayçı, Yarvəli, Yengicə, Köküz, Gümbətlər, Leylan, Ömər Məndən, Tərcil, Tisin, Toxmaxlı, Türgələn, Çardaxlı kəndlərində və eləcə də «Bayat göyləri» sahəsi adlanan Kifri (qəza), Qərətəppə (nahiyə), Abud, Birəvçulu, Bostamlı, Qalxanlu, Qaranaz, Əlbuhəsən, Əlbusabah, Əmirli, Əski Kifri, Zəngili, Yeşiltəppə, Kəhriz, Kinkirban, Kötəburun, Laqum, Məftun, Para-para, Pirvaz, Pirəhməd, Səyyad, Süleyman bək, Tel Mənzil, Uçtəppə, Xasadarlı, Hasarlı, Hələvə, Cabarlı, Şirvanə kimi şəhər, qəsəbə, rayon və kəndlərdə məskən salmışlar. Bundan başqa onlar Diyalə vilayətinin Xanaqin (qəza), Şahraban (qəza), Dəlli Abbas (nahiyə), Məndəli (nahiyə), Qarağan, Qızlarbat, Qızılça, Mənzəriyyə, Susuz bulaq kəndlərində, Ərbil vilayətinin mərkəzi Ərbil şəhərində, Mosul vilayətinin Tiləfər qəzasında, Rəşidiyyə, Sələmə, Ağqoyunlu, Qaraqoyunlu və s. kəndlərində və Mosul şəhərinin Nəbi Yunus məhəlləsində məskən salmışlar. Ölkənin paytaxtı Bağdad şəhərində də çox yaşayırlar. Onların sayı haqqında dəqiq məlumat vermək çətindir.

60-cı illərdə rəsmi statistika idarələri ölkədə 140 min azərbaycanlı olduğunu göstərirdi. Bu, həqiqətdən çox uzaqdır. «İraq keçmişdə və indi» kitabının müəllifi B.Dantsiq yazır: «Əhalinin ümumi hesaba alınması düzgün məlumat vermir. Bu, onunla izah olunur ki, rəsmi statistika idarələri hakim millətin sayını artıq göstərməyə cəhd edirlər».

Xalq şairi R.Rza da İraqda olarkən bu həqiqətin şahidi olmuşdur. R.Rza iraqlı müsahibi ilə söhbətindən danışarkən yazır: «Onun süni bir laqeydliklə dediyi 70 – 80 min də (Kərkük xalqının sayı - Q.P.) həqiqətdən uzaq olmaqla bərabər, bu rəqəmin azaldılmasında müəyyən məqsəd olduğunu aydın göstərirdi».

Məşhur türkoloq Karl Menqes «Türk dilləri və türkdilli xalqların yayılışı» adlı sanballı əsərində hələ XX əsrin əvvəllərində İraqda yüz mindən çox azərbaycanlının yaşadığını göstərmişdir. Son məlumatlara görə, onların sayı yarım milyondan artıqdır. («Qardaşlıq» dərgisi, Bağdad, 1970, № 6; Ə.Bəndəroğlu. «İraq türkmanları» kitabı (ərəb dilində), Bağdad, 1973)

Kərküklülər özlərini də, bizi də türkman adlandırırlar. Əlbəttə, vaxtilə geniş mənada işlənən «türkman» etnonimi indiki mənadan fərqlənir. Təkcə onu göstərmək kifayətdir ki, son vaxtlara qədər biz gah tatar, gah türkman, gah da türk adlandırılmış, dilimiz isə «tatar dili», «türk dili» və ya «türki» adı ilə tanınmışdı. Məhz buna görədir ki, professor, Ə.Dəmirçizadə Azərbaycan ədəbi dili tarixinə dair kitabında yazır: «O dövrlərdə «türkman» etnonimi indiki mənadan bir qədər fərqli işlənmiş, hətta indi Bağdad ətrafındakı azərilərin türkman adlanmaları da bu sözün əvvəlki mənası ilə əlaqədardır».

Başqa məxəzlərə nəzər saldıqda professor Ə.Dəmirçizadənin bu fikrinin tamamilə doğru olduğu aşkara çıxır. Şah İsmayıl Xətai şeirlərinin birində yazır:

Getdikcə tükənir ərəbin kuhi-məskəni,
Bağdad içrə hər neçə kim türkman qonar.

İngilis tarixçisi Stefan Lonqriq «Müasir İraqın dörd əsri» adlı kitabında göstərir ki, Şah İsmayıl Şirvanı tutduqdan sonra türkmanları birdəfəlik Naxçıvan yaxınlığındakı vuruşda darmadağın etdi.

Şah İsmayılın da, Stefan Lonqriqin də «türkman» etnonimi altında azərbaycanlıları nəzərdə tutduğu şübhə doğurmur. Kərküklülərin İraqda məskən salması barədə müxtəlif tarixi faktlara təsadüf edirik.

Türk alimi, professor C.Buluç 1966-cı il Türkiyədə türkoloqların yığıncağında kərküklü alim Əta Tərzibaşının üçcild-

lik «Kərkük xoyrat və maniləri» kitabı əsasında Kərkük dialektinə dair məruzəsində bu məsələyə toxunur: «Türklərin ərəb aləmi və bu arada İraqla olan ilişkiləri geriyə doğru olduqca əski zamanlara qədər gedir. Daha hicrətin ilk yüz illərində Azərbaycan türkləri Təbriz Sultaniyyədən keçib Kərkük yörəsinə yerləşirlər».

Kərküklü tarixçi Şakir Sabir isə İraqda türkdilli xalqın məskən salmasının VII əsrdə başlandığını və 735-ci ildə Bağdadda artıq türk məhəllələrinin yarandığını göstərir.

XII – XIII əsrlərdə yaşamış ərəb tarixçisi İbn-əl-Əsirin və sonralar ingilis tarixçisi Stefan Lonqriqin göstərdiklərinə görə 1045-ci ildə bəzi Azərbaycan türkləri Abu Mansur Göktaş və Abu-ibn-Dehqanın rəhbərliyi ilə İraqa köçərək Tiləfər, Mosul və ona bitişik rayonlarda məskən salmışlar. Akademik Həmid Araslı da «Böyük Azərbaycan şairi Füzuli» əsərində bu məsələnin üzərində dayanır. O yazır: «Abbasi xəlifələri hər hansı bir ərəb sülaləsinin, yaxud ərəb qəbiləsinin qaldıra biləcəyi üsyandan mühafizə olunmaq məqsədilə Azərbaycanın müxtəlif yerlərindən, xüsusən şimal əyalətlərindən bir çox qəbilələri bura köçürtdülər».

Bundan sonra İraqla olan əlaqə daha da genişlənir. 1136-cı ildə Eldəniz Azərbaycana hakim təyin olunur. Eldəniz tərəfindən təşkil edilən dövlət onun oğulları Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan dövründə daha da qüvvətlənir. (Kərkükdə indi «Qızıl Arslan» mehmanxanası vardır - Q.P.) İraq və İran (İsfahan şəhərinə qədər) Eldənizlər tərəfindən itaət altına alınır. Eldəniz hələ Azərbaycan hakimi olduğu halda, bütün İraq-Səlcuq dövlətini ələ keçirir. Eldənizlər 1160-cı ildə İraqın sultan taxtına hətta öz adamlarını əyləşdirmişdilər. Axırıncı Abbasi xəlifəsinin 1258-ci ildə Hülakü xan tərəfindən edam edilməsindən sonra isə Bağdad və onun ətrafındakı şəhər və kəndlər Azərbaycanın əyalətinə çevrilərək onun tabeliyinə keçdi. Bu vaxtdan Bağdad ətrafında yaşayan azər-

baycanlılarla başqa yerlərdə yaşayan azərbaycanlılar arasında əlaqə daha da genişlənir. Stefan Lonqriq, Həmid Araslı və başqaları Bağdadla Azərbaycan arasındakı münasibətlərin XIV əsrdə Cəlalilər, XV əsrdə Qaraqoyunlular və Ağqoyunlular dövründə çox qüvvətli olduğunu qeyd edirlər. Uzun Həsənin hakimiyyəti dövründə Azərbaycanın Kür çayına qədər bütün torpaqları, Qarabağ mahalı, Ərəb İraqı, İran İraqı, Fars və Xorasan sərhədlərinə qədər torpaqlar ona tabe idi. Uzun Həsənin vaxtında ölkənin paytaxtı yayda Təbriz, qışda Bağdad olmuşdur.

Tədqiqatçılar göstərirlər ki, Azərbaycanın İraqla, xüsusən vaxtilə Teymurləngin istilaları zamanı Qarabağ və Ərəşdən buraya köçən azərbaycanlılarla əlaqələri Səfəvilər dövründə olduqca canlanmışdı. Şah İsmayıl Səfəvi dövründə İraqla Azərbaycan bir dövlət bayrağı altında birləşirdi. (Bəlkə elə buna görədir ki, XIX əsrdə Nizaminin «Yeddi gözəl» və «İqbalnamə» əsərləri Tehranda nəşr edilərkən onların üzərində Nizaminin İraq şairi olduğu göstərilmişdir). Qeyd etmək lazımdır ki, Şah İsmayılın vahid Azərbaycan yaratmaq məqsədilə 1508-ci ildə Bağdadı tutması osmanlı sultanlığını çox narahat edirdi. Çünki bu, Məkkə və Mədinə şəhərlərini əlində möhkəm saxlayan türk sultanlığına dini nöqteyi-nəzərdən böyük əhəmiyyətə malik Kərbəla və Nəcəf şəhərlərini də tutaraq müəyyən məqsədlər güdən xəlifəlik şüarını həyata keçirməyə imkan vermirdi. İkinci bir tərəfdən də türk sultanlığı Səfəvi dövlətinin qüvvətlənməsindən ehtiyat edirdi. Buna görə hər vasitə ilə Səfəvilərin möhkəmlənməsinə mane olmağa çalışırdı. Belə vasitələrdən biri də zor işlətmək siyasəti idi. Türk sultanlığı böyük qüvvə toplayıb Səfəvilərə qarşı müharibəyə girişir və tarixdə məşhur olan Çaldıran vuruşmasından müvəffəqiyyətlə çıxır. Məğlubiyyət Azərbaycan xalqını böyük itkilər vermək məcburiyyətində qoyur. Həmin itkilərdən biri də İraqın əldən getməsi idi. Bu hadisəni Stefan Lonqriq belə

qiymətləndirir: «Dəhşətli Çaldıran vuruşmasından sonra türklər Bağdadı tutdular. Bağdad xan itirib, paşa qazandı».

Bundan sonra Azərbaycan hakimləri hər vasitə ilə Bağdadı* geri almağa çalışırlar. Bu baxımdan kərküklü tarixçi Şakir Sabir və həmyerlimiz Əzizağa Məmmədovun göstərdikləri faktlar diqqəti cəlb edir. Ə.Məmmədov göstərir ki, Şahzadə Bəyazid Türkiyədə atası Sultan Süleyman və qardaşı II Səlimə qarşı çıxır, müharibədə məğlub olur və Səfəvilərə pənah gətirir. Sultan Süleyman Səfəvilərə böyük miqdarda hədiyyələr vəd edərək edam məqsədilə oğlunu geri istəyir. Şah İsmayılın oğlu Şah Təhmasib bu təklifi qəbul edir. Ancaq müəyyən şərtlərlə. Həmin şərtlərdən biri də Bağdadın yenidən Azərbaycana ilhaq edilməsi idi. Lakin Sultan Süleyman bu təkliflə razılaşmır. Şakir Sabirin qeyd etdiyinə görə Şah Təhmasib heç olmazsa Kərbəla və Nəcəf şəhərlərinin Azərbaycana ilhaq edilməsi təklifini irəli sürür. Ancaq Sultan Süleyman bu təklifi də qəbul etmir. Beləliklə, İraqla Azərbaycan arasında əlaqə pozulur. Doğrudur, Şah Abbasın hakimiyyəti zamanı külək yenidən istiqamətini dəyişir, İraq yenidən Azərbaycana tabe edilir, lakin bu çox sürmür. Bağdad yenidən osmanlıların əlinə keçir. Bundan sonra Azərbaycanın İraqla əlaqəsi kəsilmək dərəcəsinə qədər gəlib çatır. Məhz buna görə də Azərbaycan hakimləri İraqda məskən salmış azərbaycanlı qəbilələri geri qaytarmağa təşəbbüs göstərirlər. Mirzə Camal Cavanşir «Qarabağ tarixi» kitabında yazır. «1747-ci ildə Nadir şah öldürüldükdən sonra Pənah xan yanında olan adamlarla birlikdə Qarabağ ellərini qarşılamaq üçün İraq və Azərbaycan sərhədlərinə qədər getdi, onların bu səfəri bir nəticə verməsi». «Qarabağ tarixi» kitabında diqqəti cəlb edən başqa bir fakt da vardır. Mirzə Camal yazır ki, 1797-ci ildə Qacar Şuşa qalasında öldürüldükdən sonra Sadıq xan Şəq-

* Bağdad dedikdə bütün İraq nəzərdə tutulur. Çünki 1862-ci ilə qədər İraq yalnız Bağdad vilayətindən ibarət idi.

qaqi Azərbaycanı başsız görüb, Tehranı almaq və girov aparılmış ailələrini geri qaytarmaq əzmilə İraqa tərəf hərəkət etdi. Lakin Fətəli şah Sadıq xanın qarşısına çıxdı. Onu məğlub edib uçurtdu (C.Cavanşir. Qarabağ tarixi. Bakı, 1959, s.35). Qarabağ elləri İraqdan qayıda bilmədi. Ara kəsildi. Həsrət çəkən, yol gözləyən, kəsilən yollardan şikayətlənən xalq ürək sızıltısını, dərd-ələmini izhar etdiyi:

Əslim qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Kəsilib gəlib-gedən
Demə yollar bağlıdı.

- bayatısını, bəlkə elə o zaman yaratmışdır.

Əta Tərzibaşı «Kərkük havaları» kitabında «Yerli havalarımız arasında «Qarabağı» deyilən bir çeşid uzun havanın Azərbaycan mənşəli olduğunu və sırf Azərbaycan ağzilə söyləndiyini bilməkdəyiz», - deyə söz açdığı «Qarabağ şikəstəsi» Kərkükdə elə o vaxtlar məşhur olmamışmı?

Ə.Bədəlbəylinin «Musiqi lüğəti» kitabında söz açdığı «Rast» muğamının tərkibinə daxil edilən «Kərküki» havası Kərkükdən Qarabağa gediş-gəliş gur olan vaxt gətirilməyibmi? Kərkükdə Qarabağlı məhəlləsi o vaxt yaranmayıbmı? Dastanlarımız, nağıllarımız o vaxt onların dilinin əzbəri olmayıbmı? Belə olmasaydı, dastanlarımızın qəhrəmanlarına haradan söz qoşardılar?..

Mən dayanım;
Aç hüsnün, mən dayanım.
Kərəm eşqinnən yandı,
Qorxuram mən də yanım.

Əlaqələr geniş olmasaydı, Kərkük və Azərbaycan bayatıları bir-birini adamı heyrətə gətirəcək bir tərzdə tamamlaya bilərdimi?

Gənc Əlidi;
Bir qolu qönçəlidi.
Harda bir qərib görsən,
Elə bil gəncəlidi.

Hər aylar;
Keçir günlər, hər aylar.
Qul qardaşım Bağdaddan
Gəncə deyib haraylar.

Folklorşünas alim M.Həkimovun «Folklordan çöl materialları toplusu» kitabında Qazax rayonunun Kəmərli kəndində yaşayan 110 yaşlı Bəhmən Mustafa oğlunun uşaqlıqda hansısa bir ağsaqqaldan və ya ağbirçək anadan eşitdiyi:

Aşiqəm ta İraqa,
Xoş gəldin ta İraqa.
Dost dostun qədrin bilməz,
Düşməsə ta iraqa.

Əzizim Məndəlidən,
Mən Məcnun, Məndəlidən.
Ay ellər, Leylimə bax,
Küsübdü mən dəlidən.

- bayatılarına rast gəlirik.

Nə yaxşı ki, indi İraqda hafizələrdən silinmiş bu Kərkük bayatıları babadan ataya, atadan oğula, oğuldan nəvəyə, nəvədən nəticəyə, nəsildən-nəslə keçib Bəhmən babanın yaddaşında qalmışdır. Qazax rayonunda üzə çıxarılan bu bayatılar vaxtilə əlaqələrin möhkəm olduğundan söz açmırmı?

İraqda azərbaycanlıların yaşadığı Məndəli qəsəbəsinin adıyla bağlı yuxarıdakı bayatı və indi Kərkük dolaylarında məşhur olan

Məndəlidən;
Gül gələr Məndəlidən.
Bu vəfasız yara bax,
Küsübdü mən dəlidən.

- bayatıları dediklərimizi təsdiqləmirmi?..

Onlarda qadın toylarının bəzəyi «Arzu-Qənbər» dastanının izinə «Əsli və Kərəm»də düşməyimiz dediklərimizin məntiqi nəticəsi deyilmi?..

Xurşud öz Mahının dizinə yatdı,
Qənbər Arzusunun tozuna batdı,
Dünyada Şahsənəm murada çatdı,
Aşıq Qərib kimi gülən olmadı.

Əks təqdirdə necə olardı ki, «Arzu-Qənbər» dastanında Azərbaycandan, onun şəhərlərindən söhbət getsin:

Arzum əndi bulağa,
Səsi gəldi qulağa.
Arzuya peşkəş olsun
Şirvan, Təbriz, Marağa.

Araşdırılası məsələlər çoxdur. Əta Tərzibaşı kərküklü müğənni Sadıq Bəndənin «Çırpınırdın, Qara dəniz» adlı Azərbaycan nəğməsini çox gözəl oxuduğunu «Kərkük xoyratları və maniləri» kitabında qeyd edir. Bu nəğmə Kərkükə hansı yollarla, necə gedib çıxmışdır?.. Bu da əlaqələrin nəticəsi kimi qiymətləndirilməlidir.

Vaxtilə İraqda olmuş professor Rüstəm Əliyev də təbii ki, orada yaşayan azərbaycanlıların taleyilə maraqlanmış, onlarla görüşüb söhbət etmişdir. O, mağaza sahibi Xəlillə söhbətini xatırlayır, dediklərini olduğu kimi qələmə alır: «Ulu babam bura üç yüz il əvvəl gəlmişdir. O, Gəncəni tərk edərkən özü ilə əmlakından başqa buraya qızılgül kolu və bir balaca kisədə vətən torpağı gətirmişdi. İndi qızılgül kolları müqəddəs sayılır və burada yaşayan bütün gəncəlilərin həyətini bəzəyir».

Bu söhbətdən sonra kərküklülərin sevdiyi:

Bağdad yolu Gəncədi;
Gülü pəncə-pəncədi.
Mən yarımı tanıram,
Beli mildən incədi.

- bayatısının haradan yaranması da məlum olur.

Bakıda «Şirvanşahlar sarayı», Kifri yaxınlığında «Şirvanşah» qalası vardır. Qalanın yanındakı kənd Şirvanə adlanır. «Şirvanşah» qalası İraqda yaşayan azərbaycanlıların tarixi abidəsi kimi 1961-ci ildə Bağdadda çap olunan İraq respublikasının xəritəsində öz əksini tapmışdır.

Sovet Azərbaycanı ərazisindəki Ağdam, Ağdaş, Ağsu, Bilava, Boyat, Qarabulaq, Qaraqoyunlu, Qaradağ, Qarabağlı, Əmirli, Yəyçi, Yengicə, Mandılı, Mərdinli, Üçtəpə, Xasa, Xəsədərli, Çardaqlı və s. rayon və kənd adlarına eynilə İraqda azərbaycanlılar yaşayan yerlərdə də təsadüf edilir.

Bütün bunlar qəti nəticəyə gəlməyə, Əta Tərzibaşının təbirilə desək, «əkiz qardaşlar» olduğumuz, Nəsiminin, Füzulinin nəvə-nəticələri olduğumuz haqqında hökm verməyə əsas verir. Bunlar isbatına ehtiyac duyulmayan bir həqiqət olsa da, tarixin amansızlığı insanı heyrətə gətirir, zamanın vəfasızlığı adamı sarsıdır. Məcbur olursan ki, gün kimi aydın həqiqətləri bir daha təsdiqə, isbata çalışasan. İstər-istəməz fikirləşirsən ki, yoxsa bir vaxt da Arazın o tayında yaşayan qardaş-bacılarımızın azərbaycanca danışdıqlarını, Şəhriyarın hansı bulaqdan su içib «Heydərbabaya salam» adlı şah əsərini kimin üçün yazıb-yaratdığını təsdiqə çalışacağıq?..

Qəlbimə nisgil gətirən bu fikri başımdan qovaraq bir daha tarixə, elmi mənbələrə müraciət edirəm. İslam Ensiklopediyası başda olmaqla türk mənbələri və türk alimləri İraqda yaşayan və türkman adlandırılan bu elatın azərbaycanca danışdığını göstərirlər: «İraq türkmanları, yəni oğuzcanın azəri türkcəsini qonuşan türklər...», - deyə Fuad Köprülü İslam Ensiklopediyasında qeyd edir.

Türk Dil Qurumu Dərləmə başqanı Əmir Asim kərküklü Molla Saburin 1951-ci ildə Bağdadda çap olunmuş «Kərkük müntəxab xoyratları» kitabını (I hissə) oxuyaraq, həmin kitabın 1953-cü ildə çap olunan II hissəsinə yazdığı müqəddimədə göstərir: «Böyük bir diqqət və uzun bir səbir və əmək

məhsulu olan kitabını mən və arkadaşlarım zövq və istifadə ilə oxuduq. Azəri ləhcəsində gözəl örnəkləri olan bu xalq şeirlərində bizim dərləmələrə sıq-sıqaya bağlı kəlmələr, təbirlər vardır».

Türkiyə Etnoqrafiya muzeyinin direktoru Həmid Zəbir Qoşaay Kərkük xoyratları ilə Azərbaycan bayatıları arasında elə bir fərq görməyərək yazır: «Azərbaycan xalq ədəbiyyatından alınan bayatılar məhtuvəsi və şəkli etibarilə Kərkük xoyratlarını andırır».

Türkiyənin Ərzincan vilayətində müəllim işləyən Vahabi Aşqun:

Açuğ qoy pəncərəni,
Gözüm görsün gələni.
Necə qəbrə qoyallar,
Yar dərdindən öləni.

Axşam arada qaldı,
Xəncər yarada qaldı.
Mənim bedasıl yarım,
Bilməm harada qaldı.

- bayatılarını göstərir və: «Bu deyişlər azəri ləhcəsinin özlügünü daşımaqdadır», - deyir. Vahabi Aşqun Molla Sabirin II kitabını oxuyaraq III kitabın müqəddiməsində yazır: «İlk kitabda olduğu kimi, bu kitabdakılar da azəri ləhcəsindədir».

Mir oğlu Cəmil də Molla Sabirin kitabını oxuyaraq yazmışdır: «Möhtərəm Molla Sabir bəyin indiyə qədərki kitab halında nəşrə müvəffəq olduğu «Kərkük müntəxab xoyratları»ndan və kərküklü iki şairin «Müşare» («Deyişmə») adı altında toplanan kitabından görülür ki, dil... qərb türkcəsinə ən yaxın olan azəri ləhcəsindən həmən-həmən fərqsizdir və bu etibarla baxılarsa, Türkiyədə anlaşılması və zövqünə varılması pək güc degildir».

Kərküklü alim Əta Tərzibaşı da bu məsələyə öz münasibətini bildirmişdir: «Kərkük şairlərinin bir qismi osmanlı türkcəsini, başqa bir qismi də – ən çox xalq şairləri – azəri türkman ləhcəsini qullanmış və bu şivələr ədəbiyyatımızda bir-birinə qarışmışdır».

Hörmətli Əta Tərzibaşının məqbul sayılan bu fikrinə bir qədər etiraz etmək də olar.

İçimdə sönməz yanar,
Şiddətlə şövq Bakıya;
Yoldaşlarım da bilir
Məndə var zövq Bakıya.
Bir yoldaş daim sorar:
Səfərin yox Bakıya?!.

Ə.Bəndəroğlunun 1961-ci ildə yazdığı «Bakıya həsrət» şeirindən götürdüyümüz bu parçadan və Əbdül Xaliq Bayatlının «Böyük eşq» və «Ay havar» şeirlərindən göründüyü kimi, onların hər ikisi müasir şairdir və şeirlərində «osmanlılıqdan» əsər-əlamət yoxdur.

Həmin şeirlərdə Azərbaycan oxucusuna tanış olmayan bir dənə də söz yoxdur. Bu şeirlərdəki duyğu, düşüncə, kəlmə və anlayışlar da ruhumuza doğma, qəlbimizə aşinadır. Təsadüfi deyil ki, Əbdül Xaliqin həmin şeirlərini «Ulduz» jurnalı və «Ədəbiyyat və incəsənət» qəzetində dərc etdirəndə neçə-neçə məktub aldıq. Hamı şairin ünvanını soruşur, gözəl şeirlər üçün ona minnətdarlığını bildirmək istəyirdi.

BÖYÜK EŞQ

Eşqlər var
İnsanı dənizə bağlar,
insanı
dağlar.

Eşqlər var,
Yana-yana
insanı
insana bağlar.

AY HAVAR

Mövsümlər dəyişikdir,
Kimi qış, kimi bahar.
İnsanlar başqa-başqa:
Kimi düşmən, kimi yar.
Niyyətlər ayrı-ayrı:
Kimi şərəf, kimi ar.
Ürəklər çeşid-çeşid:
Kimi geniş, kimi dar.
Qadınlar şəkil-şəkil:

Eşqlər var,
Zəhərdən acı,
Amma baş tacı.
Eşqlər
çeşid-çeşid;

Eşqlərin
Kimisi böyük,
Kimisi kiçik;
Amma Kərkükün eşqi
Həpsindən böyük.

Kimi atəş, kimi qar.
Meyvələr rəngli-rəngli
Kimi armud, kimi nar.
Heyvanlar biçim-biçim
Kimi quzu, kimi mar.
Bitkilər də rəngarəng:
Kimi çiçək, kimi xar.
Dərdlər də əskik olmaz
Biri yoxsa, biri var.
Bu dünya çox əcaib,
Mən çaş qaldım,
Ay havar!

Göründüyü kimi, insanın qəlbini təlatümə gətirən bu təsirli poetik misralar xalis Azərbaycan dilindədir.

Bu baxımdan mərhum dilçi alimimiz Hadi Mirzəzadənin sözləri yerinə düşür. Professor H.Mirzəzadə «İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr» adlı məqaləsində çox doğru olaraq yazır: «Məlum olduğu üzrə XVI əsrdə İraqın osmanlı hakimiyyəti təsiri altına düşməsindən sonra az da olsa yazı dilində türk dili ünsürləri özünü göstərmişdir. Lakin bu cəhətdən xalq dilinə olan nüfuzu bir o qədər də qüvvətli olmamışdır».

Şair və tədqiqatçı Ə.Bəndəroğlunun da gəldiyi nəticə maraq doğurur: «Bəziləri belə güman edirlər ki, türkmanlar Osmanlı dövlətinin qanuni varisləri və davamçılarıdırlar. Bu fikir doğru deyildir. Çünki osmanlıların İraqda qalmış nəsilləri türkmanları təmsil etmirlər. Osmanlıların dili türkman xalq kütlələrinin çətin başa düşdüyü Osmanlı dilidir. İraq türkmanlarının ləhcəsi Azərbaycan dilindən fərqlənmir, lakin İraq türkmanlarının ləhcəsində bəzi xırda fərqlər nəzərə çarpır. Onlar çox cüzidir və qeyri-adi bir şey kimi sayılmamalıdır. Belə xırda fərqləri biz elə İraqda ərəb dilində də görürük. Məsələn, Bağdad dialekti Mosul dialektindən, Mosul dialekti də

Bəsrə dialektindən fərqlənir». Rüstəm Əliyev «Vətəndən uzaqlarda» məqaləsində iraqlı müsahibi ilə söhbətində bu məsələyə də toxunur. Ondan İraqda yaşayan azərbaycanlılar haqqında danışmasını xahiş etdim.

– Nə üçün siz özünüzü gah türk, gah türkman, gah da azəri türkləri adlandırırsınız? Türk mənşəli xalqlar çoxdur: türklər, özbəklər, türkmənlər, qazaxlar, biz azərbaycanlılar... Bəs siz özünüzü hansı xalqa aid edirsiniz?

– Füzuli və Nəsiminin mənsub olduğu xalqa.

Bu yerdə yenə köməyimizə Kərkük folklorşünaslarının ağsaqqalı Əta Tərzibaşı gəlir. O, Ə.Bəndəroğlunun sözlərini daha da dəqiqləşdirir: «Bizim türkman ləhcəsi azəri ləhcəsinə türk ləhcəsindən daha yaxın və bəlkə, əkiz qardaşlar olmaqla bərabər, bu ləhcələr uzun bir tarix boyunca çeşidli səbəblərin təsiri ilə bir-birindən xəbərsiz gəlişdikləri halda aralarında görkəmli fərqlər bilinməmişdir» («Qardaşlıq» dərgisi, 1962, №4).

İfadəyə fikir verin: *Əkiz qardaşlar. Bir ananın övladları! Nəsimiyə də, Füzuliyə də eyni dildə layla çalan ananın övladları.*

Sinan Səid Bağdadda nəşrinə müvəffəq olduğu «Ərəb ölkələri haqqında Azərbaycan nəğmələri» kitabında Əta Tərzibaşının sözlərini təsdiq edir: «İraqda yaşayan türkmanlarla azərbaycanlılar qanbirdirlər». Yeri gəlmişkən demək lazımdır ki, Azərbaycan dili kimi, onun Kərkük dialekti də Orta Asiya türkmənlərinin dilindən fərqlənir. Kərkük dialekti və folkloru uzərində apardığımız tədqiqatlar da deyilənləri təsdiqləyir.

Xalq şairi Rəsul Rza ilə çap etdirdiyimiz «Kərkük bayatıları»ndan (1968) başlamış «Arzu-Qənbər» dastanı (1971), «Kərkük mahnıları» (1973), «Kərkük atalar sözləri» (1978), «Kərkük tapmacaları» (1984), «İraq - Kərkük bayatıları» (1984) kitablarıyla tanış olan oxucular da görürlər ki, nə dilimiz, nə də adət-ənənələrimiz arasında elə bir fərq yoxdur. Təsadüfi deyildir ki, mülahizələrində, adətən, çox ehtiyatlı olan mərhum professor Məmmədhüseyn Təhmasib: «Kərküklülər-

lə biz azərbaycanlılar arasında ya heç bir fərq yoxdur, yaxud da çox çüzidir», - deməkdən çəkinməmişdir. İraqda olmuş akademik Ə.Əlizadə də onların azərbaycanca danışdıqlarının şahidi olmuşdur: «Türkman adlandırılan əhalinin danışığı Azərbaycan dilindən o qədər də fərqlənmir».

İlk baxışda adi görünən bir dil faktını da qeyd etmək yerinə düşərdi.

Əkrəm Cəfər Azərbaycan dilini başqa türk dillərindən fərqləndirən xüsusiyyətlərdən danışarkən göstərir ki, «banlamaq» sözü bu dildən başqa heç bir türk dilində işlənmir. Maraqlıdır ki, həmin sözə Kərkük dialektində də təsadüf olunur.

Başqa bir misal. Dilçilərdən P.Melioranski, M.Şirəliyev, N.Baskakov, A.Şerbak, H.Mirzəzadə, Ə.Nəcib, Ə.Orucov, Y.Şirvani təxminən XIII əsrin sonu, XIV əsrin əvvəllərində hazırlanmış «İbn-Mühənna lüğəti»ndən danışarkən – əsər qədim Azərbaycan dilində olduğuna görə onun ya İraq ərazisində, ya da müasir Azərbaycan ərazisində yazıldığını qeyd edirlər.

Həmin lüğətdə *arşınlamaq, baldız, bacanaq, ağıl (mal-qara üçün yer), baxışmaq, bərk, beşik, belbağı, boşalmaq, buyurmaq, davar, iraq, ismarlamaq, qardaş, qanalıçı, kərki, kirşan, qoduq, laçın, mərcimək, qusmaq, sinir, süngü və s.* kimi külli miqdarda indi də Azərbaycan ədəbi dili və Kərkük dialektində müşahidə edilən sözə rast gəlinir.

Bəs əsrlər boyu yad xalqlar əhatəsində qalan, ana dilində təhsil ocağı olmayan bu elat doğma dilini necə mühafizə edə bilmişdir?

Bu suala kərküklü Səid İrmaq «Qardaşlıq» dərgisinin 1962-ci il 5-ci nömrəsində cavab vermişdir. O yazır: «Vətən torpağı kiçilib, genişlənə bilər, tamamilə əldən çıxa bilər, sərhədləri tükənə bilər, tarixi təhrif edilə bilər. Hətta şan və şərəfi tapdalana bilər, dini dəyişdirilə bilər, lakin bir şey dəyişmir – qalan bu tək varlıq ana dilidir».

Tədqiqatçının dediyinə yalnız onu əlavə edə bilərik ki, İraqda ziyalı və qeyri-ziyalı bir çox ailələrdə böyük və kiçik məclislərdə oldum, lakin heç bir yerdə başqa dildə danışan kərküklüyə rast gəlmədim. Ana dilinə olan münasibət, dərin məhəbbət özünü bariz şəkildə göstərirdi. Elə bil S.İrmağın «Bir millətin ən ümdə varlığı ana dilidir» kəlamı ürəkləri fəth etmişdi. Kərkük folklorundan xəbərdar olan bütün tədqiqatçılar onun zənginliyinə heyran qalır, bunun sirrini xalqın öz doğma dilini göz bəbəyi kimi qorumasında görürlər.

Ayaz Vəfalı Kərkük bayatılarına həsr etdiyi «Həsrət nəğməsi» məqaləsində bu həqiqəti dərindən duymuş:

Mən dilimnən vaz keçməm
Olursam dilim-dilim.

- bayatısını göstərmiş və haqlı olaraq: «Xalqın bu qətiyyətinə şübhə etməyə haqqımız yoxdur», - qənaətinə gəlmişdir.

İraqda dövlət dili ərəb dilidir. Məhz buna görə də kərküklülərin öz dilində, qəzet, jurnal, kitab çap etdirmələri çətindir. Lakin bu çətinlik gərgin əmək nəticəsində aradan qaldırılır. İndi Kərkük ziyalılarının öz hesablarına çap etdirdikləri onlarca gözəl kitabları vardır. Görkəmli alim Əta Tərzibaşının üçcildlik «Kərkük xoyrat və maniləri», «Kərkük havaları», «Kərkük əskilər sözü», «Arzu-Qənbər» dastanı, ikicildlik «Kərkük şairləri», Hafiz oğlu Molla Sabirin «Kərkük müntəxab xoyratları», «Kərkük şairlərindən Faiz və Safi arasında müşare», Şakir Sabir Zabitin «Kərkükdə ictimai həyat», «Atalar sözü», «Bayat əşirəti haqqında tarixi araşdırma», «İraq türkmanlarının tarixi vardır», Məhəmməd Sadiqin «Düşüncələrim», «Coşğun duyğularım» və başqa müəlliflərin qələmindən çıxan «Yaralı Kərkük», «Şəhidləri anarkən», «Ərbildən bir səs», «Səs sənətkarlarımız», «Sevilən manilər», «Gənc ədəbiyyatçılarımız», «Kuzəçi oğlunun xoyrat və bəstələri» kitabını buna misal göstərmək olar.

Doğrudur, 1958-ci il inqilabı İraqda yaşayan azərbaycanlıların da siyasi, ictimai və ədəbi həyatında əlamətdar hadisə oldu. 1959-cu ilin fevralında İraq radiosunun türkman bölməsi yaradıldı.

1968-ci il iyul inqilabından sonra isə İraqda yaşayan azərbaycanlılara mədəni hüquqlar verildi. Bir il sonra yanvarın 21-də ölkənin İnqilabi Rəhbərlik Şurası yeddi bənddən ibarət tarixi qərar qəbul etdi. Həmin qərar aşağıdakıları nəzərdə tuturdu: türkmanların yaşadığı ərazidə ibtidai siniflərdə tədris ana dilində aparılsın, bütün məktəblərdə izahat vasitələri də ancaq ana dilində olsun, Maarif Nazirliyi nəzdində türkman dilinin tədrisinə rəhbərlik üçün komitə yaradılsın, türkman ədiblərinə öz ittifaqını yaratmaq imkanı verilsin, onlara əsərlərini nəşr etdirməkdə köməklik göstərilsin, bacarıq və istedadlarını daha da artırmağa şərait yaradılsın, yaradılacaq Yazıçılar İttifaqı İraq Ədiblər İttifaqı ilə əlaqələndirilsin, Mədəniyyət Nazirliyi nəzdində Türkman Mədəniyyəti Komitəsi yenidən təşkil edilsin, türkman dilində həftəlik qəzet və aylıq jurnalın nəşrinə başlansın. Kərkük televiziyasında türkmanca verilişlərin sayı artırılsın.

Verilmiş mədəni hüquqlardan lazımınca istifadə etməyə başladılar. Lakin kiçik xalqın dərdi böyük olarmış... İbtidai məktəbi ana dilində bitirən şagirdlər təhsillərini davam etdirəndə ərəb dilini bilmədiklərinə görə çətinliklərlə qarşılaşdılar. Başa düşdülər ki, orta məktəbi öz dillərində bitirsələr də, bütün ali məktəblər ərəb dilində olduğundan ali təhsil almaqda problemlərlə qarşılaşacaqlar. Odur ki, könüllü olaraq məktəblərdə təhsilin ərəbcə aparılmasına keçdilər. Bununla belə, nəzərdə tutulmuş başqa mədəni tədbirlərin lazımınca həyata keçirilməsini davam etdirdilər. Tezliklə, həftəlik «Yurd» qəzeti çıxmağa başladı. Qəzetin 1970-ci il 17 iyunda çıxan birinci nömrəsi böyük bayram kimi qarşılandı. Yazıçılar İttifaqı fəaliyyətə başladı. Mədəniyyət Nazirliyi nəzdində «Türkman Mədəniyyət Komitəsi» yenidən təşkil edildi. Radio və televi-

ziyada ana dilində verilişlərin sayı artırıldı. Həmin verilişlərin bəzisi bizim şifahi xalq ədəbiyyatına, yazıçı və şairlərimizə həsr edilir. C.Məmmədquluzadənin «Poçt qutusu»nun çox həzin radio verilişi indi də qulağımda səslənir. Radionun işçisi Nihad Alçunun xahişi ilə S.Vurğun, S.Rüstəm, B.Vahabzadə, N.Xəzri, N.Həsənzadə haqqında məqalələr hazırladım. V.Mayakovski və R.Rzanın yaradıcılığına həsr etdiyim böyük məqalədə isə söhbət sərbəst şeirdən gedirdi. Nihad Alçun həmin yazıları radioda özü oxudu.

Şair R.Kərimlinin göndərdiyi kitabları – S.Vurğun, R.Rza, S.Rüstəm, B.Vahabzadə, N.Xəzri, N.Həsənzadə və Q.Qasımzadənin kitablarını «Qardaşlıq» nadisinə verdim. İraqa ikinci və üçüncü səfərim zamanı apardığım kitabları isə onların təzə yaradılmış Yazıçılar İttifaqına və ziyalılara hədiyyə etdim. Bundan sonra «Qardaşlıq» jurnalında, radionun «Dərədən-təpədən» rubrikalı verilişində yazıçı və şairlərimizə geniş yer ayırırdılar. Qabilin «Nəsimi» poeması haqqında «Qardaşlıq» jurnalında (№1-2, Bağdad, 1973, səh 34-35) böyük yazı ilə çıxış etdim. Şairin şəkli ilə verdiyim bu yazı rəğbətlə qarşılandı. Rza Dəmirçi mənə xəbər verdi ki, «Qardaşlıq» nadisində mənimlə görüş təşkil edirlər. Xahiş etdi ki, Azərbaycan şairlərinin ürəyimə yatan şeirlərindən onlara oxuyum. Görüşə xüsusi hazırlaşdım. Nə yaxşı ki, orta məktəbdə yazıçı və şairlərimizin yaradıcılığı əsaslı surətdə keçilir. Universitetimizi qızıl medalla bitirmiş, Əliş Əyyubovun uşaqlıqdan məndə ədəbiyyata aşıladığı məhəbbət öz işini gördü. Nizaminin «Kərpickəsən qoca»sından başladım. Nəsimi və Füzulidən də şeir dedim. Vaqifin «Durnalar», «Vidadi ilə Vaqifin deyişməsi» və başqa şeirləri, Q.Zakirin bir satirik şeirini söylədim. Aşıq Ələsgərdən bir qoşma dedim. M.Ə.Sabirin «Əzrailin istefası» şeirini oxuyanda hamı əlini əlinə vurub güldü. Xahiş etdilər ki, şeiri bir də oxuyum. Məlumdur ki, M.Ə.Sabir bu şeirində bəzi naşı təbibləri tənqid atəşinə tutur... Əzrail istefaya çıxmağı barədə ərizə verir. Ərizədə göstərir ki, o bir nə-

fər ölməlinin canını alınca, həkimlər neçə-neçə ölməməli adamın axırına çıxırlar. Günahı da qoyurlar onun boynuna. Şeiri oxuyub qurtaranda yenidən gülməyə başladılar. Hətta gözlərindən yaş gələnlər də oldu. Sən demə Bağdadın ən böyük xəstəxanası – «Tibb şəhərciyinin baş həkimi də əyləşənlər arasında imiş. Bu arada onun sağlığına badə qaldırdılar. Sonra yenə mənə söz verildi. S.Vurğunun «Azərbaycan», «Partiyamızdır», «Şair, nə tez qocaldın sən», «Gülə-gülə» şeirlərini, «Vaqif»dən və «Komsomol poema»sından parçaları əzbər dedim. R.Rzanın «Lenin», S.Rüstəmin «Ana və poçtalyon», M.Rahimin «Leninqrad göylərində» əsərlərindən bildiyim parçaları da əzbər söylədim.

Bəxtiyar Vahabzadədən də bir neçə şeir dedim. «Qardaşdır xeyirlə şər bu dünyada»və «Qara saçlar, ağ saçlar» şeirlərini çox bəyəndilər. N.Xəzridən də şeirlər dedim.

«Ədəbiyyat və incəsənət» qəzetinin oraya apardığım nüsxəsindən Q.Qasımzadənin «İnsan min il yaşardı» şeirini təkrar oxumağımı xahiş etdilər. H.Hüseynzadənin «Yolda» poemasından bir parça və «Sən niyə qocaldın, ay Mirzə dayı» şeirini, C.Novruzdan «Gözümün önündə qocalır anam», T.Bayramdan «Qadın» və «Vağzalı çalınır» şeirlərini oxudum. Çox maraqla dinlədilər. N.Həsənzadənin:

Məhəbbət... nə deyim o ülvi ada,
Hamıya bir gözlə baxmayır o da,
Birinə ömür-gün yoldaşı verir,
Başqa birisinə göz yaşı verir!

- bəndini oxuyanda oturanlar arasında böyük canlanma baş verdi. Çoxları cavanlıqlarını, keçən günləri yada saldılar. Fürsətdən istifadə edib: «İstəyirsiniz tovuzlu aşıq Mikayıl Azaflıdan da məhəbbət şeirləri oxuyum», - dedim.

- Bəlkə, o dediyin aşıq bizim tuzludur, – kimsə dilləndi. (Onlar Tuz Xurmatu qəza mərkəzində yaşayanlara tuzlu deyirlər - Q.P.)

Hamı ürəkdən güldü.

Əziz oxucu, əlimizdəki kitab çıxandan çox sonra məlum oldu ki, Kərkük elləri arasında Azaflı oymağı da varmış. Azaflılar oraya Azərbaycandan köç ediblərmiş: «Azaflı oymağının soyu Türkman Bayat soyuna dayanır. Çox saydakı tarixi qaynaqlardan görünür ki, bu oymağın övladları 500 il öncə Azərbaycandan köç etmişlər». (Bax: Avukat Habib Hürmüzlü, prof. Dr. Ekrem Pamukçu. İrakta Türkmen boy və oymakları, Ankara, 2005, s.61)

Onların təkidlə: «Azaflıdan şeirlər oxu, görək o, necə şairdir?» – demələrini də sonralar anladım. El şairinin:

Qüdrətindən həyat, aləm yaranıb;
Bahar qızlı təbiətdi məhəbbət.
Cazibəsi yeri göyə bağlayıb.
Möcüzəli ziyarətdi məhəbbət.

- bəndi ilə başlanan «Məhəbbət» və «Gözlərim» şeirlərini oxudum. Nədənsə bu şeirləri təhlil etdilər.

Səbrim tükənibdi səbr eyləməkdən,
Yorulub baxmaqdan yola gözlərim.
Bir səni axtarır, bir də gəncliyi
Boylandıqca sağa-sola gözlərim.

- bəndi daha çox xoşlarına gəldi. Mənə təşəkkür edərək şairlərimizin şəninə badə qaldırdılar.

Həmin görüşdən sonra mənə münasibət tamamilə dəyişmişdi. Ondan sonra «Qardaşlıq» nadisində keçirilən bütün yığıncaqlara, görüş və müsamirələrə dəvət olunurdum.

Yeri gəlmişkən deyim ki, kərküklülər bizim musiqimizi də çox sevirlər. Maqnitofon lentləri və dəftərimdə etdiyim qeydlər xatirələri təzələməkdə köməyimə gəlir.

...1966-cı il aprelin 1-də axşamüstü Kərkükdə «Qızıl Arslan» mehmanxanasında oturub söhbət edirdik. Toplaşanlar

arasında məşhur müğənni Əbdül Vahid Kuzəçi oğlu, Böyük Hafiz oğlu Molla Nurəddin, Məhəmməd İzzət Xəttat, Mövlud Taha Qayaçı, Əhməd Otraqçı oğlu, Rəmzi Köprülü və başqaları vardı. Söhbət musiqidən düşmüşdü. Molla Nurəddin dedi: «Biz Azərbaycan musiqisini, Azərbaycan ədəbiyyatını çox sevərix. Hər vaxt Baku radiosunu dinlərix. Çünki dilimiz birdi. Heç fərq etməz. Bəzi şivə fərqləri var».

Onun dediklərini lentə yazdım. Nədənsə ürəyimə gəldi ki, bəlkə, mənim könlümü xoş etmək üçün belə deyir. Tezliklə səhvimi başa düşdüm. Onlar xorla S.Vurğunun «Azərbaycan» və «Gülə-gülə» şeirlərinə bəstələnmiş Azərbaycan mahnılarını oxudular. Sonra isə «Gülə-gülə» mahnısını məni valeh edən bir tərzdə ifa etdilər. Məlum oldu ki, Ə.Kuzəçi oğlu şeirə musiqi bəstələmiş, elə həmin ildə çıxan «Kuzəçi oğlunun xoyrat və bəstələri» (Kərkük, 1966) kitabına daxil etmişdir. Elə oradaca mahnını lentə aldım. Həmin lenti bu gün də ən əziz xatirə kimi saxlayıram.

Şeirdə bir-iki kiçik dəyişiklik olunduğunu qeyd etdim:

«Dedim bizə dost olaydın» - əvəzinə «Dedim mənə yar olaydın»; axırıncı bənddə:

Gəldi tərlan ömrümüzün
Səhər vaxtı gülə-gülə.

- əvəzinə

Gəldi bahar ömrümüzün
Səhər vaxtı gülə-gülə;
Gülə-gülə, gülə-gülə,
Bülbül qonub qönçə gülə;
Gəldi bahar ömrümüzün
Səhər vaxtı gülə-gülə!

- şəklində işlənməsi.

Hiss etdim ki, şeiri əzbər bildiyimə təəccübləndilər. Mən mahnını onlarla oxumadığıma görə güman ediblərmiş ki, şeiri əzbər bilmirəm. Zarafatla dedim:

– Baba (bu, onlarda müraciət formasıdır). S.Vurğun sizin şairdir, yoxsa bizim?!.

– Fərqi yox, baba. O həm sizin, həm də bizimdir, - Əhməd Otraqçı oğlu dedi və S.Vurğuna həsr etdiyi şeiri avazla oxudu:

Bu sular durğun-durğun,
Mən səni gördüm yorğun.
Kərkukdən salam olsun,
Tək şair Səməd Vurğun.

Əhməd Otraqçı oğlu şeiri S.Vurğunun ona bağışladığım «Seçilmiş əsərləri»ndəki ağsaçlı, yorğun-yorğun baxan şəklinin təsiri altında yazmışdı. Şairin şeirlərini tamam oxuyub, bəzilərini əzbərləmişdi də. Sonralar Əta Tərzibaşı, Əbdüllətif Bəndəroğlu, Məhəmməd Xurşid, Mövlud Taha Qayaçı, Bahəddin Salehi və başqaları da bizim əlifbanı öyrənib, Azərbaycandan göndərilən kitabları sərbəst oxumağa başladılar. Bahəddin Salehi mənə göndərdiyi məktubları da bizim əlifbada yazırdı.

Həmin axşam «Qızıl Arslan» mehmanxanasında qalmaq mənə qismət olmadı. Hamı istəyirdi ki, onlara qonaq olum. Bağdaddan Kərkükə Rəmzi Köprülü ilə gəldiyimə görə onlara getməyi qərara aldım. Lakin əvvəlcə görkəmli şair, 80 yaşlı Məhəmməd Sadiqin görüşünə getdik.

Çox mehriban, söhbətcil adam olan bu qocaman şair «Düşüncələrim» (1956) və «Coşğun duyğularım» (1964) kitablarından şeirlər dedi. 1912-ci ildə vəfat edən şair Mahmudun – hicri Dədənin xatirəsinə həsr etdiyi şeiri oxudu. Onun yaddaşına heyran qaldım. Kim deyə bilərdi ki, bir il sonra 1967-ci ilin iyulunda bu böyük şair də dünyadan köçəcək! Nə yaxşı ki, şairin bütün dediklərini lentə köçürüb bu gün də saxlayıram. Şair Molla Nəsrəddindən yeddi lətifə danışdı. Bayatılar, atalar sözləri və nağıllardan söz açdı. Tərcümeyihalını danışdı.

...Şairlə Hüseyn Əli İsmayıl oğlunun çayxanasında söhbət edirdik. Hamı bizim başımıza toplaşmışdı. Əhməd Otraqçı

oğlu mənim Bakıdan olduğumu, Kərkük dialekti və folkloru üzərində tədqiqat apardığımı dedi. Əhməd Otraqçı oğlu, Mövlud Taha Qayaçı, Rəmzi Köprülü və mən şairin əlini öpüb ayrılanda Hüseyn Əli İsmayıl oğlu dedi: «Get oğlum, yaradan sənə yar olsun! Mənim dilim uğrunda çalışırsan (Kərkük şivəsi - Q.P.). Ölməyəydim, dil uğrunda öləydim».

Bu, Kərkük dialekti üzərində iş aparandan bəri birinci mükafatım idi.

Rəmzigilə gələndə orada xeyli adamın toplandığını gördük. Şirin söhbət etdik. Bir azdan Rəmzinin nənəsi dedi:

– Qudurasay Rəmzi. Bu Bakudan kəlip deyirsəy?!. (Altun Köprü şivəsində belə danışırlar - Q.P.) İnanmam. Bu oğlum kərküklüdü.

Hamı güldü. Sonra bayatı, atalar sözləri, Molla Nəsrəddin lətifələri, nağıllar danışdılar. Rəmzinin nənəsi xoş avazla ağılar oxudu. Onlar buna sazlamaq deyirlər:

Gedirəm ögüm dağdı;
Gör nə səfalı bardı.
Ölüncə çəkəcəğəm bu dərdi,
Nə ğərtə canım sağdı.

Bu dağda məni;
Ovçu, bu dağda məni.
Özüy baş aldıy getdiy,
Qoyduy bu dağda məni.

Ay çıxdı, dalda durdu;
Gör nə xəyalda durdu.
İstədim görüşəğin,
Fələk arada durdu.

Dam başında sərçələr;
Biri birin parçalar.
Gedib böyük ağalar.
Qalıp xurda beçələr.

Elə oradaca Tisinli Əbdül Əmir məni heyrətə gətirən «Ana və oğul» əfsanəsini danışdı. Əfsanəni lentə yazdım. Övladı olmayan bir gəncin arvadı, onu yoldan çıxarır: «Anasının ürəyini gətirməsə, uşağı olmayacaq» - deyir. Naəlac qalan gənc, anasını öldürür... Bu əfsanə bir az başqa şəkildə bizdə də mövcuddur. Lakin Kərkük variantı, məncə, daha güclü, daha təsirlidir: Əfsanəni hər hansı bir ananın adı ilə bağlayır, onun adından danışırlar. Əfsanə mütləq:

Öz nənəm;
Qəlbi dolu köz nənəm;
Yad ağlar, yalan ağlar,
Qoy arlasın öz nənəm.

- bayatısı ilə başlayır.

Səhərisi gün Kərkük şəhərini gəzdik. Kərkük barədə yuxarıda hərtərəfli danışdığımızdan, burada bəzi görüşlərdən söz açmaqla kifayətlənəcəyik.

İlk görüşümüz el şairi Mustafa Gök Qaya ilə oldu. Kiçik bir mağazası vardı. Məktəb ləvazimatı və İraqda azərbaycanca çıxan kitabları satırdı. 1911-ci ildə anadan olsa da, yaşına görə cavan görünürdü. Uşaqlıqdan toylarda «Aşıq Qərib», «Əsli və Kərəm», «Leyli və Məcnun», «Arzu-Qənbər», «Tahir və Zöhrə» dastanlarını eşidib ədəbiyyat maraqlısı olduğunu söylədi. 1963-cü ildə «Yaralı Kərkük» adlı şeirlər kitabını çap etdirib. Kitab aşağıdakı bayatı ilə başlayır:

Ay çıxdı, ayaz oldu;
Su əndi, dayaz oldu.
Gənc ömrüm ümid gözlər,
Saqqalım bayaz oldu.

Burada yaradıcılığına və şəxsiyyətinə çox hörmət bəslədiyim gənc şair Fərrux Həsaməddinlə rastlaşdım.

Bağdadda Fərruxla, demək olar ki, hər gün görüşürdük. Uşaqlıqdan o da yetim qalmışdı. Söz-söhbətimiz tuturdu. «Gənc ədəbiyyatçılar» kitabında çap olunan bayatılar onun yaxşı şair kimi yetişəcəyinə ümid verirdi:

Necə dağlar;
Qarşıda necə darlar.
Yetim yanağı bilir
Göz yaşı necə dağlar.

Al, çax fələk,
Silahın al, çax fələk;
Namərdə meydan verdin,
Namərddən alçaq fələk.

«Gənc ədəbiyyatçılar» kitabında Nəzihə Həsaməddinin adına dərc edilən bayatılar da Fərruxundur. Fərruxun bacısı olan Nəzihə onda çox kiçik idi. Bayatıları Nəzihənin adına ona görə veriblər ki, qızlar oxusunlar, onlarda ədəbiyyata, yazıb-yaratmağa həvəs oyansın. Çünki yazıb-yaradan yeganə qadın şairləri Nəsrin Ərbildir. İstedadlı şairə ana dili ilə bərabər, bir neçə başqa dil də bilir. Səhhəti zəif olduğundan şikayətli şeirləri çoxdur. Onlar bəzən Məhsətinin şeirlərini andırır:

Əriyib axşama qarışarkən gün,
Dura bilirmisən həp eylə gülgün.
Həyat bağçasından daha bir gül dər,
Bitməmiş son dəmi bu fani ömrün.

Nəsrin Ərbilin bir çox şeirinə Kuzəçi oğlu və başqaları musiqi bəstələmişlər. Kuzəçi oğlunun «Xançı» mahnısı isə dillər əzbəri olmuşdur:

Nə qürbətdə gəzdim, nə də yoruldum;
Nə dərdim söylədim, nə də soruldum.

Sirrimi deyəcək bir səni buldum,
Mən kəndi yurdumda qəribəm, xançı.

Sənə anladacaq dərdlər çox məndə,
Güllərim dərildi təzə gülşəndə;
Artıq qaranlıqdan bəhs etmə sən də,
Əzəldən bu zülmət nəsibim, xançı.

Nə qədər anlatsam yenə ruhum boş,
Vaz keç məndən xançı, qürbətlərə qoş.
Təsəlli yox mənə, burax başı boş,
Mən kəndi yolumu seçmişəm, xançı.

O gün Məhəmməd İzzət Xəttat, Məhəmməd Xurşid Daquqlu, İbrahim Bayraqdar, Əhməd Otraqçı oğlu, Mövlud Taha Qayaçı, Rəmzi Köprülü, Bahəddin Salehi, Fərrux Həsaməddin və başqaları ilə Kərkükü gəzdim. Onu iki yerə bölərək dəli-dolu axan Xasa çayı böyüklüyünə görə bizim Kür çayını andırırdı. Kərkük qalası isə İçərişəhəri yada salırdı. Kərkük bazarı da çox xoşuma gəldi. Həmin axşam Əbdül Vahid Kuzəçi oğlunun və bələdiyyə idarəsinin məsul işçisinin qonağı oldum. Kuzəçi oğlu oxuduğu bütün mahnıların lentini və 1966-cı ildə çap etdirdiyi «Kuzəçi oğlunun xoyrat və bəstələri» kitabını mənə hədiyyə etdi. Kitabı vərəqlədikcə qəlbim dağa dönürdü. Bir çox mahnıların Azərbaycan şairlərinin sözlərinə yazıldığı və ya Azərbaycan xalq mahnısı olduğu göstərilirdi: «Ollam boyuna qurban», «Ay qız mənə bax, bax», «Layla balam, a layla», «Vəfasız», «Gülə-gülə», Təbrizli Əlinin sözlərinə yazılmış «Kərküklü sevgilim», «Bir samovar almışam, silənim yoxdu» və s. Bəziləri isə «Əski mahnılar» adı altında çap olunub: «Yeri, yeri, yeri küsmüşəm sənnən», «Bu xal nə xaldı», «Evlərinin önü yonca», «Gözələ bax, gözələ». Bu mahnılar həm onlarda, həm də bizdə qədimdən ifa olunmuşdur.

Səhərisi gün Kərkükün 45 km şimalında yerləşən Altun Köprü qəsəbəsinə getdik. Böyük Zab çayı, bu nahiyə mərkəzini iki yerə bölür: böyük yaxa, kiçik yaxa. Çayın üzərindən Altun Köprü keçir. Mənzərəli Altun Köprü dağ döşündədir. Bizdə olan başlıca meyvələr: alma, ərik, üzüm, nar, gavalı, alça, gilas və s. burada da yetişdirilir; qarpızı, pomidoru və xiyarı adla deyilir.

Məhəmməd Xurşid Daquqlu, «Qardaşlıq» jurnalında (mart, 1965) Altun Köprünün adı barədə belə qənaətə gəlir ki, xalq qızıl pul yığıb hökumətə verir ki, körpü tikilsin. Körpü tikiləndən sonra isə onun böyük əhəmiyyətini nəzərə alıb körpüdən qızıl halqa asıblarmış. Məhz buna görə də körpü «Altun Köprü» adlandırılır. Ətraf yerlər də onun adı ilə bağlıdır.

Qəsəbəni gəzdik. Hamı mənim Azərbaycandan olduğumu bilib böyük maraq göstərir, hər cür suallar verirdi.

Rəmzinin nənəsigilə xeyli adam toplaşmışdı. Gecədən xeyli keçənə qədər söhbət etdik. Çoxlu nağıl, lətifə, atalar sözləri, inanclar, bayatılar eşitdim. Adət-ənənələrdən danışdılar. O axşamkı söhbətləri doxsan dəqiqəlik iki lentə yazdım.

Mən Altun Köprüdə də İraqda yaşayan qardaş-bacılarımızın bizə olan sonsuz məhəbbətini bir daha dərindən duydum və onların mətanətinə, dəyanətinə, doğma Azərbaycan dilini göz bəbəyi kimi qorumalarına heyran qaldım.

Laylanın şirin dadı,
Beş min yad dilə dəyər.

- deyən bu elatın səmimiyyətinə inandım. Oradan Bağdada, Bağdaddan da 1966-cı il may ayının əvvəllərində vətənə yola düşdüm. Bakıya gələn kimi radionun «Qitədən-qitəyə» verilişində Kərkük folkloruna, musiqisinə, elm adamlarına və s. həsr olunmuş silsilə verilişlər təşkil etdim.

Tezliklə Bağdadda yarıərəb, yarıazərbaycanca çıxan həftəlik «İraq» qəzetinin 11 iyun 1966-cı il tarixli nömrəsini aldım. Gözlərimə inanmadım. «Bakı radiosundan türkman folkloru haqqında veriliş» başlığı altında yazı verilmişdi:

«May ayının 28-də Qəzənfər Məhəmməd oğlu Paşayev Azərbaycan radiosunda çıxış etmişdir. O, maraqlı söhbətində İraq türkman müğənni və alimlərindən, elm adamlarından danışmışdır. Paşayev İraq türkman xalq ədəbiyyatı ilə Azərbaycan ədəbiyyatını müqayisə etmişdir. O, haqqında danışdığı müğənnilərin ifasında mahnılar vermişdir. Söhbətində qeyd etdiyi kimi, İraqı ziyarət etmişdir. Paşayev Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunun dissertantıdır».

Məqaləni oxuduqca sevinirdim. Sevincimə səbəb İraqda yaşayan qan qardaşlarımızın Azərbaycan radiosuna daim qulaq asmaları idi.

Bundan sonra əlaqələrimiz daha da artdı. «Qardaşlıq» jurnalında, «Yurd» qəzetində R.Rza, M.Təhmasib, A.Zamanov, A.Vəfalı və bu sətirlərin müəllifinin yazıları çıxdı. Şakir Sabir və Ə.Bəndəroğlu Bakıya gəldilər. Bizim evdə də qonaq oldular.

Düzünü deyim ki, mənim İraqa üçüncü (1972 – 75) səfərim əvvəlkindən tamamilə fərqləndi. Məni bu dəfə Kərkükdə və başqa yerlərdə doğma övlad kimi qarşıladılar. Şakir Sabir, Ə.Bəndəroğlu, Sinan Səid və başqalarının evində dəfələrlə qonaq oldum. «Qardaşlıq» jurnalı və «Yurd» qəzeti redaksiyası, kərküklülərin «Yazıçılar İttifaqı» doğma yerlərə çevrildi.

İraqda olarkən mənə bir çox xoşbəxtliklər üz verdi. Onlardan biri böyük alim, görkəmli tədqiqatçı Əta Tərzibaşı ilə olan görüşlərim idi. Onun qiymətli məsləhətləri Kərkük dialekti və folkloru üzərində tədqiqat apararkən doğru yolla getməyimə kömək etdi.

Həmin xoşbəxtliklərdən biri də Ə.Bəndəroğlu ilə azərbaycanlıların yaşadığı Tus (Duz da deyirlər) Xurmatuda Nəsiminin böyük həcmli Divan nüsxəsini tapmağımız oldu. Tus Xurmatu Bağdad tərəfdə – Kərkükün 75 kilometrliyində qəza mərkəzidir. Sağ tərəfi dağlıq, sol tərəfi səhra olan Tus Xurmatuya Ağsu çayı xüsusi gözəllik verir.

Nəsiminin yüz yaşlı Heydər babadan əldə etdiyimiz İraq Divan nüsxəsi üzərində Ə.Bəndəroğlu ilə altı ay birgə işlədik. Başqa Divan nüsxələri ilə müqayisə apardıq, «Yurd» qəzetində məqalələrlə çıxış etdik. Lakin işin gedişi göstərdi ki, əldə etdiyimiz Divan nüsxəsi haqqında qəti söz demək üçün topladığımız materiallar kifayət deyildir. Buna görə də mən «Yurd» qəzetində «Nəsimi divanı və biz» adlı yazı ilə çıxış etməli oldum: «Bir neçə say öncə «Yurd» qəzetində Nəsimi Divanının İraq nüsxəsinin tapılmasını demiş və həmin nüsxə əsasında Əbdüllətif Bəndəroğlu ilə mənim bu nüsxə haqqında kitab yazacağımızı vəd etmişdik. İşimin çoxluğu üzündən və istənilən qədər material olmaması səbəbindən bu işdən mən vaz keçdim. Biz Bəndəroğlu ilə bu Divan nüsxəsi haqqında fikir mübadiləsi apardıq və bu nüsxənin üzünü kiril (rus) əlifbası ilə köçürdük. Ancaq işə başlamadıq. Hər kəs ayrıca işinə başlaya bilər. Güman edirəm ki, Əbdüllətif Bəndəroğlunun yapacağı Nəsimi kitabı İraq türkmanlarına onların dilində yazan böyük şairin yaradıcılığını tanımaqda bir yardım olacaqdır. Bu yolda arkadaşım Əbdüllətif Bəndəroğluna müvəffəqiyyətlər diləyirəm» (Bağdad, «Yurd», 25 iyul 1973).

Qeyd edim ki, avqust ayında Əbdüllətif vəd etdiyi kitabı buraxdırdı. Lakin bu kitab həmin Divan nüsxəsi barədə tam məlumat verməməklə bərabər, bütün şeirləri əhatə etməmişdir.

Vətənə döndükdən sonra Nəsiminin İraq Divanını mövcud divan nüsxələri və çap olunmuş kitablarda gedən şeirlərlə müqayisə edib «Ulduz» jurnalında və «Ədəbiyyat və incəsənət» qəzetində «Nəsiminin İraq Divanı və naməlum şeirləri» məqalələri ilə çıxış etdim. Düzü bu ağır və məsuliyyətli işə girişməkdən çəkinirdim. Ancaq mərhum şairimiz Rəsul Rzanın bir dəfə söhbət zamanı Nəsimi ilə əlaqədar nəsihətvari dediyi: «Bu möhtəşəm ədəbi-elmi abidənin gözəl, dəqiq, maraqlı və uzunömürlü yaranmasında bir kərpic qoyanın da, yüz kərpic qoyanın da zəhməti hörmət və təqdirlə yad edilməlidir», – sözləri və nəsimişünas alim C.Qəhrəma-

novun «Şairin gələcəkdə tapılacaq dolğun əlyazma nüsxələrində yeni-yeni əsərləri aşkara çıxarıla bilər», – fikri məni bu işə sövq etdi.

Nəticədə Nəsiminin indiyə qədər məlum olmayan on bir şeirini və eləcə də şairin yalnız bir əlyazmasında təsadüf edilən və buna görə də mübahisəli, tam mənasında dəqiqləşməyən, lakin Nəsimiyə aid olması ehtimal edilən 129 şeirindən 13-nü üzə çıxardım. Bu, İraqda yaxşı qarşılandı.

Nəsiminin İraq Divanı üzərində işləyərkən nəsimişünaslıqda qaranlıq qalan, hazırda Ermənistan SSR Nazirlər Soveti yanında Qədim Əlyazmaları Elmi-Tədqiqat İnstitutu «Matenadaran» xəzinəsində, ərəb yazılı abidələri fondunda mühafizə edilən «Divani-Nəsimi» əlyazmasının (№517) harada üzünün köçürülməsini də aydınlaşdırdıq. İmadəddin Nəsimi əsərlərinin birinci cildində (1973) C.Qəhrəmanov əlyazmanın 1072-ci ilin (1661) şəvval (oktyabr) ayında Hüseynəli ibn-Səfər Əli tərəfindən köçürüldüyünü və həmin nüsxənin 1113-cü ildə (1701) Təbrizdə əldə olunduğu haqqında əlyazmanın üz qabığında qeyd olduğunu göstərir. Professor C.Qəhrəmanov davam edir: «Nüsxənin yazıldığı yer göstərilmir. Lakin katib özünün Hacı Qəyyumlu camaatından olduğunu və Tusda məskən saldığını əlyazmanın sonunda qeyd edir. Fikrimizcə, Tus şəklində yazılmış yerin adı ərəb qrafikasına əsasən «Tus» kimi deyil, Azərbaycan tələffüzünə əsasən «Tovus» (Tos) kimi oxunmalıdır. Doğrudur, «Tavus» (Tavus, Tovuz) sözü ərəb yazısına görə Tavus şəklində yazılmalıdır».

Tovuz rayonunda boya-başa çatdığımdan fəxr edərdim ki, Nəsiminin qədim Divan nüsxəsinin üzü, mənim doğma rayonumda köçürülmüş olaydı! Lakin həqiqət budur ki, görkəmli nəsimişünas alim C.Qəhrəmanovun söhbət açdığı Tus – İraqda azərbaycanlıların məskən saldığı Tus (danışıqda çox vaxt Tuz da tələffüz edirlər - Q.P.) Xurmatu Kərkük vilayətində qəza mərkəzidir.

Nəsiminin 1849-cu ildə üzü köçürülən Divan nüsxəsinin burada tapılması da deyilənləri bir daha təsdiqləyir.

Şübhə yoxdur ki, tədqiqatçılarımız İraqda yaşayan azərbaycanlıların keçmişi ilə ciddi məşğul olsalar, Azərbaycan tarixi, Azərbaycan mədəniyyəti, Azərbaycan ədəbi dili tarixi, Azərbaycan ədəbiyyatının indiyə qədər qaranlıq qalan bir sıra məsələləri aydınlaşa bilər.

Görüləcək işlər barədə düşündükcə Kərkükdə və bizdə işlənən «Tək əldən səs çıxmaz» atalar sözü qəlbimə hakim kəsilir.

Hər dəfə İraqdan qayıtdıqdan sonra kərküklü yazıçı və tədqiqatçılarla məktublaşardıq. İndi tarixə çevrilmiş həmin məktublardan bəzisini oxuculara təqdim edirəm. Bu məktublar əkiz və doğma qardaşların, bir ananın övladlarının həsrət və möhnətindən, sevinc və məhəbbətindən söz açır.

«Kərkük. 12 mart 1970-ci il.
Sayın Qəzənfər Paşayev!

Zəhmət çəkib yazdığınız 19 fevral 1970-ci il tarixli məktubunuzu aldım. Şəxsim haqqındakı iltifatlı sözlərinizə və səmimi duyğularınıza görə təşəkkür edirəm, əzizim...

«Kərkük dialektinin fonetikası» adlı dissertasiyanı müdafiə etmənizə çox məmnun oldum. Sıcaq təbriklərimi qəbul et. Bu əsər bizə çox lazımdır. Bir nüsxəni lütf edib göndərmənizi rica edirəm.

Rəsul Rzanın yazılarını çap edən «Qardaşlığ»ın nüsxələrini əldə etdigim zaman göndərəcəgəm. Kəndisinə məxsusi salamımı bildiriniz.

Mənə göndərdiyiniz «Dədə Qorqud» kitabı ilə professor Dəmirçizadənin başqa kitabları çatmışdır. Təşəkkürlər edirəm. Ayrıca Azərbaycan Elmlər Akademiyasının elmi əsərlərində çıxan bayatı məsələlərinə həsr olunmuş məqaləyi də aldım. Bunları tədqiq etməgə hənuz vaxt bulamamışam.

Önkü gün qardaşımız Abbas Zamanovun göndərmiş olduğu kitab ulaşmışdır. Mənim yerimə təşəkkür yetirməgi lütfən unutmayınız. Artıq işlərinizdə başarılar diləyirəm.

Qardaşınız Əta Tərzibaşı».

«Əziz Əta bəy!

Yazdığınız məktubu aldım. Minnətdarlığımı qəbul etmənizi təmənna edirəm. Rəsminizə görə minnətdaram.

Əziz doktor, salamınızı həm Rəsul Rzaya, həm də Abbas Zamanova çatdırdım. Çox razı qaldılar. Rəsul Rza onun məqaləsini çapa hazırladığınıza görə yenə də təşəkkürünü bildirdi və həmin nüsxələri ona göndərmənizi ümid etdi.

Sizə sevinc hissi ilə bildirirəm ki, sizin «Arzu-Qənbər» dastanı 1971-ci ilin lap əvvəlində çıxmaq üçün qəbul edildi.

Əsərin girişində sizin həyat və yaradıcılığınız haqqında 6-7 səhifəlik bir yazı vermək fikrindəyəm. Yazı hazır olan kimi sizə də göndərəcəyəm, oxuyub fikrinizi bildirərsiniz.

Dissertasiyamın bir nüsxəsini imkan olsa Sinan Səidlə sizə göndərəcəyəm. İndilik sizə iki bağlama kitab göndərirəm.

Birinci bağlama: 1. M.Şirəliyev (akademik) – Azərbaycan dialektologiyasının əsasları; 2. Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri; 3. Azərbaycan dilinin Nuxa dialekti; 4. Azərbaycan dilinin dialekt və şivələrində fel.

İkinci bağlama: 1. Prof. Dəmirçizadə – «Kitabi-Dədə Qorqud» dastanlarının dili; 2. Azərbaycan dilinin tarixi qrammatikası; 3. Azərbaycan ədəbi dili tarixi; 4. Dil və dilin fonetik vahidləri; 5. Dilin lüğət tərkibi və qrammatik quruluşu; 6. Prof. Nəsir Məmmədov – Dilçiliyin əsasları; 7. Prof. A.Qurbanov – Müasir Azərbaycan ədəbi dili.

«Dilçiliyin əsasları» kitabının 246-cı səhifəsində sizin sayınız göstərilib. Bu kitabın 1966-cı il çapında isə sizdən tam bir səhifə söhbət gedir. Kitabı tapan kimi sizə göndərəcəyəm.

Rica edirəm sizlərdə yeni nə çıxsa, mənə də bir nüsxə göndərin. «Qardaşlıq» jurnalını keçən il hər vaxt alırdım. İndi nə-

dənsə göndərmirlər. Güzarınız düşsə, onlardan xahiş edin, göndərsinlər. Hələlik bu qədər.

Kiçik qardaşınız Qəzənfər.
Bakı, 03.04.70».

«Kərkük, 20 dekabr 1971-ci il.
Sayın doktor Qəzənfər qardaşım!

Məktubunuzla birlikdə göndərmiş olduğunuz «Kərkük havaları»nın müqəddiməsindən xülasə etdiyiniz bəhsi və beş nüsxə «Arzu-Qənbər» kitabını aldım. Təşəkkürlər edirəm. Bu kitabı hənuz tədqiq etmək fürsətini bulmadım. Təəssüratımı sizə soradan bildirəcəyəm. Hər halda bu uğurdakı qiymətli işinizi təqdir və məhəbbətlə qarşılayıram. Bu kitabın latın hərfləri ilə yapdığım çapından iki nüsxəsini poçta ilə adresinizə göndərdim.

Bir qaç gündən sonra əlinizə dəgər. «Kərkük havaları» kitabının giriş qismini müəyyən parçalarla Bakıda çap etdirmək istədiyiniz «Kərkük mahnıları» kitabınıza keçirməyinizə bu haşiyənin əlavə olunması şərtilə razıyam. «Bu məqalə Əta Tərzibaşının «Kərkük havaları» adlı kitabının giriş qisminin bir nüsxəsindən ibarətdir». Bu haşiyəni məqalənin birinci səhifəsinin aşağı tərəfində nəşr etdirməyinizi zəruri görməkdəyəm.

Əzizim, o məqaləni bir az da genişləndirsəniz çox yaxşı olardı.

Artıq yeni çalışmalarınızda üstün başarılar diləyirəm. Bu münasibətlə Yeni ilinizi təbrik edir, gözlərinizdən öpürəm.

Qardaşınız Əta Tərzibaşı».

«Çox hörmətli Əta bəy!

Belə qərara gəlmişdim ki, «Arzu-Qənbər» çapdan çıxana kimi sizə məktub yazıb qiymətli vaxtınızı almayım. Xalq şai-

ri Rəsul Rza öz kitablarını sizə göndərməyimi rica etdi. Kitabları və məktubumu sizə göndərirəm.

Ancaq mənim sizə alnıaçıq məktub yazmaq vaxtım da yaxınlaşır. Belə ki, bir aya «Arzu-Qənbər» çapdan çıxar. Üç dəfə düzəlişini etmişəm. Axırıncı dəfə basılmaq üçün mətbəəyə göndərmişik. Ön söz sizə əvvəllər yazdığım kimi, sizin həyat tarixinizə həsr olunmuşdur. Yazı «Bir ömürdən səhifələr» adlanır. Əlbəttə, sizin yaradıcılığınız da təhlil olunur.

Bəlkə, bir-iki ilə «Kərkük atalar sözləri» kitabı da çıxdı. Düzü, gümanım azdır.

Əta bəy, 1972-ci ildə «Kərkük mahnıları» kitabı çıxmalıdır. Öndə sizin «Kərkük havaları» kitabına yazdığınız 35 səhifəlik yazınızı yığcamlaşdırıb 10–15 səhifədə vermək fikrini bəyəndilər. Son söz sizindir. Əgər istəsəniz həmin yazını sizə göndərim, nə düzəlişiniz olsa edin və razılığınızı bildirin.

Sizin dialekt üzərində işimi azaltsam da, yenə də işləyirəm. «Kərkük dialektində səs artımı və səs düşümü» məqaləmi sizin mühakimənizə göndərirəm. Bu sahəni siz yaxşı bilirsiniz. Mən dissertasiyamda göstərmişəm ki, Kərkük dialektində səs artımı və səs düşümü hadisəsindən birinci danışan Əta Tərzibaşı olmuşdur. Bu fikri «Arzu-Qənbər»ə verdiyim girişdə də təsdiq edirəm.

Əta bəy, son vaxtlar Mövlud Taha Qayaçı və başqalarından məktublar alsam da, sizin haqqınızda məlumatım dəqiq deyil. İşləriniz necədir? İndi nə üzərində işləyirsiniz?

Mənim işlərim yaxşıdır. Rəsul Rza münasibətlərimizin daha geniş vüsət almasına çox çalışır. Onun üç kitabını sizə göndərirəm. Əgər şeirlərdən xoşunuza gələn olsa, «Qardaşlıq» dərgisində vermək yaxşı olardı.

Məktubumu burada sona yetirərkən sizə uzun ömür, cansağlığı, işinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

Səmimiyyətlə: sizin Qəzənfər.
Bakı, 3 mart 1971».

«Hörmətli Əta bəy!

Zəhmət çəkib göndərdiyiniz məktubu aldım. Latın hərfləri ilə çap etdirdiyiniz «Arzu-Qənbər» isə hələlik çatmayıb. Doğrudur, bu barədə doktor Abbas Zamanovdan eşitmişdim.

Əziz Əta bəy, məni hər şeydən əvvəl «Arzu-Qənbər» kitabına yazdığım müqəddimənin sizə necə təsir bağışlaması və ümumiyyətlə, kitab haqqında fikriniz maraqlandırır.

Bəyim, mənim çapa hazırladığım «Kərkük mahnıları» kitabında sizin «Kərkük havaları» kitabınızdan götürdüyüm «Musiqi həyatımıza toplu bir baxış» adlı gözəl elmi məqalənizin getməsi burada böyük marağa səbəb olacaqdır. O ki qaldı məqalənin qısaldılmasına, mən də istəməzdim ki, orada qısaltmalar edilsin. Ancaq «Kərkük mahnıları» kitabı özlüyündə kiçik olduğuna görə giriş məqaləsini çox da geniş vermək olmaz.

Əta bəy, mən sizin məqalənizin haradan götürüldüyünü vermək üçün notdan istifadə etməyi münasib bilmədim. Başqa yolla gedərək «Bir neçə söz» başlığı altında belə bir yazı verdim:

«Oxuculara təqdim etdiyimiz bu kitab İraq respublikasının şimalında yaşayan və son məlumata görə sayı yarım milyonu keçən (bax: «Qardaşlıq», №6, 1970) Kərkük xalqının mahnılarının az bir qismini əhatə edir. Kitab Əta Tərzibaşının 1961-ci ildə nəşrinə müvəffəq olduğu «Kərkük havaları», Əhməd Fikrinin «Sevilən mahnılar» (Kərkük, 1961), Əhməd Otraqçı oğlunun «Səs sənətkarlarımız» (Kərkük, 1964), müğənni Əbdül Vahid Kuzəçi oğlunun «Xoyrat və bəstələr» (Kərkük, 1966), «Ərbildən bir səs» (Kərkük, 1966) kitabları əsasında tərtib edilmişdir.

Əlbəttə, gözəl tədqiqat əsəri olan «Kərkük havaları»nı başqa kitablarla müqayisə etmək olmaz. Bu kitab bir çox məziyyətlərinə görə fərqlənir. Biz də «Kərkük mahnıları»nı tərtib edərkən həmin kitabdan daha çox faydalanmışıq. Əta bəy

«Kərkük havaları» kitabına 35 səhifəlik giriş vermişdir. Həmin məqaləni, oxucuların marağına səbəb olacağını güman edərək, bəzi qısaltmalarla kitabda verməyi lazım bildik».

Əziz Əta bəy, bəlkə, bu il İraqda görüşmək bizə bir daha qismət oldu. Məsələ burasındadır ki, mənə yenidən İraqda işləməyi təklif etdilər. Böyük məmnuniyyətlə razılıq verdim. Axı dostlarla, tanışlarla görüşmək, doğma yerləri yenidən görmək kimin ürəyindən olmazdı.

Hələlik bu qədər.

Məktubumu sona yetirərkən sizə bu yeni ildə yeni-yeni müvəffəqiyyətlər, şəxsi həyatınızda xoşbəxtlik diləyirəm.

Hörmətlə: qardaşınız Qəzənfər Paşayev.
Bakı, 20 yanvar 1972-ci il».

«Kərkük, 17 aprel 1972-ci il.
Hörmətli doktor Qəzənfər bəy!

Bundan bir ay öncə aldığım məktubunuzun cavabını işlərimin çoxluğu səbəbindən təxir etdimsə, qüsura baxmayınız. Siz hər zaman könlümüzdəsiniz. Çapa hazırladığınız yeni əsərinizdən dolayı başarılar diləyirəm.

Qaynaq olaraq «Kərkük havaları» kitabımızdan başqa «Səs sənətkarlarımız», Əbdül Vahid Kuzəçi oğlunun «Xoyrat və bəstələri», «Ərbildən bir səs» adlı kitablardan da istifadə edərkən diqqətli olmağınız vacibdir. Çünki bu kitablarda bizim nəğmələr arasına girən yabançı nəğmələr də vardır ki, bunlar bəstəkarlarımızın nəğmələri arasına qarışmışdır. Mən kitabıma sadəcə olaraq xalq nəğmələrini almışam.

İkinci məktubunuzda yazdığınıza görə «Arzu-Qənbər» kitabından 20–30 nüsxə daha göndərəcək idiniz. İndiyə qədər bizə ulaşmamışdır. İlk dəfə göndərdiyiniz bir qaç nüsxəyi arxadaşlara verdim. Lütfən mümkün olursa bu kitabdan heç ol-

mazsa on nüsxə təhidli poçta ilə bizə göndərəsiniz. Bu nüsxələri iki bağlama halında göndərsəniz daha yaxşı olur.

«Arzu-Qənbər» kitabının latın hərfləri ilə nəşri əgər sizə lazım isə yazınız. Məmnuniyyətlə göndərərəm. Buraca başqa bir arzunuz da varsa bildiriniz. Yerinə yetirməyə çalışaram.

Artıq gözlərinizdən öpür, şən və sağlam qalmağınızı dilə-yirəm.

Əta Tərzibaşı qardaşınız».

«Əziz doktor Əta bəy!

Zəhmət çəkib yazmış olduğunuz 17.04.72-ci il tarixli məktubu aldım. Məktubunuz İraq haqqında olan xatirələri təzələdi. Sizinlə «Qardaşlıq» nadisində olan görüşüm yada düşdü. Gözəl məsləhətləriniz, elm haqqında əla fikirləriniz bir daha fikrimdən keçdi. Təşəkkür edirəm, bəyim!

«Arzu-Qənbər» kitabının sizə çatmamasına təəssüflənir və iki bağlama göndərirəm. Cəmi 25 kitab. Yaxın günlərdə sizə çatar.

Əta bəy, mənim nəşrə hazırladığım «Kərkük mahnıları» kitabına dair gözəl məsləhətlərinizə görə də sizə dərin təşəkkürümü bildirirəm. Əvvəllər sizə yazdığım kimi həmin kitabda sizin «Kərkük havaları» kitabına yazdığınız məqalə gedəcəkdir. Sizi əmin edirəm ki, həmin məqalə kitabın qiymətini – dəyərini daha da artıracaqdır.

Əziz doktor, sizin «Arzu-Qənbər» kitabının İstanbul nüsxəsi burada hamının marağına səbəb oldu. Rica edirəm həmin kitabdan daha bir neçə nüsxə göndərəsiniz – Rəsul Rza, prof. Şirəliyev, prof. Dəmirçizadə, prof. Təhmasib, prof. Abbas Zamanov və başqaları üçün.

Yeri gəlmişkən, prof. Təhmasib sizin «Əsgilər sözü» kitabınız haqqında «Ədəbiyyat və incəsənət» qəzetində məqalə çap etdirib. Əgər sizə çatmayıbsa göndərim.

İndilikdə isə «Qardaşlıq» jurnalında çıxan bəzi yazılar və s. haqqında bizim qəzetdə gedən yazıları və öz fotomuzu sizə göndərirəm.

Bu yaxınlarda bizim folklor haqqında sizə və Mövlud Tahaya daha bir neçə kitab göndərəcəyik.

Burada məktubuma son verərkən sizə yeni-yeni müvəffəqiyyətlər diləyir, şəxsi həyatınızda səadət arzulayıram.

Səmimiyyətlə: kiçik qardaşınız Qəzənfər.
Bakı şəhəri, 5 may 1972-ci il».

«Kərkük, 20.11.70.
Sayın qardaşım Qəzənfər!

Bahəddin qardaşımıza göndərdiyiniz məktubdan namizədlik diplomu almağınızı eşidəndə nanca sevindigimi təsəvvür etməzsiniz! Biz kərküklü qardaşlarınız üçün illərlə çalışaraq, yorğunluq keçirərək dilimizi araşdırdığınıza görə, böyük xidmət üçün sizə dərin minnətdarlığımızı bildirirəm.

Qardaşım, sizinlə çox qısa sürən söhbətlərimizi xatırlayaraq andıqca bir yandan sevincə qatılarkən, o yandan da aramızda sizi bulamadığımız üçün çox üzülürük. İnanınız ki, o dadlı xatirələriniz sayəsində hər bir an belə sizi gözümüzlə görmüş kimi oluruq. Ayrılığın çox acı olduğunu bilirsiniz:

Qızılgül olmayaydı,
Saralıb-solmayaydı.
Ölüm Allahın işi,
Ayrılıq olmayaydı!

Nə olardı bir dəfə də sizinlə buluşmaq fürsətinə qovuşaq!

Yazılarınıza ara verməməki rica edirəm. Yazılarınızdan birər nüsxə mənim payımı göndərməyi unutma. Sənlə buluşa bilmirik, heç olmazsa yazılarınızla buluşaq.

Xalq şeirlərindən «Bizim oğlan» kitabını göndərirəm.

Qardaşım, sizin istəginiz üzrə rəsmimi göndərirəm. Qayışbaldırı xatırlatdığı üçün hürkərək parçalamayınız!! Sizin rəsminizi bəklirəm.

Yaxında sizə «Kərkük – Azərbaycan münasibətləri» adlı bir yazı göndərəcəm.

Rus hərflərinin oxunmasını ögrəndim. Yazmağı hələlik yox.

H.Araslı, R.Rza, A.Zamanov, M.Təhmasib həzrətlərinə acizanə salamlarımı və hörmətlərimi təbliğ ediniz. Onların qələm tutan əllərini öpürəm.

Buradan nə istəkləriniz varsa bildiriniz. Məmnuniyyətlə göndərrəm.

Sizi allaha ismarlayaraq, sizə sağlıq və mutluluq diləyən

qardaşınız Mövlud Taha Qayaçı».

«Bakı, 3 mart 1971.

Əziz dostum, qardaşım Mövlud!

Geniş yazılmış qiymətli məktubunu, gözəl fotonu və dəgərli kitablarını aldım. Sevindim. Şəklinə baxdım. Kərkükdə birgə keçirdiyimiz saatlar, unudulmaz dəqiqələr gözümün önündən keçdi.

Qardaşım, göndərdiyin kitabları ünvanına çatdırdım. Prof. Abbas Zamanov çox təşəkkür etdi və sənə kitablar göndərdi. Kitabları Əta bəyin ünvanına göndərdi. Prof. Məhəmməd Hüseyn Təhmasib sevindi. Xalq şairi Rəsul Rza salam ilə öz kitabını da sənə göndərdi.

Əzizim, mən sizə təşəkkürümü izhar etməyə söz tapmıram. Surətinə baxıram. Heç qocalmayıbsan. Ay evi xarab... Yoxsa mənə kələk gəlirsən. Fotonu elə beş il bundan əvvəl cavan vaxtı çəkdiribsən? (Zarafat).

Mövlud, gözümün nuru, yazılarıma ara verməyəcəyəm. Bir aya kimi «Arzu-Qənbər» dastanı çapdan çıxır. Toplayanı Əta Tərzibaşı, işləyəni Q.Paşayev. Girişdə Əta bəyin həyat tarixi barədə böyük bir yazı vermişəm. Bu il «Kərkük atalar sözləri» kitabı da çapdan çıxasıdır. Gələn il isə «Kərkük mahnıları» adlı kitab çıxacaq. Əgər bu bizim əlaqələrimizin möhkəmlənməsinə kömək etsə məmnun olaram.

Qardaşım, xahişinlə bəzi məqalələrimi və «Kərkük bayatıları» kitabımı sənə göndərirəm. «Kərkük dialektində səs artımı və səs düşümü» adlı məqaləm tamamən yenidir. Fikrini yazarsan. Sənin Namiq Kamal adlı kitabın çox qiymətlidir. Bu qəbildən olan kitablara biz monoqrafiya deyirik. Mustafa Gök Qayanın kitabını almamışam. Rica edirəm göndər. Səbirsizliklə «Kərkük – Azərbaycan münasibətləri» yazınızı gözləyirəm. Salamlarımı Əta bəyə, Şakir Sabirə, Rza Dəmirçiyə, Məhəmməd Xurşidə, Məhəmməd Xəttata, Əbdül Vahid Kuzəçi oğluna, Əhməd Otraqçı oğluna, Bahəddin Salehiyə çatdırmağını rica edirəm.

Səmimiyyətlə: dostun Qəzənfər Paşayev».

«Dəgərli Qəzənfər qardaşım.

Lütf buyuraraq göndərdiginiz kitab və dərgiləri aldım. Çox məmnun qaldım. İraq türkmanlarının ədəbiyyat və folkloru ilə ilgili yazılarınızla çox minnətdar edirsiniz bizi. Dərin biliginiz və yüksək çalışma gücünüzün verimi olan «Kərkük dialektində səslərin avazlaşması» və «Kərkük dialektində səs artımı və səs düşümü» araşdırmalarınız sürəkli bir izləmə və tədqiqat məhsuludur.

Bu qiymətli incələmələrinizi çox diqqətlə oxudum. Səhifə ayağı göstərdiyiniz bəzi qaynaqları oxuyamadım...

Kərkük, Tiləfər, Ərbil, Tuz Xurmatu, Təzə Xurmatu və o təki bölgələrin üzərinə yapdığınız araşdırma çox qiymətlidir.

Bu xüsusda faydalı olur deyə lütfünüzə güvənərək fikrimi söyləyəcəyəm.

1. Daquq şivəsi ilə Kərkük şivəsini ayrı-ayrı veribsiz. Onlar arasında bir fərq yoxdur;

Ərbil şivəsi Azərbaycan dilinin həmən-həmən eynidir. Bu xüsusiyyət üzərində çox durulmalıdır;

Səslərin dəyişməsində, öncə sözün əslini, sonra qarşılığını yazsa idiniz daha əlverişli olurdu. Söz gəlişi: «yaşıl - yeşil»; «heyran - həyran» kimi.

Bu qeydləri söz olsun deyə yazıram. Yoxsa sizə əql öğrətmək iddiasında degiləm, qardaşım!

Professor Abbas Zamanov mənə çoxlu kitab göndərib. Yerimə təşəkkür ediniz. Yazdığı adresi oxuya bilmədim. Doktor Zamanovun adresini mənə yazınız.

Söz vermişdim Azərbaycan – Kərkük münasibətlərinə dair bir yazı göndərim sizə. Amma «Azərbaycan» dərgisindəki yazınızı oxudum və vaz keçdim. Söyləməyə söz buraxmamışsınız.

Qardaşım, mənə Azərbaycan xalq nağılları və tapmacaları haqqında bir kitab göndəriniz.

Mustafa Gög Qayanın «Quzağ», Sabir Dəmirçinin «Məhzun könlüm» və Hüseyn Şəhidzadənin kitablarından birər nüsxə postladım.

Son vermək istəyirəm məktubuma. Səni o qədər görəsim gəlmiş ki, nerdə bulsam yanaqlarını öpüşlə qoparacağam! Nə olur bir daha uğraşasız bizlərə!

... Barı bizi ovunduracaq bir rəsminizi göndəriniz.

Gözlərinizdən öpürəm.

Qardaşınız Mövlud Taha Qayaçı.
Kərkük, 11.04.1971*».*

«Kərkük, 04.09.1972.

Çox-çox dəgərli Qəzənfər qardaşım, qiymətli məktubunuzu və ardınca da dəgərli ərmağanınızı aldım. İndi vəzifəm Kərkükdə olmadığı üçün cavab yaza bilmədim. Bu qüsuru bağışlayacağınıza əminəm. Sizin adresinizə sizə, prof. Abbas Zamanov və Rəsul Rza üçün Saleh Növrəsin «Aynada zaman» şeir kitabını göndərdim. Bu gün də sizə və A.Zamanova Aydın Kərkükün «Bilməcələr» kitabını göndərdim. Qardaşım, tariximizə dair kitab istəmişdiniz. Ə.Bəndəroğlu onu sizə göndərdigini söylədi. Ulaşmayıbsa, yazınız göndərim.

Ay evi xarab, indi mən bir vaxtlar sənin çalışdığın Samava vilayətinda vəzifədəyəm. Samavalı Əbdül Həmid o vaxt sizin yanınızda çalışdığını bildirir və sizə çoxlu salam söyləyir.

Nəşr etdiyiniz «Arzu-Qənbər» kitabı haqqında bir yazı yazdım. «Qardaşlıq»da oxuyacaqsınız.

Qardaşım, bir daha İraqa gələcəyinizi yazırsınız. Çox şad oldum. Mümkün olsa mən sizə təhsil almağa gedəcəm. Amma bu gün bu, imkan xaricindədir. Çünki uşaqlarım və ailəm vardır. Bir imkan olsa gəlləm. Siz də mənə bu xüsusda kömək ediniz.

Göndərdiyiniz rəsmə baxdıqca sizi görmüş kimi oldum.

Qardaşım, dəgərli ustadımız prof. Abbas Zamanov məni lütfə qərq etmişdir. Məni kitab ilə boğmuşdur.

Qardaşım, göndərdiginiz on nüsxə «Arzu-Qənbər»dən yalnız iki nüsxə çatmışdır. Şair Tofiq Bayramın nə şəklini, nə də şeirlərini aldım.

«Qardaşlıq» jurnalını əvvəlki kimi sizə göndərirlər. Bundan sonra iki nüsxə göndərəcəklər.

Əzizim, Kərkük, Türkiyə və Azərbaycan atalar sözləri arasında qarşılaşdırma aparıram. Azərbaycan atalar sözləri haqqında qaynaq yoxdur. Mənə kitab göndərin, yol göstərin.

Məktub çox uzandı. Daha fəzlə yazmaq istərdim. Sözlərimin sonunda bir daha gözlərindən öpürəm, qardaşım.

Qardaşınız Mövlud Taha Qayaçı».

«Dostum, qardaşım Mövlud!

Bayram münasibəti ilə təbrikini aldım. Çox sevindim. Sonra isə düşündüm: dost ərmağanı şirin olur. Yəqin ki, Məhəmməd Sadiqə həsr etdiyin kitabın da bu günlərdə gələr. Səni ürəkdən təbrik edirəm. Bilirəm ki, kitab maraqlı olacaq. Axı onu sən–ömrünü öz müəllimi Əta bəy kimi elmə həsr edən dost yazıb.

Mövlud, qardaşım, sənin ailə vəziyyətin necədir? Dostların Məhəmməd Xəttat və Əhməd Otraqçı oğlu necədirlər?

«Qardaşlıq»da son vaxtlara qədər hamınızın yazılarınızı oxuyurdum. İndi göndərmirlər. Ay evi xarab, sən onlara de ki, göndərsinlər. Bu nə işdir Rza Dəmirçi mənim başıma gətirir? (Zarafat)

Qardaşım, nəhayət ki, «Arzu-Qənbər» çapdan çıxdı. Sənə 10 nüsxə göndərirəm. Birini Məhəmməd Xəttata, Əhməd Otraqçıya, birini gənc Fərrux Həsaməddinə, birini də Rza Dəmirçiyə ver. Qalanları sənin olsun. İstəsən yenə göndərərəm. Kitab, xüsusən də Əta bəy barədə yazım haqqında fikrini yaz. Sənə «Poçt qutusu» kitabını, şair Tofiq Bayramın şeirlərini və şəklini göndərirəm. Rica edirəm həmin şeirlərdən xoşuna gələn olsa «Qardaşlıq»da çap etdir.

...Qardaşım, mənə təklif edirlər ki, ərəb ölkələrində tərcüməçi işləmək üçün razılıq verim. Getmək istəsəm İraq Respublikasını seçəcəyəm. Bəlkə, yenidən sənlə görüşmək, duzlu, məzəli söhbətlərinə qulaq asmaq mənə müyəssər oldu.

Mövlud, bəlkə, sən də bizə məqalələr göndərəsən, burada çapına çalışaq. Məncə, bu yaxşı olar. Hazır nəyin var, mənə yaz. Məsləhətləşək, sonra yazılarını göndər. «Ədəbiyyat və incəsənət» qəzeti «Dayı Mehti» hekayənizi çap edəcəkdir. Bir neçə nüsxə göndərərəm sizə.

Gözümün işığı, burada məktubuma son verərkən sənə ailə xoşbəxtliyi, işində yeni-yeni müvəffəqiyyətlər və möhkəm cansağlığı arzu edirəm.

Həmişəlik dostun Qəzənfər,
Bakı, 12 dekabr, 1971».

«Əziz qardaşım Qəzənfər!

Sizə məktub yazdığımdan uzun bir vaxt keçdi. İndiyə kimi bir cavab almadığım üçün çox narahat oldum. Nigaranam. Bilsəniz mən nə vaxtdır ki, sizdən məktub gözləyirəm, gözüm yolda qalıb. Xahiş edirəm əgər boş vaxtınız oldisə mənə bir cavab yazınız. Məktub gəlməyəndə səbrim tükənir. Bəlkə, son qoyasınız mənim nigarançılığıma. Bilirəm işiniz çoxdur, elmlə məşğulsunuz. Lakin mənim də sizə çox ehtiyacım var. Çünki istəyirəm, mən də elmlə məşğul olum. Qardaşlıq köməyinizə ehtiyacım var. Elmi rəhbərim olsanız xoşbəxt ollam.

Bakıya birinci səfərim oğlum Əhmədin xəstəliyi ucundan oldu. Orada sizinlə və başqa elm adamları ilə tanış, dost, qardaş oldum. İkinci səfərim elm üçün olacaq. İndidən hazırlıq görürəm. Rus dilini öyrənirəm. İraqda Azərbaycan haqqında basılan yazıları, Kərkük Azərbaycan mətbuatında və Azərbaycan ədəbiyyatı Kərkük mətbuatında mövzularda yazıları toplayıram.

Əzizim, xahiş edirəm bu materialları toplamaqda kömək edəsiniz. Bir də mənə söz verin ki, məktəbə dair kitablar da göndərəcəksiniz. Mən sizin bu köməklərinizi heç vaxt yaddan çıxarmam. Ömrümün sonunadək sizinlə dost, qardaş olacağam.

Qəzənfər, qardaşım, mən sizə hansı qəzetləri, kitabları, jurnalları istərsiz göndərim, həmən nə təzə yaxşı kitab çıxsa sizə göndərrəm. Bir qaç kitabça topladım. Bu məktubun cavabın aldıqdan sonra sizə çatar. «Qardaşlıq» nadisinə getdim. Sizin yeni ünvanınızı dəftərlərinə yazdılar. Hər vaxt «Qardaşlıq» dərgisini göndərəcəklər sizə.

Mənim, Xədicənin, oğlum Əhməd və Buşranın salam və sayğılarını Arəstə xanıma çatdırmağınızı rica edirəm.

Bakıda görüşmək arzusu ilə məktubuma son verirəm, vəfalı dost.

Sizin Bahəddin».

«Qardaşım Bahəddin!

Bu gün məktubunu aldıq*. Çox sevindik. Təəssüfləndik ki, bizə görə nigaran olubsan. Mən sənə məktub yazdım. Məktubumun sizə çatmaması məni təəccübləndirdi. Qardaşım, mən heç vaxt sizin məktubunuzu cavabsız qoymaram. Sizdən cavab almayanda düşündüm ki, ünvanınızı dəyişibsiniz. Sinan Bakıya gəlmişdi. Sizi çox sordum özündən.

Bahəddin, sizə nə material lazım olsa göndərəcəyəm. Burada material çoxdur. Mən sizin elmi rəhbəriniz olmağa razıyam. Bunu özümə borc bilirəm. Orada da rəhbərin olsa yaxşı olar. Məncə, ən münasib adam Sinan ola bilər.

Qardaşım, mən bizim Elmlər Akademiyasında danışıb sənə ətraflı bir məktub yazacağam. Bu məktubu sənin xahişinə əməl edərək təcili göndərirəm ki, bəlkə, nigarançılığına son qoya bildim, Kərkük – Azərbaycan ədəbi əlaqələrinə dair XV əsrdən başlamış gözəl material vardır. Gözəl dissertasiyalar, kitablar, məqalələr və s. Sənin mövzun tayı-bərabəri olmayan bir mövzudur.

Xüsusi işləriniz necədir? Xədicə bacı, Əhməd, Buşra necədirlər? İşlərində hansı yeniliklər vardır?

Mən bir az artıq məşğulam. İnstitutda ingiliscə İngiltərənin tarix, coğrafiya və mədəniyyətindən bəhs edən mühazirə oxuyuram. Çox maraqlı mövzudur.

Bu il Əta bəyin «Arzu-Qənbər» kitabının çapına müyəssər oldum. Bir nüsxəsini mənə veriblər. Satışa buraxılan kimi sizə bir neçə nüsxə göndərəcəyəm. Kitaba Əta bəyin həyat tarixi haqda və fəaliyyəti barədə böyük bir giriş vermişəm. Sinanın çox xoşuna getdi. Şübhə etmirəm ki, sizin də zövqünüzə

---

* Qeyd etmək lazımdır ki, Bağdadda 18 iyun 1970-ci ildə azarbaycanca çap olunmağa başlayan «Yurd» qəzetinin 1-ci nömrəsini də bizə Bahəddin Salehi göndərmişdi. Bahəddin qəzetin üstündə bizim hərflərlə yazmışdır: «Öz ana dilimizdə hökumət tərəfindən çapına icazə verilən qəzetin ilk nömrəsini məmnuniyyətlə sizə hədiyyə edirəm, həmişə sizi yad eləyən dostunuz Bahəddin».

uyğun olacaq. Sinan haqda «Ədəbiyyat və incəsənət» qəzetində yazı verdim. Sizə göndərirəm. «Qardaşlıq»da buraxsanız yaxşı olar. Sizə daha iki kitab göndərirəm. «Azərbaycan dilçiləri» kitabında mənim haqqımda yazı var. Şəklimi də veriblər. Başqa bir kitab isə məktəb dərsliyidir. Kitabları alsan yazarsan. Bilim ki, göndərdiklərim sənə çatacaq. Bundan sonra tez-tez sənə kitab göndərəcəyəm.

Kərkük barədə daha nəyim çıxa bilər? Güman ki, bu il «Kərkük atalar sözləri» kitabı çıxdı.

Başqa elə bir yenilik yoxdur. Ancaq sizi ürəyimiz çox istəyir. Arzu edirik ki, sizi bir daha görək. Fərqi yoxdur, Bakıda ya Kərkükdə. Təki arzumuz yerinə yetsin.

Qardaşım, mən Sinana da dedim. Mənə artıq «Qardaşlıq» dərgisi göndərmirlər. Bax, məndən inciyən olmayıb ki! Təşkil edin ki, mənə dərgi göndərsinlər..

Bizdən Xədicə bacıya salam yetirin. Arəstə və mən Əhməd və Buşranı bağrımıza basır və öpürük.

Səmimi salamlarımızı Şakir bəyə, Əta bəyə, Mövlud Tahaya, Məhəmməd Xurşidə, Əhməd Otraqçıya və başqalarına çatdırmağını rica edirəm.

Hörmətlə: dostun və qardaşın Qəzənfər.
Bakı, 14.10.71».

«Əziz qardaşım, unudulmaz Qəzənfər!

Mənə göndərdiyin, məktub çatdı. Çox sevindim. Sevinclə aldım, öpdüm. Çünki əziz bir dostdan gəlib. Qonaqpərvər, sevgili Bakıdan gəlib. Məktubu oxudum. Sevincimin həddi-hüdudu olmadı. Mövlud Tahaya yazdığın məktubu da birgə oxuduq.

Əzizim, sizi heç yaddan çıxara bilməm. Ürəyim sizi, Bakıyı, Bakıdakı dostları çox istəyir. Bizə Bakıda edilən köməklər həmişə gözümüz qabağındadır. Bakıdan gətirdiyimiz kitab

və jurnalları oxuduqca xəyal hər gün bizi Bakıya aparır. Hər gün yoldaşlara Bakıdan danışıram. Filologiya elmləri doktoranızı (İraqda elmlər namizədi alimlik dərəcəsi belə adlanır - Q.P) təbrik edirəm. Arzu edərdim ki, mən də gözəl Bakıda, müdafiənizdə hazır olaydım. Böyük xidmətlər göstərdiz. «Qardaşlıq» jurnalı ərəbcə qismində haqqınızda böyük yazı çap etdi. «Ulduz» jurnalında yazdığınız «Kərkük şairləri» məqalənizə dair M.Xurşid «Qardaşlıq»da yazı çap edəcək. Jurnalı məndən aldı.

Qardaşım, sizin əlifbanızda, öz dilim olan azəri dilində oxuyub-yazmaq üçün çox çalışıram. Bir də rus dilini öyrənirəm. 1971 və 1972-ci illəri rus dilini və öz dilimdə oxuyub-yazmağa, dil öyrənmək üçün qoydum. Bilmirəm, mənim Azərbaycan əlifbası ilə yazım yaxşıdırmı? Oxuya bilirsinizmi? Rica edirəm ki, məktubun cavabını makinədə yazasınız. Makinəydən yazanda yaxşı oxuram.

Mənə məktəbə dair kitablar göndərsəniz doktora üçün material toplaram. Mənim seçdiyim mövzu öz fikrimdə bu idi: «İraq-Azərbaycan ədəbiyyat anlaşmaları». Amma siz məsləhət gördüyünüz «Kərkük – Azərbaycan ədəbi əlaqələri» mövzusunu daha yaxşı gördüm. Sizin mənim elmi rəhbərim olmağa razılıq verdiyiniz üçün təşəkkür edirəm.

Əzizim, bizim ölkədə dil haqqında çox yeniliklər var. Məktəblərimizdə indi öz dilimizdə oxuyur, yazırıq. İndi kitablar öz dilimizdə çap olunacaq. Nə çap olunsa sizə göndərrəm. Hər nə istəsəniz tapıb göndərrəm, qulluğunuzdayam.

Mənim bütün işlərim yaxşıdır. Azərbaycan, rus və ingiliscə kitablar oxuram. Azərbaycanca kitabların həpsin oxudum. Mənə öz xoşunuza gedən kitablardan göndərin.

Şakir dayım Kərkükə gəlmişdi. Salamınızı çatdırdım ona. Sizə məktub yazacaq. Ünvanınızı verdim.

Əta Tərzibaşı, Mövlud Taha, Məhəmməd Xurşid, Kuzəçi oğlu, Məhəmməd Xəttat, Həsən İzzət, Əhməd Otraqçı oğlu və başqa tanışlar salam söylürlər.

Əta Tərzibaşıya yazdığınız məktub çatdı. Mənə bildirdi. Məhəmməd Xurşidin ünvanını göndərirəm. Məktubunuzu gözləyir. Bizdən Abbas Zamanova səmimi salam yetir. Sizin icazənizlə bu uzun məktubumu sona yetirirəm.

Hər vaxt səbirsizliklə məktubun gözlürəm.

Sizin qardaşınız Bahədddin.
İraq, Kərkük».

«Qardaşım Sinan, salamlar!

İndiyə qədər sizə məktub yazmadığım sizin elmi işinizlə bağlı idi. Qardaşım, yenə də bir dəqiqlik yoxdur. Bilirsən ki, hər hansı bir əsərin çap olunması üçün gərək əvvəlcədən planlaşdırıla. Bəlkə, gələcəkdə bir şey çıxdı. Rəsul Rza və Abbas Zamanovla da məsləhətləşəcəyəm.

Raida bacı bu barədə sizə ətraflı danışmış olar.

Qardaşım, bu günlərdə sizdə Sovet – İraq mədəniyyəti günləri başlayır. Bizim mətbuat da bu işlə əlaqədar bir çox yazılar verəcək. Belə yazılardan biri də sizin və mənim fəaliyyətimə həsr olunacaq. Ayaz Vəfalı bizim dissertasiyamızla əlaqədar yazı üzərində işləyir. Bilirsən ki, onun namizədlik dissertasiyası Füzuli və folklorla bağlıdır. Bir sözlə, Kərkük folkloruna yaxşı bələddir.

Yadımdadır, onun sizin bayatılara həsr olunmuş «Həsrət nəğməsi» məqaləsini yüksək qiymətləndirirdiniz.

Əta Tərzibaşı isə həmin məqaləni oxuyaraq professor Abbas Zamanova yazdığı məktubunda onu «kiçik yaşlı, böyük başlı» adlandırmışdı.

Şübhəsiz ki, onun bu yazısı da Kərkük dolaylarında rəğbətlə qarşılanacaqdır.

Həmin yazı çapdan çıxan kimi sizə və başqa dostlara göndərəcəyəm. Xahiş edirəm ki, bir nüsxəsini Rza Dəmirçiyə, birini Ə.Bəndəroğluna, birini də Xeyrulla Kazıma çatdırasan.

Qardaşım, mənə yenidən ərəb ölkələrinin birində tərcüməçi işləməyi təklif edirlər. Hələlik bilmirəm nə edim? Bəlkə, razılıq verdim. Belə olsa İraqa gələcəyəm.

İşlərim öz qaydasındadır. Arəstə Raida xanıma çoxlu salam söyləyir və xahiş edir ki, ona «Burda» moda jurnalı göndərsin. O ki qaldı mənə, xahiş edirəm «Qardaşlıq» jurnalının daimi göndərilməsini təşkil edəsiniz.

Niyə məktub yazmayırsınız? Bax bu dəfə sizdən küssəm ömürlük olacaq (zarafat). Qorxuduram. Vallah küsə bilmərəm.

Raida bacıya və uşaqlara bizdən salam söylə. Raida bacı «Füzulinin fars divanı» dissertasiyası üzərində işləyirmi?

Burada məktubuma son verərək sizə uğurlar diləyirəm.

Qardaşın Qəzənfər Paşayev.
Bakı, 12.11.72».

Tez-tez üstündə Kərkük şəhərinin mənzərələri olan təbrik açıqlamaları da alırdım.

«*Qardaşım Qəzənfər!*

Novruz bayramınızı candan təbrik edir, sizə cansağlığı və mutluluqlar diləyirəm. Qardaşım, sizə saysız məktub yazdım. Cavab almadım. Səbəbi nə ola?!

Gözüm intizarda cavabınızı bəkləyirəm.

Qardaşın Mövlud Taha Qayaçı.
18 mart 1976».

Kərküklü Bahəddin Salehi bütün məktubları kimi, təbriklərini də bizim əlifba ilə, gözəl xətlə yazıb:

«Qardaşım Qəzənfər!

Bu mənzərə sizə İraq – Kərkük azəriləri şəhrindən, bir zaman görüb-görüşdüyünüz dostlarınızın şəhrindən bir xatirədir. Mənzərəyə baxıb hər zaman bizi xatırlayın. Biz sizi heç vaxt unutmarıq.

Qardaşın Bahəddin Salehi
May 1977».

Molla Pənah Vaqifin anadan olmasının 250 illiyi şənliklərində iştirak edən kərküklü folklorşünas alim Şakir Sabirin çıxışları və yazıları da bəzi məsələlərin aydınlaşdırılmasına kömək edir. Onun M.F.Axundov adına Opera və Balet Teatrındakı çıxışı (23 noyabr 1978) böyük maraq doğurur:

«Hörmətli böyüklər və əziz qardaşlarım!

Mən Vaqifin doğum toyuna qarışmaq üçün İraqdan gəlmişəm. Azərbaycan səmasına girər-girməz, təyyarə hələ buludlarda ikən, biz ilə torpaq arasında görümə bir maneə vardısa da ab-hava, gözəl səma bizə çox şeylər ifadə etməkdə idi. Təyyarədə çalışanların üzləri gülürdü. Şəkərlər paylandı (təyyarə enərkən sərnişinlərə verilən konfetə işarə edilir - Q.P.). Bunu toy, şənlik, düyünə girməmizə az qaldı işarəti sandım. Torpağa ayaq basdıq. Görünüş və toplanış, yer, divar, səma bizə tam ayrı. Bunlar bizdəkinə bənzəmir.

Lakin üzlər mənə qərib deyil. Elə bil onları hər gün Kərkükdə və ətraf yerlərdə görmüşəm. Bu üzlər mənə tanışdı. Bu qan qardaşlarımın üzləri idi.

Yüzlərcə illər bir-birimizdən ayrı düşdüyümüz qardaşlarımızın üzləri. Qovuşduq. Ürəklər bir-birinə coşdu. Göz yaşları çağladı. Bu hüzn sıxıntı ağlamağı deyil, sevinc həsrətdəndi.

Əziz qardaşlarım, indi göz yaşlarını silib də birlikdə danışalım, qonuşalım, dərdləşəlim. Sizləri iyi səadət və rifahda

buldum. Gözəl, bənzəri yox, Bakı şəhrini düyünə hazır bir gəlinə bənzətdim.

Toyuna, düyününə hazır olduğumuz Vaqif bu torpaqda dünyaya göz açdı.

Vaqifin dili, sözü, səsi, üzü biz kərküklülərin qəlbindədir. Onun qanını hər vaxt damarlarımızda duymaqdayıq.

Millət böyüklərini, böyüklər də millətini yaşadır. Böyüklər darlığa, unudulmağa, silinib getməyə üz çevirirlərsə, onun milləti, övladları, nəvələri əlindən tutub durduracaq, tanıdacaq, onu layiq yüksəkliklərə qaldıracaqdır.

Millət dəxi sıxıntılara, fəlakətlərə uğrarsa, onun əlini tutan, yol göstərən, qoruyan onun öz övladları, öz nəvələri, öz böyükləri olacaqdır. Zatən biz babalarımızdan və tarixdən anlamış və öyrənmişik.

Molla Pənah Vaqif üçün bu toy, bu şənlik, bu düyün şayantəqdir bir işdir. Bu gözəl işinizi ürəkdən alqışlayıram.

Əziz qardaşlarım, sizin ədəbiyyatınızı öz ədəbiyyatımız deyə sevmişik. Biz Nizamini, Nəsimini, Füzulini, Vaqifi, Sabiri, Səməd Vurğunu, Rəsul Rzayı, B.Vahabzadəyi, Əliağa Vahidi, Aşıq Ələsgər və başqalarını yaxşı tanırıx.

Biz qəzet və jurnallarımızda bu şairlərdən yazmışıq. Siz də bizdən az yazmamışsınız. Həmid Araslı, Rəsul Rza, Abbas Zamanov, Qəzənfər Paşayev sizi bizə və bizi sizə tanıtmışlardı. Onlara minnətdarıq. Arzum bu çalışmaların artması, çoxalması, arada ədəbi bir körpü yaradılmasıdır.

Mən İraqa dönüşümdə gördüklərimi, eşitdiklərimi, Vaqifin toy və düyününü bol-bol danışacağam. Qəzetlərimizdə yazacağam. Sözümə son verərkən sizi və Bakıyı vəsf və təbrik etmək üçün söz tapmaqda, nə çeşid söz qullanmaqda aciz olduğumu bildirirəm. Çox şadam ki, sizi, Vaqifin nəvələrini, tarixin çeşidli səbəblərindən ayrı düşmüş qan qardaşlarımı gördüm. Birinci və son sözüm budur:

– Yaşasın Nizamilər, Füzulilər, Vaqiflər, Səmədlər yetirən uca millət!

İraq türkmanlarının, kərküklülərin, əkiz qardaşlarımızın salamlarını sizə sonmaq, son söz olaraq deməkdəyəm.

Bakı, 23 noyabr 1968-ci il.
Şakir Sabir».

«*Bakı, 25 noyabr 1968-ci il.*

Qardaşımız Qəzənfər Paşayev üç ilə qədər uzun bir zaman İraqda qalıb İraq türkmanlarının yaşadıqları şəhər və qəsəbələri gəzərək xalq ilə yaxından təmas edirdi. Yazmaqda olduğu əsər üçün luzumlu bilgi toplayır və əlaqədar kimsələr tərəfindən yardım görürdü. Ona yardım edənlərdən biri də mən idim. 1968-ci il noyabrın 19–25-i arası Bakıda Vaqifin 250 illik doğum şənliklərində hazır olarkən Qəzənfər qardaşımızın «Azərbaycan dilinin Kərkük dialektinin fonetikası» adlı əsərini bitirdigini gördüm. İyirmi beş ildən bəri İraq türkmanlarının tarixi, folkloru, dili üzərində çalışaraq kitablar yazdığıma güvənərək qardaşımızın hazırladığı əsərlə tanış oldum. Əsərin ilk tarix qismində (girişində - Q.P.) gördügüm yanlışlıqların düzəlməsini anlatdım. Qəzənfər Paşayev əsərdə yapdığı düzəltmədən sonra onu bir daha mənə oxudu. Bəgəndim.

Hörmətlə demək istərdim ki, dil baxımından çox doğru olan, Kərkük dialektini əhatə edən bu əsərin tarix qismi də bizdəki və tarix kitablarındakı bilgiyə müvafiqdir. Əgər mümkün isə və lüzum görülürsə, əsər müdafiə olunarkən alim qardaşlarımdan bu sözlərimin nəzər-etibara alınması rica olunur.

Şakir Sabir Zabit».

ADƏTİM MƏNİM, HƏYATIM MƏNİM

Vətəninə, xalqına dost münasibəti bəslənən əcnəbi ölkədə çox vaxt yad olduğunu unudur, xalqın sevincinə sevinir, kədərinə kədərlənirsən. İraqda olduğum neçə il ərzində bu qədim mədəniyyət mərkəzinə, onun əhalisinə dostluq hisləri ilə yaşadım. Xeyirlərində, şərlərində oldum. Toy-düyünlərində, bayramlarında da iştirak etdim. Adət-ənənələri ilə yaxından tanış oldum. İraqlıların adət-ənənələri rəngarəngdir. Onların arasında xalqın istək, arzu və tələblərinə cavab verə bilməyənlərinin də, dünən cəmiyyətin inkişafına təkan verdiyi halda, bu gün ona artıq yük olanlarının da şahidi oldum. Onların arasında təbəssüm doğuranı da, kədər gətiräni də çoxdur. Onların acısı var, şirini var. Yaxşısı var, yamanı var...

İraqlıların sevgiləri, məhəbbətləri, hiddətləri, nifrətləri kimi, qonaqpərvərlikləri də nəhayətsizdir. Bir-birinə qonaq getmək gözəl ənənəyə çevrilmişdir. Heç bir münasibət olmadan belə, xəbərsiz-ətərsiz bir-birinin evinə gedirlər. Ev sahibi belə gəlişə çox sevinir. Əgər evin kişisi evdə yoxdursa, qonaq evə girməz. Onlarda qonaq qəbul edib, qonaq yola salmaqdan şərəfli bir şey yoxdur. İraqlılar bununla fəxr edirlər.

Böyük Şekspirin vaxtında, 1605-ci ildə Avropa ölkələrini gəzəndən sonra: «Qəm-qüssəni, kədəri unutmaq üçün italyanlar yatırlar, fransızlar mahnı oxuyurlar, almanlar içki içirlər, ingilislər teatra gedirlər», - deyən ingilis səyyahı Şərqə – Mesopotamiyaya gəlsəydi, onların qonaqpərvərliyinə qibtə ilə yazardı ki, bu ölkədə qəmi, qüssəni, kədəri unutmaq üçün birbirinə qonaq gedir, deyir, gülür, şadlanırlar.

İraqlıların qonaqpərvərliyi bəzən əcnəbiləri mat qoyur. Tanımadığın bir adam sənə salam verir, yüz ilin tanışı kimi səninlə söhbət edir, dərdindən-sərindən danışır. Sənə spirtsiz içkilər – çay, qəhvə, hamuz, koka-kola, pepsi-kola, şaabi təklif edir. İçməsən inciyir, özünü təhqir olunmuş hesab edir. «Demək məni saymırlar», - deyir. Qəribədir ki, bütün ərəb öl-

kələrində olduğu kimi, İraqda da qonaqpərvərlik məsələsində ərəblərin qəlbində avropalılara qarşı bir nisgil qalır. Doğrudur, onlar avropalının qayda-qanuna daha çox riayət etməsini üstün cəhət kimi qeyd edirlər. Avropalının çatışmayan cəhəti isə şərqlilərə görə odur ki, avropalı yalnız öz maddi gəliri barədə düşünür.

Maraqlıdır ki, İraqda nə südlə, nə də limonla çay içirlər. Lakin limon burada çox işlənir. Yeməyi çox vaxt limonla yeyirlər. Bundan əlavə göy limonları əl arabalarına, qutulara doldurub küçələrdə satırlar. Özlərinin bıçağı və duzu da olur. Adamlar limonu kəsir, üstünə duz töküb ləzzətlə yeyirlər.

Limon mövsümü olmayanda limon şirəsi satılır. Yemək vaxtı ondan istifadə edirlər. Bunun böyük xeyri var. Çünki yay vaxtı ölkədə 42 – 48 dərəcə isti olan bir yerdə bədəndəki bütün vitaminlər, duzlar tərlə çıxır. Elə buna görədir ki, orada bütün şirniyyat da duzlu olur. Peçenye, konfet və s. Burada hətta qatığın da üstünə duz töküb yeyirlər.

Kənd yerlərində kişilər başlarına şal bağlayırlar. Ağ, qara zolaqlı şal «şmaq» adlanır. Ağ rəngdə olan şala «qotra» deyirlər. Qışda külək və toz-torpaqdan, yayda isə adamın üzgözünü qarsıdan isti «səmum» küləklərindən qorunmaq üçün bu çox rahatdır. Bundan başqa kişilər «dişdaşə» adlanan ağ don da geyirlər. Dişdaşə çox münasibdir, yayda ağcaqanad və milçəkdən adamı xilas edir. Burada milçək qəribədir: sən qovursan, uçub gəlir, yenə də əvvəlki yerə qonur. Yəqin buna görədir ki, xalq arasında «Bağdad milçəyi kimi tutduğu yeri buraxmır», - deyirlər. Kənd yerlərində varlı adamlar «dişdaşə»ni bahalı pencək parçasından tikdirirlər. Aşağıdan - qıçların çöl tərəfindən ikitərəfli kəsik olur ki, yeriyəndə mane olmasın. Bu donun üstündən pencək geyirlər. İraqda bu geyim ərəblər arasında geniş yayılmışdır.

Kənd yerlərində oturmuş adama salam verəndə salamını ayağa qalxaraq alır.

Yolda kənar adamdan papiros istəmək onlarda həqarət iş sayılır.

Kənd yerlərində oynayarkən xəncər çıxarır, bir-birinin xəncərinə vura-vura atılıb-düşürlər.

İstər böyük olsun, istər kiçik – yolla tək gedəndə öz-özlərinə zümzümə edir, bəzən də ucadan muğamat oxuyurlar. Bir də görürsən ki, dərindən köks ötürüb: «Allah, sən özün kömək et!» - deyirlər.

Kənd yerlərində şagirdlər dərsə ayaq üstə, yol boyu gəzə-gəzə hazırlaşırlar. Sonralar tələbəlik dövründə də bu təsir qalır. Bu adət yəqin vaxtilə evlərdə münasib şəraitin olmaması ilə bağlı yaranıb.

Bizdə işlənən «Ayağını isti saxla, başını sərin» məsəli elə bil onlarda tərsinədir. Qışda başı, üz-gözü şalla möhkəm bağlı, ayağı isə yalın «fəllah» – kəndli və ya çobana rast gəlmək olur.

Səhrada şeyxlər bir yerdən başqa yerə köçəndə qabaqda gedən dəvənin üstünə parıldayan parça atdırırlar ki, qarşıdan gələn bilsin ki, köçdə qadın var, aralı getsin. Yeri gəlmişkən deyək ki, kənd yerlərində qadınlar qəribə bəzək-düzək şeyləri gəzdirirlər. Onlar müxtəlif cür olur. Qızıldan düzəldilib burnun ucuna taxılan «əranə» adlanır. Burnun yanına taxılan qızıl bəzəyə «xəzzamə» və ya «vüərdə mal xəşm» – «burun gülü» deyirlər. Topuqlarına qızıl, halqa taxırlar. Buna «həcil» deyirlər. Cadar-cadar olmuş yalın ayağında halqa, arxasında şələ və ya başında ağır yük olan qadınlara 60-cı illərdə kənd yerlərində tez-tez rast gəlmək olardı.

İraqda qiymətli daşlardan ən sevimlisi firuzədir. Çünki burada, eləcə də bir çox Şərq ölkələrində firuzə xoşbəxtlik və əmin-amanlıq rəmzi hesab edilir.

İraqda kənd qadınları ləl-cəvahiratdan düzəldilmiş zinəti sevmirlər. Onlarda belə bir inam vardır ki, ləl balığın göz yaşından yaranıb. Ən çox yayılmış qadın zinəti «tərciyə» – sırğa,

«əşq bənd» – bilərzik, «əl-əfsa» – yaxaya taxılan qızıl bəzək, «sinqistara» – boyunbağı, «maşallah» – qızların yaxasına taxılan qızıl bəzək, «maazıt» və ya «müntəşə» adlanan qolbənd və «habbasiyyat» və ya «məhbəs» adlanan üzüklərdir.

İdarələrdə bəzən bir otaqda bir neçə nəfər oturur. Hər işçinin stolunun üstündə xüsusi lövhədə onun adı və familiyası yazılır. Kənar adam otağa girəndə ona lazım olan adamın stoluna yaxınlaşır. Başqalarını işdən ayırmır, ad və familiyası ilə həmin işçiyə müraciət edir.

İraqda, bir qayda olaraq idarələrə, müəssisələrə daha yüksək vəzifəli şəxslər gələndə müəssisə rəhbərləri adi paltarlarını geyirlər. Çox vaxt boyunbağı da bağlamırlar. Ümumiyyətlə, İraqda sadə geyinirlər. Çox bahalı paltar geyməyə can atmırlar.

Hara getsən – idarə, nazirlik və s. hörmət əlaməti olaraq:

– Nə içəcəksiniz? - deyə soruşurlar.

Çay, qəhvə, ya da hamuzdan birinin adını çəkirsən. Adətən, soruşan adam özünə də bir içki sifariş verir. Şərt deyil sən içəndən olsun, şərt odur ki, qonağa hörmət üçün özü də bir şey içir.

İraqda bir il ərzində xəstələnən şəxsə yalnız səkkiz günün əmək haqqı bütöv verilir. Sonra isə xəstəlik kağızına əsasən xəstəni öz hesabına məzuniyyətdə hesab edirlər. Yəqin buna görədir ki, hamı sağlamlığına fikir verir. Əmək haqqına dair bu cür qanun xəstəliyə vərdiş etmiş adamların «müalicəsi üçün» yaxşı əlac kimi də diqqəti cəlb edir.

İdarə rəhbərləri sürücünün yanında yox, həmişə arxada otururlar.

İraqda müəyyən sənədi imzalayarkən hərə öz tutduğu vəzifədən asılı olaraq mürəkkəb seçir. Ölkənin prezidenti tünd mavi mürəkkəblə qol çəkir. Prezidentdən başqa heç kim bu rəngdə mürəkkəblə qol çəkə bilməz. Nazirlər qırmızı mürəkkəb və ya qələmlə, nazir müavinləri və böyük müəssisə rəh-

bərləri isə mavi rəng mürəkkəblə imza edirlər. Bir qayda olaraq, hansı sənədin üstündə qırmızı qələmlə «təcilidir» yazılsa o sənədə, doğrudan da, təcili qol çəkilir. İdarə rəhbərləri dəftərxanadan qovluğu alan kimi belə sənədləri seçib növbəsiz yola salırlar.

Dövlət idarələrini bütün yazı ləvazimatı ilə təmin edirlər, yalnız mürəkkəbdən başqa.

İraqda silah gəzdirmək, evdə tüfəng, tapança saxlamaq olar, lakin yazı makinası yox. Dövlət qadağan edib. Zarafatla deyirlər ki, yazı makinası «silahların» ən təhlükəlisidir.

Ərəb ölkələrinə, o cümlədən də İraq Respublikasına dünyanın hər yerindən hər cür qəzet və jurnallar gəlir.

O yerdə ki həmin ölkəyə və onun dostlarına toxunacaq şey olur, o səhifəyə damğa vururlar. Damğada yazılır: «Düşməni tanı!»

O yazılarda ki bir həqiqət vardır, onu yerli qəzetlərdə də çap etdirirlər. Belə yazılar maraq doğurur. Məs: Beynəlxalq sığorta şirkəti uzun illərin tədqiqatından sonra belə qənaətə gəlmişdir ki, ən qorxulu iş və vəzifə qəvvaslıq, sirkdə akrobat olmaq, motosikl yarışlarında iştirak etmək, şaxtada işləmək, ABŞ prezidenti olmaqdır. ABŞ prezidenti olmaq daha qorxulu hesab olunur. Çünki ABŞ prezidenti ya özü camaatı ölümə aparır, ya da onun özünü öldürürlər.

İraqda yaxşı bir adət də vardır. Şəkil çəkdirəndə arxasına nömrə vururlar. Bu nömrə şəklin studiyada saxlanılan neqativinin nömrəsidir. Üç il ərzində nə vaxt istəsən ilk dəfə verdiyin pulun onda biri qədər haqq verməklə altı şəkil sifariş edə bilərsən.

Hər mağaza sahibinin daimi müştəriləri olur. Malı başqalarına nisbətən ona ucuz satırlar. Mağazaya az tapılan mal gələndə öz müştərilərini təmin etməmiş başqalarına satmırlar.

Müsəlmanlar içki mağazalarında işləyə bilməzlər. Burada yalnız qeyri-müsəlmanlar işləyirlər.

Demək olar ki, bütün mağazaların içində və ya qapının ağzında tərəzi qoyurlar. 5 fils atıb çəkini öyrənə bilərsən. Əgər taleyini də bilmək istəyirsənsə, gərək 10 fils atasan. O dəqiqə üstündə sənin taleyin haqqında «yağlı cümlələr» yazılan kağız çıxır.

İraqda dövlətin müəyyən etdiyi miqdardan artıq telefon zəngi üçün pul verməlisən. Ona görə də bütün yerlərdə telefon aparatının yanında qutu qoyulub; zəng eləmək istəyirsənsə, buyur. Lakin əvvəlcə qutuya 10 fils at.

İraqlılar öz aralarında çox nəzakətlə danışır, lakin sözləri çəp düşəndə bir-birini aşağıdakı sözlərlə hədələyirlər: səni iki parçalaram; yerə vurub partladaram; başını yararam; gözünü çıxardaram; vuraram, yerə yıxılıb yuvarlanarsan; başını kəsərəm; dilini kəsərəm; səni doğram-doğram edərəm; ayağını sındıraram; qolunu qıraram; belini qıraram; səni işıq üzünə həsrət qoyaram və s.

Bütün Şərq aləminə məxsus olan danışanda əl-qol atmaq, başını oynatmaq, mimikalardan istifadə etmək iraqlılar arasında da geniş yayılmışdır. Amerika alimi Maykl Aqli tədqiqat apararaq bu qənaətə gəlmişdir ki, ingilislər və finlər danışarkən hərəkətlərdən və mimikalardan, demək olar ki, istifadə etmirlər. Lakin bir saat ərzində italiyalı – 80, fransız – 120, meksikalı isə 180 hərəkətə yol verir.

Tədqiqatçı ərəblər üzərində müşahidə aparsaydı, heç şübhəsiz ki, bu cəhətdən onların ön yerlərdən birini tutduğunu qeyd edərdi. Doğrudan da, ərəblər danışıq zamanı hərəkət və mimikalardan nəhayətsiz istifadə edirlər.

Burada bəzən üzünü qəribə şəkildə taraş etdirənlərə də rast gəlinir. Yanaqların aşağısı və yuxarısı qırxılır, orta qalır. Saqqalın da çənənin aşağısında olan hissəsini qırxırlar. Çənədən dodağa qədər bir xətt qoyulur, dörd yanı qırxılır.

Adətən, ərəblər orta yaşı keçəndən sonra çox kök olurlar. Buna səbəb, əsasən, iqlim şəraitidir. Əgər başqa ölkələrdə ax-

şamlar az yeyirlərsə, ərəb ölkələrində əksinə, axşamlar çox yeməli olurlar. May ayından noyabr ayına qədər hərarət 40 dərəcədən artıq olan zaman gündüzlər yemək çətin olur. Ona görə də onlar gündüz az, axşamlar saat səkkizdən sonra isə doyunca yeyirlər. Yeməklərinin əsasını isə ət yeməkləri təşkil edir. Maraqlıdır ki, təzə-tər turpun zoğunu və kiçik yarpaqlarını yeyir və onun sağlamlıq üçün əhəmiyyətli olduğunu göstərirlər.

İraqda hərbi xidmət əvvəllər məcburi deyildi. «Bədəl» - «əvəz» verməklə, yəni dövlətə müəyyən miqdarda pul verməklə hərbi xidmətdən yayınırdılar. Sonralar bu ləğv olundu. İran – İraq müharibəsi başlanana qədər hər qırx beş gün xidmətə görə əsgərə icazə verilirdi ki, yeddi gün evlərinə getsin. Əgər əsgər yaxında qulluq edirdisə cümə axşamı xidmətdən sonra evə gedir, cümə günü evdə qalır, şənbə günü isə hərbi xidmətə qayıdırdı.

İnqilaba qədər (1958) varlı adamın bir hadisə nəticəsində həbsxanaya düşərkən pul verib başqasını öz yerinə qoymasına təsadüf edilirdi. Həmin adamın ailəsinə müəyyən miqdar pul verilər, o isə illərlə həbsxanada oturarmış.

İraqda qara rəngli ayaqqabı geyməyi çox sevirlər. Odur ki, çox toz-torpaq olduğundan ayaqqabını tez-tez təmizləmək lazım gəlir. Ayaqqabı təmizləyənlərin üzünə bütün qapılar açıqdır. Hətta nazirliklərə, banklara, şirkətlərə girib məsul işçilərin ayaqqabılarını təmizləyirlər. Küçələrdə isə cərgə ilə düzülüb müştəri gözləyirlər. Ayaqqabını təmizləmə qiyməti çox ucuzdur.

İraqlılar küçə qapısına ya zəng asırlar, ya da halqa və kiçik çəkic. Onunla qapını döyürsən, eşidib o üzdən: «Kim lazımdır?» - deyə soruşurlar.

İki nəfər söhbət edəndə başqası, heç ona dəxli olmasa da, söhbətə qarışır. Söhbət edərkən, telefonla danışarkən və s. «bəli», «bəli», «bəli» deyərək söhbətə diqqətlə qulaq asdığını göstərməlisən. Bu, bir adətdir.

İngiltərədə təsadüfi adamla hava haqqında, ləyaqətli adamla siyasətdən danışdıqları kimi, İraqda təsadüfi adamla dindən, ləyaqətli adamla dünyanın gedişindən, var-dövlətdən danışırlar.

Bir şey haqqında, nəyisə yerinə yetirmək haqqında fikirləri qəti olanda deyirlər: «Mən Həsən edəcəyəm bunu!» «Mən Cabir danışacağam onunla!»

Kiçik qəsəbə və şəhərlərdə yerli adamlar hətta yay vaxtı belə yolun ortası ilə gedirlər. İlk vaxtlar təəccüblənirdik. Sonralar biz də qış aylarında onlar kimi etməli olurduq. Çünki evlərin mətbəxlərindən və hamamdan çıxan su küçə boyu arxda yığılır və palçıq-çirkab olur. Odur ki, adamlar küçənin ortası ilə gedirlər. Adət etdiklərinə görədir ki, bəzən başqa fəsillərdə də yolun ortası ilə gedirlər.

Hər hansı səbəbdən bir əşirətdə adamın ölümünə səbəb kəs o biri əşirətə pənah aparsa, dövlət nümayəndəsi gəlib aparınca həmin əşirət onu ələ verməz. O biri əşirət zor işlətsə qan düşər.

Ərəblər arasında belə bir adət də var: əgər birində gözəl bir şey görüb sidq-qəlb ilə onu tərifləsən mütləq deyəcək: «Buyur, sənə verdim. Qurbandı sənə». Bəzisi isə səni məcbur edəcək ki, onun «hədiyyəsini» qəbul edəsən. Bu indi ən çox kənd yerlərində qalır. Şəhər yerində hər cür «bicliyi» bilirlər.

Bir dəfə Bağdad universitetini bitirmiş dostum Həmid Abdullanın əlində, doğrudan da, gözəl bir bıçaq gördüm. O biri ərəb mütəxəssislərinə zarafatla dedim ki, tərifləyib, əlindən alacağam. Bizə yaxınlaşanda dedim: «Həmid, sənin nə gözəl zövqün var, nə əla bıçaqdır». Çox tərifədim. Bir şey çıxmadı. Həmid özündən razı halda dedi: «Bəs nə bilmişdin, qardaşın pis şey alar?!»

Ölkənin hər yerində belə bir adət dərin kök salıb: məclisə gəlib əyləşən şəxslə hamı növbə ilə salamlaşır - «əlla bil-xeer» (Hər vaxtın xeyir olsun). Həmin adam isə oturduğu yerdən

bir az qalxıb hamıya bir-bir «əlla bil-xeer» cavabını verir. Səhər vaxtı «Sabah əlla bil-xeer», axşam vaxtı isə «Mesah əlla bil xeer» deyirlər. Bu adət ilk vaxtlar mənə gürcülərin eyni sağlıq ətrafında bir-bir çıxış etmələrini xatırladır və təbəssümümə səbəb olurdu.

İraqda kişiyə «Abu filankəs» – «filankəs atası», qadına «Umm filankəs» – «filankəs anası» deyə müraciət edirlər. Əgər qadın və ya kişinin bir neçə oğlu varsa, onu böyük oğlunun adıyla çağırırlar. Əgər bir neçə qızı və hətta beşikdə olan bircə oğlu olsa belə, yenə oğlunun adıyla çağırırlar. Mən həmişə oğlan və qız övladı barədə mübahisə edəndə, amerikalıların «Oğlan oğlundur – evlənənə qədər, qız qızındır – ömrünün axırına qədər» atalar sözünü misal çəkəndə gülümsəyir, çiyinlərini çəkir, «Ətimizə-qanımıza işləmiş adətdən necə əl çəkək», - deyirdilər.

«Abu» sözü İraq dialektində çoxmənalı sözlərdəndir. Tarixən Məhəmməd-Abu Casim, Əli-Abu Hüseyn, Əhməd-Abu Şahab, Əbid-Abu Samir, Talib-Abu Müştaq, Xələf-Abu Zeydən, Həmid-Abu Məcid, Cavad-Abu Kazım, Mahmud-Abu Şakir, Abdulla-Abu Nəcim, Fazil-Abu Abbas, Saleh-Abu Mehti və s. qəbul olunmuşdur. Tərtər-Fərat kanalı tikintisinin baş direktoru Məhəmməd Həbubi hələ evlənmədiyindən hamı ona «Abu Casim» deyə müraciət edirdi. Evlənəndən sonra onun oğlu oldu. Adını Saad qoydu. Ondan sonra hamı ona xitab edəndə «Abu Saad» deyirdi. Məhəmməd Həbubi oğlunun adını Casim də qoya bilərdi. Lakin bu şərt deyil.

«Abu» sözü «sahib» mənasında da işlənir. Məs: abul səyyarə – maşın sahibi; abul məxzin – mağaza sahibi; abul bet – ev sahibi; abul ciqair – siqaret sahibi, siqaret satan; abul ləhəm – ət satan; abul baarid – sərinlədici içkilər satan. Bu sözə ayama və ləqəblərdə də çox təsadüf edilir.

Ayamalardakı «abu» sözü də «sahib» mənasında işlənir. Məs: Abu əzan – palazqulaq (adam), Abu ras – toxmaqbaş (adam), Abu tahib – qarınqulu (adam) və s.

İraqa yolunuz düşsə, küçədə polis nəfərinə «Salam, abu İsmail!» deyildiyini eşitsəniz zənn etməyin ki, doğrudan da, onun oğlunun adı İsmayıldır. Orada polis nəfərinə, adətən, «Abu İsmail», əsgərə isə «Abu Xəlil» deyirlər.

İraqda kinoteatrlarda parter ucuz olur və orada, adətən, kasıblar otururlar. Xaricilərin, yerli ziyalıların və varlıların orada oturması həqarət sayılır. Onlar amfiteatrda və ya lojada otururlar. Film arada iki dəfə kəsilir və 10–15 dəqiqəlik fasilə olur. Bu vaxt foyedə sərinlədici içkilər, dondurma, şirniyyat, fındıq, püstə, badam, qoz və başqa çərəzlər almaq olur.

Filmin əvvəlində yaxın gələcəkdə göstəriləcək lentlərdən parçalar verirlər. Bu, yarım saat vaxt aparır. Siqaret, müxtəlif içkilər, yeməklər, geyim-kecim və s. haqqında çoxlu reklamlar da verirlər.

Filmləri, adətən, həftədə bir dəfə, tamaşaçı az olanda isə üç gündən sonra dəyişirlər. Filmlər gündə dörd dəfə nümayiş etdirilir. Əvvəllər, əsasən, işgəncə, kovboy və s. filmləri göstərirdilər. Kinoteatrların qabağında filmlər haqqında məlumat və onun süjetini əks etdirən şəkillər vurulur. Bəzən çılpaq qadın və ya kişi şəkillərinə də rast gəlinir. Ancaq filmdə bu yerlər ümumiyyətlə, olmurdu. Bir dəfə «Erika» adlı çox açıq-saçıq parnoqrafik film göstərirdilər. Film böyük səs-küyə, haqlı narazılığa səbəb oldu. Qəzetlərdə tənqidi yazılar verdilər. Radio və televiziya ilə ziyalılar çıxış etdilər. Dövlətin qərarı ilə belə filmlərin göstərilməsinin qarşısı, demək olar ki, alındı.

Əvvəllər dinpərəst adamlar kinoya getməzdilər, günah sayılırdı. Lakin sonralar bəzi filmlər, o cümlədən də sovet filmləri «Arşın mal alan», «O olmasın, bu olsun» (onlar bu filmə «Zövac Gülnaz» – «Gülnazın ərə getməsi» deyirlər), «Əsgər atası», «Hamlet» göstərilərkən bir çox dindar kişi və çadralı qadınlar da kinoya gəlirdilər.

Bir çox Şərq xalqlarında olduğu kimi, İraqda da birdənbirə iş barədə söhbətə başlamaq qəbul olunmayıb. Gərək hal-

əhval tutasan, o yandan-bu yandan danışasan, bir-iki kəlmə ürəyəyatan söz deyəsən, sonra mətləbə keçəsən. Bu əsas şərtdir. Digər mühüm şərtlərdən biri də budur ki, aşağı vəzifəli şəxsin həll edə biləcəyi bir iş üçün yuxarı vəzifəlinin yanına getməyəsən. Belə olanda bəzən düzələsi iş də düzəlmir. Aşağı vəzifəli şəxs inciyir, xətrinə dəyir. Yəqin ki, bərk istilərdəndir - ərəblər çox «dəymədüşər» olur, asanlıqla inciyə bilirlər. Gün ərzində doqquz dəfə görüb salamlaşdığın, «şlyonok? - necəsən?, bəəd şlyonok? - sonra necəsən?» - dediyin adamla gərək onuncu dəfə görüşəndə də salamlaşa, hal-əhval tutasan. Yoxsa düşünə bilər ki, görəsən nə olub ki, filankəs mənimlə salamlaşmadı.

İşin gedişi, müvəffəqiyyəti bəzən belə xırda münasibətlərdən, qəbul olunmuş adət-ənənəyə hörmətdən asılı olurdu. Mənə elə gəlir ki, bu məsələlərdə ixtisasca müəllim olan tərcüməçilər müəllimlik sənəti onlara səbirli, dözümlü və təmkinli olmaq kimi keyfiyyətlər aşıladığından üstünlük qazanırdılar.

Tərtər - Fərat kanalı tikintisində iştirak edən sovet mütəxəssisləri maşın sürmək üçün İraqın sürücülük vəsiqəsini almalı idilər. Belorusiyalı tərcüməçimiz Viktor Voloşenkonu mütəxəssislərə qoşub sağlamlıq kağızı almaq üçün Ramadiyə göndərdik. Onu deyim ki, xaricilərə hörmət əlaməti olaraq onları İraqda idarələrə növbəsiz buraxırlar. Lakin müəssisə rəhbərinin yanında adam olanda gərək içəri girməyəsən, gözləyəsən. Tərcüməçimiz bu adi etikanı gözləməmiş, birbaşa içəri girmiş, «sağlamlıq kağızı verən həkim üç gündən sonra gələcək» cavabını almışdı.

Səhərisi gün baş həkimin müavininin yanına getdik. Onun cavan bir adam olması məni, doğrudan da, təəccübləndirdi, sevindirdi. Həkim bunu hiss etdi. Onu ürəkdən təbrik etdik. Məlum oldu ki, hələ subaydır. Xahiş etdim ki, biz vətənə dönənə qədər evlənsə mütləq bizi də toya dəvət etsin. Zarafatla

dedim ki, qoxmasın, yeyib-içib qaçan deyilik. Onlarda toylarda siyahı tutmaq adəti bizdə də olub. – Tez evlən, – dedim. – Bu dəyişikliyi ki mən İraqda görürəm, bu adət tezliklə aradan çıxacaq. – Hamı güldü.

Sonra səhiyyənin on il əvvəlki vəziyyəti, indiki böyük irəliləyişindən söhbət açdıq. Tərtər – Fərat kanalı tikintisindən, onun çəkilişi başa çatdıqdan sonra xalqın güzəranının daha da yaxşılaşmasına kömək olacağından danışdıq. Elə buradaca kanalda işləyən mütəxəssislərə sürücülük vəsiqəsi almaq üçün sağlamlıq kağızı lazım olduğunu bildirdik. Gənc həkim göstəriş verdi ki, məktubda adları göstərilənlərə sağlamlıq kağızı hazırlayıb, qol çəkmək üçün ona gətirsinlər.

Əvvəlcə çay içmişdik. Həkim bizi yenidən hamuza və qəhvəyə qonaq etdi. Mütəxəssislər mat qalmışdılar. Kimsə özünü saxlaya bilmədi:

– Bəs bizi müayinədən keçirməyəcəklər?

Həkim gülə-gülə dedi:

– Biz yaxşı bilirik ki, sağlam olmayan adamı Sovetlər xaricə işə göndərməzlər.

Bu gənc həkimin ağlı, dərrakəsi, mədəniyyəti bizi valeh etmişdi.

İraqlıların adət-ənənələrinə əməl etdikdə işləmək çox asan olurdu. Tərtər – Fərat kanalı tikintisində texnika üzrə Baş sovet mütəxəssisinin müavini, ərəb ölkələrində əvvəllər də işləmiş moskvalı Vladimir Fomenko bu cəhətdən xüsusilə fərqlənirdi. O, «Romada olanda özünü romalılar kimi apar», - atalar sözünü elə bil sırğa edib qulağından asmışdı; ərəblərin adət-ənənələrinə tam əməl edirdi. Ərəblərin onun hansı xahişinisə yerinə yetirmədiklərini görmədim. Onu da deyim ki, hörmət qarşılıqlı idi. Bir dəfə dedi ki, sabah cümə günüdür, uşaqları Bağdada ekskursiyaya aparmaq istəyirlər. Müəssisənin baş direktorunun əmri ilə cümə günü avtobusları qarajdan buraxmırlar. Gedək baş direktorun müavinindən sabaha bir avtobus alaq.

Cavad Əlvaş bizi həmişəki kimi yaxşı qarşıladı. Armudu stəkanda adama bir çay içdik. Sonra Fomenko dedi:

– Məni təbrik edin, Baş Sovet mütəxəssisi mənə yeni vəzifə tapşırıb. Məni məktəbə hami təyin edib...

– Təbrik edirəm, təbrik edirəm! Fomenko elə-belə, guya sözarası deyir:

– Sabah uşaqları Bağdada aparıb muzeylərdə onlara ərəb tarixi dərsi keçmək istəyirlər. Avtobus isə yoxdur.

Gülüş səsləri otağı başına götürür.

– Bir halda ki, sizə yeni vəzifə həvalə ediblər və siz bu işə bizim tariximizi gənc nəslə öyrətməklə başlayırsınız, avtobus sizin qulluğunuzda hazırdır.

Yenidən gülüşürük. Adət üzrə səmimiyyətlə bir-birimizin əlini sıxıb ayrılırıq.

Adətə görə yüksək səviyyəli nümayəndə heyəti ölkəni tərk etməzdən əvvəl vida məclisi qurulur. Vida məclisini ən yaxşı restoranda - «varite» olan yerdə təşkil edirlər.

Yetmişinci illərdə iki ay su təsərrüfatı, torpaqşünaslıq, balıqçılıq və elektrikləşmə üzrə Sovet dövlət nümayəndə heyətinin tərkibində işləyəndən sonra bu yüksək qəbulda iştirak etmək mənə də qismət oldu. Qeyd edim ki, elektrikləşmə üzrə danışıqları vaxtilə Mingəçevir Su Elektrik Stansiyasını tikənlərdən biri, indi SSRİ Baş Elektrikləşdirmə İdarəsi rəisinin birinci müavini İslam İslamzadə aparırdı. Qəbul axşam saat 10-da başlandı. Bizim üçün stolu səhnənin qarşısında açmışdılar. Konsertdə dünyanın müxtəlif ölkələrindən gəlmiş müğənni və rəqqasələr iştirak edirdilər. Konsert saat 12-dən sonra başlandı. Ən maraqlı nömrələrdən biri, hamının intizarla gözlədiyi ərəblərin məşhur «Göbəkatdı» rəqsi idi. Deyirdilər ki, həmin gecə dünyanın bu rəqs üzrə ən gözəl ifaçısı – Misir rəqqasəsi çıxış edəcək. Rəqqasə səhnədə görünən kimi sürəkli alqışlar qopdu. O, çox gözəl oynayırdı. Birdən bizim stola yaxınlaşdı. Yenidən sürəkli alqışlar qopdu. Sən demə

adətə görə rəqqasə məharətini qonaqların – nümayəndə heyətinin stolunun üstündə də göstərməli imiş. Ömrümdə belə şey görməmişdim. O, stolun üstündə də məharətlə rəqs edirdi. Nə bir boşqab, nə bir piyalə sındırdı. Onun oyunu hərarətlə qarşılandı. Onu da deyim ki, rəqqasələr rəqs edəndə yerli adamlar da onlara qarışıb oynayırdılar. Həmin axşam Ukrayna rəqsi «Kazaçok» və rus rəqsi «Kalinka» da məharətlə ifa olundu. Zaldakıların təkidi və sürəkli alqışları altında «Kalinka»nı təkrar etdilər.

Qadınlara münasibətdə ərəblər bir çox xalqlardan fərqlənirlər. Ərəb qadınları ərlərindən icazəsiz evdən çıxıb bir yana gedə bilməzlər. Qəribədir ki, qadınlarını çadrada, dörd divar arasında saxlamaları ilə fəxr edən bəzi kişilər məmnuniyyətlə parnoqrafik filmlərə baxır «varite»lərdən həzz alırlar. Özgə vaxt evdə əlini ağdan-qaraya, isti sudan soyuq suya vurmadıqları halda, qonaq olanda hər şeyi mətbəxdən özləri gətirir, qulluq edirlər. Qadınlar «pərdə arxası fəaliyyətlə» kifayətlənməli olurlar. Onları üzə çıxmağa qoymurlar.

Qadınlara həqarətlə baxanlar da vardır. Ərəb dənizçiləri onları gəmidə aparmaq istəmirlər. Deyirlər ki, qadın gəmidə bədbəxtliyə səbəb olur. Buna görədir ki, bəzi ərəb ölkələrində gəmidə gedən qadınlar kişilərə nisbətən iki dəfə çox pul verməli olurlar. Bundan başqa, kişilər göyərtədə gedə bildikləri halda, qadınlar gecə belə göyərtəyə çıxa bilməzlər.

Ərinə xəyanət edən, onun namusuna ləkə gətirən qadınların həyatı son vaxtlara qədər faciəli ölümlə nəticələnirmiş. İndinin özündə belə ölkənin cənubunda – göllərdə yaşayan ərəblər arasında namussuzluğa görə qadını öldürürlər.

İraqda qərəzlə adam öldürəni ən ağır cəzaya məhkum etdikləri halda, 50-ci illərdə namus üstündə adam öldürəni göllər diyarında cəmisi üçcə il azadlıqdan məhrum edirdilər. Göründüyü kimi, qadınların namusu məsələsinə bu ölkədə çox ciddi baxırlar. Maraqlıdır ki, M.Qorkinin «xalq təfəkkü-

rünün ən gözəl abidələri arasında ən bitkini, ən əsaslısı» adlandırdığı, bədii gücü, tərbiyəvi əhəmiyyəti, xarakterlərinin kamilliyi və rəngarəngliyi ilə min bir diyarda ünvan tapmış «Min bir gecə» nağıllarının meydana gəlməsi də bununla əlaqədar olmuşdur…

...Belə nəql edirlər ki, Şəhriyarın gözəlliyi aləmə səs salan gənc arvadı vardı. Şəhriyar onu həddən artıq sevir və arvadının da onu çox sevdiyini düşünürdü. Lakin bir gün arvadının onun namusuna ləkə gətirdiyini öz gözləri ilə görür və ölümünə hökm verir. Bundan sonra belə qərara gəlir ki, kim onun arvadı olsa nikah gecəsinin səhəri günü tezdən öldürüləcəkdir. Beləliklə, o, bir çox gənc qızın ölümünə bais olur. Vəzir çox əlləşir, Şəhriyarı bu yoldan döndərə bilmir. Məsələdən hali olan camaat ölkədən baş götürüb qürbətə pənah aparır. Günlərin birində Şəhriyar bildirir ki, vəzirin gözəl qızı Şəhrəzadla evlənmək fikrindədir. Vəzir onun əl-ayağına düşür, yalvarır ki, gözünün ağı-qarası bircə balasını məhv etməsin. Əvvəlcə öz əli ilə illərlə onun atasına və özünə sədaqətli qulluq etmiş qoca vəzirini öldürsün, sonra belə bir nikaha yol versin. Lakin nə onun yalvarışları, nə də göz yaşları bir fayda verir. Vəzir evə çox pərişan gəlir. Qızı çox təkid etdikdən sonra həqiqəti ona danışır. Ata-bala qanlı göz yaşı tökürlər. Toy axşamı qara-qorxu yazıq Şəhrəzadı çulğalamışdı. Onun başında bircə fikir tüğyan edirdi: həyatını necə xilas edə bilər?! Onun dadına nə çata bilər?.. Birdən onun üzü gülməyə başladı. Elə bil üstündən ağır bir dağ götürmüşdülər. Haradansa yadına düşdü ki, atası hökmdarın nağıla çox həvəskar olduğunu söyləmişdi. Xoşbəxtlikdən Şəhrəzad məharətli nağıl söyləyən idi. «Bəlkə, ona nağıl danışmaqla həyatımı xilas edə bildim». Fikirləşib maraqlı nağıllardan bir neçəsini ürəyində götür-qoy etdi. Bir az sakitləşdi. Bu, dünyagörmüş qoca vəzirin nəzərindən yayınmadı. Qızından qaş-gözlə bir şey öyrənmək istədi. Şəhrəzad təbəssümlə, çox mələhətli səslə pıçıldadı ki, həyat nağıl kimi şirindir. Qoy mənimki elə nağılla bitsin.

Qoca vəzir barmağını dişlədi. Məsələdən hali oldu. Şəhrəzad özünü çox şux, əsl şahzadə kimi aparırdı. Şəhriyar ömründə belə məlahətli səsə malik bir qadın görməmişdi. Onun danışığı, qəmzəli baxışları, şux gülüşü Şəhriyarı məftun etmişdi.

O gecə Şəhrəzad ən sevimli nağılını danışdı. Nağıl o qədər maraqlı, o qədər məftunedici, o qədər ibrətamiz idi ki, hökmdar səhərin nə vaxt açıldığını bilmədi. Lakin nağıl hələ bitməmişdi. Nağıl hökmdarı o qədər tutmuş, o qədər düşündürmüş, o qədər təsirləndirmişdi ki, o, ölüm hökmünü bir gün təxirə saldı.

İkinci gecə şahzadə nağılın davamını danışdı. Ancaq nağıl başqa nağıla calandı və səhər açılana kimi bitmədi. Hökmdar yenə də ölüm hökmünü təxirə saldı. Şəhrəzadın ovsunlayıcı nağılları min bir gecə davam etdi. Hökmdar ölüm hökmünü unutmuşdu. Nağıllar bitəndə o, ölüm hökmünü ləğv etdi. Beləliklə, «Min bir gecə» nağılları meydana gəldi.

«Min bir gecə» nağıllarının yarandığı Dəclə-Fərat sahillərində bu gün də ailə, nikah və toyla əlaqədar bir çox maraq doğuran adətlər vardır.

AİLƏ, NİKAH, TOY ADƏTLƏRİNDƏN

Deyək ki, günlərin birində həddi-büluğa çatmış Məhəmməd bildirir: «Evlənmək istəyirəm». Əlbəttə, açıq şəkildə söyləmir. O, bunu oturuşu-duruşu, evdə uşaqlarla qaba rəftarı və danışığı, evə gec gəlməsi və s. ilə bildirir. Məhəmmədin anası ürəyində oğlunun boya-başa çatdığına sevinir. Ərinin yanına gedir. «Abu Məhəmməd, oğlun evlənmək istəyir», – deyir.

– Evlənsin də. Qohumlarımızda azmı qız var? Beləliklə, evdə hamının intizarla gözlədiyi an gəlib çatır. Bacısı, ya da bibisi Məhəmmədlə danışır:

– Bəsdir avara-avara gəzdiyin. Atan sənə toy etmək istəyir. Qohumlarımızdan kimi istəsən onu alacaq.

Sonra bir-bir qohum qızların adını çəkir. Məhəmməd istədiyi qızın adı çəkilənə qədər «istəmirəm, istəmirəm» deyir, onun adı gələndə isə dillənmir. Məsələ aydın olur.

Əgər o, qohumlarından yox, başqa bir yerdən qız istəyirsə, gününü qara edirlər. Kənd yerində mütləq qohum qızlarından birini almaq məcburiyyəti qarşısında qalır. Şəhər yerində hər şey Məhəmmədin dəyanətindən asılıdır.

Qohum qızını alanda Məhəmmədin anası qızgilə gedir və anasına deyir: «Oğlum qızını istəyir. Soruş, qızınız razıdırsa, verin, razı deyilsə, lazım deyil». Sonra sövdələşmə başlanır. Adətən, qohum qızına «sıyaq» – «başlıq» yad qızına verilən başlıqdan beş-on dəfə az olur. Əsasən, elə buna görədir ki, qohum qızı almağa çalışırlar. Başlığın bir hissəsini qıza xərcləyirlər. Bər-bəzək, zinət, qab-qacaq, barxana, mebel və s. alırlar.

Əgər başqa yerdən qız alırlarsa, əvvəlcə tanış-bilişdən onları yaxşıca öyrənirlər. Sonra «Umm Məhəmməd» bir bəhanə ilə qızgilə gedir və «Umm Leyla»ya deyir ki, Məhəmmədin atası sizinlə qohum olmaq istəyir.

«Umm Leyla» əri ilə danışır. Qıza «Filankəsin oğlu sənin adını çəkib», - deyir. Qız: «Atam bilən yaxşıdır», - deyir. Onlar də Məhəmmədgili hərtərəfli yoxlayırlar.

Bir neçə gün sonra «Umm Məhəmməd» təsadüfən Leylagilin evinin yanından keçəndə su içmək istəyir. Su içəndən sonra «elə-belə» əvvəlcə olan söhbəti yada salır. Leylanın anası deyir ki, belə söhbətlər üçün evin kişisi var. Məhəmmədin anası sevinə-sevinə evə gedir. Sonra «Abu Məhəmməd» küçədə «təsadüfən» Leylanın atasını görür və kiçik bir məsələ üçün onlara gəlmək istədiyini bildirir. Vaxt təyin edirlər.

Təyin olunmuş vaxt, o, iki-üç ağsaqqalla Leylagilə gedir. Orada da üç-dörd ağsaqqal qohum olur. Uzun-uzadı «şlyonok?» - necəsən?», «bəəd şlyonok?» - «daha necəsən?», «şlyonok, zen?» - «yaxşısanmı?», «şaaku maku?» - «nə var, nə

yox?»dan sonra vaxtın hiss olunmadan keçib getdiyindən, cavanlıqlarından söz salır, mətləbə keçirlər. Başlığın miqdarı barədə də sövdələşirlər. Başlığa kənd yerlərində «sıyaq», şəhər yerlərində isə «müqəddəm» deyirlər. Bir çoxları belə güman edirlər ki, başlıq nə qədər çox alınsa, gələcəkdə kişi «qiymətli» arvadını o qədər çox sevəcəkdir.

Bundan sonra «müəxxər»in – yəni gələcəkdə ailənin başçısı arvadını boşayacağı təqdirdə qadına veriləcək pulun miqdarı barədə razılığa gəlirlər. Bu məsələ həll olunduqdan və qız evi «müqəddəm» aldıqdan sonra kəbin kəsilə bilər. Kəbinkəsmə mərasimi belə olur: oğlanın atası hər iki gənci götürüb iki şahidlə hakimin yanına gəlir. Hakim soruşur: «Oğlum, sən bu qızı istəyirsənmi? Qızım, sən bu oğlanı istəyirsənmi?» Müvafiq cavab alındıqdan sonra evlənmək haqqında şəhadətnamə hazırlanır. Şahidlər də qol çəkirlər. Sonra hakim soruşur: «Qızım, «müqəddəm» çatıbmı?» Müsbət cavab aldıqdan sonra hakim «müəxxər»in sənədini hazırlayır. «Müqəddəm» qohumlar arasında heç bir sənədsiz filansız həll olunduğu halda, «müəxxər»ə dair sənəd hazırlanır. Sənəddə göstərilir ki, əgər gələcəkdə kişi arvadını boşasa, filan məbləğ pul verəcəklər. Əgər qadın boşansa, heç nə almayacaqdır.

Doğrudan da, belə olan halda qadın yalnız paltarını geyinib evdən çıxır. Kənd yerində isə qadın ərindən ayrılmaq istəsə, gərək atası «başlıq» aldığı pulu qaytarsın. Pul qaytarılmamış qadın «talaq» ala bilməz, yəni boşana bilməz. Kişi arvadını boşayanda alınan «müəxxər» ərsiz qalan qadının özünü dolandırması, başqasının əlinə baxmaması, pis yola düşməməsi üçün edilir.

Sonra isə toy olur. Toya bir gün qalmış bəy dostları ilə şəhərin küçələrini gəzir. Tanış-bilişlər onu təbrik edir. Bu vaxt o, qara qumaşdan kostyum geyir. Toydan sonra isə hansı rəngdə desən kostyum geyirlər. Toy vaxtı gəlini və onun cehizini şəhərdə gəzdirir, siqnal verir, musiqi çalırlar. Qadınlar

əllərini ağızlarına qoyub nəfəsləri gəldikcə «ulu-lu-lu-lu-lu-lu-lu» deyə qışqırırlar. Toyda nağara, qara zurna çalınır. Yallı oynayırlar. Xüsusi nişangah qoyub güllə atır, məharətlərini göstərirlər.

Toylar, adətən, yay aylarında, kənd təsərrüfatı məhsullarının bol vaxtı olur. Camaatı toya «bətaqə» - «dəvətnamə» ilə çağırırlar. Yemək qız oğlan evinə gəlməzdən əvvəl verilir. Toyda pul yığırlar. Bu «sicil» - «siyahıyaalma» adlanır. Pul yığılarkən ucadan deyirlər: «Filankəsin canı sağ olsun, bu qədər yazıldı! Filankəsin oğlanlarının toyunda xərcləyək, o da bu qədər pul verdi!» və s.

Bəzi toylarda arzu edənlərə xəlvəti içki verirlər. Toy yeməyi ətli plovdur. Buna «Quzi əla timmen» deyirlər.

Camaat dağılandan sonra bəy tay-tuşları ilə gəlinin otağına gedir və gəlinin rəfiqələrinə deyir:

– Qızlar, siz çıxın!

Dostları bəylə bir az oturur, sonra onu təbrik edir və çıxırlar.

Toydan sonra qız evi onları qonaq çağırır. Bu, toydan ən azı yeddi gün sonra olur. Bəzən bir ildən sonra da çağırırlar. Kənd yerlərində gəlinə bir inək, ya camış, ya dəvə, ya at bağışlayır, bəzən də pul verirlər. Bəyə isə heç nə verilmir. Bir qayda olaraq, qız tərəfin adamları oğlan evinə yalnız bəylə-gəlini qonaq çağırdıqdan sonra gəlirlər.

Çox vaxt qardaşlar evləndikdən sonra ayrılmır, əvvəlki kimi ata-anaları ilə bir yerdə yaşayırlar.

Əlli-altmışıncı illərdə kənd yerlərində gəlini ya atla, ya da dəvə ilə – dəvənin üstündə bəzədilmiş «hodəc»də - «kəcavə»də gətirirdilər.

Kasıblar, ən çox da kənd adamları oğlanlarına yaxın qohumdan – qardaş-bacı qızını, əmiqızını, dayıqızını aldıqları halda, ziyalı müsəlmanlar və xristianlar yad yerdən qız alırlar. Bundan əlavə, xristianlar oğlanla qızın qanını yoxladır,

qan rezusu uyğun gəlməzsə, onların evlənməsinə yol vermirlər. Təbabətin səsinə qulaq asır, gənclərin gələcəkdə böyük əzab-əziyyət çəkmələrini, ağır çətinliklərlə qarşılaşmalarının qarşısını vaxtında alırlar.

İraqda az da olsa nikahın pozulması hallarına təsadüf edilir. Əri boşamış qadın üç ay gözləməlidir. Ola bilsin ki, sabiq əri fikrini dəyişdi, onu qaytardı. Nikahın pozulmasında şiələrlə sünnülərin adətləri fərqlənir. Şiələrdə boşanma iki cür olur: birdəfəlik boşanma və boşanma. İkinci halda bir il ərzində yenidən qovuşmaq olar. Bir il tamam olandan sonra isə nikah birdəfəlik pozulur və sabiq ər «müəxxər»i ödəyir.

Sünnülərdə isə nikahın pozulması daha asandır. Kişi üç dəfə «ənа talik» - «boşayıram» desə nikah ləğv olur. Lakin kişi bu kəlməni bir dəfə deyəndən sonra təkrar etməyə bilər. Müəyyən vaxt keçəndən, deyək ki, bir il, iki il sonra o, bu sözü bir dəfə də təkrar edə bilər. Ancaq kişi «ənа talik» sözünü üçüncü dəfə deməsə nikah pozulmur. Şiələrdə də, sünnülərdə də nikah pozulandan sonra yüz gün qadın kişinin evində qalmalıdır. Bu müddət «uda» adlanır. Əgər məlum olsa ki, qadın hamilədir, nikah uşaq anadan olana qədər pozulmur. Din xadimləri bu ənənəni qədim adətlərin humanistliyi ilə izah edirlər. Lakin burada incə bir mətləb vardır: uşaq ana bətnində olanda ananın, dünyaya gəldikdən sonra isə atanınkı hesab edilir.

Sünnülərdə qəribə bir adət də olub. Arvadını boşayan kişi sonradan peşman olub fikrini dəyişərsə, gərək kiməsə pul verib həmin arvadın kəbinini ona kəsdirə, sonra evinə gətirəymiş. Kəbin kəsilərkən, şərt deyil, qadın kəbini kəsilən kişinin evinə getsin. Elə hal da olub ki, o adam kəbin kəsiləndən sonra arvadı evinə aparıb və sonra da boşamayıb. Bu halda sabiq ər həmin adamdan incisə də, ona heç nə edə bilməzmiş. Camaat onu qınayar, deyərmiş: «Sən boşayıbsan, o kişinin oğlu da qayda-qanunla onu özünə arvad edib». Belə olan hal-

da sabiq ər yalnız kəbin kəsdirmək üçün verdiyi pulu geri ala bilərmiş.

Məlumdur ki, Quranda çoxarvadlılıq qadağan olunmur. Bu öz təsirini 50–60-cı illərdə İraqda da göstərirdi. O vaxt İraqda iki-üç və daha artıq arvadı olan kişilərə rast gəlinirdi.

...1963-cü ildə Nasiriyyə şəhərində, «Ur» mehmanxanasında gecələdik və səhər obaşdan göllər diyarına getmək üçün Suq-əş-Şuyuxa yollandıq. Hava yenicə işıqlaşırdı. Ətrafına palçıq hasar çəkilmiş birmərtəbəli böyük evin yanından keçəndə sovet mütəxəssislərinin baş mühəndisi, moskvalı A.Volınov otaqlardan birinin qabağında bayraq asıldığını gördü və Nasiriyyə Su Təsərrüfatı şöbəsinin müdirindən bunun səbəbini soruşdu. O güldü və dedi ki, gördüyünüz ev şeyxin – mülkədarın evidir. Şeyxin 12 arvadı var. Onun baş arvadının planına görə şeyx növbə ilə qabağında bayraq asılmış evdə gecələyir.

O vaxtlar Bağdadın yaxınlığında yerləşən Fəllucə şəhərində 14 arvadlı çox əsəbi Yusif əl-Ərslan adlı yaşlı bir kişini də gördük.

İraqa 1972–75-ci illərdə səfərim zamanı nəinki çoxarvadlılara, hətta iki-üç arvadı olanlara da rast gəlmədim. Çünki inqilabdan sonra yaradılmış universitetlər və başqa tədris ocaqları xalqın savadlanmasına, şüurunun dəyişməsinə səbəb olmuşdu. Bununla belə, indi şəhərlərdə evlənmək böyük problemə çevrilmişdir. Çünki hamının oxuması üçün böyük imkanlar yaranmış, valideynlər ali təhsil almış qızlarını ərə verərkən oğlan qarşısında ağır şərtlər qoyurlar. Doğrudur, mətbuat bu xoşagəlməz halla mübarizə aparır. Bu baxımdan B.Kamalın məqaləsi maraq doğurur: «Bizim gənclər böyük problemlərlə qarşılaşıblar. Onlar ya heç evlənə bilmirlər, ya da buna yaş keçəndən sonra nail ola bilirlər. Təəssüflə demək lazımdır ki, cavanlarımızın bu probleminin arxasında gənc qızlarımız dururlar. Bizim qızların vaxtında, deyək ki, insti-

tutu bitirən kimi öz tay-tuşlarına ərə getməsi çox çətin olub. Oğlanın qabağına bir neçə şərt qoyulur: gərək özünün maşını, evi və yaxşı iş yeri olsun. Əlbəttə, 21–22 yaşlı gəncin bu tələblərə cavab verməyə imkanı olmayacaqdır. Beləliklə, bir-birini dərindən sevən iki gənc evlənə bilmir. O, bu tələblərə öz zəhməti ilə 45 yaşında cavab verə bilir. Bu yaşda isə o, adət etdiyi həyat tərzini dəyişməyə, evlənməyə o qədər də çalışmır. Beləliklə, neçə-neçə oğlanlarımız, qızlarımız ailə qura bilmir. Cəmiyyətdə anlaşılmazlıq baş verir. Ailə həyatı cəmiyyətin sağlamlığına xidmət edə bilmir. Bunu bizim valideynlərimiz bildiyi halda, köhnə adət-ənənələrdən ayrılmaq istəmirlər. Pul heç vaxt xoşbəxt həyatın meyarı olmamışdır. Bir-birini sevən gənclər maşınsız da keçinə bilərlər».

Yeri gəlmişkən deyim ki, dövlət evlənmək istəyən gənclərə hərtərəfli kömək edir. Kəbin kəsiləndən sonra cavan oğlanın dörd aylıq maaşı həcmində ona yardım göstərilir. «Silfə» adlanan bu pul sonra onun maaşından çıxılır. Yeni evlənənlər ev tikdirmək istəyəndə də, sonralar qaytarmaq şərtilə, dövlət yardım göstərir.

BÖYÜK GÜNAH, KİÇİK GÜNAH

Hər xalqın öz adəti var. Yaponlarda ən yaxın adamı ölən şəxs işə ən yaxşı paltarda çıxır. Hamı ilə gülümsəyə-gülümsəyə görüşür, söhbət edir. «Qəm, qüssə, kədər, hüzn mənimdir. Başqaları nə üçün qəm-qüssəyə bürünməlidir», - deyir. Ərəblərdə bu əksinədir. Əgər birinin ən uzaq qohumu belə ölübsə, gərək özünü elə göstərsin ki, guya ən yaxın, ən əziz adamını itiribdir. Bununla belə, ölünü «murdar» adlandırır, ölümlə əlaqədar işləri çox tez, artıq söz-söhbətsiz görür, təmtərağa yol vermirlər. Onu tez aparıb basdırırlar. Günün birinci yarısı vəfat edən adamı elə həmin gün dəfn edirlər. Bu, görünür iqlim şəraiti və havanın çox isti olması ilə əlaqədar yaranıb.

Kənd yerlərində və kiçik qəsəbələrdə meyit evdən götürülüb basdırılana qədər, toyda olduğu kimi tüfəng və tapançadan atəş açırlar. Cənazəni çiyinlərində aparanda çox sürətlə, bəzən qaça-qaça gedirlər. Qadınlar qəbiristanlığa gedib ən yaxın adamını, əziz balasını belə son mənzilə yola sala bilməzlər.

Cənazəni tabutda aparır, kəfəndə basdırırlar. Cənazəni üç dəfə qəbrə qoyub-çıxarır, sonra basdırırlar. Hərə qəbrə bir ovuc torpaq atır. Sonra həmin evə qayıdır, başsağlığı verirlər. Ehsan vermək məcburi deyildir. Mərhumun «üçü», «yeddisi», «qırxı» və «ili» yad edilir. Mərhumun «yeddisi»ndə halva bişirirlər. Buna «aşa əl-meyt» – «ehsan» deyirlər. Ehsan veriləndə, adətən, pul yığırlar. Yığılan pul «fazal» adlanır. Bu bir borc hesab olunur. Gələcəkdə «fazal» verənin evində ölü düşəndə gərək sən də o qədər pul verəsən. Vəfat edən qadının əri, hətta evdə körpə uşaqlarına baxan olmasa belə, arvadının ili çıxana qədər evlənməz. Mərhumun «üçü»nə qədər mollalar maqnitofon qoyur, ucadan quran oxuyurlar. Qonum-qonşu narahat olur, yuxularına haram qatılır. Bir vaxt «şeytan əməli» adlandırdıqları texnikadan istifadə edənlərin böyük günaha batdığını söyləyən mollalar indi azan vaxtı məscidlərin minbərində də maqnitofondan istifadə edirlər. Nədənsə ölü yerində və məscidlərdə maqnitofondan istifadə «budaa xəfifə» – «kiçik günah», «cüzi günah» hesab edilir.

İraqa birinci səfərim zamanı qızmar günəşi, dözülməz istiliyi ilə məşhur olan bu ölkədə yüzillik «soyuqluq» duyurdum. Burada ən kiçik daşdan uzaq ulduza qədər hər şey dinlə bağlı idi. Dinin böyük təsiri hər addımbaşı özünü göstərirdi. O dövrdə İraqda milli inqilabın ilk illəri idi. Lakin bu ölkəyə üçüncü səfərim zamanı başqa mənzərənin şahidi oldum. Əvvəllər bayram vaxtı məscidlərin özül daşını qoyan iraqlılar indi böyük tikinti obyektinin əsasını qoyurdular. Əvvəllər İmam Hüseynin ölüm gününü geniş qeyd edir, buna xüsusi hazırlaşırdılar. Küçələrdə yarıçılpaq adamlar zəncirlə özlərini döyür, əllərində xəncər dəstə-dəstə küçələrdən keçirdilər. Bir

nəfər başçı olurdu. On beş - iyirmi metr gedəndən sonra dizlərini yerə qoyur, xəncəri başlarına yaxınlaşdıraraq «Ya Əli!», «Ya Hüseyn!» deyə qışqırırdılar. Aşura günü isə İmam Hüseyn məscidinin həyətində elə hadisələr olurdu ki, əsl Hüseyn «müsibəti»nə bərabər: xəncərlə başlarını yarardılar. Bu xəsarətdən ölənlər də olurdu. Bu günlərdə qeyri-müsəlmanların Kərbəla və Nəcəf şəhərlərinə getməsi məsləhət görülmürdü. Doğrudan da, qızışmış fanatiklər qeyri-müsəlmanlara asanlıqla xəsarət yetirə bilərdilər.

1975-ci il yanvarın 23-də dövlət «aşura» dini mərasimini qadağan etdi.

1963-cü ildə Hillə şəhərində işləyirdik. «Aşura» günü yaşadığımız «Xəyyam» mehmanxanasının altındakı mağaza sahibi Xəlillə mən də Kərbəlaya getmişdim. Aradan illər keçsə də şahidi olduğum o mənzərə gözlərim önündən getmir. Qara buludlar səmanı bürüyən kimi, insan dənizi şəhərin küçələrini bürümüşdü. Dəstə-dəstə İmam Hüseynin məscidinə tərəf axışırdılar. Adamlar qapqara tuluqlaşmış kürəklərini, sinələrini döyərək «Ya Hüseyn» deyə-deyə məscidə yaxınlaşırdılar. Əli xəncərli dəstələr xüsusi geyimdəydilər. O yandan isə böyük bir izdiham irəliləyirdi. Ortada yəhərli bir at vardı. Atın üstündə qana bulaşmış paltar, canlı insan əlinə oxşar iki düzəltmə qol vardı. Hönkürtü ilə ağlayan kişilər, üz-gözünü cıran, saçını yolan qadınlar can atır, paltara əl vurur, onu öpür, özlərini şəhid edirdilər. Elə bil İmam Hüseyn on dörd əsr bundan əvvəl deyil, elə indicə öldürülmüşdü. Ən dəhşətli mənzərə az sonra məscidin həyətində «başyarma» mərasimi ilə başlandı. Xəncərin zərbəsindən sonra elə bil yuxudan ayılan bu adamlar həyat eşqinə «Hüseynin müsibəti»ni unudub həkimin yanına imdada qaçırdılar. Özünün getməyə halı olmayanları qohum-əqrəba aparırdı.

«Aşura» mərasimi səhər tezdən başlanırdı. «Əza» adlanan bu mərasim üç hissədən ibarət olurdu. Birinci hissədə küçə ilə

böyük bir dəstə əllərini sinələrinə döyə-döyə gedirdi. Hamının qara paltarda olduğu bu dəstəyə «hadi» rəhbərlik edirdi. O, Kərbəlanın faciəsindən, Hüseynin ölümündən söz açır, camaat isə ağlayırdı. Mərasimin ikinci hissəsi «əza zənəcil» - «zəncir əzası» adlanır. Qara paltar geymiş adamlar zəncirlə çiyinlərinə və kürəklərinə döyürdülər. Burada da dəstəyə hadilər rəhbərlik edirdilər.

Mərasimin üçüncü hissəsi isə «əza kamat» – «xəncər əzası» adlanır. İmam Hüseynin faciəsini yad edən fanatiklər xəncərlə başlarını yarırdılar. Bəziləri isə əhd edib başlarını yarırdılar: «Qoy oğlum olsun, iki dəfə «əza kamat»da iştirak edəcəyəm», - deyirdilər. Lakin bu mərasim sünnülərə aid deyil.

Adam mat qalır. Eyni xalq, eyni din, eyni mədəniyyət. Xalqın yarısı öz başına müsibət açır, yarısı isə bunu kəskin tənqid edir, böyük günah olduğunu göstərir. Fəllucə şəhərinin sakini, dindar, namazqılan Turad kişi «aşura»nın İrandan keçdiyini, dinlə heç bir əlaqəsi olmadığını, qondarma olduğunu ürəkağrısı ilə izah edirdi.

Tərtər – Fərat kanalı tikintisində Baş Sovet mütəxəssisinin maşınının sürücüsü Abdulla ilə söhbətim yaxşı yadımdadır. «Mən dinə inanıram. Çünki qorxuram. Ona görə qorxuram ki, kasıbam. Varlı inanmır. Çünki pulu var, varı var. Varım olsa mən də inanmaram», - deyən Abdullanın səmimiliyinə inanırdım.

İraqda dini bayramlar hicri təqvimi ilə qeyd edilir. Bu təqvimə görə ilin altı ayı 30, altı ayı isə 29 gündən ibarət olur. Beləliklə, ildə 354 gün, uzun ildə isə 355 gün olur. Hicri təqvimi miladi təqvimindən 11 gün qısa olduğundan elə olur ki, bir bayrama eyni ildə iki dəfə təsadüf edilir. Məs: 1974-cü ildə Qurban bayramını yanvarın 2–5-də və dekabrın 10–13-də qeyd etdilər. İraqda rəsmi iş günü olmayan 21 bayram gününün 14-ü dini bayramların payına düşür.

İraqda dini bayramların başlama vaxtı ayın vəziyyətinə əsasən təyin olunur. Belə ki, gecə ayı müşahidə edib, bayra-

mın başlandığını radio və televiziya vasitəsilə xalqa bildirirlər. Odur ki, adamlar bir-birini yalnız bayramdan sonra təbrik edirlər.

Orucluq vaxtı əksər restoran və yeməkxanalar axşam saat altıya kimi bağlı olur. İşləyənlərinin də qapısı açıq olmur. Qapının üzərinə ağ parça salırlar. Bu, o deməkdir ki, yol arxa qapıdandır. Yeməkxanaların pəncərələrini də pərdəylə örtürlər. Axşam saat altıda bütün günü arı pətəyi kimi qaynayan şəhər boşalır. Hamı evə və ya yeməkxanalara tələsir, «fütur»unu - orucunu» qılmaq üçün oturub gözləyir, radio ilə yemək vaxtının çatdığını xəbər verirlər. Saat üç dəfə vurur. Üçüncü siqnaldan sonra yeməyə başlayırlar.

Orucluqda iş zəifləyir. Özləri deyirlər: «İza intə matakul, ven içi qüvvə və iza qüvvə maku, intac həm maku» – «əgər yemirsənsə güc hardan gəlir? Əgər güc yoxdursa, demək məhsuldarlıq da yoxdur».

Kənd yerlərində dini bayramlar zamanı məscidlərin və bir çox evlərin üstündən yaşıl və qara bayraqlar asırlar. Dini bayramlar vaxtı varlılar müəyyən mərasimlər təşkil edir, mərasimdə iştirak edənlərə yemək verirlər. Belə məclislərdə sehrbazlar, gözbağlayıcılar da iştirak edir, müxtəlif oyunlar çıxarır, camaatı aldadırlar.

1973-cü il martın 24-də axşam Fəllucədə peyğəmbərin doğum günü bayramı keçirilirdi. Qonşuluqda yaşayan Məhəmməd dedi ki, bu axşam dərvişlər xəncərlə özlərini vuracaqlar; bunu Allah yolunda edirlər.

Mən onların gözbağlayıcı olduqlarını bildirdim, hiss etdim ki, qonşum ürəyində inamsızlığıma görə məndən incidi. İki gün sonra qonşum bir şəkil gətirib şəstlə dedi: «Buna nədir sözün? İstəyirsən bu saat gedək Müfid Həmid Xəyyadı Fəllucədə sənə göstərim». Dedim: «Ay Məhəmməd, qardaşım, mənim gözümün qabağında İqor Kio qadını mişarlayıb iki yerə bölüb, sonra isə bitişdirib. Bunlara biz gözbağlayıcı

deyirik». Hərə öz fikrinin üstündə durdu. Müfil Həmid Xəyyadın şəkli də məndə qaldı.

Gözbağlayıcıların şəkilləri Fəllucədə satılmağa başlandı. Az keçməmiş hökumət bu şəkillər vasitəsilə həmin sehrbazların izinə düşdü, beş nəfər tutulub hərəsinə bir ildən beş ilə qədər iş kəsildi.

Son vaxtlara qədər din pərdəsi altında hər şeyi edə bilirdilər. Ölkənin cənubu ilə bağlı aşağıdakı rəvayətlərdən də bunu görmək olur.

KABABÇI MUSTAFA

Bir dəfə Amarada, şəhərin məşhur kababxanasında nahar etməli olduq. Lakin biz orada maraqlı və ya qeyri-adi bir şey görmədik. Təəccübləndik. Yuxarı başda dünyagörmüş qoca bir kişi oturub təsbeh çevirirdi. Hamı ona ehtiramla salam verir, çıxıb gedəndə onunla xudahafizləşirdi. Amara su idarəsinin müdiri dedi ki, Mustafa baba kababxananın sahibidir. Biz oradan çıxandan sonra isə qəribə bir əhvalat danışdı.

Cavanlıqda Mustafa həmişəki kimi kabab bişirib-satarkən birisi dörd quş gətirir. Xahiş edir ki, onları qızartsın. Əvvəlcədən haqqını da verir. Bu vaxt qazı bazardan keçirmiş. Qazı qızardılmış quşları görür və Mustafaya deyir ki, quşları ona satsın. Mustafa deyir ki, quşlar filankəsindir. Qazı çıxıb gedir. Mustafanın canına qorxu düşür. Bilir ki, qazı kinli adamdır. Bu, onun yadından çıxmayacaq, yeri düşən kimi ondan hayıf alacaqdır. Əlacsız qalaraq quşları qazının evinə aparır. Qazı çox xoşhal olur və deyir ki, quş sahibinə cavab versin ki, quşlar uçub getdilər. Şikayətə qazının yanına gələndə qazı hər şeyi sülh yolu ilə həll edər.

Mustafa belə də edir. Cavabı eşidən quş sahibinin hirs başına vurur. Mustafanı axmaq, fırıldaqçı adlandırır. Bununla ürəyi sakitləşmir, onu döyməyə başlayır. Camaat quş sahibinin tərəfini saxlayır. Həmişə vicdanlı, böyük-kiçiyin yerini bi-

lən Mustafanın birdən-birə belə hərəkət etməsi onlara ağır gəlir. Hər yandan: «O, bizim pulla varlanıb, qudurub. Öldür onu! - səsləri eşidilir. Yazıq Mustafa qaçıb özünü mehmanxanaya verir, oradan da mehmanxananın damına çıxır. Qəzəblənmiş quş sahibi əlində bir yekə ağac onu burada da haqlayır. Mustafa özünü damdan yerə atır. Tərslikdən mehmanxana sahibinin oğlu bağçada oynayırmış. Mustafa uşağın ayağının üstünə düşür. Uşağın ayağı, Mustafanın isə qabırğası sınır. Mustafanı tutub qazının yanına gətirirlər. Qazı əvvəlcə quş sahibini dinləyib ondan soruşur: - Allah hər şeyə qadirdirmi?

Quş sahibi: «Bəli», - deyə cavab verir. Əks-təqdirdə onu kafirlikdə təqsirləndirib beş il həbsxanaya salardılar.

– Bir halda ki, allah hər şeyə qadirdir, deməli, o, sənin quşlarını uçurda bilərdi. Bu kişini belə günə saldığına görə cərimə olunursan.

Mehmanxana sahibinə isə deyir ki, əgər biri oğurluq edirsə qanuna görə sağ əli kəsilir, biri adam öldürürsə həyatı ilə cavab verir. Get mehmanxananın üstündən hoppan, sən də bunun oğlunun qıçını sındır.

– Allah ömrünü uzun eləsin, qazı əfəndi. Əgər mən bu yaşda evin damından hoppansam, bir dənə də salamat sümüyüm qalmaz. Mən şikayətimi geri götürürəm.

Qazı onu da cərimə edir.

ADƏM-HƏVVA NİŞANƏSİ

Bəsrə şəhərinin yetmiş kilometrliyində Dəclə və Fərat çaylarının qovuşduğu yerdə turistlərin ziyarətgahına çevrilmiş münbit torpaqlı, mənzərəli bir yer vardır. Bura Qurna adlanır. İndi göllərə çevrilmiş ətraf sahələr də beləcə münbit torpaqlı, bağlı-bağatlı bir guşə olub. Lakin baxımsızlıq üzündən daşqın vaxtı bataqlıqlara, göllərə çevrilmişdir.

Dünyagörmüş ağıllı adamlar hiss edirlər ki, Qurna da su altında qalacaq: belə bir əfsanə uydururlar ki, Qurna müqəddəs yerdir. Oradakı alma ağacı Adəm ağacıdır. Guya, burada Adəm-Həvva bağı olub. Sonra isə buna başqa bir rəvayət də əlavə edilir: «Deməzsənmi həmin ağacın dibində İbrahim Xəlil peyğəmbər yatıb və ağacın kölgəsi onun xoşuna gəlib. Buna görə də ağac müqəddəsdir».

Bundan sonra başqa bir əfsanə də uydururlar ki, guya, bir əsgər həmin ağacı kəsmək istəyirmiş. O saat hər iki qolu iflic olub.

Beləliklə, Qurna su altında qalmaqdan xilas olunur və dinə bağlanır. Bu bağlılıq get-gedə möhkəmlənir. İraq tarixçisi Kazım Nasir «Adəm ağacı – həqiqət və əfsanə» adlı məqaləsində bu əfsanəni kəskin tənqid edir, öz dövründə olan hadisəni xatırlayır, Alim yazır ki, iyirminci illərdə Adəm-Həvva ağacı əfsanəsini eşidən bir ingilis əsgəri zarafatla ağaca belə bir lövhə yapışdırır:

«Bu ağac Adəm-Həvva bağının nişanəsidir». Kazım Nasir göstərir ki, zarafat-zarafat tezliklə həmin ağacın yanında böyük bir lövhə də göründü:

«Dəclə və Fərat çaylarının qovuşduğu bu müqəddəs yerdəki müqəddəs ağac əcdadımız Adəmdən qalmadır. O, Adəm-Həvva bağının nişanəsidir».

TOVUZ QUŞUNA SİTAYİŞ

İraqın şimalında nə müsəlman, nə də xristian dininə qulluq edən bir tayfa yaşayır. Onların öz dini, öz adət-ənənələri vardır. Onlar özlərini yezid adlandırırlar. Yezidlər kürdcə danışırlar. Bəzi alimlər göstərirlər ki, bu tayfanın adı Kərbəla yaxınlığında İmam Hüseyni öldürən xəlifə Yezidin adı ilə bağlıdır. Başqaları isə bu sözü kürd şivələrində və fars dilində işlənən «yezdən» – «allah» sözü ilə əlaqələndirirlər.

Yezidlərin allahı şeytandır. Lakin «şeytan» sözünü və eləcə də tələffüzcə bu sözə yaxın olan ərəb sözləri «şat» (axar çay) və «şixatə»ni (kibrit) tələffüz etmirlər. Ərəblərdə şeytan sözü «kələkbaz», «bic», «öz xeyrini bilən» mənasında işlənir və onlar zarafatla «intə şeytan!» – «ay kələkbaz!», «ay şeytan!» deməyi xoşlayırlar.

Bir dəfə Fəllucə şəhərində klubda işləyən Arifə zarafatla «intə şeytan!» dedim. Onun rəngi ağardı. Bir də o kəlməni işlətməməyimi xahiş etdi. Məlum oldu ki, o yezid tayfasındandır.

Müxtəlif məxəzlərin məlumatına görə İraqda 11-60 min yezid yaşayır. İranda və Suriyada da iyirmi minə qədər yezid olduğunu göstərirlər.

Yezidlər tovuz quşuna sitayiş edirlər. Xoruz tovuz quşuna bənzədiyinə görə onun ətini yemirlər. Ceyran əti də yeyilmir. Yaşıl rəngi xoşlamırlar. Yaşıl rəngin bədbəxtlik gətirdiyinə inanırlar. Kişiləri uzun saç buraxır və çox vaxt onu hörürlər. Yezidlərin qadınları ərəblərin qadınlarından nisbətən azaddırlar. Qız öz istədiyi oğlana gedə bilər. Nişanlı qız istəsə nişanını qaytara bilər. Əgər qadının əri bir ildən artıq evdə yoxdursa, qadın başqa ərə gedə bilər.

Yezidlər dostluqda çox möhkəm olurlar. Təsadüfi deyildir ki, ərəblər onlara böyük rəğbət bəsləyir və onları kirvə tuturlar.

İNAMLAR

İraqlılar arasında inamlar geniş yayılmışdır. Onların çoxu bizdəki kimidir. Ayaqqabılarını soyunub yerə qoyanda bir-birinin üstünə düşsə, demək səni səfər gözləyir. Qulağın səslənəndə və eləcə də geyişəndə kiminsə səni yada saldığına inanırlar, sağ əl geyişəndə pul gəlir, sol əl geyişəndə pul gedir, deyirlər.

Lakin həftənin günləri və aylarla əlaqədar inamlar fərqlənir. Həftənin günlərini inam və etiqadlarına görə uğurlu, nəhs, səadətli və s. olmaq baxımından qiymətləndirirlər. Bazar günü paltar yumur, təzə paltar tikmək üçün parça kəsmir, səfərə çıxmırlar. Toyu, adətən, bazar ertəsi və cümə axşamına salırlar. Cümə günü istirahət günüdür. Şənbə günü vacib bir işin də qulpundan tutmazlar; bədbəxt hadisə baş verəcəyindən qorxurlar. Buna görə də şənbə günü barədə deyirlər: «Necə gəldi, elə də getdi». Şənbə yəhudilərin günü hesab olunur.

Əgər çərşənbə günü ölü düşsə, inanırlar ki, evdə bir nəfərin də tələf olmaq təhlükəsi var. Odur ki, qəbrin içinə, cənazənin baş tərəfinə kiçik bir xurma budağı qoyur, qəbrin üstünə isə çiy yumurta sındırıb tökürlər.

Aylarla bağlı inamlar səmanın, ulduzların uzun illərlə müşahidəsinin nəticəsidir. Orta əsrlərdən qalan bu inamlar «nücum elmi» ilə bağlıdır. Hərdənbir, hətta qəzet və jurnallarda adamların hansı ayda, hansı bürc altında dünyaya gəlməsindən asılı olaraq, onların gələcək həyatına, qismətlərinə, bəxtlərinə, səadətlərinə, uğur və müvəffəqiyyətlərinə, talesizliklərinə və s. həsr olunmuş yazılara rast gəlinir. Bütün bunların aşağıdakı on iki bürclə – ulduzlar toplusu ilə təyin olunduğuna inanırlar. Dolça bürcü (20.I – 19.II); Balıqlar bürcü (20.II – 20.III); Qoç bürcü (21.III – 19.IV); Buğa bürcü (20.IV – 20.V); Əkizlər bürcü (21.V – 21.VI); Xərçəng bürcü (22.VI – 22.VII); Şir bürcü (23.VII – 23.VIII); Qız bürcü (23.VIII – 22.IX); Tərəzi bürcü (23.IX – 22.X); Əqrəb bürcü

(23.X – 21.XI); Oxatan bürcü (22.XI – 21.XII); Oğlaq bürcü, (23.XII – 19.I)

Göründüyü kimi, İraqda bürclər müəyyən aylarda görsənir. Onların hansı ayda görünməsindən asılı olaraq müşahidələr aparılır və «nücum elmi»nin təcrübəsi əsasında insanların qismətləri, bəxtləri, uğurları, xoşbəxtlikləri, xasiyyətləri və s. «aydınlaşdırılır».

20 yanvar – 19 fevral (Dolça bürcü). Etiqada görə, Dolça bürcü altında dünyaya gələnlər çalışqan, coşğun və fəal olurlar. İnsanpərvərlikləri ilə həmişə başqalarını cəzb edirlər. Onlar insanların qəm, qüssə, kədərini bölür, onları düçar olduğu bədbəxtlikdən qurtarmağa çalışırlar. Bu adamlarda nəsə qurmaq, yaratmaq arzusu, hissi güclü olur.

Dolça bürcü altında dünyaya gələn qadınlar çox cazibədar və məftunedici olurlar. Onlarla oturub-duranlar heç vaxt usanmırlar. Özlərinin də xırdaçılıqdan, köhnəpərəstlikdən xoşları gəlmir. Bu qadınlar zərif, mehriban, qəşəng, ürəyəyatan, məlahətli olurlar. Hər işə bir gözəllik, incəlik verməyi bacarırlar. Yaxşı rəqs edirlər. Ərə erkən gedirlər. Lakin xoşbəxtlik onlara hərdən nəsib olmur. Əkizlər, Tərəzi, Oxatan və Qoç bürclərinin altında dünyaya gələnlərlə nikahın uğurlu nəticə verəcəyinə inanırlar. Əqrəb, Buğa və Şir bürcləri altında dünyaya gələnlərlə nikah uğursuz hesab olunur. Ən uğursuz nikahın Buğa bürcü, ən xoşbəxt, səadətli nikahın isə Qoç bürcü altında dünyaya gələnlərlə olduğuna inanırlar. Bu nikahın nəticəsində çox gözəl uşaqlar doğulur. Oğlaq və Balıqlar bürcləri altında dünyaya gələnlərlə birgə işin, dostluğun yaxşı nəticə verəcəyinə inanırlar.

Dolça bürcü altında anadan olanlara aşağıdakılar uğurlu hesab olunur: xoşbəxt ay – aprel, avqust; xoşbəxt gün – cümə; xoşbəxt tarix, rəqəm 7; sevimli gül-çiçək – primula (çoxillik bəzək bitkisi); sevimli daş-qaş – ametist (şəffaf göy və ya bənövşəyi rəngli qiymətli daş) – səmimiyyət rəmzi.

20 fevral – 20 mart (Balıqlar bürcü). Bu bürc altında doğulanların incə duyğu qabiliyyəti və təbiətlərində bir əsrarəngizlik vardır. Duyğu onlarda məntiqdən daha qüvvətli olduğundan, onlar tez-tez ətrafdakıları öz bəsirəti və gözüaçıqlığı ilə mat qoyurlar. Lakin özləri bu qabiliyyətlərini hiss etmirlər. Onlar rahatlığı və səliqə-sahmanı xoşlayırlar. Əli-açıq və qonaqpərvər olan bu adamlar çox vaxt qəmginləşirlər. Uşaqlıqdan həyatları yaxşı keçsə, ədalətli, insaflı və səmimi olurlar. Yaddaşları yaxşı inkişaf etdiyindən elmi işə qabiliyyətləri pis olmur. Humanitar elmlər üzrə mütəxəssislər, filantroplar və yaxşı sosioloqlar bu vaxt təvəllüd tapan adamlar arasından az çıxmamışlar. Onlardan çox gözəl musiqiçi, rəssam və heykəltəraş da yetişir.

Balıqlar bürcü altında dünyaya gələn qadınlar, bir qayda olaraq, aydın şəxsi keyfiyyətləri və zərifliklərı ilə seçilirlər. Ay bədirlənən vaxt – yəni ayın ortalarında onların həyat eşqi, gücü, qüvvəsi aşıb-daşır. Təzə ay çıxandan sonra onlarda süstlük, yorğunluq, soyuqluq, ölgünlük özünü göstərir. Onlar zəngin daxili aləmə malikdirlər; onlardan gözəl həyat yoldaşı, ömür-gün yoldaşı, ana olur. Çünki insanlarla yaxşı uyuşa və yola gedə bilirlər.

Buğa, Xərçəng, Qız, Oğlaq bürcləri altında anadan olanlarla nikah münasib sayılır. Əkizlər, Oxatan bürcləri altında anadan olanlarla nikah uğurlu hesab edilmir. Qoç bürcü altında anadan olanlar Balıq bürcü altında doğulan qadınların xoşuna gəlsə də, nikahdan sonra xasiyyətlərin müxtəlifliyi özünü göstərir. Bu nikah münasib deyil. Onun ən qorxulu cəhəti vəfasızlıqdır. Balıqlar bürcü altında anadan olan qadınlar sədaqətsizliyi heç vaxt bağışlamırlar. Əkizlərlə nikah xasiyyətlərin müxtəlifliyinə görə məqbul sayılmır. Lakin hər ikisinin uyuşma qabiliyyəti belə nikahın başa kimi davam etməsinə imkan verir. Şir bürcü altında anadan olanlarla yaxşı münasibətə, rəğbətə, hətta güclü cazibəyə baxmayaraq, nikah

tövsiyə edilmir. Kişinin ehtiraslılığı və qeyri-iradəliliyi nikahın pozulmasına gətirib çıxarır. Oxatan bürcü altında olan kişilərlə nikah nadir hallarda xoşbəxtliklə sona yetir. Qız bürcü altında doğulanlara rəğbət olsa da, cismani yaxınlıq məsələsində müxtəliflik özünü göstərir. Eyni sözləri Tərəzi bürcü ilə əlaqədar kişilər haqqında da demək mümkündür. Lakin onlarla dostluq etmək olur. Dolça bürcü altında anadan olan kişilərlə də nikah uğurlu sayılmır. Kişinin soyuqluğu və təbiətcə adamayovuşmazlığı öz təsirini göstərir.

Balıq bürcü altında anadan olanlara aşağıdakılar uğurlu hesab olunur: xoşbəxt ay – may, iyun; xoşbəxt gün cümə; xoşbəxt tarix, rəqəm – 9; sevimli gül-çiçək – sarı nərgiz, sevimli daş-qaş – akvamarin (göyümtül-yaşıl rəngli, qiymətli daş) – həqiqət rəmzi.

21 mart – 19 aprel (Qoç bürcü). Qoç bürcü altında doğulanlar sağlam düşüncəli, nəzakətli, həlim xasiyyətli olurlar. Firavan yaşamağı xoşlasalar da, bədxərc olurlar. Rahatlığa, səliqə-sahmana can atsalar da, çox vaxt pintilikləri üzə çıxır. Bu adamlarda təmtərağa, açıq, parlaq rəngli şeylər, bayram-sayağı dəbdəbəyə böyük həvəs olur, hər şeydə bir sevinc, şənlik axtarıb tapırlar. Şıltaq və tərslikləri ilə yanaşı, üzüyola, sakit və dözümlü olurlar. Başqaları ilə münasibətdə çox incə və mələhətlidirlər. Lakin tez-tez tərsliyi və şıltaqlığı üzündən xırda şeylər üstündə başqaları ilə küsüşür və barışırlar.

İncəsənət və memarlığı çox sevirlər. Onlardan gözəl bədii tərtibatçı, dekorasiya rəssamı, dərzi və aşpaz çıxır.

Bu bürc altında dünyaya gələn qadınlar adamı məftun edirlər. Onlar gözəl nə varsa sevirlər; gül-çiçək, gözəl paltar, ləziz yeməklər, şərab və s. də daxil olmaqla. Onlar aşiqlərini məftun və müflis edirlər. Lakin ərlərinə vəfalı olurlar. İlin bu çağında doğulanların Qız, Oğlaq, Xərçəng, Balıqlar bürcləri altında anadan olanlarla nikahı uğurlu sayılır. Nikahdan sonra bir-birinə dərin hörmət bəsləyirlər. Münasibətlər sakit dostluq əsasında qurulur.

Şir, Əqrəb, Dolça, Buğa, Əkizlər, Oxatan bürcləri altında anadan olanlarla nikah yaramır, arzuolunmazdır; baxmayaraq ki, xasiyyətlərində uyğun cəhətlər çoxdur. Günləri davadalaşla, dedi-qodu ilə keçir. Bir birlərini cəzb etsələr də, dərin ziddiyyət hər şeyi alt-üst edir. Oxatan bürcü altında anadan olanla nikah heç vaxt yaxşı nəticələnmir, mütləq ailənin dağılmasına gətirib çıxarır.

Qoç bürcü altında anadan olanlara aşağıdakılar uğurlu hesab olunur: xoşbəxt ay - may, iyun; xoşbəxt gün – cümə; xoşbəxt tarix, rəqəm – 6; sevimli gül-çiçək – bənövşə, sevimli daş-qaş – brilyant – məsumluq rəmzi.

20 aprel – 20 may (Buğa bürcü). Bu bürc altında dünyaya gələnlər möhkəm xasiyyətli və təbiətcə hökmlü olurlar. Həyat eşqilə yaşayan bu adamlarda rəhbərlik etmək qabiliyyəti vardır. İstər qadın, istər kişi - nikbin, mənliyini gözləyən, coşarkən mübaliğəyə, şişirtməyə yol verən olurlar. Bu adamlar yerli-yersiz zora əl atmaları və ədəb-ərkana məhəl qoymamaları ilə fərqlənirlər. Lakin qəddar deyillər. Onları başqalarının arzu və istəkləri az maraqlandırır. İşləməyi çox sevirlər. İstəyinə nail olan kimi ona maraqları itir. Keçmiş barədə düşünmədən bu günlə yaşayırlar, haqq-ədalət tərəfdarı olurlar. Səbirli və siyasətçi olmadıqlarına görə tez-tez çətin vəziyyətə düşürlər. Onlar üçün həyatın mənası işdir. Böyük iradə gücü, cəsarət, ani reaksiya onların əla təbib, cərrah, diaqnost olmasına imkan verir. Qəddarlığı və lovğalığı mane olmasa, onlardan yaxşı sərkərdə və jurnalist də çıxar. Xarici cəhətcə sağlam görünsələr də, əsəb sistemləri zəif olur. Onlar bir qayda olaraq, pis ailə başçısı sayılırlar, çünki qısqanc, özündən çıxan və kobud olurlar. Həm də öz dostlarını ailələrindən çox istəyirlər.

Buğa bürcü altında doğulan qadınlar sənətkar olurlar. Çox vaxt da kişi sənətinə üstünlük verirlər. Ailədə başçı olmağa çalışırlar. Oxatan, Oğlaq, Xərçəng, Şir, Əkizlər, Dolça bür-

cü altında doğulanlarla nikah uğurlu sayılır. Tərəzi və Qoç bürcü altında doğulanlarla nikah uğursuz, Balıqlar və Xərçəng bürcləri altında anadan olanlarla – hər iki tərəfin ehtirası ilə bağlı – faciəli nəticələnə bilər.

Buğa bürcü altında doğulanlara aşağıdakılar uğurlu hesab olunur: xoşbəxt ay – iyun, iyul; xoşbəxt gün - çərşənbə axşamı; xoşbəxt tarix, rəqəm – 8; sevimli gül-çiçək – qızçiçəyi; sevimli daş-qaş – zümrüd – xoşbəxtlik rəmzi.

21 may - 21 iyun (Əkizlər bürcü). Əkizlər bürcü altında doğulanlar ağıllı olurlar. Onların maraq dairəsi geniş olur. Hər şeyi bilməyə çalışır, dilləri yaxşı mənimsəyirlər. Şəraitə uyğun hərəkət edirlər. Hissolunmaz incəliklə məlahətlilik, bir yandan da tündməcazlıq və əsəbilik onların qəribəliklərinə dəlalət edir. Bəzi vaxt özlərinə inamsızlıq əmələ gəlir ki, bu da az qalır əsl xəstəliyə çevrilsin. Onların arasından çıxan ziyalılar başqalarına çətinliklə yovuşurlar. Belə adamlar çox əsəbi olurlar. Bəzən hər hansı bir məsələ barədə dərindən düşünürlər və bu az qalır ki, ruhi xəstəliyə gətirib çıxarsın.

İstər elm, istərsə də ədəbiyyat və incəsənət sahələrində dahi və istedadlı adamların çoxu Əkizlər bürcü altında doğulanların arasından çıxır. Onlar fəlsəfə, riyaziyyat və musiqiyə də qabil olurlar. Onları sevmək çətindir, adamlardan qaçırlar. Baxmayaraq ki, onlar özləri, demək olar ki, sevməyə qabil deyillər, nadir halda mehriban olur, başqalarının onları sevməsini istəyir, həmişə qayğı və nəvaziş gözləyirlər.

Onlar ən maraqlı adamlarla belə bir yerdə olmaqdan tənhalığı üstün tuturlar. Tənhalıq isə hərdən onları intihara gətirib çıxarır. İşdə çox vaxt şərikli müəllifə, köməkçiyə və müdirə ehtiyacları olur. Onlar asanlıqla ideya verir, lakin onu yerinə yetirməkdə çətinlik çəkirlər.

Bu bürc altında doğulmuş qadınların yoldaşlığı əla olur. Onlar ağıllı, məzəli, mədəni, şux, hazırcavab olurlar. Onların yanında darıxmaq mümkün deyil. Adamlarla tez dil tapır və

hansı mövzuda desən söhbət edə bilirlər. Sərbəstliyi sevir və müəyyən sənət sahibi olurlar. Onlardan yaxşı idarə rəhbərləri və ticarətçi çıxır. Ərlərinə hörmət edir, həmişə onların köməkçiləri olurlar.

Xasiyyətlərinin yaxınlığına görə Əkizlər, Xərçəng, Şir, Tərəzi bürcləri altında doğulanlarla nikah uğurlu nəticələnir. Şir bürcü altında doğulan şəxs təkəbbürünü boğa bilsə, nikah çox uğurlu olar. Belə hesab edirlər ki, bu nikah ağlın və gücün birləşməsidir.

Qız, Oğlaq bürcləri altında doğulanlarla nikah münasib sayılmır. Onlar arasında yalnız dostluq mümkündür.

Əkizlər bürcü altında doğulanlara aşağıdakılar uğurlu hesab olunur: xoşbəxt ay – aprel, avqust; xoşbəxt gün – cümə; xoşbəxt tarix, rəqəm – 5; sevimli gül-çiçək – qızılgül; sevimli daş-qaş – aleksandrit (qiymətli daş) – sağlamlıq rəmzi.

23 iyun – 22 iyul (Xərçəng bürcü). Bu bürc altında dünyaya gələnlər öz fikir, duyğu və niyyətlərini gizli saxlayır, xəyalpərəst olurlar. Ətrafdakılara qəribə və anlaşılmaz təsir bağışlayırlar. Onların həssas qəlbi, bəzən də xəstə əsəbləri olur. Duyma, hissetmə qabiliyyətləri o qədər inkişaf edir ki, çox vaxt hipnozçu olurlar. Yalnız özlərinə xas qanunlarla yaşayırlar. Məntiq onlara yaddır. Başqaları üçün mənasız görünən bir məsələ onlar üçün böyük problemə çevrilir. Buna görə də başqalarını əsəbiləşdirir, onlarla mübahisə edir, münaqişəyə girişirlər. Bununla belə, sədaqətli dost və yaxşı söhbət yoldaşı olurlar. Təbiəti sevir və onun qoynunda tənha qalmağı xoşlayırlar. Səyahəti də sevirlər. Xasiyyətlərinə görə işdə çətinliklərlə qarşılaşırlar. Özlərinə və başqalarına qarşı çox tələbkar olurlar. Onlardan yaxşı mütəfəkkir, alim, musiqiçilər çıxır. İstedadlı olmayanlar isə vicdanlı məmur və qulluqçu olurlar.

Xərçəng bürcü altında dünyaya gələn qadınlar xəyalpərvər olur, həddən artıq hissə qapılırlar. Odur ki, həyatda əzab-

əziyyətlə qarşılaşırlar. Onlardan qəhrəman da, isterik də çıxır. Bu qadınlar üçün vəzifə borcundan üstün heç nə yoxdur. Ərlərinə vəfalı, əsl ana olurlar.

Şir, Qız, Qoç, Balıqlar, Oxatan və Dolça bürcləri altında doğulanlarla nikah uğurlu sayılır.

Buğa, Tərəzi, Oğlaq bürcləri altında anadan olanlarla nikah münasib hesab olunmur. Nikahdan sonra müxtəlif dünyagörüşə malik bu adamlar arasında fikir ayrılığı, dava-dalaş başlayır, hərə öz aləmində yaşayır.

Xərçəng bürcü altında dünyaya gələnlərə aşağıdakılar uğurlu hesab olunur: xoşbəxt ay – fevral, sentyabr; xoşbəxt gün – bazar ertəsi; xoşbəxt tarix, rəqəm – 13; sevimli gül-çiçək – ağ su zanbağı; sevimli daş-qaş – yaqut – sevgi rəmzi.

23 iyul – 23 avqust (Şir bürcü). Şir bürcü altında doğulanlar zəhmli və eyni zamanda mərhəmətli olurlar. Onlara süni həyəcan, qızışma yaddır. Həmişə təbii və coşğun olurlar. Hamı onlara rəğbət bəsləyir. Onların çox böyük daxili gücü vardır. Qəhrəmanlıq, fədakarlıq göstərməyə qadirdirlər. Onlara şöhrətpərəstlik də xasdır. Bu adamlar həm də xəyalpərəst olur və asanlıqla aldanırlar. Ədəb-ərkanı gözləmədiklərinə və psixoloji duyma qabiliyyəti olmadığına görə səhvlərə yol verirlər ki, bu da əsl fəlakətə gətirib çıxarır. Lakin nə qədər çətinliyə düşələr də, şənlik və zarafatlarından əl çəkmirlər. Onların ən çox acığı gələn şey satqınlıqdır. Həqiqi dost olur, lakin yeni-yeni adamlarla tanışlığa da can atırlar. Bu tip adamlar əliaçıq olurlar. Var-dövlətin və bər-bəzəyin dəlisidirlər. Qonaq qəbul etməyi, qumar oynamağı, idman yarışlarını xoşlayırlar. Nizamsızlıq, səliqəsizlik, israfçılıq həyatlarının axırını kasıbçılıqla keçirməyə gətirib çıxarır. Onlar bütün sənətləri xoşlayır və çox vaxt rəhbər vəzifələr tuturlar.

Şir bürcü altında doğulan qadınlar sevgidə qeyri-iradidirlər. Onlar səmimi və səxavətli olur, vəfasızlığı bağışlamırlar. Bu cür qadınlara çoxları aşiq olur, pərəstiş edirlər. Lakin qü-

rurları kimləsə təsadüfi münasibətdə olmağa onlara imkan vermir. Qadınlarla dostluğu qiymətləndirmirlər. Tam əmin olmasalar ki, gələcək həyat yoldaşı onu səmimi-qəlbdən sevir və o bu məhəbbətə layiqdir, nikaha yol verməzlər. Bu qadınlar gözəl ana və ailə başçısı olurlar.

Tərəzi, Oxatan, Əkizlər, Buğa bürcləri altında anadan olanlarla nikah uğurlu sayılır. Bu sözləri Qoç, Əqrəb, Dolça və Oğlaq bürcləri altında dünyaya gələnlər haqqında demək olmaz. Göstərilən bürclərin altında doğulanların tərsliyi (Qoç), qısqanclığı, «mənəm-mənəm» deməsi (Əqrəb), soyuqluğu, xasiyyətlərinin müxtəlifliyi, həyata baxış və zövqlərinin ayrılığı (Dolça, Oğlaq) nikahın pozulmasına gətirib çıxarır.

Şir bürcü altında doğulanlara aşağıdakılar uğurlu hesab edilir: xoşbəxt ay - yanvar, oktyabr; xoşbəxt gün – bazar; xoşbəxt tarix, rəqəm – 1; sevimli gül-çiçək – lalə; sevimli daş-qaş – olivin (sarımtıl-yaşıl rəngli qiymətli daş) – firavanlıq rəmzi.

23 avqust – 22 sentyabr (Qız bürcü). Qız bürcü altında doğulanlar ciddi xasiyyətli, ağıllı, dərin düşüncəli, məntiqli, aydın baxışlı olurlar. Hamıdan özünü düz aparmağı və dəqiqlik tələb edirlər. Onlarda güclü ehtiras olmasa da çox vaxt qızğın məhəbbətə mübtəla olurlar. Çox zəkalı olan bu adamlar siyasət, iqtisadiyyat və bütün başqa elm sahələrində müvəffəqiyyət qazana bilirlər. Onlar böyük şövqlə qocalana qədər oxuyur, öyrənir, bilik qazanırlar. Adətən, çox yaşayırlar. Adamlar arasında böyük hörmətləri olur. Lakin xırda məsələlər üstündə onlarla söz-söhbətləri düşür.

Qız bürcü altında dünyaya gələn qadınlar çox vaxt cazibədar olsalar da, az ehtiraslı olurlar. İşvə-nazları, qəmzələri ilə ətrafdakıları məftun edən bu qadınlar başqaları ilə münasibətdən son anda vaz keçirlər. Demək olar ki, həmişə utancaq, tanış-bilişləri ilə münasibətləri pərdəli olur.

Tərəzi, Oğlaq, Balıqlar, Şir bürcləri altında dünyaya gələnlərlə nikah uğurlu sayılır. Ümumi maraq, dostluq, cazibəlilik, yaxşı münasibət yaranmasına baxmayaraq, Əkizlər,

Buğa, Oxatan, Dolça bürcləri altında dünyaya gələnlərlə nikah uzun sürmür. Dava-dalaş, xasiyyətlərin başqalığı, ehtirasların uyuşmazlığı, həyata müxtəlif münasibət və s. əvvəl-axır nikahın pozulmasına gətirib çıxarır.

Qız bürcü altında doğulanlara aşağıdakılar uğurlu sayılır: xoşbəxt ay – noyabr, fevral; xoşbəxt gün – çərşənbə; xoşbəxt tarix, rəqəm – 5; sevimli gül-çiçək – sarmaşıq; sevimli daşqaş – sapfir (göy yaqut) – müdriklik rəmzi.

23 sentyabr – 22 oktyabr (Tərəzi bürcü). Tərəzi bürcü altında dünyaya gələnlər təmkinliliyi ilə fərqlənirlər. Söz-söhbət, dava-dalaş, pislik və çətinlikdən qaçırlar. Çalışıb həqiqəti üzə çıxarırlar. Dünyada onlara asayişdən irəli heç nə yoxdur. Onlarda haqq-ədalət hissi güclüdür. Lakin hadisələrin gedişi pis vəziyyət alanda öz etiqadlarını qurban verərək mübarizədən asanlıqla əl çəkirlər. Əgər məcburiyyət qarşısında qalsalar, az da olsa yalana yol verirlər. Tale həmişə onların üzünə gülür. Nəzakətli, xoşrəftar, şən, mehriban, həlim xasiyyətli olduqlarına görə bu adamları cəmiyyət arasında sevirlər. Onlardan gözəl vəkil, diplomat, jurnalist, ticarətçi, aktyor və inzibatçı çıxır.

Tərəzi bürcü altında dünyaya gələn qadınlar məlahətli olurlar. Onların başlıca məşğuliyyəti və arzusu sevib-sevilməkdir. Bəzək-düzək, şirniyyat, çərəz pərəstişkarı olan bu qadınlar çox yatmağı sevirlər. Tərəzi bürcü altında dünyaya gələn kişilər kimi, onların da məzəmmət, çətinlik, söz-söhbətdən zəhlələri gedir. Kiçik bir ziddiyyətdən hiddətlənir və göz yaşı tökürlər. Ərköyün və xudbindirlər. Lakin uşaq kimi mehriban olurlar. Yaxşılıq və pisliyi tez unudurlar. Dünyada hər şeydən çox sevdikləri xoş söz, tərifdir.

Bir şeyə daimi aludə olmurlar. Onların marağı tez-tez dəyişir.

Balıqlar, Şir, Əkizlər, Dolça, Oxatan bürcləri altında doğulanlarla nikah uğurlu, Oğlaq, Xərçəng, Qoç, Əqrəb bürc-

ləri altında doğulanlarla uğursuz sayılır. Çünki qısqanclıq (Qoç), xüsusiyyətçilik (Xərçəng), tündməcazlıq (Oğlaq), əsəbilik (Əqrəb) nikahın davamlılığına mane olur.

Tərəzi bürcü altında dünyaya gələnlərə aşağıdakılar uğurlu sayılır: xoşbəxt ay – avqust, sentyabr; xoşbəxt gün – cümə; xoşbəxt tarix, rəqəm – 6; sevimli gül-çiçək – alabəzək bənövşə; sevimli daş-qaş – almaz – ümid rəmzi.

23 oktyabr - 21 noyabr (Əqrəb bürcü). Əqrəb bürcü altında doğulanların xasiyyətləri ziddiyyətli olur. Onların zahiri mərhəmətsizliyi arxasında yumşaqlıq və kömək etmək meyli gizlənir. Bu tip adamlar böyük həvəslə biliklərə can atırlar. Lakin sonralar bu həvəs keçir və onlar bildiklərini başqalarına öyrətməklə kifayətlənirlər. Bəzən onları sadəlövhlükləri aldadır. Başqa tərəfdən də onlar hər şeyə şübhə ilə yanaşırlar. Bu adamlar maneələri dəf etməkdə çox inadlı olurlar. Hələ cavanlıqdan ömürlük dost və düşmən qazanır və öz işlərinin xatirinə onların yerini dəyişməyi düzgün sayırlar. Fikir, niyyət və duyğularını gizli saxlamalarına baxmayaraq, ətrafdakılar onlarla fikir mübadiləsi edir və çox vaxt sonralar bunun peşmançılığını çəkirlər.

Əqrəb bürcü altında dünyaya gələn qadınlar çox qəmzəli, hissiyyatlı, həris və hər şeylə maraqlanan olurlar.

Balıqlar, Oğlaq, Qız, Xərçəng bürcləri altında dünyaya gələnlərlə nikah uğurlu sayılır. Dolça, Şir, Buğa bürcləri altında dünyaya gələnlərlə nikahın bədbəxtlik gətirəcəyinə inanırlar.

Əqrəb və Qoç bürcü altında dünyaya gələnlər arasında nikahdan sonra söz-söhbət düşsə də, onların uşaqları çox qəşəng və istedadlı olurlar.

Əqrəb bürcü altında dünyaya gələnlərə aşağıdakılar uğurlu sayılır: xoşbəxt ay – yanvar, iyul; xoşbəxt gün – çərşənbə axşamı; xoşbəxt tarix, rəqəm – 8; sevimli gül-çiçək – qırmızı qərənfil; sevimli daş-qaş – topaz (müxtəlif rəngə çalan qiymətli daş) – sədaqət rəmzi.

22 noyabr – 21 dekabr (Oxatan bürcü). Oxatan bürcü altında dünyaya gələnlər təmkinli və ciddi olurlar, həddən artıq sadəliyi ilə seçilən bu adamlar mədəniyyətdən təbiiliyi üstün tuturlar. Çox fəal olan bu adamlar insanları öz arxasınca aparmaq qabiliyyətinə malikdirlər. Onlar qadınların çox xoşlarına gəlirlər. Cəsur, son dərəcə güclü olur, macəra və qəhrəmanlıq arzusu ilə alışıb-yanırlar. Onların bir qismi dənizçi, əsgər, quldur, macəraçı, səfil, başqa bir qismi isə diplomat, mütəfəkkir, tədqiqatçı, arxeoloq, etnoqraf, fotoreportyor olur. Şən, şux xasiyyətli olsalar da, bəzən həyata keçirə bilmədikləri işlərə görə iztirab çəkirlər. Əldə edilən nailiyyətlərlə kifayətlənmir, yeni zirvələr fəth etməyə can atırlar. Onlar qocalıb əldən düşənə qədər yaşamırlar.

Oxatan bürcü altında dünyaya gələn qadınlar da iki qismə bölünür.

Birinci qisim qadınlar hökmlü olurlar. Başqalarına göstəriş verməyi və rəhbərlik etməyi sevirlər. Bu qadınlar daim hərəkətdə olmağı və idmanı çox xoşlayırlar. Ailə həyatına çətinliklə alışırlar. Havalı olur və sərbəstliyi hər şeydən üstün tuturlar. Cəld, çevik və işgüzar olan bu qadınlar hər işin öhdəsindən gələ bilirlər.

Başqa qisim isə müstəqil xasiyyətli, xurafata inanmayan, ağıllı qadınlardır. Onlar incəsənəti, kitabları, dünyagörüşlü adamları sevirlər. Hər şeyi zövqlə, incəliklə yerinə yetirirlər. Bu qadınlar maraqlı və qeyri-adi olurlar.

Dolça, Buğa, Tərəzi və Şir bürcü altında dünyaya gələnlərlə nikah uğurlu, Əkizlər, Qoç, Balıqlar və Qız bürcləri altında dünyaya gələnlərlə uğursuz hesab edilir.

Baxmayaraq ki, Xərçəng bürcü altında dünyaya gələnlə də nikah uğurlu olur, Oxatan bürcü altında doğulanın sərbəstliyə can atması acı göz yaşlarına, ağır vəziyyətlərə gətirib çıxarır. Güclü qarşılıqlı meyillə yanaşı, xarakterlərin daban-dabana zidd olması (Balıqlar, Qız bürcləri) nikahın səadət gətirəcə-

yinə imkan vermir. Səmimilik, çoşğunluq, doğruçuluq (Şir), ehtirasların uyarlığı, təbiətcə yaxınlıq (Tərəzi), bir-birinə dərin rəğbət, hörmət, məhəbbət (Dolça) nikahın çox uğurlu olmasına şərait yaradır.

Oxatan bürcü altında dünyaya gələnlərə aşağıdakılar uğurlu sayılır: xoşbəxt ay - aprel; xoşbəxt gün – cümə axşamı; xoşbəxt tarix, rəqəm – 3; sevimli gül-çiçək – ağ nərgiz; sevimli daş-qaş – giasint (şəffaf, tünd qırmızı rəngli qiymətli daş) – müvəffəqiyyət rəmzi.

23 dekabr – 19 yanvar (Oğlaq bürcü). Oğlaq bürcü altında dünyaya gələnlər fiziki və mənəvi cəhətdən dözümlü olurlar. Uşaqlıqdan öz qarşılarına məqsəd qoyur və qocalanadək bu məqsəd uğrunda çalışırlar. İstəsələr də tutduqları yoldan dönə bilmirlər. Demək olar ki, heç vaxt risq etmirlər. Lakin yeri gələndə hər şeyi alt-üst etməyə, işi korlamağa qadirdirlər. Hərdən müvəffəqiyyətsizliyə uğrasalar da, öz hiss və həyəcanlarını başqalarından gizlədə bilirlər.

Oğlaq bürcü altında dünyaya göz açan qadınlar, adətən, bəstəboy, suyuşirin, lətafətli, səmimi, həssas, incə qəlbli və hərtərəfli inkişaf etmiş olurlar. Onlar şəxsi mənfəətlərini güdmürlər. Ürəklərinin açıqlığı imkan verir ki, son tikələrinə, son qəpiklərinə qədər başqaları ilə bölsünlər. Bəzən aldansalar da, onları avam hesab etmək olmaz. Səmimi, mədəni, dərin düşüncəli, ağıllı və məntiqli olan bu adamlar elmə böyük həvəs göstərirlər. Onlardan yaxşı filosoflar çıxır. Maraq göstərdikləri elm sahəsinə aid hər şeyi oxuyur və hərtərəfli biliyə yiyələnirlər. Bunu başqalarını mat qoymaq və ya valeh etmək yox, özlərinin biliyə olan həvəsləri naminə edirlər. Həyatda rəngarəngliyi sevən bu qadınlar bəzən gərginlik yaratmağı və pərəstişkarlarını acı dəqiqələr keçirməyə vadar etməyi xoşlayırlar.

Oğlaq bürcü altında doğulan kişilər boy-buxunlu, yaraşıqlı olsalar da, geyimlərinə fikir vermədiklərindən başqalarının diqqətini hər vaxt cəlb etmirlər. Onların ən çox hiss

edilən çatışmazlığı ləng olmalarıdır. Sakit və təmkinli olan bu adamlar hər şeyə can atıb həyatlarını mürəkkəbləşdirməyi xoşlamırlar. Səhhətləri zəif olur. Çox doğrucul olan bu adamlar insanların xeyirxahlıqlarına inanırlar. İşlərində məsuliyyət hiss edirlər. Sağlam mühakimələri, başqalarına təsir göstərmək və onlara rəhbərlik etmək bacarıqları vardır. Aralarından mahir sənətkarlar çıxır. Zarafatı duyur və onu qiymətləndirirlər. Ağır anlarda belə bu xüsusiyyət onların köməyinə gəlir. Həyatlarını sakit, öz ürəkləri istəyən kimi tutur və keçirirlər. Bu cür kişilər müşahidəçilik, təşkilatçılıq və real düşünmək qabiliyyətlərilə fərqlənirlər.

Oğlaq bürcü altında anadan olan kişi və qadınlar adətən gec ailə həyatı qururlar. Bununla belə, xoşbəxt olurlar. Həyat yoldaşlarına sadiq qalırlar. Əkizlər, Tərəzi və Şir bürcləri altında dünyaya gələnlərlə nikahın uğursuz, Qız, Balıqlar, Buğa, Xərçəng və Əqrəb bürcləri altında anadan olanlarla nikahın uğurlu olduğuna inanırlar.

ƏSRLƏRİN İZLƏRİ VAR BU YERDƏ

Bəşər mədəniyyətinin intişarında mühüm rol oynayan qədim Urartu və Babil dövlətləri İraq ərazisində inkişaf etmiş və sonra tənəzzülə uğramışdır. Ur və Babil şəhərlərinin xarabalıqları indi də qalır. Ur xarabaları ölkənin cənubunda - Nasiriyyə şəhərinin 15 kilometrliyindədir. Babil xarabaları isə Bağdad – Hillə şose yolunun 95-ci kilometrliyindədir.

...Əsrlərlə bütün dünyanın səcdə qıldığı, gözəlliyinə heyran olduğu Babil şəhərinin görkəmini seyr edirəm. Qəlbimdən qəribə bir hiss keçir. Evimizin yanındakı «Qara düz» dediyimiz sahədəki ucsuz-bucaqsız taxıl zəmiləri, onun kövşənliyi, kövşənlik yandırıldıqdan sonra isə yerində qalan və həmişə əhvalımı pozan külü gözlərim önündən keçir. O vaxt təsəllimi onda tapırdım ki, bura bir az əvvəl bərəkətli tarla idi. Bu hissi Babilə də aid etməyə çalışıram. Onun cah-cəlallı, gəlhagəlli vaxtını düşünürəm. Əsrlərlə mədəniyyət mərkəzi olan Babilin xarabalıqlarını gəzdikcə qəhər məni boğur. Böyük Xaqani yada düşür:

Gərdişin əlilə o gözəl yerlər,
Cəhənnəmə dönmüş indi sərbəsər.

İnsanların amansızlığına, belə bir gözəlliyə necə əl qaldırdığına heyrət edirəm. Məktəbdə Ziyad müəllimin qədim dünya tarixindən öyrətdiklərini yaddaşımın süzgəcindən keçirirəm.

...Babilin alınmaz qalaları, lay-lay açılan geniş darvazaları, insanı məftun edən sarayları, suvarma sistemi və kanalları, gözəl mərasimləri, adət-ənənələri, ağıllı insanları, mahir sənətkarları, var-dövləti, zinəti vardı. Şəhər Fərat çayının Dəclə çayına ən yaxın axdığı yerdə salınmışdı. Babil «babili» – allahların qapısı deməkdir. O, qədim dünyanın ən gözəl və ən məşhur şəhəri olub. Memarlıq, mədəniyyət və elm mərkəzi kimi aləmə səs salmışdı. Əsrlərlə məşəl kimi başqalarına yol

göstərən Babil xalqların səcdəgahına çevrilmişdi. Bu şəhər haqqında tarixçilər qalaq-qalaq kitablar yazmışlar. Yeni eradan əvvəl V əsrdə Babili ziyarət etmiş Herodot bu gözəl şəhərin bol sulu, dərin və sakit axan Fərat çayı sahilində yerləşdiyini və gözəllikdə tayı-bərabəri olmadığını qeyd edir. Yunan və Roma alimləri Babilin «Asma bağları»nı dünyanın yeddi möcüzəsindən biri kimi qiymətləndirmişlər.

Babil on beş əsrdən artıq, yəni yeni eradan əvvəl 1850-ci ildən üzü bu yana Makedoniyalı İsgəndərin hakimiyyətinə qədər dünyanın mədəniyyət mərkəzi sayılmışdır. O, çox «mənəm, mənəm» deyən xaqanlar, hökmdarlar görmüş, çox hökmdarlar burada hökm vermiş, nəhayət, zamanın hökmü ilə yerləyeksan olmuşlar. Onların arasında adı tarixə qızıl xətlə yazılanlar da, lənətlənənlər də vardır.

Qüdrətli hökmdar Hammurapinin zamanında (yeni eradan əvvəl 1792 – 1750-ci illər) Babil birinci çiçəklənmə dövrü keçirmişdi. O, zor və hiylə ilə bütün Mesopotamiyanı özünə tabe etmişdi. Hammurapi böyük islahatçı kimi dünyada birinci qanunlar məcəlləsini yaratmışdı. XX əsrin əvvəllərində qazıntı zamanı tapılan bu qanunlar məcəlləsi yüz iyirmi maddədən ibarətdir. Böyük qara daş sütun üzərində həkk olunan qanunlar məcəlləsinin yuxarısında hökmdarın şəkli də vardır. Bu tarixi abidə indi Parisin Luvr muzeyindədir. Dörd min il əvvəl yaradılmış bu qanunların bir çoxu indinin özündə belə müasir dövlətlərin qanun məcəllələrində yer almaqdadır. Nikah, ailə, oğurluq və s. ilə bağlı qanunlar belələrindəndir.

Yeni eradan əvvəl VII əsrdə assurilər Babil şəhərini darmadağın etdilər. Lakin çox keçmədən hökmdar Navuxodonosorun vaxtında (yeni eradan əvvəl 605–562-ci illər) Babil yenidən tikildi. Onun ikinci çiçəklənmə dövrü başlandı. Şəhərin ətrafında dərin xəndəklər qazıldı. Şəhərin təhlükəsizliyini təmin etmək üçün 16 kilometr uzunluğunda bayır və 8 kilometr uzunluğunda içəri divar çəkildi. Belə güman etmək olar

ki, Babil şəhəri alınmaz qalaya çevrilmişdi. Tarixçilər bu divarların möhtəşəmliyini heyrətlə qeyd edirdilər.

Navuxodonosorun zamanında məşhur «İştar darvazası», saraylar, dünyanın yeddi möcüzəsindən biri - «Asma bağlar» meydana gəldi və Babilin şan-şöhrəti yenidən aləmə yayıldı. Bu, Makedoniyalı İsgəndərin vaxtına qədər davam etdi. Yeni eradan əvvəl 331-ci ildə o, Babili tutdu və az sonra onu özünə paytaxt elan etdi. Lakin bu, çox sürmədi. Bütün dünyanı qara-qorxuya salan, minlərcə günahsız adamın ölümünə səbəb olan, anaları gözüyaşlı, uşaqları yetim qoyan bu amansız fatehin də günləri sayıldı. Babilin 10–12 kilometrliyində iynə ulduzu boyda bir həşəratın sancması nəticəsində o, ölümə məhkum oldu*.

...Həyəcanımı boğaraq özümü sakitləşdirməyə çalışıram. Böyük hökmdarların hər gün təntənə ilə keçdiyi «İştar (Məhəbbət ilahəsi) darvazası»na yaxınlaşıram. Məlum olur ki, üzərində şir, öküz və əjdaha şəkilləri olan, 17 metr hündürlüyündə göylərə ucalan bu darvaza «İştar darvazası»nın əsli deyil. Onu 1889 – 1911-ci illərdə Babil xarabalığında qazıntı aparan almanlar heç nədən, hətta vicdanlarından belə çəkinmədən kərpic-kərpic sökərək aparıb, «Berlin muzeyi»ndə (Qərbi Berlin) olduğu kimi qurmuşlar.

«İştar darvazası»ndan şəhərin baş küçəsinə – mərasimlər küçəsinə addımlayıram. Adı «Ay ibur şəbu»dur («düşmən heç vaxt keçə bilməz»). Sol əldə böyük bir ərazini tutan (600x900 m) Cənub sarayının xarabaları qalır. Beş möhtəşəm binadan ibarət olan bu sarayın zəngin salonları arasında taxt-tac salonu xüsusilə fərqlənirmiş. Divarlarda rəngli saxsı plitələrdən düzəldilmiş şəkillərin bir qismi indi də qalır. Burada da şir, öküz və əjdaha şəkilləri çoxluq təşkil edir.

---

* İsgəndəriyyə adlanan bu yerdə altmışıncı illərdə kiçik bir qəsəbə vardı. Sovet İttifaqının köməyilə burada kənd təsərrüfatı maşınları zavodu tikildikdən sonra İsgəndəriyyə günü-gündən böyüyən şəhərə çevrilmişdir.

Dünyanın yeddi möcüzəsindən biri – «Asma bağlar» burada imiş. Deyilənə görə beşmərtəbəli bina hündürlüyündə olan «Asma bağlar»ın ağırlığına «sinə gərən sütunlar XX əsrin əvvəlinə kimi qalırmış. Lakin 1911-ci ildə Fərat çayı üzərində 237 metr uzunluğunda «Hindiyyə bəndi»ni tikərkən soyuqqanlı ingilis mühəndisi Vilyam Vilkonsun göstərişilə «Asma bağlar»ın da sütunlarını Babilin başqa binalarının divarları kimi, söküb tikintidə istifadə etmişlər. O sütunlar ki, üzərində Navuxodonosorun sevimli arvadı Əliyətin xatirəsinə şimal ağaclarından və güllərindən böyük bir bağ salınmışdı. Bu bağ dünyagörmüş adamları belə heyran qoyurdu. Odur ki, qədim dünyanın yeddi möcüzəsindən biri kimi qəbul olunmuşdu.

Buradan Baş və Yay saraylarının xarabalarına tərəf gedirik. Bişmiş kərpicdən tikilmiş Yay sarayında yelçəkərlər düzəldiyi indi də hiss edilir. Buradan bütün dünyada məşhur olan «Babil qəsri»nə tərəf üz tuturam. Bu, «Etemen an ki» – «Asimanla yerin körpüsü» adlanan pilləli bürclü möhtəşəm bina imiş. Özülü 92 kvadratmetrə bərabər olan uca Babil bürcündən rəsədxana və gözətçi məntəqəsi kimi istifadə edilmişdir.

Babil qəsri haqqında tarixin yaddaşında bir əfsanə də qalıb. Deyilənlərə görə, Babil hökmdarı belə qərara gəlibmiş ki, qəsri allahlara çatana qədər ucaltsın. Bundan agah olan allahlar elə edirlər ki, tikintidə iştirak edənlər müxtəlif dildə danışmağa başlayırlar. Bir-birini başa düşmədiklərinə görə tikinti yarımçıq qalır.

Burada diqqəti cəlb edən cəhət odur ki, hələ yeni eradan əvvəl dilin insanlar arasında mütləq ünsiyyət vasitəsi olmasından və qarşılıqlı anlaşma üçün dilləri bilmək zəruriliyindən söhbət gedir.

Babildə Makedoniyalı İsgəndərin vaxtında tikilmiş Yunan teatrı da diqqəti cəlb edir.

Babilin şan-şöhrətini artıran, onu dünyada tanıdan abidələrdən biri də «Babil şiri»dir. Dünyada güc-qüvvə rəmzi, ba-

sılmazlıq timsalı kimi məşhur olan bu nəhəng abidə Babilin şimal qurtaracağında qoyulmuşdur. Şirin pəncələri altında qadın vardır. Buna görə abidə həm də «Şir qadın üzərində» adlanır.

Tarixçilərin yazdığına görə, bu abidə assuriləri məğlub edəndən sonra qələbənin şərəfinə ucaldılmışdır. Təəssüf ki, Babil xarabalarında ucaldılan bu abidə də özünün əsli deyildir. «Babil şiri» bir çox qiymətli arxeoloji tapıntılar kimi, İraqın sərhədindən çox-çox uzaqlarda – Londondadır...

1975-ci ildə İraqı ziyarət edən məşhur rus şairi Lev Oşanini tərcüməçi kimi müşayiət edirdim. Bəsrədə və bir çox başqa yerlərdə olduq. Söhbət zamanı mənim də adımın onunku kimi «şir» mənasında işləndiyini biləndə sevindi. Bəxt elə gətirdi ki, Babil xarabalıqlarına da bir yerdə getdik. «Babil şiri»nə baxanda birdən dedi: «Ey «Babil şiri», sənin önündə Sovetlər ölkəsindən gəlmiş iki şir də səcdə qılır». Sonra isə «Babil şiri» adlı şeirini yazıb mənə hədiyyə etdi:

Şoranlıq - qar kimi... Bu ağ sahillər
Məni yola salır ötən zamana.
Özüm bu səfərə inanmasam da,
Gedirəm mən qədim Babilistana.

O elə əfsanə, elə nağıl ki,
Adından isinir damarlarda qan.
Bu abad dünyamız heyrətə gəlir
Min illər adlayan xarabasından.

Çox gördüm dünyada itən adları,
Çürüyüb tökülən bayraqlar min-min.
Sonsuz yüzilliklər bir ana dönüb
Sürüşüb yanından xatirəmizin.

Amma silinməzdir yaddaşımızdan
Babil dünyasının şöhrəti, səsi.
Nəhəng qalaların alınmazlığı,
Zəngin sarayların ilk dəbdəbəsi.

Səssizcə silinir qədim naxışlar,
O qüdrət, əzəmət indi nağıldı.
Cavab ver sən mənə Semiramida,
«Asılan bağlar»ın hayanda qaldı?

Sirli, tapmacalı, uzaq dünyaya
Çəpəki gedirik - dar döngələrdən.
Toz altdan dikələn lal uçqunlara
Baxanda ürəyim titrəyir hərdən.

Yəni doğrudanmı, bir gün gələcək
Doğma Kirovsk, mənim Moskvam.
Beləcə silinib yer üzərindən,
Beləcə yoxluğa dönəcək tamam.

Qəddar başlardakı tacı unutdum,
Elə bil dəyişdi bu yazılı tağ,
Qəmli Babilistan kitabəsində
Mən öz dünənimi görürdüm ancaq.

Bir azca çənəsi əzilibsə də,
Yenə əzəmətli, gözləri qanlı.
Bu quma, küləyə, tarixə dözüb
Yaşayır Qoca Şir Babilistanlı... *

* Tərcümə şair Sabir Rüstəmxanlınındır.

DOST DOSTA TƏN GƏRƏK

Min illərlə dünyanın mədəniyyət mərkəzi sayılan Mesopotamiyanın indi inkişaf etməkdə olan ölkələr sırasında olduğuna adam inanmaq belə istəmir. Təəssüf ki, bu belədir. Əsrdən-əsrə, nəsildən-nəslə bu ölkə yadelli qəsbkarlar və daxili zülmkarlar tərəfindən talan edilmiş, tarixin enişli-yoxuşlu yollarında büdrəmiş, geriləmişdir. Bu vəziyyət 1958-ci il iyul inqilabına qədər davam etmişdir. İnqilabdan sonra ölkədə böyük dəyişikliklər baş verdi. Sosialist ölkələri, ilk növbədə də Sovet İttifaqı ilə münasibətlər kökündən dəyişdi. Sovet dövləti yeni yola qədəm qoymuş gənc İraq respublikasına kömək əli uzatdı. İqtisadi və texniki əlaqələrə dair bağlanmış 16 mart 1959-cu il tarixli müqavilə hər iki tərəf üçün faydalı əməkdaşlığın əsasını qoydu. Təmənnasız yardımdan bəhrələnən İraq xalqı bu əlaqələrin daha da möhkəmləndirilməsinə səy göstərdi. Bu da əbəs deyildi. Ümumiyyətlə, əvvəllər kapitalist ölkələrindən yardım almış ölkələr Sovet İttifaqı və başqa sosialist ölkələri ilə iqtisadi əlaqələr yaratdıqdan sonra hər vasitə ilə bu münasibətləri genişləndirməyə çalışırlar. Çünki onlar Sovet iqtisadi yardımının bir çox üstünlüklərini əyani şəkildə görürlər.

Sovet yardımının daha faydalı, daha əlverişli olduğunu kapitalist ölkələrində belə etiraf edirlər. Hələ 1959-cu ildə ABŞ senatoru Con Kennedi bu münasibətlə yazırdı: «Təəssüf ki, az inkişaf etmiş ölkələrə yardım məsələsində Sovet İttifaqı daha təsirli və yeni yolla gedir».

Sovet yardımı bir çox cəhətdən fərqlənir. Hər şeydən əvvəl, bu yardım bərabərlik, qarşılıqlı fayda, milli suverenliyə hörmət, bir-birinin daxili işlərinə qarışmamaq baxımından seçilir. İnkişaf etməkdə olan ölkələrə təmənnasız Sovet yardımı onun beynəlmiləlçiliyi prinsipindən irəli gəlir. Məlumdur ki, bu yardım imperializmi zəiflətmək, sülhü qoruyub saxlamaq, inkişaf etməkdə olan ölkələrin xalqlarına xaricdən heç bir təz-

yiq olmadan istədiyi yolla getməsinə kömək göstərmək kimi böyük məsələlərə xidmət edir. Bu yardım onları iqtisadi asılılıqdan xilas edir. Bu, çox vacib məsələdir. Çünki milli istiqlaliyyət qazanmış bir ölkə iqtisadi istiqlaliyyət əldə edə bilmirsə, o, əvvəlki kimi, imperialist ölkələrin xammal mənbəyi, malını «xırıd etmək» üçün əlverişli bazarı, ucuz işçi qüvvəsilə zəngin məmləkət olaraq qalır. Bunu bir daha yəqin etmək üçün V.İ.Leninin aşağıdakı sözlərinə nəzər salmaq kifayətdir: «Milli azadlıqdan bəhs edərək iqtisadi azadlıq məsələsinin üstündən keçirlər. Halbuki həqiqətdə başlıca cəhət məhz iqtisadi azadlıqdan ibarətdir».

Sovet yardımı eyni zamanda qarşılıqlı faydaya əsaslanır. Bu baxımdan Asiya və Afrika xalqlarının Qahirə konfransında Sovet nümayəndəsinin çıxışı maraq doğurur: «Biz heç bir imtiyaz istəmirik. Bizə nə mənfəət, nə imtiyaz, nə aksiyaların nəzarət paketləri, nə də xammal mənbəyi lazımdır. Biz sizdən nə bloklara qoşulmağı, nə hökumətinizi dəyişməyi, nə də daxili və xarici siyasətinizi dəyişməyi tələb edirik. Biz sizə, qardaş qardaşa göstərdiyi kimi, təmənnasız yardım göstərməyə hazırıq. Çünki öz təcrübəmizdən bilirik ki, ehtiyacdan xilas olmaq nə qədər çətindir. Bizim yeganə şərtimiz heç bir şərt olmadan qarşılıqlı fayda əsasında əlaqələrdən ibarətdir».

Kapitalist ölkələrinin inkişaf etməkdə olan ölkələrə iqtisadi yardımı bu cəhətdən əsaslı şəkildə fərqlənir. Əgər kapitalist ölkəsi yardım göstərdiyi məmləkətdə hər hansı bir demokratik dəyişiklik hiss edirsə, dərhal öz borcunu unudur və iqtisadi təzyiqə əl atır. 1956-cı ildə Birləşmiş Ştatlar Əsvan bəndini tikməkdən boyun qaçıranda Camal Əbdül Nasir demişdi: «Bu, Əsvan bəndini tikməkdən boyun qaçırmaq deyil. Bu, bizim rejimimizə hücum etmək deməkdir».

Qərbi Almaniya hökuməti Suriyada dəyişiklik baş verdikdən sonra Fərat çayı üzərində bənd salmaq, su hövzəsi yaratmaq, ölkəni bütün il boyu su ilə təmin etmək fikrindən vaz

keçdi (Sovet İttifaqının köməyilə Fərat çayı üzərində tikilən bu nəhəng kompleksin tikintisi indi başa çatmışdır).

Tanzaniya Almaniya Demokratik Respublikası ilə diplomatik əlaqə yaratdıqda Qərbi Almaniya ona yardım göstərməkdən boyun qaçırdı. Türk qəzeti «Vətən» Qərb ölkələrinin iqtisadi yardımını təhlil etmiş və bu qənaətə gəlmişdir ki, Qərb ölkələrinin iqtisadi yardımı inkişaf etməkdə olan ölkələrin müstəqilliyini qorxu altına alır. Bu yardım həlledici anda siyasi təzyiqə çevrilir.

Lakin Sovetlər İttifaqı heç vaxt iqtisadi yardımdan siyasi məqsədlər üçün istifadə etməmişdir. Bunu bizim quruluşa daban-dabana zidd olan bir ölkənin – ABŞ-ın dövlət nümayəndələri belə inkar edə bilmirlər. Bu baxımdan Amerika senatoru Hemfrinin fikri maraq doğurur: «Mənə heç olmazsa bircə dəfə Sovet İttifaqının üzərinə götürdüyü təəhhüdü yerinə yetirmədiyi faktını göstərin».

Sovet yardımı inkişaf etməkdə olan ölkənin iqtisadiyyatını və dövlət bölməsini möhkəmləndirməyə yönəldilmişdir. Əgər ABŞ göstərdiyi yardımın yalnız on faizini sənayeləşməyə yönəldirsə, Sovet İttifaqı bunu ahəngdar edir. Buna görədir ki, indi İraqda sənayenin 80 faizdən çoxu dövlət bölməsinin əlində cəmləşmişdir. Sovet yardımı elə nisbətdə edilir ki, ölkənin həm sənayesi, həm də kənd təsərrüfatı inkişaf edir, vaxt keçdikcə həmin ölkə öz müstəqilliyini qazanır və borclarını qaytarmaq iqtidarında olur. İnkişaf etmiş kapitalist ölkələri isə belə ölkələrə yalnız xammal mənbəyi kimi baxırlar. Bu münasibətlə «Bağdad observer» 21 yanvar 1974-cü il tarixli nömrəsində yazırdı: «Müstəmləkəçi qüvvələr hər vasitə ilə İraqın milli sənayesinin inkişafını ləngitmiş, onu xammal mənbəyinə və öz hazır mallarını xırıd etmək üçün bazara çevirmişdilər».

Kapitalist ölkələrinin krediti ilə Sovet krediti arasında da yerlə göy qədər fərq vardır. Sovet İttifaqı verdiyi kredit üçün 2–3 faiz mənfəət alırsa, kapitalist ölkələri 6–7 faiz və daha çox

gəlir götürürlər. Qərbi Almaniya Rurkela metallurgiya zavodunun tikintisinə verdiyi kredit üçün 6,3% gəlir götürdüyü halda, Sovet İttifaqı Bhilayi metallurgiya zavodunun tikintisinə verilən kredit üçün Hindistandan 2,5% gəlir əldə etmişdir. Əbəs deyildir ki, Bhilayi zavodunun girəcəyində qoyulmuş monumentin üstündə həkk olunmuşdur: «Qoy dostluğumuz bizim zavodun poladı kimi möhkəm olsun!»

Yüksək ixtisaslı milli kadrların hazırlanması məsələsində də Sovet əməkdaşlığı ilə Amerika əməkdaşlığı kökündən fərqlənir. İnkişaf etməkdə olan ölkələr üçün kadrlar yetişdirmək məqsədilə yaradılmış P.Lumumba adına Xalqlar Dostluğu Universitetini və ayrı-ayrı institutları, xüsusən də Azərbaycan Neft və Kimya İnstitutunu bitirən onlarca oğlan və qız vətənə qayıdır, öz xalqının rifahı üçün çalışır. Bir nəfər də ali savadlı əcnəbi ölkəmizdə saxlanmır. Çünki Sovet İttifaqı inkişaf etməkdə olan ölkələrə əsl dostluq köməyi göstərir. Bu məsələyə Amerikada başqa cür yanaşırlar. Orada ağıllı, savadlı adamları hər vasitə ilə saxlamağa, hətta xaricdən cəlb etməyə çalışırlar. Buna təbii sərvət kimi baxırlar. İran sosioloqu Naraci göstərir ki, yetmişinci illərdə Amerikada ali məktəb qurtarmış həkimlərin, mühəndislərin, iqtisadçıların yarıdan çoxu, daha doğrusu, 58%-i vətənə qayıtmamış, Amerika vətəndaşlığını qəbul edib orada qalmışdır.

İndi ölkəmizdə ali təhsil alıb vətənə qayıdan iraqlı oğlan və qızların sayı beş mini keçib. Sovet İttifaqı ölkə daxilində də ixtisaslı milli kadrların yetişdirilməsinə xüsusi fikir verir. Bu məqsədlə İraqda yaradılmış ondan çox tədris mərkəzini hər il minlərcə gənc bitirir və texniki ixtisasa yiyələnir.

İraq rəhbərliyi bu məsələdə də Sovet tərəfinin səylərini yüksək qiymətləndirir. Bu baxımdan o zaman kənd təsərrüfatı naziri işləyən İzzət əd-Dourinin sözləri maraq doğurur: «Biz ömrümüz boyu xaricilərlə işləmişik. Lakin heç vaxt görməmişik ki, xaricilər milli kadrların yetişdirilməsinə Sovetlər

kimi fikir versin. Bu gün gördüklərim mənə nağıl kimi gəlir. Bir il əvvəl heç bir ixtisası olmayan iraqlı gənc indi dəzgah arxasında müstəqil işləyir, böyük maşınlar, ekskavatorlar idarə edir. Biz sizin başqa yardım və köməyinizi nəzərə almasaq, təkcə bizə hazırladığınız milli kadrlara görə ömrümüz boyu sizə minnətdarıq».

1972-ci il aprelin 9-da iki ölkə arasında dostluq və iqtisadi əlaqələrə dair saziş imzalandıqdan sonra Sovet – İraq iqtisadi, texniki, mədəni əlaqələri daha da genişləndi. O vaxt prezident Əhməd Həsən əl-Bəkr Sovet yardımını yüksək qiymətləndirmişdi. «Biz dost Sovet İttifaqının ərəb ölkələrinə, o cümlədən İraqa göstərdiyi yardımı ehtiram hissi ilə qiymətləndirir və bunu müdafiə qabiliyyətimizin artırılması, ictimai-siyasi tərəqqinin sürətləndirilməsi və təcavüzü dəf etməkdə bizim imkanlarımızın möhkəmləndirilməsi üçün əsas amillərdən sayırıq».

1972-ci il sazişi İraqın azad milli sənayesinin yaranmasını təmin etdi. 1975-ci ildə Moskvada Qarşılıqlı İqtisadi Yardım Şurası ilə İraq arasında iqtisadi əməkdaşlıq haqqında müqavilə bağlandı. O vaxt İraq qəzetləri iftixarla bu müqavilənin Qarşılıqlı İqtisadi Yardım Şurası ilə inkişaf etməkdə olan ölkə arasında ilk təcrübə olduğunu göstərirdilər.

Bu müqavilə sosialist ölkələri ilə İraq arasında iqtisadi və texniki əlaqələrin yeni vüsət almasına gətirib çıxardı. Sovet İttifaqı İraqda ağır və yüngül sənaye müəssisələrinin, energetika, nəqliyyat, kənd təsərrüfatı obyektlərinin, tədris mərkəzlərinin yaradılmasına böyük qayğı göstərir. Sovet İttifaqının yardımı və yaxından iştirakı ilə tikilən obyektlər dövlət bölməsinin əsasını təşkil etmiş və onun inkişafına təkan vermişdir. İraq milli sənayesinin əsası olan maşınqayırma və kimya sənayesi sahələrinin yaradılması və tərəqqi etdirilməsi də dost Sovet İttifaqının adı ilə bağlıdır.

Ölkənin iqtisadiyyatında böyük rol oynayan Bağdad - Bəsrə və Şueyba-Um Qəsr dəmir yolları çəkilmiş, parovoz və

vaqonların təmir sexi tikilmiş, qəbuledici və ötürücü radiostansiyaları istifadəyə verilmişdir.

1969-cu il 17 yanvar müqaviləsinə əsasən balıqçılıq sahəsində böyük işlər görülmüş, neftayırma zavodu, fosforit zavodu, avtomat telefon stansiyaları tikilmiş, sovet geoloqlarının köməyi ilə böyük əhəmiyyəti olan faydalı qazıntı yataqları aşkar edilmişdir. Şimalda – Hədisə, Dokan və Dərbəndixanda, cənubda – Nasiriyyə və Bəsrədə nəhəng su və istilik-elektrik stansiyaları istifadəyə verildikdən sonra ölkə elektriklə təmin edilmişdir. Sənayenin yeni mühüm sahələri – dəzgahqayırma, alətqayırma, radiotexnika, kimya – əczaçılıq sənayesi yaradılmış, səhiyyə və kənd təsərrüfatı üzrə tədqiqatlar aparmaq üçün atom reaktoru və radioizotoplar laboratoriyası tikilmişdir. Dəmir-beton məmulatları zavodu, Hindiyyə bəndi yaxınlığında su qurğularının sınaq laboratoriyası, Ramadidə şüşə zavodu, Bağdadda tikiş fabriki, Kufədə ayaqqabı fabriki, Kutda toxuculuq kombinatı, Bağdadda elektrotexnika avadanlığı zavodu, İsgəndəriyyədə kənd təsərrüfatı maşınları zavodu, Samarrada əczaçılıq kombinatı, Mosulda neftayırma zavodu, Bağdad – Bəsrə neft kəməri, Bağdadda və başqa yerlərdə tikilən elevatorlar, pambıq zavodu. Bağdadda elektrik lampaları zavodu, Kərbəlada meyvə-tərəvəz konserv zavodu, müxtəlif yerlərdə sement zavodları və s. SSRİ-nin iqtisadi və texniki yardımı ilə inşa olunmuşdur. Bu obyektlər ölkənin xalq təsərrüfatının hansı istiqamətdə inkişaf etməsi barədə təsəvvür yaradır. Kut toxuculuq kombinatının, Bağdad elektrotexnika zavodunun, İsgəndəriyyə kənd təsərrüfatı maşınları zavodunun nəinki İraqda, hətta Orta Şərqdə belə tayı-bərabəri yoxdur.

Toxuculuq kombinatı ildə 30 milyon metrdən çox parça, 700 ton ip, 6 milyon cüt corab və əl dəsmalı, 5 milyon ədəddən çox geyim paltarı və s. istehsal edir.

İsgəndəriyyə kənd təsərrüfatı maşınları zavodu hər cür maşın, traktor və s. istehsal etməklə bərabər, kənd təsərrüfatı

alətləri də buraxır. Burada kənd təsərrüfatı maşınları üçün ehtiyat hissələr hazırlayan və poladəritmə sexləri də vardır.

Bağdad elektrotexnika zavodu transformator, elektrik motoru, generatorlar və s. hazırlayır. Burada transformator və elektrik motorlarının təmir sexləri də fəaliyyət göstərir.

Samarra əczaçılıq kombinatı ölkəni dərmanla təmin edir. Bu kombinat xaricdən dərman gətirilməsinin qarşısını 80–90% almışdır. Eyni sözləri Ramadi şüşə zavodu haqqında da demək olar. Bu zavod bütövlükdə ölkəni, demək olar ki, şüşə və şüşə qablarla təmin edir.

Yeri gəlmişkən deyək ki, hər obyektin istifadəyə verilməsi böyük milli bayram kimi qarşılanır. Qəzetlər Sovet – İraq dostluğuna həsr olunmuş yazılarla çıxış edir, bu və ya digər obyektin ölkəyə verəcəyi mənfəətdən söz açırlar. Yaxşı yadımdadır, elektrik lampaları zavodu işə düşəndə qəzetlər necə gözəl yazılar vermişdilər. «Bağdad observer» isə yazını maraqlı bir başlıqla dərc etmişdi: «Ələddinin çırağı sehrini itirir».

SƏRVƏT XALQIN ƏLİNDƏ OLANDA

İraq neft ehtiyatına görə dünyada dördüncü, hasilatına görə isə hələlik doqquzuncu yeri tutur. Buna görə də təbii ki, Sovet – İraq iqtisadi əməkdaşlığında milli neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Sovet İttifaqının köməyilə ölkənin cənubunda – Şimali Rumeylada neft mədənləri tikilib istifadəyə verilib. İndi bu mədənlərdən ildə 50 milyon ton neft çıxarılır. Onu da qeyd edim ki, Sovet – İraq iqtisadi və texniki əməkdaşlığında respublikamızın da payı vardır. Bu yardım öz təcəssümünü aşağıdakı formada tapmışdır: Sovet İttifaqının yardımı ilə tikilən obyektlər üçün sifarişlər yerinə yetirmək; dost ölkədə çalışmaq üçün mütəxəssislər ezam etmək; milli kadrlar yetişdirilməsinə köməklik göstərmək. Neftçilərimiz Şimali Rumeyladan vətənə ad-sanla qayıtmışlar. Onlardan

sovet neftçiləri qrupunun rəhbəri Təhmasib Bağırovun, iki dəfə İraqda ezamiyyətdə olmuş A.Rzaquliyev, L.Həsənov, B.Babayev, N.Nəsibov və başqalarının adlarını qeyd etmək yerinə düşərdi.

Azərbaycan alimləri iraqlı həmkarlarına neft və kimya sahəsində tədqiqatların təşkili və aparılmasında yaxından kömək etmişlər. Azərbaycan neft avadanlığı İraq neft mədənlərində müvəffəqiyyətlə işlədilir. Burada onu da qeyd etmək yerinə düşər ki, ümumiyyətlə, Sovet – İraq əməkdaşlığı yolu ilə inşa edilən obyektlərin tikilməsində azərbaycanlı mütəxəssislərin əməyi az olmamışdır. Samarra əczaçılıq kombinatının baş mühəndisi Həsən Rəhimov, İsgəndəriyyə kənd təsərrüfatı maşınları zavodunun baş mütəxəssisi Firidun Quliyev böyük hörmətə malik idilər.

Ümumiyyətlə, Sovet Azərbaycanının çoxşaxəli beynəlxalq əlaqələrində xarici ölkələrlə iqtisadi əməkdaşlıq mühüm yer tutur. Hazırda respublikamızın 100-dən çox sənaye müəssisəsi 80 ölkəyə 360 adda məhsul göndərir.

Şimali Rumeyla neft mədənlərinin birinci növbəsi 1972-ci ilin baharında işə düşəndə artıq neft hasilatı üçün milli kadrlar da hazırlanmışdı. O vaxta qədər İraq nefti bütövlükdə xarici şirkətlərin əlində idi. Çıxarılan neftin yalnız yarısının dəyəri ölkənin payına düşürdü. Lakin neft məhsullarından alınan gəlirdən İraqa heç nə çatmırdı. Şimali Rumeylada neft hasilatına başlandıqdan sonra İraq xarici inhisarların onu necə aldatdığını başa düşdü. Ölkə neftinin ildə 62 faizini hasil edən «İraq Petrolium Kompani» qarşısında cüzi tələblər qoyuldu və bildirildi ki, müsbət cavab alınmasa, şirkət milliləşdiriləcəkdir. Həmin tələblər aşağıdakılardan ibarət idi: şirkət neft hasilatını on faiz artırsın; İraq hökuməti tərəfindən qadağan edilmiş yerlərdə neft hasilatını davam etdirdiyinə görə İraqa 72 milyon funt-sterlinq ödəsin; neft hasilatının 20 faizində İraqın iştirakına icazə versin.

Lakin şirkətin rəhbərləri və onların xarici ağaları İraq hökumətinin haqlı tələbinə etinasız yanaşdılar. Çünki «İraq Petrolium Kompani» dövlət daxilində dövlət idi. Şirkətin rəhbərliyi ağlına gətirə bilmirdi ki, İraq belə bir addım ata bilər; odur ki, danışıqları hər vasitə ilə uzadır, hökumətin haqlı tələbini yerinə yetirməkdən yayınırdı. Belə olan halda şirkətin rəhbərliyinə ultimatum verildi. İki həftəyə ya «hə», ya da «yox» cavabı alınmalı idi. Bu vaxt ərzində şirkətin rəhbərliyi İraqa təsir etmək üçün hər vasitəyə əl atdı. Kapitalist ölkələri işə qarışdı. İraqı bu yoldan çəkindirməyə çalışdılar. Lakin onu inadından döndərə bilmədilər. İki həftə başa çatanda xəbər verdilər ki, şirkətin baş direktoru C.Stokuelli danışıqlara yekun vurmaq üçün Londondan Bağdada uçur. İraq dövləti ultimatumun müddətini on bir saat artırdı. Bütün dünyanın nəzərləri İraqa dikilmişdi. Yadımdadır, ölkə daxilində də böyük narahatlıq vardı. Çünki kapitalist ölkələrinin İraqa iqtisadi, siyasi, texniki, ticarət sahəsində «müharibə» elan edib, onun neftini almayacağı, beləliklə də, onu diz çökməyə məcbur edəcəyi təhlükəsi gözlənilirdi. Buna görə də C.Stokuelli İraqın xarici işlər naziri ilə danışıqlar zamanı göstərilən şərtləri yerinə yetirməkdən boyun qaçırdı. Elə cənab C.Stokuellinin gözləri qabağında «İraq Petrolium Kompani»nin milliləşdirildiyi elan edildi. Onun gözlərindən yaş axmağa başladı. Sanki doğma oğlunu itirmişdi. Elə bil dünya neft aləmində bir zəlzələ baş verdi. Təbii ki, «zəlzələnin» mərkəzi İraq oldu. Kapitalist ölkələri İraqı cəzalandırmaq, başqalarına görk olmaq üçün bütün vasitələrə əl atdılar. Ölkədə vəziyyət gündən-günə ağırlaşırdı. Kapitalist ölkələri İraqa nə ərzaq, nə də sənaye malları verirdilər. Onun neftini də almaqdan imtina etdilər. Bazarda hər şey birə-on bahalaşmışdı. Fəhlə və ziyalıların maaşını belə vermək üçün bankda pul yox idi. Sonra qaytarmaq şərtilə dövlət fəhlə və qulluqçuların maaşını 25 faiz azaltmaq kimi tədbirə əl atmışdı. İraqın bu ağır günün-

də, kapitalist ölkələri ilə ölüm-dirim mübarizəsində başda Sovet İttifaqı olmaqla sosialist ölkələri dost məmləkətə dostluq əli uzatdı. O vaxt «Bağdad observer» qəzeti yazırdı: «İraq xalqı Sovet İttifaqının bu yardımını heç vaxt unutmayacaqdır».

İmperialistlərin İraqa göstərdikləri təzyiq puça çıxarıldı. Bu, belə də olmalı idi. Elə həmin il SSRİ-nin yaradılmasının 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda deyilmişdi: «Ərəb ölkələri ilə geniş və hərtərəfli əlaqələrimiz var. Hadisələrin gedişi göstərdi ki, Sovet İttifaqı ilə dostluq onlara ağır gündə də Sovet köməyini təmin edir».

İki il keçməmiş İraq müvəqqəti çətinlikdən yaxa qurtardı. Xalqın maddi rifahı yaxşılaşdı. Hökumət fəhlə və qulluqçuların maaşından tutduğu pulu qaytardı, onların əmək haqqı əhəmiyyətli dərəcədə artırıldı. Bazarda qiymətlər aşağı düşdü.

Tezliklə neftin milliləşdirilməsi öz bəhrəsini verdi. Bunu tam mənası ilə anlamaq üçün tək bircə fakta nəzər salmaq kifayətdir. Əgər ikinci beşillikdə (1965/66–1969/70) iqtisadiyyatın dirçəldilməsinə cəmi 157 milyon dinar qoyulmuşdusa, təkcə 1974/75-ci illərdə bu rəqəm 1 milyard 169 milyon dinara çatdırılmışdı. (1978-ci ilin dövlət büdcəsi isə 7 milyard 46 milyon dinar təsdiq edilmişdi.)

1974–75-ci dərs ilindən Ali İnqilabi Şuranın qərarı ilə təhsilin bütün mərhələlərində təhsil pulsuz oldu. Bundan əlavə, ali məktəb tələbələrinin pulsuz kitabla təmin ediləcəyi də qərara alındı.

Göründüyü kimi, İraqda neftin milliləşdirilməsi xalq təsərrüfatının inkişaf etdirilməsinə, xalqın maddi rifahının yaxşılaşdırılmasına, siyasi və iqtisadi müstəqilliyin möhkəmləndirilməsinə gətirib çıxartdı.

Bu cürətli addım Sovet İttifaqının köməyi ilə atıldı. Neftin milliləşdirilməsinin ikinci ildönümündə ölkənin prezidenti Əhməd Həsən əl-Bəkr televiziya və radio ilə çıxışında bu münasibətlə demişdi: «Biz Sovet İttifaqının köməyinə arxa-

lanmasaydıq, belə bir addım atmağa cürət etməzdik. Çətin günlərdə dost Sovetlər ölkəsi xalqımıza həyan oldu, inkişafımız və tərəqqimiz yolunda bizə misli-bərabəri olmayan çox təsirli kömək etdi. Bunun sayəsində biz nefti milliləşdirdik. Nəhəng kapitalist neft şirkətini diz çökməyə məcbur etdik. İraq xalqı Sovetlərin bu köməyini heç vaxt unutmayacaqdır».

Qəzetlər də böyük yazılarla çıxış etdilər. «Bağdad observer» yazırdı: «Sovet İttifaqı İraq xalqının iqtisadi müstəqilliyi uğrunda mübarizədə ona dostluq əli uzatdı və təmənnasız yardım etdi».

İki-üç ilin içində ölkənin milli gəliri ağlasığmaz dərəcədə artdı. Hər yanda böyük quruculuq işləri aparılmağa başlandı ki, bu da nəticədə lazımi işçi qüvvəsinin, tikinti materiallarının azlığı, obyektlər üçün maşın, dəzgah, avadanlıq və s. daşıyan nəqliyyatın çatışmaması kimi böyük problemlər ortaya çıxardı. Bəsrədə xarici gəmilər yükünü boşaltmaq üçün aylarla lövbər salıb növbə gözləməli oldular. Kapitalist ölkələri İraqda gəmilərin ləngidilməsinin hər günü üçün böyük məbləğdə pul tələb etdilər. Bir çox ölkənin gəmiləri yük gətirməkdən boyun qaçırdılar. Obyektlər lazım olan tikinti materiallarını, maşınları, ehtiyat maşın hissələrini və s. vaxtında ala bilmədilər. İş pozuldu. Bir sözlə, plansızlıq böyük problemlərə gətirib çıxartdı. İraqın rəhbərləri Sovet İttifaqından xalq təsərrüfatının planlaşdırılmasına dair yardım istədilər. 1975 – 1995-ci illər üçün əməli təkliflər verən dövlət planı hazırlandı. İndi Sovet İttifaqının köməyilə İraqda tikilib istifadəyə verilmiş obyektlərin sayı yüzü keçir. Onların arasında neft hasilatı, emalı və daşınması üzrə obyektlər əsas yerlərdən birini tutur.

Kənd və su təsərrüfatı ilə bağlı obyektlərin sayı isə 12-dən çoxdur. Onlardan bəziləri artıq tikilib başa çatmış, bəziləri tikilməkdədir. Tərtər – Dəclə kanalı, Fəllucə, Mosul, Həditə bəndləri, Kərkük suvarma şəbəkəsi, Kifl – Şinafiya, Şinafiya –

Nasiriyyət obyektləri, tədris mərkəzləri, kənd və su təsərrüfatı üzrə layihə institutu, Dəclə və Fərat çayları üzərində nəqliyyatın işini nizama salmaq üçün tikilən obyektlər belələrindəndir. Lakin bu obyektlərin ən böyüyü və əhəmiyyətlisi istifadəyə verilmiş Tərtər – Fərat kanalıdır.

HƏR PROBLEMİN ARXASINDA QADIN DURUR

Tərtər – Fərat kanalı ingilis mütəxəssislərinin səhvi nəticəsində meydana gəlmişdir. ... 1953-cü il. Bağdad daşqın təhlükəsi qarşısındadır; fəlakət, necə deyərlər, qaşla göz arasındaydı. Lakin təbiət qəsbkar hökmdarlardan insaflı çıxıb - bu gözəl şəhərə qıymayıb. Ancaq təbiət də hər vaxt mərhəmətli olmur. Məhz buna görə də Samarra - Tərtər kanalı tikilib ki, daşqın vaxtı Dəclə çayı suyunun bir qismi Tərtər su anbarına axıdılsın. İngilis mütəxəssislərinin hesablamalarına görə bu, Bağdadı daşqın təhlükəsindən tamamilə qurtarmalı idi. Hər il anbara müəyyən miqdar su axıdılacaq, yayın istisində su buxarlanacaq və beləliklə, bu problem həll ediləcəkmiş. Lakin 1967, 1968, 1969-cu il daşqınlarından sonra Bağdadın su altında qalmaq təhlükəsi ikiqat artdı. Bir yandan Dəclə çayı, digər tərəfdən də ağzına kimi dolan Tərtər su anbarı daşıb şəhəri basa bilərdi. Olduqca təhlükəli vəziyyət yaranmışdı. İngilislərin hesablamaları özünü doğrultmamışdı...

Sovet mütəxəssisləri tədqiqat aparıb bu qənaətə gəldilər ki, Tərtər – Fərat kanalı tikilsin. Kanalın tikilməsi Bağdadı daşqın təhlükəsindən birdəfəlik xilas etməklə yanaşı, başqa problemləri də həll etməli idi. Daşqın vaxtı Dəclə çayı boyunca əkin sahələrinin və münbit torpaqların su altında qalıb korlanmasının qarşısı alınmalı, o biri tərəfdən də quraqlıq vaxtı Tərtər anbarının suyu kanalla əkin sahələrinə verilməliydi. Bu da çox vacib məsələ idi. Onsuz da İraqda bitkilərin inkişaf dövrü ilə çaylarda suyun çoxalması eyni dövrə düşmədiyindən su qıtlığı yaranırdı. Bu yandan da Türkiyədə Kaban və

Suriyada Tabka su anbarları tikilib qurtarmaq üzrə idi. Onların inşası başa çatdıqdan sonra Fərat çayında suyun daha da azalması gözlənilirdi. Belə də oldu. Bu barədə kənd təsərrüfatı naziri İzzət əl-Dourinin sonralar Tərtər – Fərat kanalı tikintisinə həsr olunmuş yazısında oxuyuruq: «Su çatışmazlığı üzündən Fərat çayı hövzəsində nə qədər əkin sahələri, bağlar yanıb külə döndü. Heyvanlar susuzluqdan məhv oldu. Belə bir tarixi dövrdə milyonlarla adamın intizar gözü bu obyektə dikilmişdi».

Məlum oldu ki, məhsuldarlıq torpağın münbitliyi ilə yanaşı, suyun bolluğu ilə də ölçülməlidir.

Fərat çayı hövzəsində yaranmış acınacaqlı mənzərəni müşahidə etdikcə hansı kitabdansa oxuduğum şeir gözlərim önündən keçirdi. Elə bil şair Fərat çayının bu fəryadlı günündən söz açır, həyatın özünün torpaqla suyun qovuşmasından yarandığını sübuta çalışırdı.

Sən bir az geciksən tükənər həyat,
Əgər qəzəblənib çıxsan özündən,
Böyük də, kiçik də ac, üryan qalar.
Sən yaxşı gələndə şənlənər torpaq,
Ölkə fərəhlənər, ölkə şad olar.
Sən bizə bol nemət, çörəksən ancaq,
Sənsən bu çölləri gözəlləşdirən.

1974-cü il avqustun 16-da Su Təsərrüfatı naziri Mukarram əl-Tələbani televiziya ilə çıxış edərək Fərat çayında suyun azlığını Suriyada Tabka, Türkiyədə Kaban bəndlərinin tikilişi ilə əlaqələndirdi. Nazir göstərdi ki, Kaban bəndi üç il əvvəl tikilib qurtarmalı, Tabka isə bir il sonra başa gəlməli idi. İki nəhəng bənd eyni vaxtda Fərat çayının qabağına sədd çəkdiyinə görə İraqa su gəlib çıxmırdı. Nazir qeyd etdi ki, Tərtər – Fərat kanalının tikilib başa çatdırılması su problemini həll edəcəkdir.

Odur ki, misilsiz əhəmiyyəti olan Tərtər – Fərat kanalının tikintisi sürətləndirildi. Bu kanal nəinki Yaxın Şərqdə, hətta dünyada ən nəhəng tikintilərdəndir. Kanalın dərinliyi 40 metr, yəni Süveyş kanalının dərinliyindən iki dəfə artıqdır. Uzunluğu 44 kilometr, eni 40 - 80 metr arasındadır. Saniyədə nizamlayıcıdan 1000 kubmetrdən çox su keçir.

Kanalın tikintisində 350 sovet, 3.500-dən çox İraq fəhlə və mütəxəssisi iştirak etmişdir. Bu kanal onların müştərək tikdiyi birinci obyekt kimi nəinki İraqda, hətta bütün ərəb ölkələrində böyük rəğbətlə qarşılandı. Ərəb ölkələrindən dövlət nümayəndələri gəlib işin gedişilə maraqlanırdılar. Kanalda iş gecə-gündüz, üç növbədə gedirdi. Tikintidə çalışan ixtisaslı işçilər, mexaniklər, qaynaqçılar, ekskavator, avtomobil, traktor, qreyder, skreper sürücüləri, çilingərlər, müxtəlif təmirçilər və b. müəssisənin tədris mərkəzini qurtaran gənclər idi. Buranı az bir vaxtda iki mindən çox adam bitirdi. Tədris mərkəzinin şöhrəti bütün ölkəyə yayıldı. Kanal tikilib istifadəyə verildikdən sonra o, kənd təsərrüfatı və su təsərrüfatı nazirliklərinin «Tədris mərkəzi»nə çevrildi.

«Əl-Cümhuriyyə» qəzeti yazırdı ki, kanalın tikintisi təcrübə üçün misilsiz bir məktəbdir. Bu tikintidən çox şey öyrənməliyik. Təkcə ehtiyat hissələrin saxlanması, qeydiyyatdan keçirilməsi, istifadəyə verilməsi və s. bir məktəbdir. Vacibdir ki, kənd təsərrüfatı və su təsərrüfatı nazirliklərinin ehtiyat hissələri anbarlarında işləyən bütün işçilər burada bir aya qədər təcrübə keçsinlər. Keçdilər də. Bundan başqa, böyük obyektlər onun təcrübəsini elmi əsaslar üzrə öyrənir, sənədlər hazırlayırdılar. Ərəb dostlarımız bizdən yalnız qurub-tikməyi deyil, idarə etməyi də öyrənirdilər.

Təsadüfi deyildir ki, ölkənin prezidenti dəfələrlə bu obyektə gəlir, işin gedişi ilə maraqlanırdı. Onun hər gəlişi tikintinin sürətlənməsinə kömək edirdi. Mətbuat, radio, televiziya günlərlə bu obyektdən söhbət açırdı. Bir dəfə prezident kanalın

tikintisində işləyənlərə iki min dinar hədiyyə etdi. Bu, onlarda bir adətdir. Min dinar iraqlılara, min dinar isə sovet mütəxəssislərinə verildi. Biz həmin pulu iraqlı fəhlələr arasında bölmək istədik. Lakin səfirliyimizdə bizi başa saldılar ki, prezidentin hədiyyəsini hədiyyə etmək yaxşı olmaz. Odur ki, həmin pula İraq və sovet mütəxəssislərinin, həmçinin fəhlələrin istirahətini daha yaxşı təşkil etmək üçün bir futbol, iki voleybol meydançası və uşaq şəhərciyi saldırdıq, idman avadanlığı aldıq, tennis meydançaları düzəltdik.

Bu kanalın tikintisinə hər iki tərəf böyük fikir verirdi. Təkcə onu demək kifayətdir ki, həmin tikintidə Sovetlər tərəfindən bir elmlər doktoru - professor, səkkiz elmlər namizədi iştirak edirdi. Onların arasında həmyerlimiz, indi Moskvada işləyən Beyiş Ağayev və 25 nəfərlik tərcüməçilər qrupunun rəhbəri kimi bu sətirlərin müəllifi də vardı. Layihə qrupunda bakılı Rəşid Rüstəmbəyovun işindən razılıq edirdilər. Azərbaycan Dövlət Universitetinin məzunları R.İmanov, N.Nəcəfov, A.Süleymanov, N.Ağayev və başqaları böyük hörmətə malik idilər. Bu sözləri başqa obyektlərdə işləyən ərəb dili mütəxəssislərimiz, xüsusən də iqtisadi əlaqələr üzrə Dövlət Komitəsinin baş mütərcimi, gözəl insan və alim Tariyel Həsənov haqqında da demək olar. Bütün təvazökar adamlara məxsus sadəlik, nəzakətlilik, haradasa bir az utancaqlıq və s. kimi keyfiyyətlər, eləcə də ərəb dilini mükəmməl bilməsi onu hamının sevimlisi etmişdi. Ümumiyyətlə, başqa obyektlərdə də bizim tərcüməçilərə üstünlük verilməsi məni sevindirirdi. İstəristəməz ürəyimdə universitetimizin müəllimlərini minnətdarlıqla xatırlayırdım.

Qərib ölkədə vətənlə bağlı hər şey sənə təsir edir. Gah sevinir, gah da məyus olursan. Bağdad yarmarkasında Azərbaycan pavilyonuna baxanda nə qədər sevinmişdimsə, SSRİ Xarici Ticarət müəssisəsinin siyahısında nə bir Azərbaycan şərabı, nə də konyakının olduğunu görməyəndə o qədər təəssüflənmişdim. Nə isə...

Tikintiyə o zaman Su Təsərrüfatı naziri işləyən Mukarram əl-Tələbani şəxsən rəhbərlik edirdi. Həftədə bir-iki dəfə ya özü, ya da müavini Əfif əl-Ravi tikintiyə gəlir, işin gedişinə həsr olunmuş istehsalat müşavirəsində iştirak edirdi. Müşavirədə onların iştirakı həmişə müsbət nəticə verirdi. SSRİ Meliorasiya və Su Təsərrüfatı naziri A.Alekseyevskinin işin gedişilə əlaqədar İraqa gəlməsi də Tərtər – Fərat kanalının tikintisinə böyük əhəmiyyət verildiyini göstərirdi. Tikintinin baş direktoru Məhəmməd əl-Həbubi, tikinti üzrə müavin Cavad Əlvaş və texnika üzrə müavin Həsən əl-Ravi dərin biliyə və mədəniyyətə malik insanlar idilər. Tikinti idarələrinin rəisləri Nuri Səffar və Riad-Əbdül Hadi ali məktəbi Sovet İttifaqında bitirmişdilər. Bacarıqlı mütəxəssis olan bu şəxslərin hər birinin fərdi xüsusiyyətləri vardı. Məhəmməd əl-Həbubi ciddiliyi ilə diqqəti cəlb edirdisə, Cavad Əlvaş duzlu-məzəli söhbətləri, məsələləri tez həlletmə bacarığı ilə seçilirdi. O, obyektdə hamının sevimlisi idi. Bir dəfə Baş Sovet mütəxəssisi A.Zolotuxin, Cavad Əlvaş və tərcüməçi kimi mən maşınla kanal boyu gedirdik. Nisbətən kiçik ekskavatorlar işləyən sahədə alçaq təpəciklər vardı. Cavad Əlvaş köks ötürüb dedi: «Həbbayə həbbayə isir kubbayə» (dama-dama göl olar). Xeyli gedəndən sonra birdəfəyə 10 ton torpaq götürüb maşına yükləyən EKQ ekskavatorları işləyən yerə çatdıq. Burada böyük torpaq dağları əmələ gəlmişdi. Hər bir dağın arxasında ekskavator var idi. Cavad Əlvaş heyrətini və sevincini gizlədə bilmirdi. Əlini əlinə vurub ucadan: «Hər problemin arxasında qadın durur» fransız atalar sözünü işlətdi və gülə-gülə dedi: «Cənab Zolotuxin, hər problemin arxasında qadın, hər dağın arxasında ekskavator durur!» Cavad Əlvaşın bu sözləri tezliklə bütün tikintiyə yayıldı.

Kanalın tikintisi zamanı kənd təsərrüfatı naziri İzzət əl-Douri böyük uzaqgörənliklə demişdi: «Tərtər – Fərat hidrokompleksi İraq-Sovet iqtisadi əlaqələri tarixinə qızıl hərflərlə yazılacaqdır».

Bu, belə də oldu. Tikinti başa çatdıqdan sonra bir qrup mütəxəssis Sovet və İraq orden və medalları ilə təltif olundu. Baş Sovet mütəxəssisi İraqın ən yüksək dövlət mükafatı – «Rafideyn» ordeninə layiq görüldü. Təltif olunanlar arasında Beyiş Ağayev və mən də var idim. Biz «Əməkdə şücaətə görə» medalı ilə təltif olunduq. Bundan başqa, SSRİ Nazirlər Sovetinin Fəxri Fərmanı ilə də mükafatlandırıldıq.

Qədim Babil, Ur, Neynəva və s. şəhərlərin xarabalıqları və abidələri bu ölkədə yaşamış xalqların min illərlə yaratdıqları zəngin mədəniyyətdən danışırsa, sovet adamlarının köməyilə yaradılan obyektlər gələcək nəsillərə iki xalqın dostluğundan söz açacaqdır. Bu dostluğun nəğməsini isə şırhaşır axan Tərtər-Fərat kanalı oxuyacaqdır. Kanalın tikildiyi dörd il unudulmaz tarix kimi xatirələrdən silinməyəcəkdir. Onun şirini də vardı, acısı da. Kanalın tikildiyi müddətdə bəzən gülməli, sevindirici, bəzən də kədərləndirici hadisələr olurdu...

XİTABƏT KÜRSÜSÜ

İraqla 1972-ci il aprelin 9-da bağlanmış «Dostluq, iqtisadi və texniki əlaqələrə dair müqavilə»nin ildönümünü böyük təntənə ilə qeyd etməyə hazırlaşırdıq. Baş Sovet mütəxəssisi A.Zolotuxin məruzə etməli idi. O, Cavad Əlvaşa dedi ki, hər xalqın öz adəti var: ərəblər iclaslarda oturub danışırlar, biz isə xitabət kürsüsü arxasında durub danışırıq. Yaxşı olar ki, bir xitabət kürsüsü hazırlansın. Hətta xitabət kürsüsünün eskizini də verdik.

Aprelin 9-da Fəllucədə – bağda adam əlindən tərpənmək mümkün deyildi. Cavad Əlvaş xitabət kürsüsünün üstünə parça çəkdirmişdi. Deyirdi ki, bu, müəssisənin birinci xitabət kürsüsü olduğuna görə gərək təntənəli açılışı olsun... Əlbəttə, Cavad Əlvaşın çox zarafatcıl olduğunu hamı bilirdi. Parçanı kürsünün üstündən götürəndə gülüş qopdu. Xitabət kürsüsün-

də oturub danışmaq üçün, yer də düzəltmişdilər. Hamı Cavad Əlvaşın bu incə zarafatına əl çaldı. Onu səhnəyə çağırdılar. A.Zolotuxin Cavad Əlvaşın bu yumorunu daha da canlandırdı. O əyləşdi və ərəblərin adəti ilə «əs-salam-əleykum» dedi. Camaat yenidən gülüb əl çaldı. Sonra A.Zolotuxin Sovet - İraq dostluğundan danışdı. Birdən anbarın müdiri Əli Ani onun sözünü yarımçıq kəsib qışqırdı. A.Zolotuxin mat qaldı. Özünü itirən kimi oldu. Hələ yerli adətləri yaxşı bilməyən Baş mütəxəssis mənə tərəf çevrildi: «Sən nə tərcümə etdin ki, o mənim sözümü kəsib qışqırır?» Cavab verdim ki, şüar deyir. Başqaları da Əliyə qoşuldu. Rəsmi bayramlarda, elə-belə iclaslarda natiqin sözünü tez-tez yarımçıq qoyub şüar, hətta şeir söyləmək onlarda adətdir. Bəzən özün də hiss edirsən ki, tamada ixtisaslaşdığı kimi, şüar deyənlər də ixtisaslaşırlar. Elə bil öz aralarında yarış keçirirlər.

Belə yığıncaqlar, adətən, sovet mütəxəssislərinin konserti ilə bitirdi. Hamı vaxtilə Bakıda yaşamış, indi isə Leninqrad sakini V.Pyatkinin və «çastuşka»lar oxuyan üçlüyün çıxışını böyük intizarla gözləyirdi. Çox məlahətli səsi olan V.Pyatkin R.Behbudovun repertuarı ilə çıxış edirdi. Onun oxuduğu «Çal-papaq» mahnısı isə hamını heyran qoyurdu. «Çastuşka»lar da maraqla qarşılanırdı. Çünki onlar sovet mütəxəssislərinin güzəranı, işi və istirahətindən bəhs edirdi.

DOSTLAR SEVİNƏNDƏ SEVİNİR, KƏDƏRLƏNƏNDƏ KƏDƏRLƏNİRDİK

İqtisadi məsələlər üzrə Sovet Dövlət nümayəndə heyəti ilə göllər ölkəsini gəzib bir həftədən sonra Bağdad yaxınlığında olan Fəllucədə işə çıxmışdım. Dedilər ki, səni baş mühasib müavini Mustafa çağırır. Getdim. Otaqda xeyli adam vardı müəssisənin hüquqşünası, mühasib Xeyri və başqaları. Əhvali-ruhiyyələri çox yaxşı idi. Görüşdük, hal-əhval tutduq. Mustafa ilə dostluq edirdik. Ərklə xəbər aldı: «Bəsrədən mənə

nə gətiribsən?» Dedim ki, Bəsrəyə getmədik. Amma göl ərəbləri mənə bir camış bağışladılar. Bir «Lori» (yük maşını) tut gedək gətirək, sənə verəcəm. Zarafatıma hamı güldü. Mustafa ciddi görkəm alıb: «Mən Kərkükə getmişdim. Sənə ürəyin istəyən bir hədiyyə almışam», - dedi. Kərkük adını eşidəndə sevindim. Ərəb dostlarım bilirdilər ki, hərdən Kərkük vilayətinə gedir, orada yaşayan azərbaycanlılarla görüşürəm. Mustafa mənə bir qutu uzatdı. Qutunun düyməsini basanda üç ilan baş qaldırdı. Diksindim. Otaqdakılar aldandığımı görüb gülüşməyə başladılar. İlanlar düzəltmə idi. Xeyri o qədər güldü ki, gözlərindən yaş gəldi.

Bütün günü müəssisədə hamı deyib-güldü. Axşamüstü də zarafatlaşaraq ayrıldıq. Kim bilərdi ki, bu son görüşdür. Səhərisi gün işə gələndə müəssisədə heç kim yox idi. Gözətçi dedi ki, böyük faciə baş verib: dünən Mustafagilin avtobusu qəzaya uğrayıb. Mustafa və başqa yeddi nəfər həlak olmuş, qalanları yaralanmışlar. Ölkə prezidentinin göstərişi ilə avtobusda olanların hamısının ailəsinə böyük yardım göstərildi. Yüngül xətər alan Səttar Tofiq iki gündən sonra xəstəxanadan çıxdı. Bizimkilər ona dedilər: «Sənin valideynlərin xoşbəxtdirlər. Gör indi onlar nə qədər sevinirlər!»

Səttar köksünü ötürüb, yetim olduğunu bildirdi...

ŞAYBA - ŞAABİ

Ərəb dilini bilmədiklərinə görə mütəxəssislərimiz və onların ailə üzvləri bəzən çıxılmaz, bəzən də gülməli vəziyyətlərə düşürdülər. 1974-cü ildə Bağdadda böyük tirajla çap etdirdiyim, dörd çap vərəqi həcmində olan «Rusca-ərəbcə danışıq kitabçası» onların köməyinə gəlirdi. Başqa obyektlərdə işləyənlər də bu kitabçadan sifariş vermişdilər. Tərtər – Fərat kanalı tikintisində çalışan üç yüzdən artıq sovet mütəxəssisi onun vasitəsilə ərəb dilinin İraq dialektini öyrənirdi. Bununla belə, bəzən bizdən asılı olmayaraq qəribə vəziyyətlər yaranırdı...

Son illərdə sovet futbolçuları müntəzəm olaraq İraqda yoldaşlıq görüşləri keçirirdilər. Rostov idmançıları, Odessa futbolçuları və bir dəfə də Bakının «Neftçi» komandası gəlmişdi. Bir dəstə yığışıb mərkəzi stadiona getmişdik. Boş yer yox idi. Oyun başlandı. «Neftçi» yaxşı oynayırdı. Bizim mütəxəssislər «şayba, şayba», - deyərək xorla qışqırırdılar. Bir də gördük bir qutu «şaabi» – sərinlədici içki gətirdilər. Bizimkilər çiyinlərini çəkdilər ki, biz istəməmişik. Ərəb də çiynini çəkdi: «Bəs «şaabi, şaabi!» - deyə qışqıran mən idim?»

...Bir dəfə dedilər ki, layihə qrupunda işləyən iraqlı mühəndis Albert səndən inciyib. Getdim yanına. Dedi: - Xahiş edirəm bu söhbət ikimizin arasında qalsın. Sən ermənicə bir az bilirsən, düzdürmü? Dedim: - Çox az. Soruşdu: - Bəs belə olan halda mənimlə danışanda niyə «aşkurak» gəlməsini işlədirsən? Ərəbcə «aşkurak» da, «şükrən» də «təşəkkür edirəm» mənasını verdiyi halda, niyə «şükrən» demirsən? Suala sualla cavab verdim: - Qardaşım, nə fərqi var ki? Dedi: - Mənim üçün fərqi çoxdur. Bəs bilmirsən ki, «aşkurak» ermənicə «qoduq» deməkdir?!

And içib aman elədim ki, bu erməni kəlməsini heç vaxt eşitməmişəm. Ondan sonra Albertə təşəkkür edəndə yalnız «şükrən» gəlməsini işlədirdim.

Hələ birinci dəfə İraqda olanda, ölkənin cənubunda Kifa-Şinafiya obyektində işləyərkən Səmava şəhərinin yaxınlığındakı səhraya getmişdik. Sovet mütəxəssislərinin rəhbəri A.Kondraşenko Bağdaddan gəlmişdi. Topoqraflarımız sahədən qayıtmamışdılar. Yol olmadığına görə maşın adamı atıb-tuturdu. Yaşlı adam olan A.Kondraşenko əziyyət çəkirdi. Odur ki, onu çadırda «haris»lə – gözətçi ilə qoyub, sürücü ilə topoqrafların arxasınca getdik. Onları tapınca, geri qayıdınca artıq toran düşmüşdü; həmişə çox sakit və mehriban olan Kondraşenko əsəbiliklə soruşdu:

– Bu adam dəli deyil ki? Səhərdən bıçaq çıxardıb necə boğaz kəsməyi göstərir. Tez-tez mənə deyir ki, gedək. Hara aparmaq istəyirdi məni?

Məlum oldu ki, gözətçi onu evinə dəvət edir. Qoyun kəsib qonaqlıq vermək istəyir.

Dili bilməyəndə belə şeylər çox olur...

GÖL ƏRƏBLƏRİ

Göz işlədikcə uzanan su səhrası, qamışlıq. Bir ağac, bir ovuc quru torpaq belə yox. Başının üstündə geniş səma, ayağının altında su. Kim inanar ki, belə bir yerdə insan məskən salarmış. Bu göllər hövzəsində adamlar var ki, ömründə oradan kənara çıxmamış, su quşları kimi həyat keçirmiş, əsl həyat, yaşayış, böyük kəndlər, şəhərlər haqqında təsəvvürləri olmamışdır... Məhz buna görə də İraqın cənubunda doqquz min kvadratkilometrlik sahəni əhatə edən göllərdə yaşayan ərəblərə göl ərəbləri – «madan» deyirlər. Onların məskən saldığı bu göllər diyarı, qədim ərəb mənbələrinin göstərdiyinə görə, ya Sasani hökmdarı Bəhram Kurun, ya da Xosrov Pərvizin hakimiyyəti zamanı baş vermiş daşqından sonra əmələ gəlmişdir. «Qədim dünya tarixi» kitabında oxuyuruq: «Ölkənin cənubunda qamış bitmiş bataqlıqlar arasında özlərinə gil və qamışdan komalar tikirdilər. Çayların daşması nəticəsində su komaları yıxıb aparır, adamlar və heyvanlar acınacaqlı şəkildə həlak olurdular. Bəzən Dəclə və Fərat çayları birləşib axırdı. Onda insanlara elə gəlirdi ki, bütün dünyanı su basır. Burada əhali bataqlıq qızdırmasından və saysız-hesabsız ağcaqanadlardan əziyyət çəkirdi».

Bu sözləri bir neçə il əvvələ qədər də göl ərəblərinin həyatına aid etmək olardı.

Burada yaşayan madanların həyat tərzi, güzəranı qəribə bir aləmi xatırladır. Adam inana bilmir ki, XX əsrin ikinci yarısında yaşayan insanlar arasındadır. Bu yerlər dünyanın ən böyük göllük sahələrindən biridir. Yerli əhali buranı «geniş dünya», «azad dünya» adlandırır.

Mart ayından iyun ayına qədər Dəclə və Fərat çayları aşıb-daşanda böyük sahələr su altında qalır. Suyun dərinliyi orta hesabla bir metr yarım olur; altı metrə çatan yerlər də çoxdur. Ən böyük göllər Hammar gölü (Hor əl-Hammar), Əl-Musandaq, Əl-Sayqal, Əl-Bədayə, Əl-Həvazə, Əl-Nəcim, Əl-Rəhman və başqalarıdır. Bütün göllər Bəsrə, Amara, Nasiriyyə, Çubaiş, Suq əş-Şuyuq kimi böyük şəhər və qəsəbələrin arasındadır.

Göl ərəblərinin sayı yüz mindən çoxdur. Yarıdan çoxu yalnız camışçılıq və həsir toxumaqla məşğul olur. Onlar qamışdan, qarğı və həsirdən tikilən evlərdə yaşayırlar. Göllər diyarında dörd cür yaşayış məntəqəsi var:

1. Bir qonaq otağı («muzif») və yüzə qədər evi olan İs-Salaf və ya İn-Nazil adlanan kəndlər.

2. Daimi su olan yerlərdə yerləşən və «İşaan» adlanan 30 – 40 evlik kənd.

Belə kəndlərdə qonaq otağı – «muzif» ola da bilər, olmaya da. Bu kəndlərdə, adətən, ya camışçılıqla məşğul olurlar, ya da həsir düzəltməklə.

3. Əgər əsaslı ev tikirlərsə, evin döşəməsini palçıq və gillə örtürlər. Bunu payız vaxtı göllərdə suyun səviyyəsi aşağı olanda edirlər. Gili və palçığı suyun dibindən götürür, döşəmədə olan qamışın üstünə yaxırlar. Sonra bir lay qamış üstündən yenə gil-palçıq qoyulur. Bu, bir neçə dəfə təkrar olunur. Belə evə «İd-Dibin» deyirlər.

4. Çubaiş. Suda ev düzəltmək üçün hündürlüyü 5 – 6 metr olan qamışlıq seçilir. Onun ortasında ev və həyət üçün kifayət edəcək sahənin qamışını biçirlər. Buraya çoxlu qamış tökürlər. Bu qamışların səviyyəsi sudan yuxarı qalxanda ətrafdakı qamışları içəri əyərək bir-birinə bağlayırlar. Bitmiş qamışlarla biçilən qamışlar bir-birini tutur və gələcəkdə nə qədər su gəlsə də evi yerindən qopara bilmir. Sahə hazır olanda evi tikməyə başlayırlar. Evə qayıq yolunu çox qəribə düzəldirlər. Suyun səviyyəsi aşağı olanda bir neçə dəfə camışları orada haylayırlar. Beləliklə, yeni evə yol açılır.

Gələcəkdə ev aşağı yata bilər, ya həddən artıq sel gələ bilər ki, bunun da nəticəsində su evin içinə çıxar. Onda evin döşəməsinə qamış və həsir tökürlər.

Göl ərəblərinin evləri.

Döşəməsi qamış və həsirdən olan evə «çubaiş» deyirlər. Belə evə bir də ona görə «çubaiş» deyirlər ki onların tikintisində qamışın «çub» adlı növündən istifadə olunur. İndi nahiyə mərkəzi olan Çubaişin də adı bununla əlaqədardır.

Həyat dəyişir. Bir vaxt çubdan suda düzəldilmiş evlərdə yaşayan çubaişlilər indi rahatlığa çıxıblar. Oraya yol çəkilib. Çubaiş artıq qurudadır. Bir neçə il əvvəl dövlət idarəsi olmayan bu yer indi rayon mərkəzidir; burada on mindən çox adam yaşayır. Özünün məktəbi, əczaxanası, klubu, kərpicdən tikilmiş evləri kiçik bazarı və s. vardır. Lakin Çubaişin ətrafında mindən çox kiçik adada çubdan düzəldilmiş həsir evlərdə yenə də yaşayırlar. Daşqın vaxtı buralarda suyun səviyyəsi çox qalxdığına görə camaat kənd təsərrüfatı ilə məşğul ola bilmir. Əsas işləri həsir toxumaq və camışçılıqdır.

Yuxarıda adı çəkilən yaşayış yerlərində tayfanın şeyxinin – mülkədarın mağazası olur. Mağazanın üstünə ağ bayraq sancırlar. Qamış nə qədər uca olsa da camaat mağazanın yerini görə bilir. Şeyx məcbur edir ki, tayfanın adamları alveri yalnız onun mağazasında etsinlər. Kimin nə cürəti var gedə başqa yerdən şeyxin mağazasına nisbətən ucuz qiymətə bir şey ala. Göl adamları xırdavatı, çərəzi və s. kənd-kənd gəzən alverçilərdən alırlar. Bir qayda olaraq, onları əşirətdən-əşirətə o yerin adamları müşayiət edirlər. Bu alverçilər çox gülməli, zarafatcıl olurlar. Sovet mütəxəssisləri ilə göllər diyarına səfərim zamanı* belə bir alverçiyə rast gəldim. Gülməli tərzdə

---

* Belə səfərlər altmış-yetmişinci illərdə tez-tez olurdu. Çünki Tərtər–Fərat kanalı tikiləndən sonra bu göllər tədricən qurudulacaq, göllər ölkəsi öz simasını dəyişəcəkdi. Sovet mütəxəssisləri bu məqsədlə torpağın şoranlıqdan təmizlənməsi, əkinə yararlı hala salınması üçün göllər üzərində tədqiqat aparırdılar.

qışqırırdı: «Gəlin, alın! Yaxşı şəkər çayı ilə. Tütün də var qəhvə ilə. Xiyar, soğan qabaqabdır düyü ilə. Xına da var, rihə ilə. Şirin xurma bu tərəfdə. Qoz-fındığa nə sözünüz. Güzgü də var, daraq da var, gəlin üçün. İynə-sapdan az qalıbdır. Ay camaat, tez gəlin, tez. Şirniyyatın ləzzətini siz görün, siz!»

Alverçinin səsini eşidib bütün uşaqlar həsir evlərin önündəki kiçik meydançalara toplanmışdılar. Qara çadralı qadınlar özləri hördükləri zənbillər əllərində uşaqların arxasında durub alverçinin gəmisinin onların limanına yan almasını gözləyirdilər.

Alverçidən işinin necə getdiyini soruşduq. Gülümsəyərək dedi: «Eh... Mənim işim dəvənin işinə bənzəyir– yüküm xurma, yeməyim qanqal-tikan».

Göllər diyarının iqlimi də sakinlərinin güzəranı kimi ağırdır. Ən uzun və ağır fəsil yay fəslidir. Apreldən oktyabra kimi davam edən bu fəsildə istilik, bürkü və rütubət çox yüksək olur. Kölgədə əlli dərəcə istilik olan günlərdə nəfəs almaq belə çətinləşir. Göllərdə su da qızır. Odur ki, suyun dərinliklərində, qamışlıqlarda xüsusi qablarda içməli su saxlayırlar. Qonaq, ya əziz bir adam gələndə deyirlər: «Ay uşaq, «may ələrуz» – bəy (təzə evlənən) suyundan gətirin». Yəni qamışlıqda saxlanan sərin sudan gətirin.

Su içəndən sonra mütləq «Allah Yezidə lənət etsin» deyirlər. Bununla onlar Yezidin Kərbəla yaxınlığında İmam Hüseynin dəstəsini mühasirəyə alıb susuzluqdan əziyyət çəkərək öldürülməsinə işarə edirlər.

Yayda qarşıya çıxan başqa bir çətinlik ağcaqanadla bağlıdır. Axşamüstü onlar adamlara və hətta heyvanlara belə «hücum edirlər». Camışları belə ağcaqanadlardan qorumaq lazım gəlir. Yeganə çıxış yolu gərmə yandırmaqdır. Ağcaqanadlar gərmənin acı tüstüsünə yaxınlaşa bilmirlər.

Amara tərəfdəki göllər ölkəsini madanlar «umm əl-bak» - «ağcaqanad yuvası», «ağcaqanad mədəni» adlandırırlar.

Yay vaxtı göllər ölkəsində ən qorxulu hadisə isə yanğındır. Günün altında oda dönmüş həsir evlər od aldıqda onu söndürmək olmur. Bu, ən böyük fəlakət sayılır. Çünki yanğın zamanı bu evlərdən heç nə çıxarmaq mümkün olmur.

Yay fəsli ilə bağlı başqa bir çətinlik də vardır. Göl ərəbləri ömürlərinin çoxunu suda keçirirlər. Göllərdə yay vaxtı uzunluğu bir santimetrə bərabər qurdlar peyda olur. Onlar qanı zəhərləyirlər. Bu, bütün göllər ölkəsində özünü göstərir.

Qış da ağır fəsildir. Bu vaxt göllərdə adamı qılınc kimi kəsən sazaqlı küləklər və soyuqlar düşür. Həsir komalarda qışı başa vurmaq çətin olur. Odur ki, uşaqlar arasında ölüm halı geniş yayılır. Sağ qalanlar çox çevik olurlar. Yayın istisi, qışın soyuğu onları möhkəmləndirir, hamısı demək olar ki, «qamçı» kimidirlər. Aralarında kök adam ola ya olmaya. Təbii şərait onların təbiətlərinə, xasiyyətlərinə möhkəm təsir göstərmişdir. Göl ərəbləri təkəbbürlü, vüqarlı, polad kimi əyilməzdirlər. Eyni zamanda çox sadə, açıqürəkli, zəhmətkeş və qonaqpərvərdirlər.

Yaxşı yadımdadır, 1975-ci ildə bir həftə ərzində göllər ölkəsini, necə deyərlər, «qarış-qarış» gəzib tədqiq etdikdən sonra səfərimizdən razı halda Bəsrəyə gəlmişdik. Qəbul vaxtı, əsasən, göllər ölkəsindən, onun sakinlərindən danışdıq. Bizim mütəxəssislər madanların sadəliyindən, qonaqpərvərliklərindən ağız-dolusu söhbət açdılar. Polis nümayəndəsi gülərək dedi ki, sözləriniz doğrudur. Amma onların avamlıqlarına da heç nə çatmaz. Sonra isə olmuş bir hadisəni danışdı:

– Bir neçə il bundan əvvəl madanlardan iki nəfər gənc eşidir ki, xurma yığıb çoxlu pul qazanmaq olar. Odur ki, Bəsrəyə gəlirlər. Ömründə göllər ölkəsindən kənara çıxmayan bu gənclərə şəhər nağıl kimi görünür. Xeyli gəzəndən sonra acır və muzif - qonaq evi axtarmağa başlayırlar. Nəhayət, bir yerdə yemək görürlər. Sahibkar onlara «xoş gəlibsiniz» - deyir. Nə yeyəcəklərini soruşur. Oğlanlar mat qalırlar... Necə yəni

nə yeyəcəyik? Heç qonaqdan nə yeyəcəyini soruşarlar?! - deyə fikirləşirlər. Onlara şorba, balıq, plov, çay verirlər. Yeməkdən sonra «Allah artıq eləsin!» - deyib getmək istəyirlər. Sahibkar pul tələb edir. Polis çağırır. Oğlanlar bir şey başa düşmürlər. «Bu necə qonaq evidir? Eyib deyil?! Qonaq otağında yemək yeyəndən pul tələb edirsiniz?» Sən demə elə biliblər ki, şəhərdə də göllər diyarındakı qonaq evlərində olduğu kimi yeməyi pulsuz verirlər. O mübahisəni həll etməyə mən getmişdim. Yazıqların bircə dinarı var idi...

Göl ərəblərinin güzəranı tamamilə göllərlə bağlıdır. Ev tikmək üçün qamış burada, yatmaq və satmaq üçün həsir burada, yanacaq üçün qarğı-qamış burada, camış üçün yem burada, zənbil və kəndir üçün material burada, özləri üçün ağartı, düyü, arpa, quş və balıq burada, istifadə və satmaq üçün duz burada. Göründüyü kimi, madanların güzəranı, əsasən, qamışla bağlıdır. Qamışlar çox qalın və uca olur. Yanvarda göyərməyə başlayır. Bu vaxt ona «həşiş» – ot deyirlər. Getdikcə böyüyür apreldə «ənqir» adlanır. Qamış bu iki dövr arasında yem üçün yararlıdır. Səkkiz ayda «aqqa», bir ilə qədərki dövrdə «cinibə» adlanır və həsir üçün yararlı olur. On səkkiz ayda «ribax» və «mərdi» adlanır. Bu vaxt ondan ev tikmək üçün istifadə edilir. Şübhəsiz ki, burada söhbət artıq qalın qarğıdan gedir. Ən yoğun qarğıya «kasab» deyirlər. Uzunluğu yeddi-səkkiz metr olan belə qarğılardan qayıqları sürmək üçün istifadə edirlər. Qayıq ağacını gölün dibinə salır, sonra təkan verirlər ki, qayıq irəli getsin.

Madanlar hər il qamışlığın çox hissəsini yandırırlar ki, təzəsi çıxsın. Mal-qara yem sarıdan korluq çəkməsin. Burada həm daşqın az olanda camışlar otlayır, həm də madanlar onların axşam yeməyini və qış azuqəsini toplayırlar.

Qamışı oraqla, çinlə biçirlər. Bu çox ağır işdir. Adətən, qamışı biçərkən qayıqda iki nəfər olur. Biri qamışı tutur, o biri kəsir. Qamış biçən ailə «öz sahəsinin» ətrafını nişan üçün də-

yirmi biçir və sonra ortalarda işləyir. Kəsilən qamışdan, əsasən, həsir hörürlər. İldə bir milyona qədər həsir düzəldilir. Onların hördükləri həsirlər başqa ərəb ölkələrinə də ixrac olunur. Qamışdan qayıqlar da düzəldirlər. Bu qayıqları qırlayırlar, su buraxmır. Onları sonra da ildə bir dəfə qırlayırlar. Qayıqlar, adətən, taxtadan düzəldilir. Burada qayıq çoxdur. Çünki göllər ölkəsində yeganə nəqliyyat vasitəsi sayılır. Aşağıdakı qayıq növləri vardır: çlanka, mataur, maşhuf, kida, bələm, çəlləbiyə və tarrada. Uzunluğu on metrə qədər olan tarrada yalnız şeyxlərə mənsub ola bilər. Bu «gəlinəbənzər» qayıq iç tərəfdən mismarlarla haşiyələnir. Yerdə qalan qayıqlar isə göl ərəbinin gündəlik yaşayışında istifadə olunur.

Madanların əksəriyyəti camışçılıqla məşğul olur. Camışlar göl ərəblərinin həyatında mühüm yer tutur. Südündən qatıq, yağ, qaymaq, şor düzəldib xüsusi qayıqlarda alverlə məşğul olan adamlara satırlar. Əvəzində tənbəki, çay, şəkər, qəhvə, paltar və s. alırlar. Camışın gərməsindən isə yanacaq kimi istifadə edirlər. Camışı elə-belə kəsməzlər. O vaxt kəsirlər ki, ya lap qocalmış, ya da hər hansı bir xəstəliyə tutulmuş olsun. Varlı ailənin 15 – 20, ortababın 7 – 10 camışı olur. Camışla bərabər tək-tük inək və qoyun da saxlayan ailələr var. İnək camışdan iki dəfə ucuz olur. Camışı kişi sağır. Gərməni yığmaq və yandırmaq isə qadın işi sayılır.

Daşqın çox olanda camışlar otlaya bilmirlər. Çünki ayaqları yerə çatmır. Buna görə də madan ömrünün orta hesabla yarıdan çoxunu «doymaq bilməyən» camışlara ot biçməklə keçirir.

Göl ərəbləri çoxlu it saxlayırlar ki, yad adam gələndə onları duyuq salsın; oğurluq-filan olmasın. Bununla belə, oğurluq tez-tez baş verir. Ən çox da camışları oğurlayırlar.

Təkbarmaq Şumandan söz düşəndə indi də səslərini qısır, alçaqdan danışırlar. Baxmayaraq ki, o, çoxdan məhv olub. Camış oğurlamaqda ən mahir adam olan Şuman çox qanlar töküb, çox anaları gözüyaşlı qoyub. Sonralar böyük bir oğru

dəstəsi düzəldən təkbarmaq Şuman günün günortaçağı adamlara hücum edir, mal-qaranı aparırmış.

Son illərə qədər madanların «geniş dünyası» bir çox cinayətlərin izini ört-basdır edirdi. Canilər göllərdə hökumətdən gizlənirdi. Oğurluqlar, basqınlar tez-tez olurdu. İndinin özündə də bu göllərə təhlükəsizlik naminə dəstə ilə getmək məsləhət görülür.

Yadımdadır, motorlu qayıqla Çubaiş, Suq əş-Şuyuq və başqa səmtlərə səyahətimiz zamanı bizi əlisilahlı adamlar müşayiət edirdilər.

Göl ərəbləri balıq tutmaqla da məşğul olurlar. Balığı necə deyərlər, «evin içində» ovlayırlar. Əvvəllər onlar nə balıq, nə də süd satarmışlar. Lakin indi həyat dəyişib.

Sentyabr ayında «xişni» adlanan balıq tuturlar. Bu balığı gecələr ovlayırlar. Qayıqda lampa yandırılır. Balıqlar qayığa sıçrayırlar. Bundan başqa, onu tor və partlayıcı maddə ilə, həmçinin yabaya bənzər şiş qanadı olan alətlə də tuturlar. Balığı Bağdaddan gələn alverçilərə satırlar. 60-cı illərdə irili-xırdalı yüz balığı üç dinara verirdilər.

Göl ərəbləri qış aylarında ovçuluqla da məşğul olurlar. Ümumiyyətlə, burada sərrast güllə atanlara və ovçulara böyük hörmət və ehtiram göstərirlər. Quşları ya tüfənglə ovlayır, ya da tor qurub tuturlar. Qış aylarında göllər diyarında quşların sayı-hesabı olmur. Durna, sultan toyuğu, cüllüt, döyüşkən cüllüt, uzundimdik ördək, ağ, boz və qırmızı vağlar, qartal, qızıl qaz, müxtəlif başqa qazlar, qırmızı və palda ördəklər, ördəyə bənzər cürə və başqa su quşları, qaşqaldağ, şotland turacı və başqa turaclar, arıqıran, çölxoruzu və toyuqlar, qağayılar, müxtəlif rəngli quzğunlar, ley və qutanlar, qırmızı maygülü quşları və s. buraları bəzəyir.

Çubaişə «ovçuların cənnət guşəsi» də deyirlər. Bəzən quşun çoxluğundan suyun üzü görünmür. Bura sözün həqiqi mənasında quş bazarıdır. Suq əş-Şuyuq yaxınlığında gördüyüm quş bazarı ən gözəl lövhə kimi hər vaxt xəyalımda canlanır.

Göl ərəblərinin başqa bir məşğuliyyəti də var. Sentyabr-noyabr aylarında su çəkilir və adalar yaranır. Bu vaxt Çubaiş, Suq əş-Şuyuq və başqa yerlərdən gələnlər göl ərəblərinə cüzi miqdarda pul verərək, onlardan tərəvəz, göy-göyərti, pomidor, xiyar və s. əkilməsi işində istifadə edirlər. Adətən, bol məhsul götürürlər.

Su çəkilib gedən yerlərdə madanlar duz yığmaqla da məşğul olurlar. Su azaldıqca müəyyən yerləri qazıb bir az dərinləşdirirlər. Duz ora yığılır. Onu toplayır, həm özləri istifadə edir, həm də satırlar.

Son vaxtlar xurma yetişən vaxt Bəsrəyə mövsümi işə də gedirlər.

Bəzi yerlərdə arpa, buğda və çəltik əkirlər. Lakin çox vaxt zəhmətləri hədər gedir. Daşqın çox olanda əkin bütövlüklə suyun altında qalır. Buna görədir ki, Suq əş-Şuyuq və başqa yerlərdə torpağı sahələrə bölür və ətrafına bir metrdən hündür olan sədlər çəkirlər ki, bəlkə, daşqın vaxtı suyun səviyyəsi bir az aşağı oldu, düyü, arpa və buğda suyun altında qalmadı.

ADƏT BƏNZƏRSİZ, HƏYAT BƏNZƏRSİZ

Göl ərəblərinin həyat tərzi, adət-ənənələri, güzəranları bənzərsizdir. Düşünürsən, düşündükcə xəyal səni qanadları üstünə alıb cəhalət və nadanlığın hökm sürdüyü qanlı-qadalı orta əsrlərə aparır.

Madanlar əhd edirlər. Arzuları yerinə yetəndə kəlçə, toğlu kəsir, ətini paylayırlar. Elə-belə vaxt madan heyvan kəsməz. Ona görə də ət burada nadir şey hesab olunur. Əgər göl ərəbi kiminsə əlində bir parça ət apardığını görsə soruşar: «Uşaqlardan xəstələnənimi var?» Düşünərlər ki, uşaqları yaxşı yedirdib sağaltmaq üçün ət alıblar.

Yəqin buna görədir ki, tayfanın dava mahnısında belə sözlərə də rast gəlinir:

Başqalarının qisməti dadlı ət oldu,
Mənim qismətim isə qəfil güllə.

Göl ərəbi qonaqla görüşəndə əlini ehtiram əlaməti olaraq ürəyinin üstünə qoyur. Özü də, oğlanları da əl-ayağa düşür, qonağın nəyi varsa tez qayıqdan götürüb evə gətirirlər. Qonaq çıxıb gedəndə isə əllərini ağdan-qaraya vurmazlar. Bir dəfə rəhbərimiz A.Volınov Suq əş-Şuyuq yaxınlığında bu hadisə bir daha təkrar olunanda səbəbini ev sahibindən soruşmağımı xahiş etdi. Məlum oldu ki, bu qonağa hörmət üçün edilir. Əks təqdirdə qonaq düşünə bilər ki, onun tez çıxıb getməsini istəyirlər.

Qonağa hörmət əlaməti olaraq yatmazdan əvvəl onu ovurlar. Ümumiyyətlə, bunu özləri üçün də edirlər. Ömrünün çoxunu evdə və qayıqda bardaş qurub keçirən göl ərəbinə bu çox xeyirlidir. Yəqin ki, həmişə suda olduqlarından bunu həm də yel xəstəliyinin qarşısını almaq məqsədilə edirlər.

Göl ərəbləri arvadlarını adı ilə çağırmırlar. Ona «viliç» – ey, sən! - deyə müraciət edirlər. Kişi arvadı ilə istədiyi kimi rəftar edə bilər. Onu döyə, incidə və istədiyi vaxt boşaya bilər. Onun sözü ailədə qanundur. Ailə üzvləri onun arzusuna sözsüz əməl edirlər. Kişilər qadınlarla bir yerdə yemək yeməzlər. Adətən, kişilər yeyirlər, sonra yerdə qalanı qadınlar yeyirlər. Ailənin iqtisadi işlərində, eləcə də evlənmə məsələlərində qadının məsləhətinə məhəl qoyulmur. Qadın ərinə ağası kimi baxmalıdır. Əri ilə danışarkən səsi heç vaxt ərinin səsindən yüksək çıxmamalıdır. Əri gecədən xeyli keçmiş olsa da, haradansa gələnə qədər qadının yatmağa ixtiyarı yoxdur. Kişilər olan yerdə qadınlar nə danışa, nə də salamlaşa bilərlər. Yadımdadır, bir dəfə baş mühəndisimiz A.Volınov arvadlarla salamlaşanda uşaqlar və kişilər necə güldülər. Təbii ki, qadınlar cavab vermədilər.

Əgər bu qadınları inkişaf etmiş ölkələrə, böyük şəhərlərə aparsaydılar, qəribə bir mənzərənin şahidi olmaq olardı. Av-

tobus və tramvayda onlar qalxıb kişilərə yer təklif edərdilər. Çünki göllər diyarında kişilərin qadın qarşısında üstünlüklərindən biri də budur.

Burada qadınların fəxr edə biləcəkləri bir şey varsa, o da bər-bəzəkləridir. Qızıl bər-bəzəyi hətta topuqlarından və burunlarından da asırlar. Lakin əksər qadınlar pul nə olduğunu bilmirlər. Qadınlar və qızlar əllərinə və sifətlərinə tuşdan müxtəlif şəkillər döydürürlər.

Şeyx istədiyi adamın qızını ala bilər. Lakin şeyxin qızı yalnız şeyxə, şeyx oğluna, onun qardaşına və s. gedə bilər. Bir sözlə, şeyx qızı yalnız şeyx nəslinə qismət olmalıdır.

Əgər başqa yerlərdə qadın varlı adama ərə gedirsə, görüş dairəsi get-gedə genişlənir, əri ilə səyahətə çıxır və s. Bu, göl ərəbləri arasında əksinədir, varlıya ərə gedən qadın evdən bir yana çıxa bilməz.

Göl ərəbləri arasında uşaq olmasının qarşısını almaq günah hesab edilir. Odur ki, qadınlar xeyli uşaq doğur və nədənsə çox tez qocalırlar.

Burada rəqqasəyə və ya müğənni qadına rast gəlməzsən. Gənc oğlanlar rəqslə məşğul olurlar ki, onlara da yaxşı nəzərlə baxmırlar.

Göllər diyarında qadınlar arasında pozğunluq, demək olar ki, yoxdur. Çünki bu, ölümlə nəticələnir. Belə qadını qardaşı öldürməlidir. Əgər qardaşının ona yazığı gəlib öldürməsə, onu namussuzluqda təqsirləndirib xalq arasında bədnam edərlər. Ona salam verməzlər. Belə adam gərək ailəsini götürüb başqa yerə köçsün.

Ölü düşən evin üstündən bayraq asırlar. Hüzr yeddi gün davam edir. Bu müddət ərzində qonşu və qohumlar o ailənin yeməyini verir. Yas yerinə gələn yerli adamlar yalnız qəhvə içirlər. Qonaqlara isə çay və siqaret də təklif olunur.

Yas yerində ev sahibinə pulla kömək edirlər. Çünki əksər adamlar böyük xərclə maşın tutub ölünü dəfn etmək üçün

Kərbəla və Nəcəf şəhərlərinə aparır*. Bu, böyük şan-şöhrət hesab olunur. «Deməzsənmi filankəs oğlunu, ya qardaşını aparıb filan yerdə dəfn etdi».

Çox hörmətli bir adam, deyək ki, şeyx, ya onun oğlu, qardaşı, vəfat edəndə bütün tayfalara xəbər göndərirlər. Hər tayfa dəstə-dəstə gəlir. Qabaqda əlində tayfanın bayrağını tutmuş bayraqdar durur. Başlarına və paltarlarına palçıq yaxırlar. Bu, çox qədim adətdir. M.Adilov «Niyə belə deyirik» əsərində qədimdə bir sıra xalqlarda özünün və ya başqasının halına, bədbəxtliyinə yananda başlarına kül, torpaq və palçıq tökdüklərindən danışır. Homerin «İliada»sında Patrakl öləndə Axillesin hər iki əli ilə külü götürüb başına tökməsi, eləcə də «Şahnamə»də İrəcin ölüm xəbərini eşidəndə qoşun əhlinin ağlayıb başına kül tökməsi göstərilir.

Bu adətin Kərkük bayatılarında yer alması da onun qədimliyinə dəlalət edir.

Çamur onun başına,
Bedasıla bel bağlar.

Bizdə «başına kül», «başına palçıq» kimi xalq arasında qalan ifadələr də bu adətlə bağlıdır. Orada gənc və ya hörmətli adam ölən həyətə girən kimi güllə atırlar. Hüzr sahibi gələnləri qarşılayır. Ona başsağlığı verirlər. Gələnlərə çay, qəhvə və siqaret təklif edirlər. Sonra yemək – aş gəlir. Daha sonra isə növbə ilə tayfaların savaş rəqsi – «hausa» mərasimi başlayır. Bayraq altında dövrə vururlar. Ölənin xatirəsi yad edilir. Biri ucadan onun haqqında sözlər deyir. Başqaları tüfənglərini göyə tutaraq, ayaqlarının birini qaldırıb o birini

* Adətə görə şiələr ölünü ölkənin hər tərəfindən gətirib özlərinin müqəddəs ocaqları olan bu iki şəhərdəki böyük qəbiristanlıqlarda dəfn edirlər. Lakin bu, vacib deyil, imkanı olmayan, ölünü yerli qəbiristanlıqda da basdırır.

qoya-qoya deyilən sözləri təkrar edir və atəş açırlar. Bu mərasim xeyli davam edir və əsl döyüş səhnəsini andırır. Qəribədir ki, onlarda hüzr də, toy sevinci də yeddi gün davam edir. Elə bil orta əsrlərin yaşayış səviyyəsində olan göl ərəbləri sevinclə kədərin, xeyirlə şərin bir doğulduğunu təsdiq üçün toy mərasiminə də, yasa da yeddi gün vermişlər. Yəqin ki, bizim nağıllarımızda, dastanlarımızda rast gəldiyimiz filankəsin toyunda «üç gün», «yeddi gün yedilər-içdilər, dedilər-güldülər, kef çəkdilər», – ifadələri də yuxarıda dediyimizlə əlaqədardır.

Göl ərəbləri bir-iki uşağı olub, ölən ailələrə şər qüvvələrin soxulduğuna inanırlar. Odur ki, yeni dünyaya gələn körpəyə qəribə və əcaib ad qoyurlar. İnanırlar ki, bu halda şər qüvvələr onlara yaxın düşməyəcəklər. Bundan əlavə, uşağın boğazından yumurta boyda daş asırlar. Mən bunu İraqın cənubunda – Səmava şəhəri yaxınlığında, göllər dünyasından uzaq bir kənddə də müşahidə etdim.

Deyirlər «dağ dağa rast gəlməz, insan insana rast gələr». həyat dəyişir. İndi göl ərəbləri arasından da oxumuş adamlar çıxır. Əgər sizinlə Çilab (küçük, tula), Xənzir (qaban, donuz), Bakur (çoşqa), Çaxayş (qoduq), Carayz (siçovul balası), Kausaç (köpək balığı), Əfrit (ifritə), Saxayi (zir), Maun (boşqab), Dauba (goreşən) və s. adında bir nəfər qarşılaşsa, onu qınamayın. O yazıqda nə günah var?..

Göl ərəbləri arasında ayama vermək də geniş yayılmışdır. Onların bəzisini eşidəndə adamın tükü ürpəşir. İki oğul itirmiş ataya «Abu meyiteyn» (iki ölü atası) deyirlər.

Madanlar borc alıb-verməyi xoşlayırlar. Bu, göl ərəbinin hörmətini aşağı salmır. Lakin həddindən çox borc alanda hörmətdən düşürlər. Əgər borcu vaxtında qaytara bilməsələr, borc müəyyən faiz artırılır ki, buna da «qalab» deyirlər. Əkin əkiləndən məhsul yığılana qədər verilən borc «axzar» (əkinbiçin, göy-göyərti) borcu adlanır. Əkin üçün borc, adətən, məhsulun üçdən birinə verilir.

Göl ərəbini uzaqdan belə tanımaq olur. Qədd-qamətli, necə deyərlər, qayış kimi olan bu adamlar xəncər bağlayırlar. Üzləri həmişə tüklü olur. Çünki üzlərini təsadüfdən-təsadüfə qırxırlar. Onlar içki içməz, qumar oynamazlar.

Göl ərəbləri qəribə zehnə malikdirlər. Yüzlərlə camışın içindən öz camışını seçə bilirlər; buynuzundan, bəzən görkəmindən, duruşundan, baxışından və s. Bir qayığı, bir tüfəngi bir dəfə görübsə kifayətdir. Nə vaxt istəsən onun kimin olduğunu sənə desin. Müxtəlif səslərə elə adət eləyiblər ki, qamışlıqda şaqqıltı gələn kimi orada nə olduğunu ayırd edə bilirlər. Səs-küyə öyrəniblər. Lakin qurbağaların yaz və yay axşamları qurultusuna onların necə dözdüklərinə adam mat qalır. Bir dəfə Çubaişdən Nasiriyyə şəhərinə getməli idik. Qaranlıq düşdüyünə və yolları sel basdığına görə bizi buraxmadılar. Çubaişdə gecələməli olduq. Gecə qurbağaların qurultusundan yata bilmədik. Onu heç nə ilə müqayisə etmək olmaz. Elə bir əks-səda, elə bir vahimə yaranır ki, sanki bu saat yer-göy bu səsin zərbindən alt-üst olacaq.

Göl ərəbləri həmişə bir yerdə olurlar. Onların dərdi də, səri də bir olur. Bir-birlərindən gizlədiləsi sirr olsa belə, saxlaya bilməzlər. Birinin evində söz-söhbət, dedi-qodu olan kimi qonşular, qohumlar yığılıb «ağıl» verirlər. Burada xəlvəti danışmaq da mümkün deyil. Evləri bir-birindən ayıran həsir divarlar «sirr» saxlamır. Pıçıltı ilə danışsan da səsin eşidilir. Biri ilə xəlvəti sözün olsa gərək qayığa minib evlərdən aralanasan. Bu da mümkün deyil. Çünki hər şeylə o qədər maraqlanırlar ki, o saat sirri adamdan «qoparırlar». Madanlar özləri də sirr saxlamaq iqtidarında deyillər, buna alışmayıblar.

XƏNCƏRİ SIYIRIB YEMƏK YEDİRDİRLƏR

Hər tayfa başçısının qamışdan tikilmiş böyük bir qonaq evi olur. Bizim mağaralardan da böyük olan bu qonaq evləri «muzif» adlanır. Muziflər qonaqları qəbul edib, onlara pulsuz yemək, çay, qəhvə vermək, yatacağını təmin etmək üçün düzəldilir.

Adətən, hər səhər hamı qonaq evinə toplanır və şeyx (tayfa başçısı, mülkədar) öz hesabına onlara qəhvə verir. Qəbilə üzvləri burada bir-iki saat oturur, sonra iş dalınca gedirlər.

Şeyx qəhvə verilən vaxt özü qonaq evində olmalı və ən yaxşı paltarını geyməlidir. Əgər xəstədirsə və ya başqa yerdədirsə onu oğlu və ya qardaşı əvəz edir.

Qəhvə içməyə kənar adamlar da gələ bilərlər. Bayram vaxtları axşamüstü də qəhvə verirlər.

Tayfanın digər hörmətli nümayəndələri də həftənin müəyyən günləri axşamüstü qəhvə verirlər. Başqaları isə bunu yalnız qonağı gələndə və ya çoxdan gözlədiyi sevindirici xəbəri alanda edir. Bu vaxt qəhvə qablarını bir-birinə vurur və camaat eşidib gəlir. Hər qonaq evində xüsusi «kahvaçi» – qəhvəçi olur. Tayfanın başqa hörmətli üzvləri də qonaq evi saxlaya bilər. Bu onların hörmətini daha da artırır.

Lakin tayfa daxilində hörmətinə və yerinə görə hər adam qonaq evi tikdirməlidir. Şeyxinkindən böyük qonaq evi tikdirmək olmaz. Bu, tayfanın ənənəsinə zidd sayılır. Qonaq evi böyük əhəmiyyətə malikdir. Burada yığışıb tayfanın məsələlərini həll edir, bayramları qeyd edirlər. Bayram vaxtı tayfa üzvlərinə şərbət, siqaret və s. də verirlər. Qurban bayramında heyvan kəsilir. Qonaq evi müqəddəs yer sayılır. Burada and içir, əhd edir, arzu edirlər. Burada «qan» bağışlanır, barışıq olur. Hətta düşmən belə qonaq evinə gəlib girə bilibsə, ona dəymir, bağışlayırlar. Əgər qonaq evində kimsə kimisə təhqir edibsə, belə hesab olunur ki, o, tayfa başçısını təhqir edib. Əgər kimisə incidiblərsə, o, qonaq evinə gəlmir. O vaxta kimi

ki, şeyx hörmətli adamlardan göndərsin və onun könlünü alsınlar. Qonaq evinə mütləq ən yaxşı paltarda gəlməli, «iqal» – baş qaytanı taxmalı, «bişit» – üst paltarı geyməlidirlər. Onları danışdırana qədər danışmamalıdırlar. Zarafat və yersiz gülüş burada yer almamalıdır. Acıqlı olsalar belə, uca səslə danışmamalıdırlar.

Ancaq tayfa başçısı və hörmətli qonaqlar çıxıb gedəndən sonra deyib-gülmək olar. Qonaq evində hər adam öz yerində oturmalıdır. Yerləri ilk dəfə qonaq evinə gələrkən tayfa başçısı müəyyən edir. Qonağı o, özü yuxarı başa aparıb əyləşdirir, siqaret təklif edir, qəhvə ilə barabər çay sifariş verir.

Qəbilənin hörmətli adamlarının oğulları lap aşağı tərəfdə otururlar. Lakin atalar çıxıb gedən kimi onları başa – ataларının yerinə keçirirlər. Yemək vaxtı (bayram, nikah, dəfn və s.) şeyx özü adamları növbə ilə çağırır. Yeməkdən əvvəl və sonra ləyən və dolça gəlir. Əllərini ləyəndə sabunla yuyur, dəsmalla silirlər.

Göl ərəblərini yeməyin keyfiyyəti deyil, kəmiyyəti daha çox maraqlandırır. Bəzi tayfalar arasında belə bir adət olub. Əgər qonaq, şeyxin «muzif»ində yemək yeyib qaşıqla boşqaba vursa, bu, şeyx üçün böyük təhqir sayılarmış. Onda şeyx əmr edir, çox böyük bir yemək hazırlayırlar. Düyü, balıq və s. Əgər qonaq yeməyin hamısını yeyə bilməsə, şeyx əvvəlcədən qınından sıyırıb yanına qoyduğu qılıncla qonağın bədəninə xəsarət yetirir. Ona «ağıl verir» ki, gələcəkdə acgözlük etməsin, özünü yaxşı aparsın. Deyirlər qınından çıxmış qılıncın qorxusundan hədsiz düyü və balıq yeyən adamlar xəstəliklərə düçar olmuşlar.

Mənə lap bu yaxınlarda Albu Rəşid tayfasında şeyxin qonaq evində baş verən hadisəni danışdılar. Acgöz bir nəfər xeyli yeməkdən sonra qaşıqla boşqaba vurmaqla doymadığını bildirir. Onun qabağına çoxlu düyü, balıq və qoyun əti qoyurlar. Şeyxdən soruşanda ki, qılıncı gətirsinlərmi? - Şeyx cavab

verir: «Düyü onun xəncəridir». Ərəb çox böyük çətinliklə bütün yeməyi yeyir, su istəyir. Suyu içən kimi partlayıb ölür.

Düyü burada yeməklər şahı sayılır. Düyü olmayan süfrə, demək olar ki, yoxdur. Quzu əti, balıq və düyü bir yerdə süfrəyə gələndə fərəhlənirlər. Bu, onların ən sevimli yeməyidir. Çörək onlarda az olur. Arpa, buğda və düyünü kirkirədə çəkirlər, un edir, sacın üstündə bişirirlər. Buna «xobz» – fətir, yuxa deyirlər. Yeməyi çox sürətlə yeyirlər. Deyirlər ki, yeməyi süfrədə çox saxlamaq günahdır. Ərəb atalar sözünü tez-tez təkrar etməyi xoşlayırlar: «Dəvə kimi ye və birinci ol».

Ən mötəbər qonağa quzunun gözünü verirlər. Yeməyi əlləri ilə yeyirlər. Arada hərdənbir ətdən, balıqdan qoparıb əziz qonağa verirlər. Baxmayaraq ki, qonağın da iki əli var və o da barmaqları ilə yeyir.

Yeməkdən sonra dolçada su gətirirlər. Növbə ilə, mənsəbindən asılı olaraq, əllərini və ağızlarını yaxalayırlar. Sonra isə papiros çəkirlər. Papirosu öz ağızlarına alıb yandırır və qonağa verirlər. Daha sonra qəhvə və ya çay içirlər. Qəhvə üç fincan verilir. Əgər birinci və ya ikinci fincandan sonra içmək istəmirsənsə, fincanı silkələyirsən.

Gecələr qonaq evinin qabağından «fanus» – çıraq, lampa asırlar. O, səhərə kimi yanır. Yol azan, fəlakətə uğrayan, yatmağa yer axtaran, ac olan bu nişanı görür və ora tələsir. İndi qonaq evlərində çox bahalı xalçalar, palazlar, üstündə oturmaq üçün döşəkcə, söykənmək üçün balınc, yastıq və mütəkkələr vardır.

Qonaq otağı olmayan yerlərdə bəzi evlərə giriş iki tərəfdən olur. Evin yarısı qonaq üçün ayrılır və «raba» adlanır. Burada yolçuya yemək də, gecələməyə yer də verirlər.

Qonaq evlərini böyüklüyünə görə fərqləndirirlər. Ən böyüklərinin uzunluğu 28–30 metr, eni 5–6 metr, hündürlüyü 4–5 metr olur. Bir qonaq evini yüz adam 20 – 30 günə tikə bilir.

Qonaq evinin tikintisində tayfanın bütün kişiləri iştirak edir. Şeyx qonaq evinin tikintisinə başlanacaq günü hamı ilə

məsləhətləşib bildirir. Qonaq evinin tikintisində tək ustadan başqa heç kim zəhmət haqqı almır. Lakin tikinti vaxtı şeyx heyvan kəsir. Gündə iki dəfə hamıya pulsuz yemək verir.

Göl ərəblərinin bu yaşayışına lap yaxın zamanlarda son qoyulacaq, əsrlərlə həqiqət olan bu həyat tərzi nağıla çevriləcəkdir. Sovet İttifaqının köməyilə tikilib istifadəyə verilmiş Tərtər – Fərat kanalı Bağdad şəhərini daşqın təhlükəsindən əbədi xilas etdiyi kimi, göllər ölkəsinə axan selin də qarşısını alacaq, bura münbit torpaqlı əkin sahəsinə çevriləcəkdir.

Göllər diyarına xüsusi gözəllik verən qonaq evləri də yoxa çıxacaq. Onlar haqqında məlumatı bəşəriyyətin düşünüb tapdığı bütün kəşflərin tacı, bəşəriyyətin yaratdıqlarını öz səhifələrində hifz eləyən kitablarda oxuyacağıq.

Göllər altında əsrlərlə uyuyan bu münbit torpaqlarda həyat yenidən canlanacaq, bağça-bağ salınacaq, Bağdada, Bəsrəyə bənzər şəhərlər, kəndlər bina ediləcək. Kim bilir, bəlkə də, Urartu dövlətinin paytaxtının xarabaları – həmin göllərin sahillərində olan Ur bərpa olunacaq, müasir şəhərə çevriləcəkdir.

QILINCLARI PARILDAYIR, AMMA KƏSMİR

Göllər diyarının mərkəzlərindən sayılan Çubaişin özündə belə, son vaxtlara qədər dövlət nümayəndəsi olmamışdır. Yerli şeyxlər, mülkədarlar göl ərəblərinin həm hərbi başçıları, həm hakimləri, həm də ağsaqqalları olub. Onların ayrıca vergi və cəza sistemləri vardı. Bütün gəlirin üçdən biri onlara çatırdı. Tayfa daxilində dava-dalaş vaxtı tüfəng işlətmək qadağan idi. Əgər tayfadan kimsə başqa tayfanın adamları tərəfindən öldürülsə «fəsl», – qanbahası alınardı. Onun yarısı şeyxə çatar, qalan yarısı isə bütün qəbilə üzvləri arasında bərabər bölünərdi.

Evlənmə və qız vermə məsələləri də onun özü tərəfindən həll olunurdu. İstəsəydi başlığın bir hissəsini götürə bilərdi.

Şeyx mərkəzi şəhərlərə – Bağdada və Bəsrəyə gedəndə, eləcə də onun oğlanları və qardaşları evlənərkən qəbilə üzvləri öz «kəramətlərini», «səxavətlərini» göstərməli idilər. Əks təqdirdə şeyxin hiddətinə səbəb olardılar. Şeyx istədiyi vaxt, istədiyi ailəni öz ərazisindən qovar, evini yandırar, mal-qarasını əlindən alardı. Özünü ağacla döydürər, hətta məhbus edə bilərdi.

Son vaxtlar hökumət göl ərəblərinin işinə qarışmaq imkanında olduğundan şeyxlərin hökmü və nüfuzu xalq arasında zəifləyib. İndi şeyxlər haqqında deyirlər: «Qılıncları parıldayır, amma kəsmir».

Şeyxin qulları olarmış. Şeyx qul qızları özü istədiyi adama ərə verərmiş. Ancaq quldan olan uşaq ata-anasının deyil, ömürlük şeyxin qulu olaraq qalarmış.

Ayrı-ayrı kəndlərdə şeyxin nümayəndəsi – «muxtar» olurdu. Onlar çox vaxt şeyxin qardaşları və ya oğullarından təyin edilirdi. İşləri vergi və cərimə yığmaq idi. Tayfanın ənənəvi qanunları – «sovani» əsasında məhkəmə işləri şeyxin özü tərəfindən aparılırdı. Hadisə mürəkkəb və ağır olmadıqda, qərarı şeyx özü təklikdə çıxarırdı. Əks təqdirdə şeyx tayfa ağsaqqallarının müşavirəsini çağırır, onlar öz məsləhətlərini verirdilər. Son qərar yenə şeyxin özündən asılı idi.

ADAM ÖLDÜRMƏK CİNAYƏT YOX, BORC İMİŞ

Ağır cinayətlər iki yerə bölünürdü. Birincisi «issoda» – qara cinayət adlanır. Buraya ərinin namusunu ləkələmək, qoşulub qaçmaq, aldadıb ələ salmaq halları aiddir. Bütün bunlar çox böyük rüsvayçılıq hesab olunur. Qız və qadın mütləq öldürülür. Bunu, qızlarını bir-birinə vermiş «xovvanlar» – qohumlar edirlər. Oğlanları tuta bilsələr onu da öldürürlər. Bununla məsələ bitmir; belə hadisələr baş verəndə ailə cərimə olunur.

İkincisi isə «il-fasda» – pis cinayət adlanır. Buraya başçısını və qohumunu öldürmək, eləcə də nəsil içərisində oğurluq etmək daxildir (başqa yerdən nə qədər oğurluq edə bilsən baş ucalığındır).

Hər cinayət üçün qəbilələrdə cərimə ilə haqqını almaq yolu var. Buna «fəsl» – qanbahası deyirlər. Xırda cinayətlər istisna olmaqla bütün cinayətlərin əvəzini qız verməklə çıxırlar.

Baxmayaraq ki, 1921-ci ildən sonra göl ərəblərinin mərkəzi hökumətə tabeçiliyi elan edilib, qəbilələr arasında cərimənin əvəzinə qız vermək, xüsusən də ölüm hallarında, indi də özünü göstərir.

Göl ərəbləri arasında təhqir, xətər, qan heç vaxt unudulmur. İllər keçsə belə məqam çatan kimi əvəzini çıxırlar. M.F.Axundovun «Sərgüzəşti - vəziri-xani-Lənkəran» əsərində gülüş hədəfi olan «Biri sənin atının gözünü çıxarıb, get sən də onun atının gözünü çıxart» «qanunu» göl ərəbləri arasında son bir neçə ilə qədər qalırdı. Birinin gözü çıxarılıbsa, gərək onun da gözü çıxarılsın. Diş də beləcə, hətta ölüm halında da belə. Son vaxtlara qədər hər xətərin öz qanbahası – əvəzi var idi. Əgər əvəz verilməsə ədavət başlanır, qan su yerinə axardı. Bu halda adam öldürmək cinayət deyil, sadəcə olaraq borc hesab edilirdi.

İki adam, iki ailə və s. arasındakı ədavəti aradan qaldırmaq üçün onları yalnız kalit – tayfanın ənənəvi ağsaqqalı barışdıra bilər. O, kufiyəni* bir dəstə qamışa bağlayır və hər ucunu ədavətdə olanların birinə verir. Onlar kufiyəni dartırlar. Bununla da ədavətə son qoyulur, sülh yaranır. Bu, o deməkdir ki, onlar tayfanın ağsaqqalına və öz namuslarına and içirlər ki, düşmənçiliyə son qoydular.

---

* Kişilərin ilin bütün fəsillərində başlarına bağladığı, eni və uzunluğu metrə yarım, üstündə qara xətt olan ağ qumaş dəsmal. Başdan sürüşüb düşməsin deyə üstündən «iqal» adlanan qara qaytan bağlayırlar.

İki tayfa arasında qan davasına birdəfəlik son qoymaq istəyirdilərsə, hər iki tərəfdən ölənləri sayırdılar. Hansı tərəfdə öldürülən çox olsa, o biri qəbilə hər öldürülənin əvəzinə 2 – 3 qız və ya qadın verməli olurdu. Əgər həmin qadın oğlan doğmasa, bəzən qaytarıla və yerinə başqası tələb edilə bilərdi.

Qanbahası verilən qadınlardan birincisi madanlarda «ficiriya» adlanır. Bu, 14–16 yaşlı sağlam qız olmalıdır. Ficiriya qatilin qızı və ya bacısı, əgər yoxdursa, yaxın qohumlarından olur. O, adətən, öldürülənin qardaşı və ya əmisi oğluna ərə verilir. O birilər «talavi» adlanır. Əgər əri qanbahası aldığı qadını öldürərsə, həmin tayfaya bir qadın verməlidir.

Qırx-əllinci illərdə qan məsələsinə görə kimisə öldürmüş adamı hökumət tutanda üç il həbs cəzası verirmiş. Yeri gəlmişkən deyək ki, vaxtilə göllər ölkəsində ən ağır cəza göz çıxarmaq imiş. Ölüm isə ondan «yüngül cəza» hesab olunarmış.

Ölüm hallarında qanbahası qız alınmasını belə izah edirlər ki, gəncin əvəzinə həmin qadın oğlan doğsun ki, oğlan da öləni əvəz etsin. Qadın bu şərti yerinə yetirdikdən sonra, yəni oğlan doğandan sonra uşağı qoyub öz qəbiləsinə dönə və istədiyi kişini seçib ona ərə gedə bilərdi. Adətən, qanbahası alınan qıza, düşdüyü qəbilədə pis münasibət bəsləyirlər. Ona görə də adi ailələrdə bəzən qadın ərindən daha yaxşı münasibət gözləyirsə deyir: «Məgər mən fəsliyəyəm» (yəni «qanbahası» sifətiləmi gəlmişəm evinə?)

Adicə dava-dalaş vaxtı da cərimə olunmaq dəbdədir. Bu vaxt nəslin əli silah tutan bütün üzvləri (oğlanlar 16 yaşından sonra) cinayət edənə eyni miqdarda pul yığıb verirlər. Nəsil kiçik olanda cəriməni ödəmək də çətin olur. Buna görə ailənin nəyi varsa satır və bir həsir daxması ilə qalır. Başqa bir qəbilədən cərimə haqqı, qanbahası gələndə də hamı arasında bərabər bölünür (əri, oğlu öldürülən də başqaları qədər pay alır). Biri vəfat edəndə indinin özündə də başqaları pul yığıb hüzr sahibinə kömək edir. Siqaret, qəhvə, şəkər, imkanı olanlar isə qoyun alıb gətirirlər.

Göl ərəbləri qəbilələrinə qəribə adlar verirlər: «qardaşlar», «atalar, qardaşlar, nəvələr», «ləhanə vahidə», «can bir» və s. Göl ərəblərinin qanunlarına görə, əmiqızı, dayıqızı, əmioğlunun, dayıoğlunun olmalıdır. Qızın onu istəyib-istəməməsi əhəmiyyət kəsb etmir. Əgər oğlan başqasını istəsə, əmiqızı, dayıqızının başqasına getməyə ixtiyarı var. Əmioğlu qızın başqasına getməsini qadağan edə də bilər. Əgər başqası onun sözünə baxmayıb əmisi qızını alsa, iki tayfa arasında ədavət başlanır və bu, qan davasına gətirib çıxarar. Necə ki, belə bir hadisə Abdul Əli və Cəndil qəbilələri arasında baş vermişdi:

Cəndilli Musanın qızı Səidə gözəlliyi ilə ətrafa səs salmışdı. Abdul Əli camaatından olan, var-dövləti və qorxmazlığı ilə məşhur Qazban çox böyük «başlıq» və zor gücünə Səidəni özünə arvad etmişdi. Səidənin əmisi oğlu Salman Qazbandan intiqam almağa gedərkən öldürülmüşdü. Cəndil camaatı böyük qüvvə toplayaraq, Qazban evdə olmayanda qəflətən Abdul Əli qəbiləsinə hücum etmiş, Qazbanın beş oğlunu öldürmüşdür. Deyilənlərə görə, kefi kök, damağı çağ, gənc arvadına palpaltarla, daş-qaşla evə dönən Qazban beş oğlunun meyitini həyətdə görəndə saçı ağarıb, beli bükülüb.

Nəslin bir üzvü təhqir olunursa, bu, nəslin bütün üzvlərinə aid edilir. Onlar mübahisəli məsələlərdə bir-birini müdafiə edirlər, hətta günah özününkülərdə olsa belə. Sonralar ağsaqqallar nəslin günahlı üzvünü danlayırlar. Ümumi işdə hamı birgə iştirak edir.

NİKAH

Daxili işlərdə, xüsusən də evlənmə məsələsində böyüklərin sözü qanundur. Dediyimiz kimi, oğlan öz əmisi qızını almalıdır. Əgər əmisi qızı yoxsa, nəsildən başqa bir qızla evlənməlidir.

Adətən, nikahın yarıdan çoxu nəsil daxilində olur. Burada «başlıq» böyük rol oynayır. Öz əmisi qızını və ya ümumiyyətlə, tayfasından qız alan oğlan beş-altı dəfə az «başlıq» verir. Pula çox möhtac olanlar bəzən qəbilə ənənəsini pozaraq qızını başqa tayfaya verir və çox «başlıq» alır. Bu vaxt ədavət başlanır. Hidayət əfəndinin başına gələn faciə də bununla əlaqədar olmuşdur.

Hidayət əfəndi Amara tərəfin ən varlı adamlarından idi. Başqaları həsir komalarda yaşadığı halda o, Dəclə çayı sahilində kərpicdən tikilmiş evdə yaşayırdı. Arvadları, gözəl uşaqları vardı. Bir gün Fitnənin əfsanəvi gözəlliyi xəbəri ona çatır. Həm də eşidir ki, Fitnəni öz əmisi oğlu Saqban istəyir. Qız da onu xoşlayır. Buna baxmayaraq, çox böyük «başlıq»la Fitnəni almaq qərarına gəlir. Saqban onun ayağına düşür, çox yalvarır. Lakin Hidayət əfəndi onun sözünə məhəl qoymur. Fitnəni özünə arvad edir. Toy gecəsi gizlicə otağa soxulan Saqban xəncərlə Hidayət əfəndini doğrayır. Səs-küy düşür. Saqbanla Fitnə ata minib qaçarkən bəyin adamları da onları öldürürlər....

Nikahın ailə daxilində belə qapalı olmasının başlıca səbəblərindən biri də odur ki, gənclər iqtisadi cəhətdən müstəqil deyillər. Ata pul verir və oğluna arvadı özü seçir. Evlənənlərin bir-birini əvvəlcədən görməsi şərt deyil. Elə olur ki, bəzən toy gecəsinə kimi bir-birlərini görmürlər. Başqa bir cəhətdən də, yaxın qohumlarla evlənəndə ailənin daha möhkəm olacağını düşünürlər.

Toy vaxtı qohum, dost, tanışlar bəyin atasına kömək göstərirlər. Burada sabit bir xüsusiyyət var. Əvvəllər toy sahibi nə qədər pul veribsə, gərək o qədər pul gətirilsin. Toyun səhərisi günü bəyin yaxın qohumları aş bişirir, onun evinə gətirirlər.

Toy göl ərəbləri arasında ən böyük bayramdır. Əgər gəlin başqa kənddəndirsə, səhər tezdən bəyin adamları və dostları qayıqlara minib onu gətirməyə gedirlər. (Bəy heç vaxt gəlin dalınca getməz. O, evdə qalır.) Günün çox hissəsi gəlinin kəndində keçirilir. Oynayır, şənlənirlər. Toyda nağara çalınır. Axşama yaxın hamı yığışıb «hausa» – tayfanın savaş rəqsini oynayırlar. Biri bir-iki bənd oxuyur. Başqaları xorla onu təkrar edir və dairə vurub silahlarını atıb tuta-tuta, atəş açа-açа oynayırlar. Sonra gəlini xüsusi bəzədilmiş qayığa mindirirlər. Gəlinin barxanasını və ev əşyalarını qayıqda onun önünə yığırlar. Özünə bər-bəzəkli paltar geyindirirlər. Qayıqların sayı-hesabı olmur. Güllə səsindən qulaq tutulur. «Ziyafif» – qonaqlar dəstəsi keçdikləri kəndin yanında dayanıb «hausa» oynayırlar. Bu vurhavur oğlan evində də bütün axşam davam edir. Qadınlar gün uzunu «ulu-lu-lu-lu-lu» - deyə sevinclə qışqırırlar. Gecədən xeyli keçmiş evlərinə dönən qonaqlar sakitliyi pozan bir güllə səsi də eşidir və fərəhlənirlər. Bu, üzü ağ gəlinin otağından çıxan bəyin «qələbə» atəşidir.

Toy sevinci yeddi gün davam edir. Qardaşlar evlənəndən sonra belə, ayrılmazlar. Buna görə də ailə çox böyük olur. İki və çoxarvadlılıq göl ərəbləri arasında özünü az göstərir.

QOŞULUB QAÇMAQ

Qoşulub qaçmaq, böyük rüsvayçılıq hesab olunur. Bu halda qız tərəfin borcudur ki, qız və oğlanı tapıb öldürsün. Əgər hadisə olubsa, oğlanla qız bir ağsaqqala pənah aparırlar.

Qanuna görə, biri başqasına pənah apardı – saxlayırlar. Oğlan tərəfin adamları qız tərəfin adamlarından bir aylıq möhlət istəyirlər ki, «əvəz» versinlər. Möhlət alınana qədər oğlanı və qızı öldürsələr, qanları batır. Əgər möhlət qəbul ediləndən sonra öldürsələr, onda qız adamları cərimələnirlər.

«Əvəz» isə belə olur: qızın qohumlarına ərgən qız verilir. Bu halda oğlandan qaçırdığı qıza görə «başlıq» tələb edilmir.

«Başlıq» əsasən, pulla ödənilir. Lakin bəzən bir hissəsi xırdabuynuzlu heyvanlar, mal-qara, pal-paltar, barxana, ev avadanlığı və s. ilə əvəz olunur. Adətən, «başlıq» əvvəlcədən verilir. Amma razılıq əsasında onun bir hissəsi məhsul yığımından sonraya da qala bilər.

Əmiqızı, dayıqızı alınanda 5 – 20 dinar məbləğində «başlıq» verilir. Başqa qəbilədən evlənəndə «başlıq» 100 – 120 dinar olur. Qəbilə daxilində hamının öz oğluna almaq istədiyi qızın «başlığı» da yüksək olur: 120 – 150 dinar. Nəzərə alsaq ki, 60-cı illərdə dana, kəlçə 2 – 3, inək 10 – 12, camış 20 dinar olub – bu, böyük puldur. Əgər biri qızını başqa birisinin oğluna vermək istəmirsə, yüksək «başlıq» istəyir. «Başlığ»ın adətən, yarıdan çoxu, bəzən də hamısı qıza xərclənir.

Oğlu olmayan atalar kimsəsiz oğlan axtarıb qızlarından birini ona pulsuz – «başlıq»sız verirlər. Adətən, oğlan onun evində yaşayır. Belə bəylərə «qaadi» (başqasının qoltuğuna sığınan) deyirlər. Onlara pis nəzərlə baxırlar.

Əgər oğlan gələcəkdə arvadını götürüb qayınatasının evindən çıxsa, vaxtilə razılığa gəldiyi «başlığı» ödəyir. Əgər arvadını boşayıb çıxırsa, onda «başlıq» verilmir. Göl ərəbləri arasında nikahın «sidiq» adlanan bir növü də var. Valideynlər qızlarını, bacılarını, qardaş qızlarını başabaş dəyişirlər. Bu vaxt «başlıq» alınmır. Bu cür nikah yaxşı sayılmır. Çünki tərəflərdən biri gələcəkdə gəlini boşasa, o saat o biri tərəf də boşayır. Ata baxmaz ki, gəlini çox yaxşıdır, oğlu onu sevir və s. Əgər göl ərəbinin arvadı ölərsə, onun baçısını ala bilər. Əgər uşaqları varsa, kiçik bacını almaq üstün tutulur ki, ailədə pozğunluq olmasın.

Eləcə də kişi ölərsə, qardaşı onun arvadını ala bilər. Xüsusən də böyük qardaşın uşaqları qalıbsa, ata-ana kiçik qardaşı gəlinlə evləndirir.

Kişi qadını o vaxt boşayır ki, ya uşağı olmur, ya da qadın ərinin namusunu ləkələyir. Ərinin namusuna ləkə vuran qadını öz qohumlarından biri öldürməlidir. Çünki «bu rüsvayçılıq bütün nəslin adını batırır», - deyirlər.

Yuxarıda göstərildiyi kimi, kişi qadını istədiyi vaxt boşaya bilər. Qadın da boşana bilər. Ancaq bu halda onun nəsli kişinin vaxtilə «başlıq» verdiyi pulu qaytarmalıdır. Adətən, ərindən boşanmış qadınları az alırlar. Deyirlər «yaxşı olsaydı əri boşamazdı».

Elə də olur ki, ərli arvad başqasına qoşulub qaçır. Bu zaman onun əri nikahı pozur. Qadının qohumları onun evinə gəlir, kişiyə başqa qadın məsləhət görür. Kişi bunu qəbul edir. Lakin əvvəlki arvadından və onun təzə ərindən qisasını almamış baş örtüyünün üstündən «iqal» – qaytan taxmır. Bu, inqilabdan əvvəl kəndimizdə baş vermiş, indi də yaşlı qocaların danışdığı bir hadisəni xatirimə gətirir:

Məhəmməd adlı bir nəfərin namusuna kəndxuda toxunubmuş. Məhəmməd o gündən başına qadın yaylığı bağlayır. Kəndxudanı öldürənə qədər yaylığı açmır. Bir gün kəndə xəbər yayılır ki, kəndxuda öldürülüb və atının yüyəni ilə dəyirmanın yanındakı qarağacdan asılıb.

O vaxtdan «qanlı qarağac» adlanan ağac indi də durur və həmin faciəni yaşadır.

Nadanlığın, cəhalətin hökm sürdüyü qanlı-qadalı dövrdə belə hadisələr başqa xalqlarda da az olmamışdır, o cümlədən də göl ərəblərində.

ƏFSANƏYƏ BƏNZƏR HƏQİQƏTLƏR

Qoca Hacı Rikkanın hekayəti. Bir gün dostum Adnan ibn-Sadun yanıma gəldi. Qanı qara idi. Səbəbini soruşdum. Dedi: «Hacı, bilirsən ki, oğlum Tahirin qızını istəyir. Onlar isə bizdən bir kənd aralı olur. Bu məsələni həll etmək üçün Tahirgilə getmək lazımdır. Ancaq heç bilmirəm nə edim. Oraya yeganə yol Albu Qənəmdən keçir. Bilirsən ki, bizim nəslimizin Albu Qənəm camaatı ilə ədavəti var. Düzü-düzyana – Tahirgilə getməyə cürət etmirəm. Gəldim, bəlkə, mənə himayədar olasan».

Dərin fikrə getdim. Həyatımda çox qanların şahidi olmuşam. Heç bilmədim nə deyim. Mən bizim camaatı yaxşı tanıyıram. İntiqam məqamı gələndə böyüyə-kiçiyə baxan deyillər. «Yox» deməkdən çəkindim. Qorxdum ki, dostum Adnan mənim haqqımda bədgüman olar. Fikirləşər ki, yaşa dolduqca ölümümdən qorxuram. Bu bizdə ən böyük rüsvayçılıq sayılır. Ölümündən qorxmaq özü ölümdən artıqdır. Məni düşündürən Albu Qənəm camaatı idi. Adnanı görsələr ona xətər yetirə bilərlər. Bu isə iki tayfanın düşmənçiliyinə səbəb olardı. Bu yandan da qız evinə oğlan atası özü getməsə, nikah baş tutmaz. «Allaha pənah» deyərək razılıq verdim.

Səhəri gün obaşdan yola düşdük. Albu Qənəm kəndinə yaxınlaşanda hava yenicə işıqlaşırdı. İki nəfər həm balıq tutur, həm də qamışlıqlar arasından yeganə yolun keçdiyi bu yerdən Albu Qənəm camaatının keşiyini çəkirdilər. Bizi görən kimi onlardan biri ucadan səsləndi: – Adnan ibn-Sadun, sənsən?

– Bəli! - deyə o cavab verdi.

Adını dana bilməzdi. Bu, bizlərdə böyük rüsvayçılıq hesab olunur.

– Necə cürət edib bizə meydan oxuyursan? Bizi tapdalayıb harasa getmək istəyirsən. Məgər bilmirsən ki, bu mümkün olan iş deyil?!

Mən tez qışqırdım ki, Adnan mənim himayəm altında gedir. Ona toxunmağa ixtiyarları yoxdur. Ona hədə-qorxu da gəlməsinlər. Yoxsa bunun əvəzinə Albu Qənəm qəbiləmizə bir qadın verməli olacaq. Beyni qanla dolmuş adamlar mənim sözümə məhəl qoymadılar. Tez qamışlığa çəkildilər. Su üzərində nə edə bilərdik? Qamışlıqda onların harada olduqlarını da görə bilmədik. Tale yazıq Adnanı çox gözləməyə qoymadı. Tək bircə güllə ilə onu vurdular. Qayıq az qaldı çevrilsin. Mən də suya qərq olum. Qamışlıqdan qışqırdılar:

– Hacı Rikkan, sənlə ədavətimiz yoxdur. Gəldiyin yolla da dön geri!

Özüm geri dönsəm də, ürəyim getmirdi. Yolda Adnan «oğul, oğul» deyə-deyə öldü. Əşirətimizə çatdım. Hər şey əvvəlcədən aydın idi. Bizim göl adamlarının adətinə görə, Albu Qənəm camaatına müharibə elan etməli idik. Əgər onlar sülh istəsələr, gərək qanbahası 2 – 3 qadın (qız) verə və üç gün öz yerlərindən çəkiləydilər. Biz isə orada qəhvə paylayıb qürrələnəydik ki, bizdən qorxdular. Lakin göl adamları çox vüqarlı, təkəbbürlü olurlar. Ölümə razılaşarlar, belə alçalmağa yox.

Ağsaqqallarımız evlərin üstündən dava bayraqlarının asılmasını əmr etdilər. Albu Qənəm qəbiləsindən sülh barədə xəbər çıxmadı. Bütün camaat yığıldı. Əli silah tuta bilən qoca, cavan (14 yaşından yuxarı) – hamı müharibədə iştirak etməli idi. Mənim hər üç oğlum da davada idi. Tale düşmənin üzünə güldü. Əşirətimiz basıldı. Əksər kişilər məhv oldular. Qulağım səsdə idi. Ola bilməzdi ki, oğlanlarımın hamısı... Nə o gecə, nə on gün, nə də on il sonra oğlanlarımdan bir xəbər çıxmadı.

Bəxtim belə imiş. Bir ildən sonra arvadım da vəfat etdi. Düşməndən qisas ala bilmədim. Nə gözümdə nur qalıb, nə də qolumda güc...

Qələbə adası – Matəm adası. Göllər ölkəsində onu Məcnunə deyə çağırsalar da, hamı dərdinə acıyır. Başına gələn faciə bir neçə ilin söhbətidir. Risan ibn-Qaçi əşirətin ən cürət-

li, qorxmaz oğlu, Rüvadə isə ən gözəl qızı idi. Risan Rüvadəni, qız da Risanı sevir. Elçilər gəlir. Ancaq Rüvadənin atası qızının çox gözəl və ağıllı olduğuna güvənərək görünməmiş miqdarda «başlıq» istəyir. Bu qədər «başlığ»ı yalnız şeyxlər verə bilərdilər. Risanın adamları çox xahiş edirlər ki, «başlığ»ın miqdarını azaltsın, lakin qızın atası sözündən dönmür. Risan on il gecə-gündüz işləyir, nəhayət, «başlığ»ı düzəldir. Rüvadə ilə kiçik bir adada kasıb həsir evdə yaşayırlar. Hamı Risana böyük ehtiram göstərir və bu adanı Qələbə adası adlandırır.

Fəsillər bir-birini əvəz edir. Bir gün Rüvadə oğlan doğur. Onun da adını Nəsr-Qələbə qoyurlar. Sevincləri daha da artır. Amma uzun sürmür. İsti yay günlərinin birində Risan evində yatarkən Əli adlı bir nəfər qaçıb özünü onun ayağına atır və «dəxələ» – sənə pənah gətirmişəm, - deyir. Qamışlıqdan beş nəfər çıxır və qışqırır:

– Risan, bizim düşməni bizə göndər, yoxsa heç nəyə baxan deyilik. Səni də ona qatarıq.

Risan ona pənah gətirən bir adamı ölümə göndərə bilməzdi. Bu, şərəfini, adını itirmək demək olardı. Göllər ölkəsində belə rüsvayçılığa məruz qalmaqdansa, vüqarla ölməyi üstün tuturlar.

Risan tüfəngini götürür və sərrast güllə ilə onlardan birini vurur. Qalan dörd nəfər Risanın həsir evini gülləbaran edir. Lakin yaxınlaşmaqdan qorxurlar. Risan onlardan birini də vurur. Çox qorxaq və silahsız olan Əli ona kömək etmək, dayaq olmaq əvəzinə evin arxasından özünü suya atır. Düşmənləri onu görür və bir güllə ilə o dünyaya göndərirlər. Sonra isə Risanın tək qaldığını bilib ürəklənir və evə yaxınlaşmağa başlayırlar. Risan onlardan brini də vurur və özü də ağır yaralanır. Sağ qalanlar evə girib Risanı və bir yaşlı oğlunu arvadının gözü qabağında qılıncdan keçirirlər. Rüvadə əvvəlcə ağlayır, sonra isə ucadan gülməyə başlayır. Başına hava gəlir. Kişilər

arasında başıaçıq gəzir, onlarla danışır, oğlunu, ərini istəyir. Hamı onun dərdinə acısa da, bir kömək edə bilmir.

Neçə ildir ki, Qələbə adası Matəm adası adlanır. Burada heç kim ev tikmir, su heç vaxt bu adanı basmır.

«Namusumuzu qoruduğun üçün səni bağışlayıram». Bəni Ləəm qəbiləsindən olan Hüseyn Böyük Şeyx Məzkurun qohumlarından birini quş ovlayarkən təsadüfən öldürür. Gözəlliyi ilə göllər ölkəsinə səs salan qızı Hasilə və arvadını da götürüb qorxusundan gecə ikən başqa yerə – Şeyx Mənsur qəbiləsinə pənah aparır,

Şeyx Mənsur onları qəbul edir. Ancaq sonralar onun gözəl qızını almaq istəyir. Hüseyn isə razılaşmır. Bir yandan ona görə ki, Şeyx Mənsur yaşlıdır. Başqa bir tərəfdən də Hüseynin mənsub olduğu Bəni Ləəm əşirəti Şeyx Mənsur qəbiləsinə aşağı nəzərlə baxır. Nə onlara qız verir, nə də onlardan qız alırlar. Şeyx Mənsur onu məcbur edir. Hətta hədə-qorxu da gəlir. Onu və ailəsini qaytarıb Bəni Ləəm camaatına verəcəyi ilə hədələyir. Hüseyn razı olur.

Lakin adətə görə gərək Şeyx Mənsur onun qapısına elçiliyə gəlsin. Hüseynin isə öz evi yoxdur. Belə olan halda-tez Hüseynə aralıda suyun içində ev tikməyə başlayırlar. Hüseyn gecə vaxtı kiçik qayıqda ailəsi ilə Bəni Ləəm qəbiləsinə qaçır. Gecə ikən xəlvətcə Şeyx Məzkurun qonaq otağına girir. Adətə görə əgər düşmən xəlvəti gəlib qonaq otağına girə bilirsə, onu bağışlayırlar. Amma Hüseyn bu qəbilənin üzvü idi. Özü də adam öldürmüşdü. Onu ağır cəza gözləyirdi. Hüseyn baş örtüyünü açıb divardan asır, xəncərini çıxarıb Şeyx Məzkura uzadır və deyir: – Şeyx Məzkur, öz xəncərimlə boynumu vur, mən buna layiqəm.

Amma ailəmi sənə tapşırıram.

Şeyx Məzkur ağsaqqalları yığıb Hüseyni dinlədikdən sonra:

– Qəbiləmizin ənənəsini pozmadığına, düz hərəkət etdiyinə görə səni öldürmürəm. Səndən nə qanbahası qadın, nə də

pul istəyirəm. Namusumuzu qoruduğuna görə səni bağışlayıram. Qızın Hasiləni də başlıqsız, qeyd-şərtsiz ölümünə bais olduğun Haşımın oğluna ver, - demişdir.

Sədiqənin taleyi. Hərənin bəxti bir cür gətirir. Mən Hantuşun bəxti belə imiş. Biz səhrada yaşayırdıq. Ağam Şeyx Qalibin qılıncının dalı da kəsirdi, qabağı da. Bir gün böyük dava düşdü. Şeyx Qalibin camaatı qılıncdan keçirildi. Gecə ağam, onun kiçik qızı Sədiqə və mən qaça bildik və bu göllərə pənah gətirdik.

Ağır günlərimiz başlandı. Səhra camaatının öz adəti, göllərdə yaşayanların öz adəti. Ağam bunların adətini gördükcə dəhşətə gəlir, dərin fikrə gedirdi. Lakin geriyə yolumuz yox idi. Səhrada bizi ölüm gözləyirdi. Həftələr, aylar keçir, illər illəri əvəz edirdi.

Ağam get-gedə qocalırdı. Sədiqə böyüyüb gözəl qız olmuşdu. Çoxları onu istəyirdi. Ancaq ağam ağlagəlməz «başlıq» tələb edib qızı heç kimə vermirdi. Göl adamları ağamın xoşuna gəlmirdi. Bir yaz axşamı ağamın qonaq evində oturmuşduq. Hamı qəhvə içirdi. Birdən güllə səsi eşidildi.

– Kimdir? - deyə qışqırdılar. – Mənəm, Həddamam.

– Ehtiyatlı ol, tüfənglərimiz ayaqdadır. Nə gəzirsən bu gecə vaxtı?

– Sevgilimi gəzirəm. Onun atası ilə danışmağa gəlmişəm.

– Sədiqənin dalınca gəlib, - deyə pıçıldaşdılar. Deyəsən, bu məsələni ağamla məndən başqa hamı bilirmiş.

– Sədiqənin atası ilə danışmağa gəlmişəm, - deyə Həddam yenidən dilləndi.

Ağam tez tüfəngini götürüb səs gələn tərəfə atəş açdı. Dəhşətli bir səs çıxardaraq kimsə şappıltı ilə suya yıxıldı. Ağam rahatlanmış kimi oldu. Asudə nəfəs aldı.

Elə bu vaxt: «Ay yazıq əmim oğlu, əcəl səni tapdı. Sənin qanını yerdə qoymayacağam», - sözləri eşidildi. Bu, Həddam idi. – Heç kim yerindən tərpənməsin. Sizin ada mühasirəyə alınıb. Yoxsa evlərə od vuracağıq.

Hamı donub yerində qalmışdı. Ağamın rəngi qaçmışdı.

– Ey Albu Fəhəd camaatı, mənə qanbahası qadın təklif etməyin. Mənə sizin aranızda olan yeganə qızdan başqa qadın lazım deyil. Pul isə alacağam. Özü də bu gecə. Yetmiş qızıl pul hazırlayın.

Albu Fəhəd qəbiləsi nə qədər yalvardısa da, Həddam dediyindən dönmədi. Hərə boxçasını açdı. Çox çətinliklə pulu hazırladılar.

Həddam qışqırdı: – Pulu qayıqda qadın gətirsin.

Bu vaxt, onun əmisi oğlunun səsi yenə eşidildi. Həddam əmr etdi ki, onu tapanda elə buradaca basdırsınlar.

– Bu dəfə tək əmim oğlu ilə gəlmişdim. Bir də belə səhv etmərəm, – Həddam ucadan güldü və yoxa çıxdı. Hamı aldandığına və qorxduğuna görə xəcalət çəkirdi. Bir-birinin üzünə baxmadan, bir kəlmə söz demədən qalxıb dağılışdılar.

O gecə yatmadıq. Obaşdan ağam nəyimiz varsa yığıb bizi gəmiyə oturtdu. Dedi ki, Fərat çayı sahilində olan həsir bazarına gedib şeyləri satmaq lazımdır. Xeyli yol getdik. Günortadan sonra qamışların arasıyla irəliləyirdik. Ağamın narahatlığı azalmışdı. Heç kim danışmırdı. Birdən ağam boğuq səslə geri dönməyi əmr etdi. Bizdən xeyli aralı Həddam qamış biçirdi. Onu Sədiqə də gördü. Ağladı və çox yumşaq səslə ağamdan soruşdu ki, niyə ondan qorxur?

Ağam heç nə demədi. Kor-peşman evə döndük. Sədiqə hələ də ağlayırdı. O axşam bizim həyatımızın ən ağır saatları idi. Hamı ağamdan təkidlə xahiş edirdi ki, başqa bir qəbiləyə pənah aparsın. – Biz qüvvəsizik, - deyirdilər. Həddamın qəbiləsi ilə qan davasına düşməkdən qorxurdular. Ağam elə bil kar-lal olmuşdu. Bir kəlmə də danışmırdı. Səhərisi gün başqa su yolu ilə adadan ayrıldıq. Çox qəribədir ki, bu dəfə də Həddam rastımıza çıxdı. Sədiqə atasına yalvardı ki, ondan qorxmasın: – İnan ki, sənə dəyməyəcək. O bizə yaxşı münasibət bəsləyir, - dedi.

Ağam Sədiqənin üzünə baxdı. Mən onun belə baxışını heç görməmişdim. Donub qalmışdı. Elə bil ki, nitqi tutulmuşdu. Nəhayət, pıçıldadı: – Sağa dön, Qəbiristan adasının yanından keçək.

Dedim: – Ağa, orada yol yoxdur.

- Qamışlıqla keçərik.

Qəbiristanlıq olan adaya yaxınlaşanda gün batırdı. Ağam Sədiqənin qolundan tutub: «Qızım, oturmaqdan qıçlarım tutulub, - dedi. – Gedək bir az adada gəzək. Oğlum, sən isə burada gözlə».

Birinci dəfə idi ki, mənə «oğlum» deyirdi. Qayıqdan düşəndə onun belinin büküldüyünü, əllərinin əsdiyini gördüm. Onlar nə barədəsə söhbət edirdilər. Sədiqənin yalvarıcı səslə – «Ata, mənə yazığın gəlsin» - deməyilə qışqırmağı bir oldu: «Həddam, Həddam, xilas et, harda...»

Onun səsi kəsildi. Elə bu vaxt ağamın xırıltısını eşitdim. Elə bil yer-göy üstümə yeriyirdi. Axşamçağı necə vahiməli olurmuş. Elə bil hər qamış bir yırtıcı kimi mənə hücum etməyə hazırlaşırdı. Hər şeyi töküb qayığı hərlədim. Qorxudanmı, yoxsa qayığın yüngüllüyündənmi onu çox bərk sürürdüm.

Səhərisi gün biz qəbiristanlığa çatanda artıq Həddam orada idi. Sədiqənin ayağına yıxılıb ağlayırdı.

– Yaxın gəlməyin, ölümü özüm götürəcəyəm,- deyirdi.

Ağam xəncəri Sədiqənin ürəyinə soxmuş, sonra isə özünü öldürmüşdü.

Kor Həlimə. Əşirətimiz bir əcnəbi ilə dostluq edirdi. O, Abu Sğairə gələndə bayram idi. Çox yaraşıqlı olduğundan bütün qızlar ona getməyə hazır idi. O, bizlərə çox az-az gələr, kişilərlə uzun-uzadı söhbətlər edər, sonra da öz dilində nəsə yazardı. Nikahdan söz salardı.

Biz qızlar həsir divarın o tərəfindən intizarla gözləyirdik ki, indi kiminsə adını çəkəcək. Ürəyimiz döyünərdi. Ancaq heç evlənməyindən söz salmırdı.

Bir dəfə qonşu qəbilə ilə ədavətimizin olduğunu bilib şeyximizə bir dəmir parçası verdi. Adına «bəndəqiyyə» - tüfəng deyirdilər. Bizimkilərə onu necə tutmaq, necə atmaq lazım olduğunu öyrədirdi. Elə bil özü o bir parça dəmirdən qorxurdu. Bəndəqiyyə başqasının əlində olanda heç vaxt ön tərəfdə durmazdı. Bizimkilər isə heç çəkinmirdilər. Hətta əmim oğlu sinəsini açdı ki, vurun məni görək nə olur? Heç kim inanmırdı ki, bir parça dəmirlə əjdaha bir kişini öldürmək mümkündür. Kimsə əmim oğlunu o dəmirlə vurmaq istədi. Əcnəbinin rəngi ağardı. Tez bəndəqiyyəni aldı və bir daha bizimkilərə verməyəcəyini söylədi. Şeyximiz söz verdi ki, bir də bəndəqiyyə ilə belə iş görməyəcəklər. Sonra bəndəqiyyəni aldı. Həmin dəmirdən biri də onun özündə idi. Quşa dəyəndə bəzən öldürür, bəzən də yox. – Dəymədi, - deyirdi. Biz qızlar öz aramızda gülüşürdük: – Özünü sındırmır. Yəqin gücü çatmır.

Həmin dəmir parçasının səsası qonşu qəbiləyə də çatmışdı. Lakin bizimkilərin danışığından məlum oldu ki, onlar da buna o qədər məhəl qoymurlar.

Günlərin birində bizimkilərdən üç nəfər camışları qonşu adadan yığıb gətirirdi. Onlardan beş nəfəri hücum edib camışları əllərindən almaq istəyəndə bizimkilər həmin dəmir parçasını işə salırlar. Bir atəşlə onların birini yerə sərirlər. Qalanları dabanlarına baxmadan qaçırlar. Sonralar bizimkilər həmin dəmir parçası ilə onların adalarına belə gedir, çəkinmirdilər. Onlar isə bizimkilərdən qorxurdular. Deyirlər yaman günün ömrü az olar. Bizdə əksinə – yaxşı günün ömrü az oldu. Əvvəllər gecələr 2 – 4 gözətçi qoyub yatırdıqsa, indi bircə nəfər növbətçi qalırdı. Bir gecə hər şey sona yetdi. Böyük qüvvə ilə qəfil hücuma keçib onlar bizim kişiləri və gəncləri qılıncdan keçirdilər. Tək-tük adam qaçıb canını qurtara bilmişdi. Səhərisi gün onlar bizim qonaq otağında qəhvə verib şənləndikləri vaxt gözətçi adaya bir qayığın yaxınlaşdığını xəbər verdi. Hamını həsir daxmalara saldılar ki, gələn adam duyuq

düşüb qaçmasın. Onu qonaq evinə girərkən tutdular. Bu həmin əcnəbi idi. Onun da tüfəngini əlindən aldılar. Sevinclərinin həddi-hüdudu yox idi. Qılıncları ilə dava oyunu oynadılar. Əcnəbini çox döydülər. Buraxsınlar deyə o da çoxlu pul, hədiyyə vəd etdi. Lakin buraxmadılar. Öldürmədilər də. Məlum oldu ki, onu öz adalarına aparıb hamının gözü qabağında işgəncə ilə öldürmək fikrindədirlər. Paltarını soyundurub bayıra atdılar. Bu, axşamçağı – ağcaqanadın çox olan vaxtı idi. Ağcaqanaddan qorunmaq üçün gərmə yandırmışdılar. Lakin əcnəbini gərmənin tüstüsündən aralı atmışdılar ki, ağcaqanadlar onu yesinlər. Tez-tez onun ufultusu eşidilirdi. Lakin tüstüdən əcnəbi olan yer görünmürdü. Sürünə-sürünə gedib, bax bu əllərimlə əl-ayağını açdım, yol göstərdim, əllərimi öpüb qaçdı. Sürünüb geri döndüm. Bir xeyli səs-səmir gəlmədi. Bildim ki, özünü qamışlığa verib. Çox çevik adam idi. Əgər «xənzirlə» – qabanla rastlaşmayıbsa, qaçıb canını qurtarıb.

Birdən səs-küy qopdu. İkibir-üçbir olub ətrafı axtarmağa başladılar. Zülmət gecədə qamışlığa, suya girib adam axtarmaq mənasız idi. Odur ki, tezliklə geri qayıtdılar. Bayramları yasa döndü. Bütün qadınları, qızları bir yerə yığıb əcnəbinin əl-qolunu kimin açdığını soruşdular. Heç kim dillənmədi. Dedilər əgər boynumuza almasaq, hamımızı bir-bir öldürəcəklər.

Hadisə bizim daxmanın yanında olduğuna görə əvvəlcə anamı döyməyə başladılar. Ona çox əziyyət verdilər. Anam and-aman etdi ki, heç nədən xəbəri yoxdur. İnanmadılar. Qılıncı sıyırıb anamı öldürmək istəyəndə ürəyim dözmədi. Qışqırıb özümü onu üstünə atdım. Əcnəbini mən azad etmişəm dedim. Əvvəlcə inanmadılar. Mat qalmışdılar. Əllərimi bağlayıb dörd nəfərin öhdəsinə verdilər və dedilər: «Əgər sabah əcnəbinin ya ölsünü, ya dirisini tapmasaq, səni ən ağır cəzaya məhkum edəcəyik».

Bizlərdə ən ağır cəza adamın gözlərini çıxartmaqdır, onu dünya işığından məhrum etməkdir. Bütün gecəni gözümü

yuma bilmədim. Qulağım səsdə idi. Bəlkə, bir allah bəndəsi gəlib məni xilas etdi?! Səhərisi gün günortaya kimi əcnəbini axtardılar. Lakin onu tapa bilmədilər. Bıçaq vursan qanları çıxmazdı. Əcnəbinin yoxa çıxması onları lərzəyə salmışdı. Heç kimə, heç nəyə toxunmadan öz adalarına dönməyi qərara aldılar. Ancaq hamının gözü qabağında məni gözdən məhrum etdilər. O vaxtdan adım Kor Həlimə olub. İllər keçir, kor gözlərim intizarla yol gözləyir. Lakin əcnəbinin nə özü gəlir, nə də bir xəbər-əsəri...

ON İLDƏN SONRA

Deyirlər, tarix təkrar olunmur – bilmirəm. Birinci dəfə də İraqa 1962-ci ildə dekabrın 2-də gəlmişdim, üçüncü dəfə də düz on il sonra – 2 dekabr 1972-ci ildə gəldim. Odur ki, bu on il ərzində ölkədə baş verən dəyişiklikləri müqayisə etmək fikri məndə öz-özünə yarandı.

On il əvvəl İraq xalqının ağır həyatı, çoxunun bir parça çörəyə möhtac olduğu hər addımbaşı duyulurdu. Bu hala ürəkdən acımamaq olmurdu. Yaxşı ki, yaman günün ömrü az olur. Ümidlə, qorxuyla ömür sürən bu xalqın da bəxti açılmışdı. Qısa müddət ərzində ölkədə böyük dəyişikliklər baş vermişdi. On il əvvəl xəyallarla yaşayan xalqın ürəyi indi qurub-yaratmaq eşqilə çırpınırdı.

Əmək insanın şüurunu inkişaf etdirir, əhvali-ruhiyyəsini yaxşılaşdırır, onu nikbin edirmiş. M.Qorkinin dediyi «heç bir qüvvə insanı əməyin – kollektiv, əlbir, azad əməyin gücü qədər böyük və müdrik etmir» kəlamını İraqa üçüncü səfərim zamanı bir daha dərindən dərk etdim.

Bağdadda böyük bağlar salınmış, Əbu Nəvas küçəsi boyu Dəclə çayı sahilində uşaq şəhərciyi düzəldilmiş, ərəb ölkələri arasında birinci olaraq İraqda – Bağdadın Rəşad qəsəbəsində fəhlə sanatoriyası təşkil edilmişdir. Bağdad – Abu Qreyb

yolu üzərində ilk pioner düşərgəsi yaradılmışdır. Ölkədə uşaq bağçaları fəaliyyət göstərir. «Əməl şəəbiyə» – «xalq işi» adlandırılan iməciliklər keçirilir.

On il əvvəl isə vəziyyət tamam başqa idi. Onda İraqda inqilab təzəcə qalib gəlmişdi. Çətinliklər çox idi. İşsizlik və aclıq hökm sürürdü. Küçələrdə tez-tez dilənçilərə rast gəlmək olurdu. İndi isə Əmək və İctimai İşlər Nazirliyinin köməyilə dilənçilik aradan qaldırılır. Əmək qabiliyyətini itirmiş köməksiz, kimsəsiz adamları mənzillə təmin edir, iş qabiliyyətini itirməyənlərə müəyyən sənət öyrədirlər.

Beləliklə, dilənçilik – cəmiyyətin əsrlərlə yaşatdığı bu ictimai bəla aradan götürülür. İndi hər addımbaşı əcnəbi görən kimi mənasını anlamadan kişiyə də, qadına da «salam, madam!» – deyən qayğısız, şən, şux uşaqlarla rastlaşdığın halda, inqilabın ilk illərində əl uzadıb paltarından yapışaraq «bəxşiş» – deyən ac-yalavac uşaqlar, hətta qadınlar əlindən küçədən rahat keçmək olmurdu.

On il əvvəl yeni tanış olduğun şəxsdən yaşını soruşanda gizlədir, 10-15 il az deyirdi. Əvvəllər bu bizi çox təəccübləndirirdi. Az sonra məlum oldu ki, qırx yaşdan sonra heç kimi işə götürmürlərmiş.

Bütün idarələrdə, demək olar ki, hər otağın qabağında fərraş – buyruqçu otururdu. Onlara buyururdular: filankəs, çay gətir; bu məktubu və ya sənədi filan otağa apar. Buyruqçuların belə çox olmasının iki səbəbi vardı. Birinci o idi ki, hər sənəd 10-dan çox şöbədən keçməli olurdu. Şöbələrdən bir-birinə buyruqçular aparırdılar. Sonra yenə qayıdırdı müəssisənin rəhbərinə. O da məktubu, sənədi axırda çıxarılan qərarla qovluq şöbəsinə göndərirdi. İkinci səbəb işin olmaması idi. On ildən sonra vəziyyət dəyişdi. Həmin buyruqçuların əksəriyyəti Sovet İttifaqının köməyilə tikilmiş, müxtəlif sənətlər verən «Tədris mərkəzi»ndə oxuyub çilingər, buldozer sürücüsü, elektrik, qaynaqçı və s. vəsiqələri aldılar. Onlardan biri –

Adnan Səlim ölkədə keçirilən əmək yarışının qalibi oldu və ölkə prezidentinin göstərişi ilə mükafatlandırıldı. Adnan bizim müəssisədə işləyirdi. Əvvəllər dövlət idarəsində 15 ildən az işləmiş adam bir hadisə nəticəsində əmək qabiliyyətini itirərdisə, ona təqaüd verilmirdi. On ildir ki, xüsusi qərarla hətta bir gün dövlət idarəsində işləmiş adam belə təqaüd alır. Əgər bədbəxt hadisə baş verərsə, mərhumun maaşı ailə üzvləri arasında bölünür. Arvadı həmin pulu ömrünün sonuna kimi alır, qızları və oğlanları isə on səkkiz yaşına kimi. Qız bu yaşdan əvvəl ərə gedərsə, təqaüdü kəsilir.

Qocalığa görə təqaüd 60 yaşından verilir. Vacib bir məsələni də qeyd etməyə dəyər. Əvvəllər hamı xüsusi şirkətlərə işə gedirdi. Çünki orada maaş nisbətən çox idi. Lakin təqaüd haqqında qərardan sonra hamı dövlət idarəsində işləməyə meyil edir. Bunun başqa bir səbəbi də vardır. Dövlət idarələrində işləyənlər öz ixtisası üzrə klubların, cəmiyyətlərin üzvü olur. Bunun üçün üzvlük haqqı verilməlidir. Cəmiyyətlərin mağazaları var. Ölkəyə nə gəlsə, birinci növbədə bu mağazalara verilir. Mallara gömrük vergisi qoyulmur. Xüsusi mağazalara nisbətən burada hər şey 20–25 faiz ucuz olur. Artıq qalan mal başqa mağazalara verilir, həm də qiymətin üstünə müəyyən faiz gömrük haqqı gəlir. Bundan əlavə, mağaza sahibi də baha satır ki, bir şey qazansın.

On il əvvəl dini bayramların sayı-hesabı yox idi. Peyğəmbərin anadan olan günü, Mədinədən Məkkəyə gedən günü, filan imamın ad günü və s. və i. a. həmin günlər hökumət idarələri işləmirdi. Bayramların təbliğatçıları isə mağazalarda gurhagur alver edirdilər. Bu bayram günləri məscidlərin özül daşını qoyurdular. O vaxt fəhlələrin həmrəylik gününün adını çəksəydin, sənə gülərdilər. Lakin həyat dəyişir. O vaxtdan heç on il keçməmiş 1 May bayramı günü ölkədə obyektlərin özül daşını qoyur, mayın 1-ni rəsmi dövlət bayramı kimi qeyd edir, nümayiş keçirirlər.

On il əvvəl şəhərlərdə poçt və başqa dövlət idarələrinin yanında sıra-sıra düzülüb, ona-buna məktub, ərizə yazan mirzələrə, «məktubu yetişməyən yazıq Qurbanlara», «Məhəmmədhəsən əmilərə», «Novruzəlilərə» hər addımbaşı rast gəlindiyi halda, indi onları görmək çətindir. Cəmisi on ildə baş verən irəliləyiş adamı sevindirir. İndi İraqda tədris də, dərsliklər də pulsuzdur. Tələbələrə təqaüd, ehtiyacı olanlara «tələbə evi»ndə yer verilir.

Əvvəllər avtobuslarda yerlər iki hissəyə bölünürdü. Ön hissə yumşaq və bahalıydı. Arxa yerlər isə taxtadan olub nisbətən ucuz idi. Bu yerlərdə yalnız kasıblar otururdular. İlk vaxtlar bunu bilmədiyimdən Karrada əl-Barraya yaşadığımız evə gedərkən başıma qəribə bir hadisə gəldi. Oturmağa yer olmadığından tutacaqdan yapışmışdım. Konduktor mənə yaxınlaşıb harada dayandığımı soruşdu. Dedim ki, görürsən burada durmuşam. Konduktor uca səslə dilləndi: «Sən deməlisən ki, ya bir az qabağa durubsan, ya bir az arxaya».

Mat qalmışdım. Avtobusdakılar əcnəbi olduğumu biləndə başa saldılar ki, mən bahalı və ucuz yerlərin tən ortasında durmuşam. Konduktor mənə hansı yer üçün bilet verməkdə çətinlik çəkirmiş. Doğrudan da, mən yumşaq və taxta yerlərin arasında dayanmışdım... İndi orada belə şeylər yoxdur. Yeri gəlmişkən avtobus sürücüsü və konduktorla bağlı bir-iki məsələni qeyd etmək istəyirəm.

Konduktor zəngin düyməsini basmasa, sürücü heç vaxt avtobusu sürməz. Bir nəfər də biletsiz gedən və ya bilet almamağa cəhd edən adam görmədim. Konduktorlar işlərinə çox ciddi yanaşırlar. Bunun səbəbi odur ki, müfəttişlər yoxlayanda biletsiz adam olsa, həmin sərnişinlə bərabər konduktoru da cərimə edir, sonra isə onun haqqında ölçü götürürlər. Məhz buna görə də mübahisəli bir məsələ ortaya çıxan kimi konduktorlar sürücüdən tələb edirlər ki, yaxındakı polis məntəqəsinə sürsün.

Bir dəfə Fəllucə şəhərindən Bağdada gəlirdik. Yolda bir nəfər düşdü. Az sonra cavan bir oğlan bildirdi ki, bileti yoldaşında qalıb. Konduktor dedi ki, sizə bilet satdığım yadımdadır. Lakin yoxlasalar «başımız ağrıyar». Ona görə də yenidən bilet almalısan. Oğlan isə bilet götürmək istəmədi. O saat avtobusu polis məntəqəsinə sürdülər. Cavan oğlan təkrar bilet almalı oldu.

Qabaqlar mağazalarda az adam olardı. İndi xalqın güzəranı yaxşılaşıb, alıcılıq qüvvəsi artıb. Dövlət mağazaları açılıb. Camaat ora gedir, çünki orada qiymətlər sabitdir, alıb-aldatmaq yoxdur.

On il əvvəl malların üstündə qiymət göstərilmirdi. Mağaza sahibi malı neçəyə istəyirdi satırdı. Doğrudan da, qəribə idi. Məsələn, eyni köynəyi hər mağazada bir qiymətə deyirdilər. Hər şey alıcının məzənnəni aşağı sala bilmək qabiliyyətindən asılı idi. Alınmış bir şeyi – sonra həmin maldan qonşu mağazada iki dəfə ucuz satıldığını görüb qaytarmaq istəsən səni biabır edərdilər: «Necə yəni? Ağlın vardı aldanmayaydın. Gedib oradan alaydın?!» İndi belə şeylərə az-az rast gələrsən. Xüsusi mağazalarda da «fikst prays» – «sabit qiymət» olur.

Qiymət təyin edən xüsusi müəssisə təşkil edilib. Müfəttişlər mağaza və bazaları gəzirlər. Malın üstündə qiymət göstərilməyəndə və eləcə də malı dövlət qiymətindən artığa satanda satıcını cərimələyirlər.

Bu, təkrarən baş verəndə isə onu məhkəməyə verirlər. Onon beş il əvvəl hər şeyi xaricdən gətirdikləri halda, indi çox şey ölkədə hazırlanır və üstündə yazılır: «İraqda düzəldilmişdir». Bununla fəxr edirlər. Əgər eyni məhsuldan xaricdən gələn də, özlərininki də varsa, mütləq özlərininkini alacaqlar. Bu, yəqin həm vətənpərvərlik hisləri ilə bağlıdır, həm də istehsal etdikləri məhsulun keyfiyyətinə, xüsusi fikir vermələri ilə.

Əvvəllər sovet mütəxəssisləri vəzifələrini başa vurub vətənə qayıdanda onlar işsiz qalırdılar. Qanları çox qaralırdı.

İndi isə bizi gül-çiçəklə yola salır, vida naharı verirlər. Bilirlər ki, bir tikintidə iş qurtaranda mütləq başqa birisində başlanacaq. Hər iki ölkənin Dövlət Plan Komitəsi işi 20-25 ilə planlaşdırır. Ayrı cür ola da bilməz. Bizim işlədiyimiz Tərtər – Fərat kanalının çəkilişi qurtaran kimi uzunluğu 84 kilometr olan Tərtər – Dəclə kanalının tikintisinə başlandı.

İşsizlik ictimai bəla kimi birdəfəlik aradan qaldırılıb.

On-on beş il əvvəl həşərat sancması nəticəsində uşaqların üzündə yara əmələ gəlir, sonra isə yeri ömürlük batıq qalır, adamı çirkin göstərirdi. Ona «Bağdad yarası» deyilsə də, bütün ölkədə yayılmışdı. İndi bunun da qarşısı alınıb.

Ölkədə əvvəllər parnoqrafik şəkillərə və jurnallara çox rast gəlmək olardı; indi belə şeylər yoxdur. Hətta açıq-saçıq filmləri belə ekrana buraxmırlar. Xüsusi komissiya xarici filmlərə baxır; komissiyanın qərarı olmadan belə filmlər nümayiş etdirilə bilməz.

On il əvvəl kənd yerlərində evləri çiy kərpicdən, palçıqdan tikirdilər. Təbii ki, kiçik kəndlərdə məktəblər yox idi. İndi dövlət daşdan evlər tikir, kəndliləri bir yerə yığır, kooperativlər düzəldir. Tibbi xidmət, uşaqların məktəbə davamiyyəti və s. bu halda asanlaşır, güzəran yaxşılaşır. Dövlət kəndləri maşın, texnika, gübrə və s. ilə təmin edir. Torpaq xüsusiyyətçilərin, mülkədarların əlindən alınır, istifadə üçün xalqa verilir. Təsadüfi deyil ki, onlarda belə bir hikmətli söz də yaranmışdır: «Torpağı onu əkənə, becərənə ver».

Kənd kooperativlərinə kömək məqsədilə «Kənd təsərrüfatı kooperativləri bankı» fəaliyyət göstərir.

Evlər bir yerdə tikilir, su və elektriklə təchiz edilir. Məktəblər açılır, kooperativlər pulsuz kənd təsərrüfatı maşınları ilə təmin olunur. İndi kooperativlərin sayı min beş yüzü keçir. Son vaxtlara qədər İraqda orta yaş qırx dörd sayılırdı. Uşaqlar və yaşlılar arasında ölüm halları çox olurdu. Çünki həkimlər bu iki yaş dərəcəsindən olanlara o qədər də qayğı göstərmirdilər. Qocalar və uşaqlar göz önündə solub gedirdilər.

İndi həkimlər səhərlər xəstəxanada, günortadan sonra isə poliklinikalarda çalışır, gündə doqquz saat işləyərək ikiqat maaş alırlar. Əvvəllər isə vəziyyət başqa idi. Xəstəxanaya gələndə həkim deyirdi: – «Haran ağrıyır? Bu ağır xəstəlikdir. İndi imkan yoxdur xəstə çoxdur. Axşam gəl qəbul otağıma, səni yaxşıca müayinədən keçirim».

Bu sözlər hamıya deyilirdi. Lakin axşam xüsusi qəbul otağına hamı gələ bilmirdi. Çünki qəbul çox pul tələb edirdi.

İndi vəziyyət kökündən dəyişib. Bağdaddan başqa heç yerdə həkimlərin «şəxsi qəbul məntəqəsi» yoxdur. Dövlət tərəfindən qadağan edilib. İndi həkimlər gündüzlər xəstəxanada çalışır, axşamüstü isə poliklinikada xəstələrə pulsuz baxır, müayinədən keçirir, nə lazımdır, edirlər. Əlavə iş kimi, dövlət onlara əlavə maaş verir.

Bağdadda da iş bu qaydada aparılır. Lakin orada əcnəbilərin olduğunu nəzərə alaraq şəxsi qəbul məntəqələrinin qalmasına dövlət icazə verib.

On il əvvəl idarələrdə heç bir növbə-filan gözləmək yox idi. Gələn özünü içəri verir, danışanlara məhəl qoymadan məsul şəxsə müraciət edirdi. Bir sözlə, başqalarına mane olurdu. Bunu uzun müddət İraqda olmuş İngiltərəli M.Dikson belə təsvir edir:

«Yeni gələn əcnəbi idarə rəhbərlərinin yanına gedir. Bəzi məsələləri həll etmək üçün vaxt təyin edilir. Deyilən vaxt əcnəbi idarə rəhbərinin qapısında duran «fərraş»a – buyruqçuya yaxınlaşıb rəisin yerində olub-olmadığını, onu qəbul etməyə vaxtı olub-olmadığını soruşur. Fərraş gülümsəyir və bir söz demədən qapını açır. Əcnəbi içəri girir. Divar boyu düzülmüş divan və yumşaq stullarda oturub çay içən, papiros çəkən, müdirlə şirin-şirin söhbət edən adamları gördükdə özünü itirir. Güman edir ki, gözlənilmədən müdirin «yuxarıdan» qonaqları gəlib. Mane olduğuna görə üzr istəyib dal-dalı bayıra çıxmaq istəyir. Bu vaxt müdir yerindən qalxır, gülümsəyir və

deyir: «Buyurun, xoş gəlmisiniz. Əyləşin. Nə içəcəksiniz? Çay, kofe, hamuz? - Fərraş, çay vahid!»

Əcnəbi oturur. O, özünə gəlincə armudu stəkanda çay da hazır olur. «Mən filan məsələyə görə... gəlmişəm», - demək istəyəndə bir nəfər icazəsiz-filansız müdirin stoluna yaxınlaşır. Kağızı düz onun qabağına qoyur. Müdir üzünü turşutsa da, kağızın ora-burasına baxıb qol çəkir.

– Cənab filankəs, mən o məsələyə...

Bu vaxt telefon zəng çalır. Müdir əcnəbiyə gülümsəyir və dəstəyi götürür. Xeyli çəkən danışıqdan sonra üzr istəyir: «hə... harda qaldıq?»

Elə bu vaxt oturanlardan bəzisi ayağa qalxır. Müdir də durur. Əl tutub qonaqları yola salır və yerinə qayıdır. «Hə... cənab filankəs, bəs o məsələyə...», - deyə əcnəbiyə müraciət edir. Bu vaxt baş mühəndis qanıqara içəri girir. Salam-kalamdan sonra maşınlardan birinin qəzaya uğradığını, sürücünün ölümcül yaralandığını deyir. Öz aralarında xeyli danışırlar. Baş mühəndis üzr istəyib çıxır. Müdir də bir daha əcnəbidən üzr istəyir və «indi mətləbə keçək», - deyir.

Bu vaxt qapı açılır və iki nəfər əli portfelli, səliqə-sahmanla geyinmiş adam içəri girir. Müdir yerindən qalxır, onları otağın ortasında qarşılayır:

– Əhlən və Səhlən! İstirih! Xoş gəlibsiniz! Əyləşin! Müdir onlara harada oturmağı özü göstərir.

– Nə içəcəksiniz? Çay, kofe, hamuz?

– Fərraş, iki hamuz.

Əcnəbi başqa yerə getməli olduğundan üzr istəyir ki, sonra gələr. Müdir gülümsəyir və deyir: - Nə vaxt istəsəniz buyurun. Qapım həmişə üzünüzə açıqdır.

Əcnəbi bilmir ki, müdirin qapısı sözün həqiqi mənasında hamının üzünə açıqdır. Elə buna görə də müdirlə danışmağa vaxt tapmır. O, başqa bir gün üçün görüş təyin edib çıxır. Ancaq bilmir ki, elə o gün də bu gün kimi olacaq.

İndi İraqda vəziyyət dəyişib. Qısa müddət ərzində insanların şüurunun sürətli inkişafı adamı sevindirir.

İnqilaba qədər kralın ad gününü və ya onun tacqoyma gününü bayram edirdilər. İndi isə 1 Mayı, Yeni ili və s. bayram edirlər.

On-on beş il əvvəl qadına münasibət başqa idi. İndi Sovet İttifaqının iqtisadi və texniki yardımı ilə tikilən Ramadi şüşə zavodunda, Samarra əczaçılıq zavodunda, xurma emalı zavodlarında, Kut toxuculuq kombinatında və s. yerlərdə işləyənlərin əksəriyyəti qadınlardır.

On-on beş il bundan əvvəl bütün Şərq şəhərlərində olduğu kimi, Bağdadın da ətrafı «sarif»lərlə – palçıqdan, cır-cındırdan tikilən evlərlə dolu idi. Prezidentin xüsusi komissiyası bu problem üzərində işlədikdən sonra belə qərara alındı ki, onlara torpaq sahəsi və ev tikmək üçün pul verilsin. İndi Bağdad ətrafında «sarif»lərə demək olar ki, rast gəlinmir.

Bir vaxtlar İraqda olmuş ingilis Mora Dikson 1961-ci ildə yazırdı: «İraqlıların əcnəbi arvadlarının dediyinə görə, İraqda hər şey dəyişmişdir, özü də pisliyə doğru». Burada iraqlı yazıçı Nəcibin «Bağdad observer» qəzetindəki məqaləsi yada düşür: «Biz gənc dövlətik. Bizim çətinliklərimiz, çatışmazlıqlarımız, nöqsanlarımız çoxdur. Lakin yaxşı cəhətlərimiz də çoxdur. Biz istəməzdik ki, əcnəbilər bizim yalnız pis cəhətlərimizi, nöqsanlarımızı görsünlər».

Təəssüf ki, Mora Dikson kimilər İraqda dəyişən həyatın tərəqqiyə doğru olduğunu görmək istəməmişlər...

VƏTƏN HƏSRƏTİ, ÖVLAD DƏRDİ

Bir dəfə həmyerlilərimiz Rza İmanov və Nəcəf Nəcəfovla Nəcəf şəhərinə getmişdik. Üstündə «Bakı məktəbi» yazılmış binaya baxır və azərbaycanca danışırdıq.

Bir nurani qoca bizə yaxınlaşdı:

– Balalarım, hardansız? - deyə azərbaycanca soruşdu və yazıq görkəm aldı.

Dedik ki, Azərbaycandanıq.

– Azərbaycan böyükdür. Onun hansı səmtindənsiz? Bakı şəhrini tanırsız?

Dedik ki, biz elə ordan gəlmişik. Bakı bizim respublikanın – Sovet Azərbaycanının paytaxtıdır.

Çox sevindi. Bakının tarixi yerlərindən söz saldı. Ətraf kəndləri saydı. İçərişəhərdən, Bayırşəhərdən danışdı. Dedi: - Mən İçərişəhərdənəm. Adım Abdulladır. Hacı Qasım oğlu Abdulla Şəmsə. İçərişəhərdə Hacı Zeynalabdin camisinin – məscidinin yanında olurduq. Əlaqəmiz yoxdur. Görəsən, qohumlardan qalanları varmı? Sözünə davam etdi: «Oğul, mənim kimi azərbaycanlılar burada çox idi. İndi az qalıb. Biz bura köçəndə mən dərdsiz-qəmsiz cavan oğlan idim. İndi isə qəlbi nisgilli, vətən həsrətli bir qocayam.

Heyrət bizi bürümüşdü. Hiss edirdik ki, üzərində uzun illər ömür sürdüyü bu torpaq qocanın vətənini əvəz edə bilməyib.

Ürəyimdən vətən həsrətli bir şairin kədər duyğuları keçdi:

Qürbətdə qərib şadiman olmaz imiş,
Bir kimsə qəribə mehriban olmaz imiş...

Abdulla babanın görkəmindən duydum ki, qürbətdə keçən həyat qaranlıq bir gecəyə bənzər: qürbətdə döyünən ürək arı pətəyi kimi para-para, şana-şana olar. Çünki o, bütün oxların nişangahına çevrilir.

* * *

Qoca donub durmuşdu. Daha dindirmədik. Dindirsəydik bulud kimi yağacaqdı.

Nədənsə vətəndə olanda vətənə bağlılıq, vurğunluq hissi adama adi görünür. Qürbətdə isə bu hislər daha da güclənir. Vətən həsrəti insanın qəlbini, vücudunu elə çulğayır, elə köv-

rəldir ki, hər gün, hər saat ürəyin intizarda, qulağın səsdə, qohum və dostlardan bir xəbər gözləyirsən.

Bir dəfə ikiqat sevindim. Məktublarla bərabər, yenicə çapdan çıxan «Kərkük mahnıları» kitabımı da dostum K.Hacıyev mənə göndərmişdi. Kimsə dedi: Qəzənfər müəllimin kitabı çıxıbdı, hamı sevinclə qışqırdı, əl də çaldılar. Qürbətdə birinin sevinci sevincin, kədəri kədərin olur!

Böyük intizarla hər həftənin cümə gününü gözləyirdik. Ona görə yox ki, həmin gün ərəb ölkələrində istirahət günüdür: ona görə ki, cümə günü Moskvadan «Mayak» radiostansiyası Afrika və Asiya ölkələrində işləyən sovet mütəxəssisləri üçün böyük veriliş təşkil edir. Bir də görürdün ki, ailəsi vətəndə qalan bir nəfərin həyat yoldaşı və uşaqları onu ad günü münasibətilə özü öz səsi ilə təbrik edir: «Əziz ata, intizarla vətəndə yolunu gözləyirik», - deyir. Atasının sevdiyi mahnını səsləndirməyi xahiş edir. «Vətəndə yolunu gözləyirik» sözləri həzin musiqinin təranələrinə qarışaraq qəlbimizə hopur, vətən həsrətli qəlbimizi daha da kövrəldirdi.

Mən belə bir hissi qürbət acısı dadmış dahi Xaqanidə də duydum:

Lakin üzüm gülməz, gözlərim ağlar,
Qəlbimdə dağ qədər ağır intizar.
Vətən həsrətilə töküb göz yaşı,
Ah, vətən! - deyərəm mən hər söz başı.

Biz bilirdik ki, gec-tez vətənə dönəcək, doğma yerlərdə - dağlarda, çəmənlərdə, düzənlərdə gəzib kam alacağıq. Bizi yaşadan da elə bu hiss idi.

İraqa birinci səfərim zamanı Samarra şəhərinə səyahətə getmişdik. İraq azərbaycanlılarının yaşadığı əraziyə yaxın olan Samarrada Cənubi Azərbaycandan olan Məhəmməd Hüseyn adlı qoca ilə tanış oldum. Kiçik dükanı vardı. Gildən

düzəldilmiş boşqab, cürdək, müxtəlif həcmli küplər və s. satırdı. Bazarın kasadlığından, güzəranın ağırlığından söhbət açdı. Səyahətə rus mütəxəssisləri ilə gəldiyimi bildikdə qəmgin bir hadisəni nəql etdi:

– Rəhmətlik atamın rəhmətlik dostu Mahmud Rusiyada müqəddəs Peterburq deyilən yerdə İran səfirliyində işləyirdi. Orada bir rus qızı almışdı. Atasının vəsiyyəti ilə dövlət işindən əl çəkib xalı-xalça üzrə tacir olmuşdu. İraqda İran xalıları onun əlində idi.

Mahmud Tehrandan Samarraya köçmüşdü. Rus arvadından uşağı olmurdu. Odur ki, əmisi qızını da almışdı. Bacım deyirdi ki, rus qızı mələikəyə bənzəyirdi. Lakin yeməyi-içməyi bol olduğu halda, nədənsə günü-gündən sınıxırdı. Ağlamağı özünə adət etmişdi. Tehrana gedən olanda məktub yazıb rus səfirliyinə göndərirdi. Bir gün eşitdik ki, Mahmudun qayınanası gəlib. Ana-bala o qədər göz yaşı töküblər ki, ətrafdakılar da özlərini saxlaya bilməyib hönkürtü ilə ağlayıblar. Deyirdilər ki, Mahmudun qayınanası məktəb bitirib. Bir neçə dil bilirdi. Lakin ərəbcə bilmirdi.

Üç-dörd gündən sonra xəbər gəldi ki, Mahmudun qərib arvadı vəfat edib. Onu aparıb Bağdadda xristian qəbiristanlığında dəfn etdilər. Ondan sonra xəbərim olmadı. Yalan-gerçək deyirdilər ki, Mahmud başını itirib. Guya qayınanası üçün Bağdadda ev alır. Mən inanmadım. Vətənsiz, yurdsuz, qohumsuz, dostsuz tək qadın Bağdadda qalıb neyləyəcək?!

Nədənsə qocanın söhbəti məni yaman kövrəltmişdi. Adını belə bilmədiyim o rus qadınının taleyi məni hey düşündürürdü. Sonralar M.Diksonun yazısında bu qəmgin hekayətin izinə düşdüm. Qoca Məhəmməd kişiyə ürəyimdə dönə-dönə təşəkkür etdim.

M.Dikson yazırdı: «Ona Madam Olqa deyə müraciət edirdilər. Rus idi. Zadəgan görüşlü, zadəgan tərbiyəsi almış bu qadının altmışdan çox yaşı vardı. Bağdadda işləyən ailəsiz

əcnəbiləri evində saxlayır və onlara yemək hazırlayırdı. O, tamamilə tənha idi. Nə bir qohumu, nə də dostu vardı. Bir çox illər bundan əvvəl onun yeganə övladı müsəlmana ərə getmiş və onunla Orta Şərqə gəlmişdi. Gözünün ağı-qarası bircə qızının xəstə olması xəbərini eşidən bu qadını tale bura gətirib çıxarmışdı. Onun gəlişindən az sonra qızı vəfat edir. Bundan sonra o, doğma vətəninə dönməmiş, günlərini qəbiristanlıqda qızının məzarına baş çəkməklə keçirmişdi. Onun yanına gedəcəyi günü gözləmişdi. Nəhayət, həmin gün gəlib çatmışdı. Bazarlıq edib evə dönərkən sürətlə gedən velosiped onu vurub yıxmış, qoca qadının fəqərə sümüyü sınmışdı. Az sonra Madam Olqa öz qızı ilə qovuşdu. Onu qızının yanında Bağdad xristian qəbiristanlığında dəfn etdilər».

Bu qəmgin hekayət məni düşünməyə məcbur etdi. Balanın baldan şirin olduğunu bilirdim. Analıq hissinin hər şeydən üstün olduğunu isə elə bil indi yenidən dərk etdim.

İRAQ BİZƏ İRAQ DEYİL

Deyirlər xatirələr köhnəlir, yaddan çıxır. Bunun nə qədər doğru olduğunu söyləmək çətindir. İraq respublikasında işlədiyim vaxtdan neçə qış, neçə bahar keçsə də, əfsanəvi Dəclə – Fərat çaylarını, qonaqpərvər ərəb xalqını, mərdanə kürd xalqını, şair qəlbli Kərkük xalqını – İraq azərbaycanlılarını həmişə xoş məramla, səmimi duyğularla xatırlayıram. Qənaətim odur ki, aylar-illər keçsə də, doğma hislər xatirat süzgəcində ilişib qalır, əsl xatirələr büllurlaşır, əbədiləşir. Əlaqələr daimi olanda isə bu xatirələr təzələnir, yeniləşir.

Hələ xalq qəhrəmanımız Babəkin, böyük Xaqaninin, Koroğlunun, Uzun Həsənin, Şah İsmayıl Xətainin, Füzulinin vaxtından hər cür əlaqələrimiz olan bu qədim mədəniyyət mərkəzi ilə son vaxtlar münasibətlər zəifləmişdi. Bu ölkədə 1958-ci il inqilabından sonra sovet xalqının təmənnasız iqtisadi və texniki yardımı nəticəsində mədəni əlaqələrimiz də yeni vüsət almışdır.

Hər il neçə-neçə iraqlı, respublikamızda ali məktəb və ya texnikumları bitirərək vətənə qayıdır. Təkcə onu demək kifayətdir ki, 1978-ci ildə respublikamızın ali və orta ixtisas təhsili müəssisələrində 78 iraqlı aspirant və tələbə vardı. Azərbaycan Dövlət Universitetində təhsil alan azərbaycanlı tələbələr də ərəb dilini daha mükəmməl öyrənmək üçün İraqa göndərilir.

Mədəni əlaqələrin genişlənməsinin nəticəsidir ki, azərbaycanlı operatorlar bu əfsanəvi ölkədə film çəkə bilmiş, böyük Füzuli gəzən və əbədi yuxuya gedən yerlər, Füzulinin nəvə-nəticələri – İraqda yaşayan azərbaycanlıların baş şəhəri Kərkük və s. haqqında bizim təəssüratımızı daha da zənginləşdirmişlər. İraq azərbaycanlılarından olan Sinan Səid iki dövlət arasındakı mədəni əlaqələrin nəticəsində on il Azərbaycan radiosunun ərəb dili şöbəsində işləmiş, bu müddət ərzində Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmiş, Azərbaycan SSR Elmlər Akademiyasında İraq azər-

baycanlılarının mətbuatına dair orijinal dissertasiya müdafiə etmişdir. Onun həyat yoldaşı Raidə Bağır qızı da «Füzulinin fars divanı» adlı çox qiymətli dissertasiyasını akademiyamızda müdafiə edib alimlik dərəcəsi almışdır. İndi hər iki alim Bağdad universitetində dərs deməklə bərabər, iki dost ölkənin mədəni əlaqələrinin daha da inkişaf etdirilməsi yolunda yorulmadan çalışır. Sinan Səid «Ərəb ölkələri haqda Azərbaycan nəğmələri» kitabını tərtib etmiş, R.Rza, S.Rüstəm, M.Rahim, M.Dilbazi, O.Sarıvəlli, B.Vahabzadə, N.Xəzri və T.Bayramın şeirlərini ərəb dilinə tərcümə etmiş, şairlərimizin həyat və yaradıcılığı barədə məlumatla birgə şəkillərini də vermişdir. Üz qabığında bizim qrafika ilə «Azərbaycan» sözü yazılmışdır. Kitabın giriş hissəsi mədəni əlaqələr baxımından maraq doğurur: «Xəzər dənizi sahilində eyni ilə İraq türkmanlarının dilində danışan bir xalq məskən salmışdır. Bu, Azərbaycan xalqıdır. Azərbaycan ölkəsi nefti, pambığı, üzümü, kürüsü, zəfəranı, qonaqpərvərliyi və s. ilə məşhurdur. Məndən onların ən çox nəyi sevdiklərini soruşsalar, düşünmədən deyərdim: Vətənlərini, milli irslərini, Füzuli Bağdadini, muğamatı, qonaqları və o cümlədən də ərəbləri. Mən azərbaycanlıların ərəblərə olan ehtiram və məhəbbətini onların gündəlik həyatında, ərəb filmləri göstərilən zaman kinoteatrların önündəki izdihamda, Azərbaycan müğənnilərinin ərəb mahnılarını həvəslə ifa etmələrində, bəstəkar Fikrət Əmirov və Elmira Nəzirovanın «Ərəb mövzusunda konserti»ndə, Azərbaycan rəssam və yazıçılarının əsərlərində, gənclərin ərəb dilini öyrənmə meylində görürəm. İraqa gəlincə onun Azərbaycan xalqının ürəyində xüsusi bir yeri vardır. Bu da təbii ki, göstərdiklərimizdən və möhkəm tarixi əlaqələrdən doğmuşdur. Bəlkə, bu əlaqə Əfzələddin Xaqaninin Azərbaycan ədəbiyyatı tarixində ilk səyahətnamə olan «Mədain xərabələri» ilə və ya 1156-cı ildə yazdığı «Töhfətül-İraqeyn» əsərindən başlamış, Kərbəlada əbədi yuxuya dalan və hər bir azərbaycanlı üçün əziz olan Füzuli ilə möhkəmlənmiş, İraqı – Bağdadı tərənnüm edən Vaqifin şeirlərin-

də tarınlaşmışdır. Bəlkə də, bu yaxınlıq ona görədir ki, İraqda yaşayan türkmanlarla azərbaycanlılar qanbirdirlər.

Sinan Səid hələ doğma vətənə qayıtmamışdan əvvəl də Sovet-İraq mədəni əlaqələri sahəsində az iş görməmişdi. M.C.Cəfərovun «Sabir» və «C. Məmmədquluzadə» monoqrafiyalarını, R.Məmmədovun Azərbaycanda təhsil alan xarici tələbələrdən söhbət açan «Onlar özlərini vətənlərində hiss edirlər» kitabını ərəb dilinə Sinan Səid çevirmişdir; 1964-cü ildə Azərbaycan şairlərinin şeirlərindən ibarət «Dost əlləri» adlı, Asiya – Afrika xalqlarının mübarizəsinə həsr olunmuş kitabı da ərəb dilinə Sinan Səid tərcümə etmişdir; S.Rəhimovun «Ata və oğul» povesti və bir sıra hekayələrini S.Səidin tərcüməsində 1965-ci ildə Moskvanın «Proqress» nəşriyyatı buraxmışdır; Vaqifin yubileyilə əlaqədar olaraq Araz Dadaşzadənin «M.P.Vaqif» monoqrafiyası və şairin seçilmiş şeirləri ərəb dilinə Sinan Səid tərəfindən çevrilmişdir; Azərbaycanın tarixi abidələri» («Qız qalası», «İçərişəhər», «Şirvanşahlar sarayı») və s. kitabçaları da ərəb dilinə onun tərcüməsində təqdim edilmişdir; Azərbaycan filmlərinin ərəbcə səsləndirilməsində onun rolu az olmamışdır; orta məktəb üçün «Ərəb dili müntəxəbatı» kitabının müəlliflərindən biri də S.Səiddir.

Yəqin ki, oxucular mətbuat səhifələrində onun hekayələrini də oxumuşlar. Sinan Səidi müğənni kimi tanıyanlar da vardır. Axı o, müğənni Nərminə Məmmədova ilə birlikdə Kərkük mahnılarını lentə yazdırmış və vaxtaşırı həmin mahnılar Bakı radiosu ilə səsləndirilir. Sinan Səid Azərbaycan radiosunda ərəb dili üzrə mütəxəssislərin yetişdirilməsində də az əmək sərf etməmişdir.

Mədəni əməkdaşlıq, elmi əməkdaşlığın da genişlənməsinə gətirib çıxarmışdır. Neçə-neçə iraqlı Azərbaycan SSR Elmlər Akademiyasının müxtəlif institutlarında, Universitetimizdə, M.Əzizbəyov adına Neft və Kimya İnstitutunda, M.F.Axundov adına Pedaqoji İnstitutda və başqa elm ocaqlarında dis-

sertasiya müdafiə edərək alim adına layiq görülmüşlər. Onların arasında Kamal Müzhər, Fuad əs-Sədi, Adnan Süheyr, Kifah əl-Cəzairi, Əli Bəndəroğlu və başqaları vardır.

Ölkələrimiz arasında mədəni və elmi əlaqələrin inkişafı sahəsində xidmətləri olan akademik Həmid Araslı 1972-ci ildə İraq Elmlər Akademiyasının fəxri üzvü seçilmişdir.

Əlaqələrimizin genişlənməsində kərküklü alim Əta Tərzibaşı, şair Əbdüllətif Bəndəroğlu, akademik Ziya Bünyadov və professor Abbas Zamanovun gördükləri iş də təqdirəlayiqdir.

Mədəni əlaqələrin məntiqi nəticəsidir ki, İraq azərbaycanlılarından folklorşünas Şakir Sabir şairimiz Vaqifin 250 illik yubileyində, Ə.Bəndəroğlu isə Nəsiminin 600 illik yubiley şənliklərində iştirak edə bilmişlər.

Yeri gəlmişkən onu da deyim ki, sevimli şairimiz O.Sarıvəlli öz sazını Ə.Bəndəroğluna töhfə etdi. Bu, ədəbi ictimaiyyətin marağına səbəb oldu. Şair Zəlimxan Yaqub bu münasibətlə şeir yazdı:

Dostluğun nəğməsi baldan şirindir,
Tellər bu eşq ilə ötür, ay sazım.
Sən varsan, həyatda mən varam demək,
Səsimi hər yana yetir, ay sazım.
Göstər qüdrətini sən dost ellərə
Dünyanı yurduma gətir, ay sazım,
Bu uzaq səfərdə uğurlar sənə
Həsrəti dünyadan itir, ay sazım.
Orda nəğməkarım, şairim yatır,
Müqəddəs məzarı ziyarət üçün
Bir ovuc torpaq da götür, ay sazım.
Mənim salamımı, mənim sözümü
Leylini Məcnuna yetirən kimi
Babam Füzuliyə yetir, ay sazım.
Arazdan deyəndə Xasa çayına
Köksünü dərindən ötür, ay sazım...

Azərbaycanda «Kərkük bayatıları», «Arzu-Qənbər» dastanı, «Kərkük mahnıları», «Kərkük atalar sözləri», «Kərkük tapmacaları», «İraq-Kərkük bayatıları», Ə.Bəndəroğlunun «Qərənfil» adlı şeirlər kitabı çap olundu. Şair B.Vahabzadə ona giriş sözü yazdı. Ayaz Vəfalı mətbuatda böyük yazı ilə çıxış etdi. 1976-cı ildə Moskvada Ə.Bəndəroğlunun S.Vurğun şeirlərindən seçib ərəb dilinə tərcümə etdiyi kitab çıxdı. Bağdadda isə Nəsimiyə, Füzuliyə həsr olunmuş tədqiqat əsərləri, Xeyrulla Kazımın azərbaycanca buraxdığı 222 səhifəlik «Çağdaş Azərbaycan şeirlərindən seçmələr», «Ərəb ölkələri haqda Azərbaycan nəğmələri» kitabları çap olunub. İraq – Azərbaycan mədəni əlaqələrinin inkişafında «Qardaşlıq» jurnalının, «Yurd» qəzetinin və eləcə də «Əlifba» jurnalının rolunu xüsusi qeyd etmək istərdik. Onların səhifələrində Azərbaycan haqqında, görkəmli alim, şair və yazıçılarımız barədə gözəl yazılar verilir, əsərləri çap olunur. Əbdüllətif Bəndəroğlunun «On gün Azərbaycanda» başlığı altında «Yurd» qəzetində dərc etdirdiyi çox böyük və maraqlı yazılar heç vaxt zehnimdən silinməyəcək. O vaxt mən İraqda idim. Həmin yazıları oxuduqca qəlbim qürur hissi ilə dolurdu. Eyni hissi İraq azərbaycanlılarının hər il buraxdıqları ədəbi təqvimləri vərəqlədikcə də keçirirdim. Təqvimlərdə şair, yazıçı, alim, müğənni və bəstəkarlarımıza geniş yer verirlər.

Musiqi sahəsində də əlaqələrimiz genişlənmişdir. Son vaxtlar müğənnilərimiz, musiqiçilərimiz İraq dinləyiciləri qarşısında tez-tez «imtahan verməli» olurlar. Zeynəb Xanlarova və Polad Bülbüloğlu onların sevimli müğənnilərinə çevrilmişdir. İraqda Azərbaycan musiqisinə böyük maraq və məhəbbətlə yanaşırlar. Təsadüfi deyildir ki, İraqda ilk musiqi məktəbinin yaradıcıları Azərbaycan Dövlət Konservatoriyasının müəllimləri Gövhər və Tohid Quliyevlər olmuşlar. Bağdadda balet məktəbini də həmyerlimiz, SSRİ xalq artisti Qəmər xanım Almaszadə təşkil etmişdir. Qəmər xanımın librettosuna İraq bəstəkarı Aqil Əbdül Salam musiqi bəstələdi

və «Antar və Able» baleti meydana gəldi. «Əl-Cümhuriyyə» qəzeti yeni yaranan balet truppası haqqında yazırdı: «Uzun sürən gərgin əmək nəticəsində gözəl rəqs ansamblı yaranmışdır. Bu ansamblla biz hamımız haqlı olaraq fəxr edirik». Bu sətirləri oxuduqca qürbət İraqda bizim də qəlbimiz riqqətlə vururdu. Cəmi 50 il əvvəl qadın azadlığı elan edilən bir ölkənin nümayəndəsi İraqda əsl qəhrəmanlıq göstərirdi. Radio, televiziya və mətbuatda tez-tez çıxış edir, respublikamızın qadın incəsənət ustalarının müvəffəqiyyətindən söhbət açırdı ki, bu, iraqlı qızların səhnəyə çıxmasına öz müsbət təsirini göstərsin. Belə də oldu. Qəmər xanımın uzunmüddətli zəhməti öz bəhrəsini verdi. «Əs-Səqafə əl-Cədidə» – «Yeni mədəniyyət» jurnalı görülmüş işə belə yekun vururdu:

«...Azərbaycanın istedadlı mütəxəssisi İraq rəqs folklorunu öyrənərək öz quruluşvermə məharətini parlaq şəkildə nümayiş etdirmişdir. Gənc rəqqaslar Qəmər xanımla birlikdə İraq milli rəqsinin nüfuzunu dirçəltmişlər. İraq milli rəqsi yenidən həyata qayıtmışdır».

SSRİ xalq artisti F.Əmirov və E.Nəzirovanın «Ərəb mövzusunda konsert»i İraqda böyük uğurla keçmişdir. Görkəmli bəstəkar F.Əmirovun iraqlı həmkarları ilə dostluq əlaqələri getdikcə möhkəmlənirdi. Onun məşhur «Min bir gecə» baleti də bu əlaqələrin nəticəsi kimi qiymətləndirilməlidir.

Mədəni əlaqələrin nəticəsidir ki, Azərbaycanda son bir neçə ildə İraq ədəbiyyatı, mədəniyyəti və tarixinə həsr olunmuş dissertasiyalar yazılmış, Azərbaycan xalqı bu dost ölkənin mədəniyyəti ilə daha yaxından tanış ola bilmişdir.

Əlamətdar haldır ki, Bakı və Bəsrə şəhərləri qardaşlaşmışlar. Bu münasibətlə 1973-cü ilin dekabrında Azərbaycan nümayəndə heyəti İraqa gələndə ali məktəblərimiz arasında əlaqəyə dair saziş imzalandı. Saziş, əsasən, Bəsrə və Azərbaycan universitetləri arasında nümayəndə heyətləri, müəllim, tələbə, elmi təcrübə mübadiləsini və s. nəzərdə tuturdu. Yaxşı yadımdadır, o vaxt qəzetlər, radio və televiziya Azərbaycana,

iki ölkə arasındakı mədəni əlaqələrə dair gözəl yazılar və verilişlər təşkil edirdilər.

Ümumiyyətlə, son illərdə İraq mətbuatında Azərbaycana dair yazılara tez-tez rast gəlinir. Hətta 114 yaşlı xalçaçı Zibeydə Şeydayevanın Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilməsi münasibətilə böyük bir yazı verilmişdi. Maraqlı yazıda göstərilir ki, Quba rayonundan olan Zibeydə nənənin yalnız bir çətinliyi var – nəvə-nəticələrinin adını yadında saxlamaq. Xana toxumaq isə yüz il əvvəlki kimi, yenə də arzusu olaraq qalır. Bu sətirləri oxuduqca Amerika alimi Sula Benetin «Necə yaşayasan ki, yüzü haqlayasan» kitabındakı yazılar yadıma düşürdü: «Qafqazlı qocalar Amerikadakı qocalardan fərqli olaraq günlərini saymırlar ki, ömür nə vaxt başa çatacaqdır». Sula Benet 1970 – 75-ci illərdə ölkəmizdə olmuş, yuxarıda adı çəkilən çox maraqlı kitabını yazmışdır. Lakin bu, ayrıca bir söhbət mövzusudur.

Hazırda isə bizi daha çox xalqlar arasında ən ümdə vasitə olan mədəni əlaqələr maraqlandırır. Bu əlaqələrin nəticəsidir ki, Bağdad Universitetinin kitabxanasında Azərbaycan ədəbiyyatı şöbəsi yaradılmışdır. Rəflərdə ilk dəfə Azərbaycan kitablarını gördükdə gözlərimə inana bilmirdim. Sevincdən ürəyim çırpınırdı... Şübhə yoxdur ki, indi kitabxanada Azərbaycan kitablarının sayı daha da artmışdır. Bunu gündən-günə möhkəmlənən elmi-mədəni və iqtisadi əlaqələrimiz özü təsdiq edir.

Azərbaycan – İraq mədəni əlaqələri 70-ci illərdə daha da genişləndi. 1971-ci ildə Azərbaycanda və İraqda keçirilən mədəniyyət günləri bu əlaqələr tarixində xüsusilə əlamətdar oldu və onun daha da inkişaf etdirilməsinə təkan verdi. Mədəniyyət günlərinin iştirakçısı T.Həsənov sonralar «Sovet Azərbaycanı və xarici Şərq» adlı məqalələr məcmuəsində bu münasibətlə yazırdı: «1971-ci ilin mayında Azərbaycanda Sovet – İraq dostluğu günləri keçirildi. Bakı, Kirovabad və Sum-

qayıt şəhərlərində bu münasibətlə keçirilmiş şənliklərdə İraqın görkəmli alim, şair və incəsənət ustalarından ibarət olan nümayəndə heyəti də iştirak edirdi. 1971-ci ilin dekabrında isə Azərbaycan SSR Mədəniyyət naziri Z.N.Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti İraqda keçirilən dostluq ongünlüyündə iştirak etmək üçün Bağdada yola düşdü. Nümayəndə heyətinin tərkibində akademik H.Araslı, akademik F.Bağırzadə, şair C.Novruz, rəssam K.Kazımzadə, bəstəkar P.Bülbüloğlu, müğənnilərdən N.Məmmədova və İ.Rzayev kimi görkəmli elm, ədəbiyyat və incəsənət xadimləri var idi. Dostluq günləri ərzində Bağdad, Bəsrə və Mosulda keçirilmiş görüş, konsert, sərgi və mühazirələrdə iraqlı dostlar Azərbaycan xalqının Sovet hakimiyyəti illərində əldə etdiyi nailiyyətlərlə yaxından tanış oldular. İraq respublikasının radio, televiziya və mətbuat orqanları həmin günlərdə Azərbaycanın iqtisadi, mədəni həyatının müxtəlif sahələrindəki nailiyyətlərinə dair materiallara geniş yer verirdi. Ongünlük ölkələrimiz arasında əsl dostluq bayramına çevrildi.

1971-ci ilin sonunda İraqda keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündən illər keçsə də, indi də o, öz təsirini göstərir. Ongünlük zamanı Bağdadda İraq Dövlət İncəsənət Muzeyində Azərbaycan rəssamlarının əsərlərindən ibarət böyük sərgi təşkil olunmuşdu. Görkəmli fırça ustalarımızın əsərləri iraqlıları məftun etmişdi. M.Abdullayev, S.Bəhlulzadə, K.Kazımzadə, S.Salamzadə, M.Rəhmanzadə və başqa rəssamlarımızın əsərləri sənətsevərlərin qəlbində dərin izlər qoydu. İraqın mədəniyyət naziri Şəfiq əl-Kamali «Bağdad observer» qəzetində bu əsərləri «xalqın sevindirici, xoşbəxt cəmiyyət qurmaq yolundakı səylərini əks etdirən əsərlər» adlandırmışdır. «Əs-Saura» («İnqilab») qəzeti isə yazırdı: «Biz müasir formalardan istifadə edərək bu sənəti insanın yer üzərindəki şər qüvvələrlə mübarizə işinə, insani hüquqlar, səadət uğrunda mübarizəsi işinə xidmət üçün parlaq nümunəyə çevrilmiş azərbaycanlı rəssamların təcrübəsindən istifadə edə bilərik».

Ongünlük vaxtı nümayəndə heyəti Kərbəlada Füzulinin qəbri önündə minnətdarlıqla baş əydi, Kərkük vilayətinə, şairin nəvə-nəticələrinin salamına getdi; dahi Füzuliyə azərbaycanca təkrarolunmaz şeir nümunələri, ölməz «Leyli və Məcnun»u yazmağa ilham verən babaları, nənələri yad etdi. Bağdadda İraq azərbaycanlılarının «Yazıçılar İttifaqı» yaradıldı. Yazıçılar İttifaqının ilk töhfələri onlarca Azərbaycan kitabı oldu.

Azərbaycan mədəniyyəti ongünlüyü İraq – Azərbaycan qarşılıqlı əlaqələrinin təntənəsinə çevrilmişdi.

Hər il oktyabrın birindən iyirmisinə kimi «hərtərəfli milli inkişaf və xalqlar arasında dostluq» devizi altında beynəlxalq Bağdad yarmarkası keçirilir. Sovet İttifaqı yarmarkanın daimi iştirakçılarındandır. Onun ekspozisiyası yarmarkanın xarici iştirakçıları arasında ən böyük sahəni tutur. Üç min kvadratmetr sahədə iyirmi ən iri Ümumittifaq ticarət birliyi öz mallarını nümayiş etdirir.

Adətən, Sovet pavilyonunda xüsusi bölmə müttəfiq respublikalardan birinin ixtiyarına verilir. 1973-cü ildə Bağdad yarmarkasında Sovet İttifaqını Azərbaycan təmsil edirdi. Yarmarka vaxtı mən də İraqda idim. İlk dəfə yarmarkaya gedəndə elə bil vətənlə görüşə gedirdim. Nəsə bir həyəcan keçirirdim. Adamlar axın-axın Azərbaycan bölməsinə gəlirdilər. İraqlılar respublikamızın dünəni və bu günü ilə tanış olduqca ürəyimiz dağa dönürdü. Azərbaycan bölməsinin yarmarkanın «Böyük qızıl» medalına layiq görüldüyünü eşidəndə isə fərəhlənir və qürur hissi keçirirdik.

Hazırda Azərbaycan – İraq əlaqələri çoxşaxəliliyi ilə diqqəti cəlb edir. Bu əlaqələrin bəhrəsi və nəticəsi olaraq Bakıda 1974-cü ilin avqustundan İraq Respublikasının baş konsulluğu fəaliyyət göstərir. Şübhəsiz ki, Sovet – İraq əməkdaşlığında Sovet Azərbaycanının xüsusi yeri olduğuna dəlalət edən bu əlamətdar hadisə hər iki ölkə arasında qarşılıqlı anlaşma və dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

ÖMRÜN ƏBƏDİLƏŞƏN İLLƏRİ

«Altı il Dəclə-Fərat sahillərində» kitabı* istər-istəməz məşhur atalar sözünü yada salır: Çox yaşayan çox bilməz, çox gəzən çox bilər. Lakin gəzmək də var, gəzmək də... Qəzənfər Paşayev qürbət diyara sadəcə səyyah kimi ayaq basmamış, uzun müddətli ezamiyyətdə vəzifəsini yüksək səviyyədə yerinə yetirərkən İraq dövlətinin təltifinə və SSRİ Nazirlər Sovetinin Fəxri Fərmanına layiq görülmüş, alim kimi də yetişmiş, tədqiqatını «xam torpaqdan» əldə etmiş və öz xalqının mədəni irsinə əvəzsiz töhfə olan nemətlərlə geriyə qayıtmışdır.

Bir ölkə haqqında elmi-bədii-sosioloji salnamə sayıla biləcək qarşımızdakı bu kitab onun müəllifinin təkcə İraq deyil, ümumən Yaxın Şərqin tarixi, bu günü, xüsusən də mədəniyyəti, ədəbiyyat və incəsənəti barədə mükəmməl biliyini, dərin müşahidə qabiliyyətini nümayiş etdirir. Altı illik səmərəli zəhmətin əbədiləşən səhifələrini nəzərdən keçirdikcə Q.Paşayevin şəxsində istedadlı dilçi, ədəbiyyatşünas, tarixçi, etnoqraf alimlə, sosioloq və jurnalistlə, ən ümdəsi də bütün bunları özündə cəmləşdirən, görüb-götürmüş şərqşünas bir müsahiblə üz-üzə dayanırıq. Onun böyük maraqla dinlənilən söz-söhbəti, sinədəftəri həm də janrların həmahəng kompleksidir: yol qeydləri, ictimai-siyasi icmal, xatirə, oçerk, bədii publisistika, etüd və əhvalat, rəvayət tərzində yazılan fəsillər-səhifələr üslub söküntüsünə gətirib çıxarmır, müvafiq məzmunun tələbləri baxımından cəzbedici olmaqla təsvir obyekti haqqında bütöv təsəvvür oyadır.

---

*Kitabın ilk nəşrindən sonra («Yazıçı», 1985) mətbuatda bir sıra rəylər dərc olunmuşdur. Bu rəylərdən biri də görkəmli şair-alim, filologiya elmləri doktoru Qasım Qasımzadənin «Ömrün əbədiləşən illəri» («Ulduz» №6, 1986) yazısıdır. Məqalədə kitabın ideya-məzmunu, bədii dəyəri, süjet və kompozisiyası barədə dəyərli fikirlər irəli sürülmüş, ağlabatan təkliflər söylənmişdir. Bunu nəzərə alaraq nəşriyyat həmin yazını «Son söz əvəzi» kimi kitaba daxil edir.

Yolu Misirdən düşən müəllif kitabın ilk və sonrakı səhifələrində oxucunu bəşər sivilizasiyasının ilk beşiyi haqqında qısa və heyrətamiz faktlarla tanış edir. Dünyanın yeddi möcüzəsindən iki ən qədimini qoynunda əzizləyən yerlər, eradan əvvəl bir milyon kitaba malik İsgəndəriyyə, yaşadığımız planetin yuvarlaqlığı fikrini söyləyib, onu ölçərkən ancaq əlli kilometr səhvə yol verən Eratosfenin, Yerin öz oxu və Günəş ətrafında fırlanması mülahizəsini birinci irəli sürən Aristrax Samoyskinin mənsub olduğu Şərq mənşəyi göz önünə gətirilir. Qədim dünya mədəniyyətinin yeni eradan dörd min il əvvəl bu regionda yarandığı, ildən tutmuş dəqiqəyə qədər zaman vahidlərinin babillilər tərəfindən müəyyənləşdirildiyi, kağız emalına səkkizinci əsrin sonunda başlanıldığı kimi oxucunun məlumat dairəsini genişləndirən faktları sadaladıqca Şərq mədəniyyətinin keçmişdəki möhtəşəmliyi ilə bu günü müqayisə edən müəllif acınacaqlı nəticəyə gəlir. Bunu bütün xalqlar və ümumən bəşəriyyət üçün tarixin ibrət dərsi olaraq mənalandırır: «Mədəniyyəti məhv edən, xalqın mənliyini heçə endirən daxili çəkişmələr, dağıdıcı müharibələr, ölkənin yadellilər tərəfindən viran edilməsi, xarabazarlığa çevrilməsidir». İraqın taleyi də belə olmuşdur. Onun huşyar adamları, milli qeyrətli başçıları, geniş xalq kütlələri bu həqiqətləri get-gedə başa düşmüş və başa düşməkdədirlər. Q. Paşayevin gətirdiyi xarakterik faktlar da bunu təsdiqləyir. İraq neçə-neçə baş nazir yola salmışdır ki, yüksək rütbə tutmalarına baxmayaraq, adları dərhal unudulmuşdur. Lakin Bağdadın yaraşıqlı küçələrindən biri iyirminci illərdə baş nazir olan Möhsün əs-Sədunun adını daşıyır. O, xalqın milli qəhrəmanı şöhrətinə çatmışdır. Səbəbi? Səbəbi zəruri anda şəxsi əmin-amanlığı və rütbəni vətəndaşlıq borcuna qurban verməsi olmuşdur: 1929-cu ildə əcnəbilər İraqı İngiltərənin müstəmləkəsinə çevirmək haqqında onu müqavilə bağlamağa məcbur edəndə heç bir çıxış yolu tapmayıb, camaatın gözü qabağında özünü öldürmüşdür. Kitab-

dan aldığımız maraqlı təəssüratdan biri məhz budur ki, milli özünü-dərk hər bir iraqlının dünyagörüşündə get-gedə dönüş yaratmaqdadır. Ölkə xaricilərin iqtisadi asılılığından xilasa səy göstərdiyi respublika dövründə bu siyasət əhalinin şüuruna o dərəcədə daxil olmuşdur ki, əgər eyni məhsuldan həm xarici markalısı, həm də özlərininki varsa, mütləq özlərininkini alırlar. Xalq «İraqda düzəldilmişdir» etiketilə fəxr edir.

Kitabda diqqət mərkəzində İraqın keçmiş və müasir həyatının, əfsanəvi Bağdad və doğma Kərkükün geniş panoramı dayanır, müəllif bu yerlərin təbiəti, əhalisinin məişət tərzi-zövqü, bayramları, yeməkləri, libasları, toy-yas mərasimləri, inamları, ədəbi-bədii yaradıcılıq, eləcə də təhsil sistemi və dövlət quruluşundan söhbət açır. Bütün bunları əyaniləşdirməkdən ötrü o, neçə-neçə mənbəyə müraciət etməli olmuşdur. Bunlar içərisində Avropa alim və səyyahlarının da, Şərq mütəxəssislərinin də mülahizələri çoxdur. Lakin vətənpərvər müəllif Azərbaycan klassiklərinin, xüsusən «Töhfətül-İraqeyn» və «Mədain xərabələri» müəllifini, həmçinin şifahi ədəbiyyatımızın müvafiq nümunələrini özünə daha inamlı bələdçi seçmişdir.

Gərdişin əlilə o gözəl yerlər
Cəhənnəmə dönmüş indi sərasər.

- deyə bəşər mədəniyyətinin ilkin möhtəşəm məşəllərini söndürənlərə, İraq torpağının şöhrət tağı Babilistanı viranə qoyanlara nifrətlə, Xaqani Şirvaninin dediklərini gözu ilə görməkdən ötrü o yerlərə getmiş, keçmişə səyahətə çıxıb Mədaində izini zamanın da büsbütün silməyə gücü çatmayan mədəniyyət-sənət möcüzələrinə bu günün gözü ilə baxmış, oxucunu heyrətləndirən hadisə və epizodlardan ürək ağrısı ilə söhbət açmışdır. Azərbaycan Sovet yazıçılarından İraqa ilk turist səfərinə çıxan R.Rza, B.Vahabzadə və bu sətirlərin müəl-

lifi Mədain xərabələri qarşısında eyni hisləri keçirmişdir. O zaman İraq torpağını gəzdikcə R.Rza Füzuli misralarından nümunələr deyir, sanki sənətkarın özünü öz həmvətənlərilə dərdləşdirirdi...

Bir yerdəyəm əsir ki, torpağı qan içər...

Dünya kədərli şair bircə misrada həm özünün qürbət nisgilini, həm də o yerlərdə gedən arası kəsilməz müharibələrin törətdiyi fəlakətləri aydınca bildirmişdir. Xaqanidən dörd əsr sonra deyilmiş bu sözlər bu gün də eyni həqiqəti ifadə edir- bu gün də İraq torpağı qan içir... Füzuli kədərinin üstünə ağlasığmaz dərdlər gəlir. Burada, yeri gəlmişkən, bir haşiyəyə çıxmaq istərdim. Q. Paşayevin qeyd etdiyi kimi, «şairin əbədi yuxuya getdiyi yerlər sökülmüşdür. Şairin nəşi Kərbəla Bələdiyyə İdarəsinin göstərişilə saxlanılır. Təəssüf ki, hər iki ölkəyə fəlakət, bədbəxtlik gətirən lüzumsuz İran-İraq müharibəsi... şairə abidə qoymağa imkan vermir». Bu yaxınlarda respublikanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyətində İraq konsulu ilə görüşümüz zamanı biz Azərbaycan-İraq əlaqələrindən danışanda «Altı il Dəclə-Fərat sahillərində» kitabındakı faktlara tez-tez müraciət edirdik. «Kommunist» qəzetinin redaktor müavini, tanınmış jurnalist R.Nağıyev söhbəti Füzuli məqbərəsinin bərpası üstünə gətirdi və Azərbaycan ziyalıları adından İraq hökuməti qarşısında ciddi tələblər irəli sürdü. Mən də çıxışımda dedim ki, vaxtilə məzarını həyəcanla ziyarət etdiyim ustad Füzuli təkcə Azərbaycan şairi deyil, həm də Şərqin poeziya dühalarındandır: onun ərəb mövzusunda qələmə aldığı «Leyli və Məcnun» dastanı, ərəb dilindəki böyük bədii irsi İraqın da başını uca edən ölməz nümunələrdəndir. Bəs iraqlılar, ölkənin rəsmi dairələri necə dözürlər ki, belə bir sənətkarın abidə-məqbərəsi bərpa edilməmiş qalıbdır? Konsul vəziyyəti yerində aydınlaşdırıb, Azərbaycan

ictimaiyyətini nigarançılıqdan qurtaracağına söz verdi. Q.Paşayev öz kitabında bu nigarançılığı hamımızın keçirdiyi duyğu kimi belə ifadə etmişdir: «İnsan arzu ilə yaşayır. İraqla bağlı bir arzum da qalıb. Altı il İmam Hüseyn məscidinin yanında şairin qəbri önündə səcdə qıldığım kimi, bir gün də Kərbəla və ya Hillədə Füzulinin abidəsi önündə baş əymək, səcdə qılmaq qismətim olaydı».

Sovet İttifaqı ilə, Azərbaycanla iqtisadi-mədəni əlaqələrin vəziyyəti və perspektivlərindən danışan müəllif Sovet-İraq dostluğunu şərtləndirən səmərəli əməkdaşlığın və köməyin konkret təzahürlərini rəqəmlərin dililə söyləyir və bütün bunların ölkədə əks-sədasını publisist və beynəlxalq icmalçı səriştəsilə şərh edir: «Yaxşı yadımdadır, elektrik lampaları zavodu işə düşəndə qəzetlər necə gözəl yazılar vermişdilər. «Bağdad observer» isə yazını maraqlı bir başlıqla dərc etmişdi: «Əlәddinin çırağı sehrini itirir».

Azərbaycanı təmsil edənlərə bütün obyektlərdə üstünlük verilməsini, xüsusən bizim universitet məzunlarının, tərcüməçilərin böyük hörmətə malik olmalarını müəllif milli iftixar duyğusu ilə bildirir. Bunun başlıca səbəblərindən biri kimi iraqlıların adət-ənənələrinə bizimkilərin həssas münasibətinin əhəmiyyətini ayrıca qeyd edir. Doğrudan da, başqa xalqın adətlərinə ehtiram yüksək mədəniyyət əlamətidir ki, bu, çoxlarına nəsib olmur. Nəticədə yüngül bir məsələnin həlli zamanı böyük rütbəli şəxsin belə qarşısına ciddi maneələr çıxır, yaxud əksinə, yerli əhalinin adətincə davranan hər hansı əməkdaşın müdaxiləsinə çətin bir problemin həlli asan başa gəlir. Qəzənfər müəllim ikinciləri təmsil edən «İqtisadi əlaqələr üzrə Dövlət Komitəsinin baş mütərcimi, gözəl insan və alim», hazırda Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun şöbə müdiri Tariyel Həsənovun nüfuzunu ürəkaçıqlığı ilə qeyd edib yazır: «Bütün təvazökar adamlara məxsus sadəlik, nəzakətlilik, haradasa bir az utancaqlıq və s. kimi keyfiyyətlər, eləcə də ərəb

dilini mükəmməl bilməsi onu hamının sevimlisi etmişdi». İraqda ilk musiqi məktəbinin, Bağdad balet-təhsil ocağının yaradılması Azərbaycan incəsənət xadimlərinin adı ilə bağlıdır ki, kitabda SSRİ xalq artisti Qəmər Almaszadə və digər incəsənət xadimlərinin fəaliyyəti layiqincə qiymətləndirilmişdir.

Tipoloji qarşılaşdırma və müqayisə üsulilə hadisə və faktlar, ələlxüsus qədimlərdənqalma, həmçinin müasir dövrün doğurduğu adətlər, vərdişlər təhlil süzgəcindən keçirilib mütərəqqi və mürtəce cəhətləri obyektiv qiymətləndirilir, ibrətamiz nəticələr çıxarılır. Elmi-texniki tərəqqinin bəhrəsi olan pozitiv və neqativ halların qanunauyğun bir proses kimi Şərqdə də özünü göstərməsinə münasibət təcrübi-tərbiyəvi əhəmiyyət daşıyır. Yeri gəldikcə «bizdə» və «onlarda» müqayisələri verilən təsəvvürü əyaniləşdirir. «Bağdadı gəzdikcə dərindən duyuram ki, heç bir məlumat şəxsi müşahidəni əvəz edə bilməz. Burada xoşuma gələn məsələlər çox oldu. Onlardan biri də məişət avadanlığı, mebellə əlaqədardır. Müştərinin hər hansı bir mebeldən xoşu gəlirsə, müqavilə bağlanır... Əgər sifariş vaxtında yerinə yetirilməsə, usta sifarişçiyə gecikdirilən hər gün üçün cərimə verir. Bununla belə, Bağdadda məni mat qoyan məsələlər də oldu. Burada qışda evləri və idarələri neft lampaları ilə qızdırırlar. Sobalardan gələn iydən adamın başı ağrıyır... Bu qədər nefti və qazı olan ölkənin paytaxtının belə qazlaşdırılmadığını, görəndə istər-istəməz doğma yerlər göz qabağına gəlirdi. Qürur hissilə doğma kəndim Düzqırıxlını xatırlayırdım. 1970-ci illərdən Tovuz rayonunda bütün kəndlər qazlaşdırılıb. O cümlədən də mənim kəndim».

Beynəlxalq ədəbi əlaqə ilə müntəzəm məşğul olan və faydalı işlər görən mütəxəssislərimiz çox deyilsə də, vardır. Onların sırasında Q.Paşayev yorulmaz işgüzarlığı və əvəzsiz xidmətləri ilə seçilir. O, bu vacib sahəni dirçəltmək, Azərbaycan ədəbiyyatının xarici ölkələrlə təkcə ərəb dünyası ilə yox, onun Amerikaya ezamiyyətinin bəhrəsi olan tədqiqatları da

diqqəti cəlb edir, qarşılıqlı əlaqəsini genişləndirmək məqsədilə ancaq kitab mübadiləsi və yazışmaları kifayət bilmir. Üzə çıxardığı faktlar, sənədlər əsasında ciddi elmi yaradıcılıq və sənətşünaslıq işi aparır. «Kərkük dialektinin fonetikası» mövzusundakı dissertasiyasını, «Kərkük tapmacaları», «Kərkük atalar sözləri»ni, Bağdadda çap etdirdiyi «Rusca-ərəbcə danışıq vəsaiti»ni, məqalələrini, nəhayət, bu fəaliyyətin ən mükəmməl məhsulu olan «Altı il Dəclə-Fərat sahillərində» adlı kitabını misal göstərmək olar. Ömrün belə bir fəaliyyətdə əbədiləşən altı ili, ilk növbədə öz xalqının zəngin və qədim mədəniyyətini, müqtədir keçmişini, dövlət quruluşu və diplomatiya sahəsindəki təcrübəsini tipoloji aspektdə öyrənib üzə çıxarmağa həsr edilmişdir. Müəllifin istinad etdiyi mənbələrdən aydınlaşır ki, hələ 1045-ci ildə Azərbaycandan xeyli əhali Əbu Mansur Gökdaşın başçılığı ilə İraqa köçüb burada məskən salmışdır. Atabəylərin hakimiyyəti və Teymurləngin istilaları zamanı tarixi zərurət üzündən bu proses davam etmişdir. Qarabağ və Ərəşdən buraya kütləvi axın olmuşdur. Uzun Həsənin dövründə Azərbaycanın bütün torpaqları, Ərəb İraqı, İran İraqı, fars və Xorasan sərhədlərinə qədər ərazi onun tabeçiliyindəymiş. Ölkənin paytaxtı yayda Təbriz, qışda Bağdad imiş. İraq Azərbaycandan ayrılandan sonra oradakı azərbaycanlılar geri qayıtmağa təşəbbüs göstərmişlər. Hətta Mirzə Camalın «Qarabağ tarixi»ndə deyildiyi kimi, Pənah xan əslini-kökünü saxlayan qarabağlıları qarşılamaq üçün İraq sərhədlərinədək getmiş, lakin bu, nəticə verməmişdir. Qarabağ ellərindən gedənlər qayıda bilməmiş, ara kəsilmişdir. Orada bu gün də məşhur «Qarabağı» havalarının həsrət melodiyası ağızlarda, qulaqlardadır.

Əslim qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.
Kəsilib gəlib-gedən,
Demə yollar bağlıdı.

Hər aylar,
Keçər günlər, hər aylar.
Qul qardaşım Bağdaddan
Gəncə deyib haraylar.

Tarixin yaddaşı belə deyir. Q.Paşayev orta əsr İraq-Azərbaycan əlaqələrinin izlərini hər iki ölkənin folklor materiallarında–dastan, mahnı və bayatılarında diqqətli tədqiqatın səriştəsi ilə bir daha təsdiq edir. Ya eyniylə, ya da cüzi söz dəyişikliyi ilə Kərkük və Azərbaycan bayatılarının bir mənşəli xalqın yaradıcılıq fəaliyyəti olduğuna dair faktlar gətirir. Qarış-qarış gəzdiyi Kərkük mahalındakı bizimlə müştərək kənd, şəhər adlarının belə (Ağdam, Ağdaş, Ağsu, Boyat, Qaraqoyunlu, Qaradağ, Yəyçi, Üçtəpə, Şirvan, Çardaqlı və s.) şahidliyə çağırır. Müəllif öz müşahidə və tədqiqlərini təsdiq üçün Əta Tərzibaşı başda olmaqla türkman alimlərinin, professor Fuad Köprülü və digər türk ədəbiyyatşünaslarının, akademik H.Araslı, prof. Ə.Dəmirçizadə, H.Mirzəzadə, M.H.Təhmasib və b. mülahizələrinə istinad edir. Hətta professor Hadi Mirzəzadənin bir tədqiqatı «İraq ərazisində yaşayan azərbaycanlıların dili haqqında bəzi mülahizələr» adlanır. Tarixin amansız hökmü ilə bir-birindən aralı düşmüş «əkiz qardaşların» doğmalığını, Nəsiminin, Füzulinin nəvə-nəticələri olduğunu – gün kimi aydın həqiqətləri yenidən iqrara çalışmaq səyinin özü müəllifin milli mənliyinə toxunur. O, zamanın ədalətsizliyinə üsyan duyğusu ilə yazır: «İstər-istəməz fikirləşirsən ki, yoxsa bir vaxt da Arazın o tayında yaşayan qardaş-bacılarımızın azərbaycanca danışdıqlarını, Şəhriyarın hansı bulaqdan su içib «Heydərbabaya salam» adlı şah əsərini kimin üçün yazıb-yaratdığını təsdiqə çalışacağıq?!»

Əsrlərcə milli məktəbdən, mətbuatdan məhrum bir xalqın– İraq azərbaycanlılarının öz dilində zəngin folklora, xalq yaradıcılığı nümunələrinə, şeirə, milli musiqiyə necə nail olduğu heyrət doğurur. Bunun sirrini müəllif kərküklülərin öz doğma ana dilini göz bəbəyi kimi qorumaq qeyrətində görür: «İraqda ziyalı və qeyri-ziyalı bir çox ailələrdə, böyük və kiçik məclislərdə oldum. Lakin heç bir yerdə başqa dildə danışan kərküklüyə rast gəlmədim. Ana dilinə olan münasibət, dərin məhəbbət özünü bariz şəkildə göstərirdi».

İyirmi beş il əvvəl R.Rza, B.Vahabzadə və mən kərküklülərlə qısa müddətli görüşümüzdə bunun şahidi olmuşduq. Onlar, həqiqətən də, milli dildə təhsil almaq, öz mənşələrinə aid bədii sərvətlərindən ibarət kitablar nəşr etdirmək təşnəsidirlər. Qəzənfər müəllimin xatirələrini oxuduqca küçədə, meydanlarda, müəssisələrdə rastlaşdığımız kərküklülərin bizimlə necə yaxın və səmimi qohum istiqanlılığı nümayiş etdirdiklərini xatırlayıram. Kərkük mehmanxanasında B.Vahabzadə ilə bir otaqda qalırdıq. Gündüz kitab mağazasında rastlaşdığımız ziyalılardan Məhəmməd Xurşud və Həsən İzzətlə gecədən xeyli keçənə qədər söhbət etdik. Səhərisi yuxudan ayılar-ayılmaz onların dəhlizdə bizi gözlədiklərini gördük. Hər üçümüz üçün üçcildlik «Kərkük xoyratları və maniləri» məcmuəsini, müasir şairlərin şeir toplularından nümunələr gətirmişdilər. Sonra türkman və ərəb dilində o zaman nəşr olunan ***«Bəşir» qəzetinin bütün nüsxələrini ünvanımıza göndərdilər****. Həmin ziyalıların Qəzənfər müəllimlə də görüşüb dostlaşmalarını onun xatirələrində maraqla oxudum.

Q.Paşayevin Kərkük ədəbi mühitilə bilavasitə təmasına, ayrı-ayrı görkəmli şəxslərlə məktublaşmasına, müasir Azərbaycan ədəbiyyatını onların rəsmi və qeyri-rəsmi məclislərində, mətbuatında təbliğ etməsinə dair faktlar kitabın «Füzulinin nəvə-nəticələri arasında» fəslində öz geniş əksini tapmışdır. Sinan Səid, Əbdüllətif Bəndəroğlu, Xeyrulla Kazım kimi Azərbaycan ədəbiyyatını İraqda yayıb, ona dərin maraq və məhəbbət oyadan qançəkər qardaşlarımızın işgüzar fəaliyyəti konkret dəlillər əsasında işıqlandırılmış, onlarla səmimi dostluq münasibətlərinin bəhrəsindən danışılmışdır. Belə yaxın əməkdaşlığın, axtarışların nəticəsində Q. Paşayev Kərkükün Tuz Xurmatı qəza mərkəzində Nəsiminin böyük

* Sonralar şairin oğlu Nəriman Qasımzadə «Bəşir» qəzetinin işıq üzü görmüş bütün saylarını bizə hədiyyə etdi. Onlar Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyində, bizim arxivdə saxlanılır - Q.P.

həcmli divanını əldə etmiş, şairin indiyədək on bir naməlum şeirini üzə çıxarmış, onlarca mübahisəli şeirinə isə fikir aydınlığı gətirmişdir. O, özünün bu mühüm xidmətini «tək əldən səs çıxmaz» deyə kifayət hesab etmir və inamla yazır ki, tədqiqatçılarımız İraqda yaşayan azərbaycanlıların keçmişi ilə ciddi məşğul olsalar, Azərbaycan tarixi, Azərbaycan mədəniyyəti, Azərbaycan ədəbi dili tarixi, Azərbaycan ədəbiyyatının indiyə qədər qaranlıq qalan bir sıra məsələləri aydınlaşa bilər.

Qəzənfər müəllim bu kitabı yazarkən İraq haqqındakı zəngin mənbələrdən bəhrələndiyini qeyd etmişdir. O, yeri gəldikcə bunlara öz münasibətini də bildirir, müəlliflərlə mübahisəyə də girişir, öz haqlı iddiaları ilə yanlış faktları, mülahizələri təkzib edir.

Kitab «Göl ərəbləri» fəsli ilə – öz adət-ənənəsi, yaşayış tərzi baxımından seçilən bir qəbilənin həyatına aid əhvalatlarla – «Kor Həlimə» rəvayətinin son cümləsilə bitir. Bundan əvvəlki fəsil isə «İraq bizə iraq deyil» adlanır. Əvvəla, kompozisiya və fikir ardıcıllığına, məntiqinə görə gərək bu fəsillərin yeri dəyişik olaydı, ikincisi də maraqlı məsələlər, faktlar, mülahizələr və problemlərlə zəngin olan bir kitaba yekun xarakterli bir neçə söz yazmaq zəruri idi.

A.Vəfalının müqəddiməsində deyildiyi kimi, İraqı bizə yaxın edən bu kitabı, necə deyərlər, birnəfəsə su kimi içdim. Ona görə ki, burada tarixi, ədəbi-sosioloji, etik-mənəvi problemlərə dair bir-birindən ötgün faktlar, epizodlar o dərəcədə cəzbedicidir ki, son cümləni oxuyub qurtarmayınca kitabı əlindən yerə qoymaq istəmirsən. Onun hər fəsli müstəqil fikir aşılamaqdan əlavə, assosiasiya oyadan xüsusiyyətlərə də malikdir. Bu mənada mənim üçün həmin kitabın əhəmiyyəti əlahiddədir. Birincisi, ona görə ki, vaxtilə qısa müddətli İraq-Kərkük səfəri zamanı Füzuli məqbərəsini ziyarətdən aldığım əsrarəngiz təəssürat (bu barədə 1960-cı ildə silsilə məqaləylə mətbuatda çıxış etmişəm) nəzərimdə yenidən canlandı. İkincisi və məni daha

dərindən mütəəssir edən-sovet mütəxəssisləri cərgəsində oğlum Fəxrəddinin dörd il həmin ölkənin bu gün də davam edən ən ağır vaxtlarında Dəclə-Fərat-Şəttül-Ərəb sahillərində, Bəsrə və Bağdadda vahiməli təyyarə uğultuları, bomba gurultuları altında keçən həyat və fəaliyyətilə bağlıdır. Qulluq müddətini bitirib vətənə fəxri fərmanlarla qayıdan azərbaycanlı ərəbşünas bir gəncin İraq haqqında, əhalisinin güzəranı barədə, ərəb dostları, kərküklü qardaşlarına dair söylədiklərindən, oradan yazdığı, əvəzsiz yadigar kimi saxladığım məktublarından aldığım, indi qəhərə çevrilmiş təsəvvürü bu kitab bir daha təzələdi, qəlbimdəki yatmaz tufanı yenidən təlatümə gətirdi, yarı yola çatmadan qırılan bir ömrün o bəxtəvər illərini yaşadım. Bütün bunlara görə – oxucu qəlbini, fikrini nəcib duyğularla, dəyərli məlumatlarla zənginləşdirdiyinə görə çox sağ ol qardaşım!

Qasım Qasımzadə

MÜƏLLİF HAQQINDA

Paşayev Qəzənfər Məhəmməd oğlu – ədəbiyyatşünas, publisist, dilçi, folklorşünas və tərcüməçi, filologiya elmləri doktoru (1993), professor (1995) 27 avqust 1937-ci ildə Tovuz rayonunun Düzqırıqlı kəndində anadan olmuşdur. Orta təhsili Düzqırıqlı kəndində alıb (1946–1956). Azərbaycan Dillər İnstitutunun İngilis-Azərbaycan dilləri fakültəsini bitirmişdir (1962). İxtisası İngilis və Azərbaycan dilləri müəllimidir. 1989-cu ildən Yazıçılar Birliyinin üzvüdür. Fəaliyyətə Əli Bayramlı rayonunun Vladimirovka kəndində ingilis dili müəllimi kimi başlamış (sentyabr-noyabr, 1962-ci il), sonra isə İraqda ingilis və rus dilləri üzrə tərcüməçi işləmişdir.

1964–1989-cu illərdə Azərbaycan Pedaqoji Dillər İnstitutunda (1973-cü ildən M.F.Axundov adına APİ) fəaliyyət göstərmiş, institutun İngilis dili fakültəsində dosent, dekan müavini (1970–1971), Xarici dillər kafedrasının müdiri (1972–1989) olmuşdur. 1989–1999-cu illərdə ADU-nun Qərbi Avropa dilləri kafedrasında çalışmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyində «Beynəlxalq əlaqələr» şöbəsinin müdiri olmuş (2001–2005), eyni zamanda 2003-cü ildən Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçidir.

Rəsmi nümayəndə heyəti tərkibində Füzulinin anadan olmasının 500 illik yubileyi münasibətilə İraqda (sentyabr, 1994) və Türkiyədə (noyabr, 1994), Azərbaycan mədəniyyəti günlərində Səudiyyə Ərəbistanında (noyabr, 2007) və İ.Nəsimi ilə bağlı Beynəlxalq konfransda Suriyada (noyabr, 2008) olub.

İctimai işlərdə fəal iştirak etmişdir: Ali Təhsil Nazirliyinin nəzdində Qərbi Avropa dilləri üzrə Elmi-Metodik Şuranın Elmi katibi (1976–1982), Azərbaycan–İraq Dostluq Cəmiyyətinin sədr müavini olmuş (1990–2003), 1995-ci ildən Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Müdafiə

Şurasının üzvüdür. 1997–2006-cı illər arası və 2011-ci ildən yenidən həmin şuranın həmsədridir. Qafqaz Müsəlmanları İdarəsinin nəzdində fəaliyyət göstərən Elmi-Dini Şuranın yarandığı 1997-ci ildən bu günə kimi onun üzvüdür. 2004-cü ildən Yazıçılar Birliyinin Təftiş Komissiyasının sədridir.

Bir çox xarici ölkələrdə: ABŞ (iyun-avqust, 1983) və İngiltərədə (iyun-iyul, 1988) ixtisasartırma kurslarında olub. İraq Respublikasında tərcüməçi işləyib (1962–1966, 1972–1975). Türkiyə, Səudiyyə Ərəbistanı, Suriya və keçmiş Sovetlər Birliyi ölkələrindən Rusiya Federasiyasında, Özbəkistan və Qazaxıstanda elmi konfranslarda məruzə edib. Turist kimi Yunanıstan, İordaniya, Çexoslovakiya, Avstriya, Almaniya, Misir, Ərəb əmirlikləri və İranda olub.

İraq Respublikasının «Əməkdə fərqlənməyə görə» medalı ilə təltif edilib (1976).

SSRİ Nazirlər Sovetinin, SSRİ Ali Təhsil Nazirliyinin, Azərbaycan Ali Təhsil Nazirliyinin Fəxri fərmanları ilə təltif olunub. Eləcə də Kərkük Vəqfinin (1999) və İraq–Türkman Cəbhəsinin (2003) yüksək diplom və ödüllərinə layiq görülüb.

Bir çox doktorluq və namizədlik dissertasiyaları üzrə opponent, eləcə də kitabların redaktoru olub. Aspirantlara rəhbərlik edib. ABŞ, Türkiyə və İraqda ingilis, türk və ərəb dillərində, məqalələri dərc edilib. «Ədəbiyyat» və «Kredo» qəzetlərinin, «Folklor və etnoqrafiya», «Filologiya məsələləri» və «Kəlam» dərgilərinin redaksiya heyətinin üzvüdür.

Yaradıcılığına xaricdə və Azərbaycanda bir çox görkəmli alimlər, yazıçı, şair və publisistlər məqalələr həsr ediblər. Müəllifin özü görkəmli Azərbaycan, türk, İraq, fransız, ingilis və amerikan yazıçı və şairlərinə, elm adamlarına çoxsaylı məqalələr həsr etmişdir. Maraq doğuran cəhət bir də ondan ibarətdir ki, bu məqalələr Azərbaycan, türk, ingilis, ərəb, rus dillərində Azərbaycan, Türkiyə, İraq və ABŞ-da çap olunmuşdur.

Müəllifin çap olunmuş əsərləri

1. Rusca-ərəbcə danışıq kitabı. Bağdad, 1974, 98 səh., 3.000 nüsxə.

2. İngiltərə haqqında (ingiliscə Ölkəşünaslıq fənni üzrə dərs vəsaiti). Bakı, APİ nəşr, 1982, 128 səh., 1.500 nüsxə.

3. Altı il Dəclə-Fərat sahillərində. Bakı, «Yazıçı» nəşr, 1985, 224 səh., 10.000 nüsxə, təkrar nəşr 1987, 230 səh., 120.000 nüsxə. Altı il Dəclə-Fərat sahillərində (ərəbcə), Bağdad, 1996, 128 səh.

4. İraq–Türkman folkloru (monoqrafiya). Bakı, «Yazıçı», 1992, 216 səh., 5000 nüsxə. İraq–Türkman folkloru. Bağdad, 1995, 160 səh.

5. Kərkük dialektinin fonetikası (monoqrafiya). Bakı, «Elm», 2003, 212 səh., 500 nüsxə.

6. İraq–Türkman folklorunun janrlar sistemi. (Rusca monoqrafiya) Bakı nəşr, 2003, 128 səh., 500 nüsxə.

7. Kərkük folklorunun janrları (monoqrafiya). Bakı, «Elm», 2003, 318 səh., 500 nüsxə. İraq–Türkman folkloru. İstanbul, 1998, 320 səh., 3000 nüsxə. İraq–Türkman folklorunun janrları. Tehran, 2008, 313 səh., 3000 nüsxə.

8. İraq–Türkman ləhcəsi. Monoqrafiya (ortaqlı), Bakı, «Elm», 2004, 422 səh., 500 nüsxə.

9. Nostradamusun möcüzəli aləmi. Bakı, «Təhsil», 2007, 760 səh., 3000 nüsxə, təkrar nəşr, 2011, 3.000 nüsxə.

10. Nəsimi haqqında araşdırmalar (monoqrafiya). Bakı, «Qarabağ» nəşr, 2010, 168 səh., 400 nüsxə. Nəsimi haqqında araşdırmalar. Tehran, «ALP» yayın, 2011, 168 səh., 300 nüsxə.

11. Ədəbiyyatşünaslıq elmimizin patriarxı. Bakı, «Ozan», 2010, 104 səh., 250 nüsxə.

12. Borcumuzdur bu ehtiram. Bakı, «Ozan», 2010, 200 səh., 300 nüsxə, təkmilləşdirilmiş 2-ci nəşri, 2010, 240 səh. 300 nüsxə.

13. Dilimiz – varlığımız. Bakı, «Ozan», 2011, 208 səh., 250 nüsxə.

Müəllifin tərtib etdiyi kitabların göstəricisi

1. «Kərkük bayatıları». Bakı, «Azərnəşr», 1968, (Rəsul Rza ilə birgə), 184 s., 18.000 nüsxə.

2. «Arzu-Qənbər dastanı». Bakı, «Gənclik», 1971, 32 s., 5.000 nüsxə.

3. Kərkük mahnıları. Bakı, «Gənclik», 1973, 48 s., 10.000 nüsxə.

4. İraq-Kərkük atalar sözləri. Bakı, «Azərnəşr», 1978, 76 s., 25.000 nüsxə.

5. İraq-Kərkük bayatıları. Bakı, «Yazıçı», 1984, 352 s., 30.000 nüsxə.

6. Kərkük tapmacaları. Bakı, «Gənclik», 1984, 38 s., 5.000 nüsxə.

7. Nəsiminin İraq Divanı. Bakı, «Yazıçı», 1987, 337 s., 15.000 nüsxə.

8. Kərkük folkloru antologiyası. Bakı, «Azərnəşr», 368 s., 40.000 nüsxə, təkrar nəşr, 1990, 368 s., 40.000 nüsxə.

9. Göylər unutmuşdu yağacağını (Ə.Bəndəroğlunun şeirləri və poemaları). Bakı, «Yazıçı», 1991, 126 s., 5.000 nüsxə.

10. Azərbaycan folkloru antologiyası. İraq–Türkman cildi (Ə.Bəndəroğlu ilə birgə), Bakı, «Ağrıdağ», 1999, 468 s., 1.000 nüsxə, təkrar nəşr, «Nurlan», 2009, 436 səh., 500 nüsxə.

11. Çağdaş İraq şeirindən seçmələr. Bakı, «Elm», 2001 (Ə.Bəndəroğlu ilə birgə) 108 s., 500 nüsxə.

12. Yolun sonunadək (Ə.Bəndəroğlunun şeirlər toplusu), Bakı, «Elm», 2001, 62 s., 300 nüsxə.

13. Hüseyn Arif –80. Portret kitab. Bakınəşr, 2004, 64 s., 400 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

14. İsi Məlikzadə–70. Portret kitab. Bakınəşr, 2004, 32 s., 150 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

15. Tofiq Bayram–70. Portret kitab. Bakınəşr, 2005, 72 s., 150 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

16. Əlibala Hacızadə–70. Portret kitab. Bakınəşr, 2005, 72 s., 400 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

17. Fikrət Qoca–70. Portret kitab. Bakınəşr, 2005, 82 s., 300 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

18. Bəkir Nəbiyev–75. Portret kitab. Bakınəşr, 2005, 68 s., 400 nüsxə. (Gülzar İbrahim qızı ilə birgə)

19. Ağlayan çox, gülən hanı? (Rəsul Rzanın şeirlər toplusu), Kərkük, «Arabka» basım evi, 2007, 182 s., 500 nüsxə.

20. «Mahmud və Məryəm». Sənət dünyası adlı məqaləsində (Elçinin romanı), Kərkük, «Yurd» yayımlarından, 2007, 215 s., 500 nüsxə. (Ə.Bəndəroğlu ilə birgə)

21. Qoca Azaflıyam (Azaflı Mikayılın şeirlər toplusu). Bakı, «Nurlan», 2008, 760 s., 1000 nüsxə (Maral Azaflı ilə birgə), təkrar nəşr, 2011, 500 nüsxə

Tərcümələri

1. Aleksandr Düma. Qafqaz səfəri (ingilis və fransız dillərindən tərcümə. Bakı, «Yazıçı», 1985, 140 s., 40.000 nüsxə (Həmid Abbasovla birgə)

2. Sula Benet. Necə yaşayasan yüzü haqlayasan. Bakı, «Yazıçı», 1989, 212 s., 25.000 nüsxə (ingilis dilindən tərcümə)


3. Aqata Kristi. Mavi qatarın sirri. Bakı, «Sabah» nəşriyyatı, 1995, 248 s., 2.500 nüsxə (ingilis dilindən tərcümə)


4. Prof. İrəc Parsinecad. M.F.Axundzadənin ədəbi-tənqidi. (İngilis dilindən tərcümə). «Ədəbiyyat qəzeti», 23.12.1994, 6.01.1995, 13.01.1995


Müəllif haqqında əsərlər

Q.Paşayevin həyat və fəaliyyətindən bəhs edən «Bu sevda ölüncədi» (Bakı, «Oskar», 2001, 1000 nüsxə), «İraq bizə iraq deyil» (Bakınəşr, 2002, 64 s., 1000 nüsxə) kitabları, Hüseyn Kürdoğlunun «Tovuzum mənim, oğuzum mənim» (Bakı, «Elm», 1998, 108 s., 1000 nüsxə) poeması çap olunmuşdur.

PROFESSOR QƏZƏNFƏR PAŞAYEVİN ÇAP ETDİRDİYİ ƏSƏRLƏRİN ÜZ QABIĞI TARİXİ ARDICILLIQLA TƏQDİM OLUNUR







Каркук
маҗаралары



Дузы-Гамбар


Каркук маннылары


РАЗГОВОРНИК
РУССКО
АРАБСКИЙ



ИРАГ-
КӘРКҮК
АТАЛАР
СҮЗЛӘРИ



Gazanfar Pashayev
ALL ABOUT
ENGLAND


КӘРКҮК ТАПМАЧАЛАРЫ



ИРАГ-
КӘРКҮК
БАЙАТЫЛАРЫ



АЛЕКСАНДР ДУМА
Гафгаз
сәфәри



Имадəддин
НƏСИМИ
Ираг диваны


Кəркүк
фолклору
антолокијасы



Сула Бенон
Нечə јашајасан
јүзү һаглајасан


КӨЈЛӘР
УНУТМУШДУ
ЈАГАЧАГЫНЫ
ӘБДУЛЛӘТИФ
БӘНДӘРОГЛУ


ГӘЗӘНФӘР
ПАШАЈЕВ
ИРАГ-ТҮРКМАН
ФОЛКЛОРУ



عراق
تورکمان
فولکلورو
پروفیسور دوکتور
غضنفر پاشایف
حاضرلایان ونون سوز
دوکتور عبد اللطیف بندر اوغلو



Агата
Кристи
МАВИ
ГАТАРЫН
СИРРИ



من أدب الرحلات
ست سنوات
على ضفاف دجلة والفرات
البروفيسور غضنفر باشاييف
ترجمة
الدكتور عبداللطيف بندر اوغلو


Prof. Dr.
Gazenfer
Paşayev
IRAK
TÜRKMEN
FOLKLORU
Kerkük Vakfı



Азәрбајҹан
ФОЛКЛОРУ
АНТОЛОКИЈАСЫ
II
ИРАГ-ТҮРКМАН
ЧИЛДИ
БАКЫ – 1999


ÇAĞDAŞ
İRAQ
ŞERİNDƏN
SEÇMƏLƏR



Bu sevda
ölüncədi



ГАЗАНФАР ПАШАЕВ
ЖАНРОВЫЙ
СОСТАВ
ИРАКСКО -
ТЮРКМАНСКОГО
ФОЛЬКЛОРА



Qəzənfər
PAŞAYEV
KƏRKÜK
FOLKLORUNUN
JANRLARI



QƏZƏNFƏR PAŞAYEV
KƏRKÜK
DİALEKTİNİN
FONETİKASI



İRAQ-TÜRKMAN
LƏHCƏSİ



HÜSEYN
ARİF
80



İSİ MƏLİKZADƏ
70


AKADEMİK
BƏKİR
NƏBİYEV
75



TOFİQ
BAYRAM
70



FİKRƏT QOCA
70
AYB



ƏLİBALA
HACIZADƏ
70
AMEA



QƏZƏNFƏR
PAŞAYEV
NOSTRADAMUSUN
MÖCÜZƏLİ
ALƏMİ


QOCA AZAFLIYAM...



RƏSUL RZA
AĞLAYAN ÇOX,
GÜLƏN HANI?



MAHMUT
VƏ
MƏRYƏM
ELÇİN
Yurt
Dərgisi yayınlarından


Qəzənfər
PAŞAYEV
KƏRKÜK
FOLKLORUNUN
JANRLARI
Tehran 2008


Qəzənfər
Paşayev
Nəsimi
haqqında
araşdırmalar


Qəzənfər Paşayev
Borcumuzdur
bu ehtiram


QƏZƏNFƏR
PAŞAYEV
ƏDƏBİYYATŞÜNASLIQ
ELMİMİZİN PATRİARXI


Qəzənfər Paşayev
DİLİMİZ -
VARLIĞIMIZ

MÜNDƏRİCAT

Müəllifdən 5
İRAQ–TÜRKMAN FOLKLORU
Şah əsər (Əbdüllətif Bəndəroğlu) 9
Giriş 11
I FƏSİL
İnamım mənim, həyatım mənim.....17
Arxaik janrlar 18
İnanclar 18
Yemindlər 31
Dualar və bəddualar 33
Bəddualar 38
Fallar 45
II FƏSİL
Xalq mərasim və nəğmələri 49
Dini bayram və nəğmələri 59
Məişət mərasim və nəğmələri 61
Yas mərasim və nəğmələri 61
Toy mərasim və nəğmələri 68
III FƏSİL
Lirik növ 80

Xoyratlar və manilər 81
Xalq havaları 121
Xoyrat havaları 123
Xalq mahnıları 134
Aşıq havaları 146
Beşik nəğmələri 151
Bayatı-tapmacalar 156
IV FƏSİL
Epik növ 162
Dastanlar 163
Arzu–Qəmbər dastanı 168
Nağıllar 179
Heyvanlar haqqında nağıllar 184
Sehrli nağıllar 188
Tarixi nağıllar 198
Ailə-məişət nağılları 205
Atalar sözləri və məsəllər 214
Tapmacalar 248
Lətifələr 262
Son söz əvəzi 285
Qaynaqlar 286
ALTI İL DƏCLƏ–FƏRAT SAHİLLƏRİNDƏ
İraq necə yaxın olur.....301
Eşqimi tərifləyib heç kəsi aldatmıram 304
Bağ yeri Bağdad 308
Bağdad bu gün 312
İraqın bu günündən etüdlər 324
Xurma bağları 330
Bayramlar, yeməklər 332
Ürəyi yanan gəl bəri 335
Bir az da təhsildən 338
Mədəniyyət mərkəzi şəhərləri 341

Füzulinin nəvə-nəticələri arasında 356
Adətim mənim, həyatım mənim 410
Ailə, nikah, toy adətlərindən 425
Böyük günah, kiçik günah 431
Kababçı Mustafa 436
Adəm-Həvva nişanəsi 438
Tovuz quşuna sitayiş 439
İnamlar 440
Əsrlərin izləri var bu yerdə 454
Dost-dosta tən gərək 460
Sərvət xalqın əlində olanda 466
Hər problemin arxasında qadın durur 471
Xitabət kürsüsü 476
Dostlar sevinəndə sevinir, kədərlənəndə kədərlənirdik.....477
Şayba - şaabi 478
Göl ərəbləri 480
Adət bənzərsiz, həyat bənzərsiz 488
Xəncəri sıyırıb yemək yedirdirlər 494
Qılıncları parıldayır, amma kəsmir 497
Adam öldürmək cinayət yox, borc imiş 498
Nikah 502
Qoşulub qaçmaq 503
Əfsanəyə bənzər həqiqətlər 506
On ildən sonra 515
Vətən həsrəti, övlad dərdi 523
İraq bizə iraq deyil 528
Ömrün əbədiləşən illəri 537
Müəllif haqqında 548
Müəllifin çap olunmuş əsərləri.....550
Müəllifin tərtib etdiyi kitabların göstəricisi 551
Tərcümələri 552
Müəllif haqqında əsərlər 552

Qəzənfər Paşayev
SEÇİLMİŞ ƏSƏRLƏRİ
I CİLD
Bakı, «Təhsil», 2012.

Bədii və texniki redaktoru: ***Abdulla Ələkbərov***
Kompyuter tərtibatçıları: ***Aqil Əmrahov, Mələk Cəlilova***
Korrektoru: ***Natəvan Məmmədova***

Çapa imzalanmışdır 16.01.2012. Kağız formatı 60x90 $^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 35,5. Sifariş 120. Tiraj 300.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 121^{A}
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: info@tahsilnp.com